# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**“Şərtlər toplusunun nümunəvi forması”nın təsdiq edilməsi haqqında**

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.10-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “İşlərin açıq tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması” təsdiq edilsin (1 nömrəli əlavə).
2. “Malların açıq tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması” təsdiq edilsin (2 nömrəli əlavə).
3. “Xidmətlərin açıq tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması” təsdiq edilsin (3 nömrəli əlavə).
4. “Satınalma predmetinin ikimərhələli tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması” təsdiq edilsin (4 nömrəli əlavə).
5. “İşlərin qapalı tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması” təsdiq edilsin (5 nömrəli əlavə).
6. “Malların qapalı tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması” təsdiq edilsin (6 nömrəli əlavə).
7. “Xidmətlərin qapalı tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması” təsdiq edilsin (7 nömrəli əlavə).
8. “İşlərin kotirovka sorğusu metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması” təsdiq edilsin (8 nömrəli əlavə).
9. “Malların kotirovka sorğusu metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması” təsdiq edilsin (9 nömrəli əlavə).

10. “Xidmətlərin kotirovka sorğusu metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması” təsdiq edilsin (10 nömrəli əlavə).

11. “Satınalma predmetinin bir mənbədən satın alınması üçün şərtlər toplusunun nümunəvi forması” təsdiq edilsin (11 nömrəli əlavə).

12. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 dekabr 2023-cü il

№ 503

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 30 dekabr tarixli 503 nömrəli
Qərarı ilə **təsdiq edilmişdir.**

**1 nömrəli əlavə**

## (satınalma predmetini daxil edin)

---

*işlərinin*

AÇIQ TENDER METODU

ilə satın alınması üçün

# ŞƏRTLƏR TOPLUSU

SATINALAN TƏŞKİLAT: **(satınalan təşkilatın adını daxil edin)**

ELAN TARİXİ: **(elan tarixini daxil edin)**

**MÜNDƏRİCAT**

(A) SATINALMA PROSEDURLARI


**I BÖLMƏ. TƏCHİZATÇILARA TƏLİMATLAR** ... 3
A. Ümumi ... 3
1. Satınalma haqqında ... 3
2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar ... 3
3. Təchizatçıların münasibliyi ... 3
4. Malların və əlaqədar xidmətlərin münasibliyi ... 5
5. Satınalmada istifadə və iştirak haqqı ... 6
B. Şərtlər toplusunun məzmunu ... 6
6. Şərtlər toplusunun tamlığı ... 6
7. Şərtlər toplusuna dair izahat, sahəyə baxış və təklifqabağı görüş ... 7
8. Şərtlər toplusunda dəyişikliklərin edilməsi ... 8
C. Təkliflərin hazırlanması ... 8
9. Satınalma xərcləri ... 8
10. Təklifin tərtib olunmasının dili ... 8
11. Təklifə daxil olan sənədlər ... 9
12. Təklif məktubu və cədvəllər ... 9
13. Alternativ təklif ... 10
14. Satınalma predmetinin bölünməsi ... 10
15. Təklifin qiyməti ... 10
16. Təklifin və ödənişin məzənnəsi ... 11
17. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif) ... 11
18. Uyğunluq sənədləri ... 11
19. Təklifin qüvvədə olma müddəti ... 12
20. Təklifin təminatı ... 12
21. Təklifin formatı və imzalanması ... 13
D. Təkliflərin təqdim olunması və açılması ... 14
22. Təkliflərin təqdim edilməsinin son müddəti ... 14
23. Gecikmiş təkliflər ... 14
24. Təkliflərin geri götürülməsi və ya dəyişdirilməsi ... 14
25. Təkliflərin açılması ... 14
E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi ... 14
26. Məxfilik (konfidensiallıq) ... 14
27. Təkliflərə dair izahat ... 15
28. Formal tələblərə uyğunluğun müəyyən edilməsi ... 15
29. Əhəmiyyətsiz uyğunsuzluqlar ... 16
30. Hesab səhvlərinin düzəldilməsi ... 16
31. Vahid valyutaya konvertasiya ... 17
32. Satınalma güzəşti ... 17
33. Subpodratçılar ... 17
34. Təkliflərin qiymətləndirilməsi ... 17
35. Təkliflərin müqayisəsi ... 18
36. Həddindən artıq ucuz təkliflər ... 18
37. Təchizatçının uyğunluq göstəriciləri ... 18
38. Qalib təklifin seçilməsi ... 19
39. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ ... 19
40. Satınalmanın nəticələri barədə bildiriş ... 20
41. Gözləmə müddəti ... 20
F. Qalibin seçilməsi ... 20

42. Qalibin seçilməsi proseduru ... 20
43. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi ... 20
44. Müqavilənin imzalanması ... 20
45. Bağlanılmış müqavilə barədə məlumatın verilməsi ... 21
46. İcra təminatı ... 21
G. Şikayət verilməsi ... 21
47. Şikayət vermək hüququ ... 21
48. Satınalan təşkilata şikayət ... 22
49. AİBNDX-yə şikayət ... 22
50. Satınalmanın dayandırılması ... 23
51. İnzibati qaydada şikayət ... 23
H. Müqavilə ... 23
52. Müqavilə şərtləri ... 23
II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ ... 25
III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ-UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI ... 30
IV BÖLMƏ. SATINALMA FORMALARI ... 43
Forma 1. Təklif məktubu ... 43
Forma 2. İş həcmləri cədvəli ... 44
Forma 3. Texniki baza ... 47
Forma 4. Təklif edilən əsas heyətin tərcümeyi-halı və bəyannaməsi ... 48
Forma 5. Təchizatçı haqqında ... 50
Forma 6. Birgə fəaliyyət haqqında ... 51
Forma 7. Oxşar işlər üzrə təcrübə ... 52
Forma 8. Subpodratçılar haqqında məlumat ... 53
Forma 9. Təklifin təminatı ... 54
(B) İŞLƏRƏ DAİR TƏLƏBLƏR
(C) SATINALMA MÜQAVİLƏSİ

# I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT

## A. Ümumi

**1. Satınalma haqqında**

1.1. **Satınalma məlumat vərəqində (1)** qeyd edilən satınalan təşkilat tərəfindən *(B) İşlərə dair tələblər* sənədində nəzərdə tutulmuş İşlərin (bundan sonra – İşlər) maliyyə vəsaiti hesabına dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun görülməsi üçün bu şərtlər toplusu hazırlanmışdır. Satınalma predmeti, satınalan təşkilatın adı, VÖEN-i və satınalan təşkilatın əlaqələndirici şəxsi barədə məlumatlar **Satınalma məlumat vərəqində (1)** qeyd edilir.

1.2. Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunundan (bundan sonra – Qanun) və digər normativ hüquqi aktlardan ibarətdir.

1.3. Təkliflərin qiymətləndirilməsi zamanı aşağıdakı anlayışlar tətbiq edilir:

(a) "Kənara çıxma" şərtlər toplusunda göstərilən tələblərdən yayınmadır;

(b) "Qeyd-şərt" məhdudlaşdırıcı şərtlərin müəyyən edilməsi və ya şərtlər toplusunda göstərilən tələblərin tam qəbul edilməsindən boyun qaçırmadır;

(c) "Çatışmazlıq" şərtlər toplusunda tələb olunan məlumat və ya sənədlərin bir hissəsinin və ya hamısının təqdim edilməməsidir.

1.4. Bu şərtlər toplusunda istifadə olunan digər anlayışlar Qanun və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar**

2.1. Satınalan təşkilat "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa riayət olunmasını tələb edir.

**3. Təchizatçıların münasibliyi**

3.1. **Satınalma məlumat vərəqində (2)** göstərilən Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinə məhdudiyyətlər qoyulduğu

hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident təchizatçı (fiziki şəxs, hüquqi şəxs, o cümlədən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün hüquqi və (və ya) fiziki şəxslərin müqavilə əsasında yaratdığı müvəqqəti və ya daimi birliyi (bundan sonra – birgə fəaliyyət) daxil olmaqla) Azərbaycan Respublikasında keçirilən satınalmalarda iştirak edə bilər. Təchizatçı nizamnaməsi (və ya buna bərabər tutulan sənədləri) və ya qeydiyyat sənədləri ilə müəyyən olunduğu ölkənin qanunlarının müddəalarına uyğun olaraq yaradılmış, təsis edilmiş və ya qeydiyyatdan keçmiş və fəaliyyət göstərdiyi təqdirdə həmin ölkəyə mənsub hesab edilir. Müqavilənin hər hansı hissəsinin icrasına cəlb edilməsi təklif edilən subpodratçıların ölkə mənsubiyyəti bu meyar əsasında müəyyən edilir.

3.2. Təchizatçının iştirak etdiyi satınalmada Qanunun 6.1-ci maddəsinə əsasən maraqlar toqquşması olmamalıdır. *(Qanunun 6.1-ci maddəsindən çıxarış:*

*Təchizatçıların aşağıdakı hallarda (satınalma predmetinin yalnız hər hansı konkret təchizatçıda olduğu, yaxud satınalma predmetinin əvəzedicisi və alternativi olmadığı hallar istisna olmaqla) satınalmalarda iştirakına yol verilmir, bu hallar müəyyən olduqda satınalmadan kənarlaşdırılır:*

- *təchizatçının satınalan təşkilatdan və ya satınalan təşkilatla təchizatçının eyni qurumdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olduqda;*
- *təchizatçılardan biri digərinin benefisiar mülkiyyətçisi olduqda, yaxud təchizatçıların azı ikisi eyni benefisiar mülkiyyətçinin nəzarətində olduqda;*
- *təchizatçılardan biri digərinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı olduqda, yaxud təchizatçıların azı ikisinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı eyni şəxs olduqda;*
- *satınalmada təchizatçı qismində çıxış edən fiziki şəxs və ya hüquqi şəxsin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsinə əsasən aidiyyəti şəxsi satınalan təşkilatın rəhbəri ilə qohumluq (ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürənlər, övladlığa götürülmüş şəxslər, babalar, nənələr, nəvələr, doğma (ögey) bacılar və qardaşlar, bacı və qardaşların övladları, bacıların ərləri, qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, ər-arvadların valideynləri, bacıları və qardaşları) münasibətində olduqda).*

3.3. Birgə fəaliyyətin üzvü olaraq və ya fərdi şəkildə alternativ təkliflərə icazə verilən hallar istisna olmaqla təchizatçılar eyni satınalma üzrə birdən artıq təklif təqdim etməməli və ya birdən artıq təklifdə iştirak etməməli, həmçinin həmin satınalmada iştirak edən digər təchizatçının subpodratçısı olmamalıdır. Bu hal aşkarlandıqda həmin təchizatçıların təqdim etdikləri və (və ya) iştirak etdikləri bütün təkliflər kənarlaşdırılır.

3.4. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar bu məqsədlə tərəflərin hər birinin imzaladığı müqaviləyə və ya müqavilə layihəsi əlavə edilməklə müqavilə bağlamaq barədə tərəflərin hər birinin imzaladığı niyyət məktubuna malik olmalıdır. Bu halda birgə fəaliyyət göstərmək istəyən tərəflərin hər birinin müqavilənin müqavilə şərtlərinə uyğun icrası üçün birgə və fərdi məsuliyyət daşıması və tərəflər arasındakı iş öhdəliklərinin bölgüsü barədə müddəalar birgə fəaliyyət müqaviləsinə və ya müqavilə layihəsinə daxil edilməlidir. Birgə fəaliyyət onun adından və tərəfləri üçün satınalmada iştirak və müqavilə bağlandıqda isə müqavilənin icrasını təmin etmək məqsədilə müvafiq səlahiyyətə malik nümayəndə təyin edir. **Satınalma məlumat vərəqində (3)** göstərilmədiyi təqdirdə, birgə fəaliyyətin üzvlərinin sayına məhdudiyyət qoyulmur.

3.5. Qanunun 16-cı maddəsi ilə tənzimlənən qaydada etibarsız təchizatçıların reyestrinə daxil edilmiş təchizatçıların müəyyən olunmuş müddətdə satınalmalarda iştirakına yol verilmir. Etibarsız təchizatçıların reyestri etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalında (bundan sonra – Portal) yerləşdirilir.

3.6. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru keçirildikdə, yalnız uyğunluq göstəricilərinə cavab verən təchizatçılar satınalmada iştirak edə bilərlər.

**4. Malların və əlaqədar xidmətlərin münasibliyi**

4.1. Müqavilə çərçivəsində Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçılar və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçılar tərəfindən malların (materialların, avadanlıqların və s.) təchiz edilməsinə və xidmətlərin göstərilməsinə yol verilmir. Satınalan təşkilatın tələbi ilə təchizatçılardan malların və xidmətlərin mənşəyinə dair sübut təqdim etmələri tələb oluna bilər.

4.2. Malların mənşə ölkəsi qanunvericiliklə müəyyən edilmiş qaydada təyin edilir.

**5. Satınalmada istifadə və iştirak haqqı**

5.1. Birdəfəlik və ya istifadə müddətinə görə istifadə haqqını ödəyərək Portaldan istifadə hüququnu əldə etmiş təchizatçılar təklifləri təqdim etmək üçün **Satınalma məlumat vərəqində (4)** qeyd edilən məbləğdə iştirak haqqı ödəyirlər.

5.2. İstifadə və iştirak haqqı Portalda "ASAN ödəniş" sistemi vasitəsilə bank kartı ilə ödənilir.

5.3. Təkliflə təklifin təminatını təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayı üçdən az olması səbəbindən satınalmanın ləğv edilməsi və həmin satınalma predmeti üzrə təkrar satınalma keçirilməməsi halı istisna olmaqla ödənilmiş iştirak haqqı və istifadə haqqı heç bir halda geri qaytarılmır. Satınalmanın maliyyələşdirilməsinin dayandırılması və təchizatçıların sayı üçdən az olması səbəbindən satınalma ləğv edildikdə satınalma planında nəzərdə tutulmuş həmin satınalma predmeti üzrə təkrar satınalma keçirildiyi təqdirdə iştirak haqqını ödəyən və geri almayan təchizatçıların təkrar ödəniş etmədən satınalmada iştirakı təmin edilir.

5.4. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləş-dirilməsi proseduru keçirildikdə uyğunluq göstəricilərinə cavab verərək satınalmada iştirakı davam etdirən təchizatçılar iştirak haqqı ödəmirlər.

## B. Şərtlər toplusunun məzmunu

**6. Şərtlər toplusunun tamlığı**

6.1. Şərtlər toplusu aşağıda verilmiş bütün bəndləri əhatə edən və Təchizatçılar üçün təlimatın (bundan sonra – Təlimat) 7-ci hissəsinə uyğun olaraq ona edilən dəyişikliklər və əlavələrlə birlikdə nəzərə alınmalı olan aşağıdakı bölmələrdən ibarətdir:

- A. SATINALMA PROSEDURLARI
  - I Bölmə. Təchizatçılar üçün təlimat
  - II Bölmə. Satınalma məlumat vərəqi
  - III Bölmə. Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları
  - IV Bölmə. Satınalma formaları
- B. İŞLƏRƏ DAİR TƏLƏBLƏR
- C. SATINALMA MÜQAVİLƏSİ

6.2. Təchizatçıdan şərtlər toplusunda verilmiş bütün təlimat, forma, tələb, texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri) ilə tanış olması və şərtlər toplusunda tələb

edilən bütün məlumat və sənədləri təqdim etməsi tələb olunur.

6.3. Portal vasitəsilə birbaşa əldə edilmədiyi təqdirdə satınalan təşkilat şərtlər toplusunun tamlığı, şərtlər toplusunda aydın olmayan hallarla bağlı sorğularına, əvvəlki görüşlərin (əgər olubsa) nəticələri barədə protokollara və (və ya) Təlimatın 7-ci hissəsinə uyğun olaraq şərtlər toplusuna edilmiş dəyişikliklərə görə məsuliyyət daşımır. Hər hansı ziddiyyət olduqda, Portaldan birbaşa əldə olunan sənədlər üstünlük təşkil edir.

**7. Şərtlər toplusuna dair izahat, sahəyə baxış və təklifqabağı görüş**

7.1. Təchizatçı şərtlər toplusunda aydın olmayan hallarla bağlı təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 5 (beş) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (5)** qeyd olunan tarix və vaxt) satınalan təşkilata Portal vasitəsilə sorğu ünvanlaya bilər. Satınalma komissiyası sorğunu aldıqdan sonra 2 (iki) iş günü ərzində sorğuya cavab verir. Sorğu və ona verilən cavab sorğu verənin gizliliyi təmin edilməklə həmin gün Portalda yerləşdirilir.

7.2. Sorğu və ona verilən cavab şərtlər toplusuna əlavə edilərək onun ayrılmaz tərkib hissəsi hesab edilir.

7.3. **Satınalma məlumat vərəqində (6)** nəzərdə tutulduğu halda təchizatçının təyin edilmiş nümayəndəsi təklif təqdim etməzdən əvvəl görüşdə və (ya) işlərin görüləcəyi əraziyə baxış keçirməyə dəvət olunur. Görüşün məqsədi yaranmış texniki suallara aydınlıq gətirmək və həmin mərhələdə qaldırıla biləcək hər hansı sualı cavablandırmaq olacaq. Təchizatçılardan əlavə sorğularını yalnız Portal vasitəsilə təqdim etməsi tələb olunur. Hər hansı digər vasitə ilə verilmiş sorğular satınalan təşkilat tərəfindən nəzərə alınmır.

7.4. Təchizatçıya işlərin aparılacağı əraziyə və onun ətrafına baxış keçirmək və araşdırmaq, habelə təklifin hazırlanması və işlərin görülməsi zamanı müqavilə bağlamaq üçün lazım ola biləcək bütün məlumatları əldə etmək tövsiyə olunur. Sahəyə baxış üçün səfər xərcləri təchizatçı tərəfindən ödənilir. Satınalan təşkilat satınalma iştirakçısına iş sahəsi və onu əhatə edən ərazilərə baxış keçirmək və yoxlamaq, təklifin hazırlanması və işlərin həyata keçirilməsi üçün zəruri olacaq bütün məlumatları əldə etmək üçün əraziyə giriş icazəsi verir.

7.5. Satınalan təşkilat təchizatçıya və (və ya) onun etibarnamə təqdim etdiyi hər hansı əməkdaşına sahəyə baxış məqsədi ilə tikinti obyektinə və ərazisinə daxil olmaq üçün icazə

verir. Sahəyə baxış zamanı təchizatçının nümayəndəsi zəruri fərdi mühafizə vasitələrini özü təmin etməlidir. Sahəyə baxış zamanı baş verə biləcək hər hansı xəsarət və ya ölüm, əmlak itkisi və ya zərəri, habelə digər bununla bağlı itki və ziyan ilə bağlı yaranmış xərclərə görə satınalan təşkilat heç bir məsuliyyət daşımır.

7.6. Satınalan təşkilatla təchizatçılar arasında keçirilən görüş zamanı iştirak haqqını ödəmiş bütün təchizatçılar üçün bərabər iştirak imkanları yaradılır və görüş videomüşahidə vasitələrinin nəzarəti altında aparılaraq nəticələri protokolla rəsmiləşdirilir. Protokol nəzərə alınmaq üçün iştirak haqqını ödəmiş bütün təchizatçılara həmin gün göndərilir və Portalda yerləşdirilir. Satınalan təşkilatla təchizatçılar arasında qeyri-rəsmi danışıqlar aparılması və görüşlərin keçirilməsi qadağandır.

**8. Şərtlər toplusunda dəyişiklik edilməsi**

8.1. Satınalma komissiyası təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (7)** qeyd olunan tarix və vaxtadək) şərtlər toplusuna hər hansı təchizatçının sorğusu əsasında və ya texniki səhvlər və ya çatışmazlıqlar aşkar edildikdə öz təşəbbüsü ilə dəyişikliklər (satınalma predmetinin dəyişdirilməsi istisna olmaqla) edə bilər.

8.2. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə şərtlər toplusunda hər hansı dəyişiklik edilməsinə, habelə bununla bağlı hər hansı sorğuya, təklifə və icazəyə yol verilmir.

8.3. Satınalma komissiyası şərtlər toplusuna dəyişikliklər etdiyi halda təkliflərin təqdim edilməsi müddətini ən azı 5 (beş) iş gününədək uzadır. Təchizatçının əsaslandırılmış müraciəti əsasında təkliflərin təqdim edilməsi müddəti 10 (on) iş gününədək uzadıla bilər.

8.4. Şərtlər toplusuna edilmiş dəyişiklik onun ayrılmaz tərkib hissəsi hesab edilir. Dəyişikliklər Portal vasitəsilə bütün təchizatçılara göndərilir və bütün təchizatçılar üçün məcburi qüvvəyə malikdir.

## C. Təkliflərin hazırlanması

**9. Satınalma xərcləri**

9.1. Təchizatçı öz təklifini hazırlamaq və təqdim etməklə bağlı bütün xərcləri özü çəkir və satınalan təşkilat satınalma prosesinin nəticəsindən asılı olmayaraq, həmin xərclərə görə məsuliyyət və ya öhdəlik daşımır.

**10. Təklifin tərtib olunmasının dili**

10.1. Təklif və həmçinin təchizatçı ilə satınalan təşkilat arasında bütün yazışmalar və sənəd mübadiləsi Azərbaycan dilində

aparılır. Satınalma komissiyasının qərarı ilə satınalmalara dair sənədlər **Satınalma məlumat vərəqində (8)** nəzərdə tutulmuş xarici dillərdən birinə (bir neçəsinə) tərcümə oluna bilər. Bu halda, satınalmalara dair sənədlər arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

10.2. Təklifin tərkibinə daxil olan müşayiətedici sənədlər və çap materialları tərcüməsi ilə verilmək şərtilə, başqa dildə ola bilər. Təchizatçının xarici dildə təqdim etdiyi sənədlərin Azərbaycan dilinə notarial qaydasında təsdiqlənmiş tərcüməsi təqdim olunmalıdır. Təklif ilə tərcüməsi arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

**11. Təklifə daxil olan sənədlər**

11.1. Təchizatçı təqdim etdiyi təklifə aşağıdakıları əlavə edir:

(a) Təlimatın 12-ci hissəsinin tələbləri nəzərə alınmaqla təklif məktubu;

(b) Təlimatın 12-ci və 15-ci hissələrinin tələbləri əsasında qiymətləndirilmiş iş həcmləri cədvəli daxil olmaqla digər cədvəllər;

(c) Təlimatın 20.1-ci bəndinin tələbləri nəzərə alınmaqla təklifin təminatı;

(d) icazə verildiyi təqdirdə Təlimatın 13-cü hissəsinin tələbləri nəzərə alınmaqla alternativ təklif;

(e) səlahiyyət: Təlimatın 21.2-ci və 21.4-cü bəndlərinə uyğun olaraq təklifi imzalayan şəxsin səlahiyyətli olduğunun yazılı təsdiqi;

(f) uyğunluq: Təlimatın 18-ci hissəsinin tələbləri nəzərə alınmaqla uyğunluq sənədləri, habelə şərtlər toplusunda nəzərdə tutulduğu halda, subpodratçının müəyyən olunmuş tələblərə uyğun olması barədə sənədlər;

(g) münasiblik: Təlimatın 17-ci hissəsinin tələbləri nəzərə alınmaqla texniki təklif;

(h) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində tələb olunan digər sənədlər.

11.2. Təlimatın 11.1-ci bəndinin tələblərinə əlavə olaraq, birgə fəaliyyət tərəfindən təqdim edilən təklifə bütün tərəflərin imzaladığı birgə fəaliyyət müqaviləsinin surəti daxil edilməlidir. Alternativ olaraq, satınalmada qalib olacağı təqdirdə birgə fəaliyyət müqaviləsinin icrasına dair niyyət məktubunu bütün tərəflər imzalamalı və birgə fəaliyyət müqavilə layihəsi ilə birlikdə təqdim edilməlidirlər.

**12. Təklif məktubu və cədvəllər**

12.1. Təklif məktubu və iş həcmləri cədvəli Satınalma formaları (IV) bölməsində verilmiş müvafiq formalardan istifadə

edilməklə hazırlanmalıdır. Formalar mətnə heç bir dəyişiklik edilmədən doldurulmalıdır və heç bir əvəzedici qəbul edilə bilməz. Bütün boş xanalara tələb olunan məlumatlar yazılmalıdır.

**13. Alternativ təklif**

13.1. **Satınalma məlumat vərəqində (9)** başqa hal nəzərdə tutulmayıbsa, alternativ təkliflər nəzərə alınmayacaq.

13.2. Alternativ tamamlama müddətləri açıq şəkildə istənildikdə, bu barədə bəyanat **Satınalma məlumat vərəqinə (10)** daxil edilir və müxtəlif alternativ tamamlama müddətlərinin qiymətləndirilməsi üsulu <u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində təsvir edilir.

13.3. Təlimatın 13.4-cü bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla, təklif təqdim etmək istəyən təchizatçılar ilk növbədə şərtlər toplusunun tələblərinə uyğun qiymət verməli və əlavə olaraq alternativ texniki təklifin satınalma komissiyası tərəfindən tam qiymətləndirilə bilinməsi üçün lazım olan bütün məlumatları, o cümlədən planlar, çertyojlar (cizgilər) və eskizlər), dizayn hesablamaları, texniki və keyfiyyət xüsusiyyətləri, qiymətlərin bölgüsü, təklif olunan tikinti metodologiyası və digər müvafiq detalları təqdim etməlidirlər. Satınalma komissiyası yalnız şərtlər toplusunun tələblərinə cavab verən ən aşağı qiymət təklifi və ya ən səmərəli təklif təqdim edən təchizatçının alternativ texniki təklif və ya təklifllərinə baxır.

13.4. **Satınalma məlumat vərəqində (11)** qeyd edildiyi təqdirdə təchizatçılar işlərin *(B) İşlərə dair tələblər* sənədində göstərilən müəyyən edilmiş hissələri üçün alternativ texniki həllər təqdim etməyə icazə verilir və belə hissələr **Satınalma məlumat vərəqində (11)** qeyd edilərək, onların qiymətləndirilməsi üsulu şərtlər toplusuna daxil edilir.

**14. Satınalma predmetinin bölünməsi**

14.1. **Satınalma məlumat vərəqində (12)** nəzərdə tutulduğu təqdirdə heç bir təklif satınalma predmetinin tam həcmdə icrasını təmin etmədikdə, bu zaman bir neçə təchizatçının hissəvi təkliflərinin cəmi bir təchizatçının təklifindən daha səmərəli və ya qiyməti daha aşağı olarsa, habelə satınalma predmetinin daha yüksək həcmdə icrasını təmin edərsə, satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünür.

14.2. Təlimatın 14.1-ci bəndində bölünməsi nəzərdə tutulan hissələrin ətraflı təsviri **Satınalma məlumat vərəqində (12)** göstərilir.

**15. Təklifin qiyməti**

15.1. Təklif məktubunda və iş həcmləri cədvəlində göstərilən qiymətlər bu hissədə göstərilən tələblərə cavab verməlidir.

15.2. Təchizatçı iş həcmləri cədvəlində göstərilən bütün bəndlərə qiymət daxil etməlidir. Təchizatçı tərəfindən qiymət daxil edilməyən və həmin hissələrin əlavə ödənişsiz icra edilməsi ilə bağlı qeyd olan bəndlərin iş həcmləri cədvəlinə daxil edilən digər qiymətlərlə əhatə edildiyi qəbul ediləcəkdir. Hər hansı qeyd olmadan qiymət daxil edilməyən bəndləri olan təklif natamam hesab ediləcəkdir.

15.3. **Satınalma məlumat vərəqində (13)** başqa hal nəzərdə tutulmadığı təqdirdə təchizatçı tərəfindən müqavilə çərçivəsində və ya hər hansı digər səbəbə görə ödənilməli olan bütün rüsumlar, vergilər və digər tutulmalar təchizatçının təklif etdiyi qiymətdə nəzərə alınmalıdır.

15.4. Qiymət endirimlərinə icazə verilmir.

**16. Təklifin və ödənişin məzənnəsi**

16.1. Təchizatçılar (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təkliflərində qiymətləri Azərbaycan Respublika-sının pul vahidi – manatla göstərməlidirlər.

16.2. Qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri sərbəst dönərli xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə əsas götürülməlidir.

**17. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)**

17.1. Təchizatçı *(B) İşlərə dair tələblər* sənədində qeyd olunan tələblərə cavab verdiyini göstərmək və təklifinin yetərliliyini nümayiş etdirmək üçün icra metodologiyası, iş qrafiki və Satınalma formaları (IV) bölməsində nəzərdə tutulmuş hər hansı digər məlumat daxil olmaqla kifayət qədər təfərrüatlı texniki təklif təqdim etməlidir.

17.2. Təklif edilən hər bir avadanlığın, texnikanın, məhsulun və digər malların özünəməxsus texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri), o cümlədən konkret əmtəə nişanı və adı, modeli, istehsal mənbəyi (mənşə ölkəsi) və istehsalçısına aid məlumatlar və istehsalçının texniki məlumat vərəqi (hansı varsa) təklifə əlavə edilməlidir.

**18. Uyğunluq sənədləri**

18.1. Təchizatçıların uyğunluq göstəriciləri təchizatçılara dair ümumi və xüsusi tələblərdən ibarətdir.

18.2. Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinin tələblərinə uyğun olaraq təchizatçılar müqaviləni icra etmək imkanlarını göstərmək üçün Satınalma formaları (IV) bölməsinə daxil edilən müvafiq məlumat vərəqələrini təmin etməli, habelə Qanunun 23-cü maddəsinə əsasən təchizatçıların uyğunluq göstəricilərini təsdiq edən sənədlər (bundan sonra – uyğunluq sənədləri) təqdim etməlidir.

**19. Təklifin qüvvədə olma müddəti**

19.1. Təkliflər **Satınalma məlumat vərəqin**də **(14)** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış tarixədək qüvvədə olmalıdır. **Satınalma məlumat vərəqində** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış tarixə qədər qüvvədə olmayan təkliflər formal tələblərə uyğun gəlməyən təklif kimi kənarlaşdırılır.

19.2. Satınalma komissiyası ən çoxu təkliflərin ilkin qüvvədə olduğu müddət qədər təkliflərin qüvvədə olma müddətinin uzadılmasını təchizatçılardan tələb edə bilər. Təkliflərin qüvvədə olma müddətinin uzadılması tələbi ilə razılaşan təchizatçılar təklifin təminatının qüvvədə olma müddətinin təklifin qüvvədə olma müddətindən azı 30 (otuz) iş günü çox olmaqla uzadılmasını və ya uzadılmış müddət üçün yeni təminatın verilməsini təmin edirlər. Təchizatçı təklifin təminatına olan hüququnu itirmədən satınalma komissiyasının belə tələbindən imtina edə bilər.

**20. Təklifin təminatı**

20.1. Təchizatçı (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təklifin tərkib hissəsi olaraq **Satınalma məlumat vərəqində (15)** qeyd edilmiş məbləğdə Azərbaycan manatı ilə, qeyri-rezident hüquqi və fiziki şəxslər isə Azərbaycan manatı ilə və ya elanın verilməsi (dəvətin göndərilməsi) tarixinə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnəyə uyğun olaraq sərbəst dönərli valyuta ilə təkliflə birlikdə təklifin təminatını təqdim etməlidir, əks təqdirdə təklif qəbul edilmir.

20.2. Təklifin təminatı qarant tərəfindən qarantiya şəklində verilir. Satınalma komissiyası qaranta və ya ehtimal olunan qiyməti 5 (beş) milyon manatdan yuxarı olan satınalmalara münasibətdə hər hansı qarantın verdiyi təminatı təsdiqləyən tərəf (əgər tələb olunursa), habelə digər şərtlərə dair hər hansı tələbini **Satınalma məlumat vərəqində (16)** göstərir. Təklifin təminatı Satınalma formaları (IV) bölməsinə daxil edilən "Təklifin təminatının nümunəsi" və ya təklif təqdim edilməzdən əvvəl satınalma komissiyası ilə razılaşdırılmış digər əhəmiyyətli dərəcədə oxşar nümunədən istifadə olunaraq təqdim edilməlidir. Təklifin təminatının qüvvədə olma müddəti təklifin ilkin və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış qüvvədə olma müddətindən azı 30 (otuz) iş günü çox olmalıdır.

20.3. Təchizatçının təklifinin təminatı aşağıdakı hallarda dərhal geri qaytarılır:

(a) satınalmada ilk üç yerdən birini tutmayan təchizatçılara – satınalmanın nəticələrinə dair yekun protokol təsdiq olunduqda;
(b) satınalmada ikinci və üçüncü yerləri tutan təchizatçılara – qalib təchizatçı ilə bağlanan satınalma müqaviləsi qüvvəyə mindikdə;
(c) qalib təchizatçı istisna olmaqla, digər təchizatçılara – təkliflərin qüvvədə olma müddəti bitdikdə;
(d) bütün təchizatçılara – təkliflərin təqdim edilməsinin son müddəti bitməmişdən əvvəl təklif geri götürüldükdə və ya satınalma ləğv edildikdə;
(e) təkliflərin qüvvədə olma müddətinin uzadılması təşəbbüsü ilə razı olmayan təchizatçılara – təkliflərin qüvvədə olma müddəti bitdikdə;
(f) qalib təchizatçıya – satınalma müqaviləsi imzalandıqda və icra təminatı təqdim edildikdə.

20.4. Aşağıdakı hallarda təchizatçının təklifinin təminatı geri qaytarılmır:
(a) təchizatçı təkliflərin təqdim edilməsinin son müddəti bitdikdən sonra və ya təklifin qüvvədə olma müddəti bitənədək öz təklifini geri götürdükdə və ya dəyişdirdikdə;
(b) təklifin akseptinə dair bildirişi almış qalib təchizatçı müəyyən olunmuş müddətdə satınalma müqaviləsini imzalamadıqda və (və ya) icra təminatını təqdim etmədikdə;
(c) təklifin akseptinə dair bildirişi almış qalib təchizatçı satınalma müqaviləsi imzalananadək şərtlər toplusunda göstərilmiş hər hansı digər şərtləri yerinə yetirmədikdə.

20.5. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar tərəfindən təqdim edilən təklifin təminatında bütün tərəflərin hüquqi adları göstərilməlidir.

**21. Təklifin formatı və imzalanması**

21.1. Təchizatçılar təkliflərində biznesləri üçün məxfi olan bütün məlumatları “MƏXFİ” kimi qeyd etməlidirlər. Buraya mülkiyyət məlumatları, ticarət sirləri və ya kommersiya/maliyyə baxımından həssas məlumatlar daxil ola bilər.

21.2. Təklif təchizatçının rəhbəri və ya digər vəzifəli şəxsi tərəfindən imzalanmalıdır. Təklifi təchizatçının rəhbəri imzaladıqda həmin təchizatçının təsis və hüquqi və ya fiziki şəxsin qeydiyyat sənədlərini təqdim etməlidir. Təklifi imzalayan digər vəzifəli şəxs olduğu təqdirdə isə həmin vəzifəli şəxsə imza səlahiyyətlərinin verilməsinə dair həmin

təchizatçının rəhbəri tərəfindən səlahiyyəti təsdiq edən sənəd – etibarnamə təqdim edilməlidir.

21.3. Təchizatçı birgə fəaliyyət göstərdiyi halda, təklif birgə fəaliyyət göstərən təchizatçıların səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmalıdır. Həmin nümayəndənin imza səlahiyyətinə malik olması 21.3-cü bəndinin tələbləri nəzərə alınmaqla birgə fəaliyyət göstərən təchizatçıların rəhbərləri tərəfindən imzalanmış etibarnamə ilə təsdiq edilir.

## D. Təkliflərin təqdim olunması və açılması

**22. Təkliflərin təqdim edilməsinin son müddəti**

22.1. Təkliflər onların təqdim edilməsi üçün **Satınalma məlumat vərəqində (17)** müəyyən edilən müddət başa çatanadək Portal vasitəsilə elektron qaydada satınalan təşkilata təqdim edilir.

**23. Gecikmiş təkliflər**

23.1. Təlimatın 22-ci hissəsi ilə müəyyən olunmuş müddətdən gec təqdim olunan təklif qəbul edilmir.

**24. Təkliflərin geri götürülməsi və ya dəyişdirilməsi**

24.1. Təchizatçı təkliflərin təqdim edilməsi müddəti bitənədək öz təklifini dəyişdirə və ya geri götürə bilər.

24.2. Təlimatın 24.1-ci bəndinə uyğun olaraq geri götürülməsi istənilən təklif açılmadan təchizatçıya qaytarılır.

24.3. Təkliflərin təqdim edilməsinin son müddəti, o cümlədən uzadılmış müddəti bitdikdən sonra və ya təchizatçı tərəfindən təklif məktubunda qeyd edilən təklifin qüvvədə olma müddəti bitənədək təklifin geri götürdükdə və ya dəyişdirdikdə təchizatçı təklifin təminatına olan hüququnu itirir.

**25. Təkliflərin açılması**

25.1. Təkliflərin son təqdim olunması müddətinə qədər təqdim olunmuş təkliflər satınalma komissiyası tərəfindən **Satınalma məlumat vərəqində (18)** qeyd olunan tarixdə və vaxtda Portal vasitəsilə elektron qaydada açılır.

25.2. Təkliflər açılarkən hər bir təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı və atasının adı), ünvanı, VÖEN-i, təklifinin qiyməti və təklifin təminatının məbləği və qüvvədə olma müddəti Portalda dərc olunur.

## E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi

**26. Məxfilik (konfidensiallıq)**

26.1. Məhkəmənin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra – AİBNDX), Azərbaycan Respublikası Hesablama Palatasının və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin qanunla müəyyən edilmiş hüquq və vəzifələrinin icrası ilə bağlı məlumatların

açıqlanması halları istisna olmaqla, satınalan təşkilat digər hallarda təchizatçıların kommersiya sirri təşkil edən və ya qanunla qorunan digər məlumatlarını açıqlamır və onları məxfi (konfidensial) saxlayır.

26.2. Təchizatçılar tərəfindən təqdim edilən uyğunluq sənədləri və təkliflər, bağlanan satınalma müqaviləsinin surəti, satınalma müqaviləsi uzunmüddətlidirsə və ya mərhələlərlə həyata keçirilirsə, icrasının gedişi haqqında mütəmadi məlumatlar, satınalan təşkilatla təchizatçı arasında satınalma müqaviləsinin icrası, mübahisəli məsələlərin həlli ilə əlaqədar sənədlər və satınalma müqaviləsinin tam icra edilməsi haqqında satınalan təşkilatla təchizatçı arasında imzalanan təhvil-təslim aktı istisna olmaqla, satınalmaya dair hesabata əlavə edilən digər sənədlər təklifin akseptindən, yaxud satınalma müqaviləsinin bağlanması ilə nəticələnməyən satınalma yekunlaşdıqdan sonra 7 (yeddi) iş günü ərzində sorğu əsasında təklif təqdim edən təchizatçılara verilir.

26.3. Təchizatçı satınalmanın istənilən mərhələsində Qanunun tələblərinə zidd hərəkətlərə (hərəkətsizliyə) yol verdikdə, o cümlədən saxta sənəd və (və ya) məlumat təqdim etdikdə satınalma komissiyası həmin təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

26.4. Təchizatçı Təlimatın 26.3-cü bəndinin tələblərini nəzərə almaqla satınalma prosesi ilə əlaqədar olan hər hansı məsələ ilə bağlı satınalma komissiyası ilə yalnız Portal vasitəsilə əlaqə saxlaya bilər.

**27. Təkliflərə dair izahat**

27.1. Uyğunluq sənədlərinin və təkliflərin qiymətləndirilməsini asanlaşdırmaq məqsədilə satınalma komissiyası təchizatçıdan təqdim etdiyi uyğunluq sənədlərinə və ya təkliflərə dair izahat tələb edə bilər. Təchizatçı tərəfindən satınalma komissiyasının sorğusuna uyğun verilməyən cavablar nəzərə alınmır. Satınalma komissiyası tərəfindən qiymətləndirmə zamanı təklifin qiymətlərində və ya mahiyyətində heç bir dəyişiklik, o cümlədən könüllü artım və ya azalma tələb edilməsinə yol verilmir.

27.2. Təchizatçı bu cür izahatı 5 (beş) iş günü ərzində satınalan təşkilata təqdim etmədiyi təqdirdə onun təklifi kənarlaşdırıla bilər.

**28. Formal tələblərə uyğunluğun müəyyən**

28.1. Satınalma komissiyası Qanunun 33-cü maddəsinin tələblərini nəzərə almaqla, Təlimatın 11-ci hissəsində göstərilmiş tələblərə cavab verən təklifi formal tələblərə

**edilməsi**

uyğun təklif hesab edir.

28.2. Təklif əhəmiyyətli dərəcədə uyğun təklif hesab edilməsi üçün aşağıdakı hallar nəzərə alınmaqla əsaslı kənara çıxma, qeyd-şərt və çatışmazlıq olmadan şərtlər toplusunun tələblərinə cavab verməlidir:

(a) qəbul edildiyi təqdirdə: (i) müqavilədə göstərilən işlərin həcminə, keyfiyyətinə və ya icrasına hər hansı əhəmiyyətli şəkildə təsir edəcək və ya (ii) şərtlər toplusunun tələblərinə zidd olaraq satınalan təşkilatın hüquqlarını və ya təklif olunan müqavilə çərçivəsində təchizatçının öhdəliklərini əsaslı şəkildə məhdudlaşdıracaq və ya

(b) düzəldildiyi təqdirdə, əhəmiyyətli dərəcədə uyğun hesab edilən digər təchizatçıların rəqabət mövqeyinə ədalətsiz təsir göstərəcək.

28.3. Satınalma komissiyası xüsusilə, *(B) İşlərə dair tələblər* sənədində qeyd olunan bütün tələblərin, heç bir əsaslı kənara çıxma, qeyd-şərt və ya çatışmazlıq olmadan yerinə yetirildiyini təsdiqləmək üçün Təlimatın 17-ci hissəsinə uyğun olaraq təqdim edilmiş təklifin texniki aspektlərini yoxlamalıdır.

28.4. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə əsaslı kənara çıxmaya, qeyd-şərtə və ya çatışmazlığa düzəliş edilməsinə yol verilmədən kənarlaşdırılır.

**29. Əhəmiyyətsiz uyğunsuzluqlar**

29.1. Təklifdə onun mahiyyətini dəyişdirməyən, şərtlər toplusunda göstərilmiş xüsusiyyətlərə, şərtlərə və başqa tələblərə əhəmiyyətli dərəcədə xələl gətirməyən, aradan qaldırılması mümkün olan kiçik texniki səhvlər və ya çatışmazlıqlar (əhəmiyyətsiz uyğunsuzluqlar) olduqda, həmin səhvlər və ya çatışmazlıqlar kəmiyyətcə ifadə olunur və satınalma komissiyası təklifi formal tələblərə uyğun təklif hesab edir.

29.2. Təklifin əhəmiyyətli dərəcədə uyğun olması şərti ilə, satınalma komissiyası təchizatçının sənədləşdirmə tələbləri ilə bağlı əhəmiyyətsiz uyğunsuzluqları təchizatçıdan 5 (beş) iş günü ərzində aradan qaldırmasını tələb edə bilər. Bu cür uyğunsuzluqlar haqqında məlumat və ya sənədlərin tələb edilməsi təklifin qiymətinin heç bir aspekti ilə əlaqəli olmamalıdır. Təchizatçının qeyd edilmiş müddət ərzində sorğuya cavab verməməsi onun təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.

**30. Hesab**

30.1. Təqdim olunan təkliflər qiymətləndirilərkən hesab

**səhvlərinin düzəldilməsi**

səhvlərinin düzəldilməsinə yol verilmir.

**31. Vahid valyutaya konvertasiya**

31.1. Qiymətləndirmə və müqayisə məqsədilə qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri bütövlüklə və ya bir qismi xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə (www.cbar.az/currency/rates) əsas götürülərək Azərbaycan manatına konvertasiya edilməlidir.

**32. Satınalma güzəşti**

32.1. Satınalma komissiyası təklifləri qiymətləndirərkən, yerli mənşəli işlər üzrə təklifin xeyrinə Qanunun 33.14-cü maddəsi ilə müəyyən edilmiş qaydada 20 faizə qədər həcmdə güzəşti düzəliş tətbiq edir.

**33. Subpodratçılar**

33.1. **Satınalma məlumat vərəqində (19)** nəzərdə tutulduğu təqdirdə, qalib təchizatçı işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə əlaqədar subpodratçılarla müqavilə imzalaya bilər. Bütün digər hallarda satınalma müqaviləsinin icrası subpodratçılara həvalə edilə bilməz. Bu halda təchizatçı təqdim etdiyi təklifə subpodratçıya həvalə ediləcək fəaliyyət (fəaliyyətlər) və ya işlərin hissələri və satınalma müqaviləsindəki payı barədə məlumat əlavə etməlidir. Subpodrat müqaviləsinin (müqavilələrinin) məbləği satınalma müqaviləsinin ümumi dəyərinin 50 faizindən çox olmamalıdır. Satınalma müqaviləsinin icrasına subpodratçılar cəlb olunduğu halda, subpodrat müqavilələrinin ümumi məbləğinin 20 faizdən az olmayan hissəsinin icrası Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş mikro, kiçik və orta sahibkarlıq subyektlərinə həvalə olunmalıdır.

33.2. Subpodratçının uyğunluq göstəriciləri şərtlər toplusunda təchizatçı üçün müəyyən edilmiş uyğunluq göstəriciləri tələblərinə cavab vermək üçün istifadə edilməməlidir.

**34. Təkliflərin qiymətləndirilməsi**

34.1. Satınalan təşkilat təklifləri Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulan meyarlara və prosedurlara əsasən qiymətləndirir.

34.2. **Satınalma məlumat vərəqində (20)** nəzərdə tutulduğu təqdirdə təklifi ən səmərəli təklif kimi qiymətləndirərkən qiymət amilinə əlavə olaraq texniki amillər üçün nisbi qiymət (balı) meyarı tətbiq ediləcəkdir. Qiymət amili üçün çəki**,** texniki amillər və onların alt amillərinə veriləcək ballar **Satınalma məlumat vərəqində (20)** göstərilmişdir.

34.3. Təklifi qiymətləndirərkən satınalma komissiyası aşağıdakıları nəzərə alır:

(a) Təlimatın 31.1-ci bəndinə uyğun digər valyutada təklif olduğu təqdirdə vahid məzənnəyə konvertasiya;
(b) Təlimatın 32-ci hissəsinə uyğun olaraq satınalma güzəştinin tətbiqi;
(c) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində müəyyən edilmiş digər qiymətləndirmə meyarları.

**35. Təkliflərin müqayisəsi**

35.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı qiyməti olan təklifi müəyyən etmək üçün Təlimatın 34.1-ci bəndinə uyğun olaraq müəyyən edilmiş tələblərə əhəmiyyətli dərəcədə cavab verən bütün təkliflərin qiymətləndirilmiş yekun məbləğini müqayisə etməlidir.

35.2. Təlimatın 34.2-ci bəndi tətbiq olunarsa satınalma komissiyası ən səmərəli (qiymət və texniki amillərə görə ən çox bal toplamış) təklifi müəyyən etməlidir.

**36. Həddindən artıq ucuz təkliflər**

36.1. Təchizatçının təqdim etdiyi təklifin qiyməti ehtimal olunan qiymətlə müqayisədə 20 faizdən aşağı olarsa, satınalma komissiyası təchizatçıdan təklif qiymətinin ətraflı təhlili, təklif olunan metodologiya, iş qrafiki, risk və məsuliyyətin paylaşdırılması, habelə şərtlər toplusunun digər tələbləri barədə yazılı izahat almalıdır. Təchizatçının təqdim etdiyi izahat və məlumatlar təhlil edildikdən sonra satınalma müqaviləsinin icrasına əsaslı şübhələr qaldıqda satınalma komissiyası təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

**37. Təchizatçının uyğunluq göstəriciləri**

37.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı məbləği olan və əhəmiyyətli dərəcədə uyğun olan ilk 3 (üç) təchizatçının təklifinin Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində qeyd edilmiş uyğunluq göstəricilərinə cavab verib-vermədiyini müəyyən etməlidir.

37.2. Bunun müəyyənləşdirilməsi üçün Təlimatın 18-ci hissəsinə uyğun olaraq təchizatçı tərəfindən təqdim edilmiş uyğunluq göstəricilərini təsdiq edən sənədlər araşdırılmalı, təchizatçının özündən başqa digər törəməsi və ya tabe olduğu müəssisələr, törəmə və tabeliyində olan müəssisələri, filialları və subpodratçılarının uyğunluq sənədləri nəzərə alınmamalıdır.

37.3. Uyğunluq göstəricilərinə cavab verən təklifin seçilməsi müqavilənin bağlanması üçün ilkin şərtdir. Təlimatın 40.1-ci bəndinin tələbləri yerinə yetirilmədikdə qiymətləndirilmiş ən aşağı məbləği olan növbəti təklif və ya təkliflərin uyğunluq tələblərinə cavab verib-vermədiyi müvafiq qaydada araşdırılır.

37.4. **Satınalma məlumat vərəqində (22)** göstərilən hallarda, satınalma komissiyası tərəfindən əsaslandırılmaqla uyğunluq sənədlərini təqdim etmiş təchizatçıdan satınalmanın istənilən mərhələsində həmin sənədlərin yenidən (bir dəfədən çox olmayaraq) təqdim edilməsi tələb oluna bilər. Bu cür tələb təklifin qüvvədə olma müddətinin bitməsinə 10 (on) iş günü qalanadək irəli sürülür və uyğunluq sənədlərinin yenidən təqdim edilməsi 5 (beş) iş günü ərzində həyata keçirilir.

37.5. Təchizatçının uyğunluq göstəriciləri barədə verdiyi qeyri-dəqiq və natamam məlumat satınalma komissiyasının tələbi ilə 3 (üç) iş günü ərzində aradan qaldırılmalıdır.

**38. Qalib təklifin seçilməsi**

38.1. Uyğunluq göstəricilərinə cavab verən və təklifləri uyğun olan
(a) ən aşağı qiymət təklifi
(b) və ya ən səmərəli təklifi
təqdim edən təchizatçı qalib təchizatçı sayılır.

**39. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ**

39.1. Satınalma komissiyası Qanunun tələblərini nəzərə almaqla qalib təchizatçını seçməzdən əvvəl istənilən vaxt istənilən təklifi aksept etmək və ya kənarlaşdırmaq və satınalmanın ləğv edilməsi haqqında qərar qəbul etmək hüququnu özündə saxlayır və buna görə təchizatçılar qarşısında heç bir məsuliyyət daşımır. Zərflər açılana qədər satınalma ləğv edildiyi halda təklifin təminatları daxil olmaqla təkliflər, zərflər açıldıqdan sonra isə təkliflərin təminatları təchizatçılara dərhal geri qaytarılır.

39.2. Satınalma komissiyası aşağıdakı hallarda satınalmanın ləğv edilməsi haqqında qərar qəbul edir:
(a) satınalmada iştirak etmək üçün təklifi və təklifin təminatını təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayı açıq tender birinci dəfə elan edildikdə üçdən, yetərsay olmamasına görə eyni satınalma ikinci dəfə elan edildikdə isə ikidən az olduqda;
(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;
(c) birinci, ikinci və üçüncü yerləri tutmuş təchizatçılar arasından qalib təchizatçını seçmək mümkün olmadıqda;
(d) bütün təchizatçıların təqdim etdiyi təkliflərin qiyməti ehtimal olunan qiymətdən yüksək olduqda;
(e) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı

sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən bu Təlimatın 3.2-ci bəndinin tələblərinin pozulduğu müəyyən edildikdə;

(f) satınalmanın maliyyələşdirilməsi dayandırıldıqda.

**40. Satınalmanın nəticələri barədə bildiriş**

40.1. Satınalma komissiyası satınalmanın nəticələri haqqında yekun protokolu imzaladığı gün satınalan təşkilatın adından təklifini aksept etmək istədiyi təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), ünvanı, VÖEN-i, imzalanması nəzərdə tutulan müqavilənin məbləği, habelə gözləmə müddətinin qüvvədə olma tarixləri barədə satınalmadan kənarlaşdırılmamış təchizatçılara Təlimatın 44-cü hissəsi nəzərə alınmaqla bildiriş göndərməklə yanaşı, Portalda məlumat yerləşdirir. Bildirişdə digər təchizatçıların qalib gəlməməsinin səbəbləri göstərilir.

**41. Gözləmə müddəti**

41.1. Satınalmanın nəticələri barədə bildirişin göndərildiyi gündən sonrakı iş günü gözləmə müddəti başlayır və 5 (beş) iş günü ərzində qüvvədə olur. Gözləmə müddəti bitmədən satınalan təşkilat ilə qalib təchizatçı arasında müqavilə imzalana bilməz.

## F. Qalibin seçilməsi

**42. Qalibin seçilməsi proseduru**

42.1. Təlimatın 39-cu hissəsinin tələbləri nəzərə alınmaqla satınalma komissiyası qalib təchizatçını seçir.

**43. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi**

43.1. Satınalma müqaviləsi qalib təchizatçı tərəfindən imzalananadək satınalma komissiyası əvvəlcədən şərtlər toplusunda göstərmişdirsə, satınalma predmetinin hər vahidinin qiymətini və xüsusiyyətlərini (göstəricilərini) dəyişdirməmək, həmçinin ehtimal olunan qiyməti keçməmək şərti ilə AİBNDX-nin razılığı ilə satınalma predmetinin həcmini (miqdarını) 10 faizə qədər artırıb-azalda bilər.

**44. Müqavilənin imzalanması**

44.1. Satınalan təşkilat təklifin şərtlər toplusunda göstərilmiş qüvvədə olma müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək qalib təchizatçının təklifini aksept edir və satınalma müqaviləsini tərtib edib təchizatçıya aksept bildirişi ilə birlikdə göndərir.

44.2. Qalib təchizatçı 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalayır və satınalan təşkilata Qanuna əsasən tələb olunan icra təminatını təqdim edir. Satınalan təşkilat satınalma müqaviləsini 10 (on) iş günündən gec olmayaraq imzalayır.

**45. Bağlanılmış müqavilə barədə məlumatın verilməsi**

45.1. Satınalma komissiyası satınalma müqaviləsi qüvvəyə mindiyi gündən 3 (üç) iş günü ərzində satınalan təşkilatın və müqaviləni bağlamış təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), VÖEN-i, satınalma predmeti, satınalma metodu, müqavilənin məbləği və icra müddəti barədə Portalda məlumat yerləşdirir.

**46. İcra təminatı**

46.1. İcra təminatının məbləği satınalma müqaviləsinin ümumi məbləğinin 10 faizi (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 5 faizi) həcmində müəyyən olunur. İcra təminatının qüvvədə olma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda, zəmanət müddəti daxil olmaqla) 30 (otuz) iş günü çox olmalıdır.

46.2. Ümumi məbləği 30 000 (otuz min) manatdan az olan satınalma müqaviləsi üzrə icra təminatı tələb olunmur.

46.3. Qalib təchizatçının Təlimatın 44.2-ci bəndində qeyd olunan müddət ərzində satınalma müqaviləsini imzalamaması və (və ya) Qanuna əsasən tələb olunan icra təminatını təqdim etməməsi onun öz öhdəliklərini icra edə bilməməsi kimi qiymətləndirilir və təklifin təminatının geri qaytarılmaması ilə nəticələnir.

## G. Şikayət verilməsi

**47. Şikayət vermək hüququ**

47.1. Hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə təchizatçıların satınalan təşkilatın hərəkətlərindən (hərəkətsizliyindən) və qərarlarından inzibati qaydada, AİBNDX-yə və məhkəməyə şikayət vermək hüququ vardır.

47.2. Aşağıdakılar şikayət predmeti ola bilməz:

(a) Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinin məhdudlaşdırılması;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmaması və satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirilməsi halları istisna olmaqla qanuni əsaslarla satınalmanın ləğv edilməsi.

**48. Satınalan təşkilata şikayət**

48.1. Satınalmadan kənarlaşdırılmamış təchizatçılar satınalan təşkilata satınalmanın nəticələri ilə bağlı öz şikayətlərini gözləmə müddətində verirlər. Satınalan təşkilat gözləmə müddətində verilmiş şikayəti 5 (beş) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

48.2. Kənarlaşdırılmış və ya iştirak etməyən təchizatçılar satınalma müqaviləsi qüvvəyə minənə qədər öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 15 (on beş) iş günü ərzində satınalan təşkilata şikayət verə bilərlər. Satınalan təşkilat verilmiş şikayəti 10 (on) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir və həmin qərarın qəbul edildiyi gündən 1 (bir) iş günü ərzində şikayət edən təchizatçıya göndərir.

48.3. Şikayət gözləmə müddəti və ya Təlimatın 48.2-ci bəndi ilə müəyyən edilən müddət keçdikdən sonra verilmişdirsə, satınalan təşkilat həmin şikayəti baxılmamış saxlayır.

48.4. Satınalan təşkilat Təlimatın 48.1-ci və 48.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmirsə, təchizatçı bununla bağlı AİBNDX-yə və məhkəməyə şikayət verə bilər. Belə şikayət verildikdən sonra satınalan təşkilat tərəfindən həmin şikayət baxılmamış saxlanılır.

**49. AİBNDX-yə şikayət**

49.1. Təchizatçılar aşağıdakı hallarda AİBNDX-yə şikayət verə bilər:

(a) satınalma müqaviləsi qüvvəyə mindikdə;

(b) satınalma komissiyası Qanunun və Qanundan irəli gələn normativ hüquqi aktların tələblərini pozduqda;

(c) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(d) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən satınalmalarda maraqlar toqquşmasının tələbləri pozulduğu müəyyən edildikdə;

(e) Satınalan təşkilat Təlimatın 48.1-ci və 48.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmədikdə;

(f) verilmiş şikayətlə bağlı satınalan təşkilatın qərarı ilə razılaşmadığı halda.

49.2. Təchizatçılar öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən, habelə Təlimatın 49.1(f) bəndində nəzərdə tutulmuş qərarı aldığı gündən və ya həmin qərarın verilməli olduğu gündən 15 (on beş) iş günü ərzində

AİBNDX-a şikayət verə bilərlər.

49.3. AİBNDX şikayəti aldıqdan sonra 1 (bir) iş günü ərzində bu barədə satınalan təşkilata Portal vasitəsilə bildiriş göndərir. Şikayətdə qaldırılan məsələlərin araşdırılması üçün əlavə məlumat tələb olunduğu təqdirdə AİBNDX satınalan təşkilata Portal vasitəsilə sorğu göndərir. Satınalan təşkilat sorğunu aldıqdan sonra 3 (üç) iş günü ərzində sorğuda tələb olunan məlumatları AİBNDX-yə təqdim edir.

49.4. AİBNDX verilmiş şikayəti 20 (iyirmi) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

49.5. AİBNDX şikayəti təmin edirsə aşağıdakı tədbirlərdən birini və ya bir neçəsini tətbiq edir.

(a) satınalan təşkilata qanunazidd hərəkətlər (hərəkətsizlik) etməyi və ya qərarlar qəbul etməyi, yaxud prosedurlar tətbiq etməyi qadağan etmək;

(b) satınalan təşkilatın qanunazidd inzibati aktını "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 67-ci maddəsinə uyğun olaraq ləğv etmək;

(c) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd hərəkətini (hərəkətsizliyini) dayandırmaq;

(d) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd qərarını ləğv etmək və yeni qərar qəbul etmək və ya satınalan təşkilatın əvəzinə öz qərarını qəbul etmək;

(e) təkliflərin yenidən qiymətləndirilməsi və ya satınalmanın ləğv edilməsi barədə qərar qəbul etmək.

**50. Satınalmanın dayandırılması**

50.1. Təlimatın 48-ci və 49-cu hissələrinə əsasən verilən şikayətin (gözləmə müddətində verilən şikayət istisna olmaqla) araşdırılması məqsədilə "İnzibati İcraat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinə uyğun olaraq AİBNDX-nin qərarı ilə satınalan təşkilat tərəfindən satınalma prosedurları 10 (on) iş gününədək dayandırıla bilər. Bu müddət AİBNDX-nin əsaslandırılmış qərarı ilə 10 (on) iş gününədək uzadıla bilər.

**51. İnzibati qaydada şikayət**

51.1. Təchizatçılar AİBNDX-nin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və məhkəməyə şikayət verə bilərlər.

## H. Müqavilə

**52. Müqavilə şərtləri**

52.1. Təchizatçı təklifini formalaşdırarkən satınalma müqaviləsinin tələblərini nəzərə almalıdır.

52.2. Satınalma müqaviləsində aşağıdakı məlumatlarından çıxarış **Satınalma məlumat vərəqində (23)** də göstərilir:

(a) satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği;
(b) avans;
(c) satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları;
(d) satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları;
(e) tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri.

52.3. Satınalma müqaviləsi ilə şərtlər toplusunda qeyd edilən məlumatlar arasında ziddiyyət olarsa şərtlər toplusu üstünlük təşkil edir.

# II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ

Satın alınacaq işlər üçün aşağıdakı spesifik məlumatlar Təlimatın müddəalarını tamamlayır, aydınlaşdırır və ya dəyişdirir. Hər hansı bir ziddiyyət yarandıqda, aşağıdakı müddəalar Təlimatdakı müddəalardan üstün olacaqdır.

*[Satınalma məlumat vərəqini doldurmaq üçün zəruri təlimatlar istinad olunan müvafiq Təlimatın üçün kursivlə yazılmış qeydlərdə təqdim olunur və şərtlər toplusu doldurulduqdan sonra silinir]*

| Sıra №-si | Bənd | Məzmun | Məlumat |
|---|---|---|---|
| | | **A. Ümumi** | |
| (1) | 1.1. | Satınalma predmeti: | **(satınalma predmetini daxil edin)** |
| | | Satınalan təşkilatın adı:<br>VÖEN-i | **(satınalan təşkilatın adını daxil edin)**<br>**(VÖEN-i daxil edin)** |
| | | Satınalan təşkilatın əlaqələndirici vəzifəli şəxsi barədə məlumat | **(soyadı, adı və atasının adını daxil edin)**<br>**(vəzifəsini daxil edin)**<br>**(əlaqə məlumatlarını daxil edin)** |
| (2) | 3.1. | Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma | **(iştirakı məhdudlaşdırılan ölkələr və ya məhdudlaşdırılma şərtləri barədə məlumatı daxil edin)**<br>*[Əgər belə hallar nəzərdə tutulmayıbsa "nəzərdə tutulmayıb" qeyd edin]* |
| (3) | 3.3. | Birliyin üzvlərinin maksimal sayı | **(sayı daxil edin)** |
| (4) | 4.1. | İştirak haqqı | **(məbləği daxil edin)**<br>*[Qanunun 28.6-cı maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilmiş məbləği daxil edin]* |
| | | **B. Şərtlər toplusunun məzmunu** | |
| (5) | 7.1. | Şərtlər toplusuna dair izahat üçün son müddət: | **(tarix və saatı daxil edin)** |
| (6) | 7.3. | Təklif öncəsi görüş və sahəyə baxış: | Təklif öncəsi görüş **(aşağıdakı tarixdə, saatda və yerdə keçiriləcək / keçirilməyəcək)**.<br>*[keçiriləcəksə aşağıdakı məlumatları daxil edin, əks təqdirdə silin]*<br>Tarix **(tarixi daxil edin)**:<br>Saat: **(saatı daxil edin)** |

| | | | |
|---|---|---|---|
| | | | Yer: **(yeri daxil edin)**<br><br>Sahəyə baxış **(təşkil ediləcək / edilməyəcək)**. |
| (7) | 8.1. | Şərtlər toplusuna dəyişiklik üçün son müddət: | **(tarix və saatı daxil edin)** |
| | | **C. Təkliflərin hazırlanması** | |
| (8) | 10.1. | Satınalmalara dair sənədlərin tərcümə olunacağı dil(lər): | Tərcümə **(olunacaq / olunmayacaq)**.<br>*[tərcümə olunacaqsa dili qeyd edin, əks təqdirdə silin]*<br>**(dili daxil edin)** |
| (9) | 13.1. | Alternativ təklif | Alternativ təkliflə icazə **(verilir / verilmir)**.<br>*[Alternativ təkliflərə icazə verilərsə, Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində onun metodologiyası müəyyən edilməlidir.]* |
| (10) | 13.2. | Alternativ tamamlama müddəti | Alternativ tamamlama müddətinə icazə **(verilir / verilmir)**. |
| (11) | 13.4. | Alternativ texniki həllər | Alternativ texniki həllərə icazə **(verilir / verilmir)**.<br>*[icazə verilirsə işlərin hissələrini qeyd edin, əks təqdirdə silin]*<br>**(işlərin təsvirini qeyd edin)**<br><br>*[Alternativ texniki həllərə icazə verilərsə, <u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində onun metodologiyası müəyyən edilməlidir.]* |
| (12) | 14.1. | Satınalma predmetinin bölünməsi | Satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünməsinə və təchizatçıların satınalma predmetinin ayrı-ayrı hissələri üçün təkliflər təqdim etməsinə icazə **(verilir / verilmir)**.<br><br>*[icazə verilirsə işlərin hissələrini və bölünmə şərtlərini qeyd edin, əks təqdirdə silin]*<br>**(satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünməsi ilə bağlı şərtləri və bölünməsinə icazə verilən hissələri ətraflı təsvir edin)** |

| | | | |
|---|---|---|---|
| (13) | 15.3. | Təklifin qiymətində nəzərə alınmalı olan amillər | **(qiymət təklifi hazırlanarkən nəzərə alınmalı olan halları daxil edin)**<br>*[Təklifin qiymətinin hazırlanması zamanı nəzərə alınmalı olan amilləri, halları daxil edin. Əgər təlimatda nəzərdə tutulandan başqa hal nəzərdə tutulmayıbsa "Başqa hal nəzərdə tutulmayıb" qeyd edin.]* |
| (14) | 19.1. | Təklifin qüvvədə olma müddəti | Təklif ən azı **(tarixi daxil edin)** tarixinə qədər qüvvədə olmalıdır<br>*[təklifin qiymətləndirilməsini yekunlaşdırmaq, lazımi razılıqları, o cümlədən nəticələrin AİBNDX ilə razılaşdırmaq üçün lazım olan ağlabatan vaxt nəzərə alınmaqla tarixi qeyd edin]* |
| (15) | 20.1. | Təklifin təminatının məbləği | **(təklif təminatının məbləğini rəqəmlə və sözlə daxil edin)**<br>*[Təklifin təminatını ehtimal olunan qiymətin 1-3 faizi aralığında müəyyənləşdirir. Məbləğin yuvarlaq və kəsrsiz olması tövsiyə olunur]* |
| (16) | 20.2. | Qarant və qarantın verdiyi təminatı təsdiqləyən tərəf barəsində tələblər | **(varsa qeyd edin, yoxdursa "yoxdur" yazın)** |
| **D. Təkliflərin təqdim olunması və açılması** | | | |
| (17) | 22.1. | Təkliflərin təqdim edilməsinin son müddəti | **(tarix və saatı daxil edin)**<br>*[Təkliflərin cəlb edilməsi barədə elan təkliflərin açılması günündən azı aşağıdakı müddətlərdən əvvəl Portalda dərc edilir:*<br>• *ehtimal olunan qiymət 1 000 000 manatadək olduqda 15 (on beş) iş günü,*<br>• *1 000 000 manatdan 10 000 000 manatadək olduqda 20 (iyirmi) iş günü,*<br>• *10 000 000 manat və ondan çox olduqda 30 (otuz) iş günü*<br>*Təkliflərin hazırlanması və təqdim edilməsi üçün icazə verilən vaxt predmetin xüsusiyyəti, miqyası və mürəkkəbliyi nəzərə alınmaqla müəyyən edilməlidir.]* |
| (18) | 25.1. | Təkliflərin açılmasının müddəti | **(tarix və saatı daxil edin)**<br>*[Təkliflər Təlimatın 24.1-ci bəndində qeyd olunan vaxtdan sonra 1 saat ərzində açılır]* |
| **E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** | | | |

| | | | |
|---|---|---|---|
| (19) | 33.1. | Subpodratçı | Subpodratçının cəlb edilməsinə icazə **(verilir / verilmir)**.<br><br>Subpodratçı üçün tələblər: **(tələbləri daxil edin)**<br><br>*[Məsələn, subpodratçının həyata keçirməsi nəzərdə tutulan fəaliyyət sahəsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növü olarsa müvafiq lisenziya əlavə edilməlidir]* |
| (20) | 34.2. | Qiymətləndirmə meyarlarının nisbi qiyməti (balı) və çəkisi: | Meyarların nisbi qiyməti (balı) **(tətbiq ediləcək / edilməyəcək)**<br><br>*[<u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində təfərrüatlı olaraq qiymətləndirilmiş meyarlar/bal sistemi təklifi qiymətləndirmə yanaşması tətbiq edilərsə, "tətbiq ediləcək" seçin].*<br><br>Qiymət amilinin çəkisi: **(çəkini daxil edin)**<br><br>*[məbləğ üçün elə bir çəki göstərin ki, texniki və məbləğ nisbətlərinin cəmi 1 (bir) olsun. Bu çəkinin 70%-dən aşağı olmaması tövsiyə olunur. Təlimatın 34.2 bəndi tətbiq edilmirsə, bu qeydi silin]*<br><br>Texniki amilin çəkisi və bölgüsü (100%-i keçməməklə hesablanır):<br><br>*Texniki amillər* — *Nisbi çəkisi*<br>1. İşlərin görülməsi müddətləri — **çəkini daxil edin**<br>2. İşlərin funksional xüsusiyyətləri — **çəkini daxil edin**<br>3. Zəmanət şərtləri — **çəkini daxil edin**<br><br>*[Yuxarıda göstərilən texniki amillər çərçivəsindən kənara çıxmamaq şərtilə konkret göstəricilər və qiymətləndirmə prosedurları <u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində müəyyən edilməlidir və texniki təklifin qiymətləndirilməsi üçün tələb olunan sənədlər bu qiymətləndirməni aparmağı imkan verməlidir. Çəkilər texniki* |

| | | | |
|---|---|---|---|
| | | | *amillərin nisbi əhəmiyyəti baxımından bölüşdürülməlidir].* |
| (21) | 34.3(c) | Digər meyarlar | Əlavə meyarlar **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)** |
| (22) | 37.4. | Uyğunluq sənədlərinin yenidən təqdim edilməsi halları | **(uyğunluq sənədlərinin yenidən təqdim edilməsi hallarını daxil edin)**<br>*[“Təkliflərin qiymətləndirilməsi müddətində dəyişilməsi gözlənilən (məsələn. vergi arayışı və s.) və ya təqdim edilmiş sənədlər arasında ziddiyyət/uyğunsuzluq olması” kimi halları qeyd edin və ya “tətbiq edilmir” daxil edin]* |
| **H. Müqavilə** | | | |
| (23) | 52.2. | Müqavilə şərtləri: | Ödəmələr: **(satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği)** |
| | | | Avans: **(avans ödənişi və təminatının məbləği və müqavilənin icra müddəti)**<br>*[Avans satınalma müqaviləsinin ümumi məbləğinin 30 faizindən (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 50 faizindən) çox olmayaraq ödənilir. Avansın alınması üçün təchizatçı tərəfindən satınalan təşkilata avans ödənişinin ümumi həcmindən az olmayan məbləğdə və müqavilənin icra müddətində qüvvədə olan müddətdə avans təminatı təqdim olunur].* |
| | | | Satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları: **(təklifin akseptindən sonra satınalma müqaviləsinin qüvvəyə minməsi üçün müvafiq sənədlər, həmin sənədlərin təqdim edilməsi müddəti və digər şərtlər)** |
| | | | Müqaviləyə dəyişiklik: **(satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları)** |
| | | | Sığorta: **(tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri)** |

# III BÖLMƏ.QİYMƏTLƏNDİRMƏ - UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI

Bu bölmədə satınalma komissiyası tərəfindən təklifləri qiymətləndirmək və uyğunluq göstəricilərinə cavab verən təchizatçıları müəyyən etmək üçün bütün meyarlar qeyd edilib. Bu şərtlər toplusunda qeyd edilməyən heç bir meyar, amil və ya göstəricidən istifadə edilə bilməz. Təchizatçı tələb olunan bütün məlumatları Satınalma formaları (IV) bölməsinə daxil edilən formalardan istifadə edərək təqdim etməlidir.

Təchizatçıdan maddi dəyərinin göstərilməsi tələb olunan məlumatlar Azərbaycan manatı ilə aşağıdakı qaydada müəyyən edilən məzənnədən istifadə edilərək təqdim edilməlidir:

- maliyyə vəziyyətində göstərilən məlumatlar - müvafiq təqvim ilinin son günündə qüvvədə olan valyuta məzənnəsi;
- müqavilənin məbləği - müqavilənin bağlanıldığı tarixdə qüvvədə olan valyuta məzənnəsi.

Valyuta məzənnələri Təlimatın 31.1-ci bəndi ilə müəyyən edilmiş açıq mənbədən götürülməlidir. Təklifində valyuta məzənnələrinin müəyyən edilməsində hər hansı səhv satınalma komissiyası tərəfindən düzəldilə bilər.

*[Satınalan təşkilat satınalma prosesi üçün uyğun hesab edilən meyarları seçməli, aşağıdakı nümunələrdən və ya digər məqbul mətndən istifadə etməklə müvafiq mətni daxil etməli və kursivlə yazılan mətni silməlidir].*

# A. Texniki və maliyyə göstəricilərinin qiymətləndirilməsi

## 1. Texniki göstəricilərin qiymətləndirilməsi

Təlimatın 34.1-ci bəndinə uyğun olaraq təklifin tələblərə uyğunluğunun qiymətləndirilməsi.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

…………………………………………………………………………………………………

Əgər Təlimatın 34.2-ci bəndi tətbiq edilərsə, qiymətləndirilməli olan texniki amillər və əgər varsa, alt amillər Təlimatın 35.2-ci bəndində hər bir texniki amilə və alt amillərə veriləcək ballar göstərilmişdir.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

...........................................................................................................................

### 1.1. Texniki göstəricilərin bal ilə qiymətləndirilməsi metodologiyası

*[Satınalan təşkilat bura daxil ediləcək bal ilə qiymətləndirmə metodologiyasını hazırlamalıdır. Əgər Təlimatın 34.2-ci bəndinə uyğun olaraq, texniki amillərə (və əgər varsa, alt amillər) əhəmiyyətinə görə nisbi ballar verilirsə həmin ballar aşağıdakı düsturla hesablanır]*

..............................................

Texniki amil daxilində (j) hər bir alt-amil (i) üçün bal, aşağıdakı düsturdan istifadə edilərək hesablanır:

$$S_j \equiv \sum_{i=1}^{k} t_{ji} * f_{ji}$$

burada:

$t_{ji}$ = “j” amilindəki “i” alt-amilinin texniki balı,

$f_{ji}$ = “j” amilindəki “i” alt-amilinin faiz nisbəti

$k$ = “j” amilindəki qiymətləndirilən alt-amillərin sayı

$$\sum_{i=1}^{k} f_{ji} = 1$$

Amilin texniki balları aşağıdakı düsturdan istifadə etməklə ümumi texniki təklif balı hesablamaq üçün çəkili məbləğdə birləşdiriləcəkdir:

$$T \equiv \sum_{j=1}^{n} S_j * F_j$$

burada:

$S_j$ = “j” amilinin balı;

$F_j$ = “j” amilinin **Satınalma məlumat vərəqində (20)** müəyyən edilən nisbi çəkisi;

$n$ = amillərin sayı

$$\sum_{j=1}^{n} F_j = 1$$

[**Düsturların izahı:** Ümumi texniki amil daxilində hər bir alt amilə görə təchizatçıya verilmiş ballar müvafiq olaraq hər bir alt amil üçün müəyyən edilmiş nisbi çəkiyə vurularaq toplanır. Məsələn, əgər ümumi texniki amil daxilində 2 alt-amilin (100% üzərindən) nisbi çəkiləri müvafiq olaraq – funksional xüsusiyyətlər 60%, zəmanət şərtləri 40%-dirsə və təchizatçıya funksional xüsusiyyətlərinə görə (100 olmaqla) 70 bal, zəmanət şərtlərinə görə 60 bal verilmişdirsə yekun bal 60%*70+40%*60 = 66 olaraq hesablanır]

### 1.2. İşlərin müəyyən edilən hissələri üçün alternativ texniki təkliflər

Təlimatın 13.4-cü bəndində nəzərdə tutulduğu təqdirdə aşağıdakı kimi qiymətləndiriləcəkdir.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

...............................................................

## 2. Maliyyə göstəricilərinin qiymətləndirilməsi

### 2.1. Maliyyə göstəricilərinin qiymətləndirilməsi üçün meyarlar

**(i)** İş qrafiki

İşə başlama tarixindən etibarən işlərin tamamlanma müddəti Satınalma müqaviləsində göstərilir. İşlərin müəyyən edilmiş müddətdən əvvəl tamamlanması nəzərə alınmayacaq.

[və ya / satınalan təşkilat 2 variantdan birini seçir digərini silər]

İşə başlama tarixindən etibarən işlərin tamamlanma üçün vaxt minimum (**minimal müddəti gün və ya ay ilə daxil edin)** və maksimum (**maksimal müddəti gün və ya ay ilə daxil edin)** arasında olmalıdır. Minimal müddətdən gec işlərin tamamlanması üçün həmin minimal müddətdən gecikmiş hər təqvim günü üçün müqayisə məqsədilə məbləğ tənzimlənməsi (artırılması) **0,1 %** təşkil edir. İşlərin erkən tamamlanması nəzərə alınmayacaq. Müəyyən edilmiş maksimal müddətdən gec başa çatma tarixi ilə təqdim edilən təkliflər kənarlaşdırılır.

**(ii)** İstismar, texniki xidmət və təmir xərcləri

(İstismar, texniki xidmət və təmir xərclərinin hesablanması **(tətbiq ediləcək / edilməyəcək)**

*[İşlərin müəyyən edilmiş istismar müddəti ərzində istismar və yaxud texniki xidmət xərclərinin ilkin dəyərlə müqayisədə əhəmiyyətli olduğu və müxtəlif təkliflər arasında dəyişə bildiyi zaman istismar dövrü xərclərinin hesablanmasından istifadə edilməlidir. O, xalis diskontlaşdırılmış dəyər əsasında qiymətləndirilməlidir. Təklifin qiymətləndirilməsi üçün istismar dövrü xərclərin hesablanması tətbiq ediləcəksə, satınalan təşkilat onun tətbiqi ilə bağlı müvafiq məlumatları burada qeyd etməlidir:]*

İstismar dövrü xərclərinin hesablanması üçün amillər:

(a) istismar dövrü üçün illərin sayı: **(illərin sayını daxil edin)**;
(b) əməliyyat xərcləri **(onların necə müəyyən ediləcəyini qeyd edin)**;
(c) istismarın ilkin dövrü üçün ehtiyat hissələrinin dəyəri daxil olmaqla texniki xidmət xərcləri **(onların necə müəyyən ediləcəyini qeyd edin)**;
(d) Diskont dərəcəsi: (a) bəndində göstərilən dövr üçün yuxarıda (b) və (c) bəndlərində hesablanmış bütün illik gələcək məsrəflərin cari məbləğə diskont edilməsi üçün istifadə ediləcək **(diskont dərəcəsini faizlə daxil edin)**.

**3. Yekun qiymətləndirmə**

Satınalma komissiyası əhəmiyyətli dərəcədə tələblərə uyğun təklifləri qiymətləndirəcək və müqayisə edəcək. Qiymətləndirilmiş təklif balı (B) hər bir təklif üçün qiymətləndirilmiş məbləğ və balı müəyyən edərək aşağıdakı düstur ilə hesablanacaq:

$$B = \frac{M_{aşağı}}{M} * X * 100 + \frac{T}{T_{yuxarı}} * (1-X) * 100$$

Burada:

$M$ = qiymətləndirilmiş təklif məbləği
$M_{aşağı}$ = bütün uyğun təkliflər üçün qiymətləndirilib ən aşağı məbləğ
$T$ = təklifə verilmiş ümumi texniki bal
$T_{yuxarı}$ = *bütün uyğun təkliflər için ən yuxarı texniki balı almış təklifin balı*
$X$ = məbləğ üçün **Satınalma məlumat vərəqində (20)** müəyyən edilən nisbi çəki**,**

İxtisas göstəricilərinin tələblərinə cavab verən ən yüksək bal alan təklif ən səmərəli təklif hesab edilir.

[**Düsturun izahı:** Əgər texniki amilin çəkisi 30%, qiymət amilinin çəkisi 70%-dirsə və satınalmada iştirak edən 3 təchizatçının təklif məbləğləri və texniki balları müvafiq olaraq aşağıdakı kimidirsə:

- Təchizatçı A: təklif məbləği - 100.000 AZN, texniki balı 60
- Təchizatçı B: təklif məbləği - 120.000 AZN, texniki balı 70
- Təchizatçı C: təklif məbləği - 110.000 AZN, texniki balı 80

Müvafiq olaraq hər bir təchizatçının balı aşağıdakı kimi hesablanacaqdır:

- Təchizatçı A: 100.000$_{\text{(ən aşağı məbləğ)}}$ /100.000$_{\text{(təchizatçı A-nın məbləği)}}$ * 70%$_{\text{(qiymət amilinin çəkisi)}}$ * 100 + 60$_{\text{(təchizatçı B-nin texniki balı)}}$ / 80$_{\text{(ən yüksək texniki bal)}}$ * 30%$_{\text{(texniki amilin çəkisi)}}$ * 100 = 92,5
- Təchizatçı B: 100.000 / 120.000 * 70% * 100 + 70 / 80 * 30% * 100 = 84,6
- Təchizatçı C: 100.000 / 110.000 * 70% * 100 + 80 / 80 * 30% * 100 = 93,6 (qalib)]

## B. Uyğunluq göstəricilərinin qiymətləndirilməsi

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə*[1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **1.** | ***İlkin tələblər*** | | | | | | |
| **1.1.** | **Təklifin təminatı** | **Satınalma məlumat vərəqində (15)** qeyd edilmiş məbləğdə və Təlimatın 20.2-ci bəndində göstərilən müddətdə qüvvədə olan təminatın təqdim edilməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Qarant tərəfindən müvafiq qaydada təqdim edilmiş təklifin təminatı **(FORMA 9)** |
| **1.2.** | **Maraqlar toqquşması** | Təlimatın 3.2-ci bəndinin tələblərinə cavab verməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)** |
| **1.3.** | **Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma** | **Satınalma məlumat vərəqində (2)(15)** göstərilən və (və ya) müəyyən edilən ölkələrdə qeydiyyatdan keçən qeyri-rezident təchizatçıların siyahısına daxil edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Qeydiyyat sənədi |
| **2.** | ***Ümumi tələblər*** | | | | | | |
| **2.1.** | **Təchizatçı haqqında** | Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | 1. Təchizatçı haqqında:<br>a. Təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti; |

[1] Bütün üzvlərin təqdim etdiyi göstəricilərin cəmi tələblərə tam cavab verməlidir.

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | | | | | | b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti;<br>c. birgə fəaliyyət göstərdikdə Təlimatın 3.4-cü bəndinə uyğun olaraq birgə fəaliyyətə dair müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu.<br>2. təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış<br>a. Hüquqi və fiziki şəxs olduqda **(FORMA 5)** və (və ya)<br>b. Birgə fəaliyyət olduqda 2 a bəndinə əlavə olaraq (**FORMA 6)**<br>3. Təlimatın 21.2-cü bəndinə uyğun olaraq təklifi imzalayan digər vəzifəli şəxs olduqda – etibarnamə.<br>4. Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış **(FORMA 8)** |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **2.2.** | **Lisenziya və (və ya) icazə (tətbiq olunarsa)** | **(satınalma predmetinin icrası üçün zəruri olan və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növünü və tətbiq olunarsa konkret istiqaməti qeyd edin** *məs. Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri – (a) xüsusi torpaq işləri və (b) mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması işləri***)** | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Uyğun olmalıdır | Lisenziya və (və ya) icazənin surəti |
| **2.3.** | **Əmlakdan sərbəst istifadə** | Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasibətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | | | | | | hazırlanmış arayış **(FORMA 1)**, məlumat və təsdiqedici sənədlər |
| **2.4.** | **Müflislik** | Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahibkarlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.5.** | **Vergi və əmək qanunverici-liyi öhdəliyi** | Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin olması və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın olmaması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının və ya inzibati cərimənin tətbiq edilməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Maliyyə sanksiyasına münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış<br>İnzibati cəriməyə münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən arayış |
| **2.6.** | **Fəaliyyət qadağası** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.7.** | **Məhkumluq** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | orqanının rəhbərinin satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırılma cinayətlərinə görə məhkum olunmaması | | | | | |
| **3.** | ***Xüsusi tələblər*** | | | | | | |
| **3.1.** | **Peşəkarlıq və təcrübə** | Satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının və təcrübəsinin olması, aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | Təchizatçının təcrübəsi barədə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 7)**, məlumat və təsdiqedici sənədlər (təhvil-təslim və ya yekun təhvil-təslim aktları, elektron qaimə və s.). |
| **3.1.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci* | | | | | |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | *maddəsində müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | | | | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsində müəyyən edilən meyarlara uyğun hazırlanmış digər prosedurları daxil edin]* |
| **3.2.** | **Maliyyə imkanı** | Satınalma müqaviləsinin icrası üçün maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsində müəyyən edilən meyarlara uyğun hazırlanmış prosedurları daxil edin]* |
| **3.2.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsində müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | ... | ... | ... | ... | |
| **3.3.** | **Texniki imkan** | Texniki imkanlarının və maddi-texniki bazasının olması - aşağıda göstərilən tələblərə cavab verməsi: **(cari satınalma predmetinin icrası üçün tələb olunan (a) texnikaların növləri, (b) xüsusiyyətləri və (c)** | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 3)** və təsdiqedici sənədlər (nəqliyyat vasitəsinin, maşın mexanizminin qeydiyyat şəhadətnaməsi, icarə, lizinq müqaviləsi və s. ); |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | **minimal say tələblərini siyahı olaraq daxil edin)** | | | | | |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir.]* | ... | ... | ... | ... | |
| 3.4. | **İşçi qüvvəsi** | Müvafiq tələblərə cavab verən işçi qüvvəsinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: **(cari satınalma predmetinin icrası üçün tələb olunan əsas heyətin (a) vəzifələrini, (b) minimal say, (c) müvafiq akademik uyğunluq və (d) müvafiq sahədə minimal təcrübə tələblərini siyahı olaraq daxil edin)** | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 4)**, məlumat və təsdiqedici sənədlər |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları* | ... | ... | ... | ... | |

| **Münasiblik və uyğunluq meyarları** | | | **Uyğunluq tələbləri** | | | | **Tələb olunan sənəd** |
|---|---|---|---|---|---|---|---|
| **Sıra №-si** | **Mövzu** | **Tələblər** | **Fərdi** | **Birgə fəaliyyət** | | | |
| | | | | ***Bütün üzvlər birlikdə*** [1] | ***Hər bir üzv ayrı-ayrılıqda*** | ***Bir üzv*** | |
| | | *və prosedurları varsa bura əlavə edilir.]* | | | | | |
| **4.** | ***Digər tələblər*** | | | | | | |
| **4.1.** | **Sahənin təşkili** | | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış sahənin təşkili barədə məlumat (tətbiq olunarsa) |
| **4.2.** | **İş metodologi-yası** | | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış iş metodologiyası barədə məlumat (tətbiq olunarsa) |
| **4.3.** | **İcra müddəti** | | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış mobilizasiya qrafiki və tikinti qrafiki (tətbiq olunarsa) |
| **4.4.** | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir.]* | | | | | | |

# IV BÖLMƏ. SATINALMA FORMALARI

## FORMA 1. Təklif məktubu

Təklifin təqdim olunma tarixi: **(tarixi daxil edin)**

Müsabiqə nömrəsi: **(müsabiqə nömrəsini daxil edin)**

Kimə: **(Satınalan təşkilatın adını daxil edin)**

Biz, aşağıda imza edənlər bəyan edirik ki:

**(a)** **qeyd-şərtin olmaması:** Təlimatın 8-ci hissəsinə müvafiq olaraq verilmiş əlavə və dəyişikliklər də daxil olmaqla (mövcud olduğu halda) şərtlər toplusu və onu təşkil edən sənədlər ilə tanış olduq, burada təsvir olunan işin görülməsi haqqında tam məlumata malikik və bu sənədlərə heç bir qeyd-şərtimiz yoxdur;

**(b)** **münasiblik:** Təlimatın 3-cü hissəsində qeyd edilmiş tələblərə cavab veririk və maraqların toqquşması hallarının olmadığını təsdiqləyirik;

**(c)** **uyğunluq:** Biz ***(satınalma predmetini daxil edin)*** [Keywords] şərtlər toplusunun tələblərinə və nəzərdə tutulmuş icra qrafikinə uyğun olaraq yerinə yetirməyi təklif edirik;

**(d)** **qiymət:** Tələb olunan işləri bütün vergi və rüsumlar daxil olmaqla-dövlət satınalmalarının vahid internet Portalında göstərilən məbləğdə yerinə yetirməyi təklif edirik.

**(e)** **təklifin qüvvədə olma müddəti**: Təklifimiz dövlət satınalmalarının vahid internet Portalında göstərilən tarixə qədər qüvvədədir, bizim üçün məcburi xarakter daşıyır və bu müddətin bitməsindən öncə istənilən vaxt qəbul edilə bilə;

**(f)** **icra təminatı**: Bizim təklifimiz qəbul edildiyi təqdirdə şərtlər toplusunda qeyd edilən şərtlərdə icra təminatını təqdim edəcəyimizi öhdəmizə götürürük;

**(g)** **hər təchizatçı bir təklif:** Biz fərdi təchizatçı kimi hər hansı digər təklif və ya təkliflər təqdim etmirik, birgə fəaliyyət üzvü və ya subpodratçı kimi hər hansı digər satınalma və ya satınalmalarda iştirak etmirik və Təlimatın 13-cü hissəsinə uyğun təqdim edilmiş alternativ təkliflər istisna olmaqla Təlimatın 3.3-cü bəndinin tələblərinə cavab veririk;

**(h)** **qəbul etmək məcburiyyətinin olmaması**: Başa düşürük ki, siz ən aşağı qiyməti olan, ən səmərəli və ya digər istənilən təklifi qəbul etmək məcburiyyətində deyilsiniz;

**(i)** **əmlakdan sərbəst istifadə**: Müqavilənin icrası zamanı istifadə olunacaq əmlaklardan (daşınmaz əmlak və nəqliyyat vasitələri istisna olmaqla) sərbəst və məhdudiyyətsiz istifadə etmək hüququmuz var;

**(j)** **saxtakarlıq və korrupsiya:** Bizim üçün və ya bizim adımızdan hərəkət edən heç kimin heç bir formada saxtakarlıq və korrupsiya əməlləri törətməməsi üçün müvafiq tədbirləri görmüşük.

Təchizatçının adı: (təchizatçının adını daxil edin)

Təchizatçının VÖENİ: **(təchizatçının VÖEN-ini daxil edin)**

Təklifi təchizatçı adından imzalamaq səlahiyyəti olan şəxsin ad və soyadı:**(adı və soyadı daxil edin)**

Təklifi imzalayan şəxsin vəzifəsi: **(tam vəzifəni qeyd edin)**

İmzalanma tarix: **(tarixi daxil edin)**

# FORMA 2. İş həcmləri cədvəli

*[Bu qeydlər satınalan təşkilat və ya iş həcmləri cədvəlini tərtib edən şəxsi məlumatlandırmaq üçün nəzərdə tutulub. Yekun sənəddən çıxarılmalıdır.*

***Məqsədlər***

*İş həcmləri cədvəlini məqsədləri aşağıdakılardır*

(a) *təkliflərin səmərəli və dəqiq hazırlanmasını təmin etmək üçün görüləcək işlərin miqdarları haqqında kifayət qədər məlumat vermək; və*
(b) *müqavilə bağlandıqda, yerinə yetirilən işlərin dövri qiymətləndirilməsində istifadə üçün qiymətləndirilmiş iş həcmləri cədvəli kimi işlətmək.*

*Bu məqsədlərə çatmaq üçün, işlərin müxtəlif növlərini və ya müxtəlif yerlərdə və ya fərqli qiymət mülahizəsinə səbəb olacaq şəraitlərdə icra ediləcək eyni xarakterli işləri fərqləndirmək üçün işlər maddələrlə göstərilməklə kifayət qədər təfərrüatlı şəkildə iş həcmləri cədvəlində qeyd edilməlidir. qiymət mülahizələri. Bu tələblərə uyğun olaraq, iş həcmləri cədvəlinin tərtibatı və məzmunu mümkün qədər sadə və qısa olmalıdır.*

***Məzmun***

*İş həcmləri cədvəli ümumiyyətlə aşağıdakı bölmələrə bölünməlidir:*

*(a) Preambula;*
*(b) İş maddələri (hissələrə qruplaşdırılmış);*
*(c) Xülasə.*

***Preambula***

*Preambula vahid qiymətlərin əhatəliliyini göstərməli və iş həcmləri cədvəlinin hazırlanması zamanı qəbul edilmiş və işlərin hər hansı hissəsinin ölçülməsi üçün istifadə ediləcək ölçmə üsullarını ehtiva etməlidir.*

***Qaya***

*Qazıntı, dəlmə və ya daşıma işlərə daxil edildikdə, qayanın hərtərəfli tərifi (müqavilə üzrə idarəetmədə həmişə mübahisəli mövzudur) texniki və keyfiyyət xüsusiyyətlərində təqdim edilməli və bu tərif ölçmə və ödəniş məqsədləri üçün istifadə edilməlidir.*

***İş maddələri***

*Xarakteristikasına, yerinə, giriş vaxtına, vaxta və ya hər hansı digər spesifik xüsusiyyətlərə görə müxtəlif tikinti metodlarına, işlərin mərhələliliyinə və ya qiymət mülahizələrinə səbəb olan maddələr bölmələr üzrə qruplaşdırılmalıdır. İşlərin bütün hissələri üçün ümumi olan maddələr iş həcmləri cədvəlində ayrıca bölmə kimi qruplaşdırıla bilər.*

***Miqdarlar***

*Müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, miqdarlar yalnız çertyojlar (cizgilər) əsasında hesablanmalıdır və qabarma, yığılma, və ya itkisi üçün heç bir güzəşt nəzərə alınmamalıdır. Ehtiyac olduqda yuvarlaqlaşma aparılmalı və süni dəqiqlikdən qaçınılmalıdır..*

***Ölçü vahidləri***

*Başqa milli vahidlər məcburi olmadıqda aşağıdakı ölçü vahidləri və qısaltmalar istifadə üçün tövsiyə olunur.*

| Ölçü vahidi | Qısaltma | Ölçü vahidi | Qısaltma |
|---|---|---|---|
| Kub metr | $m^3$ və ya kb. m | millimetr | mm |
| hektar | ha | ay | ay |
| saat | h | ədəd | əd. |
| kiloqram | kq | kvadrat metr | $m^2$ və ya kv.m |
| birdəfəlik cəm | cəm | kvadrat millimetr | $mm^2$ və ya kv mm |
| metr | m | həftə | hf |
| ton (1,000 kg) | t | | |

***Torpaq və qazıntı səviyyələri***

*Başlanğıc səviyyəsi orijinal səviyyə olmayan qazıntı, deşmə və ya daşıma ilə əlaqəli işlərin hər bir elementinin təsvirində başlanğıc səviyyə müəyyən edilməlidir. Qazılmış səviyyə son səviyyə olmayan qazıntı ilə bağlı işlərin hər bir elementinin təsvirində qazılmış səviyyə müəyyən edilməlidir. İşin dərinliyi başlanğıc səviyyə ilə qazılan səviyyə arasındakı fərq olaraq ölçülməlidir.*

***Xülasə***

*Xülasə iş həcmləri cədvəlinin ayrı-ayrı hissələrinin cədvəlini ehtiva etməlidir.*

## A. Preambula

1. İş həcmləri cədvəli Təchizatçılar üçün təlimatlar (o cümlədən Satınalma məlumat vərəqi), Müqavilə, (B) İşlərə dair tələblər (o cümlədən çertyojlar) sənədi ilə birlikdə oxunmalıdır.
2. İş həcmləri cədvəlində verilmiş miqdarlar təxmini və şərtidir və cari satınalma predmeti ilə bağlı ümumi təsəvvür yaratmaq üçün verilmişdir. Ödənişin əsasını təchizatçı tərəfindən ölçülən, satınalan təşkilat tərəfindən yoxlanılan faktiki miqdarlar və qiymət daxil edilmiş iş həcmləri cədvəlində müəyyən olunan vahid qiymətlər təşkil edəcəkdir.
3. İşin və materialların detallı təsvirləri iş həcmləri cədvəlinə daxil edilməmiş ola bilər. İş həcmləri cədvəlinin hər bir bəndi üzrə qiymətlər daxil edilməzdən əvvəl müqavilə sənədlərinin müvafiq bölmələrinə istinad edilməlidir.
4. İş həcmləri cədvəlindəki maddələr işin xarakteristikasına və icra vaxtına görə qruplaşdırıla bilər (məsələn. ümumi maddələr, torpaq işləri və s.).
5. Ödəniş üçün tamamlanmış işin ölçülməsi üsulu **(standart məlumat kitabçasının adını və ya istifadə ediləcək metodların tam təfərrüatlarını daxil edin)** uyğun olmalıdır.

## B. İş həcmləri üzrə maddələr

Təchizatçı satınalan təşkilat tərəfindən aşağıdakı formada hazırlanmış iş həcmləri cədvəlini Portal vasitəsilə əldə edərək doldurur

| *Maddə №.* | *Təsvir* | *Ölçü vahidi* | *Miqdar* | *Vahidin qiyməti* | *Cəm* |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | **Yekun cəm:** | ______ |

# FORMA 3. Texniki baza

Təchizatçı Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində sadalanan əsas avadanlıq üçün tələblərə cavab vermək qabiliyyətinə malik olduğunu aydın şəkildə nümayiş etdirmək üçün müvafiq məlumatı təqdim etməlidir.

| **Sıra №-si** | **Avadanlığın adı, istehsalçısı və modeli** | **İstehsal ili** | **Hazırkı yeri və məşğulluğu** | **Mülkiyyətçi** | **Mülkiyyətçinin adı, ünvanı, əlaqə məlumatları və icarə şərtləri** *(əgər şəxsi deyilsə)* |
|---|---|---|---|---|---|
| 1. | | | (yeri, istifadədə və ya boşda olması qeyd edilir) | (Şəxsi, icarə, lizinq və ya xüsusi istehsal) | (cari satınalma predmeti çərçivəsində texnikanın icarə, lizinq və ya istehsalına dair detallar qeyd edilir) |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |
| 5. | | | | | |

# FORMA 4. Təklif edilən əsas heyətin tərcümeyi-halı və bəyannaməsi

Təchizatçı Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində sadalanan əsas işçi heyət tələblərinə cavab vermək qabiliyyətinə malik olduğunu aydın şəkildə nümayiş etdirmək üçün müvafiq məlumatı hər bir şəxs üçün ayrıca təqdim etməlidir. Bundan başqa, bütün vəzifələr üzrə cəlb ediləcək şəxslərin nəzərdə tutulan fəaliyyət müddətinə dair vaxt cədvəli detallı Qant diaqramı və ya bənzər digər cədvəl formasında təqdim edilməlidir.

<table>
<tr><td colspan="3">Təchizatçının adı: (təchizatçının adını daxil edin)</td></tr>
<tr><td colspan="3">Təklif edilən namizədin vəzifəsi: (Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulmuş vəzifəni daxil edin)</td></tr>
<tr><td>Məşğulluq dövrü:</td><td colspan="2">(bu vəzifə öhdəliyi üzrə cəlb ediləcək şəxsin işə başlama və işi bitirmə tarixlərini daxil edin)</td></tr>
<tr><td>İş müddəti:</td><td colspan="2">(bu vəzifə öhdəliyi üçün cəlb ediləcək şəxsin planlaşdırılan iş müddətini gün, həftə və ya ay olaraq daxil edin)</td></tr>
<tr><td rowspan="6">Heyət barədə məlumat</td><td>Ad və soyad:<br>(Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulmuş vəzifəyə uyğun hesab edilərək təklif edilən namizədin ad və soyadını daxil edin)</td><td>Doğum günü:</td></tr>
<tr><td rowspan="2">Ünvan:</td><td>E-poçt:</td></tr>
<tr><td>Mobil nömrə:</td></tr>
<tr><td colspan="2">Peşəkar sertifikatları:</td></tr>
<tr><td colspan="2">Təhsili:</td></tr>
<tr><td colspan="2">Dil biliyi:<br>(dil, danışma, oxuma və yazma bacarıqlarının səviyyələri)</td></tr>
<tr><td rowspan="5">İş yeri barədə məlumat</td><td colspan="2">İşəgötürənin adı:</td></tr>
<tr><td colspan="2">İşəgötürənin ünvanı:</td></tr>
<tr><td colspan="2">Əlaqəli şəxsi (menecer / kadrlar şöbəsinin əməkdaşı):</td></tr>
<tr><td>Telefon:</td><td>E-poçt</td></tr>
<tr><td>Vəzifəsi</td><td>Hazırkı iş yerində çalışma müddəti</td></tr>
</table>

Peşəkar təcrübəni tərs xronoloji ardıcıllıqla ümumiləşdirin. Satınalma predmeti ilə əlaqəli xüsusi texniki və idarəetmə təcrübəsini göstərin.

| İş yeri/Layihə | Vəzifə | İş müddəti | Müvafiq təcrübə |
|---|---|---|---|
| *(İşəgötürən və ya layihənin əsas detalları)* | *(bu işdə vəzifə və öhdəlikləri)* | *(bu vəzifədə işləmə müddəti)* | *(qeyd olunan təcrübənin cari vəzifə öhdəliklərinə uyğunluğunu təsvir edin)* |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**İltizam**

Mən imza etməklə təsdiqləyirəm ki, bu **FORMA 4**-də verilən məlumatlar mənim ixtisasımı və təcrübəmi düzgün təsvir edir.

Mən təsdiq edirəm ki, yuxarıda qeyd edilən məşğulluq dövrü və iş müddətində işləmək üçün öhdəlik götürürəm.

Mən başa düşürəm ki, bu Formada məlumatların yanlış verilməsi, gizlədilməsi və ya verilməməsi təklifin qiymətləndirilməsində nəzərə alınaraq mənim satınalmadan, müqavilə bağlandıqda isə müqavilənin icrasından uzaqlaşdırılmağıma səbəb ola bilər.

**Namizədin adı və soyadı:*(adı və soyadı daxil edin*)**

İmza: ______________________________________________________

Tarix: **(tarixi daxil edin)**

**Təchizatçının səlahiyyətli nümayəndəsinin adı və soyadı: (adı və soyadı daxil edin)**

İmza: ______________________________________________________

Tarix:**(tarixi daxil edin)**

# FORMA 5. Təchizatçı haqqında

| |
|---|
| Təchizatçının adı: **(təchizatçının adını daxil edin)** |
| Birgə fəaliyyət göstərdikdə hər bir üzvün adı: **(hər bir üzvün hüquqi adını qeyd edin)** |
| Təchizatçının qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Təchizatçının təsis ili: **(ili qeyd edin)** |
| Təchizatçının hüquqi və faktiki ünvanları: **(ünvanı qeyd edin)** |
| Təchizatçının səlahiyyəti nümayəndəsi haqqında:<br>• Adı və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 6. Birgə fəaliyyət haqqında

*(tətbiq olunursa hər bir birgə fəaliyyət göstərən üzvü üçün ayrı-ayrılıqda doldurulur)*

| |
|---|
| Birgə fəaliyyət göstərənin adı: (təchizatçının adını daxil edin) |
| Birgə fəaliyyət göstərən üzvünün adı: **(üzvün hüquqi adını qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin üzvün qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün təsis ili: **(ili qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün faktiki və hüquqi ünvanı: **(ünvanı qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin səlahiyyətli nümayəndəsi haqqında:<br>• Adı və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 7. Oxşar işlər üzrə təcrübə

| **Sıra №-si** | **Başlanma və bitmə tarixi** | **Satınalan təşkilat və əlaqə vasitələri** *(ünvanı, e-poçtu və telefonu)* | **Müqavilənin predmeti** | **İcra olunan işlərin cari satınalma predmetinə bənzərliyinin təsviri** *(yeri, əsas komponentləri, miqdarları/həcmləri və s.)* | **Müqavilənin məbləği** *(AZN ilə)* | **İcra vəziyyəti** *(davam edirsə tamamlanma faizi qeyd edilir)* | **Təchizatçının rolu** |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | (Təchizatçı, subpodratçı və ya birgə fəaliyyət üzvü) |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |
| 5. | | | | | | | |

# FORMA 8. Subpodratçılar haqqında məlumat

| Sıra №-si | Subpodratçının hüquqi adı və VÖEN-i | Əlaqə vasitəsi | Həyata keçirəcəyi işlərin təsviri | Müqavilə məbləğində payı (faizlə) |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |
| 5. | | | | |

# FORMA 9. Təklifin təminatı

Qarantiya nömrəsi: **(qarant tərəfindən doldurulur)**
Satınalan təşkilat: **(satınalan təşkilatın adı)**
Satınalma predmeti: **(satınalma predmetini daxil edin)**
Tarix: **(tarixi daxil edin)**

Nəzərə alaraq ki, **(təchizatçının adını daxil edin)** (VÖEN-i: **(təchizatçının VÖEN-ini daxil edin)**) (bundan sonra - təchizatçı) yuxarıda qeyd olunmuş satınalma predmetində nəzərdə tutulan işlərin yerinə yetirilməsi üçün təklifini (bundan sonra – təklif) təqdim edəcəkdir, təchizatçının müraciəti əsasında biz, **(qarantın ünvanını daxil edin)** ünvanında yerləşən **(qarantın adını daxil edin)** (**(qarantın VÖEN-ini daxil edin)**) (bundan sonra – qarant) **(satınalan təşkilatın adı)** (VÖEN-i: **(satınalan təşkilatın VÖEN-ini daxil edin)**) (bundan sonra – satınalan təşkilat) qarşısında satınalan təşkilatın təchizatçının aşağıdakı öhdəliyə (öhdəliklərə) əməl etməməsi barədə müraciəti əsasında **(təklif təminatının məbləğini rəqəmlə və sözlə daxil edin)** məbləği əsaslandırma, sübut və ya səbəblərini göstərməyi tələb etmədən satınalan təşkilata geri qaytarılmayacaq şəkildə ödəyəcəyimizə öhdəlik götürürük:

(a) təchizatçı təklif məktubunda qeyd etdiyi təklifin qüvvədə olduğu müddətdə təklifini geri götürmüşdür və (və ya)

(b) təchizatçı tərəfindən təqdim edilmiş təklifin ilkin və ya uzadılmış qüvvədə olduğu müddətində aksept bildirişini aldığı halda (i) 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalamamışdır və ya (ii) şərtlər toplusuna əsasən tələb olunan icra təminatını təqdim etməmişdir.

Bu təminat aşağıdakı hallarda qüvvədən düşmüş hesab olunur:

(a) Təchizatçı və satınalan təşkilat tərəfindən imzalanmış müqavilə və icra təminatının nüsxəsi təqdim edildikdə və ya

(b) Təchizatçı qalib olmadığı təqdirdə (hansı birinci baş versə):
   i. satınalmanın nəticələri barədə təchizatçıya göndərilmiş bildiriş təqdim edildikdə və ya
   ii. təklifin qüvvədə olma müddətindən sonra 30 (otuz) iş günü keçdikdə **(tarixi daxil edin)**.

Bu təminat çərçivəsindəki hər hansı tələb qaranta yuxarıda qeyd olunan tarixdə və ya ondan öncə təqdim edilməlidir.

Qarant bu öhdəlikləri öz adından, öz varislərinin və müvəkkillərinin adından götürür.

Bu təminat Azərbaycan Respublikasında qüvvədə olan müvafiq qanunvericilik ilə tənzimlənir.

Qarantın adından və tapşırığı ilə **(imzalar)**

# (B) İŞLƏRƏ DAİR TƏLƏBLƏR

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar (satınalma predmetinin ətraflı təsviri, zəruri texniki və keyfiyyət xüsusiyyətləri (o cümlədən planlar, çertyojlar (cizgilər) və eskizlər), işlərin görülməsi yeri, qrafiki və s.) daxil edilir. Yalnız istehsal olunmuş mal partiyası üçün tətbiq olunan sertifikatların (məsələn uyğunluq, mənşə və s.), həmçinin şərtlər toplusunun tələblərinə uyğun hazırlanmış mallara dair nümunələrin təqdim olunması kimi şərtlərin tələblərə daxil edilməsinə yol verilmir (belə tələblər müqavilə şərtlərinə daxil edilə və ya şərtlər toplusunun tələblərinə bənzər xüsusiyyətdə istehsal olunmuş mallara Təchizatçı ilə razılaşdırılmış yerdə baxış keçirilə bilər)]*

# (C) SATINALMA MÜQAVİLƏSİ

*[Qanunun 38.15-ci maddəsinə əsasən işlər üzrə satınalma müqaviləsinin nümunəvi forması müvafiq qaydada doldurularaq əlavə edilir]*

______________________________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 30 dekabr tarixli 503 nömrəli
Qərarı ilə **təsdiq edilmişdir.**

**2 nömrəli əlavə**

## (satınalma predmetini daxil edin)

---

*mallarının*

AÇIQ TENDER METODU

ilə satın alınması üçün

# ŞƏRTLƏR TOPLUSU

SATINALAN TƏŞKİLAT: **(satınalan təşkilatın adını daxil edin)**

ELAN TARİXİ: **(elan tarixini daxil edin)**

## MÜNDƏRİCAT

(A) SATINALMA PROSEDURLARI


**I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT** ... 3
**A. Ümumi** ... 3
**1. Satınalma haqqında** ... 3
**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar** ... 3
**3. Təchizatçıların münasibliyi** ... 3
**4. Malların və əlaqədar xidmətlərin münasibliyi** ... 5
**5. Satınalmada istifadə və iştirak haqqı** ... 6
**B. Şərtlər toplusunun məzmunu** ... 6
**6. Şərtlər toplusunun tamlığı** ... 6
**7. Şərtlər toplusuna dair izahat** ... 7
**8. Şərtlər toplusuna dəyişikliklərin edilməsi** ... 7
**C. Təkliflərin hazırlanması** ... 8
**9. Satınalma xərcləri** ... 8
**10. Təklifin tərtib olunmasının dili** ... 8
**11. Təklifə daxil olan sənədlər** ... 8
**12. Təklif məktubu və cədvəllər** ... 9
**13. Alternativ təklif** ... 9
**14. Satınalma predmetinin bölünməsi** ... 9
**15. Təklifin qiyməti** ... 9
**16. Təklifin və ödənişin məzənnəsi** ... 10
**17. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)** ... 10
**18. Uyğunluq sənədləri** ... 11
**19. Təklifin qüvvədə olma müddəti** ... 11
**20. Təklifin təminatı** ... 12
**21. Təklifin formatı və imzalanması** ... 13
**D. Təkliflərin təqdim olunması və açılması** ... 13
**22. Təkliflərin təqdim edilməsinin son müddəti** ... 13
**23. Gecikmiş təkliflər** ... 14
**24. Təkliflərin geri götürülməsi və ya dəyişdirilməsi** ... 14
**25. Təkliflərin açılması** ... 14
**E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** ... 14
**26. Məxfilik (konfidensiallıq)** ... 14
**27. Təkliflərə dair izahat** ... 15
**28. Formal tələblərə uyğunluğun müəyyən edilməsi** ... 15
**29. Əhəmiyyətsiz uyğunsuzluqlar** ... 16
**30. Hesab səhvlərinin düzəldilməsi** ... 16
**31. Vahid valyutaya konvertasiya** ... 16
**32. Satınalma güzəşti** ... 16
**33. Subpodratçılar** ... 16
**34. Təkliflərin qiymətləndirilməsi** ... 17
**35. Təkliflərin müqayisəsi** ... 18
**36. Həddindən artıq ucuz təkliflər** ... 18
**37. Təchizatçının uyğunluq göstəriciləri** ... 18
**38. Qalib təklifin seçilməsi** ... 19
**39. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ** ... 19

40. Satınalmanın nəticələri barədə bildiriş ........ 20
41. Gözləmə müddəti ........ 20
F. Qalibin seçilməsi ........ 20
42. Qalibin seçilməsi proseduru ........ 20
43. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi ........ 20
44. Müqavilənin imzalanması ........ 20
45. Bağlanılmış müqavilə barədə məlumatın verilməsi ........ 20
46. İcra təminatı ........ 21
G. Şikayət verilməsi ........ 21
47. Şikayət vermək hüququ ........ 21
48. Satınalan təşkilata şikayət ........ 22
49. AİBNDX-yə şikayət ........ 22
50. Satınalmanın dayandırılması ........ 23
51. İnzibati qaydada şikayət ........ 24
H. Müqavilə ........ 24
52. Müqavilə şərtləri ........ 24
II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ ........ 25
III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ - UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI ........ 31
IV BÖLMƏ. SATINALMA FORMALARI ........ 44
FORMA 1. Təklif məktubu ........ 44
FORMA 2. Qiymət cədvəli ........ 45
FORMA 3. Təchizatçı haqqında ........ 46
FORMA 4. Birgə fəaliyyət haqqında ........ 47
FORMA 5. Oxşar malların göndərilməsi üzrə təcrübə ........ 48
FORMA 6. Subpodratçılar haqqında məlumat ........ 49
FORMA 7. Təklifin təminatı ........ 50
FORMA 8. İstehsalçının icazəsi ........ 51
(B) MALLARA DAİR TƏLƏBLƏR
(C) SATINALMA MÜQAVİLƏSİ

# I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT

## A. Ümumi

**1. Satınalma haqqında**

1.1. **Satınalma məlumat vərəqində (1)** qeyd edilən satınalan təşkilat tərəfindən *(B) Mallara dair tələblər* sənədində nəzərdə tutulmuş malların və tətbiq olunduğu halda əlaqədar xidmətlərin maliyyə vəsaiti hesabına dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun görülməsi üçün bu şərtlər toplusu hazırlanmışdır. Satınalma predmeti, satınalan təşkilatın adı, VÖEN-i və satınalan təşkilatın əlaqələndirici şəxsi barədə məlumatlar **Satınalma məlumat vərəqində (1)** qeyd edilir.

1.2. Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanunundan (bundan sonra – Qanun) və digər normativ hüquqi aktlardan ibarətdir.

1.3. Təkliflərin qiymətləndirilməsi zamanı aşağıdakı anlayışlar tətbiq edilir:

(a) “Kənara çıxma” şərtlər toplusunda göstərilən tələblərdən yayınmadır;

(b) “Qeyd-şərt” məhdudlaşdırıcı şərtlərin müəyyən edilməsi və ya şərtlər toplusunda göstərilən tələblərin tam qəbul edilməsindən boyun qaçırmadır;

(c) “Çatışmazlıq” şərtlər toplusunda tələb olunan məlumat və ya sənədlərin bir hissəsinin və ya hamısının təqdim edilməməsidir.

1.4. Bu şərtlər toplusunda istifadə olunan digər anlayışlar Qanun və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar**

2.1. Satınalan təşkilat “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa riayət olunmasını tələb edir.

**3. Təchizatçıların münasibliyi**

3.1. **Satınalma məlumat vərəqində (2)** göstərilən Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların

satınalmada iştirak etməsinə məhdudiyyətlər qoyulduğu hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident təchizatçı (fiziki şəxs, hüquqi şəxs, o cümlədən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün hüquqi və (və ya) fiziki şəxslərin müqavilə əsasında yaratdığı müvəqqəti və ya daimi birliyi (bundan sonra – birgə fəaliyyət) daxil olmaqla) Azərbaycan Respublikasında keçirilən satınalmalarda iştirak edə bilər. Təchizatçı nizamnaməsi (və ya buna bərabər tutulan sənədləri) və ya qeydiyyat sənədləri ilə müəyyən olunduğu ölkənin qanunlarının müddəalarına uyğun olaraq yaradılmış, təsis edilmiş və ya qeydiyyatdan keçmiş və fəaliyyət göstərdiyi təqdirdə həmin ölkəyə mənsub hesab edilir. Müqavilənin hər hansı hissəsinin icrasına cəlb edilməsi təklif edilən subpodratçıların ölkə mənsubiyyəti bu meyar əsasında müəyyən edilir.

3.2. Təchizatçının iştirak etdiyi satınalmada Qanunun 6.1-ci maddəsinə əsasən maraqlar toqquşması olmamalıdır. *(Qanunun 6.1-ci maddəsindən çıxarış:*

*Təchizatçıların aşağıdakı hallarda (satınalma predmetinin yalnız hər hansı konkret təchizatçıda olduğu, yaxud satınalma predmetinin əvəzedicisi və alternativi olmadığı hallar istisna olmaqla) satınalmalarda iştirakına yol verilmir, bu hallar müəyyən olduqda satınalmadan kənarlaşdırılır:*

- *təchizatçının satınalan təşkilatdan və ya satınalan təşkilatla təchizatçının eyni qurumdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olduqda;*
- *təchizatçılardan biri digərinin benefisiar mülkiyyətçisi olduqda, yaxud təchizatçıların azı ikisi eyni benefisiar mülkiyyətçinin nəzarətində olduqda;*
- *təchizatçılardan biri digərinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı olduqda, yaxud təchizatçıların azı ikisinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı eyni şəxs olduqda;*
- *satınalmada təchizatçı qismində çıxış edən fiziki şəxs və ya hüquqi şəxsin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsinə əsasən aidiyyəti şəxsi satınalan təşkilatın rəhbəri ilə qohumluq (ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürənlər, övladlığa götürülmüş şəxslər, babalar, nənələr, nəvələr, doğma (ögey) bacılar və qardaşlar, bacı və qardaşların övladları, bacıların ərləri, qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, ər-arvadların valideynləri, bacıları və qardaşları) münasibətində*

*olduqda).*

3.3. Birgə fəaliyyətin üzvü olaraq və ya fərdi şəkildə alternativ təkliflərə icazə verilən hallar istisna olmaqla təchizatçılar eyni satınalma üzrə birdən artıq təklif təqdim etməməli və ya birdən artıq təklifdə iştirak etməməli, həmçinin həmin satınalmada iştirak edən digər təchizatçının subpodratçısı olmamalıdır. Bu hal aşkarlandıqda həmin təchizatçıların təqdim etdikləri və (və ya) iştirak etdikləri bütün təkliflər kənarlaşdırılır.

3.4. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar bu məqsədlə tərəflərin hər birinin imzaladığı müqaviləyə və ya müqavilə layihəsi əlavə edilməklə müqavilə bağlamaq barədə tərəflərin hər birinin imzaladığı niyyət məktubuna malik olmalıdırlar. Bu halda birgə fəaliyyət göstərmək istəyən tərəflərin hər birinin müqavilənin müqavilə şərtlərinə uyğun icrası üçün birgə və fərdi məsuliyyət daşıması və tərəflər arasındakı iş öhdəliklərinin bölgüsü barədə müddəalar birgə fəaliyyət müqaviləsinə və ya müqavilə layihəsinə daxil edilməlidir. Birgə fəaliyyət onun adından və tərəfləri üçün satınalmada iştirak və müqavilə bağlanıldıqda isə müqavilənin icrasını təmin etmək məqsədilə müvafiq səlahiyyətə malik nümayəndə təyin edir. **Satınalma məlumat vərəqində (3)** göstərilmədiyi təqdirdə birgə fəaliyyətin üzvlərinin sayına məhdudiyyət qoyulmur.

3.5. Qanunun 16-cı maddəsi ilə tənzimlənən qaydada etibarsız təchizatçıların reyestrinə daxil edilmiş təchizatçıların müəyyən olunmuş müddətdə satınalmalarda iştirakına yol verilmir. Etibarsız təchizatçıların reyestri etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalında (bundan sonra – Portal) yerləşdirilir.

3.6. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləş-dirilməsi proseduru keçirildikdə, yalnız uyğunluq göstəricilərinə cavab verən təchizatçılar satınalmada iştirak edə bilərlər.

**4. Malların və əlaqədar xidmətlərin münasibliyi**

4.1. Müqavilə çərçivəsində Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçılar və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçılar tərəfindən malların (materialların, avadanlıqların və s.) təchiz edilməsinə və xidmətlərin göstərilməsinə yol verilmir. Satınalan təşkilatın tələbi ilə

təchizatçılardan malların və xidmətlərin mənşəyinə dair sübut təqdim etmələri tələb oluna bilər.

4.2. Mallar anlayışı Qanunun 1.1.13-cü maddəsinə əlavə olaraq əmtəə, xammal, maşın, avadanlıq, sənaye qurğuları və sığorta, quraşdırma, təlim, ilkin texniki qulluq kimi əlaqədar xidmətləri əhatə edir.

4.3. Malların mənşə ölkəsi qanunvericiliklə müəyyən edilmiş qaydada təyin edilir.

**5. Satınalmada istifadə və iştirak haqqı**

5.1. Birdəfəlik və ya istifadə müddətinə görə istifadə haqqını ödəyərək Portaldan istifadə hüququnu əldə etmiş təchizatçılar təklifləri təqdim etmək üçün **Satınalma məlumat vərəqində (4)** qeyd edilən məbləğdə iştirak haqqı ödəyirlər.

5.2. İstifadə və iştirak haqqı Portalda “ASAN ödəniş” sistemi vasitəsilə bank kartı ilə ödənilir.

5.3. Təkliflə təklifin təminatını təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayının üçdən az olması səbəbindən satınalmanın ləğv edilməsi və həmin satınalma predmeti üzrə təkrar satınalma keçirilməməsi halı istisna olmaqla ödənilmiş iştirak haqqı və istifadə haqqı heç bir halda geri qaytarılmır. Satınalmanın maliyyələşdirilməsinin dayandırılması və təchizatçıların sayının üçdən az olması səbəbindən satınalma ləğv edildikdə satınalma planında nəzərdə tutulmuş həmin satınalma predmeti üzrə təkrar satınalma keçirildiyi təqdirdə iştirak haqqını ödəyən və geri almayan təchizatçıların təkrar ödəniş etmədən satınalmada iştirakı təmin edilir.

5.4. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru keçirildikdə uyğunluq göstəricilərinə cavab verərək satınalmada iştirakı davam etdirən təchizatçılar iştirak haqqı ödəmirlər.

## B. Şərtlər toplusunun məzmunu

**6. Şərtlər toplusunun tamlığı**

6.1. Şərtlər toplusu aşağıda verilmiş bütün bəndləri əhatə edən və təchizatçılar üçün təlimatın (bundan sonra – Təlimat) 7-ci hissəsinə uyğun olaraq ona edilən dəyişikliklər və əlavələrlə birlikdə nəzərə alınmalı olan aşağıdakı bölmələrdən ibarətdir:

- A. SATINALMA PROSEDURLARI
  - I Bölmə. Təchizatçılar üçün təlimat
  - II Bölmə. Satınalma məlumat vərəqi
  - III Bölmə. Qiymətləndirmə və uyğunluq meyarları

  - IV Bölmə. Satınalma formaları
- B. MALLARA DAİR TƏLƏBLƏR
- C. SATINALMA MÜQAVİLƏSİ

6.2. Təchizatçıdan şərtlər toplusunda verilmiş bütün təlimat, forma, tələb, texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri) ilə tanış olması və şərtlər toplusunda tələb edilən bütün məlumat və sənədləri təqdim etməsi tələb olunur.

6.3. Portal vasitəsilə birbaşa əldə edilmədiyi təqdirdə satınalan təşkilat şərtlər toplusunun tamlığı, şərtlər toplusunda aydın olmayan hallarla bağlı sorğularına, əvvəlki görüşlərin (əgər olubsa) nəticələri barədə protokollara və (və ya) Təlimatın 7-ci hissəsinə uyğun olaraq şərtlər toplusuna edilmiş dəyişikliklərə görə məsuliyyət daşımır. Hər hansı ziddiyyət olduqda Portaldan birbaşa əldə olunan sənədlər üstünlük təşkil edir.

**7. Şərtlər toplusuna dair izahat**

7.1. Təchizatçı şərtlər toplusunda aydın olmayan hallarla bağlı təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 5 (beş) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (5)** qeyd olunan tarix və vaxt) satınalan təşkilata Portal vasitəsilə sorğu ünvanlaya bilər. Satınalma komissiyası sorğunu aldıqdan sonra 2 (iki) iş günü ərzində sorğuya cavab verir. Sorğu və ona verilən cavab sorğu verənin gizliliyi təmin edilməklə həmin gün Portalda yerləşdirilir.

7.2. Sorğu və ona verilən cavab şərtlər toplusuna əlavə edilərək onun ayrılmaz tərkib hissəsi hesab edilir.

7.3. Satınalan təşkilatla təchizatçılar arasında görüş keçirildiyi zamanı iştirak haqqını ödəmiş bütün təchizatçılar üçün bərabər iştirak imkanları yaradılır və görüş videomüşahidə vasitələrinin nəzarəti altında aparılaraq nəticələri protokolla rəsmiləşdirilir. Protokol nəzərə alınmaq üçün iştirak haqqını ödəmiş bütün təchizatçılara həmin gün göndərilir və Portalda yerləşdirilir. Satınalan təşkilatla təchizatçılar arasında qeyri-rəsmi danışıqlar aparılması və görüşlərin keçirilməsi qadağandır.

**8. Şərtlər toplusuna dəyişikliklərin edilməsi**

8.1. Satınalma komissiyası təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (6)** qeyd olunan tarix və vaxta qədər) şərtlər toplusuna hər hansı təchizatçının sorğusu əsasında və ya texniki səhvlər və ya çatışmazlıqlar aşkar edildikdə öz təşəbbüsü ilə dəyişikliklər (satınalma predmetinin dəyişdirilməsi istisna olmaqla) edə bilər.

8.2. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə

uyğunlaşdırılması məqsədilə şərtlər toplusunda hər hansı dəyişiklik edilməsinə, habelə bununla bağlı hər hansı sorğuya, təklifə və icazəyə yol verilmir.

8.3. Satınalma komissiyası şərtlər toplusuna dəyişikliklər etdiyi halda təkliflərin təqdim edilməsi müddətini ən azı 5 (beş) iş gününədək uzadır. Təchizatçının əsaslandırılmış müraciəti əsasında təkliflərin təqdim edilməsi müddəti 10 (on) iş gününədək uzadıla bilər.

8.4. Şərtlər toplusuna edilmiş dəyişiklik onun ayrılmaz tərkib hissəsi hesab edilir. Dəyişikliklər Portal vasitəsilə bütün təchizatçılara göndərilir və bütün təchizatçılar üçün məcburi qüvvəyə malikdir.

## C. Təkliflərin hazırlanması

**9. Satınalma xərcləri**

9.1. Təchizatçı öz təklifini hazırlamaq və təqdim etməklə bağlı bütün xərcləri özü çəkir və satınalan təşkilat satınalma prosesinin nəticəsindən asılı olmayaraq, həmin xərclərə görə məsuliyyət və ya öhdəlik daşımır.

**10. Təklifin tərtib olunmasının dili**

10.1. Təklif və həmçinin təchizatçı ilə satınalan təşkilat arasında bütün yazışmalar və sənəd mübadiləsi Azərbaycan dilində aparılır. Satınalma komissiyasının qərarı ilə satınalmalara dair sənədlər **Satınalma məlumat vərəqində (7)** nəzərdə tutulmuş xarici dillərdən birinə (bir neçəsinə) tərcümə oluna bilər. Bu halda, satınalmalara dair sənədlər arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

10.2. Təklifin tərkibinə daxil olan müşayiətedici sənədlər və çap materialları tərcüməsi ilə verilmək şərtilə, başqa dildə ola bilər. Təchizatçının xarici dildə təqdim etdiyi sənədlərin Azərbaycan dilinə notarial qaydasında təsdiqlənmiş tərcüməsi təqdim olunmalıdır. Təklif ilə tərcüməsi arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

**11. Təklifə daxil olan sənədlər**

11.1. Təchizatçı təqdim etdiyi təklifə aşağıdakıları əlavə edir:

(a) Təlimatın 12-ci hissəsinin tələbləri nəzərə alınmaqla təklif məktubu;

(b) Təlimatın 12-ci və 15-ci hissələrinin tələbləri əsasında qiymətləndirilmiş qiymət cədvəli daxil olmaqla digər cədvəllər;

(c) Təlimatın 20.1-ci bəndinin tələbləri nəzərə alınmaqla təklifin təminatı;

(d) icazə verildiyi təqdirdə Təlimatın 13-cü hissəsinin tələbləri nəzərə alınmaqla alternativ təklif;

(e) Səlahiyyət: Təlimatın 21.2-ci və 21.4-cü bəndlərinə uyğun olaraq təklifi imzalayan şəxsin səlahiyyətli olduğunun yazılı təsdiqi;

(f) Uyğunluq: Təlimatın 18-ci hissəsinin tələbləri nəzərə alınmaqla uyğunluq sənədləri, habelə şərtlər toplusunda nəzərdə tutulduğu halda, subpodratçının müəyyən olunmuş tələblərə uyğun olması barədə sənədlər;

(g) Münasiblik: Təlimatın 17-ci hissəsinin tələbləri nəzərə alınmaqla texniki təklif;

(h) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində tələb olunan digər sənədlər.

11.2. Təlimatın 11.1-ci bəndinin tələblərinə əlavə olaraq, birgə fəaliyyət tərəfindən təqdim edilən təklifə bütün tərəflərin imzaladığı birgə fəaliyyət müqaviləsinin surəti daxil edilməlidir. Alternativ olaraq, satınalmada qalib olacağı təqdirdə birgə fəaliyyət müqaviləsinin icrasına dair niyyət məktubunu bütün tərəflər imzalamalı və birgə fəaliyyət müqavilə layihəsi ilə birlikdə təqdim edilməlidirlər.

**12. Təklif məktubu və cədvəllər**

12.1. Təklif məktubu və qiymət cədvəli Satınalma formaları (IV) bölməsində verilmiş müvafiq formalardan istifadə edilməklə hazırlanmalıdır. Formalar mətnə heç bir dəyişiklik edilmədən doldurulmalıdır və heç bir əvəzedici qəbul edilə bilməz. Bütün boş xanalara tələb olunan məlumatlar yazılmalıdır.

**13. Alternativ təklif**

13.1. **Satınalma məlumat vərəqində (8)** başqa hal nəzərdə tutulmayıbsa, alternativ təkliflər nəzərə alınmayacaq.

**14. Satınalma predmetinin bölünməsi**

14.1. **Satınalma məlumat vərəqində (9)** nəzərdə tutulduğu təqdirdə heç bir təklif satınalma predmetinin tam həcmdə icrasını təmin etmədikdə, bu zaman bir neçə təchizatçının hissəvi təkliflərinin cəmi bir təchizatçının təklifindən daha səmərəli və ya qiyməti daha aşağı olarsa, habelə satınalma predmetinin daha yüksək həcmdə icrasını təmin edərsə, satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünür.

14.2. Təlimatın 14.1-ci bəndində bölünməsi nəzərdə tutulan hissələrin ətraflı təsviri **Satınalma məlumat vərəqində (9)** göstərilir.

**15. Təklifin qiyməti**

15.1. Təklif məktubunda və qiymət cədvəlində göstərilən qiymətlər bu hissədə göstərilən tələblərə cavab verməlidir.

15.2. Təchizatçı qiymət cədvəlində göstərilən bütün bəndlərə qiymət daxil etməlidir. Təchizatçı tərəfindən qiymət daxil edilməyən və həmin hissələrin əlavə ödənişsiz icra edilməsi ilə bağlı qeyd olan bəndlərin qiymət cədvəlinə

daxil edilən digər qiymətlərlə əhatə edildiyi qəbul ediləcəkdir. Hər hansı qeyd olmadan qiymət daxil edilməyən bəndləri olan təklif natamam hesab ediləcəkdir.

15.3. Azərbaycan Respublikasının ərazisindən kənarda satın alınan malların göndərilməsinə dair tələblər Parisdə Beynəlxalq Ticarət Palatası tərəfindən nəşr edilən və qüvvədə olan "Ticarət terminlərinin təfsirinin beynəlxalq Qaydaları "İnkoterms 2020" şərtlərinə, Azərbaycan Respublikasının ərazisi daxilində malların göndərilməsinə dair tələblər və şərtlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq müəyyənləşdirilir və bu barədə məlumat **Satınalma məlumat vərəqində (10)** göstərilir.

15.4. Qiymət endirimlərinə icazə verilmir.

**16. Təklifin və ödənişin məzənnəsi**

16.1. Təchizatçılar (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təkliflərində qiymətləri Azərbaycan Respublikasının pul vahidi – manatla göstərməlidirlər.

16.2. Qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri sərbəst dönərli xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə əsas götürülməlidir.

**17. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)**

17.1. Təchizatçı *(B) Mallara dair tələblər* sənədində qeyd olunan tələblərə cavab verdiyini göstərmək və təklifinin yetərliliyini nümayiş etdirmək üçün Satınalma formaları (IV) bölməsində nəzərdə tutulmuş hər hansı digər məlumat daxil olmaqla kifayət qədər təfərrüatlı texniki təklif təqdim etməlidir.

17.2. Təklif edilən hər bir avadanlığın, texnikanın, məhsulun və digər malların özünəməxsus texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri), o cümlədən konkret əmtəə nişanı və adı, modeli, istehsal mənbəyi (mənşə ölkəsi) və istehsalçısına aid məlumatlar və istehsalçının texniki məlumat vərəqi (hansı varsa) təklifə əlavə edilməlidir.

17.3. Təchizatçı həmçinin malların **Satınalma məlumat vərəqində (13)** göstərilən müddətdə fasiləsiz və müntəzəm çalışa bilməsi (istismar edilməsi) üçün ehtiyat hissələrin, xüsusi alətlərin və bunların əldə edilməsi mənbələri və qiymətlərini təqdim etməlidir.

17.4. İşçilik, əməliyyat, material və avadanlıqlar üçün *(B) Mallara dair tələblər* sənədinə daxil edilmiş standartlar, həmçinin əmtəə nişanlarına və kataloq nömrələrin istinadlar malları yalnız təsvir etmək, məhdudlaşdırmamaq məqsədi daşıyır. Təchizatçı *(B) Mallara dair tələblər* sənədində verilmiş

tələblərə cavab vermək və ya üstələmək şərti ilə istənilən digər keyfiyyət standartları, əmtəə nişanları, kataloq nömrələrindən istifadə edə bilər.

**18. Uyğunluq sənədləri**

18.1. Təchizatçıların uyğunluq göstəriciləri təchizatçılara dair ümumi və xüsusi tələblərdən ibarətdir.

18.2. Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinin tələblərinə uyğun olaraq təchizatçılar müqaviləni icra etmək imkanlarını göstərmək üçün Satınalma formaları (IV) bölməsinə daxil edilən müvafiq məlumat vərəqələrini təmin etməli, habelə Qanunun 23-cü maddəsinə əsasən təchizatçıların uyğunluq göstəricilərini təsdiq edən sənədlər (bundan sonra – uyğunluq sənədləri) təqdim etməlidir.

18.3. Təchizatçının qalib olduğu təqdirdə müqaviləni satınalan təşkilatı qane edəcək şəkildə icra etmək bacarıqlarının sənədli sübutu olaraq aşağıdakıları təmin edəcəkdir:

(a) **Satınalma məlumat vərəqində (14)** tələb olunduğu təqdirdə təklif etdiyi malları özü istehsal etməyən təchizatçı Satınalma formaları (IV) bölməsinə daxil edilən formadan istifadə edərək malların istehsalçısı tərəfindən təchiz edilən malların satınalan təşkilatın ölkəsində səlahiyyətli nümayəndə olduğunu göstərən İstehsalçı icazəsini təqdim edəcək;

(b) **Satınalma məlumat vərəqində (15)** tələb olunduğu təqdirdə biznesi satınalan təşkilatın ölkəsində olmayan təchizatçının texniki qulluq, təmir və ehtiyat hissələrin saxlanılması imkanlarına malik nümayəndəlik yaradaraq təchizatçının müqavilədə və (və ya) *(B) Mallara dair tələblər* sənədində müəyyən edilən satış sonrası xidmət öhdəliklərini həyata keçirəcək.

**19. Təklifin qüvvədə olma müddəti**

19.1. Təkliflər **Satınalma məlumat vərəqində (16)** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış tarixədək qüvvədə olmalıdır. **Satınalma məlumat vərəqində** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış tarixə qədər qüvvədə olmayan təkliflər formal tələblərə uyğun gəlməyən təklif kimi kənarlaşdırılır.

19.2. Satınalma komissiyası ən çoxu təkliflərin ilkin qüvvədə olduğu müddət qədər təkliflərin qüvvədə olma müddətinin uzadılmasını təchizatçılardan tələb edə bilər. Təkliflərin qüvvədə olma müddətinin uzadılması tələbi ilə razılaşan təchizatçılar təklifin təminatının qüvvədə olma müddətinin təklifin qüvvədə olma müddətindən azı 30 (otuz) iş günü

çox olmaqla uzadılmasını və ya uzadılmış müddət üçün yeni təminatın verilməsini təmin edirlər. Təchizatçı təklifin təminatına olan hüququnu itirmədən satınalma komissiyasının belə tələbindən imtina edə bilər.

**20. Təklifin təminatı**

20.1. Təchizatçı (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təklifin tərkib hissəsi olaraq **Satınalma məlumat vərəqində (17)** qeyd edilmiş məbləğdə Azərbaycan manatı ilə, qeyri-rezident hüquqi və fiziki şəxslər isə Azərbaycan manatı və ya elanın verilməsi (dəvətin göndərilməsi) tarixinə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnəyə uyğun olaraq sərbəst dönərli valyuta ilə təkliflə birlikdə təklifin təminatını təqdim etməlidir, əks təqdirdə təklif qəbul edilmir.

20.2. Təklifin təminatı qarant tərəfindən qarantiya şəklində verilir. Satınalma komissiyası qaranta və ya ehtimal olunan qiyməti 5 (beş) milyon manatdan yuxarı olan satınalmalara münasibətdə hər hansı qarantın verdiyi təminatı təsdiqləyən tərəf (əgər tələb olunursa), habelə digər şərtlərə dair hər hansı tələbini **Satınalma məlumat vərəqində (18)** göstərir. Təklifin təminatı Satınalma formaları (IV) bölməsinə daxil edilən “Təklifin təminatının nümunəsi” və ya təklif təqdim edilməzdən əvvəl satınalma komissiyası ilə razılaşdırılmış digər əhəmiyyətli dərəcədə oxşar nümunədən istifadə olunaraq təqdim edilməlidir. Təklifin təminatının qüvvədə olma müddəti təklifin ilkin və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış qüvvədə olma müddətindən azı 30 (otuz) iş günü çox olmalıdır.

20.3. Təchizatçının təklifinin təminatı aşağıdakı hallarda dərhal geri qaytarılır:

(a) satınalmada ilk üç yerdən birini tutmayan təchizatçılara - satınalmanın nəticələrinə dair yekun protokol təsdiq olunduqda;

(b) satınalmada ikinci və üçüncü yerləri tutan təchizatçılara - qalib təchizatçı ilə bağlanan satınalma müqaviləsi qüvvəyə mindikdə;

(c) qalib təchizatçı istisna olmaqla, digər təchizatçılara – təkliflərin qüvvədə olma müddəti bitdikdə;

(d) bütün təchizatçılara – təkliflərin təqdim edilməsinin son müddəti bitməmişdən əvvəl təklif geri götürüldükdə və ya satınalma ləğv edildikdə;

(e) təkliflərin qüvvədə olma müddətinin uzadılması təşəbbüsü ilə razı olmayan təchizatçılara – təkliflərin qüvvədə olma müddəti bitdikdə;

(f) qalib təchizatçıya – satınalma müqaviləsi imzalandıqda və icra təminatı təqdim edildikdə.

20.4. Aşağıdakı hallarda təchizatçının təklifinin təminatı geri qaytarılmır:

(a) təchizatçı təkliflərin təqdim edilməsinin son müddəti bitdikdən sonra və ya təklifin qüvvədə olma müddəti bitənədək öz təklifini geri götürdükdə və ya dəyişdirdikdə;

(b) təklifin akseptinə dair bildirişi almış qalib təchizatçı müəyyən olunmuş müddətdə satınalma müqaviləsini imzalamadıqda və (və ya) icra təminatını təqdim etmədikdə;

(c) təklifin akseptinə dair bildirişi almış qalib təchizatçı satınalma müqaviləsi imzalananadək şərtlər toplusunda göstərilmiş hər hansı digər şərtləri yerinə yetirmədikdə.

20.5. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar tərəfindən təqdim edilən təklifin təminatında bütün tərəflərin hüquqi adları göstərilməlidir.

**21. Təklifin formatı və imzalanması**

21.1. Təchizatçılar təkliflərində bizneslər üçün məxfi olan bütün məlumatları "MƏXFİ" kimi qeyd etməlidirlər. Buraya mülkiyyət məlumatları, ticarət sirləri və ya kommersiya/ maliyyə baxımından həssas məlumatlar daxil ola bilər.

21.2. Təklif təchizatçının rəhbəri və ya digər vəzifəli şəxsi tərəfindən imzalanmalıdır. Təklifi təchizatçının rəhbəri imzaladıqda həmin təchizatçının təsis və hüquqi və ya fiziki şəxsin qeydiyyat sənədlərini təqdim etməlidir. Təklifi imzalayan digər vəzifəli şəxs olduğu təqdirdə isə həmin vəzifəli şəxsə imza səlahiyyətlərinin verilməsinə dair həmin təchizatçının rəhbəri tərəfindən səlahiyyəti təsdiq edən sənəd – etibarnamə təqdim edilməlidir.

21.3. Təchizatçı birgə fəaliyyət göstərdiyi halda, təklif birgə fəaliyyət göstərən təchizatçıların səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmalıdır. Həmin nümayəndənin imza səlahiyyətinə malik olması 21.3-cü bəndinin tələbləri nəzərə alınmaqla birgə fəaliyyət göstərən təchizatçıların rəhbərləri tərəfindən imzalanmış etibarnamə ilə təsdiq edilir.

## D. Təkliflərin təqdim olunması və açılması

**22. Təkliflərin təqdim edilməsinin son müddəti**

22.1. Təkliflər onların təqdim edilməsi üçün **Satınalma məlumat vərəqində (19)** müəyyən edilən müddət başa çatanadək Portal vasitəsilə elektron qaydada satınalan təşkilata təqdim edilir.

**23. Gecikmiş təkliflər**

23.1. Təlimatın 22-ci hissəsi ilə müəyyən olunmuş müddətdən gec təqdim olunan təklif qəbul edilmir.

**24. Təkliflərin geri götürülməsi və ya dəyişdirilməsi**

24.1. Təchizatçı təkliflərin təqdim edilməsi müddəti bitənədək öz təklifini dəyişdirə və ya geri götürə bilər.

24.2. Təlimatın 24.1-ci bəndinə uyğun olaraq geri götürülməsi istənilən təklif açılmadan təchizatçıya qaytarılır.

24.3. Təkliflərin təqdim edilməsinin son müddəti, o cümlədən uzadılmış müddəti bitdikdən sonra və ya təchizatçı tərəfindən təklif məktubunda qeyd edilən təklifin qüvvədə olma müddəti bitənədək təklifin geri götürdükdə və ya dəyişdirdikdə təchizatçı təklifin təminatına olan hüququnu itirir.

**25. Təkliflərin açılması**

25.1. Təkliflərin son təqdim olunması müddətinə qədər təqdim olunmuş təkliflər satınalma komissiyası tərəfindən **Satınalma məlumat vərəqində (20)** qeyd olunan tarixdə və vaxtda Portal vasitəsilə elektron qaydada açılır.

25.2. Təkliflər açılarkən hər bir təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı və atasının adı), ünvanı, VÖEN-i, təklifinin qiyməti və təklifin təminatının məbləği və qüvvədə olma müddəti Portalda dərc olunur.

## E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi

**26. Məxfilik (konfidensiallıq)**

26.1. Məhkəmənin, İqtisadiyyat Nazirliyinin yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra – AİBNDX), Azərbaycan Respublikası Hesablama Palatasının və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin qanunla müəyyən edilmiş hüquq və vəzifələrinin icrası ilə bağlı məlumatların açıqlanması halları istisna olmaqla, satınalan təşkilat digər hallarda təchizatçıların kommersiya sirri təşkil edən və ya qanunla qorunan digər məlumatlarını açıqlamır və onları məxfi (konfidensial) saxlayır.

26.2. Təchizatçılar tərəfindən təqdim edilən uyğunluq sənədləri və təkliflər, bağlanan satınalma müqaviləsinin surəti, satınalma müqaviləsi uzunmüddətlidirsə və ya mərhələlərlə həyata keçirilirsə, icrasının gedişi haqqında mütəmadi məlumatlar, satınalan təşkilatla təchizatçı arasında satınalma müqaviləsinin icrası, mübahisəli məsələlərin həlli ilə əlaqədar sənədlər və satınalma müqaviləsinin tam icra edilməsi haqqında satınalan təşkilatla təchizatçı arasında imzalanan təhvil-təslim aktı istisna olmaqla, satınalmaya dair hesabata əlavə edilən digər sənədlər təklifin akseptindən, yaxud satınalma

müqaviləsinin bağlanması ilə nəticələnməyən satınalma yekunlaşdıqdan sonra 7 (yeddi) iş günü ərzində sorğu əsasında təklif təqdim edən təchizatçılara verilir.

26.3. Təchizatçı satınalmanın istənilən mərhələsində Qanunun tələblərinə zidd hərəkətlərə (hərəkətsizliyə) yol verdikdə, o cümlədən saxta sənəd və (və ya) məlumat təqdim etdikdə satınalma komissiyası həmin təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

26.4. Təchizatçı Təlimatın 26.3-cü bəndinin tələblərini nəzərə almaqla satınalma prosesi ilə əlaqədar olan hər hansı məsələ ilə bağlı satınalma komissiyası ilə yalnız Portal vasitəsilə əlaqə saxlaya bilər.

**27. Təkliflərə dair izahat**

27.1. Uyğunluq sənədlərinin və təkliflərin qiymətləndirilməsini asanlaşdırmaq məqsədilə satınalma komissiyası təchizatçıdan təqdim etdiyi uyğunluq sənədlərinə və ya təkliflərə dair izahat tələb edə bilər. Təchizatçı tərəfindən satınalma komissiyasının sorğusuna uyğun verilməyən cavablar nəzərə alınmır. Satınalma komissiyası tərəfindən qiymətləndirmə zamanı təklifin qiymətlərində və ya mahiyyətində heç bir dəyişiklik, o cümlədən könüllü artım və ya azalma tələb edilməsinə yol verilmir.

27.2. Təchizatçı bu cür izahatı 5 (beş) iş günü ərzində satınalan təşkilata təqdim etmədiyi təqdirdə onun təklifi kənarlaşdırıla bilər.

**28. Formal tələblərə uyğunluğun müəyyən edilməsi**

28.1. Satınalma komissiyası Qanunun 33-cü maddəsinin tələblərini nəzərə almaqla, Təlimatın 11-ci hissəsində göstərilmiş tələblərə cavab verən təklifi formal tələblərə uyğun təklif hesab edir.

28.2. Təklif əhəmiyyətli dərəcədə uyğun təklif hesab edilməsi üçün aşağıdakı hallar nəzərə alınmaqla əsaslı kənara çıxma, qeyd-şərt və çatışmazlıq olmadan şərtlər toplusunun tələblərinə cavab verməlidir:

(a) qəbul edildiyi təqdirdə: (i) müqavilədə göstərilən malların həcminə, keyfiyyətinə və ya icrasına hər hansı əhəmiyyətli şəkildə təsir edəcək və ya (ii) şərtlər toplusunun tələblərinə zidd olaraq satınalan təşkilatın hüquqlarını və ya təklif olunan müqavilə çərçivəsində təchizatçının öhdəliklərini əsaslı şəkildə məhdudlaşdıracaq və ya

(b) düzəldildiyi təqdirdə, əhəmiyyətli dərəcədə uyğun hesab edilən digər təchizatçıların rəqabət mövqeyinə ədalətsiz təsir göstərəcək.

28.3. Satınalma komissiyası xüsusilə, *(B) Mallara dair tələblər* sənədində qeyd olunan bütün tələblərin, heç bir əsaslı kənara çıxma, qeyd-şərt və ya çatışmazlıq olmadan yerinə yetirildiyini təsdiqləmək üçün Təlimatın 17-ci hissəsinə uyğun olaraq təqdim edilmiş təklifin texniki aspektlərini yoxlamalıdır.

28.4. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə əsaslı kənara çıxmaya, qeyd-şərtə və ya çatışmazlığa düzəliş edilməsinə yol verilmədən kənarlaşdırılır.

**29. Əhəmiyyətsiz uyğunsuzluqlar**

29.1. Təklifdə onun mahiyyətini dəyişdirməyən, şərtlər toplusunda göstərilmiş xüsusiyyətlərə, şərtlərə və başqa tələblərə əhəmiyyətli dərəcədə xələl gətirməyən, aradan qaldırılması mümkün olan kiçik texniki səhvlər və ya çatışmazlıqlar (əhəmiyyətsiz uyğunsuzluqlar) olduqda, həmin səhvlər və ya çatışmazlıqlar kəmiyyətcə ifadə olunur və satınalma komissiyası təklifi formal tələblərə uyğun təklif hesab edir.

29.2. Təklifin əhəmiyyətli dərəcədə uyğun olması şərti ilə, satınalma komissiyası təchizatçının sənədləşdirmə tələbləri ilə bağlı əhəmiyyətsiz uyğunsuzluqları təchizatçıdan 5 (beş) iş günü ərzində aradan qaldırmasını tələb edə bilər. Bu cür uyğunsuzluqlar haqqında məlumat və ya sənədlərin tələb edilməsi təklifin qiymətinin heç bir aspekti ilə əlaqəli olmamalıdır. Təchizatçının qeyd edilmiş müddət ərzində sorğuya cavab verməməsi onun təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.

**30. Hesab səhvlərinin düzəldilməsi**

30.1. Təqdim olunan təkliflər qiymətləndirilərkən hesab səhvlərinin düzəldilməsinə yol verilmir.

**31. Vahid valyutaya konvertasiya**

31.1. Qiymətləndirmə və müqayisə məqsədilə qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri bütövlüklə və ya bir qismi xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə (www.cbar.az/currency/rates) əsas götürülərək Azərbaycan manatına konvertasiya edilməlidir.

**32. Satınalma güzəşti**

32.1. Satınalma komissiyası təklifləri qiymətləndirərkən yerli mənşəli mallar üzrə təklifin xeyrinə Qanunun 33.14-cü maddəsi ilə müəyyən edilmiş qaydada 20 faizə qədər həcmdə güzəşti düzəliş tətbiq edir.

**33. Subpodratçılar**

33.1. **Satınalma məlumat vərəqində (21)** nəzərdə tutulduğu təqdirdə, qalib təchizatçı malların görülməsi ilə əlaqədar

xidmətlərin göstərilməsi üçün subpodratçılarla müqavilə imzalaya bilər. Bütün digər hallarda satınalma müqaviləsinin icrası subpodratçılara həvalə edilə bilməz. Bu halda təchizatçı təqdim etdiyi təklifə subpodratçıya həvalə ediləcək fəaliyyət (fəaliyyətlər) və ya onların satınalma müqaviləsindəki payı barədə məlumat əlavə etməlidir. Subpodrat müqaviləsinin (müqavilələrinin) məbləği satınalma müqaviləsinin ümumi dəyərinin 50 faizindən çox olmamalıdır. Satınalma müqaviləsinin icrasına subpodratçılar cəlb olunduğu halda, subpodrat müqavilələrinin ümumi məbləğinin 20 faizdən az olmayan hissəsinin icrası Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş mikro, kiçik və orta sahibkarlıq subyektlərinə həvalə olunmalıdır.

33.2. Subpodratçının uyğunluq göstəriciləri şərtlər toplusunda təchizatçı üçün müəyyən edilmiş uyğunluq göstəriciləri tələblərinə cavab vermək üçün istifadə edilməməlidir.

**34. Təkliflərin qiymətləndirilməsi**

34.1. Satınalan təşkilat təklifləri Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulan meyarlara və prosedurlara əsasən qiymətləndirir.

34.2. **Satınalma məlumat vərəqində (22)** nəzərdə tutulduğu təqdirdə təklifi ən səmərəli təklif kimi qiymətləndirərkən qiymət amilinə əlavə olaraq texniki amillər üçün nisbi qiymət (balı) meyarı tətbiq ediləcəkdir. Qiymət amili üçün çəki**,** texniki amillər və onların alt amillərinə veriləcək ballar **Satınalma məlumat vərəqində (22)** göstərilmişdir.

34.3. Təklifi qiymətləndirərkən satınalma komissiyası aşağıdakıları nəzərə alır:

(a) Təlimatın 31.1-ci bəndinə uyğun digər valyutada təklif olduğu təqdirdə vahid məzənnəyə konvertasiya;

(b) Təlimatın 32-ci hissəsinə uyğun olaraq satınalma güzəştinin tətbiqi;

(c) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsi ilə müəyyən edilmiş digər qiymətləndirmə meyarları.

34.4. Təklifin qiymətləndirməsi zamanı Təlimatın 15-ci hissəsində təklifin qiymətinə əlavə olaraq digər amillərin də nəzərə alınması tələb edilə bilər. Bu amillər malların xüsusiyyətləri, funksional göstəriciləri, mallar və əlaqədar xidmətlərin satınalma şərtləri ilə bağlı ola bilər. **Satınalma məlumat vərəqində (23)** başqa hal nəzərdə tutulmadığı təqdirdə seçilmiş amillərin təsiri (əgər varsa), Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)

bölməsinə müqayisəni asanlaşdırmaq məqsədilə pul ilə ifadə edilməlidir. İstifadə olunacaq meyarlar və metodologiyalar Təlimatın 34.3(c) bəndində göstərildiyi kimi olmalıdır.

**35. Təkliflərin müqayisəsi**

35.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı qiyməti olan təklifi müəyyən etmək üçün Təlimatın 34.1-ci bəndinə uyğun olaraq müəyyən edilmiş tələblərə əhəmiyyətli dərəcədə cavab verən bütün təkliflərin qiymətləndirilmiş yekun məbləğini müqayisə etməlidir.

35.2. Təlimatın 34.2-ci bəndi tətbiq olunarsa satınalma komissiyası ən səmərəli (qiymət və texniki amillərə görə ən çox bal toplamış) təklifi müəyyən etməlidir.

**36. Həddindən artıq ucuz təkliflər**

36.1. Təchizatçının təqdim etdiyi təklifin qiyməti ehtimal olunan qiymətlə müqayisədə 20 faizdən aşağı olarsa, satınalma komissiyası təchizatçıdan təklif qiymətinin ətraflı təhlili, təklif olunan metodologiya, iş qrafiki, risk və məsuliyyətin paylaşdırılması, habelə şərtlər toplusunun digər tələbləri barədə yazılı izahat almalıdır. Təchizatçının təqdim etdiyi izahat və məlumatlar təhlil edildikdən sonra satınalma müqaviləsinin icrasına əsaslı şübhələr qaldıqda satınalma komissiyası təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

**37. Təchizatçının uyğunluq göstəriciləri**

37.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı məbləği olan və əhəmiyyətli dərəcədə uyğun olan ilk 3 (üç) təchizatçının təklifinin Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində qeyd edilmiş uyğunluq göstəricilərinə cavab verib-vermədiyini müəyyən etməlidir.

37.2. Bunun müəyyənləşdirilməsi üçün Təlimatın 18-ci hissəsinə uyğun olaraq təchizatçı tərəfindən təqdim edilmiş uyğunluq göstəricilərini təsdiq edən sənədlər araşdırılmalı, təchizatçının özündən başqa digər törəməsi və ya tabe olduğu müəssisələr, törəmə və tabeliyində olan müəssisələri, filialları və subpodratçılarının uyğunluq sənədləri nəzərə alınmamalıdır.

37.3. Uyğunluq göstəricilərinə cavab verən təklifin seçilməsi müqavilənin bağlanılması üçün ilkin şərtdir. Təlimatın 40.1-ci bəndinin tələbləri yerinə yetirilmədikdə qiymətləndirilmiş ən aşağı məbləği olan növbəti təklif və ya təkliflərin uyğunluq tələblərinə cavab verib-vermədiyi müvafiq qaydada araşdırılır.

37.4. **Satınalma məlumat vərəqində (24)** göstərilən hallarda, satınalma komissiyası tərəfindən əsaslandırılmaqla uyğunluq sənədlərini təqdim etmiş təchizatçıdan

satınalmanın istənilən mərhələsində həmin sənədlərin yenidən (bir dəfədən çox olmayaraq) təqdim edilməsi tələb oluna bilər. Bu cür tələb təklifin qüvvədə olma müddətinin bitməsinə 10 (on) iş günü qalanadək irəli sürülür və uyğunluq sənədlərinin yenidən təqdim edilməsi 5 (beş) iş günü ərzində həyata keçirilir.

37.5. Təchizatçının uyğunluq göstəriciləri barədə verdiyi qeyri-dəqiq və natamam məlumat satınalma komissiyasının tələbi ilə 3 (üç) iş günü ərzində aradan qaldırılmalıdır.

**38. Qalib təklifin seçilməsi**

38.1. Uyğunluq göstəricilərinə cavab verən və təklifləri uyğun olan
(a) ən aşağı qiymət təklifi
(b) və ya ən səmərəli təklifi
təqdim edən təchizatçı qalib təchizatçı sayılır.

**39. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ**

39.1. Satınalma komissiyası Qanunun tələblərini nəzərə almaqla qalib təchizatçını seçməzdən əvvəl istənilən vaxt istənilən təklifi aksept etmək və ya kənarlaşdırmaq və satınalmanın ləğv edilməsi haqqında qərar qəbul etmək hüququnu özündə saxlayır və buna görə təchizatçılar qarşısında heç bir məsuliyyət daşımır. Zərflər açılana qədər satınalma ləğv edildiyi halda təklifin təminatları daxil olmaqla təkliflər, zərflər açıldıqdan sonra isə təkliflərin təminatları təchizatçılara dərhal geri qaytarılır.

39.2. Satınalma komissiyası aşağıdakı hallarda satınalmanın ləğv edilməsi haqqında qərar qəbul edir:
(a) satınalmada iştirak etmək üçün təklifi və təklifin təminatını təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayı açıq tender birinci dəfə elan edildikdə üçdən, yetərsay olmamasına görə eyni satınalma ikinci dəfə elan edildikdə isə ikidən az olduqda;
(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;
(c) birinci, ikinci və üçüncü yerləri tutmuş təchizatçılar arasından qalib təchizatçını seçmək mümkün olmadıqda;
(d) bütün təchizatçıların təqdim etdiyi təkliflərin qiyməti ehtimal olunan qiymətdən yüksək olduqda;
(e) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən bu Təlimatın 3.2-ci bəndinin

tələblərinin pozulduğu müəyyən edildikdə;
(f) satınalmanın maliyyələşdirilməsi dayandırıldıqda.

**40. Satınalmanın nəticələri barədə bildiriş**

40.1. Satınalma komissiyası satınalmanın nəticələri haqqında yekun protokolu imzaladığı gün satınalan təşkilatın adından təklifini aksept etmək istədiyi təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), ünvanı, VÖEN-i, imzalanması nəzərdə tutulan müqavilənin məbləği, habelə gözləmə müddətinin qüvvədə olma tarixləri barədə satınalmadan kənarlaşdırılmamış təchizatçılara Təlimatın 44-cü hissəsi nəzərə alınmaqla bildiriş göndərməklə yanaşı, Portalda məlumat yerləşdirir. Bildirişdə digər təchizatçıların qalib gəlməməsinin səbəbləri göstərilir.

**41. Gözləmə müddəti**

41.1. Satınalmanın nəticələri barədə bildirişin göndərildiyi gündən sonrakı iş günü gözləmə müddəti başlayır və 5 (beş) iş günü ərzində qüvvədə olur. Gözləmə müddəti bitmədən satınalan təşkilat ilə qalib təchizatçı arasında müqavilə imzalana bilməz.

## F. Qalibin seçilməsi

**42. Qalibin seçilməsi proseduru**

42.1. Təlimatın 39-cu hissəsinin tələbləri nəzərə alınmaqla satınalma komissiyası qalib təchizatçını seçir.

**43. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi**

43.1. Satınalma müqaviləsi qalib təchizatçı tərəfindən imzalananadək satınalma komissiyası əvvəlcədən şərtlər toplusunda göstərmişdirsə, satınalma predmetinin hər vahidinin qiymətini və xüsusiyyətlərini (göstəricilərini) dəyişdirməmək, həmçinin ehtimal olunan qiyməti keçməmək şərti ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin razılığı ilə satınalma predmetinin həcmini (miqdarını) 10 faizə qədər artırıb-azalda bilər.

**44. Müqavilənin imzalanması**

44.1. Satınalan təşkilat təklifin şərtlər toplusunda göstərilmiş qüvvədə olma müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək qalib təchizatçının təklifini aksept edir və satınalma müqaviləsini tərtib edib təchizatçıya aksept bildirişi ilə birlikdə göndərir.

44.2. Qalib təchizatçı 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalayır və satınalan təşkilata bu Qanuna əsasən tələb olunan icra təminatını təqdim edir. Satınalan təşkilat satınalma müqaviləsini 10 (on) iş günündən gec olmayaraq imzalayır.

**45. Bağlanılmış müqavilə barədə**

45.1. Satınalma komissiyası satınalma müqaviləsi qüvvəyə mindiyi gündən 3 (üç) iş günü ərzində satınalan təşkilatın

**məlumatın verilməsi**

və müqaviləni bağlamış təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), VÖEN-i, satınalma predmeti, satınalma metodu, müqavilənin məbləği və icra müddəti barədə Portalda məlumat yerləşdirir.

**46. İcra təminatı**

46.1. İcra təminatının məbləği satınalma müqaviləsinin ümumi məbləğinin 10 faizi (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 5 faizi) həcmində müəyyən olunur. İcra təminatının qüvvədə olma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda, zəmanət müddəti daxil olmaqla) 30 (otuz) iş günü çox olmalıdır.

46.2. Ümumi məbləği 30 000 (otuz min) manatdan az olan satınalma müqaviləsi üzrə icra təminatı tələb olunmur.

46.3. Qalib təchizatçının Təlimatın 44.2-ci bəndində qeyd olunan müddət ərzində satınalma müqaviləsini imzalamaması və (və ya) Qanuna əsasən tələb olunan icra təminatını təqdim etməməsi onun öz öhdəliklərini icra edə bilməməsi kimi qiymətləndirilir və təklifin təminatının geri qaytarılmaması ilə nəticələnir.

## G. Şikayət verilməsi

**47. Şikayət vermək hüququ**

47.1. Hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə təchizatçıların satınalan təşkilatın hərəkətlərindən (hərəkətsizliyindən) və qərarlarından inzibati qaydada İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət vermək hüququ vardır.

47.2. Aşağıdakılar şikayət predmeti ola bilməz:

(a) Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinin məhdudlaşdırılması;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmaması və satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirilməsi halları istisna olmaqla qanuni əsaslarla satınalmanın ləğv edilməsi.

**48. Satınalan təşkilata şikayət**

48.1. Satınalmadan kənarlaşdırılmamış təchizatçılar satınalan təşkilata satınalmanın nəticələri ilə bağlı öz şikayətlərini gözləmə müddətində verirlər. Satınalan təşkilat gözləmə müddətində verilmiş şikayəti 5 (beş) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

48.2. Kənarlaşdırılmış və ya iştirak etməyən təchizatçılar satınalma müqaviləsi qüvvəyə minənə qədər öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 15 (on beş) iş günü ərzində satınalan təşkilata şikayət verə bilərlər. Satınalan təşkilat verilmiş şikayəti 10 (on) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir və həmin qərarın qəbul edildiyi gündən 1 (bir) iş günü ərzində şikayət edən təchizatçıya göndərir.

48.3. Şikayət gözləmə müddəti və ya Təlimatın 48.2-ci bəndi ilə müəyyən edilən müddət keçdikdən sonra verilmişdirsə, satınalan təşkilat həmin şikayəti baxılmamış saxlayır.

48.4. Satınalan təşkilat Təlimatın 48.1-ci və 48.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmirsə, təchizatçı bununla bağlı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət verə bilər. Belə şikayət verildikdən sonra satınalan təşkilat tərəfindən həmin şikayət baxılmamış saxlanılır.

**49. AİBNDX-yə şikayət**

49.1. Təchizatçılar aşağıdakı hallarda İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilər:

(a) satınalma müqaviləsi qüvvəyə mindikdə;

(b) satınalma komissiyası Qanunun və Qanundan irəli gələn normativ hüquqi aktların tələblərini pozduqda;

(c) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(d) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən satınalmalarda maraqlar toqquşmasının tələbləri pozulduğu müəyyən edildikdə;

(e) Satınalan təşkilat Təlimatın 48.1-ci və 48.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmədikdə;

(f) verilmiş şikayətlə bağlı satınalan təşkilatın qərarı ilə razılaşmadığı halda.

49.2. Təchizatçılar öz hüquqlarının pozulduğunu bildiyi və ya

bilməli olduğu gündən, habelə Təlimatın 49.1(f) bəndində nəzərdə tutulmuş qərarı aldığı gündən və ya həmin qərarın verilməli olduğu gündən 15 (on beş) iş günü ərzində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilərlər.

49.3. AİBNDX şikayəti aldıqdan sonra 1 (bir) iş günü ərzində bu barədə satınalan təşkilata Portal vasitəsilə bildiriş göndərir. Şikayətdə qaldırılan məsələlərin araşdırılması üçün əlavə məlumat tələb olunduğu təqdirdə AİBNDX satınalan təşkilata Portal vasitəsilə sorğu göndərir. Satınalan təşkilat sorğunu aldıqdan sonra 3 (üç) iş günü ərzində sorğuda tələb olunan məlumatları İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə təqdim edir.

49.4. AİBNDX verilmiş şikayəti 20 (iyirmi) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

49.5. AİBNDX şikayəti təmin edirsə aşağıdakı tədbirlərdən birini və ya bir neçəsini tətbiq edir.

(a) satınalan təşkilata qanunazidd hərəkətlər (hərəkətsizlik) etməyi və ya qərarlar qəbul etməyi, yaxud prosedurlar tətbiq etməyi qadağan etmək;

(b) satınalan təşkilatın qanunazidd inzibati aktını "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 67-ci maddəsinə uyğun olaraq ləğv etmək;

(c) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd hərəkətini (hərəkətsizliyini) dayandırmaq;

(d) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd qərarını ləğv etmək və yeni qərar qəbul etmək və ya satınalan təşkilatın əvəzinə öz qərarını qəbul etmək;

(e) təkliflərin yenidən qiymətləndirilməsi və ya satınalmanın ləğv edilməsi barədə qərar qəbul etmək.

**50. Satınalmanın dayandırılması**

50.1. Təlimatın 48-ci və 49-cu hissələrinə əsasən verilən şikayətin (gözləmə müddətində verilən şikayət istisna olmaqla) araşdırılması məqsədilə "İnzibati İcraat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinə uyğun olaraq İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qərarı ilə satınalan təşkilat tərəfindən satınalma prosedurları 10 (on) iş gününədək dayandırıla bilər. Bu müddət İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsaslandırılmış qərarı ilə 10 (on) iş gününədək uzadıla bilər.

**51. İnzibati qaydada şikayət**

51.1. Təchizatçılar AİBNDX-nin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və məhkəməyə şikayət verə bilərlər.

## H. Müqavilə

**52. Müqavilə şərtləri**

52.1. Təchizatçı təklifini formalaşdırarkən satınalma müqaviləsinin tələblərini nəzərə almalıdır.

52.2. Satınalma müqaviləsində aşağıdakı məlumatlarından çıxarış **Satınalma məlumat vərəqində (25)** də göstərilir:

(a) satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği;
(b) avans;
(c) satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları;
(d) satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları;
(e) tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri.

52.3. Satınalma müqaviləsi ilə şərtlər toplusunda qeyd edilən məlumatlar arasında ziddiyyət olarsa şərtlər toplusu üstünlük təşkil edir.

# II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ

Satın alınacaq Mallar üçün aşağıdakı spesifik məlumatlar Təlimatın müddəalarını tamamlayır, aydınlaşdırır və ya dəyişdirir. Hər hansı bir ziddiyyət yarandıqda, aşağıdakı müddəalar Təlimatdakı müddəalardan üstün olacaqdır.

*[Satınalma məlumat vərəqini doldurmaq üçün zəruri təlimatlar istinad olunan müvafiq Təlimatın üçün kursivlə yazılmış qeydlərdə təqdim olunur və şərtlər toplusu doldurulduqdan sonra silinir]*

| Sıra №-si | Bənd | Məzmun | Məlumat |
|---|---|---|---|
| **A. Ümumi** | | | |
| (1) | 1.1. | Satınalma predmeti: | **(satınalma predmetini daxil edin)** |
| | | Satınalan təşkilatın adı:<br>VÖEN-i: | **(satınalan təşkilatın adını daxil edin)**<br>**(VÖEN-i daxil edin)** |
| | | Satınalan təşkilatın əlaqələndirici vəzifəli şəxsi barədə məlumat: | **(soyadı, adı və atasının adını daxil edin)**<br>**(vəzifəsini daxil edin)**<br>**(əlaqə məlumatlarını daxil edin)** |
| (2) | 3.1. | Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma: | **(iştirakı məhdudlaşdırılan ölkələr və ya məhdudlaşdırılma şərtləri barədə məlumatı daxil edin)**<br>*[Əgər belə hallar nəzərdə tutulmayıbsa "nəzərdə tutulmayıb" qeyd edin]* |
| (3) | 3.3. | Birliyin üzvlərinin maksimal sayı: | **(sayı daxil edin)** |
| (4) | 4.1. | İştirak haqqı: | **(məbləği daxil edin)**<br>*[Qanunun 28.6-cı maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilmiş məbləği daxil edin]* |
| **B. Şərtlər toplusunun məzmunu** | | | |
| (5) | 7.1. | Şərtlər toplusuna dair izahat üçün son müddət: | **(tarix və saatı daxil edin)** |
| (6) | 8.1. | Şərtlər toplusuna dəyişiklik üçün son müddət: | **(tarix və saatı daxil edin)** |
| **C. Təkliflərin hazırlanması** | | | |

| | | | |
|---|---|---|---|
| (7) | 10.1. | Satınalmalara dair sənədlərin tərcümə olunacağı dil(lər): | Tərcümə **(olunacaq / olunmayacaq)**.<br>*[tərcümə olunacaqsa dili qeyd edin, əks təqdirdə silin]*<br>**(dili daxil edin)** |
| (8) | 13.1. | Alternativ təklif: | Alternativ təkliflə icazə **(verilir / verilmir)**.<br>*[Alternativ təkliflərə icazə verilərsə, Qiymətləndirmə-uyğunluq meyarları və prose-durları (III) bölməsində onun metodologiyası müəyyən edilməlidir]* |
| (9) | 14.1. | Satınalma predmetinin bölünməsi | Satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünməsinə və təchizatçıların satınalma predmetinin ayrı-ayrı hissələri üçün təkliflər təqdim etməsinə icazə **(verilir / verilmir)**.<br>*[icazə verilirsə malların hissələrini və bölünmə şərtlərini qeyd edin, əks təqdirdə silin]*<br>**(satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünməsi ilə bağlı şərtləri və bölünməsinə icazə verilən hissələri ətraflı təsvir edin)** |
| (10) | 15.3. | Çatdırılma, o cümlədən tətbiq olunan Inkoterms şərtləri: | **(şərtləri daxil edin)** |
| (11) | | | |
| (12) | | | |
| (13) | 17.3. | İstismar müddəti (ehtiyat hissələri məqsədilə): | **(müddəti daxil edin)** |
| (14) | 18.3(a) | İstehsalçı icazəsi: | **(tələb olunur / olunmur)**<br>*[Müqavilə üzrə yalnız bəzi maddələr üçün İstehsalçının icazəsi tələb olunursa, istehsalçının icazəsi tələb olunan maddələri sadalayın. İstehsalçı icazəsi əsasən həlledici əhəmiyyətli və texniki cəhətdən mürəkkəb* |

| | | | |
|---|---|---|---|
| | | | *məhsullar üçün tələb olunur. Hazır, standart məhsullara bu tələb adətən şamil edilmir]* |
| (15) | 18.3(b) | Satış sonrası xidmət: | **(tələb olunur / olunmur)** |
| (16) | 19.1. | Təklifin qüvvədə olma müddəti | Təklif ən azı **(tarixi daxil edin)** tarixinə qədər qüvvədə olmalıdır<br>*[təklifin qiymətləndirilməsini yekunlaşdırmaq, lazımi razılıqları, o cümlədən nəticələrin AİBNDX ilə razılaşdırmaq üçün lazım olan ağlabatan vaxt nəzərə alınmaqla tarixi qeyd edin]* |
| (17) | 20.1. | Təklifin təminatının məbləği | **(təklif təminatının məbləğini rəqəmlə və sözlə daxil edin)**<br>*[Təklifin təminatını ehtimal olunan qiymətin 1-3 faizi aralığında müəyyənləşdirir. Məbləğin yuvarlaq və kəsrsiz olması tövsiyə olunur]* |
| (18) | 20.2. | Qarant və qarantın verdiyi təminatı təsdiqləyən tərəf barəsində tələblər | **(varsa qeyd edin, yoxdursa “yoxdur” yazın)** |
| **D. Təkliflərin təqdim olunması və açılması** | | | |
| (19) | 22.1. | Təkliflərin təqdim edilməsinin son müddəti | **(tarix və saatı daxil edin)**<br>*[Təkliflərin cəlb edilməsi barədə elan təkliflərin açılması günündən azı aşağıdakı müddətlərdən əvvəl Portalda dərc edilir:*<br>• *ehtimal olunan qiymət 1 000 000 manatadək olduqda 15 (on beş) iş günü,*<br>• *1 000 000 manatdan 10 000 000 manatadək olduqda 20 (iyirmi) iş günü,*<br>• *10 000 000 manat və ondan çox olduqda 30 (otuz) iş günü*<br>*Təkliflərin hazırlanması və təqdim edilməsi üçün icazə verilən vaxt predmetin xüsusiyyəti, miqyası və mürəkkəbliyi nəzərə alınmaqla müəyyən edilməlidir]* |
| (20) | 25.1. | Təkliflərin açılmasının müddəti | **(tarix və saatı daxil edin)**<br>*[Təkliflər Təlimatın 24.1-ci bəndində qeyd olunan vaxtdan sonra 1 saat ərzində açılır]* |
| **E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** | | | |
| (21) | 33.1. | Subpodratçı | Subpodratçının cəlb edilməsinə icazə **(verilir / verilmir)**. |

<table>
<tr><td></td><td></td><td></td><td>Subpodratçı üçün tələblər: (tələbləri daxil edin)<br>[Məsələn, subpodratçının həyata keçirməsi nəzərdə tutulan fəaliyyət sahəsi “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növü olarsa müvafiq lisenziya əlavə edilməlidir]</td></tr>
<tr><td>(22)</td><td>34.2.</td><td>Qiymətləndirmə meyarlarının nisbi qiyməti (balı) və çəkisi:</td><td>Meyarların nisbi qiyməti (balı) (tətbiq ediləcək / edilməyəcək)<br>[<u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində təfərrüatlı olaraq qiymətləndirilmiş meyarlar/bal sistemi təklifi qiymətləndirmə yanaşması tətbiq edilərsə, “tətbiq ediləcək” seçin].<br><br>Qiymət amilinin çəkisi (çəkini daxil edin)<br><br>[məbləğ üçün elə bir çəki göstərin ki, texniki və məbləğ nisbətlərinin cəmi 1 (bir) olsun. Bu çəkinin 70%-dən aşağı olmaması tövsiyə olunur. Təlimatın 34.2-ci bəndi tətbiq edilmirsə bu qeydi silin]<br><br>Texniki amilin çəkisi və bölgüsü (100%-i keçməməklə hesablanır):
<table>
<tr><th>Texniki amillər</th><th>Nisbi çəkisi</th></tr>
<tr><td>1. Malların göndərilməsi müddətləri</td><td>çəkini daxil edin</td></tr>
<tr><td>2. Malların funksional xüsusiyyətləri</td><td>çəkini daxil edin</td></tr>
<tr><td>3. Zəmanət şərtləri</td><td>çəkini daxil edin</td></tr>
</table>
<br>[Yuxarıda göstərilən texniki amillər çərçivəsindən kənara çıxmamaq şərtilə konkret göstəricilər və qiymətləndirmə prosedurları <u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsi ilə müəyyən edilməlidir və texniki təklifin qiymətləndirilməsi üçün tələb olunan sənədlər bu qiymətləndirməni aparmağı imkan verməlidir. Çəkilər texniki amillərin nisbi əhəmiyyəti baxımından bölüşdürülməlidir].</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| (23) | 34.4. | Qiymətin tənzimlənməsində istifadə ediləcək meyarlar | a) Çatdırılma qrafikindən kənarlaşma **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)**<br>b) İstismar, texniki xidmət və təmir xərcləri **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)**<br>c) Ödəniş qrafikindən kənarlaşma **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)**<br>d) Əsas əvəzedici komponentlərin, məcburi ehtiyat hissələrinin və xidmətin xərci **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)**<br>e) Avadanlığın fəaliyyət göstəricisi və məhsuldarlığı **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)**<br>f) Təklif olunan avadanlıq üçün ehtiyat hissələrinin və satışdan sonrakı xidmətlərin satınalan təşkilatın ölkəsində mövcudluğu **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)**<br>**g) (Tətbiq ediləcək digər xüsusi meyarları Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə daxil edin)** |
| (24) | 37.4. | Uyğunluq sənədlərinin yenidən təqdim edilməsi halları: | **(uyğunluq sənədlərinin yenidən təqdim edilməsi hallarını daxil edin)** |

| | | | |
|---|---|---|---|
| | | | *[“Təkliflərin qiymətləndirilməsi müddətində dəyişilməsi gözlənilən (məsələn. vergi arayışı və s.) və ya təqdim edilmiş sənədlər arasında ziddiyyət/uyğunsuzluq olması” kimi halları qeyd edin və ya “tətbiq edilmir” daxil edin].* |
| **H. Müqavilə** | | | |
| (25) | 52.2. | Müqavilə şərtləri: | Ödəmələr: **(satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği)** |
| | | | Avans: **(avans ödənişi və təminatının məbləği və müqavilənin icra müddəti)** *[Avans satınalma müqaviləsinin ümumi məbləğinin 30 faizindən (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 50 faizindən) çox olmayaraq ödənilir. Avansın alınması üçün təchizatçı tərəfindən satınalan təşkilata avans ödənişinin ümumi həcmindən az olmayan məbləğdə və müqavilənin icra müddətində qüvvədə olan müddətdə avans təminatı təqdim olunur].* |
| | | | Satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları: **(təklifin akseptindən sonra satınalma müqaviləsinin qüvvəyə minməsi üçün müvafiq sənədlər, həmin sənədlərin təqdim edilməsi müddəti və digər şərtlər)** |
| | | | Müqaviləyə dəyişiklik: **(satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları)** |
| | | | Sığorta: **(tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri)** |

# III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ-UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI

Bu bölmədə satınalma komissiyası tərəfindən təklifləri qiymətləndirmək və uyğunluq göstəricilərinə cavab verən təchizatçıları müəyyən etmək üçün bütün meyarlar qeyd edilib. Bu şərtlər toplusunda qeyd edilməyən heç bir meyar, amil və ya göstəricidən istifadə edilə bilməz. Təchizatçı tələb olunan bütün məlumatları Satınalma formaları (IV) bölməsinə daxil edilən formalardan istifadə edərək təqdim etməlidir.

Təchizatçıdan maddi dəyərinin göstərilməsi tələb olunan məlumatlar Azərbaycan manatı ilə aşağıdakı qaydada müəyyən edilən məzənnədən istifadə edilərək təqdim edilməlidir:

- maliyyə vəziyyətində göstərilən məlumatlar - müvafiq təqvim ilinin son günündə qüvvədə olan valyuta məzənnəsi;
- müqavilənin məbləği - müqavilənin bağlandığı tarixdə qüvvədə olan valyuta məzənnəsi.

Valyuta məzənnələri Təlimatın 31.1-ci bəndi ilə müəyyən edilmiş açıq mənbədən götürülməlidir. Təklifində valyuta məzənnələrinin müəyyən edilməsində hər hansı səhv satınalma komissiyası tərəfindən düzəldilə bilər.

*[Satınalan təşkilat satınalma prosesi üçün uyğun hesab edilən meyarları seçməli, aşağıdakı nümunələrdən və ya digər məqbul mətndən istifadə etməklə müvafiq mətni daxil etməli və kursivlə yazılan mətni silməlidir].*

# A. Texniki və maliyyə göstəricilərinin qiymətləndirməsi

## 1. Texniki göstəricilərin qiymətləndirilməsi

Təlimatın 34.1-ci bəndinə uyğun olaraq təklifin tələblərə uyğunluğunun qiymətləndirilməsi.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

……………………………………………………………………………………………

Əgər Təlimatın 34.2-ci bəndi tətbiq edilərsə, qiymətləndirilməli olan texniki amillər və əgər varsa, alt amillər Təlimatın 35.2-ci bəndində hər bir texniki amilə və alt amillərə veriləcək ballar göstərilmişdir.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

.........................................................................................................................

### 1.1. Texniki göstəricilərin bal ilə qiymətləndirilməsi metodologiyası

*[Satınalan təşkilat bura daxil ediləcək bal ilə qiymətləndirmə metodologiyasını hazırlamalıdır. Əgər Təlimatın 34.2-ci bəndinə uyğun olaraq texniki amillərə (və əgər varsa, alt amillər) əhəmiyyətinə görə nisbi ballar verilirsə həmin ballar aşağıdakı düsturla hesablanır]:*

...............................................

Texniki amil daxilində (j) hər bir alt-amil (i) üçün bal, aşağıdakı düsturdan istifadə edilərək hesablanır:

$$S_j \equiv \sum_{i=1}^{k} t_{ji} * f_{ji}$$

burada:

$t_{ji}$ = “j” amilindəki “i” alt amilinin texniki balı;

$f_{ji}$ = “j” amilindəki “i” alt amilinin faiz nisbəti;

$k$ = “j” amilindəki qiymətləndirilən alt amillərin sayı

$$\sum_{i=1}^{k} f_{ji} = 1$$

Amilin texniki balları aşağıdakı düsturdan istifadə etməklə ümumi texniki təklif balı hesablamaq üçün çəkili məbləğdə birləşdiriləcəkdir:

$$T \equiv \sum_{j=1}^{n} S_j * F_j$$

burada:

$S_j$ = “j” amilinin balı;

$F_j$ = “j” amilinin **Satınalma məlumat vərəqində (22)** müəyyən edilən nisbi çəkisi;

$n$ = amillərin sayı

$$\sum_{j=1}^{n} F_j = 1$$

[**Düsturların izahı:** Ümumi texniki amil daxilində hər bir alt amilə görə təchizatçıya verilmiş ballar müvafiq olaraq hər bir alt amil üçün müəyyən edilmiş nisbi çəkiyə vurularaq toplanır. Məsələn, əgər ümumi texniki amil daxilində 2 alt amilin (100% üzərindən) nisbi çəkiləri müvafiq olaraq - funksional xüsusiyyətlər 60%, zəmanət şərtləri 40%-dirsə və təchizatçıya funksional xüsusiyyətlərinə görə (100 olmaqla) 70 bal, zəmanət şərtlərinə görə 60 bal verilmişdirsə yekun bal 60%*70+40%*60 = 66 olaraq hesablanır.]

### 1.2. Alternativ təkliflər

Təlimatın 13.1-ci bəndində nəzərdə tutulduğu təqdirdə aşağıdakı kimi qiymətləndiriləcəkdir.

*[Satınalan təşkilat tərəfindən aşağıdakı mətn və ya başqa mətn daxil edilir].*

Təchizatçı yalnız əsas tələbə cavab verən təklif ilə birlikdə alternativ təklif təqdim edə bilər. Satınalan təşkilat yalnız əsas təklifi (B) Mallara dair tələblər sənədi ilə müəyyən edilmiş göstəricilərə cavab verən ən aşağı və ya ən sərfəli təklif təqdim etmiş təchizatçının təklif etdiyi alternativ təklifləri nəzərdən keçirəcəkdir.
................................................................

## 2. Maliyyə göstəricilərinin qiymətləndirilməsi

### 2.1. Maliyyə göstəricilərinin qiymətləndirilməsi üçün meyarlar

**(i)** Çatdırılma qrafikindən kənarlaşma

Malların siyahısında göstərilən malların (B) Mallara dair tələblər sənədində göstərilən məqbul vaxt intervalında (ən erkən və son tarixdən əvvəl, hər iki tarix daxil olmaqla) çatdırılması tələb olunur. Ən erkən tarixdən əvvəl çatdırılmalara hər hansı üstünlük verilməyəcək və son tarixdən sonra çatdırılma nəzərdə tutan təklifləri uyğun hesab edilməyəcəkdir. Bu məqbul müddət intervalı ərzində yalnız qiymətləndirmə məqsədləri üçün (B) Mallara dair tələblər sənədində göstərilən "Ən erkən çatdırılma tarixindən" sonra çatdırılma nəzərdə tutan təkliflərə hər təqvim günü üçün müqayisə məqsədilə məbləğ tənzimlənməsi (artırılması) **0,1%** təşkil edəcəkdir.

**(ii)** İstismar, texniki xidmət və təmir xərcləri

*[Malların müəyyən edilmiş istismar müddəti ərzində istismar və yaxud texniki xidmət xərclərinin ilkin dəyərlə müqayisədə əhəmiyyətli olduğu və müxtəlif təkliflər arasında dəyişə bildiyi zaman istismar dövrü xərclərinin hesablanmasından istifadə edilməlidir. O, xalis diskontlaşdırılmış dəyər əsasında qiymətləndirilməlidir. Təklifin qiymətləndirilməsi üçün istismar dövrü xərclərin hesablanması tətbiq ediləcəksə, satınalan təşkilat onun tətbiqi ilə bağlı müvafiq məlumatları burada qeyd etməlidir:]*

İstismar dövrü xərclərinin hesablanması üçün amillər:
(a) istismar dövrü üçün illərin sayı: **(illərin sayını daxil edin)**;
(b) əməliyyat xərcləri **(onların necə müəyyən ediləcəyini qeyd edin)**;
(c) istismarın ilkin dövrü üçün ehtiyat hissələrinin dəyəri daxil olmaqla texniki xidmət xərcləri **(onların necə müəyyən ediləcəyini qeyd edin)**;
(d) Diskont dərəcəsi: (a) bəndində göstərilən dövr üçün yuxarıda (b) və (c) bəndlərində hesablanmış bütün illik gələcək məsrəflərin cari məbləğə

diskont edilməsi üçün istifadə ediləcək **(diskont dərəcəsini faizlə daxil edin)**.

**(iii)** Ödəniş qrafikindən kənarlaşma [aşağıdakılardan birini daxil edin]

(i) Təchizatçılar Müqavilənin xüsusi şərtlərində göstərilən ödəniş qrafiki üzrə öz təklifini təqdim etməlidir. Təkliflər bu baza qiyməti əsasında qiymətləndirilir. Bununla belə, təchizatçılara alternativ ödəniş qrafiki təqdim etməyə və bu cür alternativ ödəniş qrafiki üçün təklif etmək istədikləri təklif məbləğinin qiymətində azalma göstərməyə icazə verilir. Satınalan təşkilat Müqavilənin xüsusi şərtlərində göstərilən ödəniş qrafiki üçün baza qiymət əsasında seçilmiş təchizatçı tərəfindən təklif edilən alternativ ödəniş qrafikini və azaldılmış təklif məbləğini təklifini nəzərdən keçirə bilər.

və ya

(i) Müqavilənin xüsusi şərtlərində satınalan təşkilat tərəfindən müəyyən edilmiş ödəniş qrafiki göstərilir. Əgər təklifi qrafikdən kənara çıxarsa və belə bir kənarlaşma satınalan təşkilat üçün məqbul hesab edilərsə, təklif Müqavilənin xüsusi şərtlərində nəzərdə tutulanlarla müqayisədə təklifdə göstərilən şərtlərlə bağlı hər hansı əvvəlki ödənişlər üçün qazanılmış faizlərin [tənzimləmə dərəcəsini daxil edin] illik dərəcə əsasında hesablanması yolu ilə qiymətləndiriləcəkdir.

və ya

*(i) Təchizatçılar Müqavilənin xüsusi şərtlərində göstərilən ödəniş qrafiki üzrə öz təklifini təqdim etməlidir. Bu qrafikdən kənar ödəniş qrafiki təklif edən təchizatçılar kənarlaşdırılacaqdır.*

**(iv)** Əsas əvəzedici komponentlərin, məcburi ehtiyat hissələrinin və xidmətin xərci [aşağıdakılardan birini daxil edin].

(i) Satınalma məlumat vərəqində (13) (təchizatçılar üçün Təlimatın 17.3-cü bəndi) də göstərilən ilkin istismar dövründə tələb oluna bilən əsas birləşmələrin, komponentlərin və seçilmiş ehtiyat hissələrinin maddələrinin və miqdarının siyahısı malların siyahısında qeyd edilib. Hər bir təklifdə göstərilən vahid qiymətlərlə bu maddələrin ümumi dəyərinə bərabər olan düzəliş yalnız qiymətləndirmə məqsədləri üçün təklifin qiymətinə əlavə ediləcəkdir.

və ya

(i) Satınalan təşkilat Satınalma məlumat vərəqində (13) (təchizatçılar üçün Təlimatın 17.3-cü bəndi) göstərilən ilkin istismar dövründə istifadənin təxmin edilən miqdarları ilə birlikdə komponentlərin və ehtiyat hissələrinin yüksək istifadə olunan və yüksək qiymətli əşyalarının siyahısını tərtib edəcək. Bu maddələrin və kəmiyyətlərin ümumi dəyəri yalnız qiymətləndirmə məqsədi üçün təchizatçı tərəfindən təqdim edilən və təklif məbləğinə əlavə edilən ehtiyat hissələrinin vahid qiymətləri əsasında hesablanacaq.

**(v)** Təklif olunan avadanlıq üçün ehtiyat hissələrinin və satışdan sonrakı xidmətlərin satınalan təşkilatın ölkəsində mövcudluğu.

Minimum xidmət obyektlərinin və hissələrin inventarının yaradılması üçün satınalan təşkilat tərəfindən çəkiləcək xərclərə bərabər olan düzəliş yalnız qiymətləndirmə məqsədləri üçün təklifin qiymətinə əlavə ediləcək.

**(vi)** Avadanlığın fəaliyyət göstəricisi və məhsuldarlığı: [aşağıdakılardan birini daxil edin]

(i) Malların istismar müddəti ərzində əlavə əməliyyat xərclərinin kapitallaşdırılmış dəyərini əks etdirən düzəliş qiymətləndirmə məqsədləri üçün təklifin qiymətinə əlavə ediləcək. Düzəliş aşağıda göstərilən metodologiyadan istifadə etməklə, təklifdə nəzərdə tutulan zəmanətli fəaliyyət göstəricisi və ya səmərəliliyin 100-dən aşağı düşməsi əsasında qiymətləndiriləcək.

[mümkün olduqda metodologiya və meyarları daxil edin]

və ya

(i) Təklifdə nəzərdə tutulan malların məhsuldarlığını nəzərə almaq üçün düzəliş, yalnız qiymətləndirmə məqsədləri üçün təklifin qiymətinə əlavə ediləcək. Düzəliş aşağıda göstərilən metodologiyadan istifadə etməklə, minimum tələb olunan dəyərlərlə bağlı təklifdə nəzərdə tutulan malların faktiki məhsuldarlığının vahidinə düşən maya dəyəri əsasında qiymətləndirilir.

[mümkün olduqda metodologiya və meyarları daxil edin]

**(vii)** Digər əlavə meyarlar

[Qiymətləndirmədə nəzərə alınacaq digər xüsusi əlavə meyarlar və qiymətləndirmə metodu BDS 34.6-da təfərrüatlı şəkildə göstərilməlidir][Əgər xüsusi dayanıqlı satınalma texniki tələbləri Bölmə VII- Spesifikasiyada müəyyən edilmişdirsə, ya (i) həmin tələblərin qiymətləndiriləcəyini bildirin. keçmək/qeyri-məqbul (uyğunluq əsasında) və ya başqa şəkildə (ii) bu tələbləri keçmək/məğlubiyyət (uyğunluq əsasında) üzrə qiymətləndirməyə əlavə olaraq, əgər varsa, Tender təklifləri hesabına müqayisə məqsədləri üçün Tender Qiymətlərinə tətbiq ediləcək pul düzəlişlərini göstərin müəyyən edilmiş minimum davamlı satınalma texniki tələblərini aşan.]

**3. Yekun qiymətləndirmə**

Satınalma komissiyası əhəmiyyətli dərəcədə tələblərə uyğun təklifləri qiymətləndirəcək və müqayisə edəcək. Qiymətləndirilmiş təklif balı (B) hər bir təklif üçün qiymətləndirilmiş məbləğ və balı müəyyən edərək aşağıdakı düstur ilə hesablanacaq:

$$B = \frac{M_{aşağı}}{M} * X * 100 + \frac{T}{T_{yuxarı}} * (1-X) * 100$$

Burada:

*M* = qiymətləndirilmiş təklif məbləği;

$M_{aşağı}$ = bütün uyğun təkliflər üçün qiymətləndirilib ən aşağı məbləğ;

*T* = təklifə verilmiş ümumi texniki bal;

$T_{yuxarı}$ = *bütün uyğun təkliflər içİn ən yuxarı texniki balı almış təklifin balı;*

*X* = məbləğ üçün **Satınalma məlumat vərəqində (22)** müəyyən edilən nisbi çəki.

İxtisas göstəricilərinin tələblərinə cavab verən ən yüksək bal alan təklif ən səmərəli təklif hesab edilir.

[**Düsturun izahı:** Əgər texniki amilin çəkisi 30%, qiymət amilinin çəkisi 70%-dirsə və satınalmada iştirak edən 3 təchizatçının təklif məbləğləri və texniki balları müvafiq olaraq aşağıdakı kimidirsə:

- Təchizatçı A: təklif məbləği - 100.000 AZN, texniki balı 60
- Təchizatçı B: təklif məbləği - 120.000 AZN, texniki balı 70
- Təchizatçı C: təklif məbləği - 110.000 AZN, texniki balı 80

Müvafiq olaraq hər bir təchizatçının balı aşağıdakı kimi hesablanacaqdır:

- Təchizatçı A: 100.000(ən aşağı məbləğ) /100.000(təchizatçı A-nın məbləği) * 70%(qiymət amilinin çəkisi) * 100 + 60(təchizatçı B-nin texniki balı) / 80(ən yüksək texniki bal) * 30%(texniki amilin çəkisi) * 100 = 92,5
- Təchizatçı B: 100.000 / 120.000 * 70% * 100 + 70 / 80 * 30% * 100 = 84,6
- Təchizatçı C: 100.000 / 110.000 * 70% * 100 + 80 / 80 * 30% * 100 = 93,6 (qalib)]

## B. Uyğunluq göstəricilərinin qiymətləndirilməsi

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| 1. | ***İlkin tələblər*** | | | | | | |
| 1.1. | **Təklifin təminatı** | **Satınalma məlumat vərəqində (17)** qeyd edilmiş məbləğdə və Təlimatın 20.2-ci bəndində göstərilən müddətdə qüvvədə olan təminatın təqdim edilməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Qarant tərəfindən müvafiq qaydada təqdim edilmiş təklifin təminatı **(FORMA 7)** |
| 1.2. | **Maraqlar toqquşması** | Təlimatın 3.2-ci bəndinin tələblərinə cavab verməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)** |
| 1.3. | **Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma** | **Satınalma məlumat vərəqində (2)** göstərilən və (və ya) müəyyən edilən ölkələrdə qeydiyyatdan keçən qeyri-rezident təchizatçıların siyahısına daxil edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Qeydiyyat sənədi |
| 2. | ***Ümumi tələblər*** | | | | | | |
| 2.1. | **Təchizatçı haqqında** | Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | 1. Təchizatçı haqqında:<br>a. Təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti; |

[1] Bütün üzvlərin təqdim etdiyi göstəricilərin cəmi tələblərə tam cavab verməlidir.

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | | | | | | b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti;<br>c. birgə fəaliyyət göstərdikdə Təlimatın 3.4-cü bəndinə uyğun olaraq birgə fəaliyyətə dair müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu.<br>2. təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış<br>a. Hüquqi və fiziki şəxs olduqda **(FORMA 3)** və (və ya)<br>b. Birgə fəaliyyət olduqda 2 a bəndinə əlavə olaraq (**FORMA 4)**<br>3. Təlimatın 21.2-ci bəndinə uyğun olaraq təklifi imzalayan digər vəzifəli şəxs olduqda – etibarnamə.<br>4. Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış **(FORMA 6)** |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **2.2.** | **Lisenziya və (və ya) icazə (tətbiq olunarsa)** | **(satınalma predmetinin icrası üçün zəruri olan və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növünü və tətbiq olunarsa konkret istiqaməti qeyd edin** *məs. Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri – (a) xüsusi torpaq işləri və (b) mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması işləri***)** | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Uyğun olmalıdır | Lisenziya və (və ya) icazənin surəti |
| **2.3.** | **Əmlakdan sərbəst istifadə** | Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakın-dan sərbəst və məhdu-diyyətsiz istifadə etmək imkanının olması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublika-sının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasi-bətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən hazırlanmış arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | | | | | | **(FORMA 1)**, məlumat və təsdiqedici sənədlər |
| **2.4.** | **Müflislik** | Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahibkarlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.5.** | **Vergi və əmək qanunvericiliyi öhdəliyi** | Azərbaycan Respublikasında vergilər və digər icbari ödən mallar üzrə vaxtı keçmiş öhdəliklərinin olması və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın olmaması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı malların (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının və ya inzibati cərimənin tətbiq edilməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Maliyyə sanksiyasına münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış<br>İnzibati cəriməyə münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən arayış |
| **2.6.** | **Fəaliyyət qadağası** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.7.** | **Məhkumluq** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət: *Bütün üzvlər birlikdə* [1] | Birgə fəaliyyət: *Hər bir üzv ayrı-ayrılıqda* | Birgə fəaliyyət: *Bir üzv* | |
| | | satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırılma cinayətlərinə görə məhkum olunmaması | | | | | |
| **3.** | ***Xüsusi tələblər*** | | | | | | |
| **3.1.** | **Peşəkarlıq və təcrübə** | Satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının və təcrübəsinin olması, aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | Təchizatçının təcrübəsi barədə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 5)**, məlumat və təsdiqedici sənədlər (təhvil-təslim və ya yekun təhvil-təslim aktları, elektron qaimə və s.). *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış digər prosedurları daxil edin]* |
| **3.1.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | | | | | |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **3.2.** | **Maliyyə imkanı** | Satınalma müqaviləsinin icrası üçün maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış prosedurları daxil edin]* |
| **3.2.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | ... | ... | ... | ... | |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | ... | ... | ... | ... | |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | ... | ... | ... | ... | |
| **4.** | ***Digər tələblər*** | | | | | | |
| **4.1.** | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir.]* | | | | | | |

# IV BÖLMƏ. SATINALMA FORMALARI

## FORMA 1. Təklif məktubu

Təklifin təqdim olunma tarixi: **(tarixi daxil edin)**

Müsabiqə nömrəsi: **(müsabiqə nömrəsini daxil edin)**

Kimə: **(Satınalan təşkilatın adını daxil edin)**

Biz, aşağıda imza edənlər bəyan edirik ki:

**(a)** **Qeyd-şərtin olmaması:** Təlimatın 8-ci hissəsinə müvafiq olaraq verilmiş əlavə və dəyişikliklər də daxil olmaqla (mövcud olduğu halda) şərtlər toplusu və onu təşkil edən sənədlər ilə tanış olduq, burada təsvir olunan işin görülməsi haqqında tam məlumata malikik və bu sənədlərə heç bir qeyd-şərtimiz yoxdur;

**(b)** **Münasiblik:** Təlimatın 3-cü hissəsində qeyd edilmiş tələblərə cavab veririk və maraqların toqquşması hallarının olmadığını təsdiqləyirik;

**(c)** **Uyğunluq:** Biz ***(satınalma predmetini daxil edin)*** malları şərtlər toplusunun tələblərinə və nəzərdə tutulmuş icra qrafikinə uyğun olaraq yerinə yetirməyi təklif edirik*;*

**(d)** **Qiymət:** Tələb olunan malları bütün vergi və rüsumlar daxil olmaqla dövlət satınalmalarının vahid internet portalında göstərilən məbləğdə yerinə yetirməyi təklif edirik.

**(e)** **Təklifin qüvvədə olma müddəti**: Təklifimiz dövlət satınalmalarının vahid internet Portalında göstərilən tarixədək qüvvədədir, bizim üçün məcburi xarakter daşıyır və bu müddətin bitməsindən əvvəl istənilən vaxt qəbul edilə bilər;

**(f)** **İcra təminatı**: Bizim təklifimiz qəbul edildiyi təqdirdə şərtlər toplusunda qeyd edilən şərtlərdə icra təminatını təqdim edəcəyimizi öhdəmizə götürürük;

**(g)** **Hər təchizatçı bir təklif:** Biz fərdi təchizatçı kimi hər hansı digər təklif və ya təkliflər təqdim etmirik, birgə fəaliyyət üzvü və ya subpodratçı kimi hər hansı digər satınalma və ya satınalmalarda iştirak etmirik və Təlimatın 13-cü hissəsinə uyğun təqdim edilmiş alternativ təkliflər istisna olmaqla Təlimatın 3.3-cü bəndinin tələblərinə cavab veririk;

**(h)** **Qəbul etmək məcburiyyətinin olmaması**: Başa düşürük ki, siz ən aşağı qiyməti olan, ən səmərəli və ya digər istənilən təklifi qəbul etmək məcburiyyətində deyilsiniz;

**(i)** **Əmlakdan sərbəst istifadə**: Müqavilənin icrası zamanı istifadə olunacaq əmlaklardan (daşınmaz əmlak və nəqliyyat vasitələri istisna olmaqla) sərbəst və məhdudiyyətsiz istifadə etmək hüququmuz var;

**(j)** **Saxtakarlıq və korrupsiya:** Bizim üçün və ya bizim adımızdan hərəkət edən heç kimin heç bir formada saxtakarlıq və korrupsiya əməlləri törətməməsi üçün müvafiq tədbirləri görmüşük.

Təchizatçının adı: (təchizatçının adını daxil edin)

Təchizatçının VÖENİ: **(təchizatçının VÖEN-ini daxil edin)**

Təklifi təchizatçı adından imzalamaq səlahiyyəti olan şəxsin adı və soyadı:**(adı və soyadı daxil edin)**

Təklifi imzalayan şəxsin vəzifəsi: **(tam vəzifəni qeyd edin)**

İmzalanma tarix: **(tarixi daxil edin)**

# FORMA 2. Qiymət cədvəli

Təchizatçı satınalan təşkilat tərəfindən aşağıdakı formada hazırlanmış qiymət cədvəlini Portal vasitəsilə əldə edərək doldurur

| Maddə № | Malların və əlaqədar xidmətlərin (varsa) təsviri | Mənşə ölkəsi | Çatdırılma /icra tarixi | Ölçü vahidi | Miqdar | Vahidinin qiyməti | Cəm |
|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| | | | | | | | |
| | | | | | | | |
| | *Daşıma, rüsum vergi və digər xərclər* | - | - | cəm | 1 | | |
| | *Daşıma ilə əlaqədar xidmətlər xaric digər xidmətlər [varsa hər birini ayrı-ayrı sıralayın]* | | | | | | |
| | | | | | | **Yekun cəm:** | ______ |

# FORMA 3. Təchizatçı haqqında

| |
|---|
| Təchizatçının adı: **(təchizatçının adını daxil edin)** |
| Birgə fəaliyyət göstərdikdə hər bir üzvün adı: **(hər bir üzvün hüquqi adını qeyd edin)** |
| Təchizatçının qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Təchizatçının təsis ili: **(ili qeyd edin)** |
| Təchizatçının hüquqi və faktiki ünvanları: **(ünvanı qeyd edin)** |
| Təchizatçının səlahiyyəti nümayəndəsi haqqında:<br>• Adı və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 4. Birgə fəaliyyət haqqında

*(tətbiq olunursa hər bir birgə fəaliyyət göstərən üzvü üçün ayrı-ayrılıqda doldurulur)*

| |
|---|
| Birgə fəaliyyət göstərənin adı: (təchizatçının adını daxil edin) |
| Birgə fəaliyyət göstərən üzvünün adı: **(üzvün hüquqi adını qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin üzvün qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün təsis ili: **(ili qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün faktiki və hüquqi ünvanı: **(ünvanı qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin səlahiyyətli nümayəndəsi haqqında:<br>• Ad və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 5. Oxşar malların göndərilməsi üzrə təcrübə

| Sıra №-si | Başlanma və bitmə tarixi | Satınalan təşkilat və əlaqə vasitələri *(ünvanı, e-poçtu və telefonu)* | Müqavilənin predmeti | İcra olunan müqavilənin cari satınalma predmetinə bənzərliyinin təsviri *(yeri, əsas komponentləri, miqdarları/ həcmləri və s.)* | Müqavilənin məbləği *(AZN ilə)* | İcra vəziyyəti *(davam edirsə tamamlanma faizi qeyd edilir)* | Təchizatçının rolu |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | (Təchizatçı, subpodratçı və ya birgə fəaliyyət üzvü) |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |
| 5. | | | | | | | |

# FORMA 6. Subpodratçılar haqqında məlumat

| Sıra №-si | Subpodratçının hüquqi adı və VÖEN-i | Əlaqə vasitəsi | Göstəriləcək xidmətlərin təsviri | Müqavilə məbləğində payı (faizlə) |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |
| 5. | | | | |

# FORMA 7. Təklifin təminatı

Qarantiya nömrəsi: **(qarant tərəfindən doldurulur)**
Satınalan təşkilat: **(satınalan təşkilatın adı)**
Satınalma predmeti: **(satınalma predmetini daxil edin)**
Tarix: **(tarixi daxil edin)**

Nəzərə alaraq ki, **(təchizatçının adını daxil edin)** (VÖEN-i: **(təchizatçının VÖEN-ini daxil edin)**) (bundan sonra - təchizatçı) yuxarıda qeyd olunmuş satınalma predmetində nəzərdə tutulan malların göndərilməsi və əlaqədar xidmətlərin (tətbiq olunduğu halda) göstərilməsi üçün təklifini (bundan sonra – təklif) təqdim edəcəkdir, təchizatçının müraciəti əsasında biz, **(qarantın ünvanını daxil edin)** ünvanında yerləşən **(qarantın adını daxil edin)** (**(qarantın VÖEN-ini daxil edin)**) (bundan sonra – qarant) **(satınalan təşkilatın adı)** (VÖEN-i: **(satınalan təşkilatın VÖEN-ini daxil edin)**) (bundan sonra – satınalan təşkilat) qarşısında satınalan təşkilatın təchizatçının aşağıdakı öhdəliyə (öhdəliklərə) əməl etməməsi barədə müraciəti əsasında **(təklif təminatının məbləğini rəqəmlə və sözlə daxil edin)** məbləği əsaslandırma, sübut və ya səbəblərini göstərməyi tələb etmədən satınalan təşkilata geri qaytarılmayacaq şəkildə ödəyəcəyimizə öhdəlik götürürük:

(a) təchizatçı təklif məktubunda qeyd etdiyi təklifin qüvvədə olduğu müddətdə təklifini geri götürmüşdür və (və ya)

(b) təchizatçı tərəfindən təqdim edilmiş təklifin ilkin və ya uzadılmış qüvvədə olduğu müddətində aksept bildirişini aldığı halda (i) 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalamamışdır və ya (ii) şərtlər toplusuna əsasən tələb olunan icra təminatını təqdim etməmişdir.

Bu təminat aşağıdakı hallarda qüvvədən düşmüş hesab olunur:

(a) Təchizatçı və satınalan təşkilat tərəfindən imzalanmış müqavilə və icra təminatının nüsxəsi təqdim edildikə və ya

(b) Təchizatçı qalib olmadığı təqdirdə (hansı birinci baş versə):
   i. satınalmanın nəticələri barədə təchizatçıya göndərilmiş bildiriş təqdim edildikdə və ya
   ii. təklifin qüvvədə olma müddətindən sonra 30 (otuz) iş günü keçdikdə **(tarixi daxil edin)**.

Bu təminat çərçivəsindəki hər hansı tələb qaranta yuxarıda qeyd olunan tarixdə və ya ondan öncə təqdim edilməlidir.

Qarant bu öhdəlikləri öz adından, öz varislərinin və müvəkkillərinin adından götürür.

Bu təminat Azərbaycan Respublikasında qüvvədə olan müvafiq qanunvericilik ilə tənzimlənir.

Qarantın adından və tapşırığı ilə **(imzalar)**

# FORMA 8. İstehsalçının icazəsi

*[tətbiq olunduğu təqdirdə]*

*[Təchizatçı istehsalçıdan bu formanı göstərilən təlimatlara uyğun olaraq doldurmağı tələb etməlidir. Bu icazə məktubu istehsalçının blankında olmalı və istehsalçı tərəfindən sənədləri imzalamaq üçün müvafiq səlahiyyətinə malik olan şəxs tərəfindən imzalanmalıdır. Təchizatçı satınalma məlumat vərəqində göstərildiyi təqdirdə onu öz təklifinə daxil etməlidir]*

Tarix: **(təklifin təqdim olunduğu tarixi gün, ay və il olaraq daxil edin)**

Kimə: **(satınalan təşkilatın adı)**

Nəzərə alaraq ki, biz **(istehsalçının tam adını daxil edin) (istehsal olunan məhsullarını növünü daxil edin)** rəsmi istehsalçısıyıq və **(istehsalçının zavodunun tam ünvanını daxil edin)** ünvanında zavodlarımız var, bununla bizim tərəfimizdən istehsal olunmuş aşağıdakı malları təmin etmək və müqaviləni imzalamaq məqsədilə təklif təqdim edən **(təchizatçının adını daxil edin)**(yönlük hallarda) icazə veririk.

- **(malların adlarını və qısa təsvirini siyahı olaraq daxil edin)**

Biz bununla yuxarıda göstərilən təchizatçının təklif etdiyi mallara münasibətdə müqavilənin ümumi şərtlərinin 24-cü hissəsinə uyğun olaraq tam zəmanət veririk.

İmzaladı: **(istehsalçının səlahiyyətli nümayəndəsinin imza və möhürünü daxil edin)**

Adı: **(istehsalçının səlahiyyətli nümayəndəsinin tam adını daxil edin)**

Vəzifə: **(vəzifəni daxil edin)**

İmzalanma tarixi: **(imzalanma tarixini gün, ay və il olaraq daxil edin)**

# (B) MALLARA DAİR TƏLƏBLƏR

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar (satınalma predmetinin ətraflı təsviri, zəruri texniki və keyfiyyət xüsusiyyətləri (o cümlədən planlar, çertyojlar (cizgilər) və eskizlər), malların göndəriləcəyi yeri, qrafiki və s.) daxil edilir. Yalnız istehsal olunmuş mal partiyası üçün tətbiq olunan sertifikatların (məsələn uyğunluq, mənşə və s.), həmçinin şərtlər toplusunun tələblərinə uyğun hazırlanmış mallara dair nümunələrin təqdim olunması kimi şərtlərin tələblərə daxil edilməsinə yol verilmir (belə tələblər müqavilə şərtlərinə daxil edilə və ya şərtlər toplusunun tələblərinə bənzər xüsusiyyətdə istehsal olunmuş mallara Təchizatçı ilə razılaşdırılmış yerdə baxış keçirilə bilər)]*

# (C) SATINALMA MÜQAVİLƏSİ

*[Qanunun 38.15-ci maddəsinə əsasən mallar üzrə satınalma müqaviləsinin nümunəvi forması müvafiq qaydada doldurularaq əlavə edilir]*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 30 dekabr tarixli 503 nömrəli
Qərarı ilə **təsdiq edilmişdir.**

**3 nömrəli əlavə**

## (satınalma predmetini daxil edin)

---

*xidmətlərinin*

AÇIQ TENDER METODU

ilə satın alınması üçün

# ŞƏRTLƏR TOPLUSU

SATINALAN TƏŞKİLAT: **(satınalan təşkilatın adını daxil edin)**

ELAN TARİXİ: **(elan tarixini daxil edin)**

## MÜNDƏRİCAT

(A) SATINALMA PROSEDURLARI

**I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT** ........ 3
**A. Ümumi** ........ 3
**1. Satınalma haqqında** ........ 3
**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar** ........ 3
**3. Təchizatçıların münasibliyi** ........ 3
**4. Xidmətlərin münasibliyi** ........ 5
**5. Satınalmada istifadə və iştirak haqqı** ........ 5
**B. Şərtlər toplusunun məzmunu** ........ 6
**6. Şərtlər toplusunun tamlığı** ........ 6
**7. Şərtlər toplusuna dair izahat, xidmət yerinə baxış və təklifqabağı görüş** ........ 7
**8. Şərtlər toplusunda dəyişiklik edilməsi** ........ 8
**C. Təkliflərin hazırlanması** ........ 8
**9. Satınalma xərcləri** ........ 8
**10. Təklifin tərtib olunmasının dili** ........ 8
**11. Təklifə daxil olan sənədlər** ........ 9
**12. Təklif məktubu və cədvəllər** ........ 9
**13. Alternativ təklif** ........ 9
**14. Satınalma predmetinin bölünməsi** ........ 10
**15. Təklifin qiyməti** ........ 10
**16. Təklifin və ödənişin məzənnəsi** ........ 10
**17. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)** ........ 11
**18. Uyğunluq sənədləri** ........ 11
**19. Təklifin qüvvədə olma müddəti** ........ 11
**20. Təklifin təminatı** ........ 12
**21. Təklifin formatı və imzalanması** ........ 13
**D. Təkliflərin təqdim olunması və açılması** ........ 13
**22. Təkliflərin təqdim edilməsinin son müddəti** ........ 13
**23. Gecikmiş təkliflər** ........ 13
**24. Təkliflərin geri götürülməsi və ya dəyişdirilməsi** ........ 14
**25. Təkliflərin açılması** ........ 14
**E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** ........ 14
**26. Məxfilik (konfidensiallıq)** ........ 14
**27. Təkliflərə dair izahat** ........ 15
**28. Formal tələblərə uyğunluğun müəyyən edilməsi** ........ 15
**29. Əhəmiyyətsiz uyğunsuzluqlar** ........ 16
**30. Hesab səhvlərinin düzəldilməsi** ........ 16
**31. Vahid valyutaya konvertasiya** ........ 16
**32. Satınalma güzəşti** ........ 16
**33. Subpodratçılar** ........ 16
**34. Təkliflərin qiymətləndirilməsi** ........ 17
**35. Təkliflərin müqayisəsi** ........ 17
**36. Həddindən artıq ucuz təkliflər** ........ 17
**37. Təchizatçının uyğunluq göstəriciləri** ........ 18
**38. Qalib təklifin seçilməsi** ........ 18
**39. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ** ........ 19
**40. Satınalmanın nəticələri barədə bildiriş** ........ 19
**41. Gözləmə müddəti** ........ 19
**F. Qalibin seçilməsi** ........ 20

42. **Qalibin seçilməsi proseduru** ... 20
43. **Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi** ... 20
44. **Müqavilənin imzalanması** ... 20
45. **Bağlanılmış müqavilə barədə məlumatın verilməsi** ... 20
46. **İcra təminatı** ... 20

**G. Şikayət verilməsi** ... 21

47. **Şikayət vermək hüququ** ... 21
48. **Satınalan təşkilata şikayət** ... 21
49. **AİBNDX-yə şikayət** ... 22
50. **Satınalmanın dayandırılması** ... 23
51. **İnzibati qaydada şikayət** ... 23

**H. Müqavilə** ... 23

52. **Müqavilə şərtləri** ... 23

**II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ** ... 25

**III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ - UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI** ... 30

**IV BÖLMƏ. SATINALMA FORMALARI** ... 42

**FORMA 1. Təklif məktubu** ... 42
**FORMA 2. Fəaliyyət cədvəli** ... 44
**FORMA 3. Təklif edilən əsas heyətin tərcümeyi - halı və bəyannaməsi** ... 45
**FORMA 4. Təchizatçı haqqında** ... 47
**FORMA 5. Birgə fəaliyyət haqqında** ... 48
**FORMA 6. Oxşar xidmətlər üzrə təcrübə** ... 49
**FORMA 7. Subpodratçılar haqqında məlumat** ... 50
**FORMA 8. Təklifin təminatı** ... 51

(B) XİDMƏTLƏRƏ DAİR TƏLƏBLƏR

(C) SATINALMA MÜQAVİLƏSİ

# I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT

## A. Ümumi

**1. Satınalma haqqında**

1.1. **Satınalma məlumat vərəqində (1)** qeyd edilən satınalan təşkilat tərəfindən *(B) Xidmətlərə dair tələblər* sənədində nəzərdə tutulmuş xidmətlərin (bundan sonra – Xidmətlər) maliyyə vəsaiti hesabına dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun göstərilməsi üçün bu şərtlər toplusu hazırlanmışdır. Satınalma predmeti, satınalan təşkilatın adı, VÖEN-i və satınalan təşkilatın əlaqələndirici şəxsi barədə məlumatlar **Satınalma məlumat vərəqində (1)** qeyd edilir.

1.2. Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunundan (bundan sonra – Qanun) və digər normativ hüquqi aktlardan ibarətdir.

1.3. Təkliflərin qiymətləndirilməsi zamanı aşağıdakı anlayışlar tətbiq edilir:

(a) "Kənara çıxma" şərtlər toplusunda göstərilən tələblərdən yayınmadır;

(b) "Qeyd-şərt" məhdudlaşdırıcı şərtlərin müəyyən edilməsi və ya şərtlər toplusunda göstərilən tələblərin tam qəbul edilməsindən boyun qaçırmadır;

(c) "Çatışmazlıq" şərtlər toplusunda tələb olunan məlumat və ya sənədlərin bir hissəsinin və ya hamısının təqdim edilməməsidir.

1.4. Bu şərtlər toplusunda istifadə olunan digər anlayışlar Qanun və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar**

2.1. Satınalan təşkilat "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa riayət olunmasını tələb edir.

**3. Təchizatçıların münasibliyi**

3.1. **Satınalma məlumat vərəqində (2)** göstərilən Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinə məhdudiyyətlər qoyulduğu

hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident təchizatçı (fiziki şəxs, hüquqi şəxs, o cümlədən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün hüquqi və (və ya) fiziki şəxslərin müqavilə əsasında yaratdığı müvəqqəti və ya daimi birliyi (bundan sonra – birgə fəaliyyət) daxil olmaqla) Azərbaycan Respublikasında keçirilən satınalmalarda iştirak edə bilər. Təchizatçı nizamnaməsi (və ya buna bərabər tutulan sənədləri) və ya qeydiyyat sənədləri ilə müəyyən olunduğu ölkənin qanunlarının müddəalarına uyğun olaraq yaradılmış, təsis edilmiş və ya qeydiyyatdan keçmiş və fəaliyyət göstərdiyi təqdirdə həmin ölkəyə mənsub hesab edilir. Müqavilənin hər hansı hissəsinin icrasına cəlb edilməsi təklif edilən subpodratçıların ölkə mənsubiyyəti bu meyar əsasında müəyyən edilir.

3.2. Təchizatçının iştirak etdiyi satınalmada Qanunun 6.1-ci maddəsinə əsasən maraqlar toqquşması olmamalıdır. *(Qanunun 6.1-ci maddəsindən çıxarış:*

*Təchizatçıların aşağıdakı hallarda (satınalma predmetinin yalnız hər hansı konkret təchizatçıda olduğu, yaxud satınalma predmetinin əvəzedicisi və alternativi olmadığı hallar istisna olmaqla) satınalmalarda iştirakına yol verilmir, bu hallar müəyyən olduqda satınalmadan kənarlaşdırılır:*

- *təchizatçının satınalan təşkilatdan və ya satınalan təşkilatla təchizatçının eyni qurumdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olduqda;*
- *təchizatçılardan biri digərinin benefisiar mülkiyyətçisi olduqda, yaxud təchizatçıların azı ikisi eyni benefisiar mülkiyyətçinin nəzarətində olduqda;*
- *təchizatçılardan biri digərinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı olduqda, yaxud təchizatçıların azı ikisinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı eyni şəxs olduqda;*
- *satınalmada təchizatçı qismində çıxış edən fiziki şəxs və ya hüquqi şəxsin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsinə əsasən aidiyyəti şəxsi satınalan təşkilatın rəhbəri ilə qohumluq (ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürənlər, övladlığa götürülmüş şəxslər, babalar, nənələr, nəvələr, doğma (ögey) bacılar və qardaşlar, bacı və qardaşların övladları, bacıların ərləri, qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, ər-arvadların valideynləri, bacıları və qardaşları) münasibətində olduqda).*

3.3. Birgə fəaliyyətin üzvü olaraq və ya fərdi şəkildə alternativ təkliflərə icazə verilən hallar istisna olmaqla təchizatçılar eyni satınalma üzrə birdən artıq təklif təqdim etməməli və ya birdən artıq təklifdə iştirak etməməli, həmçinin həmin satınalmada iştirak edən digər təchizatçının subpodratçısı olmamalıdır. Bu hal aşkarlandıqda həmin təchizatçıların təqdim etdikləri və (və ya) iştirak etdikləri bütün təkliflər kənarlaşdırılır.

3.4. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar bu məqsədlə tərəflərin hər birinin imzaladığı müqaviləyə və ya müqavilə layihəsi əlavə edilməklə müqavilə bağlamaq barədə tərəflərin hər birinin imzaladığı niyyət məktubuna malik olmalıdır. Bu halda birgə fəaliyyət göstərmək istəyən tərəflərin hər birinin müqavilənin müqavilə şərtlərinə uyğun icrası üçün birgə və fərdi məsuliyyət daşıması və tərəflər arasındakı iş öhdəliklərinin bölgüsü barədə müddəalar birgə fəaliyyət müqaviləsinə və ya müqavilə layihəsinə daxil edilməlidir. Birgə fəaliyyət onun adından və tərəfləri üçün satınalmada iştirak və müqavilə bağlandıqda isə müqavilənin icrasını təmin etmək məqsədilə müvafiq səlahiyyətə malik nümayəndə təyin edir. **Satınalma məlumat vərəqində (3)** göstərilmədiyi təqdirdə, birgə fəaliyyətin üzvlərinin sayına məhdudiyyət qoyulmur.

3.5. Qanunun 16-cı maddəsi ilə tənzimlənən qaydada etibarsız təchizatçıların reyestrinə daxil edilmiş təchizatçıların müəyyən olunmuş müddətdə satınalmalarda iştirakına yol verilmir. Etibarsız təchizatçıların reyestri etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalında (bundan sonra – Portal) yerləşdirilir.

3.6. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru keçirildikdə, yalnız uyğunluq göstəricilərinə cavab verən təchizatçılar satınalmada iştirak edə bilərlər.

**4. Xidmətlərin münasibliyi**

4.1. Müqavilə çərçivəsində Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçılar və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçılar tərəfindən xidmətlərin göstərilməsinə yol verilmir. Satınalan təşkilatın tələbi ilə təchizatçılardan xidmətlərin mənşəyinə dair sübut təqdim etmələri tələb oluna bilər.

**5. Satınalmada**

5.1. Birdəfəlik və ya istifadə müddətinə görə istifadə haqqını

**istifadə və iştirak haqqı**

ödəyərək Portaldan istifadə hüququnu əldə etmiş təchizatçılar təklifləri təqdim etmək üçün **Satınalma məlumat vərəqində (4)** qeyd edilən məbləğdə iştirak haqqı ödəyirlər.

5.2. İstifadə və iştirak haqqı Portalda "ASAN ödəniş" sistemi vasitəsilə bank kartı ilə ödənilir.

5.3. Təkliflə təklifin təminatını təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayı üçdən az olması səbəbindən satınalmanın ləğv edilməsi və həmin satınalma predmeti üzrə təkrar satınalma keçirilməməsi halı istisna olmaqla ödənilmiş iştirak haqqı və istifadə haqqı heç bir halda geri qaytarılmır. Satınalmanın maliyyələşdirilməsinin dayandırılması və təchizatçıların sayı üçdən az olması səbəbindən satınalma ləğv edildikdə satınalma planında nəzərdə tutulmuş həmin satınalma predmeti üzrə təkrar satınalma keçirildiyi təqdirdə iştirak haqqını ödəyən və geri almayan təchizatçıların təkrar ödəniş etmədən satınalmada iştirakı təmin edilir.

5.4. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləş-dirilməsi proseduru keçirildikdə uyğunluq göstəricilərinə cavab verərək satınalmada iştirakı davam etdirən təchizatçılar iştirak haqqı ödəmirlər.

## B. Şərtlər toplusunun məzmunu

**6. Şərtlər toplusunun tamlığı**

6.1. Şərtlər toplusu aşağıda verilmiş bütün bəndləri əhatə edən və təchizatçılar üçün təlimatın (bundan sonra – Təlimat) 7-ci hissəsinə uyğun olaraq ona edilən dəyişikliklər və əlavələrlə birlikdə nəzərə alınmalı olan aşağıdakı bölmələrdən ibarətdir:

- A. SATINALMA PROSEDURLARI
  - I Bölmə. Təchizatçılar üçün təlimat
  - II Bölmə. Satınalma məlumat vərəqi
  - III Bölmə. Qiymətləndirmə və uyğunluq meyarları
  - IV Bölmə. Satınalma formaları
- B. XİDMƏTLƏRƏ DAİR TƏLƏBLƏR
- C. SATINALMA MÜQAVİLƏSİ

6.2. Təchizatçıdan şərtlər toplusunda verilmiş bütün təlimat, forma, tələb, texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri) ilə tanış olması və şərtlər toplusunda tələb edilən bütün məlumat və sənədləri təqdim etməsi tələb olunur.

6.3. Portal vasitəsilə birbaşa əldə edilmədiyi təqdirdə satınalan

təşkilat şərtlər toplusunun tamlığı, şərtlər toplusunda aydın olmayan hallarla bağlı sorğularına, əvvəlki görüşlərin (əgər olubsa) nəticələri barədə protokollara və (və ya) Təlimatın 7-ci hissəsinə uyğun olaraq şərtlər toplusuna edilmiş dəyişikliklərə görə məsuliyyət daşımır. Hər hansı ziddiyyət olduqda, Portaldan birbaşa əldə olunan sənədlər üstünlük təşkil edir.

**7. Şərtlər toplusuna dair izahat, xidmət yerinə baxış və təklif öncəsi görüş**

7.1. Təchizatçı şərtlər toplusunda aydın olmayan hallarla bağlı təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 5 (beş) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (5)** qeyd olunan tarix və vaxt) satınalan təşkilata Portal vasitəsilə sorğu ünvanlaya bilər. Satınalma komissiyası sorğunu aldıqdan sonra 2 (iki) iş günü ərzində sorğuya cavab verir. Sorğu və ona verilən cavab sorğu verənin gizliliyi təmin edilməklə həmin gün Portalda yerləşdirilir.

7.2. Sorğu və ona verilən cavab şərtlər toplusuna əlavə edilərək onun ayrılmaz tərkib hissəsi hesab edilir.

7.3. **Satınalma məlumat vərəqində (6)** nəzərdə tutulduğu halda təchizatçının təyin edilmiş nümayəndəsi təklif təqdim etməzdən əvvəl görüşdə və (ya) xidmətlərin göstəriləcəyi yerə baxış keçirməyə dəvət olunur. Görüşün məqsədi yaranmış texniki suallara aydınlıq gətirmək və həmin mərhələdə qaldırıla biləcək hər hansı sualı cavablandırmaq olacaq. Təchizatçılardan əlavə sorğularını yalnız Portal vasitəsilə təqdim etməsi tələb olunur. Hər hansı digər vasitə ilə verilmiş sorğular satınalan təşkilat tərəfindən nəzərə alınmır.

7.4. Təchizatçıya xidmətlərin göstəriləcəyi yerə və onun ətrafına baxış keçirmək və araşdırmaq, habelə təklifin hazırlanması və xidmətlərin göstərilməsi zamanı müqavilə bağlamaq üçün lazım ola biləcək bütün məlumatları əldə etmək tövsiyə olunur. Sahəyə baxış üçün səfər xərcləri təchizatçı tərəfindən ödənilir. Satınalan təşkilat satınalma iştirakçısına xidmət yerinə və onu əhatə edən ərazilərə baxış keçirmək və yoxlamaq, təklifin hazırlanması və xidmətlərin göstərilməsi üçün zəruri olacaq bütün məlumatları əldə etmək üçün xidmət yerinə giriş icazəsi verir.

7.5. Satınalan təşkilat təchizatçıya və (və ya) onun etibarnamə təqdim etdiyi hər hansı əməkdaşına xidmət yerinə baxış məqsədi ilə daxil olmaq üçün icazə verir.

7.6. Satınalan təşkilatla təchizatçılar arasında keçirilən görüş zamanı iştirak haqqını ödəmiş bütün təchizatçılar üçün

bərabər iştirak imkanları yaradılır və görüş videomüşahidə vasitələrinin nəzarəti altında aparılaraq nəticələri protokolla rəsmiləşdirilir. Protokol nəzərə alınmaq üçün iştirak haqqını ödəmiş bütün təchizatçılara həmin gün göndərilir və Portalda yerləşdirilir. Satınalan təşkilatla təchizatçılar arasında qeyri-rəsmi danışıqlar aparılması və görüşlərin keçirilməsi qadağandır.

**8. Şərtlər toplusunda dəyişiklik edilməsi**

8.1. Satınalma komissiyası təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (7)** qeyd olunan tarix və vaxta qədər) şərtlər toplusuna hər hansı təchizatçının sorğusu əsasında və ya texniki səhvlər və ya çatışmazlıqlar aşkar edildikdə öz təşəbbüsü ilə dəyişikliklər (satınalma predmetinin dəyişdirilməsi istisna olmaqla) edə bilər.

8.2. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə şərtlər toplusunda hər hansı dəyişiklik edilməsinə, habelə bununla bağlı hər hansı sorğuya, təklifə və icazəyə yol verilmir.

8.3. Satınalma komissiyası şərtlər toplusuna dəyişikliklər etdiyi halda təkliflərin təqdim edilməsi müddətini ən azı 5 (beş) iş gününədək uzadır. Təchizatçının əsaslandırılmış müraciəti əsasında təkliflərin təqdim edilməsi müddəti 10 (on) iş gününədək uzadıla bilər.

8.4. Şərtlər toplusuna edilmiş dəyişiklik onun ayrılmaz tərkib hissəsi hesab edilir. Dəyişikliklər Portal vasitəsilə bütün təchizatçılara göndərilir və bütün təchizatçılar üçün məcburi qüvvəyə malikdir.

## C. Təkliflərin hazırlanması

**9. Satınalma xərcləri**

9.1. Təchizatçı öz təklifini hazırlamaq və təqdim etməklə bağlı bütün xərcləri özü çəkir və satınalan təşkilat satınalma prosesinin nəticəsindən asılı olmayaraq, həmin xərclərə görə məsuliyyət və ya öhdəlik daşımır.

**10. Təklifin tərtib olunmasının dili**

10.1. Təklif və həmçinin təchizatçı ilə satınalan təşkilat arasında bütün yazışmalar və sənəd mübadiləsi Azərbaycan dilində aparılır. Satınalma komissiyasının qərarı ilə satınalmalara dair sənədlər **Satınalma məlumat vərəqində (8)** nəzərdə tutulmuş xarici dillərdən birinə (bir neçəsinə) tərcümə oluna bilər. Bu halda, satınalmalara dair sənədlər arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

10.2. Təklifin tərkibinə daxil olan müşayiətedici sənədlər və çap materialları tərcüməsi ilə verilmək şərtilə, başqa dildə ola

bilər. Təchizatçının xarici dildə təqdim etdiyi sənədlərin Azərbaycan dilinə notarial qaydasında təsdiqlənmiş tərcüməsi təqdim olunmalıdır. Təklif ilə tərcüməsi arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

**11. Təklifə daxil olan sənədlər**

11.1. Təchizatçı təqdim etdiyi təklifə aşağıdakıları əlavə edir:

(a) Təlimatın 12-ci hissəsinin tələbləri nəzərə alınmaqla təklif məktubu;

(b) Təlimatın 12-ci və 15-ci hissələrinin tələbləri əsasında qiymətləndirilmiş fəaliyyət cədvəli daxil olmaqla digər cədvəllər;

(c) Təlimatın 20.1-ci bəndinin tələbləri nəzərə alınmaqla təklifin təminatı;

(d) icazə verildiyi təqdirdə Təlimatın 13-cü hissəsinin tələbləri nəzərə alınmaqla alternativ təklif;

(e) səlahiyyət: Təlimatın 21.2-ci və 21.4-cü bəndlərinə uyğun olaraq təklifi imzalayan şəxsin səlahiyyətli olduğunun yazılı təsdiqi;

(f) uyğunluq: Təlimatın 18-ci hissəsinin tələbləri nəzərə alınmaqla uyğunluq sənədləri, habelə şərtlər toplusunda nəzərdə tutulduğu halda, subpodratçının müəyyən olunmuş tələblərə uyğun olması barədə sənədlər;

(g) münasiblik: Təlimatın 17-ci hissəsinin tələbləri nəzərə alınmaqla texniki təklif;

(h) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində tələb olunan digər sənədlər.

11.2. Təlimatın 11.1-ci bəndinin tələblərinə əlavə olaraq, birgə fəaliyyət tərəfindən təqdim edilən təklifə bütün tərəflərin imzaladığı birgə fəaliyyət müqaviləsinin surəti daxil edilməlidir. Alternativ olaraq, satınalmada qalib olacağı təqdirdə birgə fəaliyyət müqaviləsinin icrasına dair niyyət məktubunu bütün tərəflər imzalamalı və birgə fəaliyyət müqavilə layihəsi ilə birlikdə təqdim edilməlidirlər.

**12. Təklif məktubu və cədvəllər**

12.1. Təklif məktubu və fəaliyyət cədvəli Satınalma formaları (IV) bölməsində verilmiş müvafiq formalardan istifadə edilməklə hazırlanmalıdır. Formalar mətnə heç bir dəyişiklik edilmədən doldurulmalıdır və heç bir əvəzedici qəbul edilə bilməz. Bütün boş xanalara tələb olunan məlumatlar yazılmalıdır.

**13. Alternativ təklif**

13.1. **Satınalma məlumat vərəqində (9)** başqa hal nəzərdə tutulmayıbsa, alternativ təkliflər nəzərə alınmayacaq. Alternativ təkliflərə icazə verildiyi halda, yalnız aşağı və ya sərfəli təklif təqdim edən təchizatçının texniki alternativləri,

satınalan təşkilat tərəfindən nəzərə alınır.

13.2. Alternativ tamamlama müddətləri açıq şəkildə istənildikdə, bu barədə bəyanat **Satınalma məlumat vərəqinə (10)** daxil edilir və müxtəlif alternativ tamamlama müddətlərinin qiymətləndirilməsi üsulu Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində təsvir edilir.

13.3. **Satınalma məlumat vərəqində (11)** qeyd edildiyi təqdirdə təchizatçılar xidmətlərin *(B) Xidmətlərə dair tələblər* sənədində göstərilən müəyyən edilmiş hissələri üçün alternativ texniki həllər təqdim etməyə icazə verilir və belə hissələr **Satınalma məlumat vərəqində (11)** qeyd edilərək, onların qiymətləndirilməsi üsulu şərtlər toplusuna daxil edilir.

**14. Satınalma predmetinin bölünməsi**

14.1. **Satınalma məlumat vərəqində (12)** nəzərdə tutulduğu təqdirdə heç bir təklif satınalma predmetinin tam həcmdə icrasını təmin etmədikdə, bu zaman bir neçə təchizatçının hissəvi təkliflərinin cəmi bir təchizatçının təklifindən daha səmərəli və ya qiyməti daha aşağı olarsa, habelə satınalma predmetinin daha yüksək həcmdə icrasını təmin edərsə, satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünür.

14.2. Təlimatın 14.1-ci bəndində bölünməsi nəzərdə tutulan hissələrin ətraflı təsviri **Satınalma məlumat vərəqində (12)** göstərilir.

**15. Təklifin qiyməti**

15.1. Təklif məktubunda və fəaliyyət cədvəlində göstərilən qiymətlər bu hissədə göstərilən tələblərə cavab verməlidir.

15.2. Təchizatçı fəaliyyət cədvəlində göstərilən bütün bəndlərə qiymət daxil etməlidir. Təchizatçı tərəfindən qiymət daxil edilməyən və həmin hissələrin əlavə ödənişsiz icra edilməsi ilə bağlı qeyd olan bəndlərin fəaliyyət cədvəlinə daxil edilən digər qiymətlərlə əhatə edildiyi qəbul ediləcəkdir. Hər hansı qeyd olmadan qiymət daxil edilməyən bəndləri olan təklif natamam hesab ediləcəkdir.

15.3. **Satınalma məlumat vərəqində (13)** başqa hal nəzərdə tutulmadığı təqdirdə təchizatçı tərəfindən müqavilə çərçivəsində və ya hər hansı digər səbəbə görə ödənilməli olan bütün rüsumlar, vergilər və digər tutulmalar təchizatçının təklif etdiyi qiymətdə nəzərə alınmalıdır.

15.4. Qiymət endirimlərinə icazə verilmir.

**16. Təklifin və ödənişin məzənnəsi**

16.1. Təchizatçılar (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təkliflərində qiymətləri Azərbaycan Respublika-sının pul vahidi – manatla göstərməlidirlər.

16.2. Qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri sərbəst dönərli xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə əsas götürülməlidir.

**17. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)**

17.1. Təchizatçı *(B) Xidmətlərə dair tələblər* sənədində qeyd olunan tələblərə cavab verdiyini göstərmək və təklifinin yetərliliyini nümayiş etdirmək üçün icra metodologiyası, iş qrafiki və Satınalma formaları (IV) bölməsində nəzərdə tutulmuş hər hansı digər məlumat daxil olmaqla kifayət qədər təfərrüatlı texniki təklif təqdim etməlidir.

17.2. Təklif edilən hər bir avadanlığın, texnikanın, məhsulun və digər malların özünəməxsus texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri), o cümlədən konkret əmtəə nişanı və adı, modeli, istehsal mənbəyi (mənşə ölkəsi) və istehsalçısına aid məlumatlar və istehsalçının texniki məlumat vərəqi (hansı varsa) təklifə əlavə edilməlidir.

**18. Uyğunluq sənədləri**

18.1. Təchizatçıların uyğunluq göstəriciləri təchizatçılara dair ümumi və xüsusi tələblərdən ibarətdir.

18.2. Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinin tələblərinə uyğun olaraq təchizatçılar müqaviləni icra etmək imkanlarını göstərmək üçün Satınalma formaları (IV) bölməsinə daxil edilən müvafiq məlumat vərəqələrini təmin etməli, habelə Qanunun 23-cü maddəsinə əsasən təchizatçıların uyğunluq göstəricilərini təsdiq edən sənədlər (bundan sonra – uyğunluq sənədləri) təqdim etməlidir.

**19. Təklifin qüvvədə olma müddəti**

19.1. Təkliflər **Satınalma məlumat vərəqin**də **(14)** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış tarixədək qüvvədə olmalıdır. **Satınalma məlumat vərəqində** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış tarixədək qüvvədə olmayan təkliflər formal tələblərə uyğun gəlməyən təklif kimi kənarlaşdırılır.

19.2. Satınalma komissiyası ən çoxu təkliflərin ilkin qüvvədə olduğu müddət qədər təkliflərin qüvvədə olma müddətinin uzadılmasını təchizatçılardan tələb edə bilər. Təkliflərin qüvvədə olma müddətinin uzadılması tələbi ilə razılaşan təchizatçılar təklifin təminatının qüvvədə olma müddətinin təklifin qüvvədə olma müddətindən azı 30 (otuz) iş günü çox olmaqla uzadılmasını və ya uzadılmış müddət üçün yeni təminatın verilməsini təmin edirlər. Təchizatçı təklifin təminatına olan hüququnu itirmədən satınalma komissiyasının belə tələbindən imtina edə bilər.

**20. Təklifin təminatı**

20.1. Təchizatçı (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təklifin tərkib hissəsi olaraq **Satınalma məlumat vərəqində (15)** qeyd edilmiş məbləğdə Azərbaycan manatı ilə, qeyri-rezident hüquqi və fiziki şəxslər isə Azərbaycan manatı ilə və ya elanın verilməsi (dəvətin göndərilməsi) tarixinə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnəyə uyğun olaraq sərbəst dönərli valyuta ilə təkliflə birlikdə təklifin təminatını təqdim etməlidir, əks təqdirdə təklif qəbul edilmir.

20.2. Təklifin təminatı qarant tərəfindən qarantiya şəklində verilir. Satınalma komissiyası qaranta və ya ehtimal olunan qiyməti 5 (beş) milyon manatdan yuxarı olan satınalmalara münasibətdə hər hansı qarantın verdiyi təminatı təsdiqləyən tərəf (əgər tələb olunursa), habelə digər şərtlərə dair hər hansı tələbini **Satınalma məlumat vərəqində (16)** göstərir. Təklifin təminatı Satınalma formaları (IV) bölməsinə daxil edilən “Təklifin təminatının nümunəsi” və ya təklif təqdim edilməzdən əvvəl satınalma komissiyası ilə razılaşdırılmış digər əhəmiyyətli dərəcədə oxşar nümunədən istifadə olunaraq təqdim edilməlidir. Təklifin təminatının qüvvədə olma müddəti təklifin ilkin və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış qüvvədə olma müddətindən azı 30 (otuz) iş günü çox olmalıdır.

20.3. Təchizatçının təklifinin təminatı aşağıdakı hallarda dərhal geri qaytarılır:

(a) satınalmada ilk üç yerdən birini tutmayan təchizatçılara – satınalmanın nəticələrinə dair yekun protokol təsdiq olunduqda;

(b) satınalmada ikinci və üçüncü yerləri tutan təchizatçılara – qalib təchizatçı ilə bağlanan satınalma müqaviləsi qüvvəyə mindikdə;

(c) qalib təchizatçı istisna olmaqla, digər təchizatçılara – təkliflərin qüvvədə olma müddəti bitdikdə;

(d) bütün təchizatçılara – təkliflərin təqdim edilməsinin son müddəti bitməmişdən əvvəl təklif geri götürüldükdə və ya satınalma ləğv edildikdə;

(e) təkliflərin qüvvədə olma müddətinin uzadılması təşəbbüsü ilə razı olmayan təchizatçılara – təkliflərin qüvvədə olma müddəti bitdikdə;

(f) qalib təchizatçıya – satınalma müqaviləsi imzalandıqda və icra təminatı təqdim edildikdə.

20.4. Aşağıdakı hallarda təchizatçının təklifinin təminatı geri

qaytarılmır:

(a) təchizatçı təkliflərin təqdim edilməsinin son müddəti bitdikdən sonra və ya təklifin qüvvədə olma müddəti bitənədək öz təklifini geri götürdükdə və ya dəyişdirdikdə;

(b) təklifin akseptinə dair bildirişi almış qalib təchizatçı müəyyən olunmuş müddətdə satınalma müqaviləsini imzalamadıqda və (və ya) icra təminatını təqdim etmədikdə;

(c) təklifin akseptinə dair bildirişi almış qalib təchizatçı satınalma müqaviləsi imzalananadək şərtlər toplusunda göstərilmiş hər hansı digər şərtləri yerinə yetirmədikdə.

20.5. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar tərəfindən təqdim edilən təklifin təminatında bütün tərəflərin hüquqi adları göstərilməlidir.

**21. Təklifin formatı və imzalanması**

21.1. Təchizatçılar təkliflərində biznesləri üçün məxfi olan bütün məlumatları "MƏXFİ" kimi qeyd etməlidirlər. Buraya mülkiyyət məlumatları, ticarət sirləri və ya kommersiya/maliyyə baxımından həssas məlumatlar daxil ola bilər.

21.2. Təklif təchizatçının rəhbəri və ya digər vəzifəli şəxsi tərəfindən imzalanmalıdır. Təklifi təchizatçının rəhbəri imzaladıqda həmin təchizatçının təsis və hüquqi və ya fiziki şəxsin qeydiyyat sənədlərini təqdim etməlidir. Təklifi imzalayan digər vəzifəli şəxs olduğu təqdirdə isə həmin vəzifəli şəxsə imza səlahiyyətlərinin verilməsinə dair həmin təchizatçının rəhbəri tərəfindən səlahiyyəti təsdiq edən sənəd – etibarnamə təqdim edilməlidir.

21.3. Təchizatçı birgə fəaliyyət göstərdiyi halda, təklif birgə fəaliyyət göstərən təchizatçıların səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmalıdır. Həmin nümayəndənin imza səlahiyyətinə malik olması 21.3-cü bəndinin tələbləri nəzərə alınmaqla birgə fəaliyyət göstərən təchizatçıların rəhbərləri tərəfindən imzalanmış etibarnamə ilə təsdiq edilir.

## D. Təkliflərin təqdim olunması və açılması

**22. Təkliflərin təqdim edilməsinin son müddəti**

22.1. Təkliflər onların təqdim edilməsi üçün **Satınalma məlumat vərəqində (17)** müəyyən edilən müddət başa çatanadək Portal vasitəsilə elektron qaydada satınalan təşkilata təqdim edilir.

**23. Gecikmiş təkliflər**

23.1. Təlimatın 22-cü hissəsində müəyyən olunmuş müddətdən gec təqdim olunan təklif qəbul edilmir.

**24. Təkliflərin geri götürülməsi və ya dəyişdirilməsi**

24.1. Təchizatçı təkliflərin təqdim edilməsi müddəti bitənədək öz təklifini dəyişdirə və ya geri götürə bilər.

24.2. Təlimatın 24.1-ci bəndinə uyğun olaraq geri götürülməsi istənilən təklif açılmadan təchizatçıya qaytarılır.

24.3. Təkliflərin təqdim edilməsinin son müddəti, o cümlədən uzadılmış müddəti bitdikdən sonra və ya təchizatçı tərəfindən təklif məktubunda qeyd edilən təklifin qüvvədə olma müddəti bitənədək təklifi geri götürdükdə və ya dəyişdirdikdə, təchizatçı təklifin təminatına olan hüququnu itirir.

**25. Təkliflərin açılması**

25.1. Təkliflərin son təqdim olunması müddətinə qədər təqdim olunmuş təkliflər satınalma komissiyası tərəfindən **Satınalma məlumat vərəqində (18)** qeyd olunan tarixdə və vaxtda Portal vasitəsilə elektron qaydada açılır.

25.2. Təkliflər açılarkən hər bir təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı və atasının adı), ünvanı, VÖEN-i, təklifinin qiyməti və təklifin təminatının məbləği və qüvvədə olma müddəti Portalda dərc olunur.

## E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi

**26. Məxfilik (konfidensiallıq)**

26.1. Məhkəmənin, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra – AİBNDX), Azərbaycan Respublikası Hesablama Palatasının və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin qanunla müəyyən edilmiş hüquq və vəzifələrinin icrası ilə bağlı məlumatların açıqlanması halları istisna olmaqla, satınalan təşkilat digər hallarda təchizatçıların kommersiya sirri təşkil edən və ya qanunla qorunan digər məlumatlarını açıqlamır və onları məxfi (konfidensial) saxlayır.

26.2. Təchizatçılar tərəfindən təqdim edilən uyğunluq sənədləri və təkliflər, bağlanan satınalma müqaviləsinin surəti, satınalma müqaviləsi uzunmüddətlidirsə və ya mərhələlərlə həyata keçirilirsə, icrasının gedişi haqqında mütəmadi məlumatlar, satınalan təşkilatla təchizatçı arasında satınalma müqaviləsinin icrası, mübahisəli məsələlərin həlli ilə əlaqədar sənədlər və satınalma müqaviləsinin tam icra edilməsi haqqında satınalan təşkilatla təchizatçı arasında imzalanan təhvil-təslim aktı istisna olmaqla, satınalmaya dair hesabata əlavə edilən digər sənədlər təklifin akseptindən, yaxud satınalma müqaviləsinin bağlanması ilə nəticələnməyən satınalma yekunlaşdıqdan sonra 7 (yeddi) iş günü ərzində sorğu

əsasında təklif təqdim edən təchizatçılara verilir.

26.3. Təchizatçı satınalmanın istənilən mərhələsində Qanunun tələblərinə zidd hərəkətlərə (hərəkətsizliyə) yol verdikdə, o cümlədən saxta sənəd və (və ya) məlumat təqdim etdikdə satınalma komissiyası həmin təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

26.4. Təchizatçı Təlimatın 26.3-cü bəndinin tələblərini nəzərə almaqla satınalma prosesi ilə əlaqədar olan hər hansı məsələ ilə bağlı satınalma komissiyası ilə yalnız Portal vasitəsilə əlaqə saxlaya bilər.

**27. Təkliflərə dair izahat**

27.1. Uyğunluq sənədlərinin və təkliflərin qiymətləndirilməsini asanlaşdırmaq məqsədilə satınalma komissiyası təchizatçıdan təqdim etdiyi uyğunluq sənədlərinə və ya təkliflərə dair izahat tələb edə bilər. Təchizatçı tərəfindən satınalma komissiyasının sorğusuna uyğun verilməyən cavablar nəzərə alınmır. Satınalma komissiyası tərəfindən qiymətləndirmə zamanı təklifin qiymətlərində və ya mahiyyətində heç bir dəyişiklik, o cümlədən könüllü artım və ya azalma tələb edilməsinə yol verilmir.

27.2. Təchizatçı bu cür izahatı 5 (beş) iş günü ərzində satınalan təşkilata təqdim etmədiyi təqdirdə onun təklifi kənarlaşdırıla bilər.

**28. Formal tələblərə uyğunluğun müəyyən edilməsi**

28.1. Satınalma komissiyası Qanunun 33-cü maddəsinin tələblərini nəzərə almaqla, Təlimatın 11-ci hissəsində göstərilmiş tələblərə cavab verən təklifi formal tələblərə uyğun təklif hesab edir.

28.2. Təklif əhəmiyyətli dərəcədə uyğun təklif hesab edilməsi üçün aşağıdakı hallar nəzərə alınmaqla əsaslı kənara çıxma, qeyd-şərt və çatışmazlıq olmadan şərtlər toplusunun tələblərinə cavab verməlidir:

(a) qəbul edildiyi təqdirdə: (i) müqavilədə göstərilən xidmətlərin həcminə, keyfiyyətinə və ya icrasına hər hansı əhəmiyyətli şəkildə təsir edəcək və ya (ii) şərtlər toplusunun tələblərinə zidd olaraq satınalan təşkilatın hüquqlarını və ya təklif olunan müqavilə çərçivəsində təchizatçının öhdəliklərini əsaslı şəkildə məhdudlaşdıracaq və ya

(b) düzəldildiyi təqdirdə, əhəmiyyətli dərəcədə uyğun hesab edilən digər təchizatçıların rəqabət mövqeyinə ədalətsiz təsir göstərəcək.

28.3. Satınalma komissiyası xüsusilə, *(B) Xidmətlərə dair tələblər* sənədində qeyd olunan bütün tələblərin, heç bir

əsaslı kənara çıxma, qeyd-şərt və ya çatışmazlıq olmadan yerinə yetirildiyini təsdiqləmək üçün Təlimatın 17-ci hissəsinə uyğun olaraq təqdim edilmiş təklifin texniki aspektlərini yoxlamalıdır.

28.4. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə əsaslı kənara çıxmaya, qeyd-şərtə və ya çatışmazlığa düzəliş edilməsinə yol verilmədən kənarlaşdırılır.

**29. Əhəmiyyətsiz uyğunsuzluqlar**

29.1. Təklifdə onun mahiyyətini dəyişdirməyən, şərtlər toplusunda göstərilmiş xüsusiyyətlərə, şərtlərə və başqa tələblərə əhəmiyyətli dərəcədə xələl gətirməyən, aradan qaldırılması mümkün olan kiçik texniki səhvlər və ya çatışmazlıqlar (əhəmiyyətsiz uyğunsuzluqlar) olduqda, həmin səhvlər və ya çatışmazlıqlar kəmiyyətcə ifadə olunur və satınalma komissiyası təklifi formal tələblərə uyğun təklif hesab edir.

29.2. Təklifin əhəmiyyətli dərəcədə uyğun olması şərti ilə, satınalma komissiyası təchizatçının sənədləşdirmə tələbləri ilə bağlı əhəmiyyətsiz uyğunsuzluqları təchizatçıdan 5 (beş) iş günü ərzində aradan qaldırmasını tələb edə bilər. Bu cür uyğunsuzluqlar haqqında məlumat və ya sənədlərin tələb edilməsi təklifin qiymətinin heç bir aspekti ilə əlaqəli olmamalıdır. Təchizatçının qeyd edilmiş müddət ərzində sorğuya cavab verməməsi onun təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.

**30. Hesab səhvlərinin düzəldilməsi**

30.1. Təqdim olunan təkliflər qiymətləndirilərkən hesab səhvlərinin düzəldilməsinə yol verilmir.

**31. Vahid valyutaya konvertasiya**

31.1. Qiymətləndirmə və müqayisə məqsədilə qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri bütövlüklə və ya bir qismi xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə (www.cbar.az/currency/rates) əsas götürülərək Azərbaycan manatına konvertasiya edilməlidir.

**32. Satınalma güzəşti**

32.1. Satınalma komissiyası təklifləri qiymətləndirərkən, yerli mənşəli xidmətlər üzrə təklifin xeyrinə Qanunun 33.14-cü maddəsində müəyyən edilmiş qaydada 20 faizə qədər həcmdə güzəşti düzəliş tətbiq edir.

**33. Subpodratçılar**

33.1. **Satınalma məlumat vərəqində (19)** nəzərdə tutulduğu təqdirdə, qalib təchizatçı xidmətlərin göstərilməsi ilə əlaqədar subpodratçılarla müqavilə imzalaya bilər. Bütün digər hallarda satınalma müqaviləsinin icrası

subpodratçılara həvalə edilə bilməz. Bu halda təchizatçı təqdim etdiyi təklifə subpodratçıya həvalə ediləcək fəaliyyət (fəaliyyətlər) və ya xidmətlərin hissələri və satınalma müqaviləsindəki payı barədə məlumat əlavə etməlidir. Subpodrat müqaviləsinin (müqavilələrinin) məbləği satınalma müqaviləsinin ümumi dəyərinin 50 faizindən çox olmamalıdır. Satınalma müqaviləsinin icrasına subpodratçılar cəlb olunduğu halda, subpodrat müqavilələrinin ümumi məbləğinin 20 faizdən az olmayan hissəsinin icrası Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş mikro, kiçik və orta sahibkarlıq subyektlərinə həvalə olunmalıdır.

33.2. Subpodratçının uyğunluq göstəriciləri şərtlər toplusunda təchizatçı üçün müəyyən edilmiş uyğunluq göstəriciləri tələblərinə cavab vermək üçün istifadə edilməməlidir.

**34. Təkliflərin qiymətləndirilməsi**

34.1. Satınalan təşkilat təklifləri Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulan meyarlara və prosedurlara əsasən qiymətləndirir.

34.2. **Satınalma məlumat vərəqində (20)** nəzərdə tutulduğu təqdirdə təklifi ən səmərəli təklif kimi qiymətləndirərkən qiymət amilinə əlavə olaraq texniki amillər üçün nisbi qiymət (balı) meyarı tətbiq ediləcəkdir. Qiymət amili üçün çəki**,** texniki amillər və onların alt amillərinə veriləcək ballar **Satınalma məlumat vərəqində (20)** göstərilmişdir.

34.3. Təklifi qiymətləndirərkən satınalma komissiyası aşağıdakıları nəzərə alır:

(a) Təlimatın 31.1-ci bəndinə uyğun digər valyutada təklif olduğu təqdirdə vahid məzənnəyə konvertasiya;

(b) Təlimatın 32-ci hissəsinə uyğun olaraq satınalma güzəştinin tətbiqi;

(c) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində müəyyən edilmiş digər qiymətləndirmə meyarları.

**35. Təkliflərin müqayisəsi**

35.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı qiyməti olan təklifi müəyyən etmək üçün Təlimatın 34.1-ci bəndinə uyğun olaraq müəyyən edilmiş tələblərə əhəmiyyətli dərəcədə cavab verən bütün təkliflərin qiymətləndirilmiş yekun məbləğini müqayisə etməlidir.

35.2. Təlimatın 34.2-ci bəndi tətbiq olunarsa satınalma komissiyası ən səmərəli (qiymət və texniki amillərə görə ən çox bal toplamış) təklifi müəyyən etməlidir.

**36. Həddindən artıq ucuz təkliflər**

36.1. Təchizatçının təqdim etdiyi təklifin qiyməti ehtimal olunan qiymətlə müqayisədə 20 faizdən aşağı olarsa, satınalma

komissiyası təchizatçıdan təklif qiymətinin ətraflı təhlili, təklif olunan metodologiya, iş qrafiki, risk və məsuliyyətin paylaşdırılması, habelə şərtlər toplusunun digər tələbləri barədə yazılı izahat almalıdır. Təchizatçının təqdim etdiyi izahat və məlumatlar təhlil edildikdən sonra satınalma müqaviləsinin icrasına əsaslı şübhələr qaldıqda satınalma komissiyası təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

**37. Təchizatçının uyğunluq göstəriciləri**

37.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı məbləği olan və əhəmiyyətli dərəcədə uyğun olan ilk 3 (üç) təchizatçının təklifinin Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində qeyd edilmiş uyğunluq göstəricilərinə cavab verib-vermədiyini müəyyən etməlidir.

37.2. Bunun müəyyənləşdirilməsi üçün Təlimatın 18-ci hissəsinə uyğun olaraq təchizatçı tərəfindən təqdim edilmiş uyğunluq göstəricilərini təsdiq edən sənədlər araşdırılmalı, təchizatçının özündən başqa digər törəməsi və ya tabe olduğu müəssisələr, törəmə və tabeliyində olan müəssisələri, filialları və subpodratçılarının uyğunluq sənədləri nəzərə alınmamalıdır.

37.3. Uyğunluq göstəricilərinə cavab verən təklifin seçilməsi müqavilənin bağlanması üçün ilkin şərtdir. Təlimatın 40.1-ci bəndinin tələbləri yerinə yetirilmədikdə qiymətləndirilmiş ən aşağı məbləği olan növbəti təklif və ya təkliflərin uyğunluq tələblərinə cavab verib-vermədiyi müvafiq qaydada araşdırılır.

37.4. **Satınalma məlumat vərəqində (21)** göstərilən hallarda, satınalma komissiyası tərəfindən əsaslandırılmaqla uyğunluq sənədlərini təqdim etmiş təchizatçıdan satınalmanın istənilən mərhələsində həmin sənədlərin yenidən (bir dəfədən çox olmayaraq) təqdim edilməsi tələb oluna bilər. Bu cür tələb təklifin qüvvədə olma müddətinin bitməsinə 10 (on) iş günü qalanadək irəli sürülür və uyğunluq sənədlərinin yenidən təqdim edilməsi 5 (beş) iş günü ərzində həyata keçirilir.

37.5. Təchizatçının uyğunluq göstəriciləri barədə verdiyi qeyri-dəqiq və natamam məlumat satınalma komissiyasının tələbi ilə 3 (üç) iş günü ərzində aradan qaldırılmalıdır.

**38. Qalib təklifin seçilməsi**

38.1. Uyğunluq göstəricilərinə cavab verən və təklifləri uyğun olan

(a) ən aşağı qiymət təklifi

(b) və ya ən səmərəli təklifi

təqdim edən təchizatçı qalib təchizatçı sayılır.

**39. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ**

39.1. Satınalma komissiyası Qanunun tələblərini nəzərə almaqla qalib təchizatçını seçməzdən əvvəl istənilən vaxt istənilən təklifi aksept etmək və ya kənarlaşdırmaq və satınalmanın ləğv edilməsi haqqında qərar qəbul etmək hüququnu özündə saxlayır və buna görə təchizatçılar qarşısında heç bir məsuliyyət daşımır. Zərflər açılana qədər satınalma ləğv edildiyi halda təklifin təminatları daxil olmaqla təkliflər, zərflər açıldıqdan sonra isə təkliflərin təminatları təchizatçılara dərhal geri qaytarılır.

39.2. Satınalma komissiyası aşağıdakı hallarda satınalmanın ləğv edilməsi haqqında qərar qəbul edir:

(a) satınalmada iştirak etmək üçün təklifi və təklifin təminatını təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayı açıq tender birinci dəfə elan edildikdə üçdən, yetərsay olmamasına görə eyni satınalma ikinci dəfə elan edildikdə isə ikidən az olduqda;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(c) birinci, ikinci və üçüncü yerləri tutmuş təchizatçılar arasından qalib təchizatçını seçmək mümkün olmadıqda;

(d) bütün təchizatçıların təqdim etdiyi təkliflərin qiyməti ehtimal olunan qiymətdən yüksək olduqda;

(e) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən bu Təlimatın 3.2-ci bəndinin tələblərinin pozulduğu müəyyən edildikdə;

(f) satınalmanın maliyyələşdirilməsi dayandırıldıqda.

**40. Satınalmanın nəticələri barədə bildiriş**

40.1. Satınalma komissiyası satınalmanın nəticələri haqqında yekun protokolu imzaladığı gün satınalan təşkilatın adından təklifini aksept etmək istədiyi təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), ünvanı, VÖEN-i, imzalanması nəzərdə tutulan müqavilənin məbləği, habelə gözləmə müddətinin qüvvədə olma tarixləri barədə satınalmadan kənarlaşdırılmamış təchizatçılara Təlimatın 44-cü hissəsi nəzərə alınmaqla bildiriş göndərməklə yanaşı, Portalda məlumat yerləşdirir. Bildirişdə digər təchizatçıların qalib gəlməməsinin səbəbləri göstərilir.

**41. Gözləmə müddəti**

41.1. Satınalmanın nəticələri barədə bildirişin göndərildiyi

gündən sonrakı iş günü gözləmə müddəti başlayır və 5 (beş) iş günü ərzində qüvvədə olur. Gözləmə müddəti bitmədən satınalan təşkilat ilə qalib təchizatçı arasında müqavilə imzalana bilməz.

## F. Qalibin seçilməsi

**42. Qalibin seçilməsi proseduru**

42.1. Təlimatın 39-cu hissəsinin tələbləri nəzərə alınmaqla satınalma komissiyası qalib təchizatçını seçir.

**43. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi**

43.1. Satınalma müqaviləsi qalib təchizatçı tərəfindən imzalananadək satınalma komissiyası əvvəlcədən şərtlər toplusunda göstərmişdirsə, satınalma predmetinin hər vahidinin qiymətini və xüsusiyyətlərini (göstəricilərini) dəyişdirməmək, həmçinin ehtimal olunan qiyməti keçməmək şərti ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin razılığı ilə satınalma predmetinin həcmini (miqdarını) 10 faizə qədər artırıb-azalda bilər.

**44. Müqavilənin imzalanması**

44.1. Satınalan təşkilat təklifin şərtlər toplusunda göstərilmiş qüvvədə olma müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək qalib təchizatçının təklifini aksept edir və satınalma müqaviləsini tərtib edib təchizatçıya aksept bildirişi ilə birlikdə göndərir.

44.2. Qalib təchizatçı 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalayır və satınalan təşkilata bu Qanuna əsasən tələb olunan icra təminatını təqdim edir. Satınalan təşkilat satınalma müqaviləsini 10 (on) iş günündən gec olmayaraq imzalayır.

**45. Bağlanmış müqavilə barədə məlumatın verilməsi**

45.1. Satınalma komissiyası satınalma müqaviləsi qüvvəyə mindiyi gündən 3 (üç) iş günü ərzində satınalan təşkilatın və müqaviləni bağlamış təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), VÖEN-i, satınalma predmeti, satınalma metodu, müqavilənin məbləği və icra müddəti barədə Portalda məlumat yerləşdirir.

**46. İcra təminatı**

46.1. İcra təminatının məbləği satınalma müqaviləsinin ümumi məbləğinin 10 faizi (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 5 faizi) həcmində müəyyən olunur. İcra təminatının qüvvədə olma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda, zəmanət müddəti daxil olmaqla) 30 (otuz) iş günü çox olmalıdır.

46.2. Ümumi məbləği 30 000 (otuz min) manatdan az olan satınalma müqaviləsi üzrə icra təminatı tələb olunmur.

46.3. Qalib təchizatçının Təlimatın 44.2-ci bəndində qeyd olunan

müddət ərzində satınalma müqaviləsini imzalamaması və (və ya) Qanuna əsasən tələb olunan icra təminatını təqdim etməməsi onun öz öhdəliklərini icra edə bilməməsi kimi qiymətləndirilir və təklifin təminatının geri qaytarılmaması ilə nəticələnir.

## G. Şikayət verilməsi

**47. Şikayət vermək hüququ**

47.1. Hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə təchizatçıların satınalan təşkilatın hərəkətlərindən (hərəkətsizliyindən) və qərarlarından inzibati qaydada, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət vermək hüququ vardır.

47.2. Aşağıdakılar şikayət predmeti ola bilməz:

(a) Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinin məhdudlaşdırılması;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmaması və satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirilməsi halları istisna olmaqla qanuni əsaslarla satınalmanın ləğv edilməsi.

**48. Satınalan təşkilata şikayət**

48.1. Satınalmadan kənarlaşdırılmamış təchizatçılar satınalan təşkilata satınalmanın nəticələri ilə bağlı öz şikayətlərini gözləmə müddətində verirlər. Satınalan təşkilat gözləmə müddətində verilmiş şikayəti 5 (beş) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

48.2. Kənarlaşdırılmış və ya iştirak etməyən təchizatçılar satınalma müqaviləsi qüvvəyə minənə qədər öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 15 (on beş) iş günü ərzində satınalan təşkilata şikayət verə bilərlər. Satınalan təşkilat verilmiş şikayəti 10 (on) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir və həmin qərarın qəbul edildiyi gündən 1 (bir) iş günü ərzində şikayət edən təchizatçıya göndərir.

48.3. Şikayət gözləmə müddəti və ya Təlimatın 48.2-ci bəndi ilə müəyyən edilən müddət keçdikdən sonra verilmişdirsə, satınalan təşkilat həmin şikayəti baxılmamış saxlayır.

48.4. Satınalan təşkilat Təlimatın 48.1-ci və 48.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmirsə, təchizatçı bununla bağlı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət verə bilər. Belə şikayət verildikdən sonra satınalan təşkilat tərəfindən həmin şikayət baxılmamış saxlanılır.

**49. AİBNDX-a şikayət**

49.1. Təchizatçılar aşağıdakı hallarda İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilər:

(a) satınalma müqaviləsi qüvvəyə mindikdə;

(b) satınalma komissiyası Qanunun və Qanundan irəli gələn normativ hüquqi aktların tələblərini pozduqda;

(c) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(d) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən satınalmalarda maraqlar toqquşmasının tələbləri pozulduğu müəyyən edildikdə;

(e) Satınalan təşkilat Təlimatın 48.1-ci və 48.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmədikdə;

(f) verilmiş şikayətlə bağlı satınalan təşkilatın qərarı ilə razılaşmadığı halda.

49.2. Təchizatçılar öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən, habelə Təlimatın 49.1(f) bəndində nəzərdə tutulmuş qərarı aldığı gündən və ya həmin qərarın verilməli olduğu gündən 15 (on beş) iş günü ərzində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilərlər.

49.3. AİBNDX şikayəti aldıqdan sonra 1 (bir) iş günü ərzində bu barədə satınalan təşkilata Portal vasitəsilə bildiriş göndərir. Şikayətdə qaldırılan məsələlərin araşdırılması üçün əlavə məlumat tələb olunduğu təqdirdə AİBNDX satınalan təşkilata Portal vasitəsilə sorğu göndərir. Satınalan təşkilat sorğunu aldıqdan sonra 3 (üç) iş günü ərzində sorğuda tələb olunan məlumatları İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə təqdim edir.

49.4. AİBNDX verilmiş şikayəti 20 (iyirmi) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

49.5. AİBNDX şikayəti təmin edirsə aşağıdakı tədbirlərdən birini və ya bir neçəsini tətbiq edir.
(a) satınalan təşkilata qanunazidd hərəkətlər (hərəkətsizlik) etməyi və ya qərarlar qəbul etməyi, yaxud prosedurlar tətbiq etməyi qadağan etmək;
(b) satınalan təşkilatın qanunazidd inzibati aktını "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 67-ci maddəsinə uyğun olaraq ləğv etmək;
(c) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd hərəkətini (hərəkətsizliyini) dayandırmaq;
(d) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd qərarını ləğv etmək və yeni qərar qəbul etmək və ya satınalan təşkilatın əvəzinə öz qərarını qəbul etmək;
(e) təkliflərin yenidən qiymətləndirilməsi və ya satınalmanın ləğv edilməsi barədə qərar qəbul etmək.

**50. Satınalmanın dayandırılması**

50.1. Təlimatın 48-ci və 49-cu hissələrinə əsasən verilən şikayətin (gözləmə müddətində verilən şikayət istisna olmaqla) araşdırılması məqsədilə "İnzibati İcraat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinə uyğun olaraq İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qərarı ilə satınalan təşkilat tərəfindən satınalma prosedurları 10 (on) iş gününədək dayandırıla bilər. Bu müddət İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsaslandırılmış qərarı ilə 10 (on) iş gününədək uzadıla bilər.

**51. İnzibati qaydada şikayət**

51.1. Təchizatçılar AİBNDX-nin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və məhkəməyə şikayət verə bilərlər.

## H. Müqavilə

**52. Müqavilə şərtləri**

52.1. Təchizatçı təklifini formalaşdırarkən satınalma müqaviləsinin tələblərini nəzərə almalıdır.

52.2. Satınalma müqaviləsində aşağıdakı məlumatlarından çıxarış **Satınalma məlumat vərəqində (22)** də göstərilir:
(a) satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği;
(b) avans;
(c) satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları;
(d) satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları;
(e) tətbiq edildikdə satınalma predmetinin sığortalanması şərtləri.

52.3. Satınalma müqaviləsi ilə şərtlər toplusunda qeyd edilən məlumatlar arasında ziddiyyət olarsa şərtlər toplusu üstünlük təşkil edir.

# II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ

Satın alınacaq xidmətlər üçün aşağıdakı spesifik məlumatlar Təlimatın müddəalarını tamamlayır, aydınlaşdırır və ya dəyişdirir. Hər hansı bir ziddiyyət yarandıqda, aşağıdakı müddəalar Təlimatdakı müddəalardan üstün olacaqdır.

*[Satınalma məlumat vərəqini doldurmaq üçün zəruri təlimatlar istinad olunan müvafiq Təlimatın üçün kursivlə yazılmış qeydlərdə təqdim olunur və şərtlər toplusu doldurulduqdan sonra silinir]*

| Sıra №-si | Bənd | Məzmun | Məlumat |
|---|---|---|---|
| | | **A. Ümumi** | |
| (1) | 1.1. | Satınalma predmeti: | **(satınalma predmetini daxil edin)** |
| | | Satınalan təşkilatın adı:<br>VÖEN-i: | **(satınalan təşkilatın adını daxil edin)**<br>**(VÖEN-i daxil edin)** |
| | | Satınalan təşkilatın əlaqələndirici vəzifəli şəxsi barədə məlumat: | **(soyadı, adı və atasının adını daxil edin)**<br>**(vəzifəsini daxil edin)**<br>**(əlaqə məlumatlarını daxil edin)** |
| (2) | 3.1. | Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma: | **(iştirakı məhdudlaşdırılan ölkələr və ya məhdudlaşdırılma şərtləri barədə məlumatı daxil edin)**<br>*[Əgər belə hallar nəzərdə tutulmayıbsa "nəzərdə tutulmayıb" qeyd edin]* |
| (3) | 3.3. | Birliyin üzvlərinin maksimal sayı: | **(sayı daxil edin)** |
| (4) | 4.1. | İştirak haqqı: | **(məbləği daxil edin)**<br>*[Qanunun 28.6-cı maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilmiş məbləği daxil edin]* |
| | | **B. Şərtlər toplusunun məzmunu** | |
| (5) | 7.1. | Şərtlər toplusuna dair izahat üçün son müddət: | **(tarix və saatı daxil edin)** |
| (6) | 7.3. | Təklif öncəsi görüş və sahəyə baxış: | Təklif öncəsi görüş **(aşağıdakı tarixdə, saatda və yerdə keçiriləcək / keçirilməyəcək)**.<br>*[keçiriləcəksə aşağıdakı məlumatları daxil edin, əks təqdirdə silin]*<br>Tarix **(tarixi daxil edin)**:<br>Saat: **(saatı daxil edin)** |

| | | | |
|---|---|---|---|
| | | | Yer: **(yeri daxil edin)**<br><br>Sahəyə baxış **(təşkil ediləcək / edilməyəcək)**. |
| (7) | 8.1. | Şərtlər toplusuna dəyişiklik üçün son müddət: | **(tarix və saatı daxil edin)** |
| **C. Təkliflərin hazırlanması** | | | |
| (8) | 10.1. | Satınalmalara dair sənədlərin tərcümə olunacağı dil(lər): | Tərcümə **(olunacaq / olunmayacaq)**.<br>*[tərcümə olunacaqsa dili qeyd edin, əks təqdirdə silin]*<br>**(dili daxil edin)** |
| (9) | 13.1. | Alternativ təklif: | Alternativ təkliflə icazə **(verilir / verilmir)**.<br>*[Alternativ təkliflərə icazə verilərsə, Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində onun metodologiyası müəyyən edilməlidir.]* |
| (10) | 13.2. | Alternativ tamamlama müddəti: | Alternativ tamamlama müddətinə icazə **(verilir / verilmir)**. |
| (11) | 13.3. | Alternativ texniki həllər | Alternativ texniki həllərə icazə **(verilir / verilmir)**.<br>*[icazə verilirsə xidmətlərin hissələrini qeyd edin, əks təqdirdə silin]*<br>**(xidmətlərin təsvirini qeyd edin)**<br><br>*[Alternativ texniki həllərə icazə verilərsə, Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində onun metodologiyası müəyyən edilməlidir.]* |
| (12) | 14.1. | Satınalma predmetinin bölünməsi | Satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünməsinə və təchizatçıların satınalma predmetinin ayrı-ayrı hissələri üçün təkliflər təqdim etməsinə icazə **(verilir / verilmir)**.<br><br>*[icazə verilirsə xidmətlərin hissələrini və bölünmə şərtlərini qeyd edin, əks təqdirdə silin]*<br>**(satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünməsi ilə bağlı şərtləri və bölünməsinə icazə verilən hissələri ətraflı təsvir edin)** |

| | | | |
|---|---|---|---|
| (13) | 15.3. | Təklifin qiymətində nəzərə alınmalı olan amillər: | **(qiymət təklifi hazırlanarkən nəzərə alınmalı olan halları daxil edin)**<br>*[Təklifin qiymətinin hazırlanması zamanı nəzərə alınmalı olan amilləri, halları daxil edin. Əgər təlimatda nəzərdə tutulandan başqa hal nəzərdə tutulmayıbsa "Başqa hal nəzərdə tutulmayıb" qeyd edin]* |
| (14) | 19.1. | Təklifin qüvvədə olma müddəti | Təklif ən azı **(tarixi daxil edin)** tarixinə qədər qüvvədə olmalıdır<br>*[təklifin qiymətləndirilməsini yekunlaşdırmaq, lazımi razılıqları, o cümlədən nəticələrin AİBNDX ilə razılaşdırmaq üçün lazım olan ağlabatan vaxt nəzərə alınmaqla tarixi qeyd edin]* |
| (15) | 20.1. | Təklifin təminatının məbləği | **(təklif təminatının məbləğini rəqəmlə və sözlə daxil edin)**<br>*[Təklifin təminatını ehtimal olunan qiymətin 1-3 faizi aralığında müəyyənləşdirir. Məbləğin yuvarlaq və kəsrsiz olması tövsiyə olunur]* |
| (16) | 20.2. | Qarant və qarantın verdiyi təminatı təsdiqləyən tərəf barəsində tələblər | **(varsa qeyd edin, yoxdursa "yoxdur" yazın)** |
| **D. Təkliflərin təqdim olunması və açılması** | | | |
| (17) | 22.1. | Təkliflərin təqdim edilməsinin son müddəti | **(tarix və saatı daxil edin)**<br>*[Təkliflərin cəlb edilməsi barədə elan təkliflərin açılması günündən azı aşağıdakı müddətlərdən əvvəl Portalda dərc edilir:*<br>• *ehtimal olunan qiymət 1 000 000 manatadək olduqda 15 (on beş) iş günü,*<br>• *1 000 000 manatdan 10 000 000 manatadək olduqda 20 (iyirmi) iş günü,*<br>• *10 000 000 manat və ondan çox olduqda 30 (otuz) iş günü*<br>*Təkliflərin hazırlanması və təqdim edilməsi üçün icazə verilən vaxt predmetin xüsusiyyəti, miqyası və mürəkkəbliyi nəzərə alınmaqla müəyyən edilməlidir]* |
| (18) | 25.1. | Təkliflərin açılmasının müddəti | **(tarix və saatı daxil edin)**<br>*[Təkliflər Təlimatın 24.1-ci bəndində qeyd olunan vaxtdan sonra 1 saat ərzində açılır]* |

<table>
<tr><th colspan="4">E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi</th></tr>
<tr><td>(19)</td><td>33.1.</td><td>Subpodratçı</td><td>Subpodratçının cəlb edilməsinə icazə (verilir / verilmir).<br>Subpodratçı üçün tələblər: (tələbləri daxil edin)<br><br>[Məsələn, subpodratçının həyata keçirməsi nəzərdə tutulan fəaliyyət sahəsi “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növü olarsa müvafiq lisenziya əlavə edilməlidir]</td></tr>
<tr><td>(20)</td><td>34.2.</td><td>Qiymətləndirmə meyarlarının nisbi qiyməti (balı) və çəkisi:</td><td>Meyarların nisbi qiyməti (balı) (tətbiq ediləcək / edilməyəcək)<br><br>[<u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində təfərrüatlı olaraq qiymətləndirilmiş meyarlar/bal sistemi təklifi qiymətləndirmə yanaşması tətbiq edilərsə, “tətbiq ediləcək” seçin].<br><br>Qiymət amilinin çəkisi: (çəkini daxil edin)<br><br>[məbləğ üçün elə bir çəki göstərin ki, texniki və məbləğ nisbətlərinin cəmi 1 (bir) olsun. Bu çəkinin 70%-dən aşağı olmaması tövsiyə olunur. Təlimatın 34.2 bəndi tətbiq edilmirsə, bu qeydi silin]<br><br>Texniki amilin çəkisi və bölgüsü (100%-i keçməməklə hesablanır):
<table>
<tr><th>Texniki amillər</th><th>Nisbi çəkisi</th></tr>
<tr><td>1. Xidmətlərin göstərilməsi müddətləri</td><td>çəkini daxil edin</td></tr>
<tr><td>2. Xidmətlərin funksional xüsusiyyətləri</td><td>çəkini daxil edin</td></tr>
</table>
<br>[Yuxarıda göstərilən texniki amillər çərçivəsindən kənara çıxmamaq şərtilə konkret göstəricilər və qiymətləndirmə prosedurları <u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində müəyyən edilməlidir və texniki təklifin qiymətləndirilməsi üçün tələb olunan sənədlər bu qiymətləndirməni aparmağı imkan verməlidir. Çəkilər texniki amillərin nisbi əhəmiyyəti baxımından bölüşdürülməlidir].</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| (21) | 37.4. | Uyğunluq sənədlərinin yenidən təqdim edilməsi halları: | **(uyğunluq sənədlərinin yenidən təqdim edilməsi hallarını daxil edin)**<br>*[“Təkliflərin qiymətləndirilməsi müddətində dəyişilməsi gözlənilən (məsələn. vergi arayışı və s.) və ya təqdim edilmiş sənədlər arasında ziddiyyət/uyğunsuzluq olması” kimi halları qeyd edin və ya “tətbiq edilmir” daxil edin].* |
| **H. Müqavilə** | | | |
| (22) | 52.2. | Müqavilə şərtləri: | Ödəmələr: **(satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği)** |
| | | | Avans: **(avans ödənişi və təminatının məbləği və müqavilənin icra müddəti)**<br>*[Avans satınalma müqaviləsinin ümumi məbləğinin 30 faizindən (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 50 faizindən) çox olmayaraq ödənilir. Avansın alınması üçün təchizatçı tərəfindən satınalan təşkilata avans ödənişinin ümumi həcmindən az olmayan məbləğdə və müqavilənin icra müddətində qüvvədə olan müddətdə avans təminatı təqdim olunur].* |
| | | | Satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları: **(təklifin akseptindən sonra satınalma müqaviləsinin qüvvəyə minməsi üçün müvafiq sənədlər, həmin sənədlərin təqdim edilməsi müddəti və digər şərtlər)** |
| | | | Müqaviləyə dəyişiklik: **(satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları)** |
| | | | Sığorta: **(tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri)** |

# III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ-UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI

Bu bölmədə satınalma komissiyası tərəfindən təklifləri qiymətləndirmək və uyğunluq göstəricilərinə cavab verən təchizatçıları müəyyən etmək üçün bütün meyarlar qeyd edilib. Bu şərtlər toplusunda qeyd edilməyən heç bir meyar, amil və ya göstəricidən istifadə edilə bilməz. Təchizatçı tələb olunan bütün məlumatları Satınalma formaları (IV) bölməsinə daxil edilən formalardan istifadə edərək təqdim etməlidir.

Təchizatçıdan maddi dəyərinin göstərilməsi tələb olunan məlumatlar Azərbaycan manatı ilə aşağıdakı qaydada müəyyən edilən məzənnədən istifadə edilərək təqdim edilməlidir:

- maliyyə vəziyyətində göstərilən məlumatlar - müvafiq təqvim ilinin son günündə qüvvədə olan valyuta məzənnəsi;
- müqavilənin məbləği - müqavilənin bağlandığı tarixdə qüvvədə olan valyuta məzənnəsi.

Valyuta məzənnələri Təlimatın 31.1-ci bəndi ilə müəyyən edilmiş açıq mənbədən götürülməlidir. Təklifində valyuta məzənnələrinin müəyyən edilməsində hər hansı səhv satınalma komissiyası tərəfindən düzəldilə bilər.

*[Satınalan təşkilat satınalma prosesi üçün uyğun hesab edilən meyarları seçməli, aşağıdakı nümunələrdən və ya digər məqbul mətndən istifadə etməklə müvafiq mətni daxil etməli və kursivlə yazılan mətni silməlidir].*

## A. Texniki və maliyyə göstəricilərinin qiymətləndirilməsi

### 1. Texniki göstəricilərin qiymətləndirilməsi

Təlimatın 34.1-ci bəndinə uyğun olaraq təklifin tələblərə uyğunluğunun qiymətləndirilməsi.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

………………………………………………………………………………………………

Əgər Təlimatın 34.2-ci bəndi tətbiq edilərsə, qiymətləndirilməli olan texniki amillər və əgər varsa, alt amillər Təlimatın 35.2-ci bəndində hər bir texniki amilə və alt amillərə veriləcək ballar göstərilmişdir.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

.......................................................................................................................

#### 1.1. Texniki göstəricilərin bal ilə qiymətləndirilməsi metodologiyası

*[Satınalan təşkilat bura daxil ediləcək bal ilə qiymətləndirmə metodologiyasını hazırlamalıdır. Əgər Təlimatın 34.2-ci bəndinə uyğun olaraq, texniki amillərə (və əgər varsa, alt amillər) əhəmiyyətinə görə nisbi ballar verilirsə həmin ballar aşağıdakı düsturla hesablanır. Satınalan təşkilat həmçinin bura texniki təklifin metodologiyasını hazırlayaraq daxil etməlidir. Aşağıdakılar yalnız bir nümunədir və məqsədə uyğun olaraq dəyişdirilə bilər]*

...............................................

Texniki təklifin qiymətləndirilməsi metodologiyası

| Bal | Təsvir | Qeydlər |
|---|---|---|
| 0 | Tələb olunan xüsusiyyət yoxdur; tələbin necə yerinə yetirildiyini nümayiş etdirmək üçün müvafiq məlumat yoxdur | |
| 1 | Tələb olunan xüsusiyyət qeyri-kafi və ya aydınlığı olmayan məlumat kimi çatışmazlıqlarla mövcuddur | |
| 2 | Tələbin necə yerinə yetiriləcəyini nümayiş etdirmək üçün kifayət qədər məlumat | |
| 3 | Tələbin cüzi şəkildə keçəcəyini nümayiş etdirmək üçün kifayət qədər məlumat | |
| 4 | Tələb/təklifi əhəmiyyətli dərəcədə aşan kifayət qədər məlumat əhəmiyyətli əlavə dəyərə kömək edir | |

Texniki amil daxilində (j) hər bir alt-amil (i) üçün bal, aşağıdakı düsturdan istifadə edilərək hesablanır:

$$S_j \equiv \sum_{i=1}^{k} t_{ji} * f_{ji}$$

burada:

$t_{ji}$ = "j" amilindəki "i" alt amilinin texniki balı;

$f_{ji}$ = "j" amilindəki "i" alt amilinin faiz nisbəti;

$k$ = "j" amilindəki qiymətləndirilən alt amillərin sayı

$$\sum_{i=1}^{k} f_{ji} = 1$$

Amilin texniki balları aşağıdakı düsturdan istifadə etməklə ümumi texniki təklif balı hesablamaq üçün çəkili məbləğdə birləşdiriləcəkdir:

$$T \equiv \sum_{j=1}^{n} S_j * F_j$$

burada:

$S_j$ = "j" amilinin balı;

$F_j$ = "j" amilinin **Satınalma məlumat vərəqində (20)** müəyyən edilən nisbi çəkisi;

$n$ = amillərin sayı

$$\sum_{j=1}^{n} F_j = 1$$

[**Düsturların izahı:** Ümumi texniki amil daxilində hər bir alt amilə görə təchizatçıya verilmiş ballar müvafiq olaraq hər bir alt amil üçün müəyyən edilmiş nisbi çəkiyə vurularaq toplanır. Məsələn, əgər ümumi texniki amil daxilində 2 alt-amilin (100% üzərindən) nisbi çəkiləri müvafiq olaraq – funksional xüsusiyyətlər 60%, zəmanət şərtləri 40%-dirsə və təchizatçıya funksional xüsusiyyətlərinə görə (100 olmaqla) 70 bal, zəmanət şərtlərinə görə 60 bal verilmişdirsə yekun bal 60%*70+40%*60 = 66 olaraq hesablanır]

### 1.2. Xidmətlərin müəyyən edilən hissələri üçün alternativ texniki təkliflər

Təlimatın 13.3-cü bəndində nəzərdə tutulduğu təqdirdə aşağıdakı kimi qiymətləndiriləcəkdir.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

................................................................

## 2. Maliyyə göstəricilərinin qiymətləndirilməsi

### Maliyyə göstəricilərinin qiymətləndirilməsi üçün meyarlar

Təlimatın 34.3-cü bəndində sadalanan meyarlara əlavə olaraq aşağıdakı meyarlar tətbiq ediləcəkdir: *[Tətbiq olunduqda Təlimatın 34.3(c) bəndinə uyğun olaraq daxil edin; əks halda silin]*

…………………………………………………………………………………………

## 3. Yekun qiymətləndirmə

Satınalma komissiyası əhəmiyyətli dərəcədə tələblərə uyğun təklifləri qiymətləndirəcək və müqayisə edəcək. Qiymətləndirilmiş təklif balı (B) hər bir təklif

üçün qiymətləndirilmiş məbləğ və balı müəyyən edərək aşağıdakı düstur ilə hesablanacaq:

$$B = \frac{M_{aşağı}}{M} * X * 100 + \frac{T}{T_{yuxarı}} * (1-X) * 100$$

burada:

$M$ = qiymətləndirilmiş təklif məbləği

$M_{aşağı}$ = bütün uyğun təkliflər üçün qiymətləndirilib ən aşağı məbləğ

$T$ = təklifə verilmiş ümumi texniki bal

$T_{yuxarı}$ = *bütün uyğun təkliflər için ən yuxarı texniki balı almış təklifin balı*

$X$ = məbləğ üçün **Satınalma məlumat vərəqində (20)** müəyyən edilən nisbi çəki.

İxtisas göstəricilərinin tələblərinə cavab verən ən yüksək bal alan təklif ən səmərəli təklif hesab edilir.

[**Düsturun izahı:** Əgər texniki amilin çəkisi 30%, qiymət amilinin çəkisi 70%-dirsə və satınalmada iştirak edən 3 təchizatçının təklif məbləğləri və texniki balları müvafiq olaraq aşağıdakı kimidirsə:

- Təchizatçı A: təklif məbləği - 100.000 AZN, texniki balı 60
- Təchizatçı B: təklif məbləği - 120.000 AZN, texniki balı 70
- Təchizatçı C: təklif məbləği - 110.000 AZN, texniki balı 80

Müvafiq olaraq hər bir təchizatçının balı aşağıdakı kimi hesablanacaqdır:

- Təchizatçı A: $100.000_{\text{(ən aşağı məbləğ)}}$ / $100.000_{\text{(təchizatçı A-nın məbləği)}}$ * $70\%_{\text{(qiymət amilinin çəkisi)}}$ * 100 + $60_{\text{(təchizatçı B-nin texniki balı)}}$ / $80_{\text{(ən yüksək texniki bal)}}$ * $30\%_{\text{(texniki amilin çəkisi)}}$ * 100 = 92,5
- Təchizatçı B: 100.000 / 120.000 * 70% * 100 + 70 / 80 * 30% * 100 = 84,6
- Təchizatçı C: 100.000 / 110.000 * 70% * 100 + 80 / 80 * 30% * 100 = 93,6 (qalib)]

## B. Uyğunluq göstəricilərinin qiymətləndirilməsi

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| 1. | ***İlkin tələblər*** | | | | | | |
| 1.1. | **Təklifin təminatı** | **Satınalma məlumat vərəqində (15)** qeyd edilmiş məbləğdə və Təlimatın 20.2-ci bəndində göstərilən müddətdə qüvvədə olan təminatın təqdim edilməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Qarant tərəfindən müvafiq qaydada təqdim edilmiş təklifin təminatı **(FORMA 8)** |
| 1.2. | **Maraqlar toqquşması** | Təlimatın 3.2-ci bəndinin tələblərinə cavab verməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)** |
| 1.3. | **Dövlət mənsubiyyəti-nə görə məhdudlaşdı-rılma** | **Satınalma məlumat vərəqində (2)(15)** göstərilən və (və ya) müəyyən edilən ölkələrdə qeydiyyatdan keçən qeyri-rezident təchizatçıların siyahısına daxil edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Qeydiyyat sənədi |
| 2. | ***Ümumi tələblər*** | | | | | | |
| 2.1. | **Təchizatçı haqqında** | Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | 1. Təchizatçı haqqında:<br>a. Təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti; |

[1] Bütün üzvlərin təqdim etdiyi göstəricilərin cəmi tələblərə tam cavab verməlidir.

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | Bütün üzvlər birlikdə [1] | Hər bir üzv ayrı-ayrılıqda | Bir üzv | |
| | | | | | | | b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti;<br>c. birgə fəaliyyət göstərdikdə Təlimatın 3.4-cü bəndinə uyğun olaraq birgə fəaliyyətə dair müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu.<br>2. təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış<br>a. Hüquqi və fiziki şəxs olduqda **(FORMA 4)** və (və ya)<br>b. Birgə fəaliyyət olduqda 2 a bəndinə əlavə olaraq (**FORMA 5)**<br>3. Təlimatın 21.2-cü bəndinə uyğun olaraq təklifi imzalayan digər vəzifəli şəxs olduqda – etibarnamə.<br>4. Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış **(FORMA 7)**<br>5. |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **2.2.** | **Lisenziya və (və ya) icazə (tətbiq olunarsa)** | **(satınalma predmetinin icrası üçün zəruri olan və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növünü və tətbiq olunarsa konkret istiqaməti qeyd edin** *məs. Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma xidmətləri – (a) xüsusi torpaq xidmətləri və (b) mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması xidmətləri***)** | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Uyğun olmalıdır | Lisenziya və (və ya) icazənin surəti |
| **2.3.** | **Əmlakdan sərbəst istifadə** | Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasibətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)**, məlumat və təsdiqedici sənədlər |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **2.4.** | **Müflislik** | Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahibkarlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.5.** | **Vergi və əmək qanunvericiliyi öhdəliyi** | Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişli xidmətlər üzrə vaxtı keçmiş öhdəliklərin olması və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində - qüvvədə olan qərarın olmaması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış |
| | | Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Maliyyə sanksiyasına münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı xidmətlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının və ya inzibati cərimənin tətbiq edilməsi | | | | | İnzibati cəriməyə münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən arayış |
| **2.6.** | **Fəaliyyət qadağası** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.7.** | **Məhkumluq** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin satınalmaya dair elanın verilməsindən (dəvətin | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət: Bütün üzvlər birlikdə [1] | Birgə fəaliyyət: Hər bir üzv ayrı-ayrılıqda | Birgə fəaliyyət: Bir üzv | |
| | | göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma cinayətlərinə görə məhkum olunmaması | | | | | |
| **3.** | ***Xüsusi tələblər*** | | | | | | |
| **3.1.** | **Peşəkarlıq və təcrübə** | Satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının və təcrübəsinin olması, aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | Təchizatçının təcrübəsi barədə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 6)**, məlumat və təsdiqedici sənədlər (təhvil-təslim və ya yekun təhvil-təslim aktları, elektron qaimə və s.).<br><br>*[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsində müəyyən edilən meyarlara uyğun hazırlanmış digər prosedurları daxil edin]* |
| **3.1.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | | | | | |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **3.2.** | **Maliyyə imkanı** | Satınalma müqaviləsinin icrası üçün maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış prosedurları daxil edin]* |
| **3.2.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | ... | ... | ... | ... | |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | ... | ... | ... | ... | |
| **3.3.** | **İşçi qüvvəsi** | Müvafiq tələblərə cavab verən işçi qüvvəsinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: **(cari satınalma predmetinin icrası üçün tələb olunan əsas heyətin (a) vəzifələrini, (b) minimal say, (c) müvafiq akademik uyğunluq və (d) müvafiq** | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 3)**, məlumat və təsdiqedici sənədlər |

| **Münasiblik və uyğunluq meyarları** | | | **Uyğunluq tələbləri** | | | | **Tələb olunan sənəd** |
|---|---|---|---|---|---|---|---|
| **Sıra №-si** | **Mövzu** | **Tələblər** | **Fərdi** | **Birgə fəaliyyət** | | | |
| | | | | ***Bütün üzvlər birlikdə [1]*** | ***Hər bir üzv ayrı-ayrılıqda*** | ***Bir üzv*** | |
| | | **sahədə minimal təcrübə tələblərini siyahı olaraq daxil edin)** | | | | | |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | ... | ... | ... | ... | |
| **4.** | ***Digər tələblər*** | | | | | | |
| **4.1.** | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir.]* | | | | | | |

# IV BÖLMƏ. SATINALMA FORMALARI

## FORMA 1. Təklif məktubu

Təklifin təqdim olunma tarixi: **(tarixi daxil edin)**

Müsabiqə nömrəsi: **(müsabiqə nömrəsini daxil edin)**

Kimə: **(Satınalan təşkilatın adını daxil edin)**

Biz, aşağıda imza edənlər bəyan edirik ki:

**(a)** **qeyd-şərtin olmaması:** Təlimatın 8-ci hissəsinə müvafiq olaraq verilmiş əlavə və dəyişikliklər də daxil olmaqla (mövcud olduğu halda) şərtlər toplusu və onu təşkil edən sənədlər ilə tanış olduq, burada təsvir olunan xidmətin göstərilməsi haqqında tam məlumata malikik və bu sənədlərə heç bir qeyd-şərtimiz yoxdur;

**(b)** **münasiblik:** Təlimatın 3-cü hissəsində qeyd edilmiş tələblərə cavab veririk və maraqların toqquşması hallarının olmadığını təsdiqləyirik;

**(c)** **uyğunluq:** Biz ***(satınalma predmetini daxil edin)*** xidmətlərini şərtlər toplusunun tələblərinə və nəzərdə tutulmuş icra qrafikinə uyğun olaraq yerinə yetirməyi təklif edirik*;*

**(d)** **qiymət:** Tələb olunan xidmətləri bütün vergi və rüsumlar daxil olmaqla—dövlət satınalmalarının vahid internet Portalında göstərilən məbləğdə yerinə yetirməyi təklif edirik.

**(e)** **təklifin qüvvədə olma müddəti**: Təklifimiz dövlət satınalmalarının vahid internet Portalında göstərilən tarixə qədər qüvvədədir, bizim üçün məcburi xarakter daşıyır və bu müddətin bitməsindən öncə istənilən vaxt qəbul edilə bilə;

**(f)** **icra təminatı**: Bizim təklifimiz qəbul edildiyi təqdirdə şərtlər toplusunda qeyd edilən şərtlərdə icra təminatını təqdim edəcəyimizi öhdəmizə götürürük;

**(g)** **hər təchizatçı bir təklif:** Biz fərdi təchizatçı kimi hər hansı digər təklif və ya təkliflər təqdim etmirik, birgə fəaliyyət üzvü və ya subpodratçı kimi hər hansı digər satınalma və ya satınalmalarda iştirak etmirik və Təlimatın 13-cü hissəsinə uyğun təqdim edilmiş alternativ təkliflər istisna olmaqla Təlimatın 3.3-cü bəndinin tələblərinə cavab veririk;

**(h)** **qəbul etmək məcburiyyətinin olmaması**: Başa düşürük ki, siz ən aşağı qiyməti olan, ən səmərəli və ya digər istənilən təklifi qəbul etmək məcburiyyətində deyilsiniz;

**(i)** **əmlakdan sərbəst istifadə**: Müqavilənin icrası zamanı istifadə olunacaq əmlaklardan (daşınmaz əmlak və nəqliyyat vasitələri istisna olmaqla) sərbəst və məhdudiyyətsiz istifadə etmək hüququmuz var;

**(j)** **saxtakarlıq və korrupsiya:** Bizim üçün və ya bizim adımızdan hərəkət edən heç kimin heç bir formada saxtakarlıq və korrupsiya əməlləri törətməməsi üçün müvafiq tədbirləri görmüşük.

Təchizatçının adı: (təchizatçının adını daxil edin)

Təchizatçının VÖENİ: **(təchizatçının VÖEN-ini daxil edin)**

Təklifi təchizatçı adından imzalamaq səlahiyyəti olan şəxsin ad və soyadı:**(adı və soyadı daxil edin)**

Təklifi imzalayan şəxsin vəzifəsi: **(tam vəzifəni qeyd edin)**

İmzalanma tarix: **(tarixi daxil edin)**

# FORMA 2. Fəaliyyət cədvəli

| *Maddə №* | *Xidmətlərin təsviri* | *İcra tarixi* | *Ölçü vahidi* | *Miqdar* | *Vahidin qiyməti* | *Cəm* |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | **Yekun cəm:** | ______ |

# FORMA 3. Təklif edilən əsas heyətin tərcümeyi-halı və bəyannaməsi

Təchizatçı Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində sadalanan əsas işçi heyət tələblərinə cavab vermək qabiliyyətinə malik olduğunu aydın şəkildə nümayiş etdirmək üçün müvafiq məlumatı hər bir şəxs üçün ayrıca təqdim etməlidir. Bundan başqa, bütün vəzifələr üzrə cəlb ediləcək şəxslərin nəzərdə tutulan fəaliyyət müddətinə dair vaxt cədvəli detallı Qant diaqramı və ya bənzər digər cədvəl formasında təqdim edilməlidir.

<table>
<tr><td colspan="3">Təchizatçının adı: (təchizatçının adını daxil edin)</td></tr>
<tr><td colspan="3">Təklif edilən namizədin vəzifəsi: (Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulmuş vəzifəni daxil edin)</td></tr>
<tr><td>Məşğulluq dövrü:</td><td colspan="2">(bu vəzifə öhdəliyi üzrə cəlb ediləcək şəxsin işə başlama və işi bitirmə tarixlərini daxil edin)</td></tr>
<tr><td>İş müddəti:</td><td colspan="2">(bu vəzifə öhdəliyi üçün cəlb ediləcək şəxsin planlaşdırılan iş müddətini gün, həftə və ya ay olaraq daxil edin)</td></tr>
<tr><td rowspan="6">Heyət barədə məlumat</td><td>Adı və soyad:<br>(Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulmuş vəzifəyə uyğun hesab edilərək təklif edilən namizədin ad və soyadını daxil edin)</td><td>Doğum günü</td></tr>
<tr><td rowspan="2">Ünvan</td><td>E-poçt</td></tr>
<tr><td>Mobil nömrə</td></tr>
<tr><td colspan="2">Peşəkar sertifikatları</td></tr>
<tr><td colspan="2">Təhsili</td></tr>
<tr><td colspan="2">Dil biliyi<br>(dil, danışma, oxuma və yazma bacarıqlarının səviyyələri)</td></tr>
<tr><td rowspan="5">İş yeri barədə məlumat</td><td colspan="2">İşəgötürənin adı</td></tr>
<tr><td colspan="2">İşəgötürənin ünvanı</td></tr>
<tr><td colspan="2">Əlaqəli şəxsi (menecer / kadrlar şöbəsinin əməkdaşı)</td></tr>
<tr><td>Telefon</td><td>E-poçt</td></tr>
<tr><td>Vəzifəsi</td><td>Hazırkı iş yerində çalışma müddəti</td></tr>
</table>

Peşəkar təcrübəni tərs xronoloji ardıcıllıqla ümumiləşdirin. Satınalma predmeti ilə əlaqəli xüsusi texniki və idarəetmə təcrübəsini göstərin.

| İş yeri/Layihə | Vəzifə | İş müddəti | Müvafiq təcrübə |
|---|---|---|---|
| *(İşəgötürən və ya layihənin əsas detalları)* | *(bu işdə vəzifə və öhdəlikləri)* | *(bu vəzifədə işləmə müddəti)* | *(qeyd olunan təcrübənin cari vəzifə öhdəliklərinə uyğunluğunu təsvir edin)* |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**İltizam**

Mən imza etməklə təsdiqləyirəm ki, bu **FORMA 3**-də verilən məlumatlar mənim ixtisasımı və təcrübəmi düzgün təsvir edir.

Mən təsdiq edirəm ki, yuxarıda qeyd edilən məşğulluq dövrü və iş müddətində işləmək üçün öhdəlik götürürəm.

Mən başa düşürəm ki, bu Formada məlumatların yanlış verilməsi, gizlədilməsi və ya verilməməsi təklifin qiymətləndirilməsində nəzərə alınaraq mənim satınalmadan, müqavilə bağlandıqda isə müqavilənin icrasından uzaqlaşdırılmağıma səbəb ola bilər.

**Namizədin adı və soyadı:*(adı və soyadı daxil edin*)**

İmza: ______________________________________________

Tarix: **(tarixi daxil edin)**

**Təchizatçının səlahiyyətli nümayəndəsinin adı və soyadı: (adı və soyadı daxil edin)**

İmza: ______________________________________________

Tarix:**(tarixi daxil edin)**

# FORMA 4. Təchizatçı haqqında

| |
|---|
| Təchizatçının adı: **(təchizatçının adını daxil edin)** |
| Birgə fəaliyyət göstərdikdə hər bir üzvün adı: **(hər bir üzvün hüquqi adını qeyd edin)** |
| Təchizatçının qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Təchizatçının təsis ili: **(ili qeyd edin)** |
| Təchizatçının hüquqi və faktiki ünvanları: **(ünvanı qeyd edin)** |
| Təchizatçının səlahiyyəti nümayəndəsi haqqında:<br>• adı və soyadı:**(adı və soyadı daxil edin)**<br>• ünvanı: **(ünvanı qeyd edin)**<br>• əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 5. Birgə fəaliyyət haqqında

*(tətbiq olunursa hər bir birgə fəaliyyət göstərən üzvü üçün ayrı-ayrılıqda doldurulur)*

| |
|---|
| Birgə fəaliyyət göstərənin adı: (təchizatçının adını daxil edin) |
| Birgə fəaliyyət göstərən üzvünün adı: **(üzvün hüquqi adını qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin üzvün qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün təsis ili: **(ili qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün faktiki və hüquqi ünvanı: **(ünvanı qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin səlahiyyətli nümayəndəsi haqqında:<br>• Ad və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

## FORMA 6. Oxşar xidmətlər üzrə təcrübə

| **S. №-si** | **Başlanma və bitmə tarixi** | **Satınalan təşkilat və əlaqə vasitələri** *(ünvanı, e-poçtu və telefonu)* | **Müqavilənin predmeti** | **İcra olunan xidmətlərin cari satınalma predmetinə bənzərliyinin təsviri** *(yeri, əsas komponentləri, miqdarları/həcmləri və s.)* | **Müqavilənin məbləği** *(AZN ilə)* | **İcra vəziyyəti** *(davam edirsə tamamlanma faizi qeyd edilir)* | **Təchizatçının rolu** |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | (Təchizatçı, subpodratçı və ya birgə fəaliyyət üzvü) |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |
| 5. | | | | | | | |

# FORMA 7. Subpodratçılar haqqında məlumat

| S. №-si | Subpodratçının hüquqi adı və VÖEN-i | Əlaqə vasitəsi | Həyata keçirəcəyi xidmətlərin təsviri | Müqavilə məbləğində payı (%) |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |
| 5. | | | | |

# FORMA 8. Təklifin təminatı

Qarantiya nömrəsi: **(qarant tərəfindən doldurulur)**
Satınalan təşkilat: **(satınalan təşkilatın adı)**
Satınalma predmeti: **(satınalma predmetini daxil edin)**
Tarix: **(tarixi daxil edin)**

Nəzərə alaraq ki, **(təchizatçının adını daxil edin)** (VÖEN-i: **(təchizatçının VÖEN-ini daxil edin)**) (bundan sonra - təchizatçı) yuxarıda qeyd olunmuş satınalma predmetində nəzərdə tutulan xidmətlərin göstərilməsi üçün təklifini (bundan sonra – təklif) təqdim edəcəkdir, təchizatçının müraciəti əsasında biz, **(qarantın ünvanını daxil edin)** ünvanında yerləşən **(qarantın adını daxil edin)** (**(qarantın VÖEN-ini daxil edin)**) (bundan sonra – qarant) **(satınalan təşkilatın adı)** (VÖEN-i: **(satınalan təşkilatın VÖEN-ini daxil edin)**) (bundan sonra – satınalan təşkilat) qarşısında satınalan təşkilatın təchizatçının aşağıdakı öhdəliyə (öhdəliklərə) əməl etməməsi barədə müraciəti əsasında **(təklif təminatının məbləğini rəqəmlə və sözlə daxil edin)** məbləği əsaslandırma, sübut və ya səbəblərini göstərməyi tələb etmədən satınalan təşkilata geri qaytarılmayacaq şəkildə ödəyəcəyimizə öhdəlik götürürük:

(a) təchizatçı təklif məktubunda qeyd etdiyi təklifin qüvvədə olduğu müddətdə təklifini geri götürmüşdür və (və ya)

(b) təchizatçı tərəfindən təqdim edilmiş təklifin ilkin və ya uzadılmış qüvvədə olduğu müddətində aksept bildirişini aldığı halda (i) 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalamamışdır və ya (ii) şərtlər toplusuna əsasən tələb olunan icra təminatını təqdim etməmişdir.

Bu təminat aşağıdakı hallarda qüvvədən düşmüş hesab olunur:

(a) Təchizatçı və satınalan təşkilat tərəfindən imzalanmış müqavilə və icra təminatının nüsxəsi təqdim edildikdə və ya

(b) Təchizatçı qalib olmadığı təqdirdə (hansı birinci baş versə):
   i. satınalmanın nəticələri barədə təchizatçıya göndərilmiş bildiriş təqdim edildikdə və ya
   ii. təklifin qüvvədə olma müddətindən sonra 30 (otuz) iş günü keçdikdə **(tarixi daxil edin)**.

Bu təminat çərçivəsindəki hər hansı tələb qaranta yuxarıda qeyd olunan tarixdə və ya ondan öncə təqdim edilməlidir.

Qarant bu öhdəlikləri öz adından, öz varislərinin və müvəkkillərinin adından götürür.

Bu təminat Azərbaycan Respublikasında qüvvədə olan müvafiq qanunvericilik ilə tənzimlənir.

Qarantın adından və tapşırığı ilə **(imzalar)**

# (B) XİDMƏTLƏRƏ DAİR TƏLƏBLƏR

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar (satınalma predmetinin ətraflı təsviri, zəruri texniki və keyfiyyət xüsusiyyətləri, xidmətlərin göstəriləcəyi yer, qrafiki və s.) daxil edilir.]*

# (C) SATINALMA MÜQAVİLƏSİ

*[Qanunun 38.15-ci maddəsinə əsasən xidmətlər üzrə satınalma müqaviləsinin nümunəvi forması müvafiq qaydada doldurularaq əlavə edilir]*

________________________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 30 dekabr tarixli 503 nömrəli
Qərarı ilə **təsdiq edilmişdir.**

**4 nömrəli əlavə**

# (satınalma predmetini daxil edin)

---

*(satınalma predmetinin növünü daxil edin)*

İKİMƏRHƏLƏLİ TENDER METODU

ilə satın alınması üçün

# ŞƏRTLƏR TOPLUSU

***(birinci mərhələ)***

SATINALAN TƏŞKİLAT: **(satınalan təşkilatın adını daxil edin)**

ELAN TARİXİ: **(elan tarixini daxil edin)**

## MÜNDƏRİCAT

(A) SATINALMA PROSEDURLARI

**I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT** ... 3
**A. Ümumi** ... 3
**1. Satınalma haqqında** ... 3
**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar** ... 3
**3. Təchizatçıların münasibliyi** ... 3
**4. Malların və əlaqədar xidmətlərin münasibliyi** ... 5
**5. Satınalmada istifadə və iştirak haqqı** ... 5
**B. Şərtlər toplusunun məzmunu** ... 6
**6. Şərtlər toplusunun bölmələri** ... 6
**7. Şərtlər toplusuna dair izahat, sahəyə baxış və təklifqabağı görüş** ... 7
**8. Şərtlər toplusunda dəyişikliklərin edilməsi** ... 8
**9. Təklif hazırlama xərcləri** ... 8
**10. Satınalma komissiyası ilə əlaqə** ... 8
**11. Təklifin tərtib olunmasının dili** ... 9
**C. Birinci mərhələ üzrə texniki təkliflərin hazırlanması** ... 9
**12. Texniki təklifə daxil olan sənədlər** ... 9
**13. Alternativ texniki təklif** ... 10
**14. Təchizatçının uyğunluq sənədləri** ... 10
**15. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər** ... 10
**16. Birinci mərhələ üzrə texniki təklifin təqdim edilmə məktubu** ... 11
**17. Birinci mərhələ üzrə texniki təklifin formatı və imzalanması** ... 11
**D. Birinci mərhələ üzrə texniki təkliflərin təqdim edilməsi** ... 11
**18. Birinci mərhələ üzrə texniki təkliflərin təqdim edilməsinin son müddəti** ... 11
**19. Gecikmiş təkliflər** ... 111
**20. Təkliflərin geri götürülməsi və ya dəyişdirilməsi** ... 112
**E. Birinci mərhələ üzrə texniki təkliflərin açılması və qiymətləndirilməsi** ... 12
**21. Birinci mərhələ üzrə texniki təkliflərin açılması** ... 112
**22. Birinci mərhələ üzrə texniki təkliflərin uyğunluğunun müəyyən edilməsi** ... 112
**23. Birinci mərhələ üzrə texniki təkliflərin texniki qiymətləndirilməsi** ... 112
**24. Təchizatçının uyğunluğunun qiymətləndirilməsi** ... 113
**25. Birinci mərhələ üzrə texniki təkliflərə dair izahat alınması və təchizatçıların təklif etdikləri kənarlaşmalar və alternativ həllərin nəzərdən keçirilməsi** ... 113
**F. İkinci mərhələ üzrə yekun təkliflərə dəvət** ... 155
**26. İkinci mərhələ üzrə yekun təkliflərin təqdim olunmasına dəvət** ... 115

G. Şikayət verilməsi ..... 16
27. Şikayət vermək hüququ ..... 16
28. Satınalan təşkilata şikayət ..... 16
29. AİBNDX-yə şikayət ..... 17
30. Satınalmanın dayandırılması ..... 18
31. İnzibati qaydada şikayət ..... 18
II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ ..... 19
III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ-UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI ..... 21
IV BÖLMƏ. SATINALMA FORMALARI ..... 32
FORMA 1. Təklif məktubu ..... 32
FORMA 2. Texniki baza ..... 333
FORMA 3. Təklif edilən əsas heyətin tərcümeyi-halı və bəyannaməsi ..... 344
FORMA 4. Təchizatçı haqqında ..... 366
FORMA 5. Birgə fəaliyyət haqqında ..... 377
FORMA 6. Oxşar satınalma predmeti üzrə təcrübə ..... 388
FORMA 7. Subpodratçılar haqqında məlumat ..... 39
(B) SATINALMA PREDMETİNƏ DAİR TƏLƏBLƏR
(C) SATINALMA MÜQAVİLƏSİ

# I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT

## A. Ümumi

**1. Satınalma haqqında**

1.1. **Satınalma məlumat vərəqində (1)** qeyd edilən satınalan təşkilat tərəfindən *(B) Satınalma predmetinə dair tələblər* sənədində nəzərdə tutulmuş satınalma predmetinin maliyyə vəsaiti hesabına dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun görülməsi üçün bu şərtlər toplusu hazırlanmışdır. Satınalma predmeti, satınalan təşkilatın adı, VÖEN-i və satınalan təşkilatın əlaqələndirici şəxsi barədə məlumatlar **Satınalma məlumat vərəqində (1)** qeyd edilir.

1.2. Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunundan (bundan sonra – Qanun) və digər normativ hüquqi aktlardan ibarətdir.

1.3. Təkliflərin qiymətləndirilməsi zamanı aşağıdakı anlayışlar tətbiq edilir:

1.4. Bu şərtlər toplusunda istifadə olunan digər anlayışlar Qanun və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar**

2.1. Satınalan təşkilat "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa riayət olunmasını tələb edir.

**3. Təchizatçıların münasibliyi**

3.1. **Satınalma məlumat vərəqində (2)** göstərilən Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinə məhdudiyyətlər qoyulduğu hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident təchizatçı (fiziki şəxs, hüquqi şəxs, o cümlədən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün hüquqi və (və ya) fiziki şəxslərin müqavilə əsasında yaratdığı müvəqqəti və ya daimi birliyi (bundan sonra – birgə fəaliyyət) daxil olmaqla) Azərbaycan Respublikasında keçirilən satınalmalarda iştirak edə bilər. Təchizatçı nizamnaməsi (və ya buna bərabər tutulan sənədləri) və ya

qeydiyyat sənədləri ilə müəyyən olunduğu ölkənin qanunlarının müddəalarına uyğun olaraq yaradılmış, təsis edilmiş və ya qeydiyyatdan keçmiş və fəaliyyət göstərdiyi təqdirdə həmin ölkəyə mənsub hesab edilir. Müqavilənin hər hansı hissəsinin icrasına cəlb edilməsi təklif edilən subpodratçıların ölkə mənsubiyyəti bu meyar əsasında müəyyən edilir.

3.2. Təchizatçının iştirak etdiyi satınalmada Qanunun 6.1-ci maddəsinə əsasən maraqlar toqquşması olmamalıdır. *(Qanunun 6.1-ci maddəsindən çıxarış:*

*Təchizatçıların aşağıdakı hallarda (satınalma predmetinin yalnız hər hansı konkret təchizatçıda olduğu, yaxud satınalma predmetinin əvəzedicisi və alternativi olmadığı hallar istisna olmaqla) satınalmalarda iştirakına yol verilmir, bu hallar müəyyən olduqda satınalmadan kənarlaşdırılır:*

- *təchizatçının satınalan təşkilatdan və ya satınalan təşkilatla təchizatçının eyni qurumdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olduqda;*
- *təchizatçılardan biri digərinin benefisiar mülkiyyətçisi olduqda, yaxud təchizatçıların azı ikisi eyni benefisiar mülkiyyətçinin nəzarətində olduqda;*
- *təchizatçılardan biri digərinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı olduqda, yaxud təchizatçıların azı ikisinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı eyni şəxs olduqda;*
- *satınalmada təchizatçı qismində çıxış edən fiziki şəxs və ya hüquqi şəxsin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsinə əsasən aidiyyəti şəxsi satınalan təşkilatın rəhbəri ilə qohumluq (ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürənlər, övladlığa götürülmüş şəxslər, babalar, nənələr, nəvələr, doğma (ögey) bacılar və qardaşlar, bacı və qardaşların övladları, bacıların ərləri, qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, ər-arvadların valideynləri, bacıları və qardaşları) münasibətində olduqda).*

3.3. Birgə fəaliyyətin üzvü olaraq və ya fərdi şəkildə alternativ təkliflərə icazə verilən hallar istisna olmaqla təchizatçılar eyni satınalma üzrə birdən artıq təklif təqdim etməməli və ya birdən artıq təklifdə iştirak etməməli, həmçinin həmin satınalmada iştirak edən digər təchizatçının subpodratçısı olmamalıdır. Bu hal aşkarlandıqda həmin təchizatçıların təqdim etdikləri və (və ya) iştirak etdikləri bütün təkliflər

kənarlaşdırılır.

3.4. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar bu məqsədlə tərəflərin hər birinin imzaladığı müqaviləyə və ya müqavilə layihəsi əlavə edilməklə müqavilə bağlamaq barədə tərəflərin hər birinin imzaladığı niyyət məktubuna malik olmalıdır. Bu halda birgə fəaliyyət göstərmək istəyən tərəflərin hər birinin müqavilənin müqavilə şərtlərinə uyğun icrası üçün birgə və fərdi məsuliyyət daşıması və tərəflər arasındakı iş öhdəliklərinin bölgüsü barədə müddəalar birgə fəaliyyət müqaviləsinə və ya müqavilə layihəsinə daxil edilməlidir. Birgə fəaliyyət onun adından və tərəfləri üçün satınalmada iştirak və müqavilə bağlandıqda isə müqavilənin icrasını təmin etmək məqsədilə müvafiq səlahiyyətə malik nümayəndə təyin edir. **Satınalma məlumat vərəqində (3)** göstərilmədiyi təqdirdə, birgə fəaliyyətin üzvlərinin sayına məhdudiyyət qoyulmur.

3.5. Qanunun 16-cı maddəsi ilə tənzimlənən qaydada etibarsız təchizatçıların reyestrinə daxil edilmiş təchizatçıların müəyyən olunmuş müddətdə satınalmalarda iştirakına yol verilmir. Etibarsız təchizatçıların reyestri etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalında (bundan sonra – Portal) yerləşdirilir.

3.6. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru keçirildikdə, yalnız uyğunluq göstəricilərinə cavab verən təchizatçılar satınalmada iştirak edə bilərlər.

**4. Malların və əlaqədar xidmətlərin münasibliyi**

4.1. Müqavilə çərçivəsində Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçılar və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçılar tərəfindən malların (materialların, avadanlıqların və s.) təchiz edilməsinə və xidmətlərin göstərilməsinə yol verilmir. Satınalan təşkilatın tələbi ilə təchizatçılardan malların və xidmətlərin mənşəyinə dair sübut təqdim etmələri tələb oluna bilər.

4.2. Malların mənşə ölkəsi qanunvericiliklə müəyyən edilmiş qaydada təyin edilir.

**5. Satınalmada istifadə və iştirak haqqı**

5.1. Birdəfəlik və ya istifadə müddətinə görə istifadə haqqını ödəyərək Portaldan istifadə hüququnu əldə etmiş təchizatçılar təklifləri təqdim etmək üçün **Satınalma məlumat vərəqində (4)** qeyd edilən məbləğdə iştirak haqqı ödəyirlər.

5.2. İstifadə və iştirak haqqı Portalda “ASAN ödəniş” sistemi vasitəsilə bank kartı ilə ödənilir.

5.3. Təkliflə təklifin təminatını təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayı üçdən az olması səbəbindən satınalmanın ləğv edilməsi və həmin satınalma predmeti üzrə təkrar satınalma keçirilməməsi halı istisna olmaqla ödənilmiş iştirak haqqı və istifadə haqqı heç bir halda geri qaytarılmır. Satınalmanın maliyyələşdirilməsinin dayandırılması və təchizatçıların sayı üçdən az olması səbəbindən satınalma ləğv edildikdə satınalma planında nəzərdə tutulmuş həmin satınalma predmeti üzrə təkrar satınalma keçirildiyi təqdirdə iştirak haqqını ödəyən və geri almayan təchizatçıların təkrar ödəniş etmədən satınalmada iştirakı təmin edilir.

5.4. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru keçirildikdə uyğunluq göstəricilərinə cavab verərək satınalmada iştirakı davam etdirən təchizatçılar iştirak haqqı ödəmirlər.

## B. Şərtlər toplusunun məzmunu

**6. Şərtlər toplusunun bölmələri**

6.1. Şərtlər toplusu aşağıda verilmiş bütün bəndləri əhatə edən və təchizatçılar üçün təlimatın (bundan sonra – Təlimat) 7-ci hissəsinə uyğun olaraq ona edilən dəyişikliklər və əlavələrlə birlikdə nəzərə alınmalı olan aşağıdakı bölmələrdən ibarətdir:

- A. SATINALMA PROSEDURLARI
  - I Bölmə. Təchizatçılar üçün təlimat
  - II Bölmə. Satınalma məlumat vərəqi
  - III Bölmə. Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları
  - IV Bölmə. Satınalma formaları
- B. SATINALMA PREDMETİNƏ DAİR TƏLƏBLƏR
- C. SATINALMA MÜQAVİLƏSİ

6.2. Təchizatçıdan şərtlər toplusunda verilmiş bütün təlimat, forma, tələb, texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri) ilə tanış olması və şərtlər toplusunda tələb edilən bütün məlumat və sənədləri təqdim etməsi tələb olunur.

6.3. Portal vasitəsilə birbaşa əldə edilmədiyi təqdirdə satınalan təşkilat şərtlər toplusunun tamlığı, şərtlər toplusunda aydın olmayan hallarla bağlı sorğularına, əvvəlki görüşlərin (əgər olubsa) nəticələri barədə protokollara və (və ya) Təlimatın 7-ci hissəsinə uyğun olaraq şərtlər toplusuna edilmiş

dəyişikliklərə görə məsuliyyət daşımır. Hər hansı ziddiyyət olduqda, Portaldan birbaşa əldə olunan sənədlər üstünlük təşkil edir.

**7. Şərtlər toplusuna dair izahat, sahəyə baxış və təklifqabağı görüş**

7.1. Təchizatçı şərtlər toplusunda aydın olmayan hallarla bağlı təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 5 (beş) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (5)** qeyd olunan tarix və vaxt) satınalan təşkilata Portal vasitəsilə sorğu ünvanlaya bilər. Satınalma komissiyası sorğunu aldıqdan sonra 2 (iki) iş günü ərzində sorğuya cavab verir. Sorğu və ona verilən cavab sorğu verənin gizliliyi təmin edilməklə həmin gün Portalda yerləşdirilir.

7.2. Sorğu və ona verilən cavab şərtlər toplusuna əlavə edilərək onun ayrılmaz tərkib hissəsi hesab edilir.

7.3. **Satınalma məlumat vərəqində (6)** nəzərdə tutulduğu halda təchizatçının təyin edilmiş nümayəndəsi təklif təqdim etməzdən əvvəl görüşə və (ya) satınalma predmetinin icra ediləcəyi əraziyə baxış keçirməyə dəvət olunur. Görüşün məqsədi yaranmış texniki suallara aydınlıq gətirmək və həmin mərhələdə qaldırıla biləcək hər hansı sualı cavablandırmaq olacaq.

7.4. Təchizatçıya satınalma predmetinin icra ediləcəyi əraziyə və onun ətrafına baxış keçirmək və araşdırmaq, habelə təklifin hazırlanması və satınalma predmetinin icrası zamanı müqavilə bağlamaq üçün lazım ola biləcək bütün məlumatları əldə etmək tövsiyə olunur. Sahəyə baxış üçün səfər xərcləri təchizatçı tərəfindən ödənilir. Satınalan təşkilat satınalma iştirakçısına iş sahəsi və onu əhatə edən ərazilərə baxış keçirmək və yoxlamaq, təklifin hazırlanması və satınalma predmetinin icrası üçün zəruri olacaq bütün məlumatları əldə etmək üçün əraziyə giriş icazəsi verir.

7.5. Satınalan təşkilat təchizatçıya və (və ya) onun etibarnamə təqdim etdiyi hər hansı əməkdaşına sahəyə baxış məqsədi ilə tikinti obyektinə və ərazisinə daxil olmaq üçün icazə verir. Sahəyə baxış zamanı təchizatçının nümayəndəsi zəruri fərdi mühafizə vasitələrini özü təmin etməlidir. Sahəyə baxış zamanı baş verə biləcək hər hansı xəsarət və ya ölüm, əmlak itkisi və ya zərəri, habelə digər bununla bağlı itki və ziyan ilə bağlı yaranmış xərclərə görə satınalan təşkilat heç bir məsuliyyət daşımır.

7.6. Satınalan təşkilatla təchizatçılar arasında keçirilən görüş zamanı iştirak haqqını ödəmiş bütün təchizatçılar üçün bərabər iştirak imkanları yaradılır və görüş videomüşahidə vasitələrinin nəzarəti altında aparılaraq nəticələri protokolla

rəsmiləşdirilir. Protokol nəzərə alınmaq üçün iştirak haqqını ödəmiş bütün təchizatçılara həmin gün göndərilir və Portalda yerləşdirilir. Satınalan təşkilatla təchizatçılar arasında qeyri-rəsmi danışıqlar aparılması və görüşlərin keçirilməsi qadağandır.

**8. Şərtlər toplusunda dəyişiklik edilməsi**

8.1. Satınalma komissiyası təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (7)** qeyd olunan tarix və vaxta qədər) şərtlər toplusuna hər hansı təchizatçının sorğusu əsasında və ya texniki səhvlər və ya çatışmazlıqlar aşkar edildikdə öz təşəbbüsü ilə dəyişikliklər (satınalma predmetinin dəyişdirilməsi istisna olmaqla) edə bilər.

8.2. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə şərtlər toplusunda hər hansı dəyişiklik edilməsinə, habelə bununla bağlı hər hansı sorğuya, təklifə və icazəyə yol verilmir.

8.3. Satınalma komissiyası şərtlər toplusuna dəyişikliklər etdiyi halda təkliflərin təqdim edilməsi müddətini ən azı 5 (beş) iş gününədək uzadır. Təchizatçının əsaslandırılmış müraciəti əsasında təkliflərin təqdim edilməsi müddəti 10 (on) iş gününədək uzadıla bilər.

8.4. Şərtlər toplusuna edilmiş dəyişiklik onun ayrılmaz tərkib hissəsi hesab edilir. Dəyişikliklər Portal vasitəsilə bütün təchizatçılara göndərilir və bütün təchizatçılar üçün məcburi qüvvəyə malikdir.

**9. Təklif hazırlama xərcləri**

9.1. Təchizatçı öz təklifini hazırlamaq və təqdim etməklə bağlı bütün xərcləri özü çəkir və satınalan təşkilat satınalma prosesinin nəticəsindən asılı olmayaraq, həmin xərclərə görə məsuliyyət və ya öhdəlik daşımır.

**10. Satınalma komissiyası ilə əlaqə**

10.1. Təchizatçı satınalma prosesi ilə əlaqədar olan hər hansı məsələ ilə bağlı satınalma komissiyası ilə yalnız Portal vasitəsilə əlaqə saxlaya bilər.

10.2. Təchizatçılardan əlavə sorğularını yalnız Portal vasitəsilə təqdim etməsi tələb olunur. Hər hansı digər vasitə ilə verilmiş sorğular satınalan təşkilat tərəfindən nəzərə alınmır.

10.3. Təchizatçı satınalmanın istənilən mərhələsində Qanunun tələblərinə zidd hərəkətlərə (hərəkətsizliyə) yol verdikdə, o cümlədən saxta sənəd və (və ya) məlumat təqdim etdikdə satınalma komissiyası həmin təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

**11. Təklifin tərtib olunmasının dili**

11.1. Təklif və həmçinin təchizatçı ilə satınalan təşkilat arasında bütün yazışmalar və sənəd mübadiləsi Azərbaycan dilində aparılır. Satınalma komissiyasının qərarı ilə satınalmalara dair sənədlər **Satınalma məlumat vərəqində (8)** nəzərdə tutulmuş xarici dillərdən birinə (bir neçəsinə) tərcümə oluna bilər. Bu halda, satınalmalara dair sənədlər arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

11.2. Təklifin tərkibinə daxil olan müşayiətedici sənədlər və çap materialları tərcüməsi ilə verilmək şərtilə, başqa dildə ola bilər. Təchizatçının xarici dildə təqdim etdiyi sənədlərin Azərbaycan dilinə notarial qaydasında təsdiqlənmiş tərcüməsi təqdim olunmalıdır. Təklif ilə tərcüməsi arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

## C. Birinci mərhələ üzrə texniki təkliflərin hazırlanması

**12. Texniki təklifə daxil olan sənədlər**

12.1. Təchizatçının birinci mərhələ üçün təqdim etdiyi təklifə aşağıdakıları əlavə edir:

(a) təklif məktubu;

(b) Təlimatın 13-cü hissəsinə uyğun olaraq alternativ təklif;

(c) Təlimatın 17.1-ci bəndinə uyğun olaraq təklifi imzalayan şəxsin səlahiyyətli olduğunun yazılı təsdiqi;

(d) təklifi aksept edildiyi halda müqaviləni icra edə bilmək üçün təchizatçının uyğunluq göstəricilərinə cavab verdiyinin sənədli sübutu;

(e) metodologiya, maddi-texniki baza, işçi heyəti və Satınalma formaları (IV) bölməsinə daxil edilən formalardan istifadə etməklə təqdim edilməli olan digər məlumatlar;

(f) Təlimatın 15-ci hissəsinə uyğun olaraq təchizatçı tərəfindən təklif edilən işlərin şərtlər toplusunun tələblərinə cavab verdiyin sənədli sübutu;

(g) Təchizatçı satınalma komissiyası tərəfindən qiymətləndirmə zamanı nəzərə alınması və Təlimatın 23-26-cı hissələrinə uyğun olaraq görüşlər zamanı aydınlaşdırılması üçün birinci mərhələ üzrə texniki təklifin müqavilə şərtlərindən və (və ya) fəaliyyət göstəriciləri və (və ya) funksional tələblərdən kənarlaşmalar barədə ətraflı məlumat verməlidir.

(h) təklif birgə fəaliyyət tərəfindən təqdim edildikdə fəaliyyət göstərmək istəyən tərəflərin hər birinin müqavilənin müqavilə şərtlərinə uyğun icrası üçün birgə və fərdi məsuliyyət daşıması və tərəflər arasındakı iş

öhdəliklərinin bölgüsü barədə müddəaların daxil edildiyi birgə fəaliyyət müqaviləsi və ya müqavilə layihəsi əlavə edilməklə birgə fəaliyyətin təşkil edilmə niyyəti barədə məktub;

(i) Təlimatın 15.4-cü bəndinə uyğun olaraq subpodratçıların siyahısı;

(j) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində tələb olunan digər sənədlər.

**13. Alternativ texniki təklif**

13.1. Satınalan təşkilatın xeyrinə olduğunu, müqavilənin əsas məqsədlərini icra edəcəyini və *(B) Satınalma predmetinə dair tələblər* sənədində müəyyən edilən minimal fəaliyyət göstəricilərinə və texniki meyarlara cavab verdiyini sənədləşdirmək şərtilə təchizatçıya texniki alternativlər təklif etməyə icazə verilir.

13.2. Təchizatçı tərəfindən birinci mərhələ üzrə texniki təklifin tərkib hissəsi olaraq verilən alternativ texniki təkliflər Təlimatın 25-ci hissəsinə uyğun olaraq aydınlaşdırılacaqdır.

**14. Təchizatçının uyğunluq sənədləri**

14.1. Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinin tələblərinə uyğun olaraq təchizatçılar müqaviləni icra etmək imkanlarını göstərmək üçün Satınalma formaları (IV) bölməsinə daxil edilən müvafiq məlumat vərəqələrini təmin etməli, habelə Qanunun 23-cü maddəsinə əsasən təchizatçıların uyğunluq göstəricilərini təsdiq edən sənədlər (bundan sonra – uyğunluq sənədləri) təqdim etməlidir.

**15. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər**

15.1. Təlimatın 12.1(e) bəndinə uyğun olaraq təchizatçı *(B) Satınalma predmetinə dair tələblər* sənədində qeyd olunan tələblərə cavab verdiyini göstərmək və təklifinin yetərliliyini nümayiş etdirmək üçün icra metodologiyası, iş qrafiki və Satınalma formaları (IV) bölməsində nəzərdə tutulmuş hər hansı digər məlumat daxil olmaqla kifayət qədər təfərrüatlı texniki təklif təqdim etməlidir.

15.2. Təklif edilən hər bir avadanlığın, texnikanın, məhsulun və digər malların özünəməxsus texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri), o cümlədən konkret əmtəə nişanı və adı, modeli, istehsal mənbəyi (mənşə ölkəsi) və istehsalçısına aid məlumatlar və istehsalçının texniki məlumat vərəqi (hansı varsa) təklifə əlavə edilməlidir.

15.3. Təlimatın 25.7-ci bəndinə əsasən "Birinci mərhələnin qiymətləndirilməsinə əsasən tələb olunan dəyişikliklər" adlı memorandumda və şərtlər toplusuna edilmiş dəyişiklikdə dəyişikliklərə açıq şəkildə icazə verildiyi və ya tələb

olunduğu hallar istisna olmaqla ikinci mərhələ üzrə birgə texniki və maliyyə təklifləri üçün dəvət olunmuş təchizatçının birinci mərhələdə verdiyi təklifin eynisini təqdim etməsi tələb olunur. Memorandum və ya şərtlər toplusuna edilmiş dəyişiklikdə xüsusi təşviq olmadan birinci mərhələ üzrə texniki təklifindən kənarlaşma edən təchizatçının təklifi kənarlaşdırıla bilər.

15.4. Təchizatçı təklif etdiyi subpodratçının Təlimatın 3-cü hissəsinin və subpodratçı tərəfindən icra olunacaq satınalma predmetinin Təlimatın 4-cü hissəsinin və 15.1-ci bəndinin tələblərinə cavab verdiyinə əmin olmalıdır.

**16. Birinci mərhələ üzrə texniki təklifin təqdim edilmə məktubu**

16.1. Təchizatçı Satınalma formaları (IV) bölməsinə daxil edilən *Təklif məktubu*nu təlimatlara uyğun olaraq doldurub təklifi ilə birlikdə təqdim etməlidir.

**17. Birinci mərhələ üzrə texniki təklifin formatı və imzalanması**

17.1. Təlimatın 12.1(c) bəndinə uyğun olaraq təklif təchizatçının rəhbəri və ya digər vəzifəli şəxsi tərəfindən imzalanmalıdır. Təklifi təchizatçının rəhbəri imzaladıqda həmin təchizatçının təsis və hüquqi və ya fiziki şəxsin qeydiyyat sənədlərini təqdim etməlidir. Təklifi imzalayan digər vəzifəli şəxs olduğu təqdirdə isə həmin vəzifəli şəxsə imza səlahiyyətlərinin verilməsinə dair həmin təchizatçının rəhbəri tərəfindən səlahiyyəti təsdiq edən sənəd – etibarnamə təqdim edilməlidir.

17.2. İstənilən sətirlərarası xətlər, silmələr və ya təkrar yazılar yalnız təklifi imzalayan şəxs tərəfindən imzalandıqda və ya paraflandıqda etibarlı hesab olunur.

17.3. Birinci mərhələ üzrə texniki təklifinin imzalanması və təqdim edilməsi təchizatçı üçün ikinci mərhələ üzrə birgə texniki və maliyyə təklifini təqdim etmək öhdəliyi və ya məcburiyyəti yaratmır.

## D. Birinci mərhələ üzrə texniki təkliflərin təqdim edilməsi

**18. Birinci mərhələ üzrə texniki təkliflərin təqdim edilməsinin son müddəti**

18.1. Birinci mərhələ üzrə texniki təkliflərin təqdim edilməsi üçün **Satınalma məlumat vərəqində (9)** müəyyən edilən müddət başa çatanadək Portal vasitəsilə elektron qaydada satınalan təşkilata təqdim edilir.

18.2. Satınalma komissiyası öz mülahizəsinə əsasən Təlimatın 8.1-ci bəndinə uyğun olaraq şərtlər toplusuna dəyişiklik etməklə təkliflərin təqdim edilməsi üçün son müddətini uzada bilər.

**19. Gecikmiş təkliflər**

19.1. Təlimatın 18.1-ci bəndi ilə müəyyən olunmuş müddətdən gec təqdim olunan təklif qəbul edilmir.

**20. Təkliflərin geri götürülməsi və ya dəyişdirilməsi**

20.1. Təchizatçı təkliflərin təqdim edilməsi son müddəti bitənədək öz təklifini dəyişdirə və ya geri götürə bilər.

20.2. Təkliflərin təqdim edilməsinin son müddəti, o cümlədən uzadılmış müddəti bitdikdən sonra və ya təchizatçı tərəfindən təklif məktubunda qeyd edilən təklifin qüvvədə olma müddəti bitənədək təklifini geri götürdükdə və ya dəyişdirdikdə təchizatçı təklifin təminatına olan hüququnu itirir.

## E. Birinci mərhələ üzrə texniki təkliflərin açılması və qiymətləndirilməsi

**21. Birinci mərhələ üzrə texniki təkliflərin açılması**

21.1. Təkliflərin son təqdim olunması müddətinə qədər təqdim olunmuş təkliflər satınalma komissiyası tərəfindən **Satınalma məlumat vərəqində (10)** qeyd olunan tarixdə və vaxtda Portal vasitəsilə elektron qaydada açılır.

21.2. Təkliflər açılarkən hər bir təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı və atasının adı), ünvanı, VÖEN-i və satınalma komissiyası tərəfindən uyğun hesab edilən digər məlumatlar Portalda dərc olunur.

**22. Birinci mərhələ üzrə texniki təkliflərin uyğunluğunun müəyyən edilməsi**

22.1. Satınalma komissiyası təchizatçı tərəfindən təqdim olunan alternativlər daxil olmaqla birinci mərhələ üzrə texniki təklifləri yoxlayaraq onların tamlığını, müvafiq qaydada imzalandığını və ümumi olaraq tələblərə uyğunluğunu yoxlayır.

22.2. Satınalma komissiyası həmçinin təkliflərin ikimərhələli proses çərçivəsində aradan qaldırılması gözlənilməyən *(B) Satınalma predmetinə dair tələblər* sənədində qeyd olunan tələblərdən kənarlaşmaları müəyyən edir. Bu halda satınalma komissiyası təklifi öz qənaətinə əsasən kənarlaşdıra, həmin təchizatçını ikinci mərhələyə dəvət etməyə bilər. Digər bütün təkliflər Təlimatın 25-ci hissəsinin tələbləri nəzərə alınmaqla birinci mərhələ üzrə texniki təkliflərin qiymətləndirilməsi çərçivəsində satınalma komissiyası tərəfindən təhlil edib tələblərdən kənarlaşan təchizatçıları müəyyən edilir onlarla məlumat mübadiləsi aparılır.

**23. Birinci mərhələ üzrə texniki təkliflərin texniki qiymətləndirilməsi**

23.1. Satınalma komissiyası Təlimatın 22-ci hissəsinə uyğun olaraq tələblərə cavab verən təkliflərin texniki cəhətdən *(B) Satınalma predmetinə dair tələblər* göstərilmiş tələblərə uyğunluğunu müəyyənləşdirmək üçün ətraflı qiymətləndirmə aparır. Qərar vermək üçün təchizatçı tərəfindən təqdim edilmiş məlumatları Təlimatın 12-15-ci hissələrinə uyğun olaraq aşağıdakıları nəzərə almaqla

yoxlayır:

(a) ümumi tamlıq və (B) Satınalma predmetinə dair tələblər sənədində qeyd olunan bütün, o cümlədən funksional və fəaliyyət göstəriciləri tələblərinə uyğunluq;

(b) texniki təklifin keyfiyyəti, o cümlədən, tətbiq olunduğu halda, dizayn təklifi, tikinti fəaliyyətləri üçün metodologiya, təşkilatlanma, resursların bölüşdürülməsi və risklərin qiymətləndirilməsi;

(c) texniki təklifdə təqdim edilmiş mərhələ cədvəli ilə sübut olunduğu kimi, icra qrafiki ilə nəzərdə tutulan vaxt cədvəlinə və təchizatçılar tərəfindən təklif olunan istənilən alternativ vaxt cədvəllərinə uyğunluq;

(d) şərtlər toplusuna əlavə edilmiş müqavilə layihəsi şərtlərindən kənarlaşmalar;

(e) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulan və satınalma komissiyasını zəruri hesab etdiyi hər hansı digər müvafiq texniki amillər.

23.2. Satınalma komissiyası, həmçinin Təlimatın 13-cü hissəsinə uyğun olaraq təchizatçılar tərəfindən təklif edilən tam alternativ texniki təklifləri nəzərdən keçirərək və bu cür alternativlərin ikinci mərhələ üzrə təklif üçün məqbul əsas təşkil edib-etmədiyini müəyyən edir.

**24. Təchizatçının uyğunluğunun qiymətləndirilməsi**

24.1. Satınalma komissiyası Təlimatın 12.1(d) bəndinə və Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə əsasən təqdim olunan sənədli sübutların təchizatçının müqaviləni icra etmək iqtidarında olub-olmamasını müəyyən etməlidir.

24.2. Bunun üçün təchizatçı tərəfindən təqdim edilmiş uyğunluq göstəricilərini təsdiq edən sənədlər araşdırılmalı, təchizatçının özündən başqa digər törəməsi və ya tabe olduğu müəssisələr, törəmə və tabeliyində olan müəssisələri, filialları və subpodratçılarının uyğunluq sənədləri nəzərə alınmamalıdır. Əgər bu sənədlərlə bağlı uyğunsuzluq olarsa Təlimatın 25-ci hissəsinə uyğun olaraq həmin məsələlər aydınlaşdırılır.

24.3. Uyğunluq göstəricilərinə cavab verən təklifin seçilməsi müqavilənin bağlanması üçün ilkin şərtdir. Təlimatın 40.1-ci bəndinin tələbləri yerinə yetirilmədikdə qiymətləndirilmiş ən aşağı məbləği olan növbəti təklif və ya təkliflərin uyğunluq tələblərinə cavab verib-vermədiyi müvafiq qaydada araşdırılır.

**25. Birinci mərhələ**

25.1. Satınalma komissiyası birinci mərhələ üzrə texniki təkliflərə

**üzrə texniki təkliflərə dair izahat alınması və təchizatçıların təklif etdikləri kənarlaşmalar və alternativ həllərin nəzərdən keçirilməsi**

dair izahat tələb edən aspektlərini aydınlaşdırmaq və hər hansı təchizatçının təklif etdiyi alternativ həlləri və ya müqavilənin şərtlərinə, o cümlədən kommersiya şərtlərinə qeyd-şərtləri nəzərdən keçirmək üçün tələblərə cavab verən hər bir təchizatçı izahat aydınlaşdırma görüşü (görüşləri) keçirə bilər. Görüşlərin məqsədi texniki aspektlərin, eləcə də kommersiya şərtlərinin aşkar edilməsinə və aydınlaşdırılmasına imkan verəcək qədər geniş olmalıdır. Belə görüşdə təklif olunan həllərin uyğunluğu yoxlanır.

25.2. Aydınlaşdırma görüşləri zamanı satınalma komissiyası tələblərini dəqiqləşdirmək, texniki və müqavilə şərtlərinə müvafiq dəyişiklikləri müəyyən etmək prosesində iştirak edir. Təchizatçı ikinci mərhələ üzrə birgə texniki və maliyyə təklifində nəzərə almaq üçün birinci mərhələ üzrə təqdim etdiyi texniki təklifdə etmək istədiyi hər hansı dəyişikliyi satınalma komissiyasının diqqətinə çatdıra bilər.

25.3. Təchizatçın aydınlaşdırma görüşlərində iştirak etmək məcburiyyəti yoxdur. Təchizatçı belə görüşlərdə iştirak edə bilmədikdə, etmək istəmədikdə satınalma komissiyası onunla müvafiq aydınlaşmaları digər üsullarla (audio, videokonfrans və s.) almağa cəhd göstərməlidir. Alternativ üsullar istifadə etmək birinci mərhələ üzrə texniki təkliflərə dair aydınlaşdırılmaların aparılma imkanlarının məhdudlaşması təklifin kənarlaşdırılması riski yaradarsa buna görə təchizatçı məsuliyyət daşıyacaq.

25.4. Satınalma komissiyası birinci mərhələ üzrə texniki təkliflərdə aşağıdakı kənarlaşma hallarını müəyyən etdikdə təchizatçını məlumatlandırır:

(a) qəbuledilməzdir və ikinci mərhələ üzrə birgə texniki və maliyyə təklifində geri götürülməlidir;

(b) məqbuldur və ikinci mərhələ üzrə təklif təqdim etməyə dəvət edilmiş təchizatçılara şərtlər toplusuna əlavə edilərək təqdim ediləcək.

Hər hansı kənarlaşmaya görə təchizatçıya güzəştə gedilərsə, həmin kənarlaşmanın olduğu digər bütün təchizatçılara da bu güzəşt tətbiq ediləcək.

25.5. Hər bir aydınlaşdırma görüşündə təchizatçını müzakirələrdə təmsil etmək və ikinci mərhələ üzrə təklif verəcəyi halda birinci mərhələ üzrə texniki təklifdə dəyişiklik etməklə razılığa gəlmək səlahiyyətini etibarnamə ilə təsdiq edən bir və ya bir neçə şəxs iştirak etməlidir. vasitəsilə Satınalan təşkilatın təchizatçının aydınlaşdırma

görüşündə (görüşlərində) iştirak etmək üçün çəkdiyi hər hansı xərclərə görə məsuliyyət daşımayacaq. Aydınlaşdırma görüşlərinə dəvət və orada iştirak mütləq təchizatçının ikinci mərhələyə dəvət ediləcəyini ehtiva etmir. Bununla belə, aydınlaşdırma görüşləri keçirilərsə, satınalma komissiyasının qərarına görə təklifləri üzbəüz aydınlaşdırma tələb etməyən Təlimatın 22.2-ci bəndinə görə uyğun olduğu müəyyən edilmiş bütün təchizatçılara belə görüş imkanı təklif edilir.

25.6. Nə Təlimatın 25.7-ci bəndinə uyğun olaraq hazırlanmış təchizatçıya xas memorandum, nə də hər hansı təchizatçı ilə aydınlaşma görüşündə (görüşlərində) yazılmış protokollar və ya təchizatçı ilə satınalma komissiyası arasında digər yazışmalar digər təchizatçılarla paylaşılmır. Memorandum istisna olmaqla təchizatçıya xas protokollar və ya yazışmalarda təchizatçının ikinci mərhələ üzrə birləşmiş texniki və maliyyə təklifinə dair tələb irəli sürülmür. Buna baxmayaraq satınalma komissiyası və təchizatçı bu sənədləri, habelə izahat məlumatlarını müvafiq olaraq ikinci mərhələ təklifin hazırlanması və qiymətləndirilməsi üçün istifadə edə bilər.

25.7. Hər aydınlaşma prosesinin sonunda satınalma komissiyası "Birinci mərhələ üzrə təklifin qiymətləndirilməsinə uyğun olaraq tələb olunan dəyişikliklər" başlıqlı təchizatçıya xas memorandum hazırlayaraq Təklif üçün dəvət – İkinci mərhələ üzrə birgə texniki və maliyyə təklifi sənədinin tərkib hissəsi olaraq müvafiq təchizatçıya ötürür.

25.8. Satınalma komissiyası təchizatçıya xas hər memoranduma aşağıdakıları daxil edir:

(a) birinci mərhələ üzrə texniki təklifə edilən bütün dəyişikliklər və ikinci mərhələ üzrə birgə texniki və maliyyə təklifində tələb olunan əlavə təfərrüatlar;

(b) Təlimatın 12.1(f) və 25.4-cü bəndlərinə uyğun olaraq satınalma komissiyası üçün qəbuledilməz hesab edilən olan və təchizatçının ikinci mərhələ üzrə birgə texniki və maliyyə təklifində geri götürməli olduğu hər hansı kənarlaşmaların siyahısı;

(c) dəyişikliyin əsaslandırılması daxil olmaqla, təchizatçının dəyişdirməli olduğu hər hansı subpodratçılar;

(d) təchizatçıya xas hər hansı xüsusi dəyişiklik tələbi yoxdursa, bu barədə məlumat.

## F. İkinci mərhələ üzrə yekun təkliflərə dəvət

**26. İkinci mərhələ**

26.1. Aydınlaşma görüşləri daxil olmaqla birinci mərhələ texniki

**üzrə yekun təkliflərin təqdim olunmasına dəvət**

qiymətləndirməni yekunlaşdırdıqdan sonra satınalma komissiyası zərurət olduqda satınalma predmetini dəyişdirməmək şərtilə onun ilkin texniki, keyfiyyət və istismar xüsusiyyətlərinin hər hansı hissəsini, habelə təkliflərin qiymətləndirilməsi üçün müəyyən edilən ilkin meyarları çıxarmaq, dəyişdirmək və ya yenisini əlavə etməklə Qanunun 25-ci maddəsinə uyğun yeni şərtlər toplusunu hazırlayır.

26.2. İkinci mərhələdə satınalma komissiyası tenderdən kənarlaşdırılmamış təchizatçılara yekun təklifləri təqdim etmək üçün şərtlər toplusunu əlavə etməklə dəvət göndərir.

26.3. Təklifinin uyğun olmaması və ya <u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində göstərilən minimum uyğunluq göstəricilərinə cavab vermədiyinə görə kənarlaşdırılan təchizatçılara bu barədə bildiriş təqdim edilir.

## G. Şikayət verilməsi

**27. Şikayət vermək hüququ**

27.1. Hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə təchizatçıların satınalan təşkilatın hərəkətlərindən (hərəkətsizliyindən) və qərarlarından inzibati qaydada, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə (bundan sonra – AİBNDX) və məhkəməyə şikayət vermək hüququ vardır.

27.2. Aşağıdakılar şikayət predmeti ola bilməz:

(a) Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinin məhdudlaşdırılması;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmaması və satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirilməsi halları istisna olmaqla qanuni əsaslarla satınalmanın ləğv edilməsi.

**28. Satınalan təşkilata şikayət**

28.1. Kənarlaşdırılmış təchizatçılar öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 15 (on beş) iş günü ərzində satınalan təşkilata şikayət verə bilərlər. Satınalan

təşkilat verilmiş şikayəti 10 (on) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir və həmin qərarın qəbul edildiyi gündən 1 (bir) iş günü ərzində şikayət edən təchizatçıya göndərir.

28.2. Şikayət Təlimatın 28.1-ci bəndi ilə müəyyən edilən müddət keçdikdən sonra verilmişdirsə, satınalan təşkilat həmin şikayəti baxılmamış saxlayır.

28.3. Satınalan təşkilat Təlimatın 28.1-ci bəndində göstərilən müddət ərzində qərar qəbul etmirsə, təchizatçı bununla AİBNDX-yə və məhkəməyə şikayət verə bilər. Belə şikayət verildikdən sonra satınalan təşkilat tərəfindən həmin şikayət baxılmamış saxlanılır.

**29. AİBNDX-yə şikayət**

29.1. Təchizatçılar aşağıdakı hallarda AİBNDX-yə şikayət verə bilərlər:

(a) satınalma komissiyası Qanunun və Qanundan irəli gələn normativ hüquqi aktların tələblərini pozduqda;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(c) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən satınalmalarda maraqlar toqquşmasının tələbləri pozulduğu müəyyən edildikdə;

(d) satınalan təşkilat Təlimatın 28.1-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmədikdə;

(e) verilmiş şikayətlə bağlı satınalan təşkilatın qərarı ilə razılaşmadığı halda.

29.2. Təchizatçılar öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən, habelə Təlimatın 29.1(e) bəndində nəzərdə tutulmuş qərarı aldığı gündən və ya həmin qərarın verilməli olduğu gündən 15 (on beş) iş günü ərzində İqtisadiyyat Nazirliyi yanında AİBNDX-yə şikayət verə bilərlər.

29.3. AİBNDX şikayəti aldıqdan sonra 1 (bir) iş günü ərzində bu barədə satınalan təşkilata Portal vasitəsilə bildiriş göndərir. Şikayətdə qaldırılan məsələlərin araşdırılması üçün əlavə məlumat tələb olunduğu təqdirdə AİBNDX satınalan təşkilata Portal vasitəsilə sorğu göndərir. Satınalan təşkilat sorğunu aldıqdan sonra 3 (üç) iş günü ərzində sorğuda tələb olunan məlumatları İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə təqdim edir.

29.4. AİBNDX verilmiş şikayəti 20 (iyirmi) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

29.5. AİBNDX şikayəti təmin edirsə aşağıdakı tədbirlərdən birini və ya bir neçəsini tətbiq edir.

(a) satınalan təşkilata qanunazidd hərəkətlər (hərəkətsizlik) etməyi və ya qərarlar qəbul etməyi, yaxud prosedurlar tətbiq etməyi qadağan etmək;

(b) satınalan təşkilatın qanunazidd inzibati aktını "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 67-ci maddəsinə uyğun olaraq ləğv etmək;

(c) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd hərəkətini (hərəkətsizliyini) dayandırmaq;

(d) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd qərarını ləğv etmək və yeni qərar qəbul etmək və ya satınalan təşkilatın əvəzinə öz qərarını qəbul etmək;

(e) təkliflərin yenidən qiymətləndirilməsi və ya satınalmanın ləğv edilməsi barədə qərar qəbul etmək.

**30. Satınalmanın dayandırılması**

30.1. Təlimatın 28-ci və 29-cu hissələrinə əsasən verilən şikayətin (gözləmə müddətində verilən şikayət istisna olmaqla) araşdırılması məqsədilə "İnzibati İcraat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinə uyğun olaraq AİBNDX-nin qərarı ilə satınalan təşkilat tərəfindən satınalma prosedurları 10 (on) iş gününədək dayandırıla bilər. Bu müddət AİBNDX-nin əsaslandırılmış qərarı ilə 10 (on) iş gününədək uzadıla bilər.

**31. İnzibati qaydada şikayət**

31.1. Təchizatçılar AİBNDX-nin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və məhkəməyə şikayət verə bilərlər.

# II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ

Satın alınacaq işlər üçün aşağıdakı spesifik məlumatlar Təlimatın müddəalarını tamamlayır, aydınlaşdırır və ya dəyişdirir. Hər hansı bir ziddiyyət yarandıqda, aşağıdakı müddəalar Təlimatdakı müddəalardan üstün olacaqdır.

*[Satınalma məlumat vərəqini doldurmaq üçün zəruri təlimatlar istinad olunan müvafiq Təlimatın üçün kursivlə yazılmış qeydlərdə təqdim olunur və şərtlər toplusu doldurulduqdan sonra silinir]*

| Sıra №-si | Bənd | Məzmun | Məlumat |
|---|---|---|---|
| | | **A. Ümumi** | |
| (1) | 1.1. | Satınalma predmeti: | **(satınalma predmetini daxil edin)** |
| | | Satınalan təşkilatın adı:<br>VÖEN-i: | **(satınalan təşkilatın adını daxil edin)**<br>**(VÖEN-i daxil edin)** |
| | | Satınalan təşkilatın əlaqələndirici vəzifəli şəxsi barədə məlumat: | **(soyadı, adı və atasının adını daxil edin)**<br>**(vəzifəsini daxil edin)**<br>**(əlaqə məlumatlarını daxil edin)** |
| (2) | 3.1. | Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma: | **(iştirakı məhdudlaşdırılan ölkələr və ya məhdudlaşdırılma şərtləri barədə məlumatı daxil edin)**<br>*[Əgər belə hallar nəzərdə tutulmayıbsa “nəzərdə tutulmayıb” qeyd edin]* |
| (3) | 3.3. | Birliyin üzvlərinin maksimal sayı: | **(sayı daxil edin)** |
| (4) | 4.1. | İştirak haqqı: | **(məbləği daxil edin)**<br>*[Qanunun 28.6-cı maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilmiş məbləği daxil edin]* |
| | | **B. Şərtlər toplusunun məzmunu** | |
| (5) | 7.1. | Şərtlər toplusuna dair izahat üçün son müddət: | **(tarix və saatı daxil edin)** |
| (6) | 7.3. | Təklif öncəsi görüş və sahəyə baxış: | Təklif öncəsi görüş **(aşağıdakı tarixdə, saatda və yerdə keçiriləcək / keçirilməyəcək)**<br>*[keçiriləcəksə aşağıdakı məlumatları daxil edin, əks təqdirdə silin]*<br>Tarix: **(tarixi daxil edin)**<br>Saat: **(saatı daxil edin)** |

| | | | |
|---|---|---|---|
| | | | Yer: **(yeri daxil edin)**<br><br>Sahəyə baxış **(təşkil ediləcək / edilməyəcək)**. |
| (7) | 8.1. | Şərtlər toplusuna dəyişiklik üçün son müddət: | **(tarix və saatı daxil edin)** |
| **C. Təkliflərin hazırlanması** | | | |
| (8) | 11.1. | Satınalmalara dair sənədlərin tərcümə olunacağı dil(lər): | Tərcümə **(olunacaq / olunmayacaq)**.<br>*[tərcümə olunacaqsa dili qeyd edin, əks təqdirdə silin]*<br>**(dili daxil edin)** |
| **D. Təkliflərin təqdim olunması və açılması** | | | |
| (9) | 18.1. | Birinci mərhələ üzrə texniki təkliflərin təqdim edilməsinin son müddəti: | **(tarix və saatı daxil edin)**<br><br>*[Təkliflərin cəlb edilməsi barədə elan təkliflərin açılması günündən azı aşağıdakı müddətlərdən əvvəl Portalda dərc edilir:*<br>• *ehtimal olunan qiymət 1 000 000 manatadək olduqda 15 (on beş) iş günü,*<br>• *1 000 000 manatdan 10 000 000 manatadək olduqda 20 (iyirmi) iş günü,*<br>• *10 000 000 manat və ondan çox olduqda 30 (otuz) iş günü*<br>*Təkliflərin hazırlanması və təqdim edilməsi üçün icazə verilən vaxt predmetin xüsusiyyəti, miqyası və mürəkkəbliyi nəzərə alınmaqla müəyyən edilməlidir.]* |
| (10) | 21.1. | Birinci mərhələ üzrə texniki təkliflərin açılması müddəti | **(tarix və saatı daxil edin)**<br><br>*[Təkliflər Təlimatın 24.1-ci bəndində qeyd olunan vaxtdan sonra 1 saat ərzində açılır]* |
| **E. Təkliflərin qiymətləndirilməsi** | | | |
| (11) | 12.1(j). | Digər sənədlər | Əlavə sənədlər **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)** |

# III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ-UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI

Bu bölmədə satınalma komissiyası tərəfindən təklifləri qiymətləndirmək və uyğunluq göstəricilərinə cavab verən təchizatçıları müəyyən etmək üçün bütün meyarlar qeyd edilib. Bu şərtlər toplusunda qeyd edilməyən heç bir meyar, amil və ya göstəricidən istifadə edilə bilməz. Təchizatçı tələb olunan bütün məlumatları Satınalma formaları (IV) bölməsinə daxil edilən formalardan istifadə edərək təqdim etməlidir.

Təchizatçıdan maddi dəyərinin göstərilməsi tələb olunan məlumatlar Azərbaycan manatı ilə aşağıdakı qaydada müəyyən edilən məzənnədən istifadə edilərək təqdim edilməlidir:

- maliyyə vəziyyətində göstərilən məlumatlar - müvafiq təqvim ilinin son günündə qüvvədə olan valyuta məzənnəsi;
- müqavilənin məbləği - müqavilənin bağlandığı tarixdə qüvvədə olan valyuta məzənnəsi.

*[Satınalan təşkilat satınalma prosesi üçün uyğun hesab edilən meyarları seçməli, aşağıdakı nümunələrdən və ya digər məqbul mətndən istifadə etməklə müvafiq mətni daxil etməli və kursivlə yazılan mətni silməlidir].*

## A. Texniki göstəricilərin qiymətləndirilməsi

### 1. Texniki göstəricilərin qiymətləndirilməsi

Təlimatın 22-ci və 23-cü bəndlərinə uyğun olaraq texniki təklifin tələblərə uyğunluğunun qiymətləndirilməsi.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir].*

## B. Uyğunluq göstəricilərinin qiymətləndirilməsi

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **1.** | ***İlkin tələblər*** | | | | | | |
| **1.1.** | **Maraqlar toqquşması** | Təlimatın 3.2-ci bəndinin tələblərinə cavab verməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)** |
| **1.2.** | **Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma** | **Satınalma məlumat vərəqində (2)** göstərilən və (və ya) müəyyən edilən ölkələrdə qeydiyyatdan keçən qeyri-rezident təchizatçıların siyahısına daxil edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Qeydiyyat sənədi |
| **2.** | ***Ümumi tələblər*** | | | | | | |
| **2.1.** | **Təchizatçı haqqında** | Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | 1. Təchizatçı haqqında:<br>a. Təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti;<br>b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti; |

[1] Bütün üzvlərin təqdim etdiyi göstəricilərin cəmi tələblərə tam cavab verməlidir.

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | Tələb olunan sənəd |
| | | | | | | | c. birgə fəaliyyət göstərdikdə Təlimatın 3.4-cü bəndinə uyğun olaraq birgə fəaliyyətə dair müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu.<br>2. təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış<br>a. Hüquqi və fiziki şəxs olduqda **(FORMA 4)** və (və ya)<br>b. Birgə fəaliyyət olduqda 2 a bəndinə əlavə olaraq (**FORMA 5)**<br>3. Təlimatın 17.1-ci bəndinə uyğun olaraq təklifi imzalayan digər vəzifəli şəxs olduqda – etibarnamə.<br>4. Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış **(FORMA 7)** |
| **2.2.** | **Lisenziya və (və ya) icazə (tətbiq olunarsa)** | **(satınalma predmetinin icrası üçün zəruri olan və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan** | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Uyğun olmalıdır | Lisenziya və (və ya) icazənin surəti |

| **Münasiblik və uyğunluq meyarları** | | | **Uyğunluq tələbləri** | | | | **Tələb olunan sənəd** |
|---|---|---|---|---|---|---|---|
| **Sıra №-si** | **Mövzu** | **Tələblər** | **Fərdi** | **Birgə fəaliyyət** | | | |
| | | | | ***Bütün üzvlər birlikdə*** [1] | ***Hər bir üzv ayrı-ayrılıqda*** | ***Bir üzv*** | |
| | | **fəaliyyət növünü və tətbiq olunarsa konkret istiqaməti qeyd edin** *məs. Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri – (a) xüsusi torpaq işləri və (b) mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması işləri***)** | | | | | |
| **2.3.** | **Əmlakdan sərbəst istifadə** | Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublika-sının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasibətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)**, məlumat və təsdiqedici sənədlər |
| **2.4.** | **Müflislik** | Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanılmaması, sahibkarlıq fəaliyyəti | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi | | | | | |
| **2.5.** | **Vergi və əmək qanunvericiliyi öhdəliyi** | Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin olması və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın olmaması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış |
| | | Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Maliyyə sanksiyasına münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının və ya inzibati cərimənin tətbiq edilməsi | | | | | İnzibati cəriməyə münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən arayış |
| **2.6.** | **Fəaliyyət qadağası** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.7.** | **Məhkumluq** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırılma cinayətlərinə görə məhkum olunmaması | | | | | |
| **3.** | ***Xüsusi tələblər*** | | | | | | |
| **3.1.** | **Peşəkarlıq və təcrübə** *(açıq tender, ikimərhələli tender və qapalı tender, habelə işlərin və xidmətlərin satınalınması ilə bağlı kotirovka sorğusu metoduna tətbiq olunur. Tətbiq olunmadığı halda silinir)* | Satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının və təcrübəsinin olması, aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | Təchizatçının təcrübəsi barədə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 6)**, məlumat və təsdiqedici sənədlər (təhvil-təslim və ya yekun təhvil-təslim aktları, elektron qaimə və s.).<br><br>*[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış digər prosedurları daxil edin]* |
| **3.1.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | | | | | |

| **Münasiblik və uyğunluq meyarları** | | | **Uyğunluq tələbləri** | | | | **Tələb olunan sənəd** |
|---|---|---|---|---|---|---|---|
| | | | | **Birgə fəaliyyət** | | | |
| **Sıra №-si** | **Mövzu** | **Tələblər** | **Fərdi** | ***Bütün üzvlər birlikdə*** [1] | ***Hər bir üzv ayrı-ayrılıqda*** | ***Bir üzv*** | |
| **3.2.** | **Maliyyə imkanı** *(açıq tender, ikimərhələli tender və qapalı tender metodlarına, habelə işlərin satınalınması ilə bağlı kotirovka sorğusu metoduna tətbiq olunur. Tətbiq olunmadığı halda silinir)* | Satınalma müqaviləsinin icrası üçün maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış prosedurları daxil edin]* |
| **3.2.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | ... | ... | ... | ... | |
| **3.3.** | **Texniki imkan** *(işlərin satınalınması ilə bağlı satınalmanın bütün metodlarına tətbiq olunur. Tətbiq olunmadığı halda silinir)* | Texniki imkanlarının və maddi-texniki bazasının olması - aşağıda göstərilən tələblərə cavab verməsi: **(cari satınalma predmetinin icrası üçün tələb olunan (a) texnikaların növləri, (b) xüsusiyyətləri və (c) minimal say tələblərini siyahı olaraq daxil edin)** | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 2)** və təsdiqedici sənədlər (nəqliyyat vasitəsinin, maşın mexanizminin qeydiyyat şəhadətnaməsi, icarə, lizinq müqaviləsi və s. ); |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət: ***Bütün üzvlər birlikdə*** [1] | Birgə fəaliyyət: ***Hər bir üzv ayrı-ayrılıqda*** | Birgə fəaliyyət: ***Bir üzv*** | |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | ... | ... | ... | ... | |
| **3.4.** | **İşçi qüvvəsi** *(işlərin və xidmətlərin satınalınması ilə bağlı satınalmanın bütün metodlarına tətbiq edilir. Tətbiq olunmadığı halda silinir)* | Müvafiq tələblərə cavab verən işçi qüvvəsinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: **(cari satınalma predmetinin icrası üçün tələb olunan əsas heyətin (a) vəzifələrini, (b) minimal say, (c) müvafiq akademik uyğunluq və (d) müvafiq sahədə minimal təcrübə tələblərini siyahı olaraq daxil edin)** | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 3)**, məlumat və təsdiqedici sənədlər |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | ... | ... | ... | ... | |
| **4.** | ***Digər tələblər*** | | | | | | |
| **4.1.** | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə* | | | | | | |

| **Münasiblik və uyğunluq meyarları** | | | **Uyğunluq tələbləri** | | | | **Tələb olunan sənəd** |
|---|---|---|---|---|---|---|---|
| **Sıra №-si** | **Mövzu** | **Tələblər** | **Fərdi** | **Birgə fəaliyyət** | | | |
| | | | | ***Bütün üzvlər birlikdə*** [1] | ***Hər bir üzv ayrı-ayrılıqda*** | ***Bir üzv*** | |
| | *meyarları və prosedurları varsa bura əlavə edilir]* | | | | | | |

# IV BÖLMƏ. SATINALMA FORMALARI

## FORMA 1. Təklif məktubu

Təklifin təqdim olunma tarixi: **(tarixi daxil edin)**

Müsabiqə nömrəsi: **(müsabiqə nömrəsini daxil edin)**

Kimə: **(Satınalan təşkilatın adını daxil edin)**

Təchizatçılar üçün təlimatın 8-ci hissəsinə müvafiq olaraq verilmiş əlavə və dəyişikliklər də daxil olmaqla (mövcud olduğu halda) şərtlər toplusu və onu təşkil edən sənədlər ilə tanış olaraq bildiririk ki, aşağıda satınalma predmetinin icrası üçün şərtlər toplusunun tələblərinə uyğun təklif təqdim edirik.

***(satınalma predmetini daxil edin)***

Biz təsdiq edirik ki, bizim birinci mərhələ üzrə təkliflərimizin nəzərdən keçirilməsi məqsədilə sizin müəyyən etdiyiniz tarixdə və yerdə keçiriləcək aydınlaşma görüşündə (görüşlərində) öz hesabımıza iştirak etməyə çalışacağıq və birinci mərhələ üzrə təklifimizə tərəfinizdən edilməsi tələb olunan düzəlişləri, əlavələri və silinmələri lazımi qaydada qeyd edəcəyik. Biz qəbul edirik ki, müvafiq qaydada təyin edilmiş aydınlaşma görüşündə (görüşlərində) iştirak etməyəciyimiz halda nəticələrə görə özümüz məsuliyyət daşıyırıq.

Biz sizin yazılı dəvətinizi aldıqdan sonra, ikinci mərhələ üzrə təklifimizi yeni şərtlər toplusu və “Birinci mərhələnin qiymətləndirilməsinə əsasən tələb olunan dəyişikliklər” adlı memorandumda qeyd edilmiş tələbləri nəzərə alaraq hazırlamağı və qiymət təklifi ilə birlikdə təqdim etməyi öhdəliyimizə götürürük.

Təchizatçılar üçün təlimatın 3-cü hissəsində qeyd edilmiş tələblərə cavab verdiyimiz və maraqların toqquşması hallarının olmadığını təsdiqləyirik.

Bizim üçün və ya bizim adımızdan hərəkət edən heç kimin heç bir formada saxtakarlıq və korrupsiya əməlləri törətməməsi üçün müvafiq tədbirləri gördüyümüzü təsdiqləyirik.

Təchizatçılar üçün təlimatın 12-ci hissəsinə uyğun olaraq bu məktub və onun əlavələrindən ibarət olan birinci mərhələ üzrə təklifimizə əməl etməyə razıyıq və bizim üçün məcburi xarakter daşıyır. Biz başa düşürük ki, sizə yazılı bildiriş verməklə, istənilən vaxt təklifimizi və ya ona daxil edilmiş hər hansı alternativ təklifimizi geri götürə bilərik.

Təchizatçının adı: (təchizatçının adını daxil edin)

Təchizatçının VÖENİ: **(təchizatçının VÖEN-ini daxil edin)**

Təklifi təchizatçı adından imzalamaq səlahiyyəti olan şəxsin adı və soyadı:**(adı və soyadı daxil edin)**

Təklifi imzalayan şəxsin vəzifəsi: **(tam vəzifəni qeyd edin)**

İmzalanma tarix: **(tarixi daxil edin)**

# FORMA 2. Texniki baza

Təchizatçı Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində sadalanan əsas avadanlıq üçün tələblərə cavab vermək qabiliyyətinə malik olduğunu aydın şəkildə nümayiş etdirmək üçün müvafiq məlumatı təqdim etməlidir.

| **Sıra №-si** | **Avadanlığın adı, istehsalçısı və modeli** | **İstehsal ili** | **Hazırkı yeri və məşğulluğu** | **Mülkiyyətçi** | **Mülkiyyətçinin adı, ünvanı, əlaqə məlumatları və icarə şərtləri** *(əgər şəxsi deyilsə)* |
|---|---|---|---|---|---|
| 1. | | | (yeri, istifadədə və ya boşda olması qeyd edilir) | (Şəxsi, icarə, lizinq və ya xüsusi istehsal) | (cari satınalma predmeti çərçivəsində texnikanın icarə, lizinq və ya istehsalına dair detallar qeyd edilir) |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |
| 5. | | | | | |

# FORMA 3. Təklif edilən əsas heyətin tərcümeyi-halı və bəyannaməsi

Təchizatçı <u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində sadalanan əsas işçi heyət tələblərinə cavab vermək qabiliyyətinə malik olduğunu aydın şəkildə nümayiş etdirmək üçün müvafiq məlumatı hər bir şəxs üçün ayrıca təqdim etməlidir. Bundan başqa, bütün vəzifələr üzrə cəlb ediləcək şəxslərin nəzərdə tutulan fəaliyyət müddətinə dair vaxt cədvəli detallı Qant diaqramı və ya bənzər digər cədvəl formasında təqdim edilməlidir.

<table>
<tr><td colspan="3">Təchizatçının adı: (təchizatçının adını daxil edin)</td></tr>
<tr><td colspan="3">Təklif edilən namizədin vəzifəsi: (<u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində nəzərdə tutulmuş vəzifəni daxil edin)</td></tr>
<tr><td>Məşğulluq dövrü:</td><td colspan="2">(bu vəzifə öhdəliyi üzrə cəlb ediləcək şəxsin işə başlama və işi bitirmə tarixlərini daxil edin)</td></tr>
<tr><td>İş müddəti:</td><td colspan="2">(bu vəzifə öhdəliyi üçün cəlb ediləcək şəxsin planlaşdırılan iş müddətini gün, həftə və ya ay olaraq daxil edin)</td></tr>
<tr><td rowspan="6">Heyət barədə məlumat<br>(dil, danışma, oxuma və yazma bacarıqlarının səviyyələri)</td><td>Adı və soyad:<br>(<u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində nəzərdə tutulmuş vəzifəyə uyğun hesab edilərək təklif edilən namizədin ad və soyadını daxil edin)</td><td>Doğum günü</td></tr>
<tr><td rowspan="2">Ünvan</td><td>E-poçt</td></tr>
<tr><td>Mobil nömrə</td></tr>
<tr><td colspan="2">Peşəkar sertifikatları</td></tr>
<tr><td colspan="2">Təhsili</td></tr>
<tr><td colspan="2">Dil biliyi:<br>(dil, danışma, oxuma və yazma bacarıqlarının səviyyələri)</td></tr>
<tr><td rowspan="5">İş yeri barədə məlumat</td><td colspan="2">İşəgötürənin adı</td></tr>
<tr><td colspan="2">İşəgötürənin ünvanı</td></tr>
<tr><td colspan="2">Əlaqəli şəxsi (menecer / kadrlar şöbəsinin əməkdaşı)</td></tr>
<tr><td>Telefon</td><td>E-poçt</td></tr>
<tr><td>Vəzifəsi</td><td>Hazırkı iş yerində çalışma müddəti</td></tr>
</table>

Peşəkar təcrübəni tərs xronoloji ardıcıllıqla ümumiləşdirin. Satınalma predmeti ilə əlaqəli xüsusi texniki və idarəetmə təcrübəsini göstərin.

| **İş yeri/layihə** | **Vəzifə** | **İş müddəti** | **Müvafiq təcrübə** |
|---|---|---|---|
| *(İşəgötürən və ya layihənin əsas detalları)* | *(bu işdə vəzifə və öhdəlikləri)* | *(bu vəzifədə işləmə müddəti)* | *(qeyd olunan təcrübənin cari vəzifə öhdəliklərinə uyğunluğunu təsvir edin)* |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**İltizam**

Mən imza etməklə təsdiqləyirəm ki, bu **FORMA 3**-də verilən məlumatlar mənim ixtisasımı və təcrübəmi düzgün təsvir edir.

Mən təsdiq edirəm ki, yuxarıda qeyd edilən məşğulluq dövrü və iş müddətində işləmək üçün öhdəlik götürürəm.

Mən başa düşürəm ki, bu Formada məlumatların yanlış verilməsi, gizlədilməsi və ya verilməməsi təklifin qiymətləndirilməsində nəzərə alınaraq mənim satınalmadan, müqavilə bağlandıqda isə müqavilənin icrasından uzaqlaşdırılmağıma səbəb ola bilər.

**Namizədin adı və soyadı:*(adı və soyadı daxil edin*)**

İmza: ____________________________________________________________

Tarix: **(tarixi daxil edin)**

**Təchizatçının səlahiyyətli nümayəndəsinin adı və soyadı: (adı və soyadı daxil edin)**

İmza: ____________________________________________________________

Tarix:**(tarixi daxil edin)**

# FORMA 4. Təchizatçı haqqında

| |
|---|
| Təchizatçının adı: **(təchizatçının adını daxil edin)** |
| Birgə fəaliyyət göstərdikdə hər bir üzvün adı: **(hər bir üzvün hüquqi adını qeyd edin)** |
| Təchizatçının qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Təchizatçının təsis ili: **(ili qeyd edin)** |
| Təchizatçının hüquqi və faktiki ünvanları: **(ünvanı qeyd edin)** |
| Təchizatçının səlahiyyəti nümayəndəsi haqqında:<br>• adı və soyadı:**(adı və soyadı daxil edin)**<br>• ünvanı: **(ünvanı qeyd edin)**<br>• əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 5. Birgə fəaliyyət haqqında

*(tətbiq olunursa hər bir birgə fəaliyyət göstərən üzvü üçün ayrı-ayrılıqda doldurulur)*

| |
|---|
| Birgə fəaliyyət göstərənin adı: (təchizatçının adını daxil edin) |
| Birgə fəaliyyət göstərən üzvünün adı: **(üzvün hüquqi adını qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin üzvün qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün təsis ili: **(ili qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün faktiki və hüquqi ünvanı: **(ünvanı qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin səlahiyyətli nümayəndəsi haqqında:<br>• Ad və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 6. Oxşar satınalma predmeti üzrə təcrübə

| **Sıra №-si** | **Başlanma və bitmə tarixi** | **Satınalan təşkilat və əlaqə vasitələri** *(ünvanı, e-poçtu və telefonu)* | **Müqavilənin predmeti** | **İcra olunmuş müqavilənin cari satınalma predmetinə bənzərliyinin təsviri** *(yeri, əsas komponentləri, miqdarları/ həcmləri və s.)* | **Müqavilənin məbləği** *(AZN ilə)* | **İcra vəziyyəti** *(davam edirsə tamamlanma faizi qeyd edilir)* | **Təchizatçının rolu** |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | (Təchizatçı, subpodratçı və ya birgə fəaliyyət üzvü) |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |
| 5. | | | | | | | |

## FORMA 7. Subpodratçılar haqqında məlumat

| Sıra №-si | Subpodratçının hüquqi adı və VÖEN-i | Əlaqə vasitəsi | Həyata keçirəcəyi fəaliyyətin təsviri | Müqavilə məbləğində payı (faizlə) |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |
| 5. | | | | |

# (B) SATINALMA PREDMETİNƏ DAİR TƏLƏBLƏR

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar (satınalma predmetinin adı, miqdarı, həcmi, təsviri, xüsusiyyəti, göndərilməsi (görülməsi və ya göstərilməsi) yeri, icra qrafiki və son tarixi, habelə satınalma müqaviləsinin əsas şərtlərinin qısa xülasəsi) daxil edilir]*

# (C) SATINALMA MÜQAVİLƏSİ

*[Qanunun 38.15-ci maddəsinə əsasən işlər üzrə satınalma müqaviləsinin nümunəvi formasi müvafiq qaydada doldurularaq əlavə edilir]*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 30 dekabr tarixli 503 nömrəli
Qərarı ilə **təsdiq edilmişdir.**

**5 nömrəli əlavə**

## (satınalma predmetini daxil edin)

---

*işlərinin*

QAPALI TENDER METODU

ilə satın alınması üçün

# ŞƏRTLƏR TOPLUSU

SATINALAN TƏŞKİLAT: **(satınalan təşkilatın adını daxil edin)**

ELAN TARİXİ: **(elan tarixini daxil edin)**

## MÜNDƏRİCAT


(A) SATINALMA PROSEDURLARI

**I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT** ........ 3

**A. Ümumi** ........ 3
**1. Satınalma haqqında** ........ 3
**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar** ........ 3
**3. Təchizatçıların münasibliyi** ........ 3
**4. Malların və əlaqədar xidmətlərin münasibliyi** ........ 5
**B. Şərtlər toplusunun məzmunu** ........ 6
**5. Şərtlər toplusunun tamlığı** ........ 6
**6. Şərtlər toplusuna dair izahat, sahəyə baxış və təklifqabağı görüş** ........ 6
**7. Şərtlər toplusunda dəyişikliklər edilməsi** ........ 7
**C. Təkliflərin hazırlanması** ........ 8
**8. Satınalma xərcləri** ........ 8
**9. Təklifin tərtib olunmasının dili** ........ 8
**10. Təklifə daxil olan sənədlər** ........ 8
**11. Təklif məktubu və cədvəllər** ........ 9
**12. Alternativ təklif** ........ 9
**13. Satınalma predmetinin bölünməsi** ........ 10
**14. Təklifin qiyməti** ........ 10
**15. Təklifin və ödənişin məzənnəsi** ........ 10
**16. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)** ........ 11
**17. Uyğunluq sənədləri** ........ 11
**18. Təklifin qüvvədə olma müddəti** ........ 11
**19. Təklifin təminatı** ........ 11
**20. Təklifin formatı və imzalanması** ........ 13
**D. Təkliflərin təqdim olunması və açılması** ........ 14
**21. Təkliflərin möhürlənməsi və işarələnməsi** ........ 14
**22. Təkliflərin təqdim edilməsinin son müddəti** ........ 14
**23. Gecikmiş təkliflər** ........ 14
**24. Təkliflərin geri götürülməsi, əvəzlənməsi və ya dəyişdirilməsi** ........ 14
**25. Təkliflərin açılması** ........ 15
**E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** ........ 16
**26. Məxfilik (konfidensiallıq)** ........ 16
**27. Təkliflərə dair izahat** ........ 17
**28. Formal tələblərə uyğunluğun müəyyən edilməsi** ........ 17
**29. Əhəmiyyətsiz uyğunsuzluqlar** ........ 18
**30. Hesab səhvlərinin düzəldilməsi** ........ 19
**31. Vahid valyutaya konvertasiya** ........ 19
**32. Satınalma güzəşti** ........ 19
**33. Subpodratçılar** ........ 19
**34. Təkliflərin qiymətləndirilməsi** ........ 20
**35. Təkliflərin müqayisəsi** ........ 20
**36. Həddindən artıq ucuz təkliflər** ........ 20
**37. Təchizatçının uyğunluq göstəriciləri** ........ 21
**38. Qalib təklifin seçilməsi** ........ 21
**39. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ** ........ 22
**40. Satınalmanın nəticələri barədə bildiriş** ........ 22
**41. Gözləmə müddəti** ........ 22
**F. Qalibin seçilməsi** ........ 23

42. Qalibin seçilməsi proseduru ........ 23
43. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi ........ 23
44. Müqavilənin imzalanması ........ 23
45. Bağlanılmış müqavilə barədə məlumatın verilməsi ........ 23
46. İcra təminatı ........ 23
G. Şikayət verilməsi ........ 24
47. Şikayət vermək hüququ ........ 24
48. Satınalan təşkilata şikayət ........ 24
49. AİBNDX-yə şikayət ........ 25
50. Satınalmanın dayandırılması ........ 26
51. İnzibati qaydada şikayət ........ 26
H. Müqavilə ........ 26
52. Müqavilə şərtləri ........ 26
II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ ........ 28
III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ-UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI ........ 34
IV BÖLMƏ. SATINALMA FORMALARI ........ 47
FORMA 1. Təklif məktubu ........ 47
FORMA 2. İş həcmləri cədvəli ........ 49
FORMA 3. Texniki baza ........ 52
FORMA 4. Təklif edilən əsas heyətin tərcümeyi-halı və bəyannaməsi ........ 53
FORMA 5. Təchizatçı haqqında ........ 55
FORMA 6. Birgə fəaliyyət haqqında ........ 56
FORMA 7. Oxşar işlər üzrə təcrübə ........ 57
FORMA 8. Subpodratçılar haqqında məlumat ........ 58
FORMA 9. Təklifin təminatı ........ 59
(B) İŞLƏRƏ DAİR TƏLƏBLƏR
(C) SATINALMA MÜQAVİLƏSİ

# I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT

## A. Ümumi

**1. Satınalma haqqında**

1.1. **Satınalma məlumat vərəqində (1)** qeyd edilən satınalan təşkilat tərəfindən *(B) İşlərə dair tələblər* sənədində nəzərdə tutulmuş İşlərin (bundan sonra – İşlər) maliyyə vəsaiti hesabına dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun görülməsi üçün bu şərtlər toplusu hazırlanmışdır. Satınalma predmeti, satınalan təşkilatın adı, VÖEN-i və satınalan təşkilatın əlaqələndirici şəxsi barədə məlumatlar **Satınalma məlumat vərəqində (1)** qeyd edilir.

1.2. Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunundan (bundan sonra – Qanun) və digər normativ hüquqi aktlardan ibarətdir.

1.3. Təkliflərin qiymətləndirilməsi zamanı aşağıdakı anlayışlar tətbiq edilir:

(a) "Kənara çıxma" şərtlər toplusunda göstərilən tələblərdən yayınmadır;

(b) "Qeyd-şərt" məhdudlaşdırıcı şərtlərin müəyyən edilməsi və ya şərtlər toplusunda göstərilən tələblərin tam qəbul edilməsindən boyun qaçırmadır;

(c) "Çatışmazlıq" şərtlər toplusunda tələb olunan məlumat və ya sənədlərin bir hissəsinin və ya hamısının təqdim edilməməsidir.

1.4. Bu şərtlər toplusunda istifadə olunan digər anlayışlar Qanun və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar**

2.1. Satınalan təşkilat "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa riayət olunmasını tələb edir.

**3. Təchizatçıların münasibliyi**

3.1. **Satınalma məlumat vərəqində (2)** göstərilən Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinə məhdudiyyətlər qoyulduğu

hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident təchizatçı (fiziki şəxs, hüquqi şəxs, o cümlədən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün hüquqi və (və ya) fiziki şəxslərin müqavilə əsasında yaratdığı müvəqqəti və ya daimi birliyi (bundan sonra – birgə fəaliyyət) daxil olmaqla) Azərbaycan Respublikasında keçirilən satınalmalarda iştirak edə bilər. Təchizatçı nizamnaməsi (və ya buna bərabər tutulan sənədləri) və ya qeydiyyat sənədləri ilə müəyyən olunduğu ölkənin qanunlarının müddəalarına uyğun olaraq yaradılmış, təsis edilmiş və ya qeydiyyatdan keçmiş və fəaliyyət göstərdiyi təqdirdə həmin ölkəyə mənsub hesab edilir. Müqavilənin hər hansı hissəsinin icrasına cəlb edilməsi təklif edilən subpodratçıların ölkə mənsubiyyəti bu meyar əsasında müəyyən edilir.

3.2. Təchizatçının iştirak etdiyi satınalmada Qanunun 6.1-ci maddəsinə əsasən maraqlar toqquşması olmamalıdır. *(Qanunun 6.1-ci maddəsindən çıxarış:*

*Təchizatçıların aşağıdakı hallarda (satınalma predmetinin yalnız hər hansı konkret təchizatçıda olduğu, yaxud satınalma predmetinin əvəzedicisi və alternativi olmadığı hallar istisna olmaqla) satınalmalarda iştirakına yol verilmir, bu hallar müəyyən olduqda satınalmadan kənarlaşdırılır:*

- *təchizatçının satınalan təşkilatdan və ya satınalan təşkilatla təchizatçının eyni qurumdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olduqda;*
- *təchizatçılardan biri digərinin benefisiar mülkiyyətçisi olduqda, yaxud təchizatçıların azı ikisi eyni benefisiar mülkiyyətçinin nəzarətində olduqda;*
- *təchizatçılardan biri digərinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı olduqda, yaxud təchizatçıların azı ikisinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı eyni şəxs olduqda;*
- *satınalmada təchizatçı qismində çıxış edən fiziki şəxs və ya hüquqi şəxsin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsinə əsasən aidiyyəti şəxsi satınalan təşkilatın rəhbəri ilə qohumluq (ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürənlər, övladlığa götürülmüş şəxslər, babalar, nənələr, nəvələr, doğma (ögey) bacılar və qardaşlar, bacı və qardaşların övladları, bacıların ərləri, qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, ər-arvadların valideynləri, bacıları və qardaşları) münasibətində olduqda).*

3.3. Birgə fəaliyyətin üzvü olaraq və ya fərdi şəkildə alternativ təkliflərə icazə verilən hallar istisna olmaqla təchizatçılar eyni satınalma üzrə birdən artıq təklif təqdim etməməli və ya birdən artıq təklifdə iştirak etməməli, həmçinin həmin satınalmada iştirak edən digər təchizatçının subpodratçısı olmamalıdır. Bu hal aşkarlandıqda həmin təchizatçıların təqdim etdikləri və (və ya) iştirak etdikləri bütün təkliflər kənarlaşdırılır.

3.4. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar bu məqsədlə tərəflərin hər birinin imzaladığı müqaviləyə və ya müqavilə layihəsi əlavə edilməklə müqavilə bağlamaq barədə tərəflərin hər birinin imzaladığı niyyət məktubuna malik olmalıdır. Bu halda birgə fəaliyyət göstərmək istəyən tərəflərin hər birinin müqavilənin müqavilə şərtlərinə uyğun icrası üçün birgə və fərdi məsuliyyət daşıması və tərəflər arasındakı iş öhdəliklərinin bölgüsü barədə müddəalar birgə fəaliyyət müqaviləsinə və ya müqavilə layihəsinə daxil edilməlidir. Birgə fəaliyyət onun adından və tərəfləri üçün satınalmada iştirak və müqavilə bağlandıqda isə müqavilənin icrasını təmin etmək məqsədilə müvafiq səlahiyyətə malik nümayəndə təyin edir. **Satınalma məlumat vərəqində (3)** göstərilmədiyi təqdirdə, birgə fəaliyyətin üzvlərinin sayına məhdudiyyət qoyulmur.

3.5. Qanunun 16-cı maddəsi ilə tənzimlənən qaydada etibarsız təchizatçıların reyestrinə daxil edilmiş təchizatçıların müəyyən olunmuş müddətdə satınalmalarda iştirakına yol verilmir. Etibarsız təchizatçıların reyestri etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalında (bundan sonra – Portal) yerləşdirilir.

3.6. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru keçirildikdə, yalnız uyğunluq göstəricilərinə cavab verən təchizatçılar satınalmada iştirak edə bilərlər.

**4. Malların və əlaqədar xidmətlərin münasibliyi**

4.1. Müqavilə çərçivəsində Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçılar və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçılar tərəfindən malların (materialların, avadanlıqların və s.) təchiz edilməsinə və xidmətlərin göstərilməsinə yol verilmir. Satınalan təşkilatın tələbi ilə təchizatçılardan malların və xidmətlərin mənşəyinə dair sübut təqdim etmələri tələb oluna bilər.

4.2. Malların mənşə ölkəsi qanunvericiliklə müəyyən edilmiş qaydada təyin edilir.

## B. Şərtlər toplusunun məzmunu

**5. Şərtlər toplusunun tamlığı**

5.1. Şərtlər toplusu aşağıda verilmiş bütün bəndləri əhatə edən və təchizatçılar üçün təlimatın (bundan sonra – Təlimat) 6-cı hissəsinə uyğun olaraq ona edilən dəyişikliklər və əlavələrlə birlikdə nəzərə alınmalı olan aşağıdakı bölmələrdən ibarətdir:

- A. SATINALMA PROSEDURLARI
  - I Bölmə. Təchizatçılar üçün təlimat
  - II Bölmə. Satınalma məlumat vərəqi
  - III Bölmə. Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları
  - IV Bölmə. Satınalma formaları
- B. İŞLƏRƏ DAİR TƏLƏBLƏR
- C. SATINALMA MÜQAVİLƏSİ

5.2. Təchizatçıdan şərtlər toplusunda verilmiş bütün təlimat, forma, tələb, texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri) ilə tanış olması və şərtlər toplusunda tələb edilən bütün məlumat və sənədləri təqdim etməsi tələb olunur.

5.3. Satınalan təşkilatdan birbaşa əldə edilmədiyi təqdirdə satınalan təşkilat şərtlər toplusunun tamlığı, şərtlər toplusunda aydın olmayan hallarla bağlı sorğularına, əvvəlki görüşlərin (əgər olubsa) nəticələri barədə protokollara və (və ya) Təlimatın 6-cı hissəsinə uyğun olaraq şərtlər toplusuna edilmiş dəyişikliklərə görə məsuliyyət daşımır. Hər hansı ziddiyyət olduqda, satınalan təşkilatdan birbaşa əldə olunan sənədlər üstünlük təşkil edir.

**6. Şərtlər toplusuna dair izahat, sahəyə baxış və təklifqabağı görüş**

6.1. Təchizatçı şərtlər toplusunda aydın olmayan hallarla bağlı təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 5 (beş) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (4)** qeyd olunan tarix və vaxt) satınalan təşkilata **Satınalma məlumat vərəqində (5)** qeyd olunan əlaqə vasitələri ilə sorğu ünvanlaya bilər. Satınalma komissiyası sorğunu aldıqdan sonra 2 (iki) iş günü ərzində sorğuya cavab verir. Sorğu və ona verilən cavab sorğu verənin gizliliyi təmin edilməklə həmin gün dəvət göndərilmiş bütün təchizatçılara təqdim edilir.

6.2. Sorğu və ona verilən cavab şərtlər toplusuna əlavə edilərək onun ayrılmaz tərkib hissəsi hesab edilir.

6.3. **Satınalma məlumat vərəqində (6)** nəzərdə tutulduğu

halda təchizatçının təyin edilmiş nümayəndəsi təklif təqdim etməzdən əvvəl görüşdə və (ya) işlərin görüləcəyi əraziyə baxış keçirməyə dəvət olunur. Görüşün məqsədi yaranmış texniki suallara aydınlıq gətirmək və həmin mərhələdə qaldırıla biləcək hər hansı sualı cavablandırmaq olacaq. Təchizatçılardan əlavə sorğularını yalnız **Satınalma məlumat vərəqində (5)** qeyd olunan əlaqə vasitələri ilə təqdim etməsi tələb olunur. Hər hansı digər vasitə ilə verilmiş sorğular satınalan təşkilat tərəfindən nəzərə alınmır.

6.4. Təchizatçıya işlərin aparılacağı əraziyə və onun ətrafına baxış keçirmək və araşdırmaq, habelə təklifin hazırlanması və işlərin görülməsi zamanı müqavilə bağlamaq üçün lazım ola biləcək bütün məlumatları əldə etmək tövsiyə olunur. Sahəyə baxış üçün səfər xərcləri təchizatçı tərəfindən ödənilir. Satınalan təşkilat satınalma iştirakçısına iş sahəsi və onu əhatə edən ərazilərə baxış keçirmək və yoxlamaq, təklifin hazırlanması və işlərin həyata keçirilməsi üçün zəruri olacaq bütün məlumatları əldə etmək üçün əraziyə giriş icazəsi verir.

6.5. Satınalan təşkilat təchizatçıya və (və ya) onun etibarnamə təqdim etdiyi hər hansı əməkdaşına sahəyə baxış məqsədi ilə tikinti obyektinə və ərazisinə daxil olmaq üçün icazə verir. Sahəyə baxış zamanı təchizatçının nümayəndəsi zəruri fərdi mühafizə vasitələrini özü təmin etməlidir. Sahəyə baxış zamanı baş verə biləcək hər hansı xəsarət və ya ölüm, əmlak itkisi və ya zərəri, habelə digər bununla bağlı itki və ziyan ilə bağlı yaranmış xərclərə görə satınalan təşkilat heç bir məsuliyyət daşımır.

6.6. Satınalan təşkilatla təchizatçılar arasında keçirilən görüş zamanı iştirak haqqını ödəmiş bütün təchizatçılar üçün bərabər iştirak imkanları yaradılır və görüş videomüşahidə vasitələrinin nəzarəti altında aparılaraq nəticələri protokolla rəsmiləşdirilir. Protokol nəzərə alınmaq üçün dəvət göndərilmiş bütün təchizatçılara həmin gün təqdim edilir. Satınalan təşkilatla təchizatçılar arasında qeyri-rəsmi danışıqlar aparılması və görüşlərin keçirilməsi qadağandır.

**7. Şərtlər toplusunda dəyişikliklər edilməsi**

7.1. Satınalma komissiyası təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (7)** qeyd olunan tarix və vaxta qədər) şərtlər toplusuna hər hansı təchizatçının sorğusu əsasında və ya texniki səhvlər və ya çatışmazlıqlar aşkar edildikdə öz təşəbbüsü ilə dəyişikliklər (satınalma predmetinin

dəyişdirilməsi istisna olmaqla) edə bilər.

7.2. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə şərtlər toplusunda hər hansı dəyişiklik edilməsinə, habelə bununla bağlı hər hansı sorğuya, təklifə və icazəyə yol verilmir.

7.3. Satınalma komissiyası şərtlər toplusuna dəyişikliklər etdiyi halda təkliflərin təqdim edilməsi müddətini ən azı 5 (beş) iş gününədək uzadır. Təchizatçının əsaslandırılmış müraciəti əsasında təkliflərin təqdim edilməsi müddəti 10 (on) iş gününədək uzadıla bilər.

7.4. Şərtlər toplusuna edilmiş dəyişiklik onun ayrılmaz tərkib hissəsi hesab edilir. Dəyişikliklər bütün dəvət göndərilmiş təchizatçılara təqdim edilir və bütün təchizatçılar üçün məcburi qüvvəyə malikdir.

## C. Təkliflərin hazırlanması

**8. Satınalma xərcləri**

8.1. Təchizatçı öz təklifini hazırlamaq və təqdim etməklə bağlı bütün xərcləri özü çəkir və satınalan təşkilat satınalma prosesinin nəticəsindən asılı olmayaraq, həmin xərclərə görə məsuliyyət və ya öhdəlik daşımır.

**9. Təklifin tərtib olunmasının dili**

9.1. Təklif və həmçinin təchizatçı ilə satınalan təşkilat arasında bütün yazışmalar və sənəd mübadiləsi Azərbaycan dilində aparılır. Satınalma komissiyasının qərarı ilə satınalmalara dair sənədlər **Satınalma məlumat vərəqində (8)** nəzərdə tutulmuş xarici dillərdən birinə (bir neçəsinə) tərcümə oluna bilər. Bu halda, satınalmalara dair sənədlər arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

9.2. Təklifin tərkibinə daxil olan müşayiətedici sənədlər və çap materialları tərcüməsi ilə verilmək şərtilə, başqa dildə ola bilər. Təchizatçının xarici dildə təqdim etdiyi sənədlərin Azərbaycan dilinə notarial qaydasında təsdiqlənmiş tərcüməsi təqdim olunmalıdır. Təklif ilə tərcüməsi arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

**10. Təklifə daxil olan sənədlər**

10.1. Təchizatçı təqdim etdiyi təklifə aşağıdakıları əlavə edir:

(a) Təlimatın 11-ci hissəsinin tələbləri nəzərə alınmaqla təklif məktubu;

(b) Təlimatın 11-ci və 14-cü hissələrinin tələbləri əsasında qiymətləndirilmiş iş həcmləri cədvəli daxil olmaqla digər cədvəllər;

(c) Təlimatın 19.1-ci bəndinin tələbləri nəzərə alınmaqla təklifin təminatı;

(d) icazə verildiyi təqdirdə Təlimatın 12-ci hissəsinin tələbləri nəzərə alınmaqla alternativ təklif;

(e) səlahiyyət: Təlimatın 20.3-cü və 21.4-cü bəndlərinə uyğun olaraq təklifi imzalayan şəxsin səlahiyyətli olduğunun yazılı təsdiqi;

(f) uyğunluq: Təlimatın 17-ci hissəsinin tələbləri nəzərə alınmaqla uyğunluq sənədləri, habelə şərtlər toplusunda nəzərdə tutulduğu halda, subpodratçının müəyyən olunmuş tələblərə uyğun olması barədə sənədlər;

(g) münasiblik: Təlimatın 16-cı hissəsinin tələbləri nəzərə alınmaqla texniki təklif;

(h) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində tələb olunan digər sənədlər.

10.2. Təlimatın 10.1-ci bəndinin tələblərinə əlavə olaraq birgə fəaliyyət tərəfindən təqdim edilən təklifə bütün tərəflərin imzaladığı birgə fəaliyyət müqaviləsinin surəti daxil edilməlidir. Alternativ olaraq satınalmada qalib olacağı təqdirdə birgə fəaliyyət müqaviləsinin icrasına dair niyyət məktubunu bütün tərəflər imzalamalı və birgə fəaliyyət müqavilə layihəsi ilə birlikdə təqdim edilməlidirlər.

**11. Təklif məktubu və cədvəllər**

11.1. Təklif məktubu və iş həcmləri cədvəli Satınalma formaları (IV) bölməsində verilmiş müvafiq formalardan istifadə edilməklə hazırlanmalıdır. Formalar mətnə heç bir dəyişiklik edilmədən doldurulmalıdır və Təlimatın 20.3-cü bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla, heç bir əvəzedici qəbul edilə bilməz. Bütün boş xanalara tələb olunan məlumatlar yazılmalıdır.

**12. Alternativ təklif**

12.1. **Satınalma məlumat vərəqində (9)** başqa hal nəzərdə tutulmayıbsa, alternativ təkliflər nəzərə alınmayacaq.

12.2. Alternativ tamamlama müddətləri açıq şəkildə istənildikdə, bu barədə bəyanat **Satınalma məlumat vərəqinə (10)** daxil edilir və müxtəlif alternativ tamamlama müddətlərinin qiymətləndirilməsi üsulu Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində təsvir edilir.

12.3. Təlimatın 12.4-cü bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla, təklif təqdim etmək istəyən təchizatçılar ilk növbədə şərtlər toplusunun tələblərinə uyğun qiymət verməli və əlavə olaraq alternativ texniki təklifin satınalma komissiyası tərəfindən tam qiymətləndirilə bilinməsi üçün lazım olan bütün məlumatları, o cümlədən planlar, çertyojlar (cizgilər) və eskizlər), dizayn hesablamaları, texniki və keyfiyyət xüsusiyyətləri, qiymətlərin bölgüsü, təklif olunan tikinti metodologiyası və digər müvafiq

detalları təqdim etməlidirlər. Satınalma komissiyası yalnız şərtlər toplusunun tələblərinə cavab verən ən aşağı qiymət təklifi və ya ən səmərəli təklif təqdim edən təchizatçının alternativ texniki təklif və ya təklifllərinə baxır.

12.4. **Satınalma məlumat vərəqində (11)** qeyd edildiyi təqdirdə təchizatçılar işlərin *(B) İşlərə dair tələblər* sənədində göstərilən müəyyən edilmiş hissələri üçün alternativ texniki həllər təqdim etməyə icazə verilir və belə hissələr **Satınalma məlumat vərəqində (11)** qeyd edilərək, onların qiymətləndirilməsi üsulu şərtlər toplusuna daxil edilir.

**13. Satınalma predmetinin bölünməsi**

13.1. **Satınalma məlumat vərəqində (12)** nəzərdə tutulduğu təqdirdə heç bir təklif satınalma predmetinin tam həcmdə icrasını təmin etmədikdə, bu zaman bir neçə təchizatçının hissəvi təkliflərinin cəmi bir təchizatçının təklifindən daha səmərəli və ya qiyməti daha aşağı olarsa, habelə satınalma predmetinin daha yüksək həcmdə icrasını təmin edərsə, satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünür.

13.2. Təlimatın 13.1-ci bəndində bölünməsi nəzərdə tutulan hissələrin ətraflı təsviri **Satınalma məlumat vərəqində (12)** göstərilir.

**14. Təklifin qiyməti**

14.1. Təklif məktubunda və iş həcmləri cədvəlində göstərilən qiymətlər bu hissədə göstərilən tələblərə cavab verməlidir.

14.2. Təchizatçı iş həcmləri cədvəlində göstərilən bütün bəndlərə qiymət daxil etməlidir. Təchizatçı tərəfindən qiymət daxil edilməyən və həmin hissələrin əlavə ödənişsiz icra edilməsi ilə bağlı qeyd olan bəndlərin iş həcmləri cədvəlinə daxil edilən digər qiymətlərlə əhatə edildiyi qəbul ediləcəkdir. Hər hansı qeyd olmadan qiymət daxil edilməyən bəndləri olan təklif natamam hesab ediləcəkdir.

14.3. Yekun qiymət təklif məktubunda göstərilməlidir.

14.4. **Satınalma məlumat vərəqində (13)** başqa hal nəzərdə tutulmadığı təqdirdə təchizatçı tərəfindən müqavilə çərçivəsində və ya hər hansı digər səbəbə görə ödənilməli olan bütün rüsumlar, vergilər və digər tutulmalar təchizatçının təklif etdiyi qiymətdə nəzərə alınmalıdır.

14.5. Qiymət endirimlərinə icazə verilmir.

**15. Təklifin və ödənişin məzənnəsi**

15.1. Təchizatçılar (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təkliflərində qiymətləri Azərbaycan Respublikasının pul vahidi – manatla göstərməlidirlər.

15.2. Qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri sərbəst dönərli xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim

edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə əsas götürülməlidir.

**16. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)**

16.1. Təchizatçı *(B) İşlərə dair tələblər* sənədində qeyd olunan tələblərə cavab verdiyini göstərmək və təklifinin yetərliliyini nümayiş etdirmək üçün icra metodologiyası, iş qrafiki və Satınalma formaları (IV) bölməsində nəzərdə tutulmuş hər hansı digər məlumat daxil olmaqla kifayət qədər təfərrüatlı texniki təklif təqdim etməlidir.

16.2. Təklif edilən hər bir avadanlığın, texnikanın, məhsulun və digər malların özünəməxsus texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri), o cümlədən konkret əmtəə nişanı və adı, modeli, istehsal mənbəyi (mənşə ölkəsi) və istehsalçısına aid məlumatlar və istehsalçının texniki məlumat vərəqi (hansı varsa) təklifə əlavə edilməlidir.

**17. Uyğunluq sənədləri**

17.1. Təchizatçıların uyğunluq göstəriciləri təchizatçılara dair ümumi və xüsusi tələblərdən ibarətdir.

17.2. Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinin tələblərinə uyğun olaraq təchizatçılar müqaviləni icra etmək imkanlarını göstərmək üçün Satınalma formaları (IV) bölməsinə daxil edilən müvafiq məlumat vərəqələrini təmin etməli, habelə Qanunun 23-cü maddəsinə əsasən təchizatçıların uyğunluq göstəricilərini təsdiq edən sənədlər (bundan sonra – uyğunluq sənədləri) təqdim etməlidir.

**18. Təklifin qüvvədə olma müddəti**

18.1. Təkliflər **Satınalma məlumat vərəqin**də **(14)** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 7-ci hissəsinə uyğun uzadılmış tarixə qədər qüvvədə olmalıdır. **Satınalma məlumat vərəqində** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 7-ci hissəsinə uyğun uzadılmış tarixə qədər qüvvədə olmayan təkliflər formal tələblərə uyğun gəlməyən təklif kimi kənarlaşdırılır.

18.2. Satınalma komissiyası ən çoxu təkliflərin ilkin qüvvədə olduğu müddət qədər təkliflərin qüvvədə olma müddətinin uzadılmasını təchizatçılardan tələb edə bilər. Təkliflərin qüvvədə olma müddətinin uzadılması tələbi ilə razılaşan təchizatçılar təklifin təminatının qüvvədə olma müddətinin təklifin qüvvədə olma müddətindən azı 30 (otuz) iş günü çox olmaqla uzadılmasını və ya uzadılmış müddət üçün yeni təminatın verilməsini təmin edirlər. Təchizatçı təklifin təminatına olan hüququnu itirmədən satınalma komissiyasının belə tələbindən imtina edə bilər.

**19. Təklifin təminatı**

19.1. Təchizatçı (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təklifin tərkib hissəsi olaraq **Satınalma məlumat**

**vərəqində (15)** qeyd edilmiş məbləğdə Azərbaycan manatı ilə, qeyri-rezident hüquqi və fiziki şəxslər isə Azərbaycan manatı ilə və ya elanın verilməsi (dəvətin göndərilməsi) tarixinə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnəyə uyğun olaraq sərbəst dönərli valyuta ilə təkliflə birlikdə təklifin təminatını təqdim etməlidir, əks təqdirdə təklif qəbul edilmir.

19.2. Təklifin təminatı qarant tərəfindən qarantiya, sığorta təminatı, akkreditiv, depozitlər və digər maliyyə aktivləri şəklində verilir. Satınalma komissiyası qaranta və ya ehtimal olunan qiyməti 5 (beş) milyon manatdan yuxarı olan satınalmalara münasibətdə hər hansı qarantın verdiyi təminatı təsdiqləyən tərəf (əgər tələb olunursa), habelə digər şərtlərə dair hər hansı tələbini, habelə təklif üçün tələb olunan təminatın növünü **Satınalma məlumat vərəqində (16)** göstərir. Təklifin təminatı Satınalma formaları (IV) bölməsinə daxil edilən "Təklifin təminatının nümunəsi" və ya təklif təqdim edilməzdən əvvəl satınalma komissiyası ilə razılaşdırılmış digər əhəmiyyətli dərəcədə oxşar nümunədən istifadə olunaraq təqdim edilməlidir. Təklifin təminatının qüvvədə olma müddəti təklifin ilkin və ya dəyişdirilibsə Təlimatın 7-ci hissəsinə uyğun uzadılmış qüvvədə olma müddətindən azı 30 (otuz) iş günü çox olmalıdır.

19.3. Təchizatçının təklifinin təminatı aşağıdakı hallarda dərhal geri qaytarılır:

(a) satınalmada ilk üç yerdən birini tutmayan təchizatçılara – satınalmanın nəticələrinə dair yekun protokol təsdiq olunduqda;

(b) satınalmada ikinci və üçüncü yerləri tutan təchizatçılara – qalib təchizatçı ilə bağlanılan satınalma müqaviləsi qüvvəyə mindikdə;

(c) qalib təchizatçı istisna olmaqla, digər təchizatçılara – təkliflərin qüvvədə olma müddəti bitdikdə;

(d) bütün təchizatçılara – təkliflərin təqdim edilməsinin son müddəti bitməmişdən əvvəl təklif geri götürüldükdə və ya satınalma ləğv edildikdə;

(e) təkliflərin qüvvədə olma müddətinin uzadılması təşəbbüsü ilə razı olmayan təchizatçılara – təkliflərin qüvvədə olma müddəti bitdikdə;

(f) qalib təchizatçıya – satınalma müqaviləsi imzalandıqda və icra təminatı təqdim edildikdə.

19.4. Aşağıdakı hallarda təchizatçının təklifinin təminatı geri qaytarılmır:

(a) təchizatçı təkliflərin təqdim edilməsinin son müddəti bitdikdən sonra və ya təklifin qüvvədə olma müddəti bitənədək öz təklifini geri götürdükdə və ya dəyişdirdikdə;

(b) təklifin akseptinə dair bildirişi almış qalib təchizatçı müəyyən olunmuş müddətdə satınalma müqaviləsini imzalamadıqda və (və ya) icra təminatını təqdim etmədikdə;

(c) təklifin akseptinə dair bildirişi almış qalib təchizatçı satınalma müqaviləsi imzalananadək şərtlər toplusunda göstərilmiş hər hansı digər şərtləri yerinə yetirmədikdə.

19.5. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar tərəfindən təqdim edilən təklifin təminatında bütün tərəflərin hüquqi adları göstərilməlidir.

**20. Təklifin formatı və imzalanması**

20.1. Təchizatçı Təlimatın 10-cu hissəsində göstərildiyi kimi təklifi təşkil edən sənədlərin bir əslini hazırlamalı və onu üstündə aydın şəkildə "ƏSLİ" qeyd etməlidir. Alternativ təkliflərə Təlimatın 12-ci hissəsinə uyğun olaraq icazə verilirsə, aydın şəkildə "ALTERNATİV" qeyd edilməlidir. Bundan əlavə təchizatçı təklifinin **Satınalma məlumat vərəqində (17)** göstərilən sayda nüsxəsini təqdim etməli və onlara aydın şəkildə "NÜSXƏ" qeyd etməlidir. Əsli ilə nüsxə arasında hər hansı uyğunsuzluq olduqda, paketlərin əsli üstünlük verilir.

20.2. Təchizatçılar təkliflərində biznesləri üçün məxfi olan bütün məlumatları "MƏXFİ" kimi qeyd etməlidirlər. Buraya mülkiyyət məlumatları, ticarət sirləri və ya kommersiya/ maliyyə baxımından həssas məlumatlar daxil ola bilər.

20.3. Təklifin əsli və bütün nüsxələri silinməz mürəkkəblə çap olunmalı və ya yazılmalı və təchizatçı adından imzalamaq səlahiyyətinə malik olan şəxs tərəfindən imzalanmalıdır. Təklif təchizatçının rəhbəri və ya digər vəzifəli şəxsi tərəfindən imzalanmalıdır. Təklifi təchizatçının rəhbəri imzaladıqda həmin təchizatçının təsis və hüquqi və ya fiziki şəxsin qeydiyyat sənədlərini təqdim etməlidir. Təklifi imzalayan digər vəzifəli şəxs olduğu təqdirdə isə həmin vəzifəli şəxsə imza səlahiyyətlərinin verilməsinə dair həmin təchizatçının rəhbəri tərəfindən səlahiyyəti təsdiq edən sənəd – etibarnamə təqdim edilməlidir.

20.4. Təchizatçı birgə fəaliyyət göstərdiyi halda, təklif birgə fəaliyyət göstərən təchizatçıların səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmalıdır. Həmin nümayəndənin imza səlahiyyətinə malik olması 20.3-cü bəndinin tələbləri

nəzərə alınmaqla birgə fəaliyyət göstərən təchizatçıların rəhbərləri tərəfindən imzalanmış etibarnamə ilə təsdiq edilir.

20.5. İstənilən sətirlərarası xətlər, silmələr və ya təkrar yazılar yalnız təklifi imzalayan şəxs tərəfindən imzalandıqda və ya paraflandıqda etibarlı hesab olunur.

20.6. Bütün rəqəmlər həm də sözlə yazılır. Rəqəm və söz arasında fərq olarsa, söz ilə ifadə olunan məbləğ əsas götürülür.

## D. Təkliflərin təqdim olunması və açılması

**21. Təkliflərin möhürlənməsi və işarələnməsi**

21.1. Təchizatçı təklifini tək, möhürlənmiş zərfdə təqdim etməlidir. Təchizatçı tək zərfdə aşağıdakıları ayrıca möhürlənmiş zərfləri yerləşdirir:

(a) Təlimatın 10-cu hissəsində təsvir olunduğu kimi, təklifi təşkil edən bütün sənədlər “ƏSLİ” qeyd olunmuş zərfdə;

(b) Təklifin bütün tələb olunan nüsxələri “NÜSXƏLƏRİ” yazılmış zərfdə;

(c) Təlimatın 14-cü hissəsinə uyğun olaraq alternativ təkliflərə icazə verilirsə və müvafiq olduqda:

i. “ƏSLİ – ALTERNATİV TƏKLİF” qeyd olunmuş zərfdə alternativ təklif;

ii. “NÜSXƏLƏR - ALTERNATİV TƏKLİF” qeyd olunmuş zərfdə alternativ təklifin bütün tələb olunan nüsxələri.

21.2. Daxili və xarici zərflərdə:

(a) Təchizatçını adı və ünvanı göstərilməli;

(b) Təlimatın 22.1-ci bəndinə uyğun olaraq satınalma komissiyasına ünvanlanmalı;

(c) təkliflərin açılışı vaxtından və tarixindən əvvəl təkliflərin açılmamalı olması barədə xəbərdarlıq olmalıdır.

21.3. Zərflər tələb olunan qaydada möhürlənməyib işarələnmədiyi təqdirdə satınalma komissiyası təklifin səhv yönləndirilməsi və ya tələb olunan tarixdən əvvəl açılmasına görə məsuliyyət daşımır.

**22. Təkliflərin təqdim edilməsinin son müddəti**

22.1. Təkliflər onların təqdim edilməsi üçün **Satınalma məlumat vərəqində (18)** müəyyən edilən müddətin başa çatmasına ən geci 1 (bir) saat qalanadək qeyd olunan əlaqə vasitələri ilə kağız daşıyıcılarında satınalan təşkilata təqdim edilir.

**23. Gecikmiş təkliflər**

23.1. Təlimatın 22-ci hissəsi ilə müəyyən olunmuş müddətdən gec təqdim olunan təklif qəbul edilmir. Təklif açılmadan təchizatçıya qaytarılır və onun satınalmada iştirakına yol verilmir.

**24. Təkliflərin geri**

24.1. Təchizatçı təkliflərin təqdim edilməsi müddəti bitənədək öz

**götürülməsi, əvəzlənməsi və ya dəyişdirilməsi**

təklifini dəyişdirə, əvəzləyə və ya geri götürə bilər. Bunun üçün təchizatçı Təlimatın 10.1(e) bəndində nəzərdə tutulan təklifi imzalayan şəxsin səlahiyyətli olduğunun yazılı təsdiqi əlavə etməklə müvafiq səlahiyyətli nümayəndə tərəfindən yazılı bildiriş göndərməlidir. Müvafiq bildiriş dəyişdirilmiş və ya əvəzlənmiş təklifə də daxil edilir. Bütün bildirişlər:

(a) Təlimatın 20-ci və 21-ci hissələrinə uyğun hazırlanaraq təqdim edilməli və əlavə olaraq müvafiq zərflərin üzərində aydın şəkildə "GERİ GÖTÜRMƏ", "ƏVƏZLƏNMƏ" və ya "DƏYİŞDİRMƏ" yazısı yazılmalı;

(b) Təlimatın 22-ci hissəsi nəzərə alınmaqla təkliflərin təqdim olunmasının son müddətindən əvvəl satınalan təşkilata çatdırılmalıdır.

24.2. Təlimatın 24.1-ci bəndinə uyğun olaraq geri götürülməsi istənilən təklif açılmadan təchizatçıya qaytarılır.

24.3. Təkliflərin təqdim edilməsinin son müddəti, o cümlədən uzadılmış müddəti bitdikdən sonra və ya təchizatçı tərəfindən təklif məktubunda qeyd edilən təklifin qüvvədə olma müddəti bitənədək təklifin geri götürdükdə və ya dəyişdirdikdə təchizatçı təklifin təminatına olan hüququnu itirir.

**25. Təkliflərin açılması**

25.1. Təkliflərin son təqdim olunması müddətinə qədər təqdim olunmuş təkliflər satınalma komissiyası tərəfindən **Satınalma məlumat vərəqində (19)** qeyd olunan tarixdə, vaxtda və yerdə açılır.

25.2. Təkliflər açılarkən hər bir təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı və atasının adı), ünvanı, VÖEN-i, təklifinin qiyməti və təklifin təminatının məbləği və qüvvədə olma müddəti səsləndirilir.

25.3. Təchizatçı və ya onun səlahiyyətli nümayəndəsi təkliflərin açılışında iştirak edə bilər. Təklif təqdim etmiş, lakin təkliflərin açılışında iştirak etməyən təchizatçılara bütün təchizatçıların təkliflərinə dair elan olunmuş məlumatlar göndərilir. Təchizatçının və ya onun müvəkkilinin təkliflərin açılmasında iştirak etməməsi satınalma komissiyasının həmin təchizatçını satınalmadan kənarlaşdırmasına əsas vermir.

25.4. Əvvəlcə "GERİ GÖTÜRMƏ" qeyd olunmuş zərflər açılaraq oxunmalı və müvafiq təklifi olan zərf açılmayaraq təchizatçıya qaytarılmalıdır. Müvafiq geri götürmə bildirişində geri götürmə tələbi üçün etibarlı icazə olmadığı və təklifin açılışında oxunmadığı təqdirdə heç bir təklifin geri götürülməsinə icazə verilmir.

25.5. Daha sonra "ƏVƏZLƏNMƏ" qeyd olunmuş zərflər açılaraq oxunmalı və ilkin təklif əvəz edilməli təkliflə dəyişdirilərək açılmadan təchizatçıya geri qaytarılmalıdır. Müvafiq əvəzlənmə bildirişində əvəzlənmə tələbi üçün etibarlı icazə olmadığı və təklifin açılışında oxunmadığı təqdirdə heç bir təklifin əvəzlənməsinə icazə verilmir.

25.6. Növbəti olaraq "DƏYİŞDİRMƏ" qeyd olunmuş zərflər açılmalı və müvafiq təklif ilə birlikdə oxunmalıdır. Müvafiq dəyişdirmə bildirişində dəyişdirmə tələbi üçün etibarlı icazə olmadığı və təklifin açılışında oxunmadığı təqdirdə heç bir təklifin dəyişdirilməsinə icazə verilmir.

25.7. Sonda bütün qalan zərflər bir-bir açılmalı və hər bir təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), ünvanı, VÖEN-i, təklifinin varsa alternativ təklifinin qiyməti və təklifin təminatının məbləği və qüvvədə olma müddəti, habelə satınalma komissiyasının müvafiq hesab etdiyi digər məlumatlar oxunmalıdır. Oxunan məlumatlar qeyd edilməklə müvafiq açılış protokolu tərtib edilərək satınalma komissiyasının üzvləri təchizatçının nümayəndələri tərəfindən imzalanmalıdır. Təchizatçının imzasının olmamalası protokolu etibarsız etmiş. Protokolun bir nüsxəsi bütün təchizatçılara paylanmalıdır.

25.8. Yalnız açılmış və oxunmuş təkliflər, alternativ təkliflər qiymətləndirmə zamanı nəzərə alınmalıdır. Təklif məktubu və iş həcmləri cədvəli açılışda iştirak edən satınalma komissiyasının bütün üzvləri tərəfindən qaydada paraflanmalıdır.

## E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi

**26. Məxfilik (konfidensiallıq)**

26.1. Məhkəmənin, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra – AİBNDX), Azərbaycan Respublikası Hesablama Palatasının və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin qanunla müəyyən edilmiş hüquq və vəzifələrinin icrası ilə bağlı məlumatların açıqlanması halları istisna olmaqla, satınalan təşkilat digər hallarda təchizatçıların kommersiya sirri təşkil edən və ya qanunla qorunan digər məlumatlarını açıqlamır və onları məxfi (konfidensial) saxlayır.

26.2. Təchizatçılar tərəfindən təqdim edilən uyğunluq sənədləri və təkliflər, bağlanan satınalma müqaviləsinin surəti, satınalma müqaviləsi uzunmüddətlidirsə və ya mərhələlərlə həyata keçirilirsə, icrasının gedişi haqqında

mütəmadi məlumatlar, satınalan təşkilatla təchizatçı arasında satınalma müqaviləsinin icrası, mübahisəli məsələlərin həlli ilə əlaqədar sənədlər və satınalma müqaviləsinin tam icra edilməsi haqqında satınalan təşkilatla təchizatçı arasında imzalanan təhvil-təslim aktı istisna olmaqla, satınalmaya dair hesabata əlavə edilən digər sənədlər təklifin akseptindən, yaxud satınalma müqaviləsinin bağlanması ilə nəticələnməyən satınalma yekunlaşdıqdan sonra 7 (yeddi) iş günü ərzində sorğu əsasında təklif təqdim edən təchizatçılara verilir.

26.3. Təchizatçı satınalmanın istənilən mərhələsində Qanunun tələblərinə zidd hərəkətlərə (hərəkətsizliyə) yol verdikdə, o cümlədən saxta sənəd və (və ya) məlumat təqdim etdikdə satınalma komissiyası həmin təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

26.4. Təchizatçı Təlimatın 26.3-cü bəndinin tələblərini nəzərə almaqla satınalma prosesi ilə əlaqədar olan hər hansı məsələ ilə bağlı satınalma komissiyası ilə yalnız **Satınalma məlumat vərəqində (5)** qeyd olunan əlaqə vasitələri ilə əlaqə saxlaya bilər.

26.5. Satınalan təşkilat təqdim olunan təkliflərə yalnız onların açılmasından sonra baxır və həmin müddətədək bu təkliflərin tamlığını, bütövlüyünü və konfidensiallığını qoruyur.

26.6. Məxfi məlumatlarla əlaqəli satınalma zamanı satınalan təşkilat təchizatçılardan və onların subpodratçılarından məxfi məlumatların qorunmasını və mühafizəsini tələb edir.

**27. Təkliflərə dair izahat**

27.1. Uyğunluq sənədlərinin və təkliflərin qiymətləndirilməsini asanlaşdırmaq məqsədilə satınalma komissiyası təchizatçıdan təqdim etdiyi uyğunluq sənədlərinə və ya təkliflərə dair izahat tələb edə bilər. Təchizatçı tərəfindən satınalma komissiyasının sorğusuna uyğun verilməyən cavablar nəzərə alınmır. Satınalma komissiyası tərəfindən qiymətləndirmə zamanı Təlimatın 30-cu hissəsinə uyğun aşkarlanmış hesab səhvlərinin düzəldilməsi istisna olmaqla, təklifin qiymətlərində və ya mahiyyətində heç bir dəyişiklik, o cümlədən könüllü artım və ya azalma tələb edilməsinə yol verilmir.

27.2. Təchizatçı bu cür izahatı 5 (beş) iş günü ərzində satınalan təşkilata təqdim etmədiyi təqdirdə onun təklifi kənarlaşdırıla bilər.

**28. Formal tələblərə**

28.1. Satınalma komissiyası Qanunun 33-cü maddəsinin

**uyğunluğun müəyyən edilməsi**

tələblərini nəzərə almaqla, Təlimatın 10-cu hissəsində göstərilmiş tələblərə cavab verən təklifi formal tələblərə uyğun təklif hesab edir.

28.2. Təklif əhəmiyyətli dərəcədə uyğun təklif hesab edilməsi üçün aşağıdakı hallar nəzərə alınmaqla əsaslı kənara çıxma, qeyd-şərt və çatışmazlıq olmadan şərtlər toplusunun tələblərinə cavab verməlidir:

(a) qəbul edildiyi təqdirdə: (i) müqavilədə göstərilən işlərin həcminə, keyfiyyətinə və ya icrasına hər hansı əhəmiyyətli şəkildə təsir edəcək və ya (ii) şərtlər toplusunun tələblərinə zidd olaraq satınalan təşkilatın hüquqlarını və ya təklif olunan müqavilə çərçivəsində təchizatçının öhdəliklərini əsaslı şəkildə məhdudlaşdıracaq və ya

(b) düzəldildiyi təqdirdə, əhəmiyyətli dərəcədə uyğun hesab edilən digər təchizatçıların rəqabət mövqeyinə ədalətsiz təsir göstərəcək.

28.3. Satınalma komissiyası xüsusilə, *(B) İşlərə dair tələblər* sənədində qeyd olunan bütün tələblərin, heç bir əsaslı kənara çıxma, qeyd-şərt və ya çatışmazlıq olmadan yerinə yetirildiyini təsdiqləmək üçün Təlimatın 16-cı hissəsinə uyğun olaraq təqdim edilmiş təklifin texniki aspektlərini yoxlamalıdır.

28.4. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə əsaslı kənara çıxmaya, qeyd-şərtə və ya çatışmazlığa düzəliş edilməsinə yol verilmədən kənarlaşdırılır.

**29. Əhəmiyyətsiz uyğunsuzluqlar**

29.1. Təklifdə onun mahiyyətini dəyişdirməyən, şərtlər toplusunda göstərilmiş xüsusiyyətlərə, şərtlərə və başqa tələblərə əhəmiyyətli dərəcədə xələl gətirməyən, aradan qaldırılması mümkün olan kiçik texniki səhvlər və ya çatışmazlıqlar (əhəmiyyətsiz uyğunsuzluqlar) olduqda, həmin səhvlər və ya çatışmazlıqlar kəmiyyətcə ifadə olunur və satınalma komissiyası təklifi formal tələblərə uyğun təklif hesab edir.

29.2. Təklifin əhəmiyyətli dərəcədə uyğun olması şərti ilə, satınalma komissiyası təchizatçının sənədləşdirmə tələbləri ilə bağlı əhəmiyyətsiz uyğunsuzluqları təchizatçıdan 5 (beş) iş günü ərzində aradan qaldırmasını tələb edə bilər. Bu cür uyğunsuzluqlar haqqında məlumat və ya sənədlərin tələb edilməsi təklifin qiymətinin heç bir aspekti ilə əlaqəli olmamalıdır. Təchizatçının qeyd edilmiş müddət ərzində sorğuya cavab verməməsi onun təklifinin

kənarlaşdırılması ilə nəticələnə bilər.

**30. Hesab səhvlərinin düzəldilməsi**

30.1. Təklifin formal tələblərə uyğun olması şərti ilə satınalma komissiyası aşağıdakı əsaslarla hesab səhvlərini düzəltməlidir:

(a) miqdarın vahidin qiymətinə vurulmaqla əldə edilən hasili ilə vahidin qiyməti arasında ziddiyyət olduqda, vahidin qiyməti əsas götürülməli və hasilə düzəliş edilməlidir. Satınalma komissiyasının rəyinə görə vahidin qiymətinin kəsr bölgüsündə aşkar yanlışlıq olduğu təqdirdə hasil əsas götürülməli və vahidin qiymətinə düzəliş edilməlidir;

(b) aralıq cəmin toplanması və ya çıxılmasına uyğun cəmi qiymətdə səhv olarsa, belə aralıq cəmə düzəliş edilməlidir;

(c) sözlərlə rəqəmlər arasında ziddiyyət olarsa, sözlərlə ifadə edilmiş miqdarın hesablama səhvi ilə bağlı olması istisna olmaqla, sözlərlə ifadə edilmiş miqdar əsas götürülməlidir. Bu halda rəqəmlərlə verilmiş miqdar yuxarıdakı (a) və (b) bəndləri nəzərə alınmaqla əsasən əsas götürülməlidir.

30.2. Satınalma komissiyası hər hansı belə düzəliş barəsində təklifi vermiş təchizatçıya dərhal bildiriş göndərir. Təchizatçı Təlimatın 30.1-ci bəndinə uyğun hər hansı hesab səhvinin düzəldilməsi ilə razılaşmadıqda satınalma komissiyası həmin təchizatçının satınalmadan kənarlaşdırılması haqqında qərar qəbul edir.

**31. Vahid valyutaya konvertasiya**

31.1. Qiymətləndirmə və müqayisə məqsədilə qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri bütövlüklə və ya bir qismi xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə (www.cbar.az/currency/rates) əsas götürülərək Azərbaycan manatına konvertasiya edilməlidir.

**32. Satınalma güzəşti**

32.1. Satınalma komissiyası təklifləri qiymətləndirərkən, yerli mənşəli işlər üzrə təklifin xeyrinə Qanunun 33.14-cü maddəsi ilə müəyyən edilmiş qaydada 20 faizə qədər həcmdə güzəşti düzəliş tətbiq edir.

**33. Subpodratçılar**

33.1. **Satınalma məlumat vərəqində (20)** nəzərdə tutulduğu təqdirdə, qalib təchizatçı işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə əlaqədar subpodratçılarla müqavilə imzalaya bilər. Bütün digər hallarda satınalma müqaviləsinin icrası subpodratçılara həvalə edilə bilməz. Bu halda təchizatçı təqdim etdiyi təklifə subpodratçıya

həvalə ediləcək fəaliyyət (fəaliyyətlər) və ya işlərin hissələri və satınalma müqaviləsindəki payı barədə məlumat əlavə etməlidir. Subpodrat müqaviləsinin (müqavilələrinin) məbləği satınalma müqaviləsinin ümumi dəyərinin 50 faizindən çox olmamalıdır. Satınalma müqaviləsinin icrasına subpodratçılar cəlb olunduğu halda, subpodrat müqavilələrinin ümumi məbləğinin 20 faizdən az olmayan hissəsinin icrası Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş mikro, kiçik və orta sahibkarlıq subyektlərinə həvalə olunmalıdır.

33.2. Subpodratçının uyğunluq göstəriciləri şərtlər toplusunda təchizatçı üçün müəyyən edilmiş uyğunluq göstəriciləri tələblərinə cavab vermək üçün istifadə edilməməlidir.

**34. Təkliflərin qiymətləndirilməsi**

34.1. Satınalan təşkilat təklifləri Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulan meyarlara və prosedurlara əsasən qiymətləndirir.

34.2. **Satınalma məlumat vərəqində (21)** nəzərdə tutulduğu təqdirdə təklifi ən səmərəli təklif kimi qiymətləndirərkən qiymət amilinə əlavə olaraq texniki amillər üçün nisbi qiymət (balı) meyarı tətbiq ediləcəkdir. Qiymət amili üçün çəki**,** texniki amillər və onların alt amillərinə veriləcək ballar **Satınalma məlumat vərəqində (21)** göstərilmişdir.

34.3. Təklifi qiymətləndirərkən satınalma komissiyası aşağıdakıları nəzərə alır:

(a) Təlimatın 31.1-ci bəndinə uyğun digər valyutada təklif olduğu təqdirdə vahid məzənnəyə konvertasiya;

(b) Təlimatın 32-ci hissəsinə uyğun olaraq satınalma güzəştinin tətbiqi;

(c) Təlimatın 30.1-ci bəndinə uyğun olaraq hesab səhvinə görə təklifin ümumi qiymətinə düzəliş.

(d) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində müəyyən edilmiş digər qiymətləndirmə meyarları.

**35. Təkliflərin müqayisəsi**

35.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı qiyməti olan təklifi müəyyən etmək üçün Təlimatın 34.1-ci bəndinə uyğun olaraq müəyyən edilmiş tələblərə əhəmiyyətli dərəcədə cavab verən bütün təkliflərin qiymətləndirilmiş yekun məbləğini müqayisə etməlidir.

35.2. Təlimatın 34.2-ci bəndi tətbiq olunarsa satınalma komissiyası ən səmərəli (qiymət və texniki amillərə görə ən çox bal toplamış) təklifi müəyyən etməlidir.

**36. Həddindən artıq ucuz təkliflər**

36.1. Təchizatçının təqdim etdiyi təklifin qiyməti ehtimal olunan qiymətlə müqayisədə 20 faizdən aşağı olarsa, satınalma

komissiyası təchizatçıdan təklif qiymətinin ətraflı təhlili, təklif olunan metodologiya, iş qrafiki, risk və məsuliyyətin paylaşdırılması, habelə şərtlər toplusunun digər tələbləri barədə yazılı izahat almalıdır. Təchizatçının təqdim etdiyi izahat və məlumatlar təhlil edildikdən sonra satınalma müqaviləsinin icrasına əsaslı şübhələr qaldıqda satınalma komissiyası təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

**37. Təchizatçının uyğunluq göstəriciləri**

37.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı məbləği olan və əhəmiyyətli dərəcədə uyğun olan ilk 3 (üç) təchizatçının təklifinin Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində qeyd edilmiş uyğunluq göstəricilərinə cavab verib-vermədiyini müəyyən etməlidir.

37.2. Bunun müəyyənləşdirilməsi üçün Təlimatın 17-ci hissəsinə uyğun olaraq təchizatçı tərəfindən təqdim edilmiş uyğunluq göstəricilərini təsdiq edən sənədlər araşdırılmalı, təchizatçının özündən başqa digər törəməsi və ya tabe olduğu müəssisələr, törəmə və tabeliyində olan müəssisələri, filialları və subpodratçılarının uyğunluq sənədləri nəzərə alınmamalıdır.

37.3. Uyğunluq göstəricilərinə cavab verən təklifin seçilməsi müqavilənin bağlanması üçün ilkin şərtdir. Təlimatın 40.1-ci bəndinin tələbləri yerinə yetirilmədikdə qiymətləndirilmiş ən aşağı məbləği olan növbəti təklif və ya təkliflərin uyğunluq tələblərinə cavab verib-vermədiyi müvafiq qaydada araşdırılır.

37.4. **Satınalma məlumat vərəqində (23)** göstərilən hallarda, satınalma komissiyası tərəfindən əsaslandırılmaqla uyğunluq sənədlərini təqdim etmiş təchizatçıdan satınalmanın istənilən mərhələsində həmin sənədlərin yenidən (bir dəfədən çox olmayaraq) təqdim edilməsi tələb oluna bilər. Bu cür tələb təklifin qüvvədə olma müddətinin bitməsinə 10 (on) iş günü qalanadək irəli sürülür və uyğunluq sənədlərinin yenidən təqdim edilməsi 5 (beş) iş günü ərzində həyata keçirilir.

37.5. Təchizatçının uyğunluq göstəriciləri barədə verdiyi qeyri-dəqiq və natamam məlumat satınalma komissiyasının tələbi ilə 3 (üç) iş günü ərzində aradan qaldırılmalıdır.

**38. Qalib təklifin seçilməsi**

38.1. Uyğunluq göstəricilərinə cavab verən və təklifləri uyğun olan
(a) ən aşağı qiymət təklifi
(b) və ya ən səmərəli təklifi
təqdim edən təchizatçı qalib təchizatçı sayılır.

**39. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ**

39.1. Satınalma komissiyası Qanunun tələblərini nəzərə almaqla qalib təchizatçını seçməzdən əvvəl istənilən vaxt istənilən təklifi aksept etmək və ya kənarlaşdırmaq və satınalmanın ləğv edilməsi haqqında qərar qəbul etmək hüququnu özündə saxlayır və buna görə təchizatçılar qarşısında heç bir məsuliyyət daşımır. Zərflər açılana qədər satınalma ləğv edildiyi halda təklifin təminatları daxil olmaqla təkliflər, zərflər açıldıqdan sonra isə təkliflərin təminatları təchizatçılara dərhal geri qaytarılır.

39.2. Satınalma komissiyası aşağıdakı hallarda satınalmanın ləğv edilməsi haqqında qərar qəbul edir:

(a) satınalmada iştirak etmək üçün təklifi və təklifin təminatını təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayı açıq tender birinci dəfə elan edildikdə üçdən, yetərsay olmamasına görə eyni satınalma ikinci dəfə elan edildikdə isə ikidən az olduqda;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(c) birinci, ikinci və üçüncü yerləri tutmuş təchizatçılar arasından qalib təchizatçını seçmək mümkün olmadıqda;

(d) bütün təchizatçıların təqdim etdiyi təkliflərin qiyməti ehtimal olunan qiymətdən yüksək olduqda;

(e) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən bu Təlimatın 3.2-ci bəndinin tələblərinin pozulduğu müəyyən edildikdə;

(f) satınalmanın maliyyələşdirilməsi dayandırıldıqda.

**40. Satınalmanın nəticələri barədə bildiriş**

40.1. Satınalma komissiyası satınalmanın nəticələri haqqında yekun protokolu imzaladığı gün satınalan təşkilatın adından təklifini aksept etmək istədiyi təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), ünvanı, VÖEN-i, imzalanması nəzərdə tutulan müqavilənin məbləği, habelə gözləmə müddətinin qüvvədə olma tarixləri barədə satınalmadan kənarlaşdırılmamış təchizatçılara Təlimatın 44-cü hissəsi nəzərə alınmaqla bildiriş göndərir. Bildirişdə digər təchizatçıların qalib gəlməməsinin səbəbləri göstərilir.

**41. Gözləmə müddəti**

41.1. Satınalmanın nəticələri barədə bildirişin göndərildiyi gündən sonrakı iş günü gözləmə müddəti başlayır və

5 (beş) iş günü ərzində qüvvədə olur. Gözləmə müddəti bitmədən satınalan təşkilat ilə qalib təchizatçı arasında müqavilə imzalana bilməz.

## F. Qalibin seçilməsi

**42. Qalibin seçilməsi proseduru**

42.1. Təlimatın 39-cu hissəsinin tələbləri nəzərə alınmaqla satınalma komissiyası qalib təchizatçını seçir.

**43. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi**

43.1. Satınalma müqaviləsi qalib təchizatçı tərəfindən imzalananadək satınalma komissiyası əvvəlcədən şərtlər toplusunda göstərmişdirsə, satınalma predmetinin hər vahidinin qiymətini və xüsusiyyətlərini (göstəricilərini) dəyişdirməmək, həmçinin ehtimal olunan qiyməti keçməmək şərti ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin razılığı ilə satınalma predmetinin həcmini (miqdarını) 10 faizə qədər artırıb-azalda bilər.

**44. Müqavilənin imzalanması**

44.1. Satınalan təşkilat təklifin şərtlər toplusunda göstərilmiş qüvvədə olma müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək qalib təchizatçının təklifini aksept edir və satınalma müqaviləsini tərtib edib təchizatçıya aksept bildirişi ilə birlikdə göndərir.

44.2. Qalib təchizatçı 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalayır və satınalan təşkilata bu Qanuna əsasən tələb olunan icra təminatını təqdim edir. Satınalan təşkilat satınalma müqaviləsini 10 (on) iş günündən gec olmayaraq imzalayır.

**45. Bağlanmış müqavilə barədə məlumatın verilməsi**

45.1. Satınalma komissiyası satınalma müqaviləsi qüvvəyə mindiyi gündən 3 (üç) iş günü ərzində satınalan təşkilatın və müqaviləni bağlamış təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), VÖEN-i, satınalma predmeti, satınalma metodu, müqavilənin məbləği və icra müddəti barədə Portalda məlumat yerləşdirir.

**46. İcra təminatı**

46.1. İcra təminatının məbləği satınalma müqaviləsinin ümumi məbləğinin 10 faizi (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 5 faizi) həcmində müəyyən olunur. İcra təminatının qüvvədə olma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda, zəmanət müddəti daxil olmaqla) 30 (otuz) iş günü çox olmalıdır.

46.2. Ümumi məbləği 30 000 (otuz min) manatdan az olan satınalma müqaviləsi üzrə icra təminatı tələb olunmur.

46.3. Qalib təchizatçının Təlimatın 44.2-ci bəndində qeyd olunan müddət ərzində satınalma müqaviləsini imzalamaması və

(və ya) Qanuna əsasən tələb olunan icra təminatını təqdim etməməsi onun öz öhdəliklərini icra edə bilməməsi kimi qiymətləndirilir və təklifin təminatının geri qaytarılmaması ilə nəticələnir.

## G. Şikayət verilməsi

**47. Şikayət vermək hüququ**

47.1. Hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə təchizatçıların satınalan təşkilatın hərəkətlərindən (hərəkətsizliyindən) və qərarlarından inzibati qaydada, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət vermək hüququ vardır.

47.2. Aşağıdakılar şikayət predmeti ola bilməz:

(a) Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinin məhdudlaşdırılması;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmaması və satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirilməsi halları istisna olmaqla qanuni əsaslarla satınalmanın ləğv edilməsi.

**48. Satınalan təşkilata şikayət**

48.1. Satınalmadan kənarlaşdırılmamış təchizatçılar satınalan təşkilata satınalmanın nəticələri ilə bağlı öz şikayətlərini gözləmə müddətində verirlər. Satınalan təşkilat gözləmə müddətində verilmiş şikayəti 5 (beş) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

48.2. Kənarlaşdırılmış və ya iştirak etməyən təchizatçılar satınalma müqaviləsi qüvvəyə minənə qədər öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 15 (on beş) iş günü ərzində satınalan təşkilata şikayət verə bilərlər. Satınalan təşkilat verilmiş şikayəti 10 (on) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir və həmin qərarın qəbul edildiyi gündən 1 (bir) iş günü ərzində şikayət edən təchizatçıya göndərir.

48.3. Şikayət gözləmə müddəti və ya Təlimatın 48.2-ci bəndi ilə müəyyən edilən müddət keçdikdən sonra verilmişdirsə, satınalan təşkilat həmin şikayəti baxılmamış saxlayır.

48.4. Satınalan təşkilat Təlimatın 48.1-ci və 48.2-ci bəndlərində

göstərilən müddət ərzində qərar qəbul etmirsə, təchizatçı bununla bağlı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət verə bilər. Belə şikayət verildikdən sonra satınalan təşkilat tərəfindən həmin şikayət baxılmamış saxlanılır.

**49. AİBNDX-yə şikayət**

49.1. Təchizatçılar aşağıdakı hallarda İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilər:

(a) satınalma müqaviləsi qüvvəyə mindikdə;

(b) satınalma komissiyası Qanunun və Qanundan irəli gələn normativ hüquqi aktların tələblərini pozduqda;

(c) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(d) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən satınalmalarda maraqlar toqquşmasının tələbləri pozulduğu müəyyən edildikdə;

(e) satınalan təşkilat Təlimatın 48.1-ci və 48.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmədikdə;

(f) verilmiş şikayətlə bağlı satınalan təşkilatın qərarı ilə razılaşmadığı halda.

49.2. Təchizatçılar öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən, habelə Təlimatın 49.1(f) bəndində nəzərdə tutulmuş qərarı aldığı gündən və ya həmin qərarın verilməli olduğu gündən 15 (on beş) iş günü ərzində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilərlər.

49.3. AİBNDX şikayəti aldıqdan sonra 1 (bir) iş günü ərzində bu barədə satınalan təşkilata Portal vasitəsilə bildiriş göndərir. Şikayətdə qaldırılan məsələlərin araşdırılması üçün əlavə məlumat tələb olunduğu təqdirdə AİBNDX satınalan təşkilata Portal vasitəsilə sorğu göndərir. Satınalan təşkilat sorğunu aldıqdan sonra 3 (üç) iş günü ərzində sorğuda tələb olunan məlumatları İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə təqdim edir.

49.4. AİBNDX verilmiş şikayəti 20 (iyirmi) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

49.5. AİBNDX şikayəti təmin edirsə aşağıdakı tədbirlərdən birini

və ya bir neçəsini tətbiq edir.

(a) satınalan təşkilata qanunazidd hərəkətlər (hərəkətsizlik) etməyi və ya qərarlar qəbul etməyi, yaxud prosedurlar tətbiq etməyi qadağan etmək;

(b) satınalan təşkilatın qanunazidd inzibati aktını “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 67-ci maddəsinə uyğun olaraq ləğv etmək;

(c) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd hərəkətini (hərəkətsizliyini) dayandırmaq;

(d) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd qərarını ləğv etmək və yeni qərar qəbul etmək və ya satınalan təşkilatın əvəzinə öz qərarını qəbul etmək;

(e) təkliflərin yenidən qiymətləndirilməsi və ya satınalmanın ləğv edilməsi barədə qərar qəbul etmək.

**50. Satınalmanın dayandırılması**

50.1. Təlimatın 48-ci və 49-cu hissələrinə əsasən verilən şikayətin (gözləmə müddətində verilən şikayət istisna olmaqla) araşdırılması məqsədilə “İnzibati İcraat haqqında” Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinə uyğun olaraq İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qərarı ilə satınalan təşkilat tərəfindən satınalma prosedurları 10 (on) iş gününədək dayandırıla bilər. Bu müddət İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsaslandırılmış qərarı ilə 10 (on) iş gününədək uzadıla bilər.

**51. İnzibati qaydada şikayət**

51.1. Təchizatçılar AİBNDX-nin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və məhkəməyə şikayət verə bilərlər.

## H. Müqavilə

**52. Müqavilə şərtləri**

52.1. Təchizatçı təklifini formalaşdırarkən satınalma müqaviləsinin tələblərini nəzərə almalıdır.

52.2. Satınalma müqaviləsində aşağıdakı məlumatlarından çıxarış **Satınalma məlumat vərəqində (24)** də göstərilir:

(a) satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği;

(b) avans;

(c) satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları;

(d) satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları;

(e) tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri.

52.3. Satınalma müqaviləsi ilə şərtlər toplusunda qeyd edilən

məlumatlar arasında ziddiyyət olarsa şərtlər toplusu üstünlük təşkil edir.

# II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ

Satın alınacaq işlər üçün aşağıdakı spesifik məlumatlar Təlimatın müddəalarını tamamlayır, aydınlaşdırır və ya dəyişdirir. Hər hansı bir ziddiyyət yarandıqda, aşağıdakı müddəalar Təlimatdakı müddəalardan üstün olacaqdır.

*[Satınalma məlumat vərəqini doldurmaq üçün zəruri təlimatlar istinad olunan müvafiq Təlimatın üçün kursivlə yazılmış qeydlərdə təqdim olunur və şərtlər toplusu doldurulduqdan sonra silinir]*

| Sıra №-si | Bənd | Məzmun | Məlumat |
|---|---|---|---|
| | | **A. Ümumi** | |
| (1) | 1.1. | Satınalma predmeti | **(satınalma predmetini daxil edin)** |
| | | Satınalan təşkilatın adı:<br>VÖEN-i | **(satınalan təşkilatın adını daxil edin)**<br>**(VÖEN-i daxil edin)** |
| | | Satınalan təşkilatın əlaqələndirici vəzifəli şəxsi barədə məlumat | **(soyadı, adı və atasının adını daxil edin)**<br>**(vəzifəsini daxil edin)**<br>**(əlaqə məlumatlarını daxil edin)** |
| (2) | 3.1. | Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma | **(iştirakı məhdudlaşdırılan ölkələr və ya məhdudlaşdırılma şərtləri barədə məlumatı daxil edin)**<br>*[Əgər belə hallar nəzərdə tutulmayıbsa “nəzərdə tutulmayıb” qeyd edin]* |
| (3) | 3.3. | Birliyin üzvlərinin maksimal sayı | **(sayı daxil edin)** |
| | | **B. Şərtlər toplusunun məzmunu** | |
| (4) | 6.1. | Şərtlər toplusuna dair izahat üçün son müddət | **(tarix və saatı daxil edin)** |
| (5) | | Şərtlər toplusuna dair izahat üçün satınalan təşkilatın əlaqə vasitələri | Təklifə dair izaha üçün satınalan təşkilatın ünvanı.<br>*[Bu ünvan təklifi təqdim etmək üçün Təlimatın 22.1-də göstərilən ünvanla eyni və ya fərqli ola bilər]*<br>Kimə: **(əgər varsa, şəxsin tam adını daxil edin)**<br>Ünvan: **(rayon, qəsəbə göstərilməklə küçə ünvanını və nömrəsini daxil edin)**<br>Mərtəbə/ Otaq nömrəsi: **(əgər varsa mərtəbə və otaq nömrəsini daxil edin)**<br>Şəhər: **(şəhərin adını daxil edin)** |

| | | | |
|---|---|---|---|
| | | | Poçt kodu: **(əgər varsa, poçt (poçt) kodunu daxil edin)**<br>Ölkə: **(ölkənin adını daxil edin)**<br>Telefon: **(ölkə və şəhər kodları daxil olmaqla şəhər telefonu və əgər varsa mobil nömrəsini daxil edin)**<br>Elektron poçt ünvanı: **(əgər varsa, e-poçt ünvanını daxil edin)**<br>Veb-səhifə: **(istifadə edildiyi təqdirdə satınalma prosesi ilə bağlı məlumat mübadiləsi ediləcəyi vebsaytı müəyyənləşdirin)** |
| (6) | 6.3. | Təklif öncəsi görüş və sahəyə baxış | Təklif öncəsi görüş **(aşağıdakı tarixdə, saatda və yerdə keçiriləcək / keçirilməyəcək)**.<br>*[keçiriləcəksə aşağıdakı məlumatları daxil edin, əks təqdirdə silin]*<br>Tarix **(tarixi daxil edin)**:<br>Saat: **(saatı daxil edin)**<br>Yer: **(yeri daxil edin)**<br><br>Sahəyə baxış **(təşkil ediləcək / edilməyəcək)**. |
| (7) | 7.1. | Şərtlər toplusuna dəyişiklik üçün son müddət | **(tarix və saatı daxil edin)** |
| **C. Təkliflərin hazırlanması** | | | |
| (8) | 9.1. | Satınalmalara dair sənədlərin tərcümə olunacağı dil(lər) | Tərcümə **(olunacaq / olunmayacaq)**.<br>*[tərcümə olunacaqsa dili qeyd edin, əks təqdirdə silin]*<br>**(dili daxil edin)** |
| (9) | 12.1. | Alternativ təklif | Alternativ təkliflə icazə **(verilir / verilmir)**.<br>*[Alternativ təkliflərə icazə verilərsə, Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində onun metodologiyası müəyyən edilməlidir.]* |
| (10) | 12.2. | Alternativ tamamlama müddəti | Alternativ tamamlama müddətinə icazə **(verilir / verilmir)**. |
| (11) | 12.4. | Alternativ texniki həllər | Alternativ texniki həllərə icazə **(verilir / verilmir)**.<br>*[icazə verilirsə işlərin hissələrini qeyd edin, əks təqdirdə silin]*<br>**(işlərin təsvirini qeyd edin)**<br><br>*[Alternativ texniki həllərə icazə verilərsə, Qiymətləndirmə-uyğunluq meyarları və* |

| | | | |
|---|---|---|---|
| | | | *<u>prosedurları (III)</u> bölməsində onun metodologiyası müəyyən edilməlidir.]* |
| (12) | 13.1. | Satınalma predmetinin bölünməsi | Satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünməsinə və təchizatçıların satınalma predmetinin ayrı-ayrı hissələri üçün təkliflər təqdim etməsinə icazə **(verilir / verilmir)**.<br><br>*[icazə verilirsə işlərin hissələrini və bölünmə şərtlərini qeyd edin, əks təqdirdə silin]*<br>**(satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünməsi ilə bağlı şərtləri və bölünməsinə icazə verilən hissələri ətraflı təsvir edin)** |
| (13) | 14.4. | Təklifin qiymətində nəzərə alınmalı olan amillər | **(qiymət təklifi hazırlanarkən nəzərə alınmalı olan halları daxil edin)**<br>*[Təklifin qiymətinin hazırlanması zamanı nəzərə alınmalı olan amilləri, halları daxil edin. Əgər təlimatda nəzərdə tutulandan başqa hal nəzərdə tutulmayıbsa "Başqa hal nəzərdə tutulmayıb" qeyd edin]* |
| (14) | 18.1. | Təklifin qüvvədə olma müddəti | Təklif ən azı **(tarixi daxil edin)** tarixinədək qüvvədə olmalıdır<br>*[təklifin qiymətləndirilməsini yekunlaşdırmaq, lazımi razılıqları, o cümlədən nəticələrin AİBNDX ilə razılaşdırmaq üçün lazım olan ağlabatan vaxt nəzərə alınmaqla tarixi qeyd edin]* |
| (15) | 19.1. | Təklifin təminatının məbləği | **(təklif təminatının məbləğini rəqəmlə və sözlə daxil edin)**<br><br>*[Təklifin təminatını ehtimal olunan qiymətin 1-3 faizi aralığında müəyyənləşdirir. Məbləğin yuvarlaq və kəsrsiz olması tövsiyə olunur]* |
| (16) | 19.2. | Qarant və qarantın verdiyi təminatı təsdiqləyən tərəf barəsində tələblər | **(varsa qeyd edin, yoxdursa "yoxdur" yazın)**<br><br>Təklifin təminatı **(təminatın formasını seçin)** şəklində verilir |
| (17) | 20.1. | Təklifin nüsxə sayı | Təklifin əslinə əlavə olaraq **(nüsxə sayını daxil edin)** sayda nüsxə |
| **D. Təkliflərin təqdim olunması və açılması** | | | |
| (18) | 22.1. | Təkliflərin təqdim edilməsinin son müddəti | **(tarix və saatı daxil edin)** |

| | | | |
|---|---|---|---|
| | | | *[Təkliflərin cəlb edilməsi barədə dəvət təkliflərin açılması günündən azı aşağıdakı müddətlərdən əvvəl göndərilir:*<br>• *ehtimal olunan qiymət 1 000 000 manatadək olduqda 15 (on beş) iş günü,*<br>• *1 000 000 manatdan 10 000 000 manatadək olduqda 20 (iyirmi) iş günü,*<br>• *10 000 000 manat və ondan çox olduqda 30 (otuz) iş günü*<br>*Təkliflərin hazırlanması və təqdim edilməsi üçün icazə verilən vaxt predmetin xüsusiyyəti, miqyası və mürəkkəbliyi nəzərə alınmaqla müəyyən edilməlidir]* |
| (19) | 25.1. | Təkliflərin açılmasının müddəti və yeri | **(tarix və saatı daxil edin)**<br><br>*[Təkliflər Təlimatın 24.1-ci bəndində qeyd olunan vaxtdan sonra 1 saat ərzində açılır]*<br><br>Təkliflərin açılması üçün satınalan təşkilatın ünvanı:<br>Ünvan: **(rayon, qəsəbə göstərilməklə küçə ünvanını və nömrəsini daxil edin)**<br>Mərtəbə/ Otaq nömrəsi: **(əgər varsa mərtəbə və otaq nömrəsini daxil edin)**<br>Şəhər: **(şəhərin adını daxil edin)**<br>Poçt kodu: **(əgər varsa, poçt (poçt) kodunu daxil edin)**<br>Ölkə: **(ölkənin adını daxil edin)** |
| | | **E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** | |
| (20) | 33.1. | Subpodratçı | Subpodratçının cəlb edilməsinə icazə **(verilir / verilmir)**.<br><br>Subpodratçı üçün tələblər: **(tələbləri daxil edin)**<br><br>*[Məsələn, subpodratçının həyata keçirməsi nəzərdə tutulan fəaliyyət sahəsi “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növü olarsa müvafiq lisenziya əlavə edilməlidir]* |
| (21) | 34.2. | Qiymətləndirmə meyarlarının nisbi qiyməti (balı) və çəkisi | Meyarların nisbi qiyməti (balı) **(tətbiq ediləcək / edilməyəcək)**<br><br>*[<u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində təfərrüatlı olaraq qiymətləndirilmiş meyarlar/bal sistemi təklifi* |

<table>
<tr><td></td><td></td><td></td><td>qiymətləndirmə yanaşması tətbiq edilərsə, “tətbiq ediləcək” seçin].<br><br>Qiymət amilinin çəkisi: (çəkini daxil edin)<br><br>[məbləğ üçün elə bir çəki göstərin ki, texniki və məbləğ nisbətlərinin cəmi 1 (bir) olsun. Bu çəkinin 70%-dən aşağı olmaması tövsiyə olunur. Təlimatın 34.2 bəndi tətbiq edilmirsə, bu qeydi silin]<br><br>Texniki amilin çəkisi və bölgüsü (100%-i keçməməklə hesablanır):
<table>
<tr><td>Texniki amillər</td><td>Nisbi çəkisi</td></tr>
<tr><td>1. İşlərin görülməsi müddətləri</td><td>çəkini daxil edin</td></tr>
<tr><td>2. İşlərin funksional xüsusiyyətləri</td><td>çəkini daxil edin</td></tr>
<tr><td>3. Zəmanət şərtləri</td><td>çəkini daxil edin</td></tr>
</table>
[Yuxarıda göstərilən texniki amillər çərçivəsindən kənara çıxmamaq şərtilə konkret göstəricilər və qiymətləndirmə prosedurları <u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində müəyyən edilməlidir və texniki təklifin qiymətləndirilməsi üçün tələb olunan sənədlər bu qiymətləndirməni aparmağı imkan verməlidir. Çəkilər texniki amillərin nisbi əhəmiyyəti baxımından bölüşdürülməlidir]</td></tr>
<tr><td>(22)</td><td>34.3(d)</td><td>Digər meyarlar</td><td>Əlavə meyarlar (tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)</td></tr>
<tr><td>(23)</td><td>37.4.</td><td>Uyğunluq sənədlərinin yenidən təqdim edilməsi halları:</td><td>(uyğunluq sənədlərinin yenidən təqdim edilməsi hallarını daxil edin)<br>[“Təkliflərin qiymətləndirilməsi müddətində dəyişilməsi gözlənilən (məsələn. vergi arayışı və s.) və ya təqdim edilmiş sənədlər arasında ziddiyyət/uyğunsuzluq olması” kimi halları qeyd edin və ya “tətbiq edilmir” daxil edin]</td></tr>
<tr><td colspan="4">H. Müqavilə</td></tr>
<tr><td rowspan="2">(24)</td><td rowspan="2">52.2.</td><td rowspan="2">Müqavilə şərtləri:</td><td>Ödəmələr: (satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği)</td></tr>
<tr><td>Avans: (avans ödənişi və təminatının məbləği və müqavilənin icra müddəti)</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | | | *[Avans satınalma müqaviləsinin ümumi məbləğinin 30 faizindən (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 50 faizindən) çox olmayaraq ödənilir. Avansın alınması üçün təchizatçı tərəfindən satınalan təşkilata avans ödənişinin ümumi həcmindən az olmayan məbləğdə və müqavilənin icra müddətində qüvvədə olan müddətdə avans təminatı təqdim olunur]* |
| | | | Satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları: **(təklifin akseptindən sonra satınalma müqaviləsinin qüvvəyə minməsi üçün müvafiq sənədlər, həmin sənədlərin təqdim edilməsi müddəti və digər şərtlər)** |
| | | | Müqaviləyə dəyişiklik: **(satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları)** |
| | | | Sığorta: **(tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri)** |

# III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ-UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI

Bu bölmədə satınalma komissiyası tərəfindən təklifləri qiymətləndirmək və uyğunluq göstəricilərinə cavab verən təchizatçıları müəyyən etmək üçün bütün meyarlar qeyd edilib. Bu şərtlər toplusunda qeyd edilməyən heç bir meyar, amil və ya göstəricidən istifadə edilə bilməz. Təchizatçı tələb olunan bütün məlumatları Satınalma formaları (IV) bölməsinə daxil edilən formalardan istifadə edərək təqdim etməlidir.

Təchizatçıdan maddi dəyərinin göstərilməsi tələb olunan məlumatlar Azərbaycan manatı ilə aşağıdakı qaydada müəyyən edilən məzənnədən istifadə edilərək təqdim edilməlidir:

- maliyyə vəziyyətində göstərilən məlumatlar - müvafiq təqvim ilinin son günündə qüvvədə olan valyuta məzənnəsi;
- müqavilənin məbləği - müqavilənin bağlanıldığı tarixdə qüvvədə olan valyuta məzənnəsi.

Valyuta məzənnələri Təlimatın 31.1-ci bəndi ilə müəyyən edilmiş açıq mənbədən götürülməlidir. Təklifində valyuta məzənnələrinin müəyyən edilməsində hər hansı səhv satınalma komissiyası tərəfindən düzəldilə bilər.

*[Satınalan təşkilat satınalma prosesi üçün uyğun hesab edilən meyarları seçməli, aşağıdakı nümunələrdən və ya digər məqbul mətndən istifadə etməklə müvafiq mətni daxil etməli və kursivlə yazılan mətni silməlidir]*

# A. Texniki və maliyyə göstəricilərinin qiymətləndirilməsi

## 1. Texniki göstəricilərin qiymətləndirilməsi

Təlimatın 34.1-ci bəndinə uyğun olaraq təklifin tələblərə uyğunluğunun qiymətləndirilməsi.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

………………………………………………………………………………………………

Əgər Təlimatın 34.2-ci bəndi tətbiq edilərsə, qiymətləndirilməli olan texniki amillər və əgər varsa, alt amillər Təlimatın 35.2-ci bəndində hər bir texniki amilə və alt amillərə veriləcək ballar göstərilmişdir.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

..........................................................................................................................

### 1.1. Texniki göstəricilərin bal ilə qiymətləndirilməsi metodologiyası

*[Satınalan təşkilat bura daxil ediləcək bal ilə qiymətləndirmə metodologiyasını hazırlamalıdır. Əgər Təlimatın 34.2-ci bəndinə uyğun olaraq, texniki amillərə (və əgər varsa, alt amillər) əhəmiyyətinə görə nisbi ballar verilirsə həmin ballar aşağıdakı düsturla hesablanır]*

..............................................

Texniki amil daxilində (j) hər bir alt-amil (i) üçün bal, aşağıdakı düsturdan istifadə edilərək hesablanır:

$$S_j \equiv \sum_{i=1}^{k} t_{ji} * f_{ji}$$

burada:

*$t_{ji}$* = “j” amilindəki “i” alt amilinin texniki balı;

*$f_{ji}$* = “j” amilindəki “i” alt amilinin faiz nisbəti;

*k* = “j” amilindəki qiymətləndirilən alt amillərin sayı.

$$\sum_{i=1}^{k} f_{ji} = 1$$

Amilin texniki balları aşağıdakı düsturdan istifadə etməklə ümumi texniki təklif balı hesablamaq üçün çəkili məbləğdə birləşdiriləcəkdir:

$$T \equiv \sum_{j=1}^{n} S_j * F_j$$

burada:

*$S_j$* = “j” amilinin balı;

*$F_j$* = “j” amilinin **Satınalma məlumat vərəqində (21)** müəyyən edilən nisbi çəkisi;

*n* = amillərin sayı.

$$\sum_{j=1}^{n} F_j = 1$$

[**Düsturların izahı:** Ümumi texniki amil daxilində hər bir alt amilə görə təchizatçıya verilmiş ballar müvafiq olaraq hər bir alt amil üçün müəyyən edilmiş nisbi çəkiyə vurularaq toplanır. Məsələn, əgər ümumi texniki amil daxilində 2 alt-amilin (100% üzərindən) nisbi çəkiləri müvafiq olaraq – funksional xüsusiyyətlər 60%, zəmanət şərtləri 40%-dirsə və təchizatçıya funksional xüsusiyyətlərinə görə (100 olmaqla) 70 bal, zəmanət şərtlərinə görə 60 bal verilmişdirsə yekun bal 60%*70+40%*60 = 66 olaraq hesablanır]

### 1.2. İşlərin müəyyən edilən hissələri üçün alternativ texniki təkliflər

Təlimatın 12.4-cü bəndində nəzərdə tutulduğu təqdirdə aşağıdakı kimi qiymətləndiriləcəkdir.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

..............................................................

## 2. Maliyyə göstəricilərinin qiymətləndirilməsi

### 2.1. Maliyyə göstəricilərinin qiymətləndirilməsi üçün meyarlar

**(i)** İş qrafiki

İşə başlama tarixindən etibarən işlərin tamamlanma müddəti Satınalma müqaviləsində göstərilir. İşlərin müəyyən edilmiş müddətdən əvvəl tamamlanması nəzərə alınmayacaq.

[və ya / satınalan təşkilat 2 variantdan birini seçir digərini silər]

İşə başlama tarixindən etibarən işlərin tamamlanma üçün vaxt minimum (**minimal müddəti gün və ya ay ilə daxil edin)** və maksimum (**maksimal müddəti gün və ya ay ilə daxil edin)** arasında olmalıdır. Minimal müddətdən gec işlərin tamamlanması üçün həmin minimal müddətdən gecikmiş hər təqvim günü üçün müqayisə məqsədilə məbləğ tənzimlənməsi (artırılması) **0,1%** təşkil edir. İşlərin erkən tamamlanması nəzərə alınmayacaq. Müəyyən edilmiş maksimal müddətdən gec başa çatma tarixi ilə təqdim edilən təkliflər kənarlaşdırılır.

**(ii)** İstismar, texniki xidmət və təmir xərcləri

(İstismar, texniki xidmət və təmir xərclərinin hesablanması **(tətbiq ediləcək / edilməyəcək)**

*[İşlərin müəyyən edilmiş istismar müddəti ərzində istismar və yaxud texniki xidmət xərclərinin ilkin dəyərlə müqayisədə əhəmiyyətli olduğu və müxtəlif təkliflər arasında dəyişə bildiyi zaman istismar dövrü xərclərinin hesablanmasından istifadə edilməlidir. O, xalis diskontlaşdırılmış dəyər əsasında qiymətləndirilməlidir. Təklifin qiymətləndirilməsi üçün istismar dövrü xərclərin hesablanması tətbiq ediləcəksə, satınalan təşkilat onun tətbiqi ilə bağlı müvafiq məlumatları burada qeyd etməlidir:]*

İstismar dövrü xərclərinin hesablanması üçün amillər:

(a) istismar dövrü üçün illərin sayı: **(illərin sayını daxil edin)**;
(b) əməliyyat xərcləri **(onların necə müəyyən ediləcəyini qeyd edin)**;
(c) istismarın ilkin dövrü üçün ehtiyat hissələrinin dəyəri daxil olmaqla texniki xidmət xərcləri **(onların necə müəyyən ediləcəyini qeyd edin)**;
(d) Diskont dərəcəsi: (a) bəndində göstərilən dövr üçün yuxarıda (b) və (c) bəndlərində hesablanmış bütün illik gələcək məsrəflərin cari məbləğə diskont edilməsi üçün istifadə ediləcək **(diskont dərəcəsini faizlə daxil edin)**.

**3. Yekun qiymətləndirmə**

Satınalma komissiyası əhəmiyyətli dərəcədə tələblərə uyğun təklifləri qiymətləndirəcək və müqayisə edəcək. Qiymətləndirilmiş təklif balı (B) hər bir təklif üçün qiymətləndirilmiş məbləğ və balı müəyyən edərək aşağıdakı düstur ilə hesablanacaq:

$$B = \frac{M_{aşağı}}{M} * X * 100 + \frac{T}{T_{yuxarı}} * (1-X) * 100$$

burada:

$M$ = qiymətləndirilmiş təklif məbləği
$M_{aşağı}$ = bütün uyğun təkliflər üçün qiymətləndirilib ən aşağı məbləğ
$T$ = təklifə verilmiş ümumi texniki bal
$T_{yuxarı}$ = *bütün uyğun təkliflər için ən yuxarı texniki balı almış təklifin balı*
$X$ = məbləğ üçün **Satınalma məlumat vərəqində (21)** müəyyən edilən nisbi çəki.

İxtisas göstəricilərinin tələblərinə cavab verən ən yüksək bal alan təklif ən səmərəli təklif hesab edilir.

[**Düsturun izahı:** Əgər texniki amilin çəkisi 30%, qiymət amilinin çəkisi 70%-dirsə və satınalmada iştirak edən 3 təchizatçının təklif məbləğləri və texniki balları müvafiq olaraq aşağıdakı kimidirsə:

- Təchizatçı A: təklif məbləği - 100.000 AZN, texniki balı 60
- Təchizatçı B: təklif məbləği - 120.000 AZN, texniki balı 70
- Təchizatçı C: təklif məbləği - 110.000 AZN, texniki balı 80

Müvafiq olaraq hər bir təchizatçının balı aşağıdakı kimi hesablanacaqdır:

- Təchizatçı A: $100.000_{\text{(ən aşağı məbləğ)}}$ /$100.000_{\text{(təchizatçı A-nın məbləği)}}$ * $70\%_{\text{(qiymət amilinin çəkisi)}}$ * 100 + $60_{\text{(təchizatçı B-nin texniki balı)}}$ / $80_{\text{(ən yüksək texniki bal)}}$ * $30\%_{\text{(texniki amilin çəkisi)}}$ * 100 = 92,5
- Təchizatçı B: 100.000 / 120.000 * 70% * 100 + 70 / 80 * 30% * 100 = 84,6
- Təchizatçı C: 100.000 / 110.000 * 70% * 100 + 80 / 80 * 30% * 100 = 93,6 (qalib)]

## B. Uyğunluq göstəricilərinin qiymətləndirilməsi

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **1.** | ***İlkin tələblər*** | | | | | | |
| **1.1.** | **Təklifin təminatı** | **Satınalma məlumat vərəqində (15)** qeyd edilmiş məbləğdə və Təlimatın 19.2-ci bəndində göstərilən müddətdə qüvvədə olan təminatın təqdim edilməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Qarant tərəfindən müvafiq qaydada təqdim edilmiş təklifin təminatı **(FORMA 9)** |
| **1.2.** | **Maraqlar toqquşması** | Təlimatın 3.2-ci bəndinin tələblərinə cavab verməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)** |
| **1.3.** | **Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma** | **Satınalma məlumat vərəqində (2)(15)** göstərilən və (və ya) müəyyən edilən ölkələrdə qeydiyyatdan keçən qeyri-rezident təchizatçıların siyahısına daxil edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Qeydiyyat sənədi |
| **2.** | ***Ümumi tələblər*** | | | | | | |
| **2.1.** | **Təchizatçı haqqında** | Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | 1. Təchizatçı haqqında:<br>a. Təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti; |

[1] Bütün üzvlərin təqdim etdiyi göstəricilərin cəmi tələblərə tam cavab verməlidir.

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | | | | | | b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti;<br>c. birgə fəaliyyət göstərdikdə Təlimatın 3.4-cü bəndinə uyğun olaraq birgə fəaliyyətə dair müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu.<br>2. təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış<br>a. Hüquqi və fiziki şəxs olduqda **(FORMA 5)** və (və ya)<br>b. Birgə fəaliyyət olduqda 2 a bəndinə əlavə olaraq (**FORMA 6)**<br>3. Təlimatın 20.3-cü bəndinə uyğun olaraq təklifi imzalayan digər vəzifəli şəxs olduqda – etibarnamə.<br>4. Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış **(FORMA 8)** |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət: *Bütün üzvlər birlikdə* [1] | Birgə fəaliyyət: *Hər bir üzv ayrı-ayrılıqda* | Birgə fəaliyyət: *Bir üzv* | |
| **2.2.** | **Lisenziya və (və ya) icazə (tətbiq olunarsa)** | **(satınalma predmetinin icrası üçün zəruri olan və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növünü və tətbiq olunarsa konkret istiqaməti qeyd edin** *məs. Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri – (a) xüsusi torpaq işləri və (b) mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması işləri***)** | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Uyğun olmalıdır | Lisenziya və (və ya) icazənin surəti |
| **2.3.** | **Əmlakdan sərbəst istifadə** | Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasibətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | | | | | | hazırlanmış arayış **(FORMA 1)**, məlumat və təsdiqedici sənədlər |
| **2.4.** | **Müflislik** | Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahibkarlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.5.** | **Vergi və əmək qanunvericiliyi öhdəliyi** | Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin olması və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın olmaması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının və ya inzibati cərimənin tətbiq edilməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Maliyyə sanksiyasına münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış<br>İnzibati cəriməyə münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən arayış |
| **2.6.** | **Fəaliyyət qadağası** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.7.** | **Məhkumluq** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət: Bütün üzvlər birlikdə [1] | Birgə fəaliyyət: Hər bir üzv ayrı-ayrılıqda | Birgə fəaliyyət: Bir üzv | |
| | | orqanının rəhbərinin satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırılma cinayətlərinə görə məhkum olunmaması | | | | | |
| **3.** | ***Xüsusi tələblər*** | | | | | | |
| **3.1.** | **Peşəkarlıq və təcrübə** | Satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının və təcrübəsinin olması, aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | Təchizatçının təcrübəsi barədə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 7)**, məlumat və təsdiqedici sənədlər (təhvil-təslim və ya yekun təhvil-təslim aktları, elektron qaimə və s.). |
| **3.1.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci* | | | | | |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | *maddəsində müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | | | | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış digər prosedurları daxil edin]* |
| **3.2.** | **Maliyyə imkanı** | Satınalma müqaviləsinin icrası üçün maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış prosedurları daxil edin]* |
| **3.2.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | ... | ... | ... | ... | |
| **3.3.** | **Texniki imkan** | Texniki imkanlarının və maddi-texniki bazasının olması - aşağıda göstərilən tələblərə cavab verməsi: **(cari satınalma predmetinin icrası üçün tələb olunan (a) texnikaların növləri, (b) xüsusiyyətləri və (c)** | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 3)** və təsdiqedici sənədlər (nəqliyyat vasitəsinin, maşın mexanizminin qeydiyyat şəhadətnaməsi, icarə, lizinq müqaviləsi və s.) |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | **minimal say tələblərini siyahı olaraq daxil edin)** | | | | | |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | ... | ... | ... | ... | |
| **3.4.** | **İşçi qüvvəsi** | Müvafiq tələblərə cavab verən işçi qüvvəsinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: **(cari satınalma predmetinin icrası üçün tələb olunan əsas heyətin (a) vəzifələrini, (b) minimal say, (c) müvafiq akademik uyğunluq və (d) müvafiq sahədə minimal təcrübə tələblərini siyahı olaraq daxil edin)** | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 4)**, məlumat və təsdiqedici sənədlər |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları* | ... | ... | ... | ... | |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| **Sıra №-si** | **Mövzu** | **Tələblər** | **Fərdi** | ***Bütün üzvlər birlikdə*** [1] | ***Hər bir üzv ayrı-ayrılıqda*** | ***Bir üzv*** | |
| | | *və prosedurları varsa bura əlavə edilir]* | | | | | |
| **4.** | ***Digər tələblər*** | | | | | | |
| **4.1.** | **Sahənin təşkili** | | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış sahənin təşkili barədə məlumat (tətbiq olunarsa) |
| **4.2.** | **İş metodologi-yası** | | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış iş metodologiyası barədə məlumat (tətbiq olunarsa) |
| **4.3.** | **İcra müddəti** | | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış mobilizasiya qrafiki və tikinti qrafiki (tətbiq olunarsa) |
| **4.4.** | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | | | | | | |

# IV BÖLMƏ. SATINALMA FORMALARI

## FORMA 1. Təklif məktubu

Təklifin təqdim olunma tarixi: **(tarixi daxil edin)**

Kimə: **(Satınalan təşkilatın adını daxil edin)**

Biz, aşağıda imza edənlər bəyan edirik ki:

**(a)** **qeyd-şərtin olmaması:** Təlimatın 7-ci hissəsinə müvafiq olaraq verilmiş əlavə və dəyişikliklər də daxil olmaqla (mövcud olduğu halda) şərtlər toplusu və onu təşkil edən sənədlər ilə tanış olduq, burada təsvir olunan işin görülməsi haqqında tam məlumata malikik və bu sənədlərə heç bir qeyd-şərtimiz yoxdur;

**(b)** **münasiblik:** Təlimatın 3-cü hissəsində qeyd edilmiş tələblərə cavab veririk və maraqların toqquşması hallarının olmadığını təsdiqləyirik;

**(c)** **uyğunluq:** Biz ***(satınalma predmetini daxil edin)*** işlərini şərtlər toplusunun tələblərinə və nəzərdə tutulmuş icra qrafikinə uyğun olaraq yerinə yetirməyi təklif edirik*;*

**(d)** **qiymət:** Tələb olunan işləri bütün vergi və rüsumlar daxil olmaqla **(məbləği rəqəmlə və sözlə daxil edin)** məbləğdə yerinə yetirməyi təklif edirik.

**(e)** **təklifin qüvvədə olma müddəti**: Təklifimiz **(tarixi daxil edin)** tarixinə qədər qüvvədədir, bizim üçün məcburi xarakter daşıyır və bu müddətin bitməsindən öncə istənilən vaxt qəbul edilə bilə;

**(f)** **icra təminatı**: Bizim təklifimiz qəbul edildiyi təqdirdə şərtlər toplusunda qeyd edilən şərtlərdə icra təminatını təqdim edəcəyimizi öhdəmizə götürürük;

**(g)** **hər təchizatçı bir təklif:** Biz fərdi təchizatçı kimi hər hansı digər təklif və ya təkliflər təqdim etmirik, birgə fəaliyyət üzvü və ya subpodratçı kimi hər hansı digər satınalma və ya satınalmalarda iştirak etmirik və Təlimatın 12-cü hissəsinə uyğun təqdim edilmiş alternativ təkliflər istisna olmaqla Təlimatın 3.3-cü bəndinin tələblərinə cavab veririk;

**(h)** **etibarsız təchizatçı:** Biz, müqavilənin hər hansı hissəsinin icrasına cəlb ediləcək subpodratçılarımız, məsləhətçilərimiz, malgöndərənlərimiz, istehsalçılarımız və ya digər xidmət göstərənlərimiz, o cümlədən bizi idarə edən hüquqi və ya fərdi şəxslər ilə birlikdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsi çərçivəsində etibarsız təchizatçılar reyestrinə daxil edilməmişik.

**(i)** **qəbul etmək məcburiyyətinin olmaması**: Başa düşürük ki, siz ən aşağı qiyməti olan, ən səmərəli və ya digər istənilən təklifi qəbul etmək məcburiyyətində deyilsiniz;

**(j)** **əmlakdan sərbəst istifadə**: Müqavilənin icrası zamanı istifadə olunacaq əmlaklardan (daşınmaz əmlak və nəqliyyat vasitələri istisna olmaqla) sərbəst və məhdudiyyətsiz istifadə etmək hüququmuz var;

**(k)** **saxtakarlıq və korrupsiya:** Bizim üçün və ya bizim adımızdan hərəkət edən heç kimin heç bir formada saxtakarlıq və korrupsiya əməlləri törətməməsi üçün müvafiq tədbirləri görmüşük.

Təchizatçının adı: (təchizatçının adını daxil edin)

Təchizatçının VÖENİ: **(təchizatçının VÖEN-ini daxil edin)**

Təklifi təchizatçı adından imzalamaq səlahiyyəti olan şəxsin ad və soyadı:**(adı və soyadı daxil edin)**

Təklifi imzalayan şəxsin vəzifəsi: **(tam vəzifəni qeyd edin)**

Yuxarıda qeyd edilən şəxsin imzası və möhürü (varsa): **(imzanı və möhürü əlavə edin)**

İmzalanma tarix: **(tarixi daxil edin)**

# FORMA 2. İş həcmləri cədvəli

*[Bu qeydlər satınalan təşkilat və ya iş həcmləri cədvəlini tərtib edən şəxsi məlumatlandırmaq üçün nəzərdə tutulub. Yekun sənəddən çıxarılmalıdır.*

***Məqsədlər***

*İş həcmləri cədvəlini məqsədləri aşağıdakılardır*

(a) *təkliflərin səmərəli və dəqiq hazırlanmasını təmin etmək üçün görüləcək işlərin miqdarları haqqında kifayət qədər məlumat vermək; və*
(b) *müqavilə bağlanıldıqda, yerinə yetirilən işlərin dövri qiymətləndirilməsində istifadə üçün qiymətləndirilmiş iş həcmləri cədvəli kimi işlətmək.*

*Bu məqsədlərə çatmaq üçün, işlərin müxtəlif növlərini və ya müxtəlif yerlərdə və ya fərqli qiymət mülahizəsinə səbəb olacaq şəraitlərdə icra ediləcək eyni xarakterli işləri fərqləndirmək üçün işlər maddələrlə göstərilməklə kifayət qədər təfərrüatlı şəkildə iş həcmləri cədvəlində qeyd edilməlidir. qiymət mülahizələri. Bu tələblərə uyğun olaraq, iş həcmləri cədvəlinin tərtibatı və məzmunu mümkün qədər sadə və qısa olmalıdır.*

***Məzmun***

*İş həcmləri cədvəli ümumiyyətlə aşağıdakı bölmələrə bölünməlidir:*

*(a) preambula;*
*(b) iş maddələri (hissələrə qruplaşdırılmış);*
*(c) xülasə.*

***Preambula***

*Preambula vahid qiymətlərin əhatəliliyini göstərməli və iş həcmləri cədvəlinin hazırlanması zamanı qəbul edilmiş və işlərin hər hansı hissəsinin ölçülməsi üçün istifadə ediləcək ölçmə üsullarını ehtiva etməlidir.*

***Qaya***

*Qazıntı, dəlmə və ya daşıma işlərə daxil edildikdə, qayanın hərtərəfli tərifi (müqavilə üzrə idarəetmədə həmişə mübahisəli mövzudur) texniki və keyfiyyət xüsusiyyətlərində təqdim edilməli və bu tərif ölçmə və ödəniş məqsədləri üçün istifadə edilməlidir.*

***İş maddələri***

*Xarakteristikasına, yerinə, giriş vaxtına, vaxta və ya hər hansı digər spesifik xüsusiyyətlərə görə müxtəlif tikinti metodlarına, işlərin mərhələliliyinə və ya qiymət mülahizələrinə səbəb olan maddələr bölmələr üzrə qruplaşdırılmalıdır. İşlərin bütün hissələri üçün ümumi olan maddələr iş həcmləri cədvəlində ayrıca bölmə kimi qruplaşdırıla bilər.*

***Miqdarlar***

*Müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, miqdarlar yalnız çertyojlar (cizgilər) əsasında hesablanmalıdır və qabarma, yığılma, və ya itkisi üçün heç bir güzəşt nəzərə alınmamalıdır. Ehtiyac olduqda yuvarlaqlaşma aparılmalı və süni dəqiqlikdən qaçınılmalıdır.*

***Ölçü vahidləri***

*Başqa milli vahidlər məcburi olmadıqda aşağıdakı ölçü vahidləri və qısaltmalar istifadə üçün tövsiyə olunur.*

| Ölçü vahidi | Qısaltma | Ölçü vahidi | Qısaltma |
|---|---|---|---|
| Kubmetr | $m^3$ və ya kb.m | millimetr | mm |
| hektar | ha | ay | ay |
| saat | h | ədəd | əd. |
| kiloqram | kq | kvadratmetr | $m^2$ və ya kv.m |
| birdəfəlik cəm | cəm | kvadrat millimetr | $mm^2$ və ya kv mm |
| metr | m | həftə | hf |
| ton (1,000 kg) | t | | |

***Torpaq və qazıntı səviyyələri***

*Başlanğıc səviyyəsi orijinal səviyyə olmayan qazıntı, deşmə və ya daşıma ilə əlaqəli işlərin hər bir elementinin təsvirində başlanğıc səviyyə müəyyən edilməlidir. Qazılmış səviyyə son səviyyə olmayan qazıntı ilə bağlı işlərin hər bir elementinin təsvirində qazılmış səviyyə müəyyən edilməlidir. İşin dərinliyi başlanğıc səviyyə ilə qazılan səviyyə arasındakı fərq olaraq ölçülməlidir.*

***Xülasə***

*Xülasə iş həcmləri cədvəlinin ayrı-ayrı hissələrinin cədvəlini ehtiva etməlidir.*

## A. Preambula

1. İş həcmləri cədvəli Təchizatçılar üçün təlimatlar (o cümlədən Satınalma məlumat vərəqi), Müqavilə, (B) İşlərə dair tələblər (o cümlədən çertyojlar) sənədi ilə birlikdə oxunmalıdır.
2. İş həcmləri cədvəlində verilmiş miqdarlar təxmini və şərtidir və cari satınalma predmeti ilə bağlı ümumi təsəvvür yaratmaq üçün verilmişdir. Ödənişin əsasını təchizatçı tərəfindən ölçülən, satınalan təşkilat tərəfindən yoxlanılan faktiki miqdarlar və qiymət daxil edilmiş iş həcmləri cədvəlində müəyyən olunan vahid qiymətlər təşkil edəcəkdir.
3. İşin və materialların detallı təsvirləri iş həcmləri cədvəlinə daxil edilməmiş ola bilər. İş həcmləri cədvəlinin hər bir bəndi üzrə qiymətlər daxil edilməzdən əvvəl müqavilə sənədlərinin müvafiq bölmələrinə istinad edilməlidir.
4. İş həcmləri cədvəlindəki maddələr işin xarakteristikasına və icra vaxtına görə qruplaşdırıla bilər (məsələn, ümumi maddələr, torpaq işləri və s.).
5. Ödəniş üçün tamamlanmış işin ölçülməsi üsulu **(standart məlumat kitabçasının adını və ya istifadə ediləcək metodların tam təfərrüatlarını daxil edin)** uyğun olmalıdır.

## B. İş həcmləri üzrə maddələr

Təchizatçı satınalan təşkilat tərəfindən aşağıdakı formada hazırlanmış iş həcmləri cədvəlini Portal vasitəsilə əldə edərək doldurur

| *Maddə №* | *Təsvir* | *Ölçü vahidi* | *Miqdar* | *Vahidin qiyməti* | *Cəm* |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | **Yekun cəm:** | ______ |

# FORMA 3. Texniki baza

Təchizatçı Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində sadalanan əsas avadanlıq üçün tələblərə cavab vermək qabiliyyətinə malik olduğunu aydın şəkildə nümayiş etdirmək üçün müvafiq məlumatı təqdim etməlidir.

| Sıra №-si | Avadanlığın adı, istehsalçısı və modeli | İstehsal ili | Hazırkı yeri və məşğulluğu | Mülkiyyətçi | Mülkiyyətçinin adı, ünvanı, əlaqə məlumatları və icarə şərtləri *(əgər şəxsi deyilsə)* |
|---|---|---|---|---|---|
| 1. | | | (yeri, istifadədə və ya boşda olması qeyd edilir) | (Şəxsi, icarə, lizinq və ya xüsusi istehsal) | (cari satınalma predmeti çərçivəsində texnikanın icarə, lizinq və ya istehsalına dair detallar qeyd edilir) |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |
| 5. | | | | | |

# FORMA 4. Təklif edilən əsas heyətin tərcümeyi-halı və bəyannaməsi

Təchizatçı Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində sadalanan əsas işçi heyət tələblərinə cavab vermək qabiliyyətinə malik olduğunu aydın şəkildə nümayiş etdirmək üçün müvafiq məlumatı hər bir şəxs üçün ayrıca təqdim etməlidir. Bundan başqa, bütün vəzifələr üzrə cəlb ediləcək şəxslərin nəzərdə tutulan fəaliyyət müddətinə dair vaxt cədvəli detallı Qant diaqramı və ya bənzər digər cədvəl formasında təqdim edilməlidir.

<table>
<tr><td colspan="3">Təchizatçının adı: (təchizatçının adını daxil edin)</td></tr>
<tr><td colspan="3">Təklif edilən namizədin vəzifəsi: (Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulmuş vəzifəni daxil edin)</td></tr>
<tr><td>Məşğulluq dövrü</td><td colspan="2">(bu vəzifə öhdəliyi üzrə cəlb ediləcək şəxsin işə başlama və işi bitirmə tarixlərini daxil edin)</td></tr>
<tr><td>İş müddəti</td><td colspan="2">(bu vəzifə öhdəliyi üçün cəlb ediləcək şəxsin planlaşdırılan iş müddətini gün, həftə və ya ay olaraq daxil edin)</td></tr>
<tr><td rowspan="6">Heyət barədə məlumat<br><br>(dil, danışma, oxuma və yazma bacarıqlarının səviyyələri)</td><td>Ad və soyad:<br>(Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulmuş vəzifəyə uyğun hesab edilərək təklif edilən namizədin ad və soyadını daxil edin)</td><td>Doğum günü</td></tr>
<tr><td rowspan="2">Ünvan</td><td>E-poçt</td></tr>
<tr><td>Mobil nömrə</td></tr>
<tr><td colspan="2">Peşəkar sertifikatları</td></tr>
<tr><td colspan="2">Təhsili</td></tr>
<tr><td colspan="2">Dil biliyi:<br>(dil, danışma, oxuma və yazma bacarıqlarının səviyyələri)</td></tr>
<tr><td rowspan="5">İş yeri barədə məlumat</td><td colspan="2">İşəgötürənin adı</td></tr>
<tr><td colspan="2">İşəgötürənin ünvanı</td></tr>
<tr><td colspan="2">Əlaqəli şəxsi (menecer / kadrlar şöbəsinin əməkdaşı)</td></tr>
<tr><td>Telefon</td><td>E-poçt</td></tr>
<tr><td>Vəzifəsi</td><td>Hazırkı iş yerində çalışma müddəti</td></tr>
</table>

Peşəkar təcrübəni tərs xronoloji ardıcıllıqla ümumiləşdirin. Satınalma predmeti ilə əlaqəli xüsusi texniki və idarəetmə təcrübəsini göstərin.

| İş yeri/layihə | Vəzifə | İş müddəti | Müvafiq təcrübə |
|---|---|---|---|
| *(İşəgötürən və ya layihənin əsas detalları)* | *(bu işdə vəzifə və öhdəlikləri)* | *(bu vəzifədə işləmə müddəti)* | *(qeyd olunan təcrübənin cari vəzifə öhdəliklərinə uyğunluğunu təsvir edin)* |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**İltizam**

Mən imza etməklə təsdiqləyirəm ki, bu **FORMA 4**-də verilən məlumatlar mənim ixtisasımı və təcrübəmi düzgün təsvir edir.

Mən təsdiq edirəm ki, yuxarıda qeyd edilən məşğulluq dövrü və iş müddətində işləmək üçün öhdəlik götürürəm.

Mən başa düşürəm ki, bu Formada məlumatların yanlış verilməsi, gizlədilməsi və ya verilməməsi təklifin qiymətləndirilməsində nəzərə alınaraq mənim satınalmadan, müqavilə bağlandıqda isə müqavilənin icrasından uzaqlaşdırılmağıma səbəb ola bilər.

**Namizədin adı və soyadı:*(adı və soyadı daxil edin*)**

İmza: ________________________________________________________

Tarix: **(tarixi daxil edin)**

**Təchizatçının səlahiyyətli nümayəndəsinin adı və soyadı: (adı və soyadı daxil edin)**

İmza: ________________________________________________________

Tarix:**(tarixi daxil edin)**

# FORMA 5. Təchizatçı haqqında

| |
|---|
| Təchizatçının adı: **(təchizatçının adını daxil edin)** |
| Birgə fəaliyyət göstərdikdə hər bir üzvün adı: **(hər bir üzvün hüquqi adını qeyd edin)** |
| Təchizatçının qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Təchizatçının təsis ili: **(ili qeyd edin)** |
| Təchizatçının hüquqi və faktiki ünvanları: **(ünvanı qeyd edin)** |
| Təchizatçının səlahiyyəti nümayəndəsi haqqında:<br>• adı və soyadı:**(adı və soyadı daxil edin)**<br>• ünvanı: **(ünvanı qeyd edin)**<br>• əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 6. Birgə fəaliyyət haqqında

*(tətbiq olunursa hər bir birgə fəaliyyət göstərən üzvü üçün ayrı-ayrılıqda doldurulur)*

| |
|---|
| Birgə fəaliyyət göstərənin adı: (təchizatçının adını daxil edin) |
| Birgə fəaliyyət göstərən üzvünün adı: **(üzvün hüquqi adını qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin üzvün qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün təsis ili: **(ili qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün faktiki və hüquqi ünvanı: **(ünvanı qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin səlahiyyətli nümayəndəsi haqqında:<br>• adı və soyadı:**(adı və soyadı daxil edin)**<br>• ünvanı: **(ünvanı qeyd edin)**<br>• əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 7. Oxşar işlər üzrə təcrübə

| **Sıra №-si** | **Başlanma və bitmə tarixi** | **Satınalan təşkilat və əlaqə vasitələri** *(ünvanı, e-poçtu və telefonu)* | **Müqavilənin predmeti** | **İcra olunan işlərin cari satınalma predmetinə bənzərliyinin təsviri** *(yeri, əsas komponentləri, miqdarları/həcmləri və s.)* | **Müqavilənin məbləği** *(AZN ilə)* | **İcra vəziyyəti** *(davam edirsə tamamlanma faizi qeyd edilir)* | **Təchizatçının rolu** |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | (Təchizatçı, subpodratçı və ya birgə fəaliyyət üzvü) |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |
| 5. | | | | | | | |

# FORMA 8. Subpodratçılar haqqında məlumat

| Sıra №-si | Subpodratçının hüquqi adı və VÖEN-i | Əlaqə vasitəsi | Həyata keçirəcəyi işlərin təsviri | Müqavilə məbləğində payı (faizlə) |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |
| 5. | | | | |

# FORMA 9. Təklifin təminatı

Qarantiya nömrəsi: **(qarant tərəfindən doldurulur)**
Satınalan təşkilat: **(satınalan təşkilatın adı)**
Satınalma predmeti: **(satınalma predmetini daxil edin)**
Tarix: **(tarixi daxil edin)**

Nəzərə alaraq ki, **(təchizatçının adını daxil edin)** (VÖEN-i: **(təchizatçının VÖEN-ini daxil edin)**) (bundan sonra - təchizatçı) yuxarıda qeyd olunmuş satınalma predmetində nəzərdə tutulan işlərin yerinə yetirilməsi üçün təklifini (bundan sonra – təklif) təqdim edəcəkdir, təchizatçının müraciəti əsasında biz, **(qarantın ünvanını daxil edin)** ünvanında yerləşən **(qarantın adını daxil edin)** (**(qarantın VÖEN-ini daxil edin)**) (bundan sonra – qarant) **(satınalan təşkilatın adı)** (VÖEN-i: **(satınalan təşkilatın VÖEN-ini daxil edin)**) (bundan sonra – satınalan təşkilat) qarşısında satınalan təşkilatın təchizatçının aşağıdakı öhdəliyə (öhdəliklərə) əməl etməməsi barədə müraciəti əsasında **(təklif təminatının məbləğini rəqəmlə və sözlə daxil edin)** məbləği əsaslandırma, sübut və ya səbəblərini göstərməyi tələb etmədən satınalan təşkilata geri qaytarılmayacaq şəkildə ödəyəcəyimizə öhdəlik götürürük:

(a) təchizatçı təklif məktubunda qeyd etdiyi təklifin qüvvədə olduğu müddətdə təklifini geri götürmüşdür və (və ya)

(b) təchizatçı tərəfindən təqdim edilmiş təklifin ilkin və ya uzadılmış qüvvədə olduğu müddətində aksept bildirişini aldığı halda (i) 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalamamışdır və ya (ii) şərtlər toplusuna əsasən tələb olunan icra təminatını təqdim etməmişdir.

Bu təminat aşağıdakı hallarda qüvvədən düşmüş hesab olunur:

(a) Təchizatçı və satınalan təşkilat tərəfindən imzalanmış müqavilə və icra təminatının nüsxəsi təqdim edildikə və ya

(b) Təchizatçı qalib olmadığı təqdirdə (hansı birinci baş versə):
   i. satınalmanın nəticələri barədə təchizatçıya göndərilmiş bildiriş təqdim edildikdə və ya
   ii. təklifin qüvvədə olma müddətindən sonra 30 (otuz) iş günü keçdikdə **(tarixi daxil edin)**.

Bu təminat çərçivəsindəki hər hansı tələb qaranta yuxarıda qeyd olunan tarixdə və ya ondan öncə təqdim edilməlidir.

Qarant bu öhdəlikləri öz adından, öz varislərinin və müvəkkillərinin adından götürür.

Bu təminat Azərbaycan Respublikasında qüvvədə olan müvafiq qanunvericilik ilə tənzimlənir.

Qarantın adından və tapşırığı ilə **(imzalar)**

# (B) İŞLƏRƏ DAİR TƏLƏBLƏR

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar (satınalma predmetinin ətraflı təsviri, zəruri texniki və keyfiyyət xüsusiyyətləri (o cümlədən planlar, çertyojlar (cizgilər) və eskizlər), işlərin görülməsi yeri, qrafiki və s.) daxil edilir. Yalnız istehsal olunmuş mal partiyası üçün tətbiq olunan sertifikatların (məsələn uyğunluq, mənşə və s.), həmçinin şərtlər toplusunun tələblərinə uyğun hazırlanmış mallara dair nümunələrin təqdim olunması kimi şərtlərin tələblərə daxil edilməsinə yol verilmir (belə tələblər müqavilə şərtlərinə daxil edilə və ya şərtlər toplusunun tələblərinə bənzər xüsusiyyətdə istehsal olunmuş mallara Təchizatçı ilə razılaşdırılmış yerdə baxış keçirilə bilər)]*

# (C) SATINALMA MÜQAVİLƏSİ

*[Qanunun 38.15-ci maddəsinə əsasən işlər üzrə satınalma müqaviləsinin nümunəvi forması müvafiq qaydada doldurularaq əlavə edilir]*

___________________________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 30 dekabr tarixli 503 nömrəli
Qərarı ilə **təsdiq edilmişdir.**

**6 nömrəli əlavə**

## (satınalma predmetini daxil edin)

---

*mallarının*

QAPALI TENDER METODU

ilə satın alınması üçün

# ŞƏRTLƏR TOPLUSU

SATINALAN TƏŞKİLAT: **(satınalan təşkilatın adını daxil edin)**

ELAN TARİXİ: **(elan tarixini daxil edin)**

## MÜNDƏRİCAT


(A) SATINALMA PROSEDURLARI

**I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT** ............ 3

**A. Ümumi** ............ 3

**1. Satınalma haqqında** ............ 3

**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar** ............ 3

**3. Təchizatçıların münasibliyi** ............ 3

**4. Malların və əlaqədar xidmətlərin münasibliyi** ............ 5

**B. Şərtlər toplusunun məzmunu** ............ 6

**5. Şərtlər toplusunun tamlığı** ............ 6

**6. Şərtlər toplusuna dair izahat** ............ 6

**7. Şərtlər toplusunda dəyişiklik edilməsi** ............ 7

**C. Təkliflərin hazırlanması** ............ 7

**8. Satınalma xərcləri** ............ 7

**9. Təklifin tərtib olunmasının dili** ............ 7

**10. Təklifə daxil olan sənədlər** ............ 8

**11. Təklif məktubu və cədvəllər** ............ 8

**12. Alternativ təklif** ............ 9

**13. Satınalma predmetinin bölünməsi** ............ 9

**14. Təklifin qiyməti** ............ 9

**15. Təklifin və ödənişin məzənnəsi** ............ 9

**16. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)** ............ 10

**17. Uyğunluq sənədləri** ............ 10

**18. Təklifin qüvvədə olma müddəti** ............ 11

**19. Təklifin təminatı** ............ 11

**20. Təklifin formatı və imzalanması** ............ 13

**D. Təkliflərin təqdim olunması və açılması** ............ 14

**21. Təkliflərin möhürlənməsi və işarələnməsi** ............ 14

**22. Təkliflərin təqdim edilməsinin son müddəti** ............ 14

**23. Gecikmiş təkliflər** ............ 14

**24. Təkliflərin geri götürülməsi, əvəzlənməsi və ya dəyişdirilməsi** ............ 14

**25. Təkliflərin açılması** ............ 15

**E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** ............ 16

**26. Məxfilik (konfidensiallıq)** ............ 16

**27. Təkliflərə dair izahat** ............ 17

**28. Formal tələblərə uyğunluğun müəyyən edilməsi** ............ 17

**29. Əhəmiyyətsiz uyğunsuzluqlar** ............ 18

**30. Hesab səhvlərinin düzəldilməsi** ............ 18

**31. Vahid valyutaya konvertasiya** ............ 19

**32. Satınalma güzəşti** ............ 19

**33. Subpodratçılar** ............ 19

**34. Təkliflərin qiymətləndirilməsi** ............ 20

**35. Təkliflərin müqayisəsi** ............ 20

**36. Həddindən artıq ucuz təkliflər** ............ 21

**37. Təchizatçının uyğunluq göstəriciləri** ............ 21

**38. Qalib təklifin seçilməsi** ............ 21

39. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ ..... 22
40. Satınalmanın nəticələri barədə bildiriş ..... 22
41. Gözləmə müddəti ..... 23
F. Qalibin seçilməsi ..... 23
42. Qalibin seçilməsi proseduru ..... 23
43. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi ..... 23
44. Müqavilənin imzalanması ..... 23
45. Bağlanılmış müqavilə barədə məlumatın verilməsi ..... 23
46. İcra təminatı ..... 23
G. Şikayət verilməsi ..... 24
47. Şikayət vermək hüququ ..... 24
48. Satınalan təşkilata şikayət ..... 24
49. AİBNDX-yə şikayət ..... 25
50. Satınalmanın dayandırılması ..... 26
51. İnzibati qaydada şikayət ..... 26
H. Müqavilə ..... 26
52. Müqavilə şərtləri ..... 26
II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ ..... 28
III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ-UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI ..... 34
IV BÖLMƏ. SATINALMA FORMALARI ..... 48
FORMA 1. Təklif məktubu ..... 48
FORMA 2. Qiymət cədvəli ..... 50
FORMA 3. Təchizatçı haqqında ..... 51
FORMA 4. Birgə fəaliyyət haqqında ..... 52
FORMA 5. Oxşar malların göndərilməsi üzrə təcrübə ..... 53
FORMA 6. Subpodratçılar haqqında məlumat ..... 54
FORMA 7. Təklifin təminatı ..... 55
FORMA 8. İstehsalçının icazəsi ..... 56
(B) MALLARA DAİR TƏLƏBLƏR
(C) SATINALMA MÜQAVİLƏSİ

# I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT

## A. Ümumi

**1. Satınalma haqqında**

1.1. **Satınalma məlumat vərəqində (1)** qeyd edilən satınalan təşkilat tərəfindən *(B) Mallara dair tələblər* sənədində nəzərdə tutulmuş malların və tətbiq olunduğu halda əlaqədar xidmətlərin maliyyə vəsaiti hesabına dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun görülməsi üçün bu şərtlər toplusu hazırlanmışdır. Satınalma predmeti, satınalan təşkilatın adı, VÖEN-i və satınalan təşkilatın əlaqələndirici şəxsi barədə məlumatlar **Satınalma məlumat vərəqində (1)** qeyd edilir.

1.2. Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanunundan (bundan sonra – Qanun) və digər normativ hüquqi aktlardan ibarətdir.

1.3. Təkliflərin qiymətləndirilməsi zamanı aşağıdakı anlayışlar tətbiq edilir:

(a) “Kənara çıxma” şərtlər toplusunda göstərilən tələblərdən yayınmadır;

(b) “Qeyd-şərt” məhdudlaşdırıcı şərtlərin müəyyən edilməsi və ya şərtlər toplusunda göstərilən tələblərin tam qəbul edilməsindən boyun qaçırmadır;

(c) “Çatışmazlıq” şərtlər toplusunda tələb olunan məlumat və ya sənədlərin bir hissəsinin və ya hamısının təqdim edilməməsidir.

1.4. Bu şərtlər toplusunda istifadə olunan digər anlayışlar Qanun və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar**

2.1. Satınalan təşkilat “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa riayət olunmasını tələb edir.

**3. Təchizatçıların münasibliyi**

3.1. **Satınalma məlumat vərəqində (2)** göstərilən Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların

satınalmada iştirak etməsinə məhdudiyyətlər qoyulduğu hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident təchizatçı (fiziki şəxs, hüquqi şəxs, o cümlədən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün hüquqi və (və ya) fiziki şəxslərin müqavilə əsasında yaratdığı müvəqqəti və ya daimi birliyi (bundan sonra – birgə fəaliyyət) daxil olmaqla) Azərbaycan Respublikasında keçirilən satınalmalarda iştirak edə bilər. Təchizatçı nizamnaməsi (və ya buna bərabər tutulan sənədləri) və ya qeydiyyat sənədləri ilə müəyyən olunduğu ölkənin qanunlarının müddəalarına uyğun olaraq yaradılmış, təsis edilmiş və ya qeydiyyatdan keçmiş və fəaliyyət göstərdiyi təqdirdə həmin ölkəyə mənsub hesab edilir. Müqavilənin hər hansı hissəsinin icrasına cəlb edilməsi təklif edilən subpodratçıların ölkə mənsubiyyəti bu meyar əsasında müəyyən edilir.

3.2. Təchizatçının iştirak etdiyi satınalmada Qanunun 6.1-ci maddəsinə əsasən maraqlar toqquşması olmamalıdır. *(Qanunun 6.1-ci maddəsindən çıxarış:*

*Təchizatçıların aşağıdakı hallarda (satınalma predmetinin yalnız hər hansı konkret təchizatçıda olduğu, yaxud satınalma predmetinin əvəzedicisi və alternativi olmadığı hallar istisna olmaqla) satınalmalarda iştirakına yol verilmir, bu hallar müəyyən olduqda satınalmadan kənarlaşdırılır:*

- *təchizatçının satınalan təşkilatdan və ya satınalan təşkilatla təchizatçının eyni qurumdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olduqda;*
- *təchizatçılardan biri digərinin benefisiar mülkiyyətçisi olduqda, yaxud təchizatçıların azı ikisi eyni benefisiar mülkiyyətçinin nəzarətində olduqda;*
- *təchizatçılardan biri digərinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı olduqda, yaxud təchizatçıların azı ikisinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı eyni şəxs olduqda;*
- *satınalmada təchizatçı qismində çıxış edən fiziki şəxs və ya hüquqi şəxsin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsinə əsasən aidiyyəti şəxsi satınalan təşkilatın rəhbəri ilə qohumluq (ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürənlər, övladlığa götürülmüş şəxslər, babalar, nənələr, nəvələr, doğma (ögey) bacılar və qardaşlar, bacı və qardaşların övladları, bacıların ərləri, qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, ər-arvadların valideynləri, bacıları və qardaşları) münasibətində*

*olduqda).*

3.3. Birgə fəaliyyətin üzvü olaraq və ya fərdi şəkildə alternativ təkliflərə icazə verilən hallar istisna olmaqla təchizatçılar eyni satınalma üzrə birdən artıq təklif təqdim etməməli və ya birdən artıq təklifdə iştirak etməməli, həmçinin həmin satınalmada iştirak edən digər təchizatçının subpodratçısı olmamalıdır. Bu hal aşkarlandıqda həmin təchizatçıların təqdim etdikləri və (və ya) iştirak etdikləri bütün təkliflər kənarlaşdırılır.

3.4. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar bu məqsədlə tərəflərin hər birinin imzaladığı müqaviləyə və ya müqavilə layihəsi əlavə edilməklə müqavilə bağlamaq barədə tərəflərin hər birinin imzaladığı niyyət məktubuna malik olmalıdır. Bu halda birgə fəaliyyət göstərmək istəyən tərəflərin hər birinin müqavilənin müqavilə şərtlərinə uyğun icrası üçün birgə və fərdi məsuliyyət daşıması və tərəflər arasındakı iş öhdəliklərinin bölgüsü barədə müddəalar birgə fəaliyyət müqaviləsinə və ya müqavilə layihəsinə daxil edilməlidir. Birgə fəaliyyət onun adından və tərəfləri üçün satınalmada iştirak və müqavilə bağlandıqda isə müqavilənin icrasını təmin etmək məqsədilə müvafiq səlahiyyətə malik nümayəndə təyin edir. **Satınalma məlumat vərəqində (3)** göstərilmədiyi təqdirdə, birgə fəaliyyətin üzvlərinin sayına məhdudiyyət qoyulmur.

3.5. Qanunun 16-cı maddəsi ilə tənzimlənən qaydada etibarsız təchizatçıların reyestrinə daxil edilmiş təchizatçıların müəyyən olunmuş müddətdə satınalmalarda iştirakına yol verilmir. Etibarsız təchizatçıların reyestri etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalında (bundan sonra – Portal) yerləşdirilir.

3.6. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru keçirildikdə, yalnız uyğunluq göstəricilərinə cavab verən təchizatçılar satınalmada iştirak edə bilərlər.

**4. Malların və əlaqədar xidmətlərin münasibliyi**

4.1. Müqavilə çərçivəsində Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçılar və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçılar tərəfindən malların (materialların, avadanlıqların və s.) təchiz edilməsinə və xidmətlərin göstərilməsinə yol verilmir. Satınalan təşkilatın tələbi ilə təchizatçılardan malların və xidmətlərin mənşəyinə dair

sübut təqdim etmələri tələb oluna bilər.

4.2. Mallar anlayışı Qanunun 1.1.13-cü maddəsinə əlavə olaraq əmtəə, xammal, maşın, avadanlıq, sənaye qurğuları və sığorta, quraşdırma, təlim, ilkin texniki qulluq kimi əlaqədar xidmətləri əhatə edir.

4.3. Malların mənşə ölkəsi qanunvericiliklə müəyyən edilmiş qaydada təyin edilir.

## B. Şərtlər toplusunun məzmunu

**5. Şərtlər toplusunun tamlığı**

5.1. Şərtlər toplusu aşağıda verilmiş bütün bəndləri əhatə edən və təchizatçılar üçün təlimatın (bundan sonra – Təlimat) 6-cı hissəsinə uyğun olaraq ona edilən dəyişikliklər və əlavələrlə birlikdə nəzərə alınmalı olan aşağıdakı bölmələrdən ibarətdir:

- A. SATINALMA PROSEDURLARI
  - I Bölmə. Təchizatçılar üçün təlimat
  - II Bölmə. Satınalma məlumat vərəqi
  - III Bölmə. Qiymətləndirmə və uyğunluq meyarları
  - IV Bölmə. Satınalma formaları
- B. MALLARA DAİR TƏLƏBLƏR
- C. SATINALMA MÜQAVİLƏSİ

5.2. Təchizatçıdan şərtlər toplusunda verilmiş bütün təlimat, forma, tələb, texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri) ilə tanış olması və şərtlər toplusunda tələb edilən bütün məlumat və sənədləri təqdim etməsi tələb olunur.

5.3. Satınalan təşkilatdan birbaşa əldə edilmədiyi təqdirdə satınalan təşkilat şərtlər toplusunun tamlığı, şərtlər toplusunda aydın olmayan hallarla bağlı sorğularına, əvvəlki görüşlərin (əgər olubsa) nəticələri barədə protokollara və (və ya) Təlimatın 6-cı hissəsinə uyğun olaraq şərtlər toplusuna edilmiş dəyişikliklərə görə məsuliyyət daşımır. Hər hansı ziddiyyət olduqda, Satınalan təşkilatdan birbaşa əldə olunan sənədlər üstünlük təşkil edir.

**6. Şərtlər toplusuna dair izahat**

6.1. Təchizatçı şərtlər toplusunda aydın olmayan hallarla bağlı təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 5 (beş) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (4)** qeyd olunan tarix və vaxt) satınalan təşkilata **Satınalma məlumat vərəqində (5)** qeyd olunan əlaqə vasitələrilə sorğu ünvanlaya bilər. Satınalma komissiyası sorğunu aldıqdan sonra 2 (iki) iş günü ərzində sorğuya cavab verir. Sorğu və ona verilən cavab sorğu verənin gizliliyi təmin

edilməklə həmin gün dəvət göndərilmiş bütün təchizatçılara təqdim edilir.

6.2. Sorğu və ona verilən cavab şərtlər toplusuna əlavə edilərək onun ayrılmaz tərkib hissəsi hesab edilir.

6.3. Satınalan təşkilatla təchizatçılar arasında görüş keçirildiyi zamanı iştirak haqqını ödəmiş bütün təchizatçılar üçün bərabər iştirak imkanları yaradılır və görüş videomüşahidə vasitələrinin nəzarəti altında aparılaraq nəticələri protokolla rəsmiləşdirilir. Protokol nəzərə alınmaq üçün dəvət göndərilmiş bütün təchizatçılara həmin gün təqdim edilir və Portalda yerləşdirilir. Satınalan təşkilatla təchizatçılar arasında qeyri-rəsmi danışıqlar aparılması və görüşlərin keçirilməsi qadağandır.

**7. Şərtlər toplusunda dəyişiklik edilməsi**

7.1. Satınalma komissiyası təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (6)** qeyd olunan tarix və vaxtadək) şərtlər toplusuna hər hansı təchizatçının sorğusu əsasında və ya texniki səhvlər və ya çatışmazlıqlar aşkar edildikdə öz təşəbbüsü ilə dəyişikliklər (satınalma predmetinin dəyişdirilməsi istisna olmaqla) edə bilər.

7.2. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə şərtlər toplusunda hər hansı dəyişiklik edilməsinə, habelə bununla bağlı hər hansı sorğuya, təklifə və icazəyə yol verilmir.

7.3. Satınalma komissiyası şərtlər toplusuna dəyişikliklər etdiyi halda təkliflərin təqdim edilməsi müddətini ən azı 5 (beş) iş gününədək uzadır. Təchizatçının əsaslandırılmış müraciəti əsasında təkliflərin təqdim edilməsi müddəti 10 (on) iş gününədək uzadıla bilər.

7.4. Şərtlər toplusuna edilmiş dəyişiklik onun ayrılmaz tərkib hissəsi hesab edilir. Dəyişikliklər dəvət göndərilmiş bütün təchizatçılara təqdim edilir və bütün təchizatçılar üçün məcburi qüvvəyə malikdir.

## C. Təkliflərin hazırlanması

**8. Satınalma xərcləri**

8.1. Təchizatçı öz təklifini hazırlamaq və təqdim etməklə bağlı bütün xərcləri özü çəkir və satınalan təşkilat satınalma prosesinin nəticəsindən asılı olmayaraq, həmin xərclərə görə məsuliyyət və ya öhdəlik daşımır.

**9. Təklifin tərtib olunmasının dili**

9.1. Təklif və həmçinin təchizatçı ilə satınalan təşkilat arasında bütün yazışmalar və sənəd mübadiləsi Azərbaycan dilində aparılır. Satınalma komissiyasının qərarı ilə satınalmalara dair sənədlər **Satınalma məlumat vərəqində (7)** nəzərdə

tutulmuş xarici dillərdən birinə (bir neçəsinə) tərcümə oluna bilər. Bu halda, satınalmalara dair sənədlər arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

9.2. Təklifin tərkibinə daxil olan müşayiətedici sənədlər və çap materialları tərcüməsi ilə verilmək şərtilə, başqa dildə ola bilər. Təchizatçının xarici dildə təqdim etdiyi sənədlərin Azərbaycan dilinə notarial qaydasında təsdiqlənmiş tərcüməsi təqdim olunmalıdır. Təklif ilə tərcüməsi arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

**10. Təklifə daxil olan sənədlər**

10.1. Təchizatçı təqdim etdiyi təklifə aşağıdakıları əlavə edir:

(a) Təlimatın 11-ci hissəsinin tələbləri nəzərə alınmaqla təklif məktubu;

(b) Təlimatın 11-ci və 14-cü hissələrinin tələbləri əsasında qiymətləndirilmiş qiymət cədvəli daxil olmaqla digər cədvəllər;

(c) Təlimatın 19.1-ci bəndinin tələbləri nəzərə alınmaqla təklifin təminatı;

(d) icazə verildiyi təqdirdə Təlimatın 12-ci hissəsinin tələbləri nəzərə alınmaqla alternativ təklif;

(e) səlahiyyət: Təlimatın 20.3-cü və 21.4-cü bəndlərinə uyğun olaraq təklifi imzalayan şəxsin səlahiyyətli olduğunun yazılı təsdiqi;

(f) uyğunluq: Təlimatın 17-ci hissəsinin tələbləri nəzərə alınmaqla uyğunluq sənədləri, habelə şərtlər toplusunda nəzərdə tutulduğu halda, subpodratçının müəyyən olunmuş tələblərə uyğun olması barədə sənədlər;

(g) münasiblik: Təlimatın 16-cı hissəsinin tələbləri nəzərə alınmaqla texniki təklif;

(h) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində tələb olunan digər sənədlər.

10.2. Təlimatın 10.1-ci bəndinin tələblərinə əlavə olaraq, birgə fəaliyyət tərəfindən təqdim edilən təklifə bütün tərəflərin imzaladığı birgə fəaliyyət müqaviləsinin surəti daxil edilməlidir. Alternativ olaraq, satınalmada qalib olacağı təqdirdə birgə fəaliyyət müqaviləsinin icrasına dair niyyət məktubunu bütün tərəflər imzalamalı və birgə fəaliyyət müqavilə layihəsi ilə birlikdə təqdim etməlidirlər.

**11. Təklif məktubu və cədvəllər**

11.1. Təklif məktubu və qiymət cədvəli Satınalma formaları (IV) bölməsində verilmiş müvafiq formalardan istifadə edilməklə hazırlanmalıdır. Formalar mətnə heç bir dəyişiklik edilmədən doldurulmalıdır və Təlimatın 20.3-cü

bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla, heç bir əvəzedici qəbul edilə bilməz. Bütün boş xanalara tələb olunan məlumatlar yazılmalıdır.

**12. Alternativ təklif**

12.1. **Satınalma məlumat vərəqində (8)** başqa hal nəzərdə tutulmayıbsa, alternativ təkliflər nəzərə alınmayacaq.

**13. Satınalma predmetinin bölünməsi**

13.1. **Satınalma məlumat vərəqində (9)** nəzərdə tutulduğu təqdirdə heç bir təklif satınalma predmetinin tam həcmdə icrasını təmin etmədikdə, bu zaman bir neçə təchizatçının hissəvi təkliflərinin cəmi bir təchizatçının təklifindən daha səmərəli və ya qiyməti daha aşağı olarsa, habelə satınalma predmetinin daha yüksək həcmdə icrasını təmin edərsə, satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünür.

13.2. Təlimatın 13.1-ci bəndində bölünməsi nəzərdə tutulan hissələrin ətraflı təsviri **Satınalma məlumat vərəqində (9)** göstərilir.

**14. Təklifin qiyməti**

14.1. Təklif məktubunda və qiymət cədvəlində göstərilən qiymətlər bu hissədə göstərilən tələblərə cavab verməlidir.

14.2. Təchizatçı qiymət cədvəlində göstərilən bütün bəndlərə qiymət daxil etməlidir. Təchizatçı tərəfindən qiymət daxil edilməyən və həmin hissələrin əlavə ödənişsiz icra edilməsi ilə bağlı qeyd olan bəndlərin qiymət cədvəlinə daxil edilən digər qiymətlərlə əhatə edildiyi qəbul ediləcəkdir. Hər hansı qeyd olmadan qiymət daxil edilməyən bəndləri olan təklif natamam hesab ediləcəkdir.

14.3. Azərbaycan Respublikasının ərazisindən kənarda satın alınan malların göndərilməsinə dair tələblər Parisdə Beynəlxalq Ticarət Palatası tərəfindən nəşr edilən və qüvvədə olan "Ticarət terminlərinin təfsirinin beynəlxalq Qaydaları "Inkoterms 2020" şərtlərinə, Azərbaycan Respublikasının ərazisi daxilində malların göndərilməsinə dair tələblər və şərtlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq müəyyənləşdirilir və bu barədə məlumat **Satınalma məlumat vərəqində (10)** göstərilir.

14.4. Yekun qiymət təklif məktubunda göstərilməlidir.

14.5. Qiymət endirimlərinə icazə verilmir.

**15. Təklifin və ödənişin məzənnəsi**

15.1. Təchizatçılar (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təkliflərində qiymətləri Azərbaycan Respublikasının pul vahidi – manatla göstərməlidirlər.

15.2. Qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri sərbəst dönərli xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim

edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə əsas götürülməlidir.

**16. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)**

16.1. Təchizatçı *(B) Mallara dair tələblər* sənədində qeyd olunan tələblərə cavab verdiyini göstərmək və təklifinin yetərliliyini nümayiş etdirmək üçün Satınalma formaları (IV) bölməsində nəzərdə tutulmuş hər hansı digər məlumat daxil olmaqla kifayət qədər təfərrüatlı texniki təklif təqdim etməlidir.

16.2. Təklif edilən hər bir avadanlığın, texnikanın, məhsulun və digər malların özünəməxsus texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri), o cümlədən konkret əmtəə nişanı və adı, modeli, istehsal mənbəyi (mənşə ölkəsi) və istehsalçısına aid məlumatlar və istehsalçının texniki məlumat vərəqi (hansı varsa) təklifə əlavə edilməlidir.

16.3. Təchizatçı həmçinin malların **Satınalma məlumat vərəqində (11)** göstərilən müddətdə fasiləsiz və müntəzəm çalışa bilməsi (istismar edilməsi) üçün ehtiyat hissələrin, xüsusi alətlərin və bunların əldə edilməsi mənbələri və qiymətlərini təqdim etməlidir.

16.4. İşçilik, əməliyyat, material və avadanlıqlar üçün *(B) Mallara dair tələblər* sənədinə daxil edilmiş standartlar, həmçinin əmtəə nişanlarına və kataloq nömrələrin istinadlar malları yalnız təsvir etmək, məhdudlaşdırmamaq məqsədi daşıyır. Təchizatçı *(B) Mallara dair tələblər* sənədində verilmiş tələblərə cavab vermək və ya üstələmək şərti ilə istənilən digər keyfiyyət standartları, əmtəə nişanları, kataloq nömrələrindən istifadə edə bilər.

**17. Uyğunluq sənədləri**

17.1. Təchizatçıların uyğunluq göstəriciləri təchizatçılara dair ümumi və xüsusi tələblərdən ibarətdir.

17.2. Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinin tələblərinə uyğun olaraq təchizatçılar müqaviləni icra etmək imkanlarını göstərmək üçün Satınalma formaları (IV) bölməsinə daxil edilən müvafiq məlumat vərəqələrini təmin etməli, habelə Qanunun 23-cü maddəsinə əsasən təchizatçıların uyğunluq göstəricilərini təsdiq edən sənədlər (bundan sonra – uyğunluq sənədləri) təqdim etməlidir.

17.3. Təchizatçının qalib olduğu təqdirdə müqaviləni satınalan təşkilatı qane edəcək şəkildə icra etmək bacarıqlarının sənədli sübutu olaraq aşağıdakıları təmin edəcəkdir:

(a) **Satınalma məlumat vərəqində (12)** tələb olunduğu təqdirdə təklif etdiyi malları özü istehsal etməyən təchizatçı Satınalma formaları (IV) bölməsinə daxil

edilən formadan istifadə edərək malların istehsalçısı tərəfindən təchiz edilən malların satınalan təşkilatın ölkəsində səlahiyyətli nümayəndə olduğunu göstərən istehsalçı icazəsini təqdim edəcək;

(b) **Satınalma məlumat vərəqində (13)** tələb olunduğu təqdirdə biznesi satınalan təşkilatın ölkəsində olmayan təchizatçının texniki qulluq, təmir və ehtiyat hissələrin saxlanılması imkanlarına malik nümayəndəlik yaradaraq təchizatçının müqavilədə və (və ya) *(B) Mallara dair tələblər* sənədində müəyyən edilən satış sonrası xidmət öhdəliklərini həyata keçirəcək.

**18. Təklifin qüvvədə olma müddəti**

18.1. Təkliflər **Satınalma məlumat vərəqində (14)** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 7-ci hissəsinə uyğun uzadılmış tarixədək qüvvədə olmalıdır. **Satınalma məlumat vərəqində** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 7-ci hissəsinə uyğun uzadılmış tarixə qədər qüvvədə olmayan təkliflər formal tələblərə uyğun gəlməyən təklif kimi kənarlaşdırılır.

18.2. Satınalma komissiyası ən çoxu təkliflərin ilkin qüvvədə olduğu müddət qədər təkliflərin qüvvədə olma müddətinin uzadılmasını təchizatçılardan tələb edə bilər. Təkliflərin qüvvədə olma müddətinin uzadılması tələbi ilə razılaşan təchizatçılar təklifin təminatının qüvvədə olma müddətinin təklifin qüvvədə olma müddətindən azı 30 (otuz) iş günü çox olmaqla uzadılmasını və ya uzadılmış müddət üçün yeni təminatın verilməsini təmin edirlər. Təchizatçı təklifin təminatına olan hüququnu itirmədən satınalma komissiyasının belə tələbindən imtina edə bilər.

**19. Təklifin təminatı**

19.1. Təchizatçı (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təklifin tərkib hissəsi olaraq **Satınalma məlumat vərəqində (15)** qeyd edilmiş məbləğdə Azərbaycan manatı ilə, qeyri-rezident hüquqi və fiziki şəxslər isə Azərbaycan manatı ilə və ya elanın verilməsi (dəvətin göndərilməsi) tarixinə Azərbaycan Respublikasının Mərkəzi Bankının müəyyən etdiyi məzənnəyə uyğun olaraq sərbəst dönərli valyuta ilə təkliflə birlikdə təklifin təminatını təqdim etməlidir, əks təqdirdə təklif qəbul edilmir.

19.2. Təklifin təminatı qarant tərəfindən qarantiya, sığorta təminatı, akkreditiv, depozitlər və digər maliyyə aktivləri şəklində verilir. Satınalma komissiyası qaranta və ya ehtimal olunan qiyməti 5 (beş) milyon manatdan yuxarı olan satınalmalara münasibətdə hər hansı qarantın verdiyi

təminatı təsdiqləyən tərəf (əgər tələb olunursa), habelə digər şərtlərə dair hər hansı tələbini, habelə təklif üçün tələb olunan təminatın növünü **Satınalma məlumat vərəqində (16)** göstərir. Təklifin təminatı Satınalma formaları (IV) bölməsinə daxil edilən "Təklifin təminatının nümunəsi" və ya təklif təqdim edilməzdən əvvəl satınalma komissiyası ilə razılaşdırılmış digər əhəmiyyətli dərəcədə oxşar nümunədən istifadə olunaraq təqdim edilməlidir. Təklifin təminatının qüvvədə olma müddəti təklifin ilkin və ya dəyişdirilibsə Təlimatın 7-ci hissəsinə uyğun uzadılmış qüvvədə olma müddətindən azı 30 (otuz) iş günü çox olmalıdır.

19.3. Təchizatçının təklifinin təminatı aşağıdakı hallarda dərhal geri qaytarılır:

(a) satınalmada ilk üç yerdən birini tutmayan təchizatçılara – satınalmanın nəticələrinə dair yekun protokol təsdiq olunduqda;

(b) satınalmada ikinci və üçüncü yerləri tutan təchizatçılara – qalib təchizatçı ilə bağlanan satınalma müqaviləsi qüvvəyə mindikdə;

(c) qalib təchizatçı istisna olmaqla, digər təchizatçılara – təkliflərin qüvvədə olma müddəti bitdikdə;

(d) bütün təchizatçılara – təkliflərin təqdim edilməsinin son müddəti bitməmişdən əvvəl təklif geri götürüldükdə və ya satınalma ləğv edildikdə;

(e) təkliflərin qüvvədə olma müddətinin uzadılması təşəbbüsü ilə razı olmayan təchizatçılara – təkliflərin qüvvədə olma müddəti bitdikdə;

(f) qalib təchizatçıya – satınalma müqaviləsi imzalandıqda və icra təminatı təqdim edildikdə.

19.4. Aşağıdakı hallarda təchizatçının təklifinin təminatı geri qaytarılmır:

(a) təchizatçı təkliflərin təqdim edilməsinin son müddəti bitdikdən sonra və ya təklifin qüvvədə olma müddəti bitənədək öz təklifini geri götürdükdə və ya dəyişdirdikdə;

(b) təklifin akseptinə dair bildirişi almış qalib təchizatçı müəyyən olunmuş müddətdə satınalma müqaviləsini imzalamadıqda və (və ya) icra təminatını təqdim etmədikdə;

(c) təklifin akseptinə dair bildirişi almış qalib təchizatçı satınalma müqaviləsi imzalananadək şərtlər toplusunda göstərilmiş hər hansı digər şərtləri yerinə yetirmədikdə.

19.5. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar tərəfindən

təqdim edilən təklifin təminatında bütün tərəflərin hüquqi adları göstərilməlidir.

**20. Təklifin formatı və imzalanması**

20.1. Təchizatçı Təlimatın 10-cu hissəsində göstərildiyi kimi təklifi təşkil edən sənədlərin bir əslini hazırlamalı və onu üstündə aydın şəkildə "ƏSLİ" qeyd etməlidir. Alternativ təkliflərə Təlimatın 12-ci hissəsinə uyğun olaraq icazə verilirsə, aydın şəkildə "ALTERNATİV" qeyd edilməlidir. Bundan əlavə, təchizatçı təklifinin **Satınalma məlumat vərəqində (17)** göstərilən sayda nüsxəsini təqdim etməli və onlara aydın şəkildə "NÜSXƏ" qeyd etməlidir. Əsli ilə nüsxə arasında hər hansı uyğunsuzluq olduqda, paketlərin əsli üstünlük verilir.

20.2. Təchizatçılar təkliflərində biznesləri üçün məxfi olan bütün məlumatları "MƏXFİ" kimi qeyd etməlidirlər. Buraya mülkiyyət məlumatları, ticarət sirləri və ya kommersiya/maliyyə baxımından həssas məlumatlar daxil ola bilər.

20.3. Təklifin əsli və bütün nüsxələri silinməz mürəkkəblə çap olunmalı və ya yazılmalı və təchizatçı adından imzalamaq səlahiyyətinə malik olan şəxs tərəfindən imzalanmalıdır. Təklif təchizatçının rəhbəri və ya digər vəzifəli şəxsi tərəfindən imzalanmalıdır. Təklifi təchizatçının rəhbəri imzaladıqda həmin təchizatçının təsis və hüquqi və ya fiziki şəxsin qeydiyyat sənədlərini təqdim etməlidir. Təklifi imzalayan digər vəzifəli şəxs olduğu təqdirdə isə həmin vəzifəli şəxsə imza səlahiyyətlərinin verilməsinə dair həmin təchizatçının rəhbəri tərəfindən səlahiyyəti təsdiq edən sənəd – etibarnamə təqdim edilməlidir.

20.4. Təchizatçı birgə fəaliyyət göstərdiyi halda, təklif birgə fəaliyyət göstərən təchizatçıların səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmalıdır. Həmin nümayəndənin imza səlahiyyətinə malik olması 21.3-cü bəndinin tələbləri nəzərə alınmaqla birgə fəaliyyət göstərən təchizatçıların rəhbərləri tərəfindən imzalanmış etibarnamə ilə təsdiq edilir.

20.5. İstənilən sətirlərarası xətlər, silmələr və ya təkrar yazılar yalnız təklifi imzalayan şəxs tərəfindən imzalandıqda və ya paraflandıqda etibarlı hesab olunur.

20.6. Bütün rəqəmlər həm də sözlə yazılır. Rəqəm və söz arasında fərq olarsa, söz ilə ifadə olunan məbləğ əsas götürülür.

## D. Təkliflərin təqdim olunması və açılması

**21. Təkliflərin möhürlənməsi və işarələnməsi**

21.1. Təchizatçı təklifini tək, möhürlənmiş zərfdə təqdim etməlidir. Təchizatçı tək zərfdə aşağıdakıları ayrıca möhürlənmiş zərfləri yerləşdirir:

(a) Təlimatın 10-cu hissəsində təsvir olunduğu kimi, təklifi təşkil edən bütün sənədlər "ƏSLİ" qeyd olunmuş zərfdə;

(b) Təklifin bütün tələb olunan nüsxələri "NÜSXƏLƏRİ" yazılmış zərfdə;

(c) Təlimatın 14-cü hissəsinə uyğun olaraq alternativ təkliflərə icazə verilirsə və müvafiq olduqda:

i. "ƏSLİ – ALTERNATİV TƏKLİF" qeyd olunmuş zərfdə alternativ təklif;

ii. "NÜSXƏLƏR - ALTERNATİV TƏKLİF" qeyd olunmuş zərfdə alternativ təklifin bütün tələb olunan nüsxələri.

21.2. Daxili və xarici zərflərdə:

(a) təchizatçını adı və ünvanı göstərilməli;

(b) Təlimatın 22.1-ci bəndinə uyğun olaraq satınalma komissiyasına ünvanlanmalı;

(c) təkliflərin açılışı vaxtından və tarixindən əvvəl təkliflərin açılmamalı olması barədə xəbərdarlıq olmalıdır.

21.3. Zərflər tələb olunan qaydada möhürlənməyib işarələnmədiyi təqdirdə satınalma komissiyası təklifin səhv yönləndirilməsi və ya tələb olunan tarixdən əvvəl açılmasına görə məsuliyyət daşımır.

**22. Təkliflərin təqdim edilməsinin son müddəti**

22.1. Təkliflər onların təqdim edilməsi üçün **Satınalma məlumat vərəqində (18)** müəyyən edilən müddət başa çatmasına ən geci 1 (bir) saat qalanadək qeyd olunan əlaqə vasitələri ilə kağız daşıyıcılarında satınalan təşkilata təqdim edilir.

**23. Gecikmiş təkliflər**

23.1. Təlimatın 22-ci hissəsi ilə müəyyən olunmuş müddətdən gec təqdim olunan təklif qəbul edilmir. Təklif açılmadan təchizatçıya qaytarılır və onun satınalmada iştirakına yol verilmir.

**24. Təkliflərin geri götürülməsi, əvəzlənməsi və ya dəyişdirilməsi**

24.1. Təchizatçı təkliflərin təqdim edilməsi müddəti bitənədək öz təklifini dəyişdirə, əvəzləyə və ya geri götürə bilər. Bunun üçün təchizatçı Təlimatın 10.1(e) bəndində nəzərdə tutulan təklifi imzalayan şəxsin səlahiyyətli olduğunun yazılı təsdiqi əlavə etməklə müvafiq səlahiyyətli nümayəndə tərəfindən yazılı bildiriş göndərməlidir. Müvafiq bildiriş dəyişdirilmiş və ya əvəzlənmiş təklifə də daxil edilir. Bütün bildirişlər:

(a) Təlimatın 20-ci və 21-ci hissələrinə uyğun hazırlanaraq təqdim edilməli və əlavə olaraq müvafiq zərflərin üzərində aydın şəkildə "GERİ GÖTÜRMƏ",

"ƏVƏZLƏNMƏ" və ya "DƏYİŞDİRMƏ" yazısı yazılmalı;

(b) Təlimatın 22-ci hissəsi nəzərə alınmaqla təkliflərin təqdim olunmasının son müddətindən əvvəl satınalan təşkilata çatdırılmalıdır.

24.2. Təlimatın 24.1-ci bəndinə uyğun olaraq geri götürülməsi istənilən təklif açılmadan təchizatçıya qaytarılır.

24.3. Təkliflərin təqdim edilməsinin son müddəti, o cümlədən uzadılmış müddəti bitdikdən sonra və ya təchizatçı tərəfindən təklif məktubunda qeyd edilən təklifin qüvvədə olma müddəti bitənədək təklifin geri götürdükdə və ya dəyişdirdikdə təchizatçı təklifin təminatına olan hüququnu itirir.

**25. Təkliflərin açılması**

25.1. Təkliflərin son təqdim olunması müddətinə qədər təqdim olunmuş təkliflər satınalma komissiyası tərəfindən **Satınalma məlumat vərəqində (19)** qeyd olunan tarixdə, vaxtda və yerdə açılır.

25.2. Təkliflər açılarkən hər bir təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı və atasının adı), ünvanı, VÖEN-i, təklifinin qiyməti və təklifin təminatının məbləği və qüvvədə olma müddəti səsləndirilir.

25.3. Təchizatçı və ya onun səlahiyyətli nümayəndəsi təkliflərin açılışında iştirak edə bilər. Təklif təqdim etmiş, lakin təkliflərin açılışında iştirak etməyən təchizatçılara bütün təchizatçıların təkliflərinə dair elan olunmuş məlumatlar göndərilir. Təchizatçının və ya onun müvəkkilinin təkliflərin açılmasında iştirak etməməsi satınalma komissiyasının həmin təchizatçını satınalmadan kənarlaşdırmasına əsas vermir.

25.4. Əvvəlcə "GERİ GÖTÜRMƏ" qeyd olunmuş zərflər açılaraq oxunmalı və müvafiq təklifi olan zərf açılmayaraq təchizatçıya qaytarılmalıdır. Müvafiq geri götürmə bildirişində geri götürmə tələbi üçün etibarlı icazə olmadığı və təklifin açılışında oxunmadığı təqdirdə heç bir təklifin geri götürülməsinə icazə verilmir.

25.5. Daha sonra "ƏVƏZLƏNMƏ" qeyd olunmuş zərflər açılaraq oxunmalı və ilkin təklif əvəz edilməli təkliflə dəyişdirilərək açılmadan təchizatçıya geri qaytarılmalıdır. Müvafiq əvəzlənmə bildirişində əvəzlənmə tələbi üçün etibarlı icazə olmadığı və təklifin açılışında oxunmadığı təqdirdə heç bir təklifin əvəzlənməsinə icazə verilmir.

25.6. Növbəti olaraq "DƏYİŞDİRMƏ" qeyd olunmuş zərflər açılmalı və müvafiq təklif ilə birlikdə oxunmalıdır. Müvafiq dəyişdirmə bildirişində dəyişdirmə tələbi üçün etibarlı icazə

olmadığı və təklifin açılışında oxunmadığı təqdirdə heç bir təklifin dəyişdirilməsinə icazə verilmir.

25.7. Sonda bütün qalan zərflər bir-bir açılmalı və hər bir təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), ünvanı, VÖEN-i, təklifinin varsa alternativ təklifinin qiyməti və təklifin təminatının məbləği və qüvvədə olma müddəti , habelə satınalma komissiyasının müvafiq hesab etdiyi digər məlumatlar oxunmalıdır. Oxunan məlumatlar qeyd edilməklə müvafiq açılış protokolu tərtib edilərək satınalma komissiyasının üzvləri təchizatçının nümayəndələri tərəfindən imzalanmalıdır. Təchizatçının imzasının olmamalası protokolu etibarsız etmiş. Protokolun bir nüsxəsi bütün təchizatçılara paylanmalıdır.

25.8. Yalnız açılmış və oxunmuş təkliflər, alternativ təkliflər qiymətləndirmə zamanı nəzərə alınmalıdır. Təklif məktubu və iş həcmləri cədvəli açılışda iştirak edən satınalma komissiyasının bütün üzvləri tərəfindən qaydada paraflanmalıdır

## E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi

**26. Məxfilik (konfidensiallıq)**

26.1. Məhkəmənin, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra – AİBNDX), Azərbaycan Respublikası Hesablama Palatasının və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin qanunla müəyyən edilmiş hüquq və vəzifələrinin icrası ilə bağlı məlumatların açıqlanması halları istisna olmaqla, satınalan təşkilat digər hallarda təchizatçıların kommersiya sirri təşkil edən və ya qanunla qorunan digər məlumatlarını açıqlamır və onları məxfi (konfidensial) saxlayır.

26.2. Təchizatçılar tərəfindən təqdim edilən uyğunluq sənədləri və təkliflər, bağlanan satınalma müqaviləsinin surəti, satınalma müqaviləsi uzunmüddətlidirsə və ya mərhələlərlə həyata keçirilirsə, icrasının gedişi haqqında mütəmadi məlumatlar, satınalan təşkilatla təchizatçı arasında satınalma müqaviləsinin icrası, mübahisəli məsələlərin həlli ilə əlaqədar sənədlər və satınalma müqaviləsinin tam icra edilməsi haqqında satınalan təşkilatla təchizatçı arasında imzalanan təhvil-təslim aktı istisna olmaqla, satınalmaya dair hesabata əlavə edilən digər sənədlər təklifin akseptindən, yaxud satınalma müqaviləsinin bağlanması ilə nəticələnməyən satınalma yekunlaşdıqdan sonra 7 (yeddi) iş günü ərzində sorğu əsasında təklif təqdim edən təchizatçılara verilir.

26.3. Təchizatçı satınalmanın istənilən mərhələsində Qanunun tələblərinə zidd hərəkətlərə (hərəkətsizliyə) yol verdikdə, o cümlədən saxta sənəd və (və ya) məlumat təqdim etdikdə satınalma komissiyası həmin təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

26.4. Təchizatçı Təlimatın 26.3-cü bəndinin tələblərini nəzərə almaqla satınalma prosesi ilə əlaqədar olan hər hansı məsələ ilə bağlı satınalma komissiyası ilə yalnız **Satınalma məlumat vərəqində (5)** qeyd olunan əlaqə vasitələrilə əlaqə saxlaya bilər.

26.5. Satınalan təşkilat təqdim olunan təkliflərə yalnız onların açılmasından sonra baxır və həmin müddətədək bu təkliflərin tamlığını, bütövlüyünü və konfidensiallığını qoruyur.

26.6. Məxfi məlumatlarla əlaqəli satınalma zamanı satınalan təşkilat təchizatçılardan və onların subpodratçılarından məxfi məlumatların qorunmasını və mühafizəsini tələb edir.

**27. Təkliflərə dair izahat**

27.1. Uyğunluq sənədlərinin və təkliflərin qiymətləndirilməsini asanlaşdırmaq məqsədilə satınalma komissiyası təchizatçıdan təqdim etdiyi uyğunluq sənədlərinə və ya təkliflərə dair izahat tələb edə bilər. Təchizatçı tərəfindən satınalma komissiyasının sorğusuna uyğun verilməyən cavablar nəzərə alınmır. Satınalma komissiyası tərəfindən qiymətləndirmə zamanı Təlimatın 30-cu hissəsinə uyğun aşkarlanmış hesab səhvlərinin düzəldilməsi istisna olmaqla, təklifin qiymətlərində və ya mahiyyətində heç bir dəyişiklik, o cümlədən könüllü artım və ya azalma tələb edilməsinə yol verilmir.

27.2. Təchizatçı bu cür izahatı 5 (beş) iş günü ərzində satınalan təşkilata təqdim etmədiyi təqdirdə onun təklifi kənarlaşdırıla bilər.

**28. Formal tələblərə uyğunluğun müəyyən edilməsi**

28.1. Satınalma komissiyası Qanunun 33-cü maddəsinin tələblərini nəzərə almaqla Təlimatın 10-cu hissəsində göstərilmiş tələblərə cavab verən təklifi formal tələblərə uyğun təklif hesab edir.

28.2. Təklif əhəmiyyətli dərəcədə uyğun təklif hesab edilməsi üçün aşağıdakı hallar nəzərə alınmaqla əsaslı kənara çıxma, qeyd-şərt və çatışmazlıq olmadan şərtlər toplusunun tələblərinə cavab verməlidir:

(a) qəbul edildiyi təqdirdə: (i) müqavilədə göstərilən Malların həcminə, keyfiyyətinə və ya icrasına hər hansı əhəmiyyətli şəkildə təsir edəcək və ya (ii) şərtlər

toplusunun tələblərinə zidd olaraq satınalan təşkilatın hüquqlarını və ya təklif olunan müqavilə çərçivəsində təchizatçının öhdəliklərini əsaslı şəkildə məhdudlaşdıracaq və ya

(b) düzəldildiyi təqdirdə, əhəmiyyətli dərəcədə uyğun hesab edilən digər təchizatçıların rəqabət mövqeyinə ədalətsiz təsir göstərəcək.

28.3. Satınalma komissiyası xüsusilə, *(B) Mallara dair tələblər* sənədində qeyd olunan bütün tələblərin, heç bir əsaslı kənara çıxma, qeyd-şərt və ya çatışmazlıq olmadan yerinə yetirildiyini təsdiqləmək üçün Təlimatın 16-cı hissəsinə uyğun olaraq təqdim edilmiş təklifin texniki aspektlərini yoxlamalıdır.

28.4. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə əsaslı kənara çıxmaya, qeyd-şərtə və ya çatışmazlığa düzəliş edilməsinə yol verilmədən kənarlaşdırılır.

**29. Əhəmiyyətsiz uyğunsuzluqlar**

29.1. Təklifdə onun mahiyyətini dəyişdirməyən, şərtlər toplusunda göstərilmiş xüsusiyyətlərə, şərtlərə və başqa tələblərə əhəmiyyətli dərəcədə xələl gətirməyən, aradan qaldırılması mümkün olan kiçik texniki səhvlər və ya çatışmazlıqlar (əhəmiyyətsiz uyğunsuzluqlar) olduqda, həmin səhvlər və ya çatışmazlıqlar kəmiyyətcə ifadə olunur və satınalma komissiyası təklifi formal tələblərə uyğun təklif hesab edir.

29.2. Təklifin əhəmiyyətli dərəcədə uyğun olması şərti ilə, satınalma komissiyası təchizatçının sənədləşdirmə tələbləri ilə bağlı əhəmiyyətsiz uyğunsuzluqları təchizatçıdan 5 (beş) iş günü ərzində aradan qaldırmasını tələb edə bilər. Bu cür uyğunsuzluqlar haqqında məlumat və ya sənədlərin tələb edilməsi təklifin qiymətinin heç bir aspekti ilə əlaqəli olmamalıdır. Təchizatçının qeyd edilmiş müddət ərzində sorğuya cavab verməməsi onun təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.

**30. Hesab səhvlərinin düzəldilməsi**

30.1. Təklifin formal tələblərə uyğun olması şərti ilə satınalma komissiyası aşağıdakı əsaslarla hesab səhvlərini düzəltməlidir:

(a) miqdarın vahidin qiymətinə vurulmaqla əldə edilən hasili ilə vahidin qiyməti arasında ziddiyyət olduqda, vahidin qiyməti əsas götürülməli və hasilə düzəliş edilməlidir. Satınalma komissiyasının rəyinə görə vahidin qiymətinin kəsr bölgüsündə aşkar yanlışlıq olduğu təqdirdə hasil əsas götürülməli və vahidin qiymətinə düzəliş

edilməlidir;

(b) aralıqcəmin toplanması və ya çıxılmasına uyğun cəmi qiymətdə səhv olarsa, belə aralıqcəmə düzəliş edilməlidir;

(c) sözlərlə rəqəmlər arasında ziddiyyət olarsa, sözlərlə ifadə edilmiş miqdarın hesablama səhvi ilə bağlı olması istisna olmaqla, sözlərlə ifadə edilmiş miqdar əsas götürülməlidir. Bu halda rəqəmlərlə verilmiş miqdar yuxarıdakı (a) və (b) bəndləri nəzərə alınmaqla əsasən əsas götürülməlidir.

30.2. Satınalma komissiyası hər hansı belə düzəliş barəsində təklifi vermiş təchizatçıya dərhal bildiriş göndərir. Təchizatçı Təlimatın 30.1-ci bəndə uyğun hər hansı hesab səhvinin düzəldilməsi ilə razılaşmadıqda satınalma komissiyası həmin təchizatçının satınalmadan kənarlaşdırılması haqqında qərar qəbul edir.

**31. Vahid valyutaya konvertasiya**

31.1. Qiymətləndirmə və müqayisə məqsədilə qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri bütövlüklə və ya bir qismi xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə (www.cbar.az/currency/rates) əsas götürülərək Azərbaycan manatına konvertasiya edilməlidir.

**32. Satınalma güzəşti**

32.1. Satınalma komissiyası təklifləri qiymətləndirərkən, yerli mənşəli Mallar üzrə təklifin xeyrinə Qanunun 33.14-cü maddəsində müəyyən edilmiş qaydada 20 faizə qədər həcmdə güzəşti düzəliş tətbiq edir.

**33. Subpodratçılar**

33.1. **Satınalma məlumat vərəqində (20)** nəzərdə tutulduğu təqdirdə, qalib təchizatçı malların görülməsi ilə əlaqədar xidmətlərin göstərilməsi üçün subpodratçılarla müqavilə imzalaya bilər. Bütün digər hallarda satınalma müqaviləsinin icrası subpodratçılara həvalə edilə bilməz. Bu halda təchizatçı təqdim etdiyi təklifə subpodratçıya həvalə ediləcək fəaliyyət (fəaliyyətlər) və ya onların satınalma müqaviləsindəki payı barədə məlumat əlavə etməlidir. Subpodrat müqaviləsinin (müqavilələrinin) məbləği satınalma müqaviləsinin ümumi dəyərinin 50 faizindən çox olmamalıdır. Satınalma müqaviləsinin icrasına subpodratçılar cəlb olunduğu halda, subpodrat müqavilələrinin ümumi məbləğinin 20 faizdən az olmayan hissəsinin icrası Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş mikro, kiçik və orta sahibkarlıq subyektlərinə həvalə olunmalıdır.

33.2. Subpodratçının uyğunluq göstəriciləri şərtlər toplusunda təchizatçı üçün müəyyən edilmiş uyğunluq göstəriciləri tələblərinə cavab vermək üçün istifadə edilməməlidir.

**34. Təkliflərin qiymətləndirilməsi**

34.1. Satınalan təşkilat təklifləri Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulan meyarlara və prosedurlara əsasən qiymətləndirir.

34.2. **Satınalma məlumat vərəqində (21)** nəzərdə tutulduğu təqdirdə təklifi ən səmərəli təklif kimi qiymətləndirərkən qiymət amilinə əlavə olaraq texniki amillər üçün nisbi qiymət (balı) meyarı tətbiq ediləcəkdir. Qiymət amili üçün çəki**,** texniki amillər və onların alt amillərinə veriləcək ballar **Satınalma məlumat vərəqində (21)** göstərilmişdir.

34.3. Təklifi qiymətləndirərkən satınalma komissiyası aşağıdakıları nəzərə alır:

(a) Təlimatın 31.1-ci bəndinə uyğun digər valyutada təklif olduğu təqdirdə vahid məzənnəyə konvertasiya;

(b) Təlimatın 32-ci hissəsinə uyğun olaraq satınalma güzəştinin tətbiqi;

(c) Təlimatın 30.1-ci bəndinə uyğun olaraq hesab səhvinə görə təklifin ümumi qiymətinə düzəliş.

(d) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində müəyyən edilmiş digər qiymətləndirmə meyarları.

34.4. Təklifin qiymətləndirilməsi zamanı Təlimatın 14-cü hissəsində təklifin qiymətinə əlavə olaraq digər amillərin də nəzərə alınması tələb edilə bilər. Bu amillər malların xüsusiyyətləri, funksional göstəriciləri, mallar və əlaqədar xidmətlərin satınalma şərtləri ilə bağlı ola bilər. **Satınalma məlumat vərəqində (22)** başqa hal nəzərdə tutulmadığı təqdirdə seçilmiş amillərin təsiri (əgər varsa), Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə müqayisəni asanlaşdırmaq məqsədilə pul ilə ifadə edilməlidir. İstifadə olunacaq meyarlar və metodologiyalar Təlimatın 34.3(d) bəndində göstərildiyi kimi olmalıdır.

**35. Təkliflərin müqayisəsi**

35.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı qiyməti olan təklifi müəyyən etmək üçün Təlimatın 34.1-ci bəndinə uyğun olaraq müəyyən edilmiş tələblərə əhəmiyyətli dərəcədə cavab verən bütün təkliflərin qiymətləndirilmiş yekun məbləğini müqayisə etməlidir.

35.2. Təlimatın 34.2-ci bəndi tətbiq olunarsa satınalma komissiyası ən səmərəli (qiymət və texniki amillərə görə ən çox bal toplamış) təklifi müəyyən etməlidir.

**36. Həddindən artıq ucuz təkliflər**

36.1. Təchizatçının təqdim etdiyi təklifin qiyməti ehtimal olunan qiymətlə müqayisədə 20 faizdən aşağı olarsa, satınalma komissiyası təchizatçıdan təklif qiymətinin ətraflı təhlili, təklif olunan metodologiya, iş qrafiki, risk və məsuliyyətin paylaşdırılması, habelə şərtlər toplusunun digər tələbləri barədə yazılı izahat almalıdır. Təchizatçının təqdim etdiyi izahat və məlumatlar təhlil edildikdən sonra satınalma müqaviləsinin icrasına əsaslı şübhələr qaldıqda satınalma komissiyası təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

**37. Təchizatçının uyğunluq göstəriciləri**

37.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı məbləği olan və əhəmiyyətli dərəcədə uyğun olan ilk 3 (üç) təchizatçının təklifinin Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində qeyd edilmiş uyğunluq göstəricilərinə cavab verib-vermədiyini müəyyən etməlidir.

37.2. Bunun müəyyənləşdirilməsi üçün Təlimatın 17-ci hissəsinə uyğun olaraq təchizatçı tərəfindən təqdim edilmiş uyğunluq göstəricilərini təsdiq edən sənədlər araşdırılmalı, təchizatçının özündən başqa digər törəməsi və ya tabe olduğu müəssisələr, törəmə və tabeliyində olan müəssisələri, filialları və subpodratçılarının uyğunluq sənədləri nəzərə alınmamalıdır.

37.3. Uyğunluq göstəricilərinə cavab verən təklifin seçilməsi müqavilənin bağlanması üçün ilkin şərtdir. Təlimatın 40.1-ci bəndinin tələbləri yerinə yetirilmədikdə qiymətləndirilmiş ən aşağı məbləği olan növbəti təklif və ya təkliflərin uyğunluq tələblərinə cavab verib-vermədiyi müvafiq qaydada araşdırılır.

37.4. **Satınalma məlumat vərəqində (23)** göstərilən hallarda, satınalma komissiyası tərəfindən əsaslandırılmaqla uyğunluq sənədlərini təqdim etmiş təchizatçıdan satınalmanın istənilən mərhələsində həmin sənədlərin yenidən (bir dəfədən çox olmayaraq) təqdim edilməsi tələb oluna bilər. Bu cür tələb təklifin qüvvədə olma müddətinin bitməsinə 10 (on) iş günü qalanadək irəli sürülür və uyğunluq sənədlərinin yenidən təqdim edilməsi 5 (beş) iş günü ərzində həyata keçirilir.

37.5. Təchizatçının uyğunluq göstəriciləri barədə verdiyi qeyri-dəqiq və natamam məlumat satınalma komissiyasının tələbi ilə 3 (üç) iş günü ərzində aradan qaldırılmalıdır.

**38. Qalib təklifin seçilməsi**

38.1. Uyğunluq göstəricilərinə cavab verən və təklifləri uyğun olan

(a) ən aşağı qiymət təklifi

(b) və ya ən səmərəli təklifi

təqdim edən təchizatçı qalib təchizatçı sayılır.

**39. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ**

39.1. Satınalma komissiyası Qanunun tələblərini nəzərə almaqla qalib təchizatçını seçməzdən əvvəl istənilən vaxt istənilən təklifi aksept etmək və ya kənarlaşdırmaq və satınalmanın ləğv edilməsi haqqında qərar qəbul etmək hüququnu özündə saxlayır və buna görə təchizatçılar qarşısında heç bir məsuliyyət daşımır. Zərflər açılana qədər satınalma ləğv edildiyi halda təklifin təminatları daxil olmaqla təkliflər, zərflər açıldıqdan sonra isə təkliflərin təminatları təchizatçılara dərhal geri qaytarılır.

39.2. Satınalma komissiyası aşağıdakı hallarda satınalmanın ləğv edilməsi haqqında qərar qəbul edir:

(a) satınalmada iştirak etmək üçün təklifi və təklifin təminatını təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayı açıq tender birinci dəfə elan edildikdə üçdən, yetərsay olmamasına görə eyni satınalma ikinci dəfə elan edildikdə isə ikidən az olduqda;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(c) birinci, ikinci və üçüncü yerləri tutmuş təchizatçılar arasından qalib təchizatçını seçmək mümkün olmadıqda;

(d) bütün təchizatçıların təqdim etdiyi təkliflərin qiyməti ehtimal olunan qiymətdən yüksək olduqda;

(e) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən bu Təlimatın 3.2-ci bəndinin tələblərinin pozulduğu müəyyən edildikdə;

(f) satınalmanın maliyyələşdirilməsi dayandırıldıqda.

**40. Satınalmanın nəticələri barədə bildiriş**

40.1. Satınalma komissiyası satınalmanın nəticələri haqqında yekun protokolu imzaladığı gün satınalan təşkilatın adından təklifini aksept etmək istədiyi təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), ünvanı, VÖEN-i, imzalanması nəzərdə tutulan müqavilənin məbləği, habelə gözləmə müddətinin qüvvədə olma tarixləri barədə satınalmadan kənarlaşdırılmamış təchizatçılara Təlimatın 44-cü hissəsi nəzərə alınmaqla bildiriş göndərir. Bildirişdə digər təchizatçıların qalib gəlməməsinin səbəbləri göstərilir.

**41. Gözləmə müddəti**

41.1. Satınalmanın nəticələri barədə bildirişin göndərildiyi gündən sonrakı iş günü gözləmə müddəti başlayır və 5 (beş) iş günü ərzində qüvvədə olur. Gözləmə müddəti bitmədən satınalan təşkilat ilə qalib təchizatçı arasında müqavilə imzalana bilməz.

## F. Qalibin seçilməsi

**42. Qalibin seçilməsi proseduru**

42.1. Təlimatın 39-cu hissəsinin tələbləri nəzərə alınmaqla satınalma komissiyası qalib təchizatçını seçir.

**43. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi**

43.1. Satınalma müqaviləsi qalib təchizatçı tərəfindən imzalananadək satınalma komissiyası əvvəlcədən şərtlər toplusunda göstərmişdirsə, satınalma predmetinin hər vahidinin qiymətini və xüsusiyyətlərini (göstəricilərini) dəyişdirməmək, həmçinin ehtimal olunan qiyməti keçməmək şərti ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin razılığı ilə satınalma predmetinin həcmini (miqdarını) 10 faizə qədər artırıb-azalda bilər.

**44. Müqavilənin imzalanması**

44.1. Satınalan təşkilat təklifin şərtlər toplusunda göstərilmiş qüvvədə olma müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək qalib təchizatçının təklifini aksept edir və satınalma müqaviləsini tərtib edib təchizatçıya aksept bildirişi ilə birlikdə göndərir.

44.2. Qalib təchizatçı 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalayır və satınalan təşkilata bu Qanuna əsasən tələb olunan icra təminatını təqdim edir. Satınalan təşkilat satınalma müqaviləsini 10 (on) iş günündən gec olmayaraq imzalayır.

**45. Bağlanmış müqavilə barədə məlumatın verilməsi**

45.1. Satınalma komissiyası satınalma müqaviləsi qüvvəyə mindiyi gündən 3 (üç) iş günü ərzində satınalan təşkilatın və müqaviləni bağlamış təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), VÖEN-i, satınalma predmeti, satınalma metodu, müqavilənin məbləği və icra müddəti barədə Portalda məlumat yerləşdirir.

**46. İcra təminatı**

46.1. İcra təminatının məbləği satınalma müqaviləsinin ümumi məbləğinin 10 faizi (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 5 faizi) həcmində müəyyən olunur. İcra təminatının qüvvədə olma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda, zəmanət müddəti daxil olmaqla) 30 (otuz) iş günü çox olmalıdır.

46.2. Ümumi məbləği 30 000 (otuz min) manatdan az olan satınalma müqaviləsi üzrə icra təminatı tələb olunmur.

46.3. Qalib təchizatçının Təlimatın 44.2-ci bəndində qeyd olunan müddət ərzində satınalma müqaviləsini imzalamaması və (və ya) Qanuna əsasən tələb olunan icra təminatını təqdim etməməsi onun öz öhdəliklərini icra edə bilməməsi kimi qiymətləndirilir və təklifin təminatının geri qaytarılmaması ilə nəticələnir.

## G. Şikayət verilməsi

**47. Şikayət vermək hüququ**

47.1. Hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə təchizatçıların satınalan təşkilatın hərəkətlərindən (hərəkətsizliyindən) və qərarlarından inzibati qaydada, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət vermək hüququ vardır.

47.2. Aşağıdakılar şikayət predmeti ola bilməz:

(a) Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinin məhdudlaşdırılması;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmaması və satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirilməsi halları istisna olmaqla qanuni əsaslarla satınalmanın ləğv edilməsi.

**48. Satınalan təşkilata şikayət**

48.1. Satınalmadan kənarlaşdırılmamış təchizatçılar satınalan təşkilata satınalmanın nəticələri ilə bağlı öz şikayətlərini gözləmə müddətində verirlər. Satınalan təşkilat gözləmə müddətində verilmiş şikayəti 5 (beş) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

48.2. Kənarlaşdırılmış və ya iştirak etməyən təchizatçılar satınalma müqaviləsi qüvvəyə minənə qədər öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 15 (on beş) iş günü ərzində satınalan təşkilata şikayət verə bilərlər. Satınalan təşkilat verilmiş şikayəti 10 (on) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir və həmin qərarın qəbul edildiyi gündən 1 (bir) iş günü ərzində şikayət edən təchizatçıya göndərir.

48.3. Şikayət gözləmə müddəti və ya Təlimatın 48.2-ci bəndi ilə müəyyən edilən müddət keçdikdən sonra verilmişdirsə,

satınalan təşkilat həmin şikayəti baxılmamış saxlayır.

48.4. Satınalan təşkilat Təlimatın 48.1-ci və 48.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmirsə, təchizatçı bununla bağlı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət verə bilər. Belə şikayət verildikdən sonra satınalan təşkilat tərəfindən həmin şikayət baxılmamış saxlanılır.

**49. AİBNDX-yə şikayət**

49.1. Təchizatçılar aşağıdakı hallarda İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilər:

(a) satınalma müqaviləsi qüvvəyə mindikdə;

(b) satınalma komissiyası Qanunun və Qanundan irəli gələn normativ hüquqi aktların tələblərini pozduqda;

(c) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(d) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən satınalmalarda maraqlar toqquşmasının tələbləri pozulduğu müəyyən edildikdə;

(e) Satınalan təşkilat Təlimatın 48.1-ci və 48.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmədikdə;

(f) verilmiş şikayətlə bağlı satınalan təşkilatın qərarı ilə razılaşmadığı halda.

49.2. Təchizatçılar öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən, habelə Təlimatın 49.1(f) bəndində nəzərdə tutulmuş qərarı aldığı gündən və ya həmin qərarın verilməli olduğu gündən 15 (on beş) iş günü ərzində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilərlər.

49.3. AİBNDX şikayəti aldıqdan sonra 1 (bir) iş günü ərzində bu barədə satınalan təşkilata Portal vasitəsilə bildiriş göndərir. Şikayətdə qaldırılan məsələlərin araşdırılması üçün əlavə məlumat tələb olunduğu təqdirdə AİBNDX satınalan təşkilata Portal vasitəsilə sorğu göndərir. Satınalan təşkilat sorğunu aldıqdan sonra 3 (üç) iş günü ərzində sorğuda tələb olunan məlumatları İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə təqdim edir.

49.4. AİBNDX verilmiş şikayəti 20 (iyirmi) iş günü ərzində

araşdıraraq müvafiq qərar qəbul edir.

49.5. AİBNDX şikayəti təmin edirsə aşağıdakı tədbirlərdən birini və ya bir neçəsini tətbiq edir.

(a) satınalan təşkilata qanunazidd hərəkətlər (hərəkətsizlik) etməyi və ya qərarlar qəbul etməyi, yaxud prosedurlar tətbiq etməyi qadağan etmək;

(b) satınalan təşkilatın qanunazidd inzibati aktını "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 67-ci maddəsinə uyğun olaraq ləğv etmək;

(c) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd hərəkətini (hərəkətsizliyini) dayandırmaq;

(d) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd qərarını ləğv etmək və yeni qərar qəbul etmək və ya satınalan təşkilatın əvəzinə öz qərarını qəbul etmək;

(e) təkliflərin yenidən qiymətləndirilməsi və ya satınalmanın ləğv edilməsi barədə qərar qəbul etmək.

**50. Satınalmanın dayandırılması**

50.1. Təlimatın 48-ci və 49-cu hissələrinə əsasən verilən şikayətin (gözləmə müddətində verilən şikayət istisna olmaqla) araşdırılması məqsədilə "İnzibati İcraat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinə uyğun olaraq İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qərarı ilə satınalan təşkilat tərəfindən satınalma prosedurları 10 (on) iş gününədək dayandırıla bilər. Bu müddət İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsaslandırılmış qərarı ilə 10 (on) iş gününədək uzadıla bilər.

**51. İnzibati qaydada şikayət**

51.1. Təchizatçılar AİBNDX-nin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və məhkəməyə şikayət verə bilərlər.

## H. Müqavilə

**52. Müqavilə şərtləri**

52.1. Təchizatçı təklifini formalaşdırarkən satınalma müqavilə-sinin tələblərini nəzərə almalıdır.

52.2. Satınalma müqaviləsində aşağıdakı məlumatlarından çıxarış **Satınalma məlumat vərəqində (24)** də göstərilir:

(a) satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği;

(b) avans;

(c) satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları;

(d) satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları;

(e) tətbiq edildikdə, satınalma predmetinin sığortalanması

şərtləri.

52.3. Satınalma müqaviləsi ilə şərtlər toplusunda qeyd edilən məlumatlar arasında ziddiyyət olarsa şərtlər toplusu üstünlük təşkil edir.

# II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ

Satın alınacaq Mallar üçün aşağıdakı spesifik məlumatlar Təlimatın müddəalarını tamamlayır, aydınlaşdırır və ya dəyişdirir. Hər hansı bir ziddiyyət yarandıqda, aşağıdakı müddəalar Təlimatdakı müddəalardan üstün olacaqdır.

*[Satınalma məlumat vərəqini doldurmaq üçün zəruri təlimatlar istinad olunan müvafiq Təlimatın üçün kursivlə yazılmış qeydlərdə təqdim olunur və şərtlər toplusu doldurulduqdan sonra silinir]*

| Sıra №-si | Bənd | Məzmun | Məlumat |
|---|---|---|---|
| | | **A. Ümumi** | |
| (1) | 1.1. | Satınalma predmeti: | **(satınalma predmetini daxil edin)** |
| | | Satınalan təşkilatın adı:<br>VÖEN-i: | **(satınalan təşkilatın adını daxil edin)**<br>**(VÖEN-i daxil edin)** |
| | | Satınalan təşkilatın əlaqələndirici vəzifəli şəxsi barədə məlumat: | **(soyadı, adı və atasının adını daxil edin)**<br>**(vəzifəsini daxil edin)**<br>**(əlaqə məlumatlarını daxil edin)** |
| (2) | 3.1. | Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma: | **(iştirakı məhdudlaşdırılan ölkələr və ya məhdudlaşdırılma şərtləri barədə məlumatı daxil edin)**<br>*[Əgər belə hallar nəzərdə tutulmayıbsa "nəzərdə tutulmayıb" qeyd edin]* |
| (3) | 3.3. | Birliyin üzvlərinin maksimal sayı: | **(sayı daxil edin)** |
| | | **B. Şərtlər toplusunun məzmunu** | |
| (4) | 6.1. | Şərtlər toplusuna dair izahat üçün son müddət: | **(tarix və saatı daxil edin)** |
| (5) | | Şərtlər toplusuna dair izahat üçün satınalan təşkilatın əlaqə vasitələri: | Təklifə dair izaha üçün satınalan təşkilatın ünvanı.<br>*[Bu ünvan təklifi təqdim etmək üçün Təlimatın 22.1-də göstərilən ünvanla eyni və ya fərqli ola bilər]*<br>Kimə: **(əgər varsa, şəxsin tam adını daxil edin)**<br>Ünvan: **(rayon, qəsəbə göstərilməklə küçə ünvanını və nömrəsini daxil edin)**<br>Mərtəbə/ Otaq nömrəsi: **(əgər varsa mərtəbə və otaq nömrəsini daxil edin)**<br>Şəhər: **(şəhərin adını daxil edin)** |

| | | | |
|---|---|---|---|
| | | | Poçt kodu: **(əgər varsa, poçt (poçt) kodunu daxil edin)**<br>Ölkə: **(ölkənin adını daxil edin)**<br>Telefon: **(ölkə və şəhər kodları daxil olmaqla şəhər telefonu və əgər varsa mobil nömrəsini daxil edin)**<br>Elektron poçt ünvanı: **(əgər varsa, e-poçt ünvanını daxil edin)**<br>Veb-səhifə: **(istifadə edildiyi təqdirdə satınalma prosesi ilə bağlı məlumat mübadiləsi ediləcəyi vebsaytı müəyyənləşdirin)** |
| (6) | 7.1. | Şərtlər toplusuna dəyişiklik üçün son müddət: | **(tarix və saatı daxil edin)** |
| | | **C. Təkliflərin hazırlanması** | |
| (7) | 9.1. | Satınalmalara dair sənədlərin tərcümə olunacağı dil(lər): | Tərcümə **(olunacaq / olunmayacaq)**.<br>*[tərcümə olunacaqsa dili qeyd edin, əks təqdirdə silin]*<br>**(dili daxil edin)** |
| (8) | 12.1. | Alternativ təklif: | Alternativ təkliflə icazə **(verilir / verilmir)**.<br>*[Alternativ təkliflərə icazə verilərsə, Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində onun metodologiyası müəyyən edilməlidir.]* |
| (9) | 13.1. | Satınalma predmetinin bölünməsi | Satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünməsinə və təchizatçıların satınalma predmetinin ayrı-ayrı hissələri üçün təkliflər təqdim etməsinə icazə **(verilir / verilmir)**.<br><br>*[icazə verilirsə malların hissələrini və bölünmə şərtlərini qeyd edin, əks təqdirdə silin]*<br>**(satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünməsi ilə bağlı şərtləri və bölünməsinə icazə verilən hissələri ətraflı təsvir edin)** |
| (10) | 14.3. | Çatdırılma, o cümlədən tətbiq olunan Inkoterms şərtləri | **(şərtləri daxil edin)** |
| (11) | 16.3. | İstismar müddəti (ehtiyat hissələri məqsədilə) | **(müddəti daxil edin)** |

| | | | |
|---|---|---|---|
| (12) | 17.3(a) | İstehsalçı icazəsi | **(tələb olunur / olunmur)**<br><br>*[Müqavilə üzrə yalnız bəzi maddələr üçün İstehsalçının icazəsi tələb olunursa, istehsalçının icazəsi tələb olunan maddələri sadalayın. İstehsalçı icazəsi əsasən həlledici əhəmiyyətli və texniki cəhətdən mürəkkəb məhsullar üçün tələb olunur. Hazır, standart məhsullara bu tələb adətən şamil edilmir]* |
| (13) | 17.3(b) | Satış sonrası xidmət | **(tələb olunur / olunmur)** |
| (14) | 18.1. | Təklifin qüvvədə olma müddəti | Təklif ən azı **(tarixi daxil edin)** tarixinə qədər qüvvədə olmalıdır<br>*[təklifin qiymətləndirilməsini yekunlaşdırmaq, lazımi razılıqları, o cümlədən nəticələrin AİBNDX ilə razılaşdırmaq üçün lazım olan ağlabatan vaxt nəzərə alınmaqla tarixi qeyd edin]* |
| (15) | 19.1. | Təklifin təminatının məbləği | **(təklif təminatının məbləğini rəqəmlə və sözlə daxil edin)**<br><br>*[Təklifin təminatını ehtimal olunan qiymətin 1-3 faizi aralığında müəyyənləşdirir. Məbləğin yuvarlaq və kəsrsiz olması tövsiyə olunur]* |
| (16) | 19.2. | Qarant və qarantın verdiyi təminatı təsdiqləyən tərəf barəsində tələblər | **(varsa qeyd edin, yoxdursa “yoxdur” yazın)**<br><br>Təklifin təminatı **(təminatın formasını seçin)** şəklində verilir. |
| (17) | 20.1. | Təklifin nüsxə sayı | Təklifin əslinə əlavə olaraq **(nüsxə sayını daxil edin)** sayda nüsxə. |
| **D. Təkliflərin təqdim olunması və açılması** | | | |
| (18) | 22.1. | Təkliflərin təqdim edilməsinin son müddəti | **(tarix və saatı daxil edin)**<br><br>*Təkliflərin cəlb edilməsi barədə dəvət təkliflərin açılması günündən azı aşağıdakı müddətlərdən əvvəl göndərilir:*<br>• *ehtimal olunan qiymət 1 000 000 manatadək olduqda 15 (on beş) iş günü,*<br>• *1 000 000 manatdan 10 000 000 manatadək olduqda 20 (iyirmi) iş günü,*<br>• *10 000 000 manat və ondan çox olduqda 30 (otuz) iş günü*<br>*Təkliflərin hazırlanması və təqdim edilməsi üçün icazə verilən vaxt predmetin xüsusiyyəti, miqyası və mürəkkəbliyi nəzərə alınmaqla müəyyən edilməlidir]* |

| | | | |
|---|---|---|---|
| (19) | 25.1. | Təkliflərin açılmasının müddəti və yeri | **(tarix və saatı daxil edin)**<br><br>*[Təkliflər Təlimatın 24.1-ci bəndində qeyd olunan vaxtdan sonra 1 saat ərzində açılır]*<br><br>Təkliflərin açılması üçün satınalan təşkilatın ünvanı:<br>Ünvan: **(rayon, qəsəbə göstərilməklə küçə ünvanını və nömrəsini daxil edin)**<br>Mərtəbə/ Otaq nömrəsi: **(əgər varsa mərtəbə və otaq nömrəsini daxil edin)**<br>Şəhər: **(şəhərin adını daxil edin)**<br>Poçt kodu: **(əgər varsa, poçt (poçt) kodunu daxil edin)**<br>Ölkə: **(ölkənin adını daxil edin)** |
| **E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** | | | |
| (20) | 33.1. | Subpodratçı | Subpodratçının cəlb edilməsinə icazə **(verilir / verilmir)**.<br><br>Subpodratçı üçün tələblər: **(tələbləri daxil edin)**<br><br>*[Məsələn, subpodratçının həyata keçirməsi nəzərdə tutulan fəaliyyət sahəsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növü olarsa müvafiq lisenziya əlavə edilməlidir]* |
| (21) | 34.2. | Qiymətləndirmə meyarlarının nisbi qiyməti (balı) və çəkisi | Meyarların nisbi qiyməti (balı) **(tətbiq ediləcək / edilməyəcək)**<br><br>*[Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində təfərrüatlı olaraq qiymətləndirilmiş meyarlar/bal sistemi təklifi qiymətləndirmə yanaşması tətbiq edilərsə, "tətbiq ediləcək" seçin].*<br><br>Qiymət amilinin çəkisi: **(çəkini daxil edin)**<br><br>*[məbləğ üçün elə bir çəki göstərin ki, texniki və məbləğ nisbətlərinin cəmi 1 (bir) olsun. Bu çəkinin 70%-dən aşağı olmaması tövsiyə olunur. Təlimatın 34.2 bəndi tətbiq edilmirsə, bu qeydi silin]*<br><br>Texniki amilin çəkisi və bölgüsü (100%-i keçməməklə hesablanır): |

<table>
<tr>
<td></td>
<td></td>
<td></td>
<td>
<table>
<tr><th>Texniki amillər</th><th>Nisbi çəkisi</th></tr>
<tr><td>1. Malların göndərilməsi müddətləri</td><td>çəkini daxil edin</td></tr>
<tr><td>2. Malların funksional xüsusiyyətləri</td><td>çəkini daxil edin</td></tr>
<tr><td>3. Zəmanət şərtləri</td><td>çəkini daxil edin</td></tr>
</table>
<br>
[Yuxarıda göstərilən texniki amillər çərçivəsindən kənara çıxmamaq şərtilə konkret göstəricilər və qiymətləndirmə prosedurları <u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində müəyyən edilməlidir və texniki təklifin qiymətləndirilməsi üçün tələb olunan sənədlər bu qiymətləndirməni aparmağı imkan verməlidir. Çəkilər texniki amillərin nisbi əhəmiyyəti baxımından bölüşdürülməlidir]
</td>
</tr>
<tr>
<td>(22)</td>
<td>34.4.</td>
<td>Qiymətin tənzimlənməsində istifadə ediləcək meyarlar</td>
<td>
a) Çatdırılma qrafikindən kənarlaşma (tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)<br>
b) istismar, texniki xidmət və təmir xərcləri (tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)<br>
c) ödəniş qrafikindən kənarlaşma (tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)<br>
d) əsas əvəzedici komponentlərin, məcburi ehtiyat hissələrinin və xidmətin xərci (tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)<br>
e) avadanlığın fəaliyyət göstəricisi və məhsuldarlığı (tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)<br>
f) təklif olunan avadanlıq üçün ehtiyat hissələrinin və satışdan sonrakı xidmətlərin satınalan təşkilatın ölkəsində mövcudluğu
</td>
</tr>
</table>

| | | | |
|---|---|---|---|
| | | | **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)**<br>**g) (Tətbiq ediləcək digər xüsusi meyarları Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə daxil edin)** |
| (23) | 37.4. | Uyğunluq sənədlərinin yenidən təqdim edilməsi halları | **(uyğunluq sənədlərinin yenidən təqdim edilməsi hallarını daxil edin)**<br>*[“Təkliflərin qiymətləndirilməsi müddətində dəyişilməsi gözlənilən (məsələn. vergi arayışı və s.) və ya təqdim edilmiş sənədlər arasında ziddiyyət/uyğunsuzluq olması” kimi halları qeyd edin və ya “tətbiq edilmir” daxil edin]* |
| | | | **H. Müqavilə** |
| (24) | 52.2. | Müqavilə şərtləri | Ödəmələr: **(satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği)** |
| | | | Avans: **(avans ödənişi və təminatının məbləği və müqavilənin icra müddəti)**<br>*[Avans satınalma müqaviləsinin ümumi məbləğinin 30 faizindən (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 50 faizindən) çox olmayaraq ödənilir. Avansın alınması üçün təchizatçı tərəfindən satınalan təşkilata avans ödənişinin ümumi həcmindən az olmayan məbləğdə və müqavilənin icra müddətində qüvvədə olan müddətdə avans təminatı təqdim olunur]* |
| | | | Satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları: **(təklifin akseptindən sonra satınalma müqaviləsinin qüvvəyə minməsi üçün müvafiq sənədlər, həmin sənədlərin təqdim edilməsi müddəti və digər şərtlər)** |
| | | | Müqaviləyə dəyişiklik: **(satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları)** |
| | | | Sığorta: **(tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri)** |

# III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ-UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI

Bu bölmədə satınalma komissiyası tərəfindən təklifləri qiymətləndirmək və uyğunluq göstəricilərinə cavab verən təchizatçıları müəyyən etmək üçün bütün meyarlar qeyd edilib. Bu şərtlər toplusunda qeyd edilməyən heç bir meyar, amil və ya göstəricidən istifadə edilə bilməz. Təchizatçı tələb olunan bütün məlumatları Satınalma formaları (IV) bölməsinə daxil edilən formalardan istifadə edərək təqdim etməlidir.

Təchizatçıdan maddi dəyərinin göstərilməsi tələb olunan məlumatlar Azərbaycan manatı ilə aşağıdakı qaydada müəyyən edilən məzənnədən istifadə edilərək təqdim edilməlidir:

- maliyyə vəziyyətində göstərilən məlumatlar - müvafiq təqvim ilinin son günündə qüvvədə olan valyuta məzənnəsi;
- müqavilənin məbləği - müqavilənin bağlanıldığı tarixdə qüvvədə olan valyuta məzənnəsi.

Valyuta məzənnələri Təlimatın 31.1-ci bəndi ilə müəyyən edilmiş açıq mənbədən götürülməlidir. Təklifində valyuta məzənnələrinin müəyyən edilməsində hər hansı səhv satınalma komissiyası tərəfindən düzəldilə bilər.

*[Satınalan təşkilat satınalma prosesi üçün uyğun hesab edilən meyarları seçməli, aşağıdakı nümunələrdən və ya digər məqbul mətndən istifadə etməklə müvafiq mətni daxil etməli və kursivlə yazılan mətni silməlidir]*

## A. Texniki və maliyyə göstəricilərinin qiymətləndirməsi

### 1. Texniki göstəricilərin qiymətləndirilməsi

Təlimatın 34.1-ci bəndinə uyğun olaraq təklifin tələblərə uyğunluğunun qiymətləndirilməsi.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

………………………………………………………………………………………………

Əgər Təlimatın 34.2-ci bəndi tətbiq edilərsə, qiymətləndirilməli olan texniki amillər və əgər varsa, alt amillər Təlimatın 35.2-ci bəndində hər bir texniki amilə və alt amillərə veriləcək ballar göstərilmişdir.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

.........................................................................................................................

#### 1.1. Texniki göstəricilərin bal ilə qiymətləndirilməsi metodologiyası

*[Satınalan təşkilat bura daxil ediləcək bal ilə qiymətləndirmə metodologiyasını hazırlamalıdır. Əgər Təlimatın 34.2-ci bəndinə uyğun olaraq, texniki amillərə (və əgər varsa, alt amillər) əhəmiyyətinə görə nisbi ballar verilirsə həmin ballar aşağıdakı düsturla hesablanır]*

..............................................

Texniki amil daxilində (j) hər bir alt-amil (i) üçün bal, aşağıdakı düsturdan istifadə edilərək hesablanır:

$$S_j \equiv \sum_{i=1}^{k} t_{ji} * f_{ji}$$

burada:

$t_{ji}$ = “j” amilindəki “i” alt amilinin texniki balı;

$f_{ji}$ = “j” amilindəki “i” alt amilinin faiz nisbəti;

$k$ = “j” amilindəki qiymətləndirilən alt amillərin sayı.

$$\sum_{i=1}^{k} f_{ji} = 1$$

Amilin texniki balları aşağıdakı düsturdan istifadə etməklə ümumi texniki təklif balı hesablamaq üçün çəkili məbləğdə birləşdiriləcəkdir:

$$T \equiv \sum_{j=1}^{n} S_j * F_j$$

burada:

$S_j$ = “j” amilinin balı;

$F_j$ = “j” amilinin **Satınalma məlumat vərəqində (21)** müəyyən edilən nisbi çəkisi;

$n$ = amillərin sayı.

$$\sum_{j=1}^{n} F_j = 1$$

[**Düsturların izahı:** Ümumi texniki amil daxilində hər bir alt amilə görə təchizatçıya verilmiş ballar müvafiq olaraq hər bir alt amil üçün müəyyən edilmiş nisbi çəkiyə vurularaq toplanır. Məsələn, əgər ümumi texniki amil daxilində 2 alt-amilin (100% üzərindən) nisbi çəkiləri müvafiq olaraq – funksional xüsusiyyətlər 60%, zəmanət şərtləri 40%-dirsə və təchizatçıya funksional xüsusiyyətlərinə görə (100 olmaqla) 70 bal, zəmanət şərtlərinə görə 60 bal verilmişdirsə yekun bal 60%*70+40%*60 = 66 olaraq hesablanır]

### 1.2. Alternativ təkliflər

Təlimatın 12.1-ci bəndində nəzərdə tutulduğu təqdirdə aşağıdakı kimi qiymətləndiriləcəkdir.

*[Satınalan təşkilat tərəfindən aşağıdakı mətn və ya başqa mətn daxil edilir]*

Təchizatçı yalnız əsas tələbə cavab verən təklif ilə birlikdə alternativ təklif təqdim edə bilər. Satınalan təşkilat yalnız əsas təklifi (B) Mallara dair tələblər sənədində müəyyən edilmiş göstəricilərə cavab verən ən aşağı və ya ən sərfəli təklif təqdim etmiş təchizatçının təklif etdiyi alternativ təklifləri nəzərdən keçirəcəkdir.
................................................................

## 2. Maliyyə göstəricilərinin qiymətləndirilməsi

### 2.1. Maliyyə göstəricilərinin qiymətləndirilməsi üçün meyarlar

**(i)** Çatdırılma qrafikindən kənarlaşma

Malların siyahısında göstərilən malların (B) Mallara dair tələblər sənədində göstərilən məqbul vaxt intervalında (ən erkən və son tarixdən əvvəl, hər iki tarix daxil olmaqla) çatdırılması tələb olunur. Ən erkən tarixdən əvvəl çatdırılmalara hər hansı üstünlük verilməyəcək və son tarixdən sonra çatdırılma nəzərdə tutan təklifləri uyğun hesab edilməyəcəkdir. Bu məqbul müddət intervalı ərzində yalnız qiymətləndirmə məqsədləri üçün (B) Mallara dair tələblər sənədində göstərilən "Ən erkən çatdırılma tarixindən" sonra çatdırılma nəzərdə tutan təkliflərə hər təqvim günü üçün müqayisə məqsədilə məbləğ tənzimlənməsi (artırılması) **0,1 %** təşkil edəcəkdir.

**(ii)** İstismar, texniki xidmət və təmir xərcləri

*[Malların müəyyən edilmiş istismar müddəti ərzində istismar və yaxud texniki xidmət xərclərinin ilkin dəyərlə müqayisədə əhəmiyyətli olduğu və müxtəlif təkliflər arasında dəyişə bildiyi zaman istismar dövrü xərclərinin hesablanmasından istifadə edilməlidir. O, xalis diskontlaşdırılmış dəyər əsasında qiymətləndirilməlidir. Təklifin qiymətləndirilməsi üçün istismar dövrü xərclərin hesablanması tətbiq ediləcəksə, satınalan təşkilat onun tətbiqi ilə bağlı müvafiq məlumatları burada qeyd etməlidir:]*

İstismar dövrü xərclərinin hesablanması üçün amillər:
(a) istismar dövrü üçün illərin sayı: **(illərin sayını daxil edin)**;
(b) əməliyyat xərcləri **(onların necə müəyyən ediləcəyini qeyd edin)**;

(c) istismarın ilkin dövrü üçün ehtiyat hissələrinin dəyəri daxil olmaqla texniki xidmət xərcləri **(onların necə müəyyən ediləcəyini qeyd edin)**;
(d) Diskont dərəcəsi: (a) bəndində göstərilən dövr üçün yuxarıda (b) və (c) bəndlərində hesablanmış bütün illik gələcək məsrəflərin cari məbləğə diskont edilməsi üçün istifadə ediləcək **(diskont dərəcəsini faizlə daxil edin)**.

**(iii)** Ödəniş qrafikindən kənarlaşma [aşağıdakılardan birini daxil edin]

(i) Təchizatçılar Müqavilənin xüsusi şərtlərində göstərilən ödəniş qrafiki üzrə öz təklifini təqdim etməlidir. Təkliflər bu baza qiyməti əsasında qiymətləndirilir. Bununla belə, təchizatçılara alternativ ödəniş qrafiki təqdim etməyə və bu cür alternativ ödəniş qrafiki üçün təklif etmək istədikləri təklif məbləğinin qiymətində azalma göstərməyə icazə verilir. Satınalan təşkilat Müqavilənin xüsusi şərtlərində göstərilən ödəniş qrafiki üçün baza qiymət əsasında seçilmiş təchizatçı tərəfindən təklif edilən alternativ ödəniş qrafikini və azaldılmış təklif məbləğini təklifini nəzərdən keçirə bilər.

və ya

(i) Müqavilənin xüsusi şərtlərində satınalan təşkilat tərəfindən müəyyən edilmiş ödəniş qrafiki göstərilir. Əgər təklifi qrafikdən kənara çıxarsa və belə bir kənarlaşma satınalan təşkilat üçün məqbul hesab edilərsə, təklif Müqavilənin xüsusi şərtlərində nəzərdə tutulanlarla müqayisədə təklifdə göstərilən şərtlərlə bağlı hər hansı əvvəlki ödənişlər üçün qazanılmış faizlərin [tənzimləmə dərəcəsini daxil edin] illik dərəcə əsasında hesablanması yolu ilə qiymətləndiriləcəkdir.

və ya

*(i) Təchizatçılar Müqavilənin xüsusi şərtlərində göstərilən ödəniş qrafiki üzrə öz təklifini təqdim etməlidir. Bu qrafikdən kənar ödəniş qrafiki təklif edən təchizatçılar kənarlaşdırılacaqdır.*

**(iv)** Əsas əvəzedici komponentlərin, məcburi ehtiyat hissələrinin və xidmətin xərci [aşağıdakılardan birini daxil edin]

(i) Satınalma məlumat vərəqində (11) (Təchizatçılar üçün təlimatın 16.3-cü bəndi) də göstərilən ilkin istismar dövründə tələb oluna bilən əsas birləşmələrin, komponentlərin və seçilmiş ehtiyat hissələrinin maddələrinin və miqdarının siyahısı malların siyahısında qeyd edilib. Hər bir təklifdə göstərilən vahid qiymətlərlə bu maddələrin ümumi dəyərinə bərabər olan düzəliş yalnız qiymətləndirmə məqsədləri üçün təklifin qiymətinə əlavə ediləcəkdir.

və ya

(i) Satınalan təşkilat Satınalma məlumat vərəqində (11) (Təchizatçılar üçün təlimatın 16.3-cü bəndi) göstərilən ilkin istismar dövründə istifadənin təxmin edilən miqdarları ilə birlikdə komponentlərin və ehtiyat hissələrinin yüksək istifadə olunan və yüksək qiymətli əşyalarının siyahısını tərtib edəcək. Bu maddələrin və kəmiyyətlərin ümumi dəyəri yalnız qiymətləndirmə məqsədi üçün təchizatçı tərəfindən təqdim edilən və təklif məbləğinə əlavə edilən ehtiyat hissələrinin vahid qiymətləri əsasında hesablanacaq.

**(v)** Təklif olunan avadanlıq üçün ehtiyat hissələrinin və satışdan sonrakı xidmətlərin satınalan təşkilatın ölkəsində mövcudluğu.

Minimum xidmət obyektlərinin və hissələrin inventarının yaradılması üçün satınalan təşkilat tərəfindən çəkiləcək xərclərə bərabər olan düzəliş yalnız qiymətləndirmə məqsədləri üçün təklifin qiymətinə əlavə ediləcək.

**(vi)** Avadanlığın fəaliyyət göstəricisi və məhsuldarlığı: [aşağıdakılardan birini daxil edin]

(i) Malların istismar müddəti ərzində əlavə əməliyyat xərclərinin kapitallaşdırılmış dəyərini əks etdirən düzəliş qiymətləndirmə məqsədləri üçün təklifin qiymətinə əlavə ediləcək. Düzəliş aşağıda göstərilən metodologiyadan istifadə etməklə, təklifdə nəzərdə tutulan zəmanətli fəaliyyət göstəricisi və ya səmərəliliyin 100-dən aşağı düşməsi əsasında qiymətləndiriləcək.

[mümkün olduqda metodologiya və meyarları daxil edin]

və ya

(i) Təklifdə nəzərdə tutulan malların məhsuldarlığını nəzərə almaq üçün düzəliş, yalnız qiymətləndirmə məqsədləri üçün təklifin qiymətinə əlavə ediləcək. Düzəliş, aşağıda göstərilən metodologiyadan istifadə etməklə, minimum tələb olunan dəyərlərlə bağlı təklifdə nəzərdə tutulan malların faktiki məhsuldarlığının vahidinə düşən maya dəyəri əsasında qiymətləndirilir.

[mümkün olduqda metodologiya və meyarları daxil edin]

**(vii)** Digər əlavə meyarlar

[Qiymətləndirmədə nəzərə alınacaq digər xüsusi əlavə meyarlar və qiymətləndirmə metodu BDS 34.6-da təfərrüatlı şəkildə göstərilməlidir][Əgər xüsusi dayanıqlı satınalma texniki tələbləri Bölmə VII- Spesifikasiyada müəyyən edilmişdirsə, ya (i) həmin tələblərin qiymətləndiriləcəyini bildirin. keçmək/qeyri-məqbul (uyğunluq əsasında) və ya başqa şəkildə (ii) bu tələbləri keçmək/məğlubiyyət (uyğunluq əsasında) üzrə qiymətləndirməyə əlavə olaraq, əgər varsa, Tender təklifləri hesabına müqayisə məqsədləri üçün Tender Qiymətlərinə tətbiq ediləcək pul düzəlişlərini göstərin müəyyən edilmiş minimum davamlı satınalma texniki tələblərini aşan.]

**3. Yekun qiymətləndirmə**

Satınalma komissiyası əhəmiyyətli dərəcədə tələblərə uyğun təklifləri qiymətləndirəcək və müqayisə edəcək. Qiymətləndirilmiş təklif balı (B) hər bir təklif

üçün qiymətləndirilmiş məbləğ və balı müəyyən edərək aşağıdakı düstur ilə hesablanacaq:

$$B = \frac{M_{aşağı}}{M} * X * 100 + \frac{T}{T_{yuxarı}} * (1-X) * 100$$

burada:

$M$ = qiymətləndirilmiş təklif məbləği
$M_{aşağı}$ = bütün uyğun təkliflər üçün qiymətləndirilib ən aşağı məbləğ
$T$ = təklifə verilmiş ümumi texniki bal
$T_{yuxarı}$ = *bütün uyğun təkliflər için ən yuxarı texniki balı almış təklifin balı*
$X$ = məbləğ üçün **Satınalma məlumat vərəqində (21)** müəyyən edilən nisbi çəki.

İxtisas göstəricilərinin tələblərinə cavab verən ən yüksək bal alan təklif ən səmərəli təklif hesab edilir.

[**Düsturun izahı:** Əgər texniki amilin çəkisi 30%, qiymət amilinin çəkisi 70%-dirsə və satınalmada iştirak edən 3 təchizatçının təklif məbləğləri və texniki balları müvafiq olaraq aşağıdakı kimidirsə:

- Təchizatçı A: təklif məbləği - 100.000 AZN, texniki balı 60
- Təchizatçı B: təklif məbləği - 120.000 AZN, texniki balı 70
- Təchizatçı C: təklif məbləği - 110.000 AZN, texniki balı 80

Müvafiq olaraq hər bir təchizatçının balı aşağıdakı kimi hesablanacaqdır:

- Təchizatçı A: 100.000$_{\text{(ən aşağı məbləğ)}}$ /100.000$_{\text{(təchizatçı A-nın məbləği)}}$ * 70%$_{\text{(qiymət amilinin çəkisi)}}$ * 100 + 60$_{\text{(təchizatçı B-nin texniki balı)}}$ / 80$_{\text{(ən yüksək texniki bal)}}$ * 30%$_{\text{(texniki amilin çəkisi)}}$ * 100 = 92,5
- Təchizatçı B: 100.000 / 120.000 * 70% * 100 + 70 / 80 * 30% * 100 = 84,6
- Təchizatçı C: 100.000 / 110.000 * 70% * 100 + 80 / 80 * 30% * 100 = 93,6 (qalib)]

## B. Uyğunluq göstəricilərinin qiymətləndirilməsi

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| 1. | ***İlkin tələblər*** | | | | | | |
| 1.1. | **Təklifin təminatı** | **Satınalma məlumat vərəqində (15)** qeyd edilmiş məbləğdə və Təlimatın 19.2-ci bəndində göstərilən müddətdə qüvvədə olan təminatın təqdim edilməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Qarant tərəfindən müvafiq qaydada təqdim edilmiş təklifin təminatı **(FORMA 7)** |
| 1.2. | **Maraqlar toqquşması** | Təlimatın 3.2-ci bəndinin tələblərinə cavab verməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)** |
| 1.3. | **Dövlət mənsubiyyəti-nə görə məhdudlaşdı-rılma** | **Satınalma məlumat vərəqində (2)** göstərilən və (və ya) müəyyən edilən ölkələrdə qeydiyyatdan keçən qeyri-rezident təchizatçıların siyahısına daxil edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Qeydiyyat sənədi |
| 2. | ***Ümumi tələblər*** | | | | | | |
| 2.1. | **Təchizatçı haqqında** | Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | 1. Təchizatçı haqqında:<br>a. Təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti; |

[1] Bütün üzvlərin təqdim etdiyi göstəricilərin cəmi tələblərə tam cavab verməlidir.

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | | | | | | b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti;<br>c. birgə fəaliyyət göstərdikdə Təlimatın 3.4-cü bəndinə uyğun olaraq birgə fəaliyyətə dair müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu.<br>2. təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış<br>a. Hüquqi və fiziki şəxs olduqda **(FORMA 3)** və (və ya)<br>b. Birgə fəaliyyət olduqda 2a bəndinə əlavə olaraq (**FORMA 4)**<br>3. Təlimatın 20.3-cü bəndinə uyğun olaraq təklifi imzalayan digər vəzifəli şəxs olduqda – etibarnamə.<br>4. Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış **(FORMA 6)** |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət: *Bütün üzvlər birlikdə* [1] | Birgə fəaliyyət: *Hər bir üzv ayrı-ayrılıqda* | Birgə fəaliyyət: *Bir üzv* | |
| **2.2.** | **Lisenziya və (və ya) icazə (tətbiq olunarsa)** | **(satınalma predmetinin icrası üçün zəruri olan və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növünü və tətbiq olunarsa konkret istiqaməti qeyd edin** *məs. Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri – (a) xüsusi torpaq işləri və (b) mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması işləri***)** | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Uyğun olmalıdır | Lisenziya və (və ya) icazənin surəti |
| **2.3.** | **Əmlakdan sərbəst istifadə** | Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasibətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən hazırlanmış arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | | | | | | **(FORMA 1)**, məlumat və təsdiqedici sənədlər |
| **2.4.** | **Müflislik** | Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahibkarlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.5.** | **Vergi və əmək qanunvericiliyi öhdəliyi** | Azərbaycan Respublikasında vergilər və digər icbari ödənilən mallar üzrə vaxtı keçmiş öhdəliklərinin olması və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın olmaması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Bütün üzvlər birlikdə [1] | Hər bir üzv ayrı-ayrılıqda | Bir üzv | |
| | | Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı Malların (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının və ya inzibati cərimənin tətbiq edilməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Maliyyə sanksiyasına münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış<br>İnzibati cəriməyə münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən arayış |
| **2.6.** | **Fəaliyyət qadağası** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.7.** | **Məhkumluq** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Bütün üzvlər birlikdə [1] | Hər bir üzv ayrı-ayrılıqda | Bir üzv | |
| | | satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırılma cinayətlərinə görə məhkum olunmaması | | | | | |
| 3. | ***Xüsusi tələblər*** | | | | | | |
| 3.1. | **Peşəkarlıq və təcrübə** | Satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının və təcrübəsinin olması, aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | Təchizatçının təcrübəsi barədə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 5)**, məlumat və təsdiqedici sənədlər (təhvil-təslim və ya yekun təhvil-təslim aktları, elektron qaimə və s.).<br><br>*[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən* |
| 3.1.1. | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən* | | | | | |

<table>
<tr><th colspan="3">Münasiblik və uyğunluq meyarları</th><th colspan="4">Uyğunluq tələbləri</th><th rowspan="3">Tələb olunan sənəd</th></tr>
<tr><th rowspan="2">Sıra №-si</th><th rowspan="2">Mövzu</th><th rowspan="2">Tələblər</th><th rowspan="2">Fərdi</th><th colspan="3">Birgə fəaliyyət</th></tr>
<tr><th>Bütün üzvlər birlikdə [1]</th><th>Hər bir üzv ayrı-ayrılıqda</th><th>Bir üzv</th></tr>
<tr><td></td><td></td><td>meyarlara uyğun hazırlanmış meyarları daxil edin]</td><td></td><td></td><td></td><td></td><td>meyarlara uyğun hazırlanmış digər prosedurları daxil edin]</td></tr>
<tr><td>3.2.</td><td rowspan="4">Maliyyə imkanı</td><td>Satınalma müqaviləsinin icrası üçün maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi:</td><td>-</td><td>-</td><td>-</td><td>-</td><td rowspan="4">[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış prosedurları daxil edin]</td></tr>
<tr><td>3.2.1.</td><td>[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]</td><td>...</td><td>...</td><td>...</td><td>...</td></tr>
<tr><td></td><td>[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]</td><td>...</td><td>...</td><td>...</td><td>...</td></tr>
<tr><td></td><td>[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]</td><td>...</td><td>...</td><td>...</td><td>...</td></tr>
<tr><td>4.</td><td colspan="7">Digər tələblər</td></tr>
<tr><td>4.1.</td><td>[Bu kateqoriya üzrə digər qiymətləndirmə</td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
</table>

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | *meyarları və prosedurları varsa bura əlavə edilir]* | | | | | | |

# IV BÖLMƏ. SATINALMA FORMALARI

## FORMA 1. Təklif məktubu

Təklifin təqdim olunma tarixi: **(tarixi daxil edin)**

Kimə: **(Satınalan təşkilatın adını daxil edin)**

Biz, aşağıda imza edənlər bəyan edirik ki:

**(a)** **qeyd-şərtin olmaması:** Təlimatın 7-ci hissəsinə müvafiq olaraq verilmiş əlavə və dəyişikliklər də daxil olmaqla (mövcud olduğu halda) şərtlər toplusu və onu təşkil edən sənədlər ilə tanış olduq, burada təsvir olunan işin görülməsi haqqında tam məlumata malikik və bu sənədlərə heç bir qeyd-şərtimiz yoxdur;

**(b)** **münasiblik:** Təlimatın 3-cü hissəsində qeyd edilmiş tələblərə cavab veririk və maraqların toqquşması hallarının olmadığını təsdiqləyirik;

**(c)** **uyğunluq:** Biz ***(satınalma predmetini daxil edin)*** malları şərtlər toplusunun tələblərinə və nəzərdə tutulmuş icra qrafikinə uyğun olaraq yerinə yetirməyi təklif edirik*;*

**(d)** **qiymət:** Tələb olunan malları bütün vergi və rüsumlar daxil olmaqla **(məbləği rəqəmlə və sözlə daxil edin)** məbləğdə yerinə yetirməyi təklif edirik.

**(e)** **təklifin qüvvədə olma müddəti:** Təklifimiz **(tarixi daxil edin)** tarixinə qədər qüvvədədir, bizim üçün məcburi xarakter daşıyır və bu müddətin bitməsindən öncə istənilən vaxt qəbul edilə bilə;

**(f)** **icra təminatı**: Bizim təklifimiz qəbul edildiyi təqdirdə şərtlər toplusunda qeyd edilən şərtlərdə icra təminatını təqdim edəcəyimizi öhdəmizə götürürük;

**(g)** **hər təchizatçı bir təklif:** Biz fərdi təchizatçı kimi hər hansı digər təklif və ya təkliflər təqdim etmirik, birgə fəaliyyət üzvü və ya subpodratçı kimi hər hansı digər satınalma və ya satınalmalarda iştirak etmirik və Təlimatın 12-ci hissəsinə uyğun təqdim edilmiş alternativ təkliflər istisna olmaqla Təlimatın 3.3-cü bəndinin tələblərinə cavab veririk;

**(h)** **etibarsız təchizatçı:** Biz, müqavilənin hər hansı hissəsinin icrasına cəlb ediləcək subpodratçılarımız, məsləhətçilərimiz, malgöndərənlərimiz, istehsalçılarımız və ya digər xidmət göstərənlərimiz, o cümlədən bizi idarə edən hüquqi və ya fərdi şəxslər ilə birlikdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsi çərçivəsində etibarsız təchizatçılar reyestrinə daxil edilməmişik.

**(i)** **qəbul etmək məcburiyyətinin olmaması:** Başa düşürük ki, siz ən aşağı qiyməti olan, ən səmərəli və ya digər istənilən təklifi qəbul etmək məcburiyyətində deyilsiniz;

**(j)** **əmlakdan sərbəst istifadə:** Müqavilənin icrası zamanı istifadə olunacaq əmlaklardan (daşınmaz əmlak və nəqliyyat vasitələri istisna olmaqla) sərbəst və məhdudiyyətsiz istifadə etmək hüququmuz var;

**(k)** **saxtakarlıq və korrupsiya:** Bizim üçün və ya bizim adımızdan hərəkət edən heç kimin heç bir formada saxtakarlıq və korrupsiya əməlləri törətməməsi üçün müvafiq tədbirləri görmüşük.

Təchizatçının adı: (təchizatçının adını daxil edin)

Təchizatçının VÖENİ: **(təchizatçının VÖEN-ini daxil edin)**

Təklifi təchizatçı adından imzalamaq səlahiyyəti olan şəxsin adı və soyadı:**(adı və soyadı daxil edin)**

Təklifi imzalayan şəxsin vəzifəsi: **(tam vəzifəni qeyd edin)**

Yuxarıda qeyd edilən şəxsin imzası və möhürü (varsa): **(imzanı və möhürü əlavə edin)**

İmzalanma tarix: **(tarixi daxil edin)**

# FORMA 2. Qiymət cədvəli

Təchizatçı aşağıdakı formada hazırlanmış əsasında qiymət cədvəlini doldurur

| ***Maddə №*** | ***Malların və əlaqədar xidmətlərin (varsa) təsviri*** | ***Mənşə ölkəsi*** | ***Çatdırılma /icra tarixi*** | ***Ölçü vahidi*** | ***Miqdar*** | ***Vahidinin qiyməti*** | ***Cəm*** |
|---|---|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** |
| | | | | | | | |
| | | | | | | | |
| | *Daşıma, rüsum vergi və digər xərclər* | - | - | cəm | 1 | | |
| | *Daşıma ilə əlaqədar xidmətlər xaric digər xidmətlər [varsa hər birini ayrı-ayrı sıralayın]* | | | | | | |
| | | | | | | **Yekun cəm:** | ______ |

# FORMA 3. Təchizatçı haqqında

| |
|---|
| Təchizatçının adı: **(təchizatçının adını daxil edin)** |
| Birgə fəaliyyət göstərdikdə hər bir üzvün adı: **(hər bir üzvün hüquqi adını qeyd edin)** |
| Təchizatçının qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Təchizatçının təsis ili: **(ili qeyd edin)** |
| Təchizatçının hüquqi və faktiki ünvanları: **(ünvanı qeyd edin)** |
| Təchizatçının səlahiyyəti nümayəndəsi haqqında:<br>• adı və soyadı:**(adı və soyadı daxil edin)**<br>• ünvanı: **(ünvanı qeyd edin)**<br>• əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 4. Birgə fəaliyyət haqqında

*(tətbiq olunursa hər bir birgə fəaliyyət göstərən üzvü üçün ayrı-ayrılıqda doldurulur)*

| |
|---|
| Birgə fəaliyyət göstərənin adı: (təchizatçının adını daxil edin) |
| Birgə fəaliyyət göstərən üzvünün adı: **(üzvün hüquqi adını qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin üzvün qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün təsis ili: **(ili qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün faktiki və hüquqi ünvanı: **(ünvanı qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin səlahiyyətli nümayəndəsi haqqında:<br>• adı və soyadı:**(adı və soyadı daxil edin)**<br>• ünvanı: **(ünvanı qeyd edin)**<br>• əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 5. Oxşar malların göndərilməsi üzrə təcrübə

| **Sıra №-si** | **Başlanma və bitmə tarixi** | **Satınalan təşkilat və əlaqə vasitələri** *(ünvanı, e-poçtu və telefonu)* | **Müqavilənin predmeti** | **İcra olunan müqavilənin cari satınalma predmetinə bənzərliyinin təsviri** *(yeri, əsas komponentləri, miqdarları/ həcmləri və s.)* | **Müqavilənin məbləği** *(AZN ilə)* | **İcra vəziyyəti** *(davam edirsə tamamlanma faizi qeyd edilir)* | **Təchizatçının rolu** |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | (Təchizatçı, subpodratçı və ya birgə fəaliyyət üzvü) |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |
| 5. | | | | | | | |

# FORMA 6. Subpodratçılar haqqında məlumat

| Sıra №-si | Subpodratçının hüquqi adı və VÖEN-i | Əlaqə vasitəsi | Göstəriləcək xidmətlərin təsviri | Müqavilə məbləğində payı (faizlə) |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |
| 5. | | | | |

# FORMA 7. Təklifin təminatı

Qarantiya nömrəsi: **(qarant tərəfindən doldurulur)**
Satınalan təşkilat: **(satınalan təşkilatın adı)**
Satınalma predmeti: **(satınalma predmetini daxil edin)**
Tarix: **(tarixi daxil edin)**

Nəzərə alaraq ki, **(təchizatçının adını daxil edin)** (VÖEN-i: **(təchizatçının VÖEN-ini daxil edin)**) (bundan sonra - təchizatçı) yuxarıda qeyd olunmuş satınalma predmetində nəzərdə tutulan malların göndərilməsi və əlaqədar xidmətlərin (tətbiq olunduğu halda) göstərilməsi üçün təklifini (bundan sonra – təklif) təqdim edəcəkdir, təchizatçının müraciəti əsasında biz, **(qarantın ünvanını daxil edin)** ünvanında yerləşən **(qarantın adını daxil edin)** (**(qarantın VÖEN-ini daxil edin)**) (bundan sonra – qarant) **(satınalan təşkilatın adı)** (VÖEN-i: **(satınalan təşkilatın VÖEN-ini daxil edin)**) (bundan sonra – satınalan təşkilat) qarşısında satınalan təşkilatın təchizatçının aşağıdakı öhdəliyə (öhdəliklərə) əməl etməməsi barədə müraciəti əsasında **(təklif təminatının məbləğini rəqəmlə və sözlə daxil edin)** məbləği əsaslandırma, sübut və ya səbəblərini göstərməyi tələb etmədən satınalan təşkilata geri qaytarılmayacaq şəkildə ödəyəcəyimizə öhdəlik götürürük:

(a) təchizatçı təklif məktubunda qeyd etdiyi təklifin qüvvədə olduğu müddətdə təklifini geri götürmüşdür və (və ya)

(b) təchizatçı tərəfindən təqdim edilmiş təklifin ilkin və ya uzadılmış qüvvədə olduğu müddətində aksept bildirişini aldığı halda (i) 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalamamışdır və ya (ii) şərtlər toplusuna əsasən tələb olunan icra təminatını təqdim etməmişdir.

Bu təminat aşağıdakı hallarda qüvvədən düşmüş hesab olunur:

(a) Təchizatçı və satınalan təşkilat tərəfindən imzalanmış müqavilə və icra təminatının nüsxəsi təqdim edildikə və ya

(b) Təchizatçı qalib olmadığı təqdirdə (hansı birinci baş versə):
   i. satınalmanın nəticələri barədə təchizatçıya göndərilmiş bildiriş təqdim edildikdə və ya
   ii. təklifin qüvvədə olma müddətindən sonra 30 (otuz) iş günü keçdikdə **(tarixi daxil edin)**.

Bu təminat çərçivəsindəki hər hansı tələb qaranta yuxarıda qeyd olunan tarixdə və ya ondan öncə təqdim edilməlidir.

Qarant bu öhdəlikləri öz adından, öz varislərinin və müvəkkillərinin adından götürür.

Bu təminat Azərbaycan Respublikasında qüvvədə olan müvafiq qanunvericilik ilə tənzimlənir.

Qarantın adından və tapşırığı ilə **(imzalar)**

# FORMA 8. İstehsalçının icazəsi

*[tətbiq olunduğu təqdirdə]*

*[Təchizatçı istehsalçıdan bu formanı göstərilən təlimatlara uyğun olaraq doldurmağı tələb etməlidir. Bu icazə məktubu istehsalçının blankında olmalı və istehsalçı tərəfindən sənədləri imzalamaq üçün müvafiq səlahiyyətinə malik olan şəxs tərəfindən imzalanmalıdır. Təchizatçı satınalma məlumat vərəqində göstərildiyi təqdirdə onu öz təklifinə daxil etməlidir]*

Tarix: **(təklifin təqdim olunduğu tarixi gün, ay və il olaraq daxil edin)**

Kimə: **(satınalan təşkilatın adı)**

Nəzərə alaraq ki, biz **(istehsalçının tam adını daxil edin) (istehsal olunan məhsullarını növünü daxil edin)** rəsmi istehsalçısıyıq və **(istehsalçının zavodunun tam ünvanını daxil edin)** ünvanında zavodlarımız var, bununla bizim tərəfimizdən istehsal olunmuş aşağıdakı malları təmin etmək və müqaviləni imzalamaq məqsədilə təklif təqdim edən **(təchizatçının adını daxil edin)**(yönlük hallarda) icazə veririk.

- **(malların adlarını və qısa təsvirini siyahı olaraq daxil edin)**

Biz bununla yuxarıda göstərilən təchizatçının təklif etdiyi mallara münasibətdə müqavilənin ümumi şərtlərinin 24-cü hissəsinə uyğun olaraq tam zəmanət veririk.

İmzaladı: **(istehsalçının səlahiyyətli nümayəndəsinin imza və möhürünü daxil edin)**

Adı: **(istehsalçının səlahiyyətli nümayəndəsinin tam adını daxil edin)**

Vəzifə: **(vəzifəni daxil edin)**

İmzalanma tarixi: **(imzalanma tarixini gün, ay və il olaraq daxil edin)**

# (B) MALLARA DAİR TƏLƏBLƏR

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar (satınalma predmetinin ətraflı təsviri, zəruri texniki və keyfiyyət xüsusiyyətləri (o cümlədən planlar, çertyojlar (cizgilər) və eskizlər), malların göndəriləcəyi yeri, qrafiki və s.) daxil edilir. Yalnız istehsal olunmuş mal partiyası üçün tətbiq olunan sertifikatların (məsələn uyğunluq, mənşə və s.), həmçinin şərtlər toplusunun tələblərinə uyğun hazırlanmış mallara dair nümunələrin təqdim olunması kimi şərtlərin tələblərə daxil edilməsinə yol verilmir (belə tələblər müqavilə şərtlərinə daxil edilə və ya şərtlər toplusunun tələblərinə bənzər xüsusiyyətdə istehsal olunmuş mallara Təchizatçı ilə razılaşdırılmış yerdə baxış keçirilə bilər)]*

# (C) SATINALMA MÜQAVİLƏSİ

*[Qanunun 38.15-ci maddəsinə əsasən mallar üzrə satınalma müqaviləsinin nümunəvi forması müvafiq qaydada doldurularaq əlavə edilir]*

_____________________

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 30 dekabr tarixli 503 nömrəli
Qərarı ilə **təsdiq edilmişdir.**

**7 nömrəli əlavə**

## (satınalma predmetini daxil edin)

---

*xidmətlərinin*

QAPALI TENDER METODU

ilə satın alınması üçün

# ŞƏRTLƏR TOPLUSU

SATINALAN TƏŞKİLAT: **(satınalan təşkilatın adını daxil edin)**

ELAN TARİXİ: **(elan tarixini daxil edin)**

## MÜNDƏRİCAT

(A) SATINALMA PROSEDURLARI


**I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT** .... 4

**A. Ümumi** .... 4

**1. Satınalma haqqında** .... 4

**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar** .... 4

**3. Təchizatçıların münasibliyi** .... 4

**4. Xidmətlərin münasibliyi** .... 6

**B. Şərtlər toplusunun məzmunu** .... 7

**5. Şərtlər toplusunun tamlığı** .... 7

**6. Şərtlər toplusuna dair izahat, xidmət yerinə baxış və təklif öncəsi görüş** .... 7

**7. Şərtlər toplusuna dəyişikliklərin edilməsi** .... 8

**C. Təkliflərin hazırlanması** .... 9

**8. Satınalma xərcləri** .... 9

**9. Təklifin tərtib olunmasının dili** .... 9

**10. Təklifə daxil olan sənədlər** .... 9

**11. Təklif məktubu və cədvəllər** .... 10

**12. Alternativ təklif** .... 10

**13. Satınalma predmetinin bölünməsi** .... 11

**14. Təklifin qiyməti** .... 11

**15. Təklifin və ödənişin məzənnəsi** .... 11

**16. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)** .... 11

**17. Uyğunluq sənədləri** .... 11

**18. Təklifin qüvvədə olma müddəti** .... 12

**19. Təklifin təminatı** .... 12

**20. Təklifin formatı və imzalanması** .... 13

**D. Təkliflərin təqdim olunması və açılması** .... 14

**21. Təkliflərin möhürlənməsi və işarələnməsi** .... 14

**22. Təkliflərin təqdim edilməsinin son müddəti** .... 15

**23. Gecikmiş təkliflər** .... 15

**24. Təkliflərin geri götürülməsi, əvəzlənməsi və ya dəyişdirilməsi** .... 15

**25. Təkliflərin açılması** .... 16

**E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** .... 17

**26. Məxfilik (konfidensiallıq)** .... 17

27. Təkliflərə dair izahat ... 18
28. Formal tələblərə uyğunluğun müəyyən edilməsi ... 18
29. Əhəmiyyətsiz uyğunsuzluqlar ... 19
30. Hesab səhvlərinin düzəldilməsi ... 19
31. Vahid valyutaya konvertasiya ... 20
32. Satınalma güzəşti ... 20
33. Subpodratçılar ... 20
34. Təkliflərin qiymətləndirilməsi ... 20
35. Təkliflərin müqayisəsi ... 21
36. Həddindən artıq ucuz təkliflər ... 21
37. Təchizatçının uyğunluq göstəriciləri ... 21
38. Qalib təklifin seçilməsi ... 22
39. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ ... 22
40. Satınalmanın nəticələri barədə bildiriş ... 23
41. Gözləmə müddəti ... 23
F. Qalibin seçilməsi ... 23
42. Qalibin seçilməsi proseduru ... 23
43. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi ... 23
44. Müqavilənin imzalanması ... 24
45. Bağlanılmış müqavilə barədə məlumatın verilməsi ... 24
46. İcra təminatı ... 24
G. Şikayət verilməsi ... 24
47. Şikayət vermək hüququ ... 24
48. Satınalan təşkilata şikayət ... 25
49. AİBNDX-yə şikayət ... 25
50. Satınalmanın dayandırılması ... 27
51. İnzibati qaydada şikayət ... 27
H. Müqavilə ... 27
52. Müqavilə şərtləri ... 27
II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ ... 28
III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ-UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI ... 34
IV BÖLMƏ. SATINALMA FORMALARI ... 46
FORMA 1. Təklif məktubu ... 46
FORMA 2. Fəaliyyət cədvəli ... 48
FORMA 3. Təklif edilən əsas heyətin tərcümeyi halı və bəyannaməsi ... 49

**FORMA 4.** **Təchizatçı haqqında** ... 51
**FORMA 5.** **Birgə fəaliyyət haqqında** ... 52
**FORMA 6.** **Oxşar xidmətlər üzrə təcrübə** ... 53
**FORMA 7.** **Subpodratçılar haqqında məlumat** ... 54
**FORMA 8.** **Təklifin təminatı** ... 55
(B) XİDMƏTLƏRƏ DAİR TƏLƏBLƏR
(C) SATINALMA MÜQAVİLƏSİ

# I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT

## A. Ümumi

**1. Satınalma haqqında**

1.1. **Satınalma məlumat vərəqində (1)** qeyd edilən satınalan təşkilat tərəfindən *(B) Xidmətlərə dair tələblər* sənədində nəzərdə tutulmuş xidmətlərin (bundan sonra – Xidmətlər) maliyyə vəsaiti hesabına dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun göstərilməsi üçün bu şərtlər toplusu hazırlanmışdır. Satınalma predmeti, satınalan təşkilatın adı, VÖEN-i və satınalan təşkilatın əlaqələndirici şəxsi barədə məlumatlar **Satınalma məlumat vərəqində (1)** qeyd edilir.

1.2. Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunundan (bundan sonra – Qanun) və digər normativ hüquqi aktlardan ibarətdir.

1.3. Təkliflərin qiymətləndirilməsi zamanı aşağıdakı anlayışlar tətbiq edilir:

(a) "Kənara çıxma" şərtlər toplusunda göstərilən tələblərdən yayınmadır;

(b) "Qeyd-şərt" məhdudlaşdırıcı şərtlərin müəyyən edilməsi və ya şərtlər toplusunda göstərilən tələblərin tam qəbul edilməsindən boyun qaçırmadır;

(c) "Çatışmazlıq" şərtlər toplusunda tələb olunan məlumat və ya sənədlərin bir hissəsinin və ya hamısının təqdim edilməməsidir.

1.4. Bu şərtlər toplusunda istifadə olunan digər anlayışlar Qanun və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar**

2.1. Satınalan təşkilat "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa riayət olunmasını tələb edir.

**3. Təchizatçıların münasibliyi**

3.1. **Satınalma məlumat vərəqində (2)** göstərilən Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların

satınalmada iştirak etməsinə məhdudiyyətlər qoyulduğu hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident təchizatçı (fiziki şəxs, hüquqi şəxs, o cümlədən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün hüquqi və (və ya) fiziki şəxslərin müqavilə əsasında yaratdığı müvəqqəti və ya daimi birliyi (bundan sonra – birgə fəaliyyət) daxil olmaqla) Azərbaycan Respublikasında keçirilən satınalmalarda iştirak edə bilər. Təchizatçı nizamnaməsi (və ya buna bərabər tutulan sənədləri) və ya qeydiyyat sənədləri ilə müəyyən olunduğu ölkənin qanunlarının müddəalarına uyğun olaraq yaradılmış, təsis edilmiş və ya qeydiyyatdan keçmiş və fəaliyyət göstərdiyi təqdirdə həmin ölkəyə mənsub hesab edilir. Müqavilənin hər hansı hissəsinin icrasına cəlb edilməsi təklif edilən subpodratçıların ölkə mənsubiyyəti bu meyar əsasında müəyyən edilir.

3.2. Təchizatçının iştirak etdiyi satınalmada Qanunun 6.1-ci maddəsinə əsasən maraqlar toqquşması olmamalıdır. *(Qanunun 6.1-ci maddəsindən çıxarış:*

*Təchizatçıların aşağıdakı hallarda (satınalma predmetinin yalnız hər hansı konkret təchizatçıda olduğu, yaxud satınalma predmetinin əvəzedicisi və alternativi olmadığı hallar istisna olmaqla) satınalmalarda iştirakına yol verilmir, bu hallar müəyyən olduqda satınalmadan kənarlaşdırılır:*

- *təchizatçının satınalan təşkilatdan və ya satınalan təşkilatla təchizatçının eyni qurumdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olduqda;*
- *təchizatçılardan biri digərinin benefisiar mülkiyyətçisi olduqda, yaxud təchizatçıların azı ikisi eyni benefisiar mülkiyyətçinin nəzarətində olduqda;*
- *təchizatçılardan biri digərinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı olduqda, yaxud təchizatçıların azı ikisinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı eyni şəxs olduqda;*
- *satınalmada təchizatçı qismində çıxış edən fiziki şəxs və ya hüquqi şəxsin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsinə əsasən aidiyyəti şəxsi satınalan təşkilatın rəhbəri ilə qohumluq (ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürənlər, övladlığa götürülmüş şəxslər, babalar, nənələr, nəvələr, doğma (ögey) bacılar və qardaşlar, bacı və qardaşların övladları, bacıların ərləri, qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, ər-arvadların valideynləri, bacıları və qardaşları) münasibətində*

*olduqda).*

3.3. Birgə fəaliyyətin üzvü olaraq və ya fərdi şəkildə alternativ təkliflərə icazə verilən hallar istisna olmaqla təchizatçılar eyni satınalma üzrə birdən artıq təklif təqdim etməməli və ya birdən artıq təklifdə iştirak etməməli, həmçinin həmin satınalmada iştirak edən digər təchizatçının subpodratçısı olmamalıdır. Bu hal aşkarlandıqda həmin təchizatçıların təqdim etdikləri və (və ya) iştirak etdikləri bütün təkliflər kənarlaşdırılır.

3.4. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar bu məqsədlə tərəflərin hər birinin imzaladığı müqaviləyə və ya müqavilə layihəsi əlavə edilməklə müqavilə bağlamaq barədə tərəflərin hər birinin imzaladığı niyyət məktubuna malik olmalıdır. Bu halda birgə fəaliyyət göstərmək istəyən tərəflərin hər birinin müqavilənin müqavilə şərtlərinə uyğun icrası üçün birgə və fərdi məsuliyyət daşıması və tərəflər arasındakı iş öhdəliklərinin bölgüsü barədə müddəalar birgə fəaliyyət müqaviləsinə və ya müqavilə layihəsinə daxil edilməlidir. Birgə fəaliyyət onun adından və tərəfləri üçün satınalmada iştirak və müqavilə bağlandıqda isə müqavilənin icrasını təmin etmək məqsədilə müvafiq səlahiyyətə malik nümayəndə təyin edir. **Satınalma məlumat vərəqində (3)** göstərilmədiyi təqdirdə birgə fəaliyyətin üzvlərinin sayına məhdudiyyət qoyulmur.

3.5. Qanunun 16-cı maddəsi ilə tənzimlənən qaydada etibarsız təchizatçıların reyestrinə daxil edilmiş təchizatçıların müəyyən olunmuş müddətdə satınalmalarda iştirakına yol verilmir. Etibarsız təchizatçıların reyestri etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalında (bundan sonra – Portal) yerləşdirilir.

3.6. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru keçirildikdə, yalnız uyğunluq göstəricilərinə cavab verən təchizatçılar satınalmada iştirak edə bilərlər.

**4. Xidmətlərin münasibliyi**

4.1. Müqavilə çərçivəsində Azərbaycan Respublikasının beynəlxalq öhdəliklər nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçılar və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçılar tərəfindən xidmətlərin göstərilməsinə yol verilmir. Satınalan təşkilatın tələbi ilə təchizatçılardan xidmətlərin mənşəyinə dair sübut təqdim etmələri tələb oluna bilər.

## B. Şərtlər toplusunun məzmunu

**5. Şərtlər toplusunun tamlığı**

5.1. Şərtlər toplusu aşağıda verilmiş bütün bəndləri əhatə edən və təchizatçılar üçün təlimatın (bundan sonra – Təlimat) 6-cı hissəsinə uyğun olaraq ona edilən dəyişikliklər və əlavələrlə birlikdə nəzərə alınmalı olan aşağıdakı bölmələrdən ibarətdir:

- A. SATINALMA PROSEDURLARI
  - I Bölmə. Təchizatçılar üçün təlimat
  - II Bölmə. Satınalma məlumat vərəqi
  - III Bölmə. Qiymətləndirmə və uyğunluq meyarları
  - IV Bölmə. Satınalma formaları
- B. XİDMƏTLƏRƏ DAİR TƏLƏBLƏR
- C. SATINALMA MÜQAVİLƏSİ

5.2. Təchizatçıdan şərtlər toplusunda verilmiş bütün təlimat, forma, tələb, texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri) ilə tanış olması və şərtlər toplusunda tələb edilən bütün məlumat və sənədləri təqdim etməsi tələb olunur.

5.3. Satınalan təşkilatdan birbaşa əldə edilmədiyi təqdirdə satınalan təşkilat şərtlər toplusunun tamlığı, şərtlər toplusunda aydın olmayan hallarla bağlı sorğularına, əvvəlki görüşlərin (əgər olubsa) nəticələri barədə protokollara və (və ya) Təlimatın 6-cı hissəsinə uyğun olaraq şərtlər toplusuna edilmiş dəyişikliklərə görə məsuliyyət daşımır. Hər hansı ziddiyyət olduqda satınalan təşkilatdan birbaşa əldə olunan sənədlər üstünlük təşkil edir.

**6. Şərtlər toplusuna dair izahat, xidmət yerinə baxış və təklif öncəsi görüş**

6.1. Təchizatçı şərtlər toplusunda aydın olmayan hallarla bağlı təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 5 (beş) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (4)** qeyd olunan tarix və vaxt) satınalan təşkilata **Satınalma məlumat vərəqində (5)** qeyd olunan əlaqə vasitələri ilə sorğu ünvanlaya bilər. Satınalma komissiyası sorğunu aldıqdan sonra 2 (iki) iş günü ərzində sorğuya cavab verir. Sorğu və ona verilən cavab sorğu verənin gizliliyi təmin edilməklə həmin gün dəvət göndərilmiş bütün təchizatçılara təqdim edilir.

6.2. Sorğu və ona verilən cavab şərtlər toplusuna əlavə edilərək onun ayrılmaz tərkib hissəsi hesab edilir.

6.3. **Satınalma məlumat vərəqində (6)** nəzərdə tutulduğu halda təchizatçının təyin edilmiş nümayəndəsi təklif təqdim etməzdən əvvəl görüşdə və (ya) xidmətlərin göstəriləcəyi

yerə baxış keçirməyə dəvət olunur. Görüşün məqsədi yaranmış texniki suallara aydınlıq gətirmək və həmin mərhələdə qaldırıla biləcək hər hansı sualı cavablandırmaq olacaq. Təchizatçılardan əlavə sorğularını yalnız **Satınalma məlumat vərəqində (5)** qeyd olunan əlaqə vasitələri ilə təqdim etməsi tələb olunur. Hər hansı digər vasitə ilə verilmiş sorğular satınalan təşkilat tərəfindən nəzərə alınmır.

6.4. Təchizatçıya xidmətlərin göstəriləcəyi yerə və onun ətrafına baxış keçirmək və araşdırmaq, habelə təklifin hazırlanması və xidmətlərin göstərilməsi zamanı müqavilə bağlamaq üçün lazım ola biləcək bütün məlumatları əldə etmək tövsiyə olunur. Sahəyə baxış üçün səfər xərcləri təchizatçı tərəfindən ödənilir. Satınalan təşkilat satınalma iştirakçısına xidmət yerinə və onu əhatə edən ərazilərə baxış keçirmək və yoxlamaq, təklifin hazırlanması və xidmətlərin göstərilməsi üçün zəruri olacaq bütün məlumatları əldə etmək üçün xidmət yerinə giriş icazəsi verir.

6.5. Satınalan təşkilat təchizatçıya və (və ya) onun etibarnamə təqdim etdiyi hər hansı əməkdaşına xidmət yerinə baxış məqsədi ilə daxil olmaq üçün icazə verir.

6.6. Satınalan təşkilatla təchizatçılar arasında keçirilən görüş zamanı iştirak haqqını ödəmiş bütün təchizatçılar üçün bərabər iştirak imkanları yaradılır və görüş videomüşahidə vasitələrinin nəzarəti altında aparılaraq nəticələri protokolla rəsmiləşdirilir. Protokol nəzərə alınmaq üçün dəvət göndərilmiş bütün təchizatçılara həmin gün təqdim edilir. Satınalan təşkilatla təchizatçılar arasında qeyri-rəsmi danışıqlar aparılması və görüşlərin keçirilməsi qadağandır.

**7. Şərtlər toplusuna dəyişikliklərin edilməsi**

7.1. Satınalma komissiyası təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (7)** qeyd olunan tarix və vaxta qədər) şərtlər toplusuna hər hansı təchizatçının sorğusu əsasında və ya texniki səhvlər və ya çatışmazlıqlar aşkar edildikdə öz təşəbbüsü ilə dəyişikliklər (satınalma predmetinin dəyişdirilməsi istisna olmaqla) edə bilər.

7.2. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə şərtlər toplusunda hər hansı dəyişiklik edilməsinə, habelə bununla bağlı hər hansı sorğuya, təklifə və icazəyə yol verilmir.

7.3. Satınalma komissiyası şərtlər toplusuna dəyişikliklər etdiyi halda təkliflərin təqdim edilməsi müddətini ən azı 5 (beş) iş

gününədək uzadır. Təchizatçının əsaslandırılmış müraciəti əsasında təkliflərin təqdim edilməsi müddəti 10 (on) iş gününədək uzadıla bilər.

7.4. Şərtlər toplusuna edilmiş dəyişiklik onun ayrılmaz tərkib hissəsi hesab edilir. Dəyişikliklər bütün dəvət göndərilmiş təchizatçılara təqdim edilir və bütün təchizatçılar üçün məcburi qüvvəyə malikdir.

## C. Təkliflərin hazırlanması

**8. Satınalma xərcləri**

8.1. Təchizatçı öz təklifini hazırlamaq və təqdim etməklə bağlı bütün xərcləri özü çəkir və satınalan təşkilat satınalma prosesinin nəticəsindən asılı olmayaraq həmin xərclərə görə məsuliyyət və ya öhdəlik daşımır.

**9. Təklifin tərtib olunmasının dili**

9.1. Təklif və həmçinin təchizatçı ilə satınalan təşkilat arasında bütün yazışmalar və sənəd mübadiləsi Azərbaycan dilində aparılır. Satınalma komissiyasının qərarı ilə satınalmalara dair sənədlər **Satınalma məlumat vərəqində (8)** nəzərdə tutulmuş xarici dillərdən birinə (bir neçəsinə) tərcümə oluna bilər. Bu halda satınalmalara dair sənədlər arasında ziddiyyət yaranarsa Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

9.2. Təklifin tərkibinə daxil olan müşayiətedici sənədlər və çap materialları tərcüməsi ilə verilmək şərtilə, başqa dildə ola bilər. Təchizatçının xarici dildə təqdim etdiyi sənədlərin Azərbaycan dilinə notarial qaydasında təsdiqlənmiş tərcüməsi təqdim olunmalıdır. Təklif ilə tərcüməsi arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

**10. Təklifə daxil olan sənədlər**

10.1. Təchizatçı təqdim etdiyi təklifə aşağıdakıları əlavə edir:

(a) Təlimatın 11-ci hissəsinin tələbləri nəzərə alınmaqla təklif məktubu;

(b) Təlimatın 11-ci və 14-cü hissələrinin tələbləri əsasında qiymətləndirilmiş fəaliyyət cədvəli daxil olmaqla digər cədvəllər;

(c) Təlimatın 19.1-ci bəndinin tələbləri nəzərə alınmaqla təklifin təminatı;

(d) icazə verildiyi təqdirdə Təlimatın 12-ci hissəsinin tələbləri nəzərə alınmaqla alternativ təklif;

(e) səlahiyyət: Təlimatın 20.3-cü və 21.4-cü bəndlərinə uyğun olaraq təklifi imzalayan şəxsin səlahiyyətli olduğunun yazılı təsdiqi;

(f) uyğunluq: Təlimatın 17-ci hissəsinin tələbləri nəzərə alınmaqla uyğunluq sənədləri, habelə şərtlər toplusunda

nəzərdə tutulduğu halda subpodratçının müəyyən olunmuş tələblərə uyğun olması barədə sənədlər;

(g) münasiblik: Təlimatın 16-cı hissəsinin tələbləri nəzərə alınmaqla texniki təklif;

(h) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində tələb olunan digər sənədlər.

10.2. Təlimatın 10.1-ci bəndinin tələblərinə əlavə olaraq birgə fəaliyyət tərəfindən təqdim edilən təklifə bütün tərəflərin imzaladığı birgə fəaliyyət müqaviləsinin surəti daxil edilməlidir. Alternativ olaraq satınalmada qalib olacağı təqdirdə birgə fəaliyyət müqaviləsinin icrasına dair niyyət məktubunu bütün tərəflər imzalamalı və birgə fəaliyyət müqavilə layihəsi ilə birlikdə təqdim edilməlidirlər.

**11. Təklif məktubu və cədvəllər**

11.1. Təklif məktubu və fəaliyyət cədvəli Satınalma formaları (IV) bölməsində verilmiş müvafiq formalardan istifadə edilməklə hazırlanmalıdır. Formalar mətnə heç bir dəyişiklik edilmədən doldurulmalıdır və Təlimatın 20.3-cü bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla heç bir əvəzedici qəbul edilə bilməz. Bütün boş xanalara tələb olunan məlumatlar yazılmalıdır.

**12. Alternativ təklif**

12.1. **Satınalma məlumat vərəqində (9)** başqa hal nəzərdə tutulmayıbsa alternativ təkliflər nəzərə alınmayacaq. Alternativ təkliflərə icazə verildiyi halda, yalnız aşağı və ya sərfəli təklif təqdim edən təchizatçının texniki alternativləri, satınalan təşkilat tərəfindən nəzərə alınır.

12.2. Alternativ tamamlama müddətləri açıq şəkildə istənildikdə, bu barədə bəyanat **Satınalma məlumat vərəqinə (10)** daxil edilir və müxtəlif alternativ tamamlama müddətlərinin qiymətləndirilməsi üsulu Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində təsvir edilir.

12.3. **Satınalma məlumat vərəqində (11)** qeyd edildiyi təqdirdə təchizatçılar xidmətlərin *(B) Xidmətlərə dair tələblər* sənədində göstərilən müəyyən edilmiş hissələri üçün alternativ texniki həllər təqdim etməyə icazə verilir və belə hissələr **Satınalma məlumat vərəqində (11)** qeyd edilərək, onların qiymətləndirilməsi üsulu şərtlər toplusuna daxil edilir.

**13. Satınalma predmetinin bölünməsi**

13.1. **Satınalma məlumat vərəqində (12)** nəzərdə tutulduğu təqdirdə heç bir təklif satınalma predmetinin tam həcmdə icrasını təmin etmədikdə, bu zaman bir neçə təchizatçının hissəvi təkliflərinin cəmi bir təchizatçının təklifindən daha səmərəli və ya qiyməti daha aşağı olarsa, habelə satınalma predmetinin daha yüksək həcmdə icrasını təmin edərsə,

| | |
|---|---|
| | satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünür. |
| | 13.2. Təlimatın 13.1-ci bəndində bölünməsi nəzərdə tutulan hissələrin ətraflı təsviri **Satınalma məlumat vərəqində (12)** göstərilir. |
| **14. Təklifin qiyməti** | 14.1. Təklif məktubunda və fəaliyyət cədvəlində göstərilən qiymətlər bu hissədə göstərilən tələblərə cavab verməlidir. |
| | 14.2. Təchizatçı fəaliyyət cədvəlində göstərilən bütün bəndlərə qiymət daxil etməlidir. Təchizatçı tərəfindən qiymət daxil edilməyən və həmin hissələrin əlavə ödənişsiz icra edilməsi ilə bağlı qeyd olan bəndlərin fəaliyyət cədvəlinə daxil edilən digər qiymətlərlə əhatə edildiyi qəbul ediləcəkdir. Hər hansı qeyd olmadan qiymət daxil edilməyən bəndləri olan təklif natamam hesab ediləcəkdir. |
| | 14.3. Yekun qiymət təklif məktubunda göstərilməlidir. |
| | 14.4. **Satınalma məlumat vərəqində (13)** başqa hal nəzərdə tutulmadığı təqdirdə təchizatçı tərəfindən müqavilə çərçivəsində və ya hər hansı digər səbəbə görə ödənilməli olan bütün rüsumlar, vergilər və digər tutulmalar təchizatçının təklif etdiyi qiymətdə nəzərə alınmalıdır. |
| | 14.5. Qiymət endirimlərinə icazə verilmir. |
| **15. Təklifin və ödənişin məzənnəsi** | 15.1. Təchizatçılar (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təkliflərində qiymətləri Azərbaycan Respublikasının pul vahidi – manatla göstərməlidirlər. |
| | 15.2. Qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri sərbəst dönərli xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə əsas götürülməlidir. |
| **16. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)** | 16.1. Təchizatçı *(B) Xidmətlərə dair tələblər* sənədində qeyd olunan tələblərə cavab verdiyini göstərmək və təklifinin yetərliliyini nümayiş etdirmək üçün icra metodologiyası, iş qrafiki və Satınalma formaları (IV) bölməsində nəzərdə tutulmuş hər hansı digər məlumat daxil olmaqla kifayət qədər təfərrüatlı texniki təklif təqdim etməlidir. |
| | 16.2. Təklif edilən hər bir avadanlığın, texnikanın, məhsulun və digər malların özünəməxsus texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri), o cümlədən konkret əmtəə nişanı və adı, modeli, istehsal mənbəyi (mənşə ölkəsi) və istehsalçısına aid məlumatlar və istehsalçının texniki məlumat vərəqi (hansı varsa) təklifə əlavə edilməlidir. |
| **17. Uyğunluq sənədləri** | 17.1. Təchizatçıların uyğunluq göstəriciləri təchizatçılara dair ümumi və xüsusi tələblərdən ibarətdir. |

17.2. Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinin tələblərinə uyğun olaraq təchizatçılar müqaviləni icra etmək imkanlarını göstərmək üçün Satınalma formaları (IV) bölməsinə daxil edilən müvafiq məlumat vərəqələrini təmin etməli, habelə Qanunun 23-cü maddəsinə əsasən təchizatçıların uyğunluq göstəricilərini təsdiq edən sənədlər (bundan sonra – uyğunluq sənədləri) təqdim etməlidir.

**18. Təklifin qüvvədə olma müddəti**

18.1. Təkliflər **Satınalma məlumat vərəqin**də **(14)** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 7-ci hissəsinə uyğun uzadılmış tarixədək qüvvədə olmalıdır. **Satınalma məlumat vərəqində** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 7-ci hissəsinə uyğun uzadılmış tarixədək qüvvədə olmayan təkliflər formal tələblərə uyğun gəlməyən təklif kimi kənarlaşdırılır.

18.2. Satınalma komissiyası ən çoxu təkliflərin ilkin qüvvədə olduğu müddət qədər təkliflərin qüvvədə olma müddətinin uzadılmasını təchizatçılardan tələb edə bilər. Təkliflərin qüvvədə olma müddətinin uzadılması tələbi ilə razılaşan təchizatçılar təklifin təminatının qüvvədə olma müddətinin təklifin qüvvədə olma müddətindən azı 30 (otuz) iş günü çox olmaqla uzadılmasını və ya uzadılmış müddət üçün yeni təminatın verilməsini təmin edirlər. Təchizatçı təklifin təminatına olan hüququnu itirmədən satınalma komissiyasının belə tələbindən imtina edə bilər.

**19. Təklifin təminatı**

19.1. Təchizatçı (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təklifin tərkib hissəsi olaraq **Satınalma məlumat vərəqində (15)** qeyd edilmiş məbləğdə Azərbaycan manatı, qeyri-rezident hüquqi və fiziki şəxslər isə Azərbaycan manatı ilə və ya elanın verilməsi (dəvətin göndərilməsi) tarixinə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnəyə uyğun olaraq sərbəst dönərli valyuta ilə təkliflə birlikdə təklifin təminatını təqdim etməlidir, əks təqdirdə təklif qəbul edilmir.

19.2. Təklifin təminatı qarant tərəfindən qarantiya, sığorta təminatı, akkreditiv, depozitlər və digər maliyyə aktivləri şəklində verilir. Satınalma komissiyası qaranta və ya ehtimal olunan qiyməti 5 (beş) milyon manatdan yuxarı olan satınalmalara münasibətdə hər hansı qarantın verdiyi təminatı təsdiqləyən tərəf (əgər tələb olunursa), habelə digər şərtlərə dair hər hansı tələbini**,** habelə təklif üçün tələb olunan təminatın növünü **Satınalma məlumat vərəqində (16)** göstərir. Təklifin təminatı Satınalma

formaları (IV) bölməsinə daxil edilən "Təklifin təminatının nümunəsi" və ya təklif təqdim edilməzdən əvvəl satınalma komissiyası ilə razılaşdırılmış digər əhəmiyyətli dərəcədə oxşar nümunədən istifadə olunaraq təqdim edilməlidir. Təklifin təminatının qüvvədə olma müddəti təklifin ilkin və ya dəyişdirilibsə Təlimatın 7-ci hissəsinə uyğun uzadılmış qüvvədə olma müddətindən azı 30 (otuz) iş günü çox olmalıdır.

19.3. Təchizatçının təklifinin təminatı aşağıdakı hallarda dərhal geri qaytarılır:

(a) satınalmada ilk üç yerdən birini tutmayan təchizatçılara - satınalmanın nəticələrinə dair yekun protokol təsdiq olunduqda;

(b) satınalmada ikinci və üçüncü yerləri tutan təchizatçılara - qalib təchizatçı ilə bağlanılan satınalma müqaviləsi qüvvəyə mindikdə;

(c) qalib təchizatçı istisna olmaqla digər təchizatçılara – təkliflərin qüvvədə olma müddəti bitdikdə;

(d) bütün təchizatçılara – təkliflərin təqdim edilməsinin son müddəti bitməmişdən əvvəl təklif geri götürüldükdə və ya satınalma ləğv edildikdə;

(e) təkliflərin qüvvədə olma müddətinin uzadılması təşəbbüsü ilə razı olmayan təchizatçılara – təkliflərin qüvvədə olma müddəti bitdikdə;

(f) qalib təchizatçıya – satınalma müqaviləsi imzalandıqda və icra təminatı təqdim edildikdə.

19.4. Aşağıdakı hallarda təchizatçının təklifinin təminatı geri qaytarılmır:

(a) təchizatçı təkliflərin təqdim edilməsinin son müddəti bitdikdən sonra və ya təklifin qüvvədə olma müddəti bitənədək öz təklifini geri götürdükdə və ya dəyişdirdikdə;

(b) təklifin akseptinə dair bildirişi almış qalib təchizatçı müəyyən olunmuş müddətdə satınalma müqaviləsini imzalamadıqda və (və ya) icra təminatını təqdim etmədikdə;

(c) təklifin akseptinə dair bildirişi almış qalib təchizatçı satınalma müqaviləsi imzalananadək şərtlər toplusunda göstərilmiş hər hansı digər şərtləri yerinə yetirmədikdə.

19.5. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar tərəfindən təqdim edilən təklifin təminatında bütün tərəflərin hüquqi adları göstərilməlidir.

**20. Təklifin formatı və imzalanması**

20.1. Təchizatçı Təlimatın 10-cu hissəsində göstərildiyi kimi

təklifi təşkil edən sənədlərin bir əslini hazırlamalı və onu üstündə aydın şəkildə "ƏSLİ" qeyd etməlidir. Alternativ təkliflərə Təlimatın 12-ci hissəsinə uyğun olaraq icazə verilirsə, aydın şəkildə "ALTERNATİV" qeyd edilməlidir. Bundan əlavə təchizatçı təklifinin **Satınalma məlumat vərəqində (17)** göstərilən sayda nüsxəsini təqdim etməli və onlara aydın şəkildə "NÜSXƏ" qeyd etməlidir. Əsli ilə nüsxə arasında hər hansı uyğunsuzluq olduqda paketlərin əslinə üstünlük verilir.

20.2. Təchizatçılar təkliflərində biznesləri üçün məxfi olan bütün məlumatları "MƏXFİ" kimi qeyd etməlidirlər. Buraya mülkiyyət məlumatları, ticarət sirləri və ya kommersiya/ maliyyə baxımından həssas məlumatlar daxil ola bilər.

20.3. Təklifin əsli və bütün nüsxələri silinməz mürəkkəblə çap olunmalı və ya yazılmalı və təchizatçı adından imzalamaq səlahiyyətinə malik olan şəxs tərəfindən imzalanmalıdır. Təklif təchizatçının rəhbəri və ya digər vəzifəli şəxsi tərəfindən imzalanmalıdır. Təklifi təchizatçının rəhbəri imzaladıqda həmin təchizatçının təsis və hüquqi və ya fiziki şəxsin qeydiyyat sənədlərini təqdim etməlidir. Təklifi imzalayan digər vəzifəli şəxs olduğu təqdirdə isə həmin vəzifəli şəxsə imza səlahiyyətlərinin verilməsinə dair həmin təchizatçının rəhbəri tərəfindən səlahiyyəti təsdiq edən sənəd – etibarnamə təqdim edilməlidir.

20.4. Təchizatçı birgə fəaliyyət göstərdiyi halda, təklif birgə fəaliyyət göstərən təchizatçıların səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmalıdır. Həmin nümayəndənin imza səlahiyyətinə malik olması Təlimatın 21.3-cü bəndinin tələbləri nəzərə alınmaqla birgə fəaliyyət göstərən təchizatçıların rəhbərləri tərəfindən imzalanmış etibarnamə ilə təsdiq edilir.

20.5. İstənilən sətirlərarası xətlər, silmələr və ya təkrar yazılar yalnız təklifi imzalayan şəxs tərəfindən imzalandıqda və ya paraflandıqda etibarlı hesab olunur.

20.6. Bütün rəqəmlər həm də sözlə yazılır. Rəqəm və söz arasında fərq olarsa, söz ilə ifadə olunan məbləğ əsas götürülür.

## D. Təkliflərin təqdim olunması və açılması

**21. Təkliflərin möhürlənməsi və işarələnməsi**

21.1. Təchizatçı təklifini tək, möhürlənmiş zərfdə təqdim etməlidir. Təchizatçı tək zərfdə aşağıdakıları ayrıca möhürlənmiş zərfləri yerləşdirir:

(a) Təlimatın 10-cu hissəsində təsvir olunduğu kimi, təklifi

təşkil edən bütün sənədlər "ƏSLİ" qeyd olunmuş zərfdə;

(b) Təklifin bütün tələb olunan nüsxələri "NÜSXƏLƏRİ" yazılmış zərfdə;

(c) Təlimatın 14-cü hissəsinə uyğun olaraq alternativ təkliflərə icazə verilirsə və müvafiq olduqda:

i. "ƏSLİ – ALTERNATİV TƏKLİF" qeyd olunmuş zərfdə alternativ təklif;

ii. "NÜSXƏLƏR- ALTERNATİV TƏKLİF" qeyd olunmuş zərfdə alternativ təklifin bütün tələb olunan nüsxələri.

21.2. Daxili və xarici zərflərdə:

(a) təchizatçının adı və ünvanı göstərilməli;

(b) Təlimatın 22.1-ci bəndinə uyğun olaraq satınalma komissiyasına ünvanlanmalı;

(c) təkliflərin açılışı vaxtından və tarixindən əvvəl təkliflərin açılmamalı olması barədə xəbərdarlıq olmalıdır.

21.3. Zərflər tələb olunan qaydada möhürlənməyib işarələnmədiyi təqdirdə satınalma komissiyası təklifin səhv yönləndirilməsi və ya tələb olunan tarixdən əvvəl açılmasına görə məsuliyyət daşımır.

**22. Təkliflərin təqdim edilməsinin son müddəti**

22.1. Təkliflər onların təqdim edilməsi üçün **Satınalma məlumat vərəqində (18)** müəyyən edilən müddət başa çatmasına ən geci 1 (bir) saat qalanadək qeyd olunan əlaqə vasitələri ilə kağız daşıyıcılarında satınalan təşkilata təqdim edilir.

**23. Gecikmiş təkliflər**

23.1. Təlimatın 22-ci hissəsi ilə müəyyən olunmuş müddətdən gec təqdim olunan təklif qəbul edilmir.

**24. Təkliflərin geri götürülməsi, əvəzlənməsi və ya dəyişdirilməsi**

24.1. Təchizatçı təkliflərin təqdim edilməsi müddəti bitənədək öz təklifini dəyişdirə, əvəzləyə və ya geri götürə bilər. Bunun üçün təchizatçı Təlimatın 10.1(e) bəndində nəzərdə tutulan təklifi imzalayan şəxsin səlahiyyətli olduğunun yazılı təsdiqi əlavə etməklə müvafiq səlahiyyətli nümayəndə tərəfindən yazılı bildiriş göndərməlidir. Müvafiq bildiriş dəyişdirilmiş və ya əvəzlənmiş təklifə də daxil edilir. Bütün bildirişlər:

(a) Təlimatın 20-ci və 21-ci hissələrinə uyğun hazırlanaraq təqdim edilməli və əlavə olaraq müvafiq zərflərin üzərində aydın şəkildə "GERİ GÖTÜRMƏ", "ƏVƏZLƏNMƏ" və ya "DƏYİŞDİRMƏ" yazısı yazılmalı;

(b) Təlimatın 22-ci hissəsi nəzərə alınmaqla təkliflərin təqdim olunmasının son müddətindən əvvəl satınalan təşkilata çatdırılmalıdır.

24.2. Təlimatın 24.1-ci bəndinə uyğun olaraq geri götürülməsi istənilən təklif açılmadan təchizatçıya qaytarılır.

24.3. Təkliflərin təqdim edilməsinin son müddəti, o cümlədən uzadılmış müddəti bitdikdən sonra və ya təchizatçı

tərəfindən təklif məktubunda qeyd edilən təklifin qüvvədə olma müddəti bitənədək təklifi geri götürdükdə və ya dəyişdirdikdə təchizatçı təklifin təminatına olan hüququnu itirir.

**25. Təkliflərin açılması**

25.1. Təkliflərin son təqdim olunması müddətinədək təqdim olunmuş təkliflər satınalma komissiyası tərəfindən **Satınalma məlumat vərəqində (19)** qeyd olunan tarixdə, vaxtda və yerdə açılır.

25.2. Təkliflər açılarkən hər bir təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı və atasının adı), ünvanı, VÖEN-i, təklifinin qiyməti və təklifin təminatının məbləği və qüvvədə olma müddəti səsləndirilir.

25.3. Təchizatçı və ya onun səlahiyyətli nümayəndəsi təkliflərin açılışında iştirak edə bilər. Təklif təqdim etmiş, lakin təkliflərin açılışında iştirak etməyən təchizatçılara bütün təchizatçıların təkliflərinə dair elan olunmuş məlumatlar göndərilir. Təchizatçının və ya onun müvəkkilinin təkliflərin açılmasında iştirak etməməsi satınalma komissiyasının həmin təchizatçını satınalmadan kənarlaşdırmasına əsas vermir.

25.4. Əvvəlcə “GERİ GÖTÜRMƏ” qeyd olunmuş zərflər açılaraq oxunmalı və müvafiq təklifi olan zərf açılmayaraq təchizatçıya qaytarılmalıdır. Müvafiq geri götürmə bildirişində geri götürmə tələbi üçün etibarlı icazə olmadığı və təklifin açılışında oxunmadığı təqdirdə heç bir təklifin geri götürülməsinə icazə verilmir.

25.5. Daha sonra “ƏVƏZLƏNMƏ” qeyd olunmuş zərflər açılaraq oxunmalı və ilkin təklif əvəz edilməli təkliflə dəyişdirilərək açılmadan təchizatçıya geri qaytarılmalıdır. Müvafiq əvəzlənmə bildirişində əvəzlənmə tələbi üçün etibarlı icazə olmadığı və təklifin açılışında oxunmadığı təqdirdə heç bir təklifin əvəzlənməsinə icazə verilmir.

25.6. Növbəti olaraq “DƏYİŞDİRMƏ” qeyd olunmuş zərflər açılmalı və müvafiq təklif ilə birlikdə oxunmalıdır. Müvafiq dəyişdirmə bildirişində dəyişdirmə tələbi üçün etibarlı icazə olmadığı və təklifin açılışında oxunmadığı təqdirdə heç bir təklifin dəyişdirilməsinə icazə verilmir.

25.7. Sonda bütün qalan zərflər bir-bir açılmalı və hər bir təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), ünvanı, VÖEN-i, təklifinin varsa alternativ təklifinin qiyməti və təklifin təminatının məbləği və qüvvədə olma müddəti , habelə satınalma komissiyasının müvafiq hesab etdiyi digər məlumatlar oxunmalıdır. Oxunan məlumatlar

qeyd edilməklə müvafiq açılış protokolu tərtib edilərək satınalma komissiyasının üzvləri təchizatçının nümayəndələri tərəfindən imzalanmalıdır. Təchizatçının imzasının olmamalası protokolu etibarsız etmiş. Protokolun bir nüsxəsi bütün təchizatçılara paylanmalıdır.

25.8. Yalnız açılmış və oxunmuş təkliflər, alternativ təkliflər qiymətləndirmə zamanı nəzərə alınmalıdır. Təklif məktubu və iş həcmləri cədvəli açılışda iştirak edən satınalma komissiyasının bütün üzvləri tərəfindən qaydada paraflanmalıdır.

## E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi

**26. Məxfilik (konfidensiallıq)**

26.1. Məhkəmənin, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra – AİBNDX), Azərbaycan Respublikası Hesablama Palatasının və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin qanunla müəyyən edilmiş hüquq və vəzifələrinin icrası ilə bağlı məlumatların açıqlanması halları istisna olmaqla, satınalan təşkilat digər hallarda təchizatçıların kommersiya sirri təşkil edən və ya qanunla qorunan digər məlumatlarını açıqlamır və onları məxfi (konfidensial) saxlayır.

26.2. Təchizatçılar tərəfindən təqdim edilən uyğunluq sənədləri və təkliflər, bağlanılan satınalma müqaviləsinin surəti, satınalma müqaviləsi uzunmüddətlidirsə və ya mərhələlərlə həyata keçirilirsə, icrasının gedişi haqqında mütəmadi məlumatlar, satınalan təşkilatla təchizatçı arasında satınalma müqaviləsinin icrası, mübahisəli məsələlərin həlli ilə əlaqədar sənədlər və satınalma müqaviləsinin tam icra edilməsi haqqında satınalan təşkilatla təchizatçı arasında imzalanan təhvil-təslim aktı istisna olmaqla, satınalmaya dair hesabata əlavə edilən digər sənədlər təklifin akseptindən, yaxud satınalma müqaviləsinin bağlanılması ilə nəticələnməyən satınalma yekunlaşdıqdan sonra 7 (yeddi) iş günü ərzində sorğu əsasında təklif təqdim edən təchizatçılara verilir.

26.3. Təchizatçı satınalmanın istənilən mərhələsində Qanunun tələblərinə zidd hərəkətlərə (hərəkətsizliyə) yol verdikdə, o cümlədən saxta sənəd və (və ya) məlumat təqdim etdikdə satınalma komissiyası həmin təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

26.4. Təchizatçı Təlimatın 26.3-cü bəndinin tələblərini nəzərə

almaqla satınalma prosesi ilə əlaqədar olan hər hansı məsələyə dair satınalma komissiyası ilə yalnız **Satınalma məlumat vərəqində (5)** qeyd olunan əlaqə vasitələri ilə əlaqə saxlaya bilər.

26.5. Satınalan təşkilat təqdim olunan təkliflərə yalnız onların açılmasından sonra baxır və həmin müddətədək bu təkliflərin tamlığını, bütövlüyünü və konfidensiallığını qoruyur.

26.6. Məxfi məlumatlarla əlaqəli satınalma zamanı satınalan təşkilat təchizatçılardan və onların subpodratçılarından məxfi məlumatların qorunmasını və mühafizəsini tələb edir.

**27. Təkliflərə dair izahat**

27.1. Uyğunluq sənədlərinin və təkliflərin qiymətləndirilməsini asanlaşdırmaq məqsədilə satınalma komissiyası təchizatçıdan təqdim etdiyi uyğunluq sənədlərinə və ya təkliflərə dair izahat tələb edə bilər. Təchizatçı tərəfindən satınalma komissiyasının sorğusuna uyğun verilməyən cavablar nəzərə alınmır. Satınalma komissiyası tərəfindən qiymətləndirmə zamanı Təlimatın 30-cu hissəsinə uyğun aşkarlanmış hesab səhvlərinin düzəldilməsi istisna olmaqla təklifin qiymətlərində və ya mahiyyətində heç bir dəyişiklik, o cümlədən könüllü artım və ya azalma tələb edilməsinə yol verilmir.

27.2. Təchizatçı bu cür izahatı 5 (beş) iş günü ərzində satınalan təşkilata təqdim etmədiyi təqdirdə onun təklifi kənarlaşdırıla bilər.

**28. Formal tələblərə uyğunluğun müəyyən edilməsi**

28.1. Satınalma komissiyası Qanunun 33-cü maddəsinin tələblərini nəzərə almaqla, Təlimatın 10-cu hissəsində göstərilmiş tələblərə cavab verən təklifi formal tələblərə uyğun təklif hesab edir.

28.2. Təklifin əhəmiyyətli dərəcədə uyğun təklif hesab edilməsi üçün aşağıdakı hallar nəzərə alınmaqla əsaslı kənara çıxma, qeyd-şərt və çatışmazlıq olmadan şərtlər toplusunun tələblərinə cavab verməlidir:

(a) qəbul edildiyi təqdirdə: (i) müqavilədə göstərilən xidmətlərin həcminə, keyfiyyətinə və ya icrasına hər hansı əhəmiyyətli şəkildə təsir edəcək və ya (ii) şərtlər toplusunun tələblərinə zidd olaraq satınalan təşkilatın hüquqlarını və ya təklif olunan müqavilə çərçivəsində təchizatçının öhdəliklərini əsaslı şəkildə məhdudlaşdıracaq və ya;

(b) düzəldildiyi təqdirdə əhəmiyyətli dərəcədə uyğun hesab edilən digər təchizatçıların rəqabət mövqeyinə ədalətsiz təsir göstərəcək.

28.3. Satınalma komissiyası xüsusilə, *(B) Xidmətlərə dair tələblər* sənədində qeyd olunan bütün tələblərin, heç bir əsaslı kənara çıxma, qeyd-şərt və ya çatışmazlıq olmadan yerinə yetirildiyini təsdiqləmək üçün Təlimatın 16-cı hissəsinə uyğun olaraq təqdim edilmiş təklifin texniki aspektlərini yoxlamalıdır.

28.4. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə əsaslı kənara çıxmaya, qeyd-şərtə və ya çatışmazlığa düzəliş edilməsinə yol verilmədən kənarlaşdırılır.

**29. Əhəmiyyətsiz uyğunsuzluqlar**

29.1. Təklifdə onun mahiyyətini dəyişdirməyən şərtlər toplusunda göstərilmiş xüsusiyyətlərə, şərtlərə və başqa tələblərə əhəmiyyətli dərəcədə xələl gətirməyən, aradan qaldırılması mümkün olan kiçik texniki səhvlər və ya çatışmazlıqlar (əhəmiyyətsiz uyğunsuzluqlar) olduqda, həmin səhvlər və ya çatışmazlıqlar kəmiyyətcə ifadə olunur və satınalma komissiyası təklifi formal tələblərə uyğun təklif hesab edir.

29.2. Təklifin əhəmiyyətli dərəcədə uyğun olması şərti ilə, satınalma komissiyası təchizatçının sənədləşdirmə tələbləri ilə bağlı əhəmiyyətsiz uyğunsuzluqları təchizatçıdan 5 (beş) iş günü ərzində aradan qaldırmasını tələb edə bilər. Bu cür uyğunsuzluqlar haqqında məlumat və ya sənədlərin tələb edilməsi təklifin qiymətinin heç bir aspekti ilə əlaqəli olmamalıdır. Təchizatçının qeyd edilmiş müddət ərzində sorğuya cavab verməməsi onun təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.

**30. Hesab səhvlərinin düzəldilməsi**

30.1. Təklifin formal tələblərə uyğun olması şərti ilə satınalma komissiyası aşağıdakı əsaslarla hesab səhvlərini düzəltməlidir:

(a) miqdarın vahidin qiymətinə vurulmaqla əldə edilən hasili ilə vahidin qiyməti arasında ziddiyyət olduqda, vahidin qiyməti əsas götürülməli və hasilə düzəliş edilməlidir. Satınalma komissiyasının rəyinə görə vahidin qiymətinin kəsr bölgüsündə aşkar yanlışlıq olduğu təqdirdə hasil əsas götürülməli və vahidin qiymətinə düzəliş edilməlidir;

(b) aralıq cəmin toplanması və ya çıxılmasına uyğun cəmi qiymətdə səhv olarsa belə aralıq cəmə düzəliş edilməlidir;

(c) sözlərlə rəqəmlər arasında ziddiyyət olarsa, sözlərlə ifadə edilmiş miqdarın hesablama səhvi ilə bağlı olması istisna olmaqla, sözlərlə ifadə edilmiş miqdar əsas

götürülməlidir. Bu halda rəqəmlərlə verilmiş miqdar yuxarıdakı (a) və (b) bəndləri nəzərə alınmaqla əsasən əsas götürülməlidir.

30.2. Satınalma komissiyası hər hansı belə düzəliş barəsində təklifi vermiş təchizatçıya dərhal bildiriş göndərir. Təchizatçı Təlimatın 30.1-ci bəndində uyğun hər hansı hesab səhvinin düzəldilməsi ilə razılaşmadıqda satınalma komissiyası həmin təchizatçının satınalmadan kənarlaşdırılması haqqında qərar qəbul edir.

**31. Vahid valyutaya konvertasiya**

31.1. Qiymətləndirmə və müqayisə məqsədilə qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri bütövlüklə və ya bir qismi xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə (www.cbar.az/currency/rates) əsas götürülərək Azərbaycan manatına konvertasiya edilməlidir.

**32. Satınalma güzəşti**

32.1. Satınalma komissiyası təklifləri qiymətləndirərkən yerli mənşəli xidmətlər üzrə təklifin xeyrinə Qanunun 33.14-cü maddəsi ilə müəyyən edilmiş qaydada 20 faizə qədər həcmdə güzəşti düzəliş tətbiq edir.

**33. Subpodratçılar**

33.1. **Satınalma məlumat vərəqində (20)** nəzərdə tutulduğu təqdirdə, qalib təchizatçı xidmətlərin göstərilməsi ilə əlaqədar subpodratçılarla müqavilə imzalaya bilər. Bütün digər hallarda satınalma müqaviləsinin icrası subpodratçılara həvalə edilə bilməz. Bu halda təchizatçı təqdim etdiyi təklifə subpodratçıya həvalə ediləcək fəaliyyət (fəaliyyətlər) və ya xidmətlərin hissələri və satınalma müqaviləsindəki payı barədə məlumat əlavə etməlidir. Subpodrat müqaviləsinin (müqavilələrinin) məbləği satınalma müqaviləsinin ümumi dəyərinin 50 faizindən çox olmamalıdır. Satınalma müqaviləsinin icrasına subpodratçılar cəlb olunduğu halda, subpodrat müqavilələrinin ümumi məbləğinin 20 faizdən az olmayan hissəsinin icrası Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş mikro, kiçik və orta sahibkarlıq subyektlərinə həvalə olunmalıdır.

33.2. Subpodratçının uyğunluq göstəriciləri şərtlər toplusunda təchizatçı üçün müəyyən edilmiş uyğunluq göstəriciləri tələblərinə cavab vermək üçün istifadə edilməməlidir.

**34. Təkliflərin qiymətləndirilməsi**

34.1. Satınalan təşkilat təklifləri Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulan meyarlara və prosedurlara əsasən qiymətləndirir.

34.2. **Satınalma məlumat vərəqində (21)** nəzərdə tutulduğu təqdirdə təklifi ən səmərəli təklif kimi qiymətləndirərkən qiymət amilinə əlavə olaraq texniki amillər üçün nisbi qiymət (balı) meyarı tətbiq ediləcəkdir. Qiymət amili üçün çəki, texniki amillər və onların alt amillərinə veriləcək ballar **Satınalma məlumat vərəqində (21)** göstərilmişdir.

34.3. Təklifi qiymətləndirərkən satınalma komissiyası aşağıdakıları nəzərə alır:

(a) Təlimatın 31.1-ci bəndinə uyğun digər valyutada təklif olduğu təqdirdə vahid məzənnəyə konvertasiya;

(b) Təlimatın 32-ci hissəsinə uyğun olaraq satınalma güzəştinin tətbiqi;

(c) Təlimatın 30.1-ci bəndinə uyğun olaraq hesab səhvinə görə təklifin ümumi qiymətinə düzəliş.

(d) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində müəyyən edilmiş digər qiymətləndirmə meyarları.

**35. Təkliflərin müqayisəsi**

35.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı qiyməti olan təklifi müəyyən etmək üçün Təlimatın 34.1-ci bəndinə uyğun olaraq müəyyən edilmiş tələblərə əhəmiyyətli dərəcədə cavab verən bütün təkliflərin qiymətləndirilmiş yekun məbləğini müqayisə etməlidir.

35.2. Təlimatın 34.2-ci bəndi tətbiq olunarsa satınalma komissiyası ən səmərəli (qiymət və texniki amillərə görə ən çox bal toplamış) təklifi müəyyən etməlidir.

**36. Həddindən artıq ucuz təkliflər**

36.1. Təchizatçının təqdim etdiyi təklifin qiyməti ehtimal olunan qiymətlə müqayisədə 20 faizdən aşağı olarsa, satınalma komissiyası təchizatçıdan təklif qiymətinin ətraflı təhlili, təklif olunan metodologiya, iş qrafiki, risk və məsuliyyətin paylaşdırılması, habelə şərtlər toplusunun digər tələbləri barədə yazılı izahat almalıdır. Təchizatçının təqdim etdiyi izahat və məlumatlar təhlil edildikdən sonra satınalma müqaviləsinin icrasına əsaslı şübhələr qaldıqda satınalma komissiyası təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

**37. Təchizatçının uyğunluq göstəriciləri**

37.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı məbləği olan və əhəmiyyətli dərəcədə uyğun olan ilk 3 (üç) təchizatçının təklifinin Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində qeyd edilmiş uyğunluq göstəricilərinə cavab verib-vermədiyini müəyyən etməlidir.

37.2. Bunun müəyyənləşdirilməsi üçün Təlimatın 17-ci hissəsinə uyğun olaraq təchizatçı tərəfindən təqdim edilmiş uyğunluq göstəricilərini təsdiq edən sənədlər araşdırılmalı,

təchizatçının özündən başqa digər törəməsi və ya tabe olduğu müəssisələr, törəmə və tabeliyində olan müəssisələri, filialları və subpodratçılarının uyğunluq sənədləri nəzərə alınmamalıdır.

37.3. Uyğunluq göstəricilərinə cavab verən təklifin seçilməsi müqavilənin bağlanılması üçün ilkin şərtdir. Təlimatın 40.1-ci bəndinin tələbləri yerinə yetirilmədikdə qiymətləndirilmiş ən aşağı məbləği olan növbəti təklif və ya təkliflərin uyğunluq tələblərinə cavab verib-vermədiyi müvafiq qaydada araşdırılır.

37.4. **Satınalma məlumat vərəqində (22)** göstərilən hallarda, satınalma komissiyası tərəfindən əsaslandırılmaqla uyğunluq sənədlərini təqdim etmiş təchizatçıdan satınalmanın istənilən mərhələsində həmin sənədlərin yenidən (bir dəfədən çox olmayaraq) təqdim edilməsi tələb oluna bilər. Bu cür tələb təklifin qüvvədə olma müddətinin bitməsinə 10 (on) iş günü qalanadək irəli sürülür və uyğunluq sənədlərinin yenidən təqdim edilməsi 5 (beş) iş günü ərzində həyata keçirilir.

37.5. Təchizatçının uyğunluq göstəriciləri barədə verdiyi qeyri-dəqiq və natamam məlumat satınalma komissiyasının tələbi ilə 3 (üç) iş günü ərzində aradan qaldırılmalıdır.

**38. Qalib təklifin seçilməsi**

38.1. Uyğunluq göstəricilərinə cavab verən və təklifləri uyğun olan

(a) ən aşağı qiymət təklifi

(b) və ya ən səmərəli təklifi

təqdim edən təchizatçı qalib təchizatçı sayılır.

**39. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ**

39.1. Satınalma komissiyası Qanunun tələblərini nəzərə almaqla qalib təchizatçını seçməzdən əvvəl istənilən vaxt istənilən təklifi aksept etmək və ya kənarlaşdırmaq və satınalmanın ləğv edilməsi haqqında qərar qəbul etmək hüququnu özündə saxlayır və buna görə təchizatçılar qarşısında heç bir məsuliyyət daşımır. Zərflər açılana qədər satınalma ləğv edildiyi halda təklifin təminatları daxil olmaqla təkliflər, zərflər açıldıqdan sonra isə təkliflərin təminatları təchizatçılara dərhal geri qaytarılır.

39.2. Satınalma komissiyası aşağıdakı hallarda satınalmanın ləğv edilməsi haqqında qərar qəbul edir:

(a) satınalmada iştirak etmək üçün təklifi və təklifin təminatını təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayı açıq tender birinci dəfə elan edildikdə üçdən, yetərsay olmamasına görə eyni satınalma ikinci dəfə elan

edildikdə isə ikidən az olduqda;
(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;
(c) birinci, ikinci və üçüncü yerləri tutmuş təchizatçılar arasından qalib təchizatçını seçmək mümkün olmadıqda;
(d) bütün təchizatçıların təqdim etdiyi təkliflərin qiyməti ehtimal olunan qiymətdən yüksək olduqda;
(e) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən bu Təlimatın 3.2-ci bəndinin tələblərinin pozulduğu müəyyən edildikdə;
(f) satınalmanın maliyyələşdirilməsi dayandırıldıqda.

**40. Satınalmanın nəticələri barədə bildiriş**

40.1. Satınalma komissiyası satınalmanın nəticələri haqqında yekun protokolu imzaladığı gün satınalan təşkilatın adından təklifini aksept etmək istədiyi təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), ünvanı, VÖEN-i, imzalanması nəzərdə tutulan müqavilənin məbləği, habelə gözləmə müddətinin qüvvədə olma tarixləri barədə satınalmadan kənarlaşdırılmamış təchizatçılara Təlimatın 44-cü hissəsi nəzərə alınmaqla bildiriş göndərir. Bildirişdə digər təchizatçıların qalib gəlməməsinin səbəbləri göstərilir.

**41. Gözləmə müddəti**

41.1. Satınalmanın nəticələri barədə bildirişin göndərildiyi gündən sonrakı iş günü gözləmə müddəti başlayır və 5 (beş) iş günü ərzində qüvvədə olur. Gözləmə müddəti bitmədən satınalan təşkilat ilə qalib təchizatçı arasında müqavilə imzalana bilməz.

## F. Qalibin seçilməsi

**42. Qalibin seçilməsi proseduru**

42.1. Təlimatın 39-cu hissəsinin tələbləri nəzərə alınmaqla satınalma komissiyası qalib təchizatçını seçir.

**43. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi**

43.1. Satınalma müqaviləsi qalib təchizatçı tərəfindən imzalananadək satınalma komissiyası əvvəlcədən şərtlər toplusunda göstərmişdirsə, satınalma predmetinin hər vahidinin qiymətini və xüsusiyyətlərini (göstəricilərini) dəyişdirməmək, həmçinin ehtimal olunan qiyməti keçməmək şərti ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin razılığı ilə satınalma predmetinin həcmini (miqdarını) 10 faizə qədər artırıb-azalda bilər.

**44. Müqavilənin imzalanması**

44.1. Satınalan təşkilat təklifin şərtlər toplusunda göstərilmiş qüvvədə olma müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək qalib təchizatçının təklifini aksept edir və satınalma müqaviləsini tərtib edib təchizatçıya aksept bildirişi ilə birlikdə göndərir.

44.2. Qalib təchizatçı 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalayır və satınalan təşkilata bu Qanuna əsasən tələb olunan icra təminatını təqdim edir. Satınalan təşkilat satınalma müqaviləsini 10 (on) iş günündən gec olmayaraq imzalayır.

**45. Bağlanılmış müqavilə barədə məlumatın verilməsi**

45.1. Satınalma komissiyası satınalma müqaviləsi qüvvəyə mindiyi gündən 3 (üç) iş günü ərzində satınalan təşkilatın və müqaviləni bağlamış təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), VÖEN-i, satınalma predmeti, satınalma metodu, müqavilənin məbləği və icra müddəti barədə Portalda məlumat yerləşdirir.

**46. İcra təminatı**

46.1. İcra təminatının məbləği satınalma müqaviləsinin ümumi məbləğinin 10 faizi (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 5 faizi) həcmində müəyyən olunur. İcra təminatının qüvvədə olma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda, zəmanət müddəti daxil olmaqla) 30 (otuz) iş günü çox olmalıdır.

46.2. Ümumi məbləği 30 000 (otuz min) manatdan az olan satınalma müqaviləsi üzrə icra təminatı tələb olunmur.

46.3. Qalib təchizatçının Təlimatın 44.2-ci bəndində qeyd olunan müddət ərzində satınalma müqaviləsini imzalamaması və (və ya) Qanuna əsasən tələb olunan icra təminatını təqdim etməməsi onun öz öhdəliklərini icra edə bilməməsi kimi qiymətləndirilir və təklifin təminatının geri qaytarılmaması ilə nəticələnir.

## G. Şikayət verilməsi

**47. Şikayət vermək hüququ**

47.1. Hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə təchizatçıların satınalan təşkilatın hərəkətlərindən (hərəkətsizliyindən) və qərarlarından inzibati qaydada, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət vermək hüququ vardır.

47.2. Aşağıdakılar şikayət predmeti ola bilməz:

(a) Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya

müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinin məhdudlaşdırılması;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmaması və satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirilməsi halları istisna olmaqla qanuni əsaslarla satınalmanın ləğv edilməsi.

**48. Satınalan təşkilata şikayət**

48.1. Satınalmadan kənarlaşdırılmamış təchizatçılar satınalan təşkilata satınalmanın nəticələri ilə bağlı öz şikayətlərini gözləmə müddətində verirlər. Satınalan təşkilat gözləmə müddətində verilmiş şikayəti 5 (beş) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

48.2. Kənarlaşdırılmış və ya iştirak etməyən təchizatçılar satınalma müqaviləsi qüvvəyə minənə qədər öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 15 (on beş) iş günü ərzində satınalan təşkilata şikayət verə bilərlər. Satınalan təşkilat verilmiş şikayəti 10 (on) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir və həmin qərarın qəbul edildiyi gündən 1 (bir) iş günü ərzində şikayət edən təchizatçıya göndərir.

48.3. Şikayət gözləmə müddəti və ya Təlimatın 48.2-ci bəndi ilə müəyyən edilən müddət keçdikdən sonra verilmişdirsə, satınalan təşkilat həmin şikayəti baxılmamış saxlayır.

48.4. Satınalan təşkilat Təlimatın 48.1-ci və 48.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmirsə, təchizatçı bununla bağlı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət verə bilər. Belə şikayət verildikdən sonra satınalan təşkilat tərəfindən həmin şikayət baxılmamış saxlanılır.

**49. AİBNDX-yə şikayət**

49.1. Təchizatçılar aşağıdakı hallarda İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilərlər:

(a) satınalma müqaviləsi qüvvəyə mindikdə;

(b) satınalma komissiyası Qanunun və Qanundan irəli gələn normativ hüquqi aktların tələblərini pozduqda;

(c) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(d) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar

arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən satınalmalarda maraqlar toqquşmasının tələbləri pozulduğu müəyyən edildikdə;

(e) satınalan təşkilat Təlimatın 48.1-ci və 48.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmədikdə;

(f) verilmiş şikayətlə bağlı satınalan təşkilatın qərarı ilə razılaşmadığı halda.

49.2. Təchizatçılar öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən, habelə Təlimatın 49.1(f) bəndində nəzərdə tutulmuş qərarı aldığı gündən və ya həmin qərarın verilməli olduğu gündən 15 (on beş) iş günü ərzində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilərlər.

49.3. AİBNDX şikayəti aldıqdan sonra 1 (bir) iş günü ərzində bu barədə satınalan təşkilata Portal vasitəsilə bildiriş göndərir. Şikayətdə qaldırılan məsələlərin araşdırılması üçün əlavə məlumat tələb olunduğu təqdirdə AİBNDX satınalan təşkilata Portal vasitəsilə sorğu göndərir. Satınalan təşkilat sorğunu aldıqdan sonra 3 (üç) iş günü ərzində sorğuda tələb olunan məlumatları İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə təqdim edir.

49.4. AİBNDX verilmiş şikayəti 20 (iyirmi) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

49.5. AİBNDX şikayəti təmin edirsə aşağıdakı tədbirlərdən birini və ya bir neçəsini tətbiq edir:

(a) satınalan təşkilata qanunazidd hərəkətlər (hərəkətsizlik) etməyi və ya qərarlar qəbul etməyi, yaxud prosedurlar tətbiq etməyi qadağan etmək;

(b) satınalan təşkilatın qanunazidd inzibati aktını "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 67-ci maddəsinə uyğun olaraq ləğv etmək;

(c) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd hərəkətini (hərəkətsizliyini) dayandırmaq;

(d) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd qərarını ləğv etmək və yeni qərar qəbul etmək və ya satınalan təşkilatın əvəzinə öz qərarını qəbul etmək;

(e) təkliflərin yenidən qiymətləndirilməsi və ya satınalmanın ləğv edilməsi barədə qərar qəbul etmək.

**50. Satınalmanın dayandırılması**

50.1. Təlimatın 48-ci və 49-cu hissələrinə əsasən verilən şikayətin (gözləmə müddətində verilən şikayət istisna olmaqla) araşdırılması məqsədilə "İnzibati İcraat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinə uyğun olaraq İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qərarı ilə satınalan təşkilat tərəfindən satınalma prosedurları 10 (on) iş gününədək dayandırıla bilər. Bu müddət İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsaslandırılmış qərarı ilə 10 (on) iş gününədək uzadıla bilər.

**51. İnzibati qaydada şikayət**

51.1. Təchizatçılar AİBNDX-nin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və məhkəməyə şikayət verə bilərlər.

## H. Müqavilə

**52. Müqavilə şərtləri**

52.1. Təchizatçı təklifini formalaşdırarkən satınalma müqaviləsinin tələblərini nəzərə almalıdır.

52.2. Satınalma müqaviləsində aşağıdakı məlumatlarından çıxarış **Satınalma məlumat vərəqində (23)** də göstərilir:

(a) satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği;

(b) avans;

(c) satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları;

(d) satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları;

(e) tətbiq edildikdə satınalma predmetinin sığortalanması şərtləri.

52.3. Satınalma müqaviləsi ilə şərtlər toplusunda qeyd edilən məlumatlar arasında ziddiyyət olarsa şərtlər toplusu üstünlük təşkil edir.

# II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ

Satın alınacaq xidmətlər üçün aşağıdakı spesifik məlumatlar Təlimatın müddəalarını tamamlayır, aydınlaşdırır və ya dəyişdirir. Hər hansı bir ziddiyyət yarandıqda, aşağıdakı müddəalar Təlimatdakı müddəalardan üstün olacaqdır.

*[Satınalma məlumat vərəqini doldurmaq üçün zəruri təlimatlar istinad olunan müvafiq Təlimatın üçün kursivlə yazılmış qeydlərdə təqdim olunur və şərtlər toplusu doldurulduqdan sonra silinir].*

| Sıra №-si | Bənd | Məzmun | Məlumat |
|---|---|---|---|
| | | **A. Ümumi** | |
| (1) | 1.1. | Satınalma predmeti | **(satınalma predmetini daxil edin)** |
| | | Satınalan təşkilatın adı:<br>VÖEN-i | **(satınalan təşkilatın adını daxil edin)**<br>**(VÖEN-i daxil edin)** |
| | | Satınalan təşkilatın əlaqələndirici vəzifəli şəxsi barədə məlumat | **(soyadı, adı və atasının adını daxil edin)**<br>**(vəzifəsini daxil edin)**<br>**(əlaqə məlumatlarını daxil edin)** |
| (2) | 3.1. | Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma | **(iştirakı məhdudlaşdırılan ölkələr və ya məhdudlaşdırılma şərtləri barədə məlumatı daxil edin)**<br>*[Əgər belə hallar nəzərdə tutulmayıbsa “nəzərdə tutulmayıb” qeyd edin]* |
| (3) | 3.3. | Birliyin üzvlərinin maksimal sayı | **(sayı daxil edin)** |
| | | **B. Şərtlər toplusunun məzmunu** | |
| (4) | 6.1. | Şərtlər toplusuna dair izahat üçün son müddət | **(tarix və saatı daxil edin)** |
| (5) | | Şərtlər toplusuna dair izahat üçün satınalan təşkilatın əlaqə vasitələri | Təklifə dair izaha üçün satınalan təşkilatın ünvanı.<br>*[Bu ünvan təklifi təqdim etmək üçün Təlimatın 22.1-də göstərilən ünvanla eyni və ya fərqli ola bilər]*<br>Kimə: **(əgər varsa, şəxsin tam adını daxil edin)**<br>Ünvan: **(rayon, qəsəbə göstərilməklə küçə ünvanını və nömrəsini daxil edin)**<br>Mərtəbə/ Otaq nömrəsi: **(əgər varsa mərtəbə və otaq nömrəsini daxil edin)**<br>Şəhər: **(şəhərin adını daxil edin)** |

| | | | |
|---|---|---|---|
| | | | Poçt kodu: **(əgər varsa, poçt (poçt) kodunu daxil edin)**<br>Ölkə: **(ölkənin adını daxil edin)**<br>Telefon: **(ölkə və şəhər kodları daxil olmaqla şəhər telefonu və əgər varsa mobil nömrəsini daxil edin)**<br>Elektron poçt ünvanı: **(əgər varsa, e-poçt ünvanını daxil edin)**<br>Veb-səhifə: **(istifadə edildiyi təqdirdə satınalma prosesi ilə bağlı məlumat mübadiləsi ediləcəyi vebsaytı müəyyənləşdirin)** |
| (6) | 6.3. | Təklif öncəsi görüş və sahəyə baxış | Təklif öncəsi görüş **(aşağıdakı tarixdə, saatda və yerdə keçiriləcək / keçirilməyəcək)**.<br>*[keçiriləcəksə aşağıdakı məlumatları daxil edin, əks təqdirdə silin]*<br>Tarix **(tarixi daxil edin)**:<br>Saat: **(saatı daxil edin)**<br>Yer: **(yeri daxil edin)**<br>Sahəyə baxış **(təşkil ediləcək / edilməyəcək)**. |
| (7) | 7.1. | Şərtlər toplusunda dəyişiklik üçün son müddət | **(tarix və saatı daxil edin)** |
| | | **C. Təkliflərin hazırlanması** | |
| (8) | 9.1. | Satınalmalara dair sənədlərin tərcümə olunacağı dil(lər) | Tərcümə **(olunacaq / olunmayacaq)**.<br>*[tərcümə olunacaqsa dili qeyd edin, əks təqdirdə silin]*<br>**(dili daxil edin)** |
| (9) | 12.1. | Alternativ təklif | Alternativ təkliflə icazə **(verilir / verilmir)**.<br>*[Alternativ təkliflərə icazə verilərsə, Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində onun metodologiyası müəyyən edilməlidir.]* |
| (10) | 12.2. | Alternativ tamamlama müddəti | Alternativ tamamlama müddətinə icazə **(verilir / verilmir)**. |
| (11) | 12.3. | Alternativ texniki həllər | Alternativ texniki həllərə icazə **(verilir / verilmir)**.<br>*[icazə verilirsə xidmətlərin hissələrini qeyd edin, əks təqdirdə silin]*<br>**(xidmətlərin təsvirini qeyd edin)**<br>*[Alternativ texniki həllərə icazə verilərsə, Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində onun metodologiyası müəyyən edilməlidir]* |

| | | | |
|---|---|---|---|
| (12) | 13.1. | Satınalma predmetinin bölünməsi | Satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünməsinə və təchizatçıların satınalma predmetinin ayrı-ayrı hissələri üçün təkliflər təqdim etməsinə icazə **(verilir / verilmir)**.<br><br>*[icazə verilirsə xidmətlərin hissələrini və bölünmə şərtlərini qeyd edin, əks təqdirdə silin]*<br>**(satınalma predmetinin iki və ya daha çox təchizatçı arasında bölünməsi ilə bağlı şərtləri və bölünməsinə icazə verilən hissələri ətraflı təsvir edin)** |
| (13) | 14.4. | Təklifin qiymətində nəzərə alınmalı olan amillər | **(qiymət təklifi hazırlanarkən nəzərə alınmalı olan halları daxil edin)**<br>*[Təklifin qiymətinin hazırlanması zamanı nəzərə alınmalı olan amilləri, halları daxil edin. Əgər təlimatda nəzərdə tutulandan başqa hal nəzərdə tutulmayıbsa “Başqa hal nəzərdə tutulmayıb” qeyd edin]* |
| (14) | 18.1. | Təklifin qüvvədə olma müddəti | Təklif ən azı **(tarixi daxil edin)** tarixinədək qüvvədə olmalıdır<br>*[təklifin qiymətləndirilməsini yekunlaşdırmaq, lazımi razılıqları, o cümlədən nəticələrin AİBNDX ilə razılaşdırmaq üçün lazım olan ağlabatan vaxt nəzərə alınmaqla tarixi qeyd edin]* |
| (15) | 19.1. | Təklifin təminatının məbləği | **(təklif təminatının məbləğini rəqəmlə və sözlə daxil edin)**<br><br>*[Təklifin təminatını ehtimal olunan qiymətin 1-3 faizi aralığında müəyyənləşdirir. Məbləğin yuvarlaq və kəsrsiz olması tövsiyə olunur]* |
| (16) | 19.2. | Qarant və qarantın verdiyi təminatı təsdiqləyən tərəf barəsində tələblər | **(varsa qeyd edin, yoxdursa “yoxdur” yazın)**<br><br>Təklifin təminatı **(təminatın formasını seçin)** şəklində verilir |
| (17) | 20.1. | Təklifin nüsxə sayı | Təklifin əslinə əlavə olaraq **(nüsxə sayını daxil edin)** sayda nüsxə. |
| **D. Təkliflərin təqdim olunması və açılması** | | | |
| (18) | 22.1. | Təkliflərin təqdim edilməsinin son müddəti | **(tarix və saatı daxil edin)**<br>*[Təkliflərin cəlb edilməsi barədə dəvət təkliflərin açılması günündən azı aşağıdakı müddətlərdən əvvəl göndərilir:* |

| | | | |
|---|---|---|---|
| | | | • *ehtimal olunan qiymət 1 000 000 manatadək olduqda 15 (on beş) iş günü;*<br>• *1 000 000 manatdan 10 000 000 manatadək olduqda 20 (iyirmi) iş günü;*<br>• *10 000 000 manat və ondan çox olduqda 30 (otuz) iş günü.*<br>*Təkliflərin hazırlanması və təqdim edilməsi üçün icazə verilən vaxt predmetin xüsusiyyəti, miqyası və mürəkkəbliyi nəzərə alınmaqla müəyyən edilməlidir.]* |
| (19) | 25.1. | Təkliflərin açılmasının müddəti və yeri | **(tarix və saatı daxil edin)**<br><br>*[Təkliflər Təlimatın 24.1-ci bəndində qeyd olunan vaxtdan sonra 1 saat ərzində açılır]*<br><br>Təkliflərin açılması üçün satınalan təşkilatın ünvanı:<br>Ünvan: **(rayon, qəsəbə göstərilməklə küçə ünvanını və nömrəsini daxil edin)**<br>Mərtəbə/ Otaq nömrəsi: **(əgər varsa mərtəbə və otaq nömrəsini daxil edin)**<br>Şəhər: **(şəhərin adını daxil edin)**<br>Poçt kodu: **(əgər varsa, poçt (poçt) kodunu daxil edin)**<br>Ölkə: **(ölkənin adını daxil edin)** |
| | | **E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** | |
| (20) | 33.1. | Subpodratçı | Subpodratçının cəlb edilməsinə icazə **(verilir / verilmir)**.<br><br>Subpodratçı üçün tələblər: **(tələbləri daxil edin)**<br><br>*[Məsələn, subpodratçının həyata keçirməsi nəzərdə tutulan fəaliyyət sahəsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növü olarsa müvafiq lisenziya əlavə edilməlidir]* |
| (21) | 34.2. | Qiymətləndirmə meyarlarının nisbi qiyməti (balı) və çəkisi | Meyarların nisbi qiyməti (balı) **(tətbiq ediləcək / edilməyəcək)**<br><br>*[Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində təfərrüatlı olaraq qiymətləndirilmiş meyarlar/bal sistemi təklifi qiymətləndirmə yanaşması tətbiq edilərsə, "tətbiq ediləcək" seçin]* |

<table>
<tr><td></td><td></td><td></td><td>Qiymət amilinin çəkisi: (çəkini daxil edin)<br><br>[məbləğ üçün elə bir çəki göstərin ki, texniki və məbləğ nisbətlərinin cəmi 1 (bir) olsun. Bu çəkinin 70%-dən aşağı olmaması tövsiyə olunur. Təlimatın 34.2 bəndi tətbiq edilmirsə, bu qeydi silin]<br><br>Texniki amilin çəkisi və bölgüsü (100%-i keçməməklə hesablanır):
<table>
<tr><th>Texniki amillər</th><th>Nisbi çəkisi</th></tr>
<tr><td>1. Xidmətlərin göstərilməsi müddətləri</td><td>çəkini daxil edin</td></tr>
<tr><td>2. Xidmətlərin funksional xüsusiyyətləri</td><td>çəkini daxil edin</td></tr>
</table>
<br>[Yuxarıda göstərilən texniki amillər çərçivəsindən kənara çıxmamaq şərtilə konkret göstəricilər və qiymətləndirmə prosedurları <u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində müəyyən edilməlidir və texniki təklifin qiymətləndirilməsi üçün tələb olunan sənədlər bu qiymətləndirməni aparmağı imkan verməlidir. Çəkilər texniki amillərin nisbi əhəmiyyəti baxımından bölüşdürülməlidir]</td></tr>
<tr><td>(22)</td><td>37.4.</td><td>Uyğunluq sənədlərinin yenidən təqdim edilməsi halları</td><td>(uyğunluq sənədlərinin yenidən təqdim edilməsi hallarını daxil edin)<br><br>[“Təkliflərin qiymətləndirilməsi müddətində dəyişilməsi gözlənilən (məsələn. vergi arayışı və s.) və ya təqdim edilmiş sənədlər arasında ziddiyyət/uyğunsuzluq olması” kimi halları qeyd edin və ya “tətbiq edilmir” daxil edin]</td></tr>
<tr><td colspan="4" align="center">H. Müqavilə</td></tr>
<tr><td rowspan="2">(23)</td><td rowspan="2">52.2.</td><td rowspan="2">Müqavilə şərtləri</td><td>Ödəmələr: (satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği)</td></tr>
<tr><td>Avans: (avans ödənişi və təminatının məbləği və müqavilənin icra müddəti)<br>[Avans satınalma müqaviləsinin ümumi məbləğinin 30 faizindən (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 50 faizindən) çox olmayaraq ödənilir. Avansın alınması üçün təchizatçı tərəfindən satınalan</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | | | *təşkilata avans ödənişinin ümumi həcmindən az olmayan məbləğdə və müqavilənin icra müddətində qüvvədə olan müddətdə avans təminatı təqdim olunur]* |
| | | | Satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları: **(təklifin akseptindən sonra satınalma müqaviləsinin qüvvəyə minməsi üçün müvafiq sənədlər, həmin sənədlərin təqdim edilməsi müddəti və digər şərtlər)** |
| | | | Müqaviləyə dəyişiklik: **(satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları)** |
| | | | Sığorta: **(tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri)** |

# III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ-UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI

Bu bölmədə satınalma komissiyası tərəfindən təklifləri qiymətləndirmək və uyğunluq göstəricilərinə cavab verən təchizatçıları müəyyən etmək üçün bütün meyarlar qeyd edilib. Bu şərtlər toplusunda qeyd edilməyən heç bir meyar, amil və ya göstəricidən istifadə edilə bilməz. Təchizatçı tələb olunan bütün məlumatları Satınalma formalarının (IV) bölməsinə daxil edilən formalardan istifadə edərək təqdim etməlidir.

Təchizatçıdan maddi dəyərinin göstərilməsi tələb olunan məlumatlar Azərbaycan manatı ilə aşağıdakı qaydada müəyyən edilən məzənnədən istifadə edilərək təqdim edilməlidir:

- maliyyə vəziyyətində göstərilən məlumatlar - müvafiq təqvim ilinin son günündə qüvvədə olan valyuta məzənnəsi;
- müqavilənin məbləği - müqavilənin bağlanıldığı tarixdə qüvvədə olan valyuta məzənnəsi.

Valyuta məzənnələri Təlimatın 31.1-ci bəndi ilə müəyyən edilmiş açıq mənbədən götürülməlidir. Təklifində valyuta məzənnələrinin müəyyən edilməsində hər hansı səhv satınalma komissiyası tərəfindən düzəldilə bilər.

*[Satınalan təşkilat satınalma prosesi üçün uyğun hesab edilən meyarları seçməli, aşağıdakı nümunələrdən və ya digər məqbul mətndən istifadə etməklə müvafiq mətni daxil etməli və kursivlə yazılan mətni silməlidir].*

# A. Texniki və maliyyə göstəricilərinin qiymətləndirməsi

## 1. Texniki göstəricilərin qiymətləndirilməsi

Təlimatın 34.1-ci bəndinə uyğun olaraq təklifin tələblərə uyğunluğunun qiymətləndirilməsi.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

………………………………………………………………………………………………

Əgər Təlimatın 34.2-ci bəndi tətbiq edilərsə, qiymətləndirilməli olan texniki amillər və əgər varsa, alt amillər Təlimatın 35.2-ci bəndində hər bir texniki amilə və alt amillərə veriləcək ballar göstərilmişdir.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

.......................................................................................................................

### 1.1. Texniki göstəricilərin bal ilə qiymətləndirilməsi metodologiyası

*[Satınalan təşkilat bura daxil ediləcək bal ilə qiymətləndirmə metodologiyasını hazırlamalıdır. Əgər Təlimatın 34.2-ci bəndinə uyğun olaraq, texniki amillərə (və əgər varsa, alt amillər) əhəmiyyətinə görə nisbi ballar verilirsə həmin ballar aşağıdakı düsturla hesablanır. Satınalan təşkilat həmçinin bura texniki təklifin metodologiyasını hazırlayaraq daxil etməlidir. Aşağıdakılar yalnız bir nümunədir və məqsədə uyğun olaraq dəyişdirilə bilər]*

..............................................

Texniki təklifin qiymətləndirilməsi metodologiyası

| Bal | Təsvir | Qeydlər |
|---|---|---|
| 0 | Tələb olunan xüsusiyyət yoxdur; tələbin necə yerinə yetirildiyini nümayiş etdirmək üçün müvafiq məlumat yoxdur | |
| 1 | Tələb olunan xüsusiyyət qeyri-kafi və ya aydınlığı olmayan məlumat kimi çatışmazlıqlarla mövcuddur | |
| 2 | Tələbin necə yerinə yetiriləcəyini nümayiş etdirmək üçün kifayət qədər məlumat | |
| 3 | Tələbin cüzi şəkildə keçəcəyini nümayiş etdirmək üçün kifayət qədər məlumat | |
| 4 | Tələb/təklifi əhəmiyyətli dərəcədə aşan kifayət qədər məlumat əhəmiyyətli əlavə dəyərə kömək edir | |

Texniki amil daxilində (j) hər bir alt amil (i) üçün bal, aşağıdakı düsturdan istifadə edilərək hesablanır:

$$S_j \equiv \sum_{i=1}^{k} t_{ji} * f_{ji}$$

burada:

$t_{ji}$ = “j” amilindəki “i” alt amilinin texniki balı;

$f_{ji}$ = “j” amilindəki “i” alt amilinin faiz nisbəti;

$k$ = “j” amilindəki qiymətləndirilən alt amillərin sayı.

$$\sum_{i=1}^{k} f_{ji} = 1$$

Amilin texniki balları aşağıdakı düsturdan istifadə etməklə ümumi texniki təklif balı hesablamaq üçün çəkili məbləğdə birləşdiriləcəkdir:

$$T \equiv \sum_{j=1}^{n} S_j * F_j$$

burada:

$S_j$ = "j" amilinin balı;

$F_j$ = "j" amilinin **Satınalma məlumat vərəqində (21)** müəyyən edilən nisbi çəkisi;

$n$ = amillərin sayı.

$$\sum_{j=1}^{n} F_j = 1$$

[**Düsturların izahı:** Ümumi texniki amil daxilində hər bir alt amilə görə təchizatçıya verilmiş ballar müvafiq olaraq hər bir alt amil üçün müəyyən edilmiş nisbi çəkiyə vurularaq toplanır. Məsələn, əgər ümumi texniki amil daxilində 2 alt-amilin (100% üzərindən) nisbi çəkiləri müvafiq olaraq – funksional xüsusiyyətlər 60%, zəmanət şərtləri 40%-dirsə və təchizatçıya funksional xüsusiyyətlərinə görə (100 olmaqla) 70 bal, zəmanət şərtlərinə görə 60 bal verilmişdirsə yekun bal 60%*70+40%*60 = 66 olaraq hesablanır]

**1.2. Xidmətlərin müəyyən edilən hissələri üçün alternativ texniki təkliflər**

Təlimatın 12.3-cü bəndində nəzərdə tutulduğu təqdirdə aşağıdakı kimi qiymətləndiriləcəkdir.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

...................................................................

**2. Maliyyə göstəricilərinin qiymətləndirilməsi**

**Maliyyə göstəricilərinin qiymətləndirilməsi üçün meyarlar**

Təlimatın 34.3-cü bəndində sadalanan meyarlara əlavə olaraq aşağıdakı meyarlar tətbiq ediləcəkdir: *[Tətbiq olunduqda Təlimatın 34.3(d) bəndinə uyğun olaraq daxil edin; əks halda silin]*

……………………………………………………………………………………………

**3. Yekun qiymətləndirmə**

Satınalma komissiyası əhəmiyyətli dərəcədə tələblərə uyğun təklifləri qiymətləndirəcək və müqayisə edəcək. Qiymətləndirilmiş təklif balı (B) hər bir təklif üçün qiymətləndirilmiş məbləğ və balı müəyyən edərək aşağıdakı düstur ilə hesablanacaq:

$$B = \frac{M_{aşağı}}{M} * X * 100 + \frac{T}{T_{yuxarı}} * (1-X) * 100$$

burada:

$M$ = qiymətləndirilmiş təklif məbləği;

$M_{aşağı}$ = bütün uyğun təkliflər üçün qiymətləndirilib ən aşağı məbləğ;

$T$ = təklifə verilmiş ümumi texniki bal;

$T_{yuxarı}$ = *bütün uyğun təkliflər için ən yuxarı texniki balı almış təklifin balı;*

$X$ = məbləğ üçün **Satınalma məlumat vərəqində (21)** müəyyən edilən nisbi çəki.

İxtisas göstəricilərinin tələblərinə cavab verən ən yüksək bal alan təklif ən səmərəli təklif hesab edilir.

[**Düsturun izahı:** Əgər texniki amilin çəkisi 30%, qiymət amilinin çəkisi 70%-dirsə və satınalmada iştirak edən 3 təchizatçının təklif məbləğləri və texniki balları müvafiq olaraq aşağıdakı kimidirsə:

- Təchizatçı A: təklif məbləği - 100.000 AZN, texniki balı 60
- Təchizatçı B: təklif məbləği - 120.000 AZN, texniki balı 70
- Təchizatçı C: təklif məbləği - 110.000 AZN, texniki balı 80

Müvafiq olaraq hər bir təchizatçının balı aşağıdakı kimi hesablanacaqdır:

- Təchizatçı A: 100.000$_{\text{(ən aşağı məbləğ)}}$ /100.000$_{\text{(təchizatçı A-nın məbləği)}}$ * 70%$_{\text{(qiymət amilinin çəkisi)}}$ * 100 + 60$_{\text{(təchizatçı B-nin texniki balı)}}$ / 80$_{\text{(ən yüksək texniki bal)}}$ * 30%$_{\text{(texniki amilin çəkisi)}}$ * 100 = 92,5
- Təchizatçı B: 100.000 / 120.000 * 70% * 100 + 70 / 80 * 30% * 100 = 84,6
- Təchizatçı C: 100.000 / 110.000 * 70% * 100 + 80 / 80 * 30% * 100 = 93,6 (qalib)]

## B. Uyğunluq göstəricilərinin qiymətləndirilməsi

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **1.** | ***İlkin tələblər*** | | | | | | |
| **1.1.** | **Təklifin təminatı** | **Satınalma məlumat vərəqində (15)** qeyd edilmiş məbləğdə və Təlimatın 19.2-ci bəndində göstərilən müddətdə qüvvədə olan təminatın təqdim edilməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Qarant tərəfindən müvafiq qaydada təqdim edilmiş təklifin təminatı **(FORMA 8)** |
| **1.2.** | **Maraqlar toqquşması** | Təlimatın 3.2-ci bəndinin tələblərinə cavab verməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)** |
| **1.3.** | **Dövlət mənsubiyyə-tinə görə məhdudlaş-dırılma** | **Satınalma məlumat vərəqində (2)(15)** göstərilən və (və ya) müəyyən edilən ölkələrdə qeydiyyatdan keçən qeyri-rezident təchizatçıların siyahısına daxil edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Qeydiyyat sənədi |
| **2.** | ***Ümumi tələblər*** | | | | | | |
| **2.1.** | **Təchizatçı haqqında** | Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | 1. Təchizatçı haqqında:<br>a. təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti; |

[1] Bütün üzvlərin təqdim etdiyi göstəricilərin cəmi tələblərə tam cavab verməlidir.

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | | | | | | b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti;<br>c. birgə fəaliyyət göstərdikdə Təlimatın 3.4-cü bəndinə uyğun olaraq birgə fəaliyyətə dair müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu.<br>2. təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış<br>a. Hüquqi və fiziki şəxs olduqda **(FORMA 4)** və (və ya);<br>b. Birgə fəaliyyət olduqda 2.a bəndinə əlavə olaraq (**FORMA 5)**<br>3. Təlimatın 20.3-cü bəndinə uyğun olaraq təklifi imzalayan digər vəzifəli şəxs olduqda – etibarnamə.<br>4. Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış **(FORMA 7)** |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **2.2.** | **Lisenziya və (və ya) icazə (tətbiq olunarsa)** | **(satınalma predmetinin icrası üçün zəruri olan və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növünü və tətbiq olunarsa konkret istiqaməti qeyd edin** *məs. Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma xidmətləri – (a) xüsusi torpaq xidmətləri və (b) mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması xidmətləri***)** | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Uyğun olmalıdır | Lisenziya və (və ya) icazənin surəti |
| **2.3.** | **Əmlakdan sərbəst istifadə** | Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasibətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | | | | | | arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)**, məlumat və təsdiqedici sənədlər |
| **2.4.** | **Müflislik** | Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahibkarlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.5.** | **Vergi və əmək qanunvericiliyi öhdəliyi** | Azərbaycan Respublikasında vergilər və digər icbari ödəniş xidmətləri üzrə vaxtı keçmiş öhdəliklərinin olması və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın olmaması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış |

| **Münasiblik və uyğunluq meyarları** | | | **Uyğunluq tələbləri** | | | | **Tələb olunan sənəd** |
|---|---|---|---|---|---|---|---|
| | | | | **Birgə fəaliyyət** | | | |
| **Sıra №-si** | **Mövzu** | **Tələblər** | **Fərdi** | ***Bütün üzvlər birlikdə*** [1] | ***Hər bir üzv ayrı-ayrılıqda*** | ***Bir üzv*** | |
| | | Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublika-sının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı xidmətlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının və ya inzibati cərimənin tətbiq edilməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Maliyyə sanksiyasına münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış<br>İnzibati cəriməyə münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən arayış |
| **2.6.** | **Fəaliyyət qadağası** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **2.7.** | **Məhkumluq** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırılma cinayətlərinə görə məhkum olunmaması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış |
| **3.** | ***Xüsusi tələblər*** | | | | | | |
| **3.1.** | **Peşəkarlıq və təcrübə** | Satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının və təcrübəsinin olması, aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | Təchizatçının təcrübəsi barədə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 6)**, məlumat və təsdiqedici sənədlər (təhvil-təslim və ya yekun təhvil-təslim aktları, elektron qaimə və s.). |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **3.1.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | | | | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış digər prosedurları daxil edin]* |
| **3.2.** | **Maliyyə imkanı** | Satınalma müqaviləsinin icrası üçün maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış prosedurları daxil edin]* |
| **3.2.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | ... | ... | ... | ... | |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | ... | ... | ... | ... | |
| **3.3.** | **İşçi qüvvəsi** | Müvafiq tələblərə cavab verən işçi qüvvəsinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 3)**, məlumat və təsdiqedici sənədlər |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | **(cari satınalma predmetinin icrası üçün tələb olunan əsas heyətin (a) vəzifələrini, (b) minimal say, (c) müvafiq akademik uyğunluq və (d) müvafiq sahədə minimal təcrübə tələblərini siyahı olaraq daxil edin)** | | | | | |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | ... | ... | ... | ... | |
| **4.** | ***Digər tələblər*** | | | | | | |
| **4.1.** | *[Bu kateqoriya üzrə digər qiymətləndir-mə meyarları və prosedurları varsa bura əlavə edilir]* | | | | | | |

# IV BÖLMƏ. SATINALMA FORMALARI

## FORMA 1. Təklif məktubu

Təklifin təqdim olunma tarixi: **(tarixi daxil edin)**

Kimə: **(Satınalan təşkilatın adını daxil edin)**

Biz, aşağıda imza edənlər bəyan edirik ki:

**(a)** **Qeyd-şərtin olmaması:** Təlimatın 7-ci hissəsinə müvafiq olaraq verilmiş əlavə və dəyişikliklər də daxil olmaqla (mövcud olduğu halda) şərtlər toplusu və onu təşkil edən sənədlər ilə tanış olduq, burada təsvir olunan xidmətin göstərilməsi haqqında tam məlumata malikik və bu sənədlərə heç bir qeyd-şərtimiz yoxdur;

**(b)** **Münasiblik:** Təlimatın 3-cü hissəsində qeyd edilmiş tələblərə cavab veririk və maraqların toqquşması hallarının olmadığını təsdiqləyirik;

**(c)** **Uyğunluq:** Biz ***(satınalma predmetini daxil edin)*** xidmətlərini şərtlər toplusunun tələblərinə və nəzərdə tutulmuş icra qrafikinə uyğun olaraq yerinə yetirməyi təklif edirik*;*

**(d)** **Qiymət:** Tələb olunan xidmətləri bütün vergi və rüsumlar daxil olmaqla **(məbləği rəqəmlə və sözlə daxil edin)** məbləğdə yerinə yetirməyi təklif edirik.

**(e)** **Təklifin qüvvədə olma müddəti**: Təklifimiz **(tarixi daxil edin)** tarixinə qədər qüvvədədir, bizim üçün məcburi xarakter daşıyır və bu müddətin bitməsindən əvvəl istənilən vaxt qəbul edilə bilə;

**(f)** **İcra təminatı**: Bizim təklifimiz qəbul edildiyi təqdirdə şərtlər toplusunda qeyd edilən şərtlərdə icra təminatını təqdim edəcəyimizi öhdəmizə götürürük;

**(g)** **Hər təchizatçı bir təklif:** Biz fərdi təchizatçı kimi hər hansı digər təklif və ya təkliflər təqdim etmirik, birgə fəaliyyət üzvü və ya subpodratçı kimi hər hansı digər satınalma və ya satınalmalarda iştirak etmirik və Təlimatın 12-ci hissəsinə uyğun təqdim edilmiş alternativ təkliflər istisna olmaqla Təlimatın 3.3-cü bəndinin tələblərinə cavab veririk;

**(h)** **Etibarsız təchizatçı:** Biz, müqavilənin hər hansı hissəsinin icrasına cəlb ediləcək subpodratçılarımız, məsləhətçilərimiz, malgöndərənlərimiz, istehsalçılarımız və ya digər xidmət göstərənlərimiz, o cümlədən bizi idarə edən hüquqi və ya fərdi şəxslər ilə birlikdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsi çərçivəsində etibarsız təchizatçılar reyestrinə daxil edilməmişik.

**(i)** **Qəbul etmək məcburiyyətinin olmaması**: Başa düşürük ki, siz ən aşağı qiyməti olan, ən səmərəli və ya digər istənilən təklifi qəbul etmək məcburiyyətində deyilsiniz;

**(j)** **Əmlakdan sərbəst istifadə**: Müqavilənin icrası zamanı istifadə olunacaq əmlaklardan (daşınmaz əmlak və nəqliyyat vasitələri istisna olmaqla) sərbəst və məhdudiyyətsiz istifadə etmək hüququmuz var;

**(k)** **Saxtakarlıq və korrupsiya:** Bizim üçün və ya bizim adımızdan hərəkət edən heç kimin heç bir formada saxtakarlıq və korrupsiya əməlləri törətməməsi üçün müvafiq tədbirləri görmüşük.

Təchizatçının adı: (təchizatçının adını daxil edin)

Təchizatçının VÖENİ: **(təchizatçının VÖEN-ini daxil edin)**

Təklifi təchizatçı adından imzalamaq səlahiyyəti olan şəxsin adı və soyadı:**(adı və soyadı daxil edin)**

Təklifi imzalayan şəxsin vəzifəsi: **(tam vəzifəni qeyd edin)**

Yuxarıda qeyd edilən şəxsin imzası və möhürü (varsa): **(imzanı və möhürü əlavə edin)**

İmzalanma tarix: **(tarixi daxil edin)**

# FORMA 2. Fəaliyyət cədvəli

| *Maddə №* | *Xidmətlərin təsviri* | *İcra tarixi* | *Ölçü vahidi* | *Miqdar* | *Vahidin qiyməti* | *Cəm* |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | **Yekun cəm:** | ______ |

# FORMA 3. Təklif edilən əsas heyətin tərcümeyi-halı və bəyannaməsi

Təchizatçı Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində sadalanan əsas işçi heyət tələblərinə cavab vermək qabiliyyətinə malik olduğunu aydın şəkildə nümayiş etdirmək üçün müvafiq məlumatı hər bir şəxs üçün ayrıca təqdim etməlidir. Bundan başqa bütün vəzifələr üzrə cəlb ediləcək şəxslərin nəzərdə tutulan fəaliyyət müddətinə dair vaxt cədvəli detallı Qant diaqramı və ya bənzər digər cədvəl formasında təqdim edilməlidir.

<table>
<tr><td colspan="3">Təchizatçının adı: (təchizatçının adını daxil edin)</td></tr>
<tr><td colspan="3">Təklif edilən namizədin vəzifəsi: (Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulmuş vəzifəni daxil edin)</td></tr>
<tr><td>Məşğulluq dövrü:</td><td colspan="2">(bu vəzifə öhdəliyi üzrə cəlb ediləcək şəxsin işə başlama və işi bitirmə tarixlərini daxil edin)</td></tr>
<tr><td>İş müddəti:</td><td colspan="2">(bu vəzifə öhdəliyi üçün cəlb ediləcək şəxsin planlaşdırılan iş müddətini gün, həftə və ya ay olaraq daxil edin)</td></tr>
<tr><td rowspan="6">Heyət barədə məlumat</td><td>Ad və soyad:<br>(Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulmuş vəzifəyə uyğun hesab edilərək təklif edilən namizədin ad və soyadını daxil edin)</td><td>Doğum günü</td></tr>
<tr><td rowspan="2">Ünvan</td><td>E-poçt</td></tr>
<tr><td>Mobil nömrə</td></tr>
<tr><td colspan="2">Peşəkar sertifikatları</td></tr>
<tr><td colspan="2">Təhsili</td></tr>
<tr><td colspan="2">Dil biliyi:<br>(dil, danışma, oxuma və yazma bacarıqlarının səviyyələri)</td></tr>
<tr><td rowspan="5">İş yeri barədə məlumat</td><td colspan="2">İşəgötürənin adı</td></tr>
<tr><td colspan="2">İşəgötürənin ünvanı</td></tr>
<tr><td colspan="2">Əlaqəli şəxsi (menecer / kadrlar şöbəsinin əməkdaşı)</td></tr>
<tr><td>Telefon</td><td>E-poçt</td></tr>
<tr><td>Vəzifəsi</td><td>Hazırkı iş yerində çalışma müddəti</td></tr>
</table>

Peşəkar təcrübəni tərs xronoloji ardıcıllıqla ümumiləşdirin. Satınalma predmeti ilə əlaqəli xüsusi texniki və idarəetmə təcrübəsini göstərin.

| İş yeri/Layihə | Vəzifə | İş müddəti | Müvafiq təcrübə |
|---|---|---|---|
| *(İşəgötürən və ya layihənin əsas detalları)* | *(bu işdə vəzifə və öhdəlikləri)* | *(bu vəzifədə işləmə müddəti)* | *(qeyd olunan təcrübənin cari vəzifə öhdəliklərinə uyğunluğunu təsvir edin)* |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**İltizam**

Mən imza etməklə təsdiqləyirəm ki, bu **FORMA 3**-də verilən məlumatlar mənim ixtisasımı və təcrübəmi düzgün təsvir edir.

Mən təsdiq edirəm ki, yuxarıda qeyd edilən məşğulluq dövrü və iş müddətində işləmək üçün öhdəlik götürürəm.

Mən başa düşürəm ki, bu Formada məlumatların yanlış verilməsi, gizlədilməsi və ya verilməməsi təklifin qiymətləndirilməsində nəzərə alınaraq mənim satınalmadan, müqavilə bağlandıqda isə müqavilənin icrasından uzaqlaşdırılmağıma səbəb ola bilər.

**Namizədin adı və soyadı:*(adı və soyadı daxil edin*)**

İmza: ____________________________________________

Tarix: **(tarixi daxil edin)**

**Təchizatçının səlahiyyətli nümayəndəsinin adı və soyadı: (adı və soyadı daxil edin)**

İmza: ____________________________________________

Tarix:**(tarixi daxil edin)**

# FORMA 4. Təchizatçı haqqında

| |
|---|
| Təchizatçının adı: **(təchizatçının adını daxil edin)** |
| Birgə fəaliyyət göstərdikdə hər bir üzvün adı: **(hər bir üzvün hüquqi adını qeyd edin)** |
| Təchizatçının qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Təchizatçının təsis ili: **(ili qeyd edin)** |
| Təchizatçının hüquqi və faktiki ünvanları: **(ünvanı qeyd edin)** |
| Təchizatçının səlahiyyəti nümayəndəsi haqqında:<br>• Ad və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 5. Birgə fəaliyyət haqqında

*(tətbiq olunursa hər bir birgə fəaliyyət göstərən üzvü üçün ayrı-ayrılıqda doldurulur)*

| |
|---|
| Birgə fəaliyyət göstərənin adı: (təchizatçının adını daxil edin) |
| Birgə fəaliyyət göstərən üzvünün adı: **(üzvün hüquqi adını qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin üzvün qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün təsis ili: **(ili qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün faktiki və hüquqi ünvanı: **(ünvanı qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin səlahiyyətli nümayəndəsi haqqında:<br>• Adı və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 6. Oxşar xidmətlər üzrə təcrübə

| **Sıra №-si** | **Başlanma və bitmə tarixi** | **Satınalan təşkilat və əlaqə vasitələri** *(ünvanı, e-poçtu və telefonu)* | **Müqavilənin predmeti** | **İcra olunan xidmətlərin cari satınalma predmetinə bənzərliyinin təsviri** *(yeri, əsas komponentləri, miqdarları/həcmləri və s.)* | **Müqavilənin məbləği** *(AZN ilə)* | **İcra vəziyyəti** *(davam edirsə tamamlanma faizi qeyd edilir)* | **Təchizatçının rolu** |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | (Təchizatçı, subpodratçı və ya birgə fəaliyyət üzvü) |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |
| 5. | | | | | | | |

# FORMA 7. Subpodratçılar haqqında məlumat

| S/S | Subpodratçının hüquqi adı və VÖEN-i | Əlaqə vasitəsi | Həyata keçirəcəyi xidmətlərin təsviri | Müqavilə məbləğində payı (%) |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |
| 5. | | | | |

# FORMA 8. Təklifin təminatı

Qarantiya nömrəsi: **(qarant tərəfindən doldurulur)**
Satınalan təşkilat: **(satınalan təşkilatın adı)**
Satınalma predmeti: **(satınalma predmetini daxil edin)**
Tarix: **(tarixi daxil edin)**

Nəzərə alaraq ki, **(təchizatçının adını daxil edin)** (VÖEN-i: **(təchizatçının VÖEN-ini daxil edin)**) (bundan sonra - təchizatçı) yuxarıda qeyd olunmuş satınalma predmetində nəzərdə tutulan xidmətlərin göstərilməsi üçün təklifini (bundan sonra – təklif) təqdim edəcəkdir, təchizatçının müraciəti əsasında biz, **(qarantın ünvanını daxil edin)** ünvanında yerləşən **(qarantın adını daxil edin)** (**(qarantın VÖEN-ini daxil edin)**) (bundan sonra – qarant) **(satınalan təşkilatın adı)** (VÖEN-i: **(satınalan təşkilatın VÖEN-ini daxil edin)**) (bundan sonra – satınalan təşkilat) qarşısında satınalan təşkilatın təchizatçının aşağıdakı öhdəliyə (öhdəliklərə) əməl etməməsi barədə müraciəti əsasında **(təklif təminatının məbləğini rəqəmlə və sözlə daxil edin)** məbləği əsaslandırma, sübut və ya səbəblərini göstərməyi tələb etmədən satınalan təşkilata geri qaytarılmayacaq şəkildə ödəyəcəyimizə öhdəlik götürürük:

(a) təchizatçı təklif məktubunda qeyd etdiyi təklifin qüvvədə olduğu müddətdə təklifini geri götürmüşdür və (və ya)

(b) təchizatçı tərəfindən təqdim edilmiş təklifin ilkin və ya uzadılmış qüvvədə olduğu müddətində aksept bildirişini aldığı halda (i) 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalamamışdır və ya (ii) şərtlər toplusuna əsasən tələb olunan icra təminatını təqdim etməmişdir.

Bu təminat aşağıdakı hallarda qüvvədən düşmüş hesab olunur:

(a) Təchizatçı və satınalan təşkilat tərəfindən imzalanmış müqavilə və icra təminatının nüsxəsi təqdim edildikə və ya

(b) Təchizatçı qalib olmadığı təqdirdə (hansı birinci baş versə):
   i. satınalmanın nəticələri barədə təchizatçıya göndərilmiş bildiriş təqdim edildikdə və ya
   ii. təklifin qüvvədə olma müddətindən sonra 30 (otuz) iş günü keçdikdə **(tarixi daxil edin)**.

Bu təminat çərçivəsindəki hər hansı tələb qaranta yuxarıda qeyd olunan tarixdə və ya ondan öncə təqdim edilməlidir.

Qarant bu öhdəlikləri öz adından, öz varislərinin və müvəkkillərinin adından götürür.

Bu təminat Azərbaycan Respublikasında qüvvədə olan müvafiq qanunvericilik ilə tənzimlənir.

Qarantın adından və tapşırığı ilə **(imzalar)**

# (B) XİDMƏTLƏRƏ DAİR TƏLƏBLƏR

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar (satınalma predmetinin ətraflı təsviri, zəruri texniki və keyfiyyət xüsusiyyətləri, xidmətlərin göstəriləcəyi yer, qrafiki və s.) daxil edilir]*

# (C) SATINALMA MÜQAVİLƏSİ

*[Qanunun 38.15-ci maddəsinə əsasən xidmətlər üzrə satınalma müqaviləsinin nümunəvi forması müvafiq qaydada doldurularaq əlavə edilir]*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 30 dekabr tarixli 503 nömrəli
Qərarı ilə **təsdiq edilmişdir.**

**8 nömrəli əlavə**

**(satınalma predmetini daxil edin)**

---

*işlərinin*

KOTİROVKA SORĞUSU METODU

ilə satın alınması üçün

# ŞƏRTLƏR TOPLUSU

SATINALAN TƏŞKİLAT: **(satınalan təşkilatın adını daxil edin)**

ELAN TARİXİ: **(elan tarixini daxil edin)**

## MÜNDƏRİCAT

(A) SATINALMA PROSEDURLARI


**I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT** .................... 4

**A. Ümumi** .................... 4

**1. Satınalma haqqında** .................... 4

**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar** .................... 4

**3. Təchizatçıların münasibliyi** .................... 4

**4. Malların və əlaqədar xidmətlərin münasibliyi** .................... 6

**5. Satınalmada istifadə və iştirak haqqı** .................... 7

**B. Şərtlər toplusunun məzmunu** .................... 7

**6. Şərtlər toplusunun tamlığı** .................... 7

**7. Şərtlər toplusuna dair izahat, sahəyə baxış və təklif öncəsi görüş** .................... 8

**8. Şərtlər toplusuna dəyişikliklərin edilməsi** .................... 9

**C. Təkliflərin hazırlanması** .................... 10

**9. Satınalma xərcləri** .................... 10

**10. Təklifin tərtib olunmasının dili** .................... 10

**11. Təklifə daxil olan sənədlər** .................... 10

**12. Təklif məktubu və cədvəllər** .................... 11

**13. Təklifin qiyməti** .................... 10

**14. Təklifin və ödənişin məzənnəsi** .................... 11

**15. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)** .................... 11

**16. Uyğunluq sənədləri** .................... 12

**17. Təklifin qüvvədə olma müddəti** .................... 12

**18. Təklifin formatı və imzalanması** .................... 12

**D. Təkliflərin təqdim olunması və açılması** .................... 12

**19. Təkliflərin təqdim edilməsinin son müddəti** .................... 12

**20. Gecikmiş təkliflər** .................... 13

**21. Təkliflərin geri götürülməsi və ya dəyişdirilməsi** .................... 13

**22. Təkliflərin açılması** .................... 13

**E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** .................... 13

**23. Məxfilik (konfidensiallıq)** .................... 13

**24. Təkliflərə dair izahat** .................... 14

**25. Formal tələblərə uyğunluğun müəyyən edilməsi** .................... 14

**26. Əhəmiyyətsiz uyğunsuzluqlar** .................... 15

**27. Hesab səhvlərinin düzəldilməsi** .................... 15

**28. Vahid valyutaya konvertasiya** .................... 15

**29. Satınalma güzəşti** .................... 15

**30. Subpodratçılar** .................... 15

**31. Təkliflərin qiymətləndirilməsi** .................... 16

**32. Təkliflərin müqayisəsi** .................... 16

**33. Həddindən artıq ucuz təkliflər** .................... 16

**34. Təchizatçının uyğunluq göstəriciləri** .................... 16

**35. Qalib təklifin seçilməsi** .................... 17

**36. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ** .................... 17

**37. Satınalmanın nəticələri barədə bildiriş** .................... 18

**38. Gözləmə müddəti** .................... 18

**F. Qalibin seçilməsi** .................... 18

**39. Qalibin seçilməsi proseduru** .................... 18

**40. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi** .................... 18

41. Müqavilənin imzalanması ... 19
42. Bağlanmış müqavilə barədə məlumatın verilməsi ... 19
43. İcra təminatı ... 19
G. Şikayət verilməsi ... 19
44. Şikayət vermək hüququ ... 19
45. Satınalan təşkilata şikayət ... 20
46. AİBNDX-ya şikayət ... 20
47. Satınalmanın dayandırılması ... 21
48. İnzibati qaydada şikayət ... 22
H. Müqavilə ... 22
49. Müqavilə şərtləri ... 22
II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ ... 23
III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ - UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI ... 27
IV BÖLMƏ. SATINALMA FORMALARI ... 37
FORMA 1. Təklif məktubu ... 37
FORMA 2. İş həcmləri cədvəli ... 38
FORMA 3. Texniki baza ... 41
FORMA 4. Təklif edilən əsas heyətin tərcümeyi-halı və bəyannaməsi ... 42
FORMA 5. Təchizatçı haqqında ... 44
FORMA 6. Birgə fəaliyyət haqqında ... 45
FORMA 7. Oxşar işlər üzrə təcrübə ... 46
FORMA 8. Subpodratçılar haqqında məlumat ... 47
(B) İŞLƏRƏ DAİR TƏLƏBLƏR
(C) SATINALMA MÜQAVİLƏSİ

# I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT

## A. Ümumi

**1. Satınalma haqqında**

1.1. **Satınalma məlumat vərəqində (1)** qeyd edilən satınalan təşkilat tərəfindən *(B) İşlərə dair tələblər* sənədində nəzərdə tutulmuş İşlərin (bundan sonra – İşlər) maliyyə vəsaiti hesabına dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun görülməsi üçün bu şərtlər toplusu hazırlanmışdır. Satınalma predmeti, satınalan təşkilatın adı, VÖEN-i və satınalan təşkilatın əlaqələndirici şəxsi barədə məlumatlar **Satınalma məlumat vərəqində (1)** qeyd edilir.

1.2. Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunundan (bundan sonra – Qanun) və digər normativ hüquqi aktlardan ibarətdir.

1.3. Təkliflərin qiymətləndirilməsi zamanı aşağıdakı anlayışlar tətbiq edilir:

(a) "Kənara çıxma" şərtlər toplusunda göstərilən tələblərdən yayınmadır;

(b) "Qeyd-şərt" məhdudlaşdırıcı şərtlərin müəyyən edilməsi və ya şərtlər toplusunda göstərilən tələblərin tam qəbul edilməsindən boyun qaçırmadır;

(c) "Çatışmazlıq" şərtlər toplusunda tələb olunan məlumat və ya sənədlərin bir hissəsinin və ya hamısının təqdim edilməməsidir.

1.4. Bu şərtlər toplusunda istifadə olunan digər anlayışlar Qanun və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar**

2.1. Satınalan təşkilat "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa riayət olunmasını tələb edir.

**3. Təchizatçıların münasibliyi**

3.1. **Satınalma məlumat vərəqində (2)** göstərilən Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinə məhdudiyyətlər qoyulduğu

hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident təchizatçı (fiziki şəxs, hüquqi şəxs, o cümlədən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün hüquqi və (və ya) fiziki şəxslərin müqavilə əsasında yaratdığı müvəqqəti və ya daimi birliyi (bundan sonra – birgə fəaliyyət) daxil olmaqla) Azərbaycan Respublikasında keçirilən satınalmalarda iştirak edə bilər. Təchizatçı nizamnaməsi (və ya buna bərabər tutulan sənədləri) və ya qeydiyyat sənədləri ilə müəyyən olunduğu ölkənin qanunlarının müddəalarına uyğun olaraq yaradılmış, təsis edilmiş və ya qeydiyyatdan keçmiş və fəaliyyət göstərdiyi təqdirdə həmin ölkəyə mənsub hesab edilir. Müqavilənin hər hansı hissəsinin icrasına cəlb edilməsi təklif edilən subpodratçıların ölkə mənsubiyyəti bu meyar əsasında müəyyən edilir.

3.2. Təchizatçının iştirak etdiyi satınalmada Qanunun 6.1-ci maddəsinə əsasən maraqlar toqquşması olmamalıdır. *(Qanunun 6.1-ci maddəsindən çıxarış:*

*Təchizatçıların aşağıdakı hallarda (satınalma predmetinin yalnız hər hansı konkret təchizatçıda olduğu, yaxud satınalma predmetinin əvəzedicisi və alternativi olmadığı hallar istisna olmaqla) satınalmalarda iştirakına yol verilmir, bu hallar müəyyən olduqda satınalmadan kənarlaşdırılır:*

- *təchizatçının satınalan təşkilatdan və ya satınalan təşkilatla təchizatçının eyni qurumdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olduqda;*
- *təchizatçılardan biri digərinin benefisiar mülkiyyətçisi olduqda, yaxud təchizatçıların azı ikisi eyni benefisiar mülkiyyətçinin nəzarətində olduqda;*
- *təchizatçılardan biri digərinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı olduqda, yaxud təchizatçıların azı ikisinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı eyni şəxs olduqda;*
- *satınalmada təchizatçı qismində çıxış edən fiziki şəxs və ya hüquqi şəxsin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsinə əsasən aidiyyəti şəxsi satınalan təşkilatın rəhbəri ilə qohumluq (ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürənlər, övladlığa götürülmüş şəxslər, babalar, nənələr, nəvələr, doğma (ögey) bacılar və qardaşlar, bacı və qardaşların övladları, bacıların ərləri, qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, ər-arvadların valideynləri, bacıları və qardaşları) münasibətində olduqda)*

3.3. Birgə fəaliyyətin üzvü olaraq və ya fərdi şəkildə alternativ təkliflərə icazə verilən hallar istisna olmaqla təchizatçılar eyni satınalma üzrə birdən artıq təklif təqdim etməməli və ya birdən artıq təklifdə iştirak etməməli, həmçinin həmin satınalmada iştirak edən digər təchizatçının subpodratçısı olmamalıdır. Bu hal aşkarlandıqda həmin təchizatçıların təqdim etdikləri və (və ya) iştirak etdikləri bütün təkliflər kənarlaşdırılır.

3.4. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar bu məqsədlə tərəflərin hər birinin imzaladığı müqaviləyə və ya müqavilə layihəsi əlavə edilməklə müqavilə bağlamaq barədə tərəflərin hər birinin imzaladığı niyyət məktubuna malik olmalıdırlar. Bu halda birgə fəaliyyət göstərmək istəyən tərəflərin hər birinin müqavilənin müqavilə şərtlərinə uyğun icrası üçün birgə və fərdi məsuliyyət daşıması və tərəflər arasındakı iş öhdəliklərinin bölgüsü barədə müddəalar birgə fəaliyyət müqaviləsinə və ya müqavilə layihəsinə daxil edilməlidir. Birgə fəaliyyət onun adından və tərəfləri üçün satınalmada iştirak və müqavilə bağlanıldıqda isə müqavilənin icrasını təmin etmək məqsədilə müvafiq səlahiyyətə malik nümayəndə təyin edir. **Satınalma məlumat vərəqində (3)** göstərilmədiyi təqdirdə birgə fəaliyyətin üzvlərinin sayına məhdudiyyət qoyulmur.

3.5. Qanunun 16-cı maddəsi ilə tənzimlənən qaydada etibarsız təchizatçıların reyestrinə daxil edilmiş təchizatçıların müəyyən olunmuş müddətdə satınalmalarda iştirakına yol verilmir. Etibarsız təchizatçıların reyestri etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalında (bundan sonra – Portal) yerləşdirilir.

3.6. Ehtimal olunan qiymət 30 000 manatadək olduqda orta və iri sahibkarlıq subyekti olan təchizatçıların, ehtimal olunan qiymət 30 000 manatdan 100 000 manatadək olduqda isə iri sahibkarlıq subyekti olan təchizatçıların satınalmalarda iştirakına yol verilmir.

3.7. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləş-dirilməsi proseduru keçirildikdə, yalnız uyğunluq göstəricilərinə cavab verən təchizatçılar satınalmada iştirak edə bilərlər.

**4. Malların və əlaqədar xidmətlərin münasibliyi**

4.1. Müqavilə çərçivəsində Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçılar və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan

Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçılar tərəfindən malların (materialların, avadanlıqların və s.) təchiz edilməsinə və xidmətlərin göstərilməsinə yol verilmir. Satınalan təşkilatın tələbi ilə təchizatçılardan malların və xidmətlərin mənşəyinə dair sübut təqdim etmələri tələb oluna bilər.

4.2. Malların mənşə ölkəsi qanunvericiliklə müəyyən edilmiş qaydada təyin edilir.

**5. Satınalmada istifadə və iştirak haqqı**

5.1. Birdəfəlik və ya istifadə müddətinə görə istifadə haqqını ödəyərək Portaldan istifadə hüququnu əldə etmiş təchizatçılar təklifləri təqdim etmək üçün **Satınalma məlumat vərəqində (4)** qeyd edilən məbləğdə iştirak haqqı ödəyirlər.

5.2. İstifadə və iştirak haqqı Portalda “ASAN ödəniş” sistemi vasitəsilə bank kartı ilə ödənilir.

5.3. Təkliflə təklifin təminatını təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayının üçdən az olması səbəbindən satınalmanın ləğv edilməsi və həmin satınalma predmeti üzrə təkrar satınalma keçirilməməsi halı istisna olmaqla ödənilmiş iştirak haqqı və istifadə haqqı heç bir halda geri qaytarılmır. Satınalmanın maliyyələşdirilməsinin dayandırılması və təchizatçıların sayının üçdən az olması səbəbindən satınalma ləğv edildikdə satınalma planında nəzərdə tutulmuş həmin satınalma predmeti üzrə təkrar satınalma keçirildiyi təqdirdə iştirak haqqını ödəyən və geri almayan təchizatçıların təkrar ödəniş etmədən satınalmada iştirakı təmin edilir.

5.4. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru keçirildikdə uyğunluq göstəricilərinə cavab verərək satınalmada iştirakı davam etdirən təchizatçılar iştirak haqqı ödəmirlər.

## B. Şərtlər toplusunun məzmunu

**6. Şərtlər toplusunun tamlığı**

6.1. Şərtlər toplusu aşağıda verilmiş bütün bəndləri əhatə edən və təchizatçılar üçün təlimatın (bundan sonra – Təlimat) 7-ci hissəsinə uyğun olaraq ona edilən dəyişikliklər və əlavələrlə birlikdə nəzərə alınmalı olan aşağıdakı bölmələrdən ibarətdir:

- A. SATINALMA PROSEDURLARI
  - I Bölmə. Təchizatçılar üçün təlimat
  - II Bölmə. Satınalma məlumat vərəqi
  - III Bölmə. Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları

  - IV Bölmə. Satınalma formaları
- B. İŞLƏRƏ DAİR TƏLƏBLƏR
- C. SATINALMA MÜQAVİLƏSİ

6.2. Təchizatçıdan şərtlər toplusunda verilmiş bütün təlimat, forma, tələb, texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri) ilə tanış olması və şərtlər toplusunda tələb edilən bütün məlumat və sənədləri təqdim etməsi tələb olunur.

6.3. Portal vasitəsilə birbaşa əldə edilmədiyi təqdirdə satınalan təşkilat şərtlər toplusunun tamlığı, şərtlər toplusunda aydın olmayan hallarla bağlı sorğularına, əvvəlki görüşlərin (əgər olubsa) nəticələri barədə protokollara və (və ya) Təlimatın 7-ci hissəsinə uyğun olaraq şərtlər toplusuna edilmiş dəyişikliklərə görə məsuliyyət daşımır. Hər hansı ziddiyyət olduqda Portaldan birbaşa əldə olunan sənədlər üstünlük təşkil edir.

**7. Şərtlər toplusuna dair izahat, sahəyə baxış və təklif öncəsi görüş**

7.1. Təchizatçı şərtlər toplusunda aydın olmayan hallarla bağlı təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 5 (beş) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (5)** qeyd olunan tarix və vaxt) satınalan təşkilata Portal vasitəsilə sorğu ünvanlaya bilər. Satınalma komissiyası sorğunu aldıqdan sonra 2 (iki) iş günü ərzində sorğuya cavab verir. Sorğu və ona verilən cavab sorğu verənin gizliliyi təmin edilməklə həmin gün Portalda yerləşdirilir.

7.2. Sorğu və ona verilən cavab şərtlər toplusuna əlavə edilərək onun ayrılmaz tərkib hissəsi hesab edilir.

7.3. **Satınalma məlumat vərəqində (6)** nəzərdə tutulduğu halda təchizatçının təyin edilmiş nümayəndəsi təklif təqdim etməzdən əvvəl görüşdə və (ya) işlərin görüləcəyi əraziyə baxış keçirməyə dəvət olunur. Görüşün məqsədi yaranmış texniki suallara aydınlıq gətirmək və həmin mərhələdə qaldırıla biləcək hər hansı sualı cavablandırmaq olacaq. Təchizatçılardan əlavə sorğularını yalnız Portal vasitəsilə təqdim etməsi tələb olunur. Hər hansı digər vasitə ilə verilmiş sorğular satınalan təşkilat tərəfindən nəzərə alınmır.

7.4. Təchizatçıya işlərin aparılacağı əraziyə və onun ətrafına baxış keçirmək və araşdırmaq, habelə təklifin hazırlanması və işlərin görülməsi zamanı müqavilə bağlamaq üçün lazım ola biləcək bütün məlumatları əldə etmək tövsiyə olunur. Sahəyə baxış üçün səfər xərcləri təchizatçı tərəfindən ödənilir. Satınalan təşkilat satınalma iştirakçısına iş sahəsi və onu əhatə edən ərazilərə baxış keçirmək və yoxlamaq,

təklifin hazırlanması və işlərin həyata keçirilməsi üçün zəruri olacaq bütün məlumatları əldə etmək üçün əraziyə giriş icazəsi verir.

7.5. Satınalan təşkilat təchizatçıya və (və ya) onun etibarnamə təqdim etdiyi hər hansı əməkdaşına sahəyə baxış məqsədilə tikinti obyektinə və ərazisinə daxil olmaq üçün icazə verir. Sahəyə baxış zamanı təchizatçının nümayəndəsi zəruri fərdi mühafizə vasitələrini özü təmin etməlidir. Sahəyə baxış zamanı baş verə biləcək hər hansı xəsarət və ya ölüm, əmlak itkisi və ya zərəri, habelə digər bununla bağlı itki və ziyan ilə bağlı yaranmış xərclərə görə satınalan təşkilat heç bir məsuliyyət daşımır.

7.6. Satınalan təşkilatla təchizatçılar arasında keçirilən görüş zamanı iştirak haqqını ödəmiş bütün təchizatçılar üçün bərabər iştirak imkanları yaradılır və görüş videomüşahidə vasitələrinin nəzarəti altında aparılaraq nəticələri protokolla rəsmiləşdirilir. Protokol nəzərə alınmaq üçün iştirak haqqını ödəmiş bütün təchizatçılara həmin gün göndərilir və Portalda yerləşdirilir. Satınalan təşkilatla təchizatçılar arasında qeyri-rəsmi danışıqlar aparılması və görüşlərin keçirilməsi qadağandır.

**8. Şərtlər toplusuna dəyişikliklərin edilməsi**

8.1. Satınalma komissiyası təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (7)** qeyd olunan tarix və vaxtadək) şərtlər toplusuna hər hansı təchizatçının sorğusu əsasında və ya texniki səhvlər və ya çatışmazlıqlar aşkar edildikdə öz təşəbbüsü ilə dəyişikliklər (satınalma predmetinin dəyişdirilməsi istisna olmaqla) edə bilər.

8.2. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə şərtlər toplusunda hər hansı dəyişiklik edilməsinə, habelə bununla bağlı hər hansı sorğuya, təklifə və icazəyə yol verilmir.

8.3. Satınalma komissiyası şərtlər toplusuna dəyişikliklər etdiyi halda təkliflərin təqdim edilməsi müddətini ən azı 5 (beş) iş gününədək uzadır. Təchizatçının əsaslandırılmış müraciəti əsasında təkliflərin təqdim edilməsi müddəti 10 (on) iş gününədək uzadıla bilər.

8.4. Şərtlər toplusuna edilmiş dəyişiklik onun ayrılmaz tərkib hissəsi hesab edilir. Dəyişikliklər Portal vasitəsilə bütün təchizatçılara göndərilir və bütün təchizatçılar üçün məcburi qüvvəyə malikdir.

## C. Təkliflərin hazırlanması

**9. Satınalma xərcləri**

9.1. Təchizatçı öz təklifini hazırlamaq və təqdim etməklə bağlı bütün xərcləri özü çəkir və satınalan təşkilat satınalma prosesinin nəticəsindən asılı olmayaraq, həmin xərclərə görə məsuliyyət və ya öhdəlik daşımır.

**10. Təklifin tərtib olunmasının dili**

10.1. Təklif və həmçinin təchizatçı ilə satınalan təşkilat arasında bütün yazışmalar və sənəd mübadiləsi Azərbaycan dilində aparılır. Satınalma komissiyasının qərarı ilə satınalmalara dair sənədlər **Satınalma məlumat vərəqində (8)** nəzərdə tutulmuş xarici dillərdən birinə (bir neçəsinə) tərcümə oluna bilər. Bu halda satınalmalara dair sənədlər arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

10.2. Təklifin tərkibinə daxil olan müşayiətedici sənədlər və çap materialları tərcüməsi ilə verilmək şərtilə, başqa dildə ola bilər. Təchizatçının xarici dildə təqdim etdiyi sənədlərin Azərbaycan dilinə notarial qaydasında təsdiqlənmiş tərcüməsi təqdim olunmalıdır. Təklif ilə tərcüməsi arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

**11. Təklifə daxil olan sənədlər**

11.1. Təchizatçı təqdim etdiyi təklifə aşağıdakıları əlavə edir:

(a) Təlimatın 12-ci hissəsinin tələbləri nəzərə alınmaqla təklif məktubu;

(b) Təlimatın 12-ci və 13-cü hissələrinin tələbləri əsasında qiymətləndirilmiş iş həcmləri cədvəli daxil olmaqla digər cədvəllər;

(c) səlahiyyət: Təlimatın 18.2-ci və 21.4-cü bəndlərinə uyğun olaraq təklifi imzalayan şəxsin səlahiyyətli olduğunun yazılı təsdiqi;

(d) uyğunluq: Təlimatın 16-cı hissəsinin tələbləri nəzərə alınmaqla uyğunluq sənədləri, habelə şərtlər toplusunda nəzərdə tutulduğu halda subpodratçının müəyyən olunmuş tələblərə uyğun olması barədə sənədlər;

(e) münasiblik: Təlimatın 15-ci hissəsinin tələbləri nəzərə alınmaqla texniki təklif;

(f) <u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində tələb olunan digər sənədlər.

11.2. Təlimatın 11.1-ci bəndinin tələblərinə əlavə olaraq, birgə fəaliyyət tərəfindən təqdim edilən təklifə bütün tərəflərin imzaladığı birgə fəaliyyət müqaviləsinin surəti daxil edilməlidir. Alternativ olaraq satınalmada qalib olacağı təqdirdə birgə fəaliyyət müqaviləsinin icrasına dair niyyət

məktubunu bütün tərəflər imzalamalı və birgə fəaliyyət müqavilə layihəsi ilə birlikdə təqdim edilməlidirlər.

**12. Təklif məktubu və cədvəllər**

12.1. Təklif məktubu və iş həcmləri cədvəli Satınalma formaları (IV) bölməsində verilmiş müvafiq formalardan istifadə edilməklə hazırlanmalıdır. Formalar mətnə heç bir dəyişiklik edilmədən doldurulmalıdır və heç bir əvəzedici qəbul edilə bilməz. Bütün boş xanalara tələb olunan məlumatlar yazılmalıdır.

**13. Təklifin qiyməti**

13.1. Təklif məktubunda və iş həcmləri cədvəlində göstərilən qiymətlər bu hissədə göstərilən tələblərə cavab verməlidir.

13.2. Təchizatçı iş həcmləri cədvəlində göstərilən bütün bəndlərə qiymət daxil etməlidir. Təchizatçı tərəfindən qiymət daxil edilməyən və həmin hissələrin əlavə ödənişsiz icra edilməsi ilə bağlı qeyd olan bəndlərin iş həcmləri cədvəlinə daxil edilən digər qiymətlərlə əhatə edildiyi qəbul ediləcəkdir. Hər hansı qeyd olmadan qiymət daxil edilməyən bəndləri olan təklif natamam hesab ediləcəkdir.

13.3. **Satınalma məlumat vərəqində (9)** başqa hal nəzərdə tutulmadığı təqdirdə təchizatçı tərəfindən müqavilə çərçivəsində və ya hər hansı digər səbəbə görə ödənilməli olan bütün rüsumlar, vergilər və digər tutulmalar təchizatçının təklif etdiyi qiymətdə nəzərə alınmalıdır.

13.4. Qiymət endirimlərinə icazə verilmir.

**14. Təklifin və ödənişin məzənnəsi**

14.1. Təchizatçılar (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təkliflərində qiymətləri Azərbaycan Respublikasının pul vahidi – manatla göstərməlidirlər.

14.2. Qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri sərbəst dönərli xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə əsas götürülməlidir.

**15. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)**

15.1. Təchizatçı *(B) İşlərə dair tələblər* sənədində qeyd olunan tələblərə cavab verdiyini göstərmək və təklifinin yetərliliyini nümayiş etdirmək üçün icra metodologiyası, iş qrafiki və Satınalma formaları (IV) bölməsində nəzərdə tutulmuş hər hansı digər məlumat daxil olmaqla kifayət qədər təfərrüatlı texniki təklif təqdim etməlidir.

15.2. Təklif edilən hər bir avadanlığın, texnikanın, məhsulun və digər malların özünəməxsus texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri), o cümlədən konkret əmtəə nişanı və adı, modeli, istehsal mənbəyi (mənşə ölkəsi) və istehsalçısına aid məlumatlar və istehsalçının texniki məlumat vərəqi (hansı varsa) təklifə əlavə edilməlidir.

**16. Uyğunluq sənədləri**

16.1. Təchizatçıların uyğunluq göstəriciləri təchizatçılara dair ümumi və xüsusi tələblərdən ibarətdir.

16.2. Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinin tələblərinə uyğun olaraq təchizatçılar müqaviləni icra etmək imkanlarını göstərmək üçün Satınalma formaları (IV) bölməsinə daxil edilən müvafiq məlumat vərəqələrini təmin etməli, habelə Qanunun 23-cü maddəsinə əsasən təchizatçıların uyğunluq göstəricilərini təsdiq edən sənədlər (bundan sonra – uyğunluq sənədləri) təqdim etməlidir.

**17. Təklifin qüvvədə olma müddəti**

17.1. Təkliflər **Satınalma məlumat vərəqin**də **(10)** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış tarixə qədər qüvvədə olmalıdır. **Satınalma məlumat vərəqində** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış tarixə qədər qüvvədə olmayan təkliflər formal tələblərə uyğun gəlməyən təklif kimi kənarlaşdırılır.

17.2. Satınalma komissiyası ən çoxu təkliflərin ilkin qüvvədə olduğu müddət qədər təkliflərin qüvvədə olma müddətinin uzadılmasını təchizatçılardan tələb edə bilər.

**18. Təklifin formatı və imzalanması**

18.1. Təchizatçılar təkliflərində biznesləri üçün məxfi olan bütün məlumatları "MƏXFİ" kimi qeyd etməlidirlər. Buraya mülkiyyət məlumatları, ticarət sirləri və ya kommersiya/ maliyyə baxımından həssas məlumatlar daxil ola bilər.

18.2. Təklif təchizatçının rəhbəri və ya digər vəzifəli şəxsi tərəfindən imzalanmalıdır. Təklifi təchizatçının rəhbəri imzaladıqda həmin təchizatçının təsis və hüquqi və ya fiziki şəxsin qeydiyyat sənədlərini təqdim etməlidir. Təklifi imzalayan digər vəzifəli şəxs olduğu təqdirdə isə həmin vəzifəli şəxsə imza səlahiyyətlərinin verilməsinə dair həmin təchizatçının rəhbəri tərəfindən səlahiyyəti təsdiq edən sənəd - etibarnamə təqdim edilməlidir.

18.3. Təchizatçı birgə fəaliyyət göstərdiyi halda, təklif birgə fəaliyyət göstərən təchizatçıların səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmalıdır. Həmin nümayəndənin imza səlahiyyətinə malik olması Təlimatın 21.3-cü bəndinin tələbləri nəzərə alınmaqla birgə fəaliyyət göstərən təchizatçıların rəhbərləri tərəfindən imzalanmış etibarnamə ilə təsdiq edilir.

## D. Təkliflərin təqdim olunması və açılması

**19. Təkliflərin təqdim edilməsinin son**

19.1. Təkliflər onların təqdim edilməsi üçün **Satınalma məlumat vərəqində (11)** müəyyən edilən müddət başa çatanadək

**müddəti** Portal vasitəsilə elektron qaydada satınalan təşkilata təqdim edilir.

**20. Gecikmiş təkliflər**

20.1. Təlimatın 19-cu hissəsi ilə müəyyən olunmuş müddətdən gec təqdim olunan təklif qəbul edilmir.

**21. Təkliflərin geri götürülməsi və ya dəyişdirilməsi**

21.1. Təchizatçı təkliflərin təqdim edilməsi müddəti bitənədək öz təklifini dəyişdirə və ya geri götürə bilər.

21.2. Təlimatın 21.1-ci bəndinə uyğun olaraq geri götürülməsi istənilən təklif açılmadan təchizatçıya qaytarılır.

**22. Təkliflərin açılması**

22.1. Təkliflərin son təqdim olunması müddətinə qədər təqdim olunmuş təkliflər satınalma komissiyası tərəfindən **Satınalma məlumat vərəqində (12)** qeyd olunan tarixdə və vaxtda Portal vasitəsilə elektron qaydada açılır.

22.2. Təkliflər açılarkən hər bir təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı və atasının adı), ünvanı, VÖEN-i, təklifinin qiyməti və qüvvədə olma müddəti Portalda dərc olunur.

## E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi

**23. Məxfilik (konfidensiallıq)**

23.1. Məhkəmənin, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra – AİBNDX), Azərbaycan Respublikası Hesablama Palatasının və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin qanunla müəyyən edilmiş hüquq və vəzifələrinin icrası ilə bağlı məlumatların açıqlanması halları istisna olmaqla, satınalan təşkilat digər hallarda təchizatçıların kommersiya sirri təşkil edən və ya qanunla qorunan digər məlumatlarını açıqlamır və onları məxfi (konfidensial) saxlayır.

23.2. Təchizatçılar tərəfindən təqdim edilən uyğunluq sənədləri və təkliflər, bağlanan satınalma müqaviləsinin surəti, satınalma müqaviləsi uzunmüddətlidirsə və ya mərhələlərlə həyata keçirilirsə, icrasının gedişi haqqında mütəmadi məlumatlar, satınalan təşkilatla təchizatçı arasında satınalma müqaviləsinin icrası, mübahisəli məsələlərin həlli ilə əlaqədar sənədlər və satınalma müqaviləsinin tam icra edilməsi haqqında satınalan təşkilatla təchizatçı arasında imzalanan təhvil-təslim aktı istisna olmaqla, satınalmaya dair hesabata əlavə edilən digər sənədlər təklifin akseptindən, yaxud satınalma müqaviləsinin bağlanması ilə nəticələnməyən satınalma yekunlaşdıqdan sonra 7 (yeddi) iş günü ərzində sorğu əsasında təklif təqdim edən təchizatçılara verilir.

23.3. Təchizatçı satınalmanın istənilən mərhələsində Qanunun

tələblərinə zidd hərəkətlərə (hərəkətsizliyə) yol verdikdə, o cümlədən saxta sənəd və (və ya) məlumat təqdim etdikdə satınalma komissiyası həmin təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

23.4. Təchizatçı Təlimatın 23.3-cü bəndinin tələblərini nəzərə almaqla satınalma prosesi ilə əlaqədar olan hər hansı məsələyə dair satınalma komissiyası ilə yalnız Portal vasitəsilə əlaqə saxlaya bilər.

**24. Təkliflərə dair izahat**

24.1. Uyğunluq sənədlərinin və təkliflərin qiymətləndirilməsini asanlaşdırmaq məqsədilə satınalma komissiyası təchizatçıdan təqdim etdiyi uyğunluq sənədlərinə və ya təkliflərə dair izahat tələb edə bilər. Təchizatçı tərəfindən satınalma komissiyasının sorğusuna uyğun verilməyən cavablar nəzərə alınmır. Satınalma komissiyası tərəfindən qiymətləndirmə zamanı təklifin qiymətlərində və ya mahiyyətində heç bir dəyişiklik, o cümlədən könüllü artım və ya azalma tələb edilməsinə yol verilmir.

24.2. Təchizatçı bu cür izahatı 5 (beş) iş günü ərzində satınalan təşkilata təqdim etmədiyi təqdirdə onun təklifi kənarlaşdırıla bilər.

**25. Formal tələblərə uyğunluğun müəyyən edilməsi**

25.1. Satınalma komissiyası Qanunun 33-cü maddəsinin tələblərini nəzərə almaqla Təlimatın 11-ci hissəsində göstərilmiş tələblərə cavab verən təklifi formal tələblərə uyğun təklif hesab edir.

25.2. Təklifin əhəmiyyətli dərəcədə uyğun təklif hesab edilməsi üçün aşağıdakı hallar nəzərə alınmaqla əsaslı kənara çıxma, qeyd-şərt və çatışmazlıq olmadan şərtlər toplusunun tələblərinə cavab verməlidir:

(a) qəbul edildiyi təqdirdə: (i) müqavilədə göstərilən işlərin həcminə, keyfiyyətinə və ya icrasına hər hansı əhəmiyyətli şəkildə təsir edəcək və ya (ii) şərtlər toplusunun tələblərinə zidd olaraq satınalan təşkilatın hüquqlarını və ya təklif olunan müqavilə çərçivəsində təchizatçının öhdəliklərini əsaslı şəkildə məhdudlaşdıracaq və ya

(b) düzəldildiyi təqdirdə, əhəmiyyətli dərəcədə uyğun hesab edilən digər təchizatçıların rəqabət mövqeyinə ədalətsiz təsir göstərəcək.

25.3. Satınalma komissiyası xüsusilə *(B) İşlərə dair tələblər* sənədində qeyd olunan bütün tələblərin, heç bir əsaslı kənara çıxma, qeyd-şərt və ya çatışmazlıq olmadan yerinə yetirildiyini təsdiqləmək üçün Təlimatın 15-ci hissəsinə

uyğun olaraq təqdim edilmiş təklifin texniki aspektlərini yoxlamalıdır.

25.4. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə əsaslı kənara çıxmaya, qeyd-şərtə və ya çatışmazlığa düzəliş edilməsinə yol verilmədən kənarlaşdırılır.

**26. Əhəmiyyətsiz uyğunsuzluqlar**

26.1. Təklifdə onun mahiyyətini dəyişdirməyən, şərtlər toplusunda göstərilmiş xüsusiyyətlərə, şərtlərə və başqa tələblərə əhəmiyyətli dərəcədə xələl gətirməyən, aradan qaldırılması mümkün olan kiçik texniki səhvlər və ya çatışmazlıqlar (əhəmiyyətsiz uyğunsuzluqlar) olduqda, həmin səhvlər və ya çatışmazlıqlar kəmiyyətcə ifadə olunur və satınalma komissiyası təklifi formal tələblərə uyğun təklif hesab edir.

26.2. Təklifin əhəmiyyətli dərəcədə uyğun olması şərti ilə satınalma komissiyası təchizatçının sənədləşdirmə tələbləri ilə bağlı əhəmiyyətsiz uyğunsuzluqları təchizatçıdan 5 (beş) iş günü ərzində aradan qaldırmasını tələb edə bilər. Bu cür uyğunsuzluqlar haqqında məlumat və ya sənədlərin tələb edilməsi təklifin qiymətinin heç bir aspekti ilə əlaqəli olmamalıdır. Təchizatçının qeyd edilmiş müddət ərzində sorğuya cavab verməməsi onun təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.

**27. Hesab səhvlərinin düzəldilməsi**

27.1. Təqdim olunan təkliflər qiymətləndirilərkən hesab səhvlərinin düzəldilməsinə yol verilmir.

**28. Vahid valyutaya konvertasiya**

28.1. Qiymətləndirmə və müqayisə məqsədilə qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri bütövlüklə və ya bir qismi xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə (www.cbar.az/currency/rates) əsas götürülərək Azərbaycan manatına konvertasiya edilməlidir.

**29. Satınalma güzəşti**

29.1. Satınalma komissiyası təklifləri qiymətləndirərkən, yerli mənşəli işlər üzrə təklifin xeyrinə Qanunun 33.14-cü maddəsi ilə müəyyən edilmiş qaydada 20 faizə qədər həcmdə güzəşti düzəliş tətbiq edir.

**30. Subpodratçılar**

30.1. **Satınalma məlumat vərəqində (13)** nəzərdə tutulduğu təqdirdə, qalib təchizatçı işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə əlaqədar subpodratçılarla müqavilə imzalaya bilər. Bütün digər hallarda satınalma müqaviləsinin icrası subpodratçılara həvalə edilə bilməz. Bu halda təchizatçı təqdim etdiyi təklifə subpodratçıya

həvalə ediləcək fəaliyyət (fəaliyyətlər) və ya işlərin hissələri və satınalma müqaviləsindəki payı barədə məlumat əlavə etməlidir. Subpodrat müqaviləsinin (müqavilələrinin) məbləği satınalma müqaviləsinin ümumi dəyərinin 50 faizindən çox olmamalıdır. Satınalma müqaviləsinin icrasına subpodratçılar cəlb olunduğu halda, subpodrat müqavilələrinin ümumi məbləğinin 20 faizdən az olmayan hissəsinin icrası Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş mikro, kiçik və orta sahibkarlıq subyektlərinə həvalə olunmalıdır.

30.2. Subpodratçının uyğunluq göstəriciləri şərtlər toplusunda təchizatçı üçün müəyyən edilmiş uyğunluq göstəriciləri tələblərinə cavab vermək üçün istifadə edilməməlidir.

**31. Təkliflərin qiymətləndirilməsi**

31.1. Satınalan təşkilat təklifləri Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulan meyarlara və prosedurlara əsasən qiymətləndirir.

31.2. Təklifi qiymətləndirərkən satınalma komissiyası aşağıdakıları nəzərə alır:

(a) Təlimatın 28.1-ci bəndinə uyğun digər valyutada təklif olduğu təqdirdə vahid məzənnəyə konvertasiya;

(b) Təlimatın 29-cu hissəsinə uyğun olaraq satınalma güzəştinin tətbiqi;

(c) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində müəyyən edilmiş digər qiymətləndirmə meyarları.

**32. Təkliflərin müqayisəsi**

32.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı qiyməti olan təklifi müəyyən etmək üçün Təlimatın 31.1-ci bəndinə uyğun olaraq müəyyən edilmiş tələblərə əhəmiyyətli dərəcədə cavab verən bütün təkliflərin qiymətləndirilmiş yekun məbləğini müqayisə etməlidir.

**33. Həddindən artıq ucuz təkliflər**

33.1. Təchizatçının təqdim etdiyi təklifin qiyməti ehtimal olunan qiymətlə müqayisədə 20 faizdən aşağı olarsa, satınalma komissiyası təchizatçıdan təklif qiymətinin ətraflı təhlili, təklif olunan metodologiya, iş qrafiki, risk və məsuliyyətin paylaşdırılması, habelə şərtlər toplusunun digər tələbləri barədə yazılı izahat almalıdır. Təchizatçının təqdim etdiyi izahat və məlumatlar təhlil edildikdən sonra satınalma müqaviləsinin icrasına əsaslı şübhələr qaldıqda satınalma komissiyası təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

**34. Təchizatçının uyğunluq göstəriciləri**

34.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı məbləği olan və əhəmiyyətli dərəcədə uyğun olan ilk 3 (üç) təchizatçının təklifinin Qiymətləndirmə-uyğunluq meyarları

və prosedurları (III) bölməsində qeyd edilmiş uyğunluq göstəricilərinə cavab verib-vermədiyini müəyyən etməlidir.

34.2. Bunun müəyyənləşdirilməsi üçün Təlimatın 16-cı hissəsinə uyğun olaraq təchizatçı tərəfindən təqdim edilmiş uyğunluq göstəricilərini təsdiq edən sənədlər araşdırılmalı, təchizatçının özündən başqa digər törəməsi və ya tabe olduğu müəssisələr, törəmə və tabeliyində olan müəssisələri, filialları və subpodratçılarının uyğunluq sənədləri nəzərə alınmamalıdır.

34.3. Uyğunluq göstəricilərinə cavab verən təklifin seçilməsi müqavilənin bağlanılması üçün ilkin şərtdir. Təlimatın 40.1-ci bəndinin tələbləri yerinə yetirilmədikdə qiymətləndirilmiş ən aşağı məbləği olan növbəti təklif və ya təkliflərin uyğunluq tələblərinə cavab verib-vermədiyi müvafiq qaydada araşdırılır.

34.4. **Satınalma məlumat vərəqində (15)** göstərilən hallarda satınalma komissiyası tərəfindən əsaslandırılmaqla uyğunluq sənədlərini təqdim etmiş təchizatçıdan satınalmanın istənilən mərhələsində həmin sənədlərin yenidən (bir dəfədən çox olmayaraq) təqdim edilməsi tələb oluna bilər. Bu cür tələb təklifin qüvvədə olma müddətinin bitməsinə 10 (on) iş günü qalanadək irəli sürülür və uyğunluq sənədlərinin yenidən təqdim edilməsi 5 (beş) iş günü ərzində həyata keçirilir.

34.5. Təchizatçının uyğunluq göstəriciləri barədə verdiyi qeyri-dəqiq və natamam məlumat satınalma komissiyasının tələbi ilə 3 (üç) iş günü ərzində aradan qaldırılmalıdır.

**35. Qalib təklifin seçilməsi**

35.1. Uyğunluq göstəricilərinə cavab verən və təklifləri uyğun olan ən aşağı qiymət təklifi təqdim edən təchizatçı qalib təchizatçı sayılır.

**36. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ**

36.1. Satınalma komissiyası Qanunun tələblərini nəzərə almaqla qalib təchizatçını seçməzdən əvvəl istənilən vaxt istənilən təklifi aksept etmək və ya kənarlaşdırmaq və satınalmanın ləğv edilməsi haqqında qərar qəbul etmək hüququnu özündə saxlayır və buna görə təchizatçılar qarşısında heç bir məsuliyyət daşımır. Zərflər açılana qədər satınalma ləğv edildiyi halda təkliflər, zərflər açıldıqdan sonra isə təkliflərin təminatları təchizatçılara dərhal geri qaytarılır.

36.2. Satınalma komissiyası aşağıdakı hallarda satınalmanın ləğv edilməsi haqqında qərar qəbul edir:

(a) satınalmada iştirak etmək üçün təklifi təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayı üçdən az olduqda;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;
(c) birinci, ikinci və üçüncü yerləri tutmuş təchizatçılar arasından qalib təchizatçını seçmək mümkün olmadıqda;
(d) bütün təchizatçıların təqdim etdiyi təkliflərin qiyməti ehtimal olunan qiymətdən yüksək olduqda;
(e) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən bu Təlimatın 3.2-ci bəndinin tələblərinin pozulduğu müəyyən edildikdə;
(f) satınalmanın maliyyələşdirilməsi dayandırıldıqda.

**37. Satınalmanın nəticələri barədə bildiriş**

37.1. Satınalma komissiyası satınalmanın nəticələri haqqında yekun protokolu imzaladığı gün satınalan təşkilatın adından təklifini aksept etmək istədiyi təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), ünvanı, VÖEN-i, imzalanması nəzərdə tutulan müqavilənin məbləği, habelə gözləmə müddətinin qüvvədə olma tarixləri barədə satınalmadan kənarlaşdırılmamış təchizatçılara Təlimatın 41-ci hissəsi nəzərə alınmaqla bildiriş göndərməklə yanaşı Portalda məlumat yerləşdirir. Bildirişdə digər təchizatçıların qalib gəlməməsinin səbəbləri göstərilir.

**38. Gözləmə müddəti**

38.1. Satınalmanın nəticələri barədə bildirişin göndərildiyi gündən sonrakı iş günü gözləmə müddəti başlayır və 5 (beş) iş günü ərzində qüvvədə olur. Gözləmə müddəti bitmədən satınalan təşkilat ilə qalib təchizatçı arasında müqavilə imzalana bilməz.

## F. Qalibin seçilməsi

**39. Qalibin seçilməsi proseduru**

39.1. Təlimatın 36-cı hissəsinin tələbləri nəzərə alınmaqla satınalma komissiyası qalib təchizatçını seçir.

**40. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi**

40.1. Satınalma müqaviləsi qalib təchizatçı tərəfindən imzalananadək satınalma komissiyası əvvəlcədən şərtlər toplusunda göstərmişdirsə, satınalma predmetinin hər vahidinin qiymətini və xüsusiyyətlərini (göstəricilərini) dəyişdirməmək, həmçinin ehtimal olunan qiyməti keçməmək şərti ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin razılığı ilə satınalma predmetinin həcmini (miqdarını) 10 faizə qədər artırıb-azalda bilər.

**41. Müqavilənin imzalanması**

41.1. Satınalan təşkilat təklifin şərtlər toplusunda göstərilmiş qüvvədə olma müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək qalib təchizatçının təklifini aksept edir və satınalma müqaviləsini tərtib edib təchizatçıya aksept bildirişi ilə birlikdə göndərir.

41.2. Qalib təchizatçı 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalayır və satınalan təşkilata bu Qanuna əsasən tələb olunan icra təminatını təqdim edir. Satınalan təşkilat satınalma müqaviləsini 10 (on) iş günündən gec olmayaraq imzalayır.

**42. Bağlanılmış müqavilə barədə məlumatın verilməsi**

42.1. Satınalma komissiyası satınalma müqaviləsi qüvvəyə mindiyi gündən 3 (üç) iş günü ərzində satınalan təşkilatın və müqaviləni bağlamış təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), VÖEN-i, satınalma predmeti, satınalma metodu, müqavilənin məbləği və icra müddəti barədə Portalda məlumat yerləşdirir.

**43. İcra təminatı**

43.1. İcra təminatının məbləği satınalma müqaviləsinin ümumi məbləğinin 10 faizi (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 5 faizi) həcmində müəyyən olunur. İcra təminatının qüvvədə olma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda zəmanət müddəti daxil olmaqla) 30 (otuz) iş günü çox olmalıdır.

43.2. Ümumi məbləği 30 000 (otuz min) manatdan az olan satınalma müqaviləsi üzrə icra təminatı tələb olunmur.

43.3. Qalib təchizatçının Təlimatın 41.2-ci bəndində qeyd olunan müddət ərzində satınalma müqaviləsini imzalamaması və (və ya) Qanuna əsasən tələb olunan icra təminatını təqdim etməməsi onun öz öhdəliklərini icra edə bilməməsi kimi qiymətləndirilir.

## G. Şikayət verilməsi

**44. Şikayət vermək hüququ**

44.1. Hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə təchizatçıların satınalan təşkilatın hərəkətlərindən (hərəkətsizliyindən) və qərarlarından inzibati qaydada, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət vermək hüququ vardır.

44.2. Aşağıdakılar şikayət predmeti ola bilməz:

(a) Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan

Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinin məhdudlaşdırılması;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmaması və satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirilməsi halları istisna olmaqla qanuni əsaslarla satınalmanın ləğv edilməsi.

**45. Satınalan təşkilata şikayət**

45.1. Satınalmadan kənarlaşdırılmamış təchizatçılar satınalan təşkilata satınalmanın nəticələri ilə bağlı öz şikayətlərini gözləmə müddətində verirlər. Satınalan təşkilat gözləmə müddətində verilmiş şikayəti 5 (beş) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

45.2. Kənarlaşdırılmış və ya iştirak etməyən təchizatçılar satınalma müqaviləsi qüvvəyə minənə qədər öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 15 (on beş) iş günü ərzində satınalan təşkilata şikayət verə bilərlər. Satınalan təşkilat verilmiş şikayəti 10 (on) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir və həmin qərarın qəbul edildiyi gündən 1 (bir) iş günü ərzində şikayət edən təchizatçıya göndərir.

45.3. Şikayət gözləmə müddəti və ya Təlimatın 45.2-ci bəndi ilə müəyyən edilən müddət keçdikdən sonra verilmişdirsə, satınalan təşkilat həmin şikayəti baxılmamış saxlayır.

45.4. Satınalan təşkilat Təlimatın 45.1-ci və 45.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmirsə, təchizatçı bununla bağlı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət verə bilər. Belə şikayət verildikdən sonra satınalan təşkilat tərəfindən həmin şikayət baxılmamış saxlanılır.

**46. AİBNDX-yə şikayət**

46.1. Təchizatçılar aşağıdakı hallarda İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilərlər:

(a) satınalma müqaviləsi qüvvəyə mindikdə;

(b) satınalma komissiyası Qanunun və Qanundan irəli gələn normativ hüquqi aktların tələblərini pozduqda;

(c) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(d) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı

sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən satınalmalarda maraqlar toqquşmasının tələbləri pozulduğu müəyyən edildikdə;

(e) satınalan təşkilat Təlimatın 45.1-ci və 45.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmədikdə;

(f) verilmiş şikayətlə bağlı satınalan təşkilatın qərarı ilə razılaşmadığı halda.

46.2. Təchizatçılar öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən, habelə Təlimatın 46.1(f) bəndində nəzərdə tutulmuş qərarı aldığı gündən və ya həmin qərarın verilməli olduğu gündən 15 (on beş) iş günü ərzində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilərlər.

46.3. AİBNDX şikayəti aldıqdan sonra 1 (bir) iş günü ərzində bu barədə satınalan təşkilata Portal vasitəsilə bildiriş göndərir. Şikayətdə qaldırılan məsələlərin araşdırılması üçün əlavə məlumat tələb olunduğu təqdirdə AİBNDX satınalan təşkilata Portal vasitəsilə sorğu göndərir. Satınalan təşkilat sorğunu aldıqdan sonra 3 (üç) iş günü ərzində sorğuda tələb olunan məlumatları İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə təqdim edir.

46.4. AİBNDX verilmiş şikayəti 20 (iyirmi) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

46.5. AİBNDX şikayəti təmin edirsə aşağıdakı tədbirlərdən birini və ya bir neçəsini tətbiq edir.

(a) satınalan təşkilata qanunazidd hərəkətlər (hərəkətsizlik) etməyi və ya qərarlar qəbul etməyi, yaxud prosedurlar tətbiq etməyi qadağan etmək;

(b) satınalan təşkilatın qanunazidd inzibati aktını “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 67-ci maddəsinə uyğun olaraq ləğv etmək;

(c) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd hərəkətini (hərəkətsizliyini) dayandırmaq;

(d) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd qərarını ləğv etmək və yeni qərar qəbul etmək və ya satınalan təşkilatın əvəzinə öz qərarını qəbul etmək;

(e) təkliflərin yenidən qiymətləndirilməsi və ya satınalmanın ləğv edilməsi barədə qərar qəbul etmək.

**47. Satınalmanın**

47.1. Təlimatın 45-ci və 46-cı hissələrinə əsasən verilən

**dayandırılması**

şikayətin (gözləmə müddətində verilən şikayət istisna olmaqla) araşdırılması məqsədilə "İnzibati İcraat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinə uyğun olaraq İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qərarı ilə satınalan təşkilat tərəfindən satınalma prosedurları 10 (on) iş gününədək dayandırıla bilər. Bu müddət İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsaslandırılmış qərarı ilə 10 (on) iş gününədək uzadıla bilər.

**48. İnzibati qaydada şikayət**

48.1. Təchizatçılar AİBNDX-nin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və məhkəməyə şikayət verə bilərlər.

## H. Müqavilə

**49. Müqavilə şərtləri**

49.1. Təchizatçı təklifini formalaşdırarkən satınalma müqaviləsinin tələblərini nəzərə almalıdır.

49.2. Satınalma müqaviləsində aşağıdakı məlumatlarından çıxarış **Satınalma məlumat vərəqində (16)** də göstərilir:

(a) satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği;

(b) avans;

(c) satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları;

(d) satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları;

(e) tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri.

49.3. Satınalma müqaviləsi ilə şərtlər toplusunda qeyd edilən məlumatlar arasında ziddiyyət olarsa şərtlər toplusu üstünlük təşkil edir.

# II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ

Satın alınacaq işlər üçün aşağıdakı spesifik məlumatlar Təlimatın müddəalarını tamamlayır, aydınlaşdırır və ya dəyişdirir. Hər hansı bir ziddiyyət yarandıqda, aşağıdakı müddəalar Təlimatdakı müddəalardan üstün olacaqdır.

*[Satınalma məlumat vərəqini doldurmaq üçün zəruri təlimatlar istinad olunan müvafiq Təlimatın üçün kursivlə yazılmış qeydlərdə təqdim olunur və şərtlər toplusu doldurulduqdan sonra silinir]*

| Sıra №-si | Bənd | Məzmun | Məlumat |
|---|---|---|---|
| | | **A. Ümumi** | |
| (1) | 1.1. | Satınalma predmeti: | **(satınalma predmetini daxil edin)** |
| | | Satınalan təşkilatın adı:<br>VÖEN-i: | **(satınalan təşkilatın adını daxil edin)**<br>**(VÖEN-i daxil edin)** |
| | | Satınalan təşkilatın əlaqələndirici vəzifəli şəxsi barədə məlumat: | **(soyadı, adı və atasının adını daxil edin)**<br>**(vəzifəsini daxil edin)**<br>**(əlaqə məlumatlarını daxil edin)** |
| (2) | 3.1. | Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma: | **(iştirakı məhdudlaşdırılan ölkələr və ya məhdudlaşdırılma şərtləri barədə məlumatı daxil edin)**<br>*[Əgər belə hallar nəzərdə tutulmayıbsa “nəzərdə tutulmayıb” qeyd edin]* |
| (3) | 3.3. | Birliyin üzvlərinin maksimal sayı: | **(sayı daxil edin)** |
| (4) | 4.1. | İştirak haqqı: | **(məbləği daxil edin)**<br>*[Qanunun 28.6-cı maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilmiş məbləği daxil edin]* |
| | | **B. Şərtlər toplusunun məzmunu** | |
| (5) | 7.1. | Şərtlər toplusuna dair izahat üçün son müddət: | **(tarix və saatı daxil edin)** |
| (6) | 7.3. | Təklif öncəsi görüş və sahəyə baxış: | Təklif öncəsi görüş **(aşağıdakı tarixdə, saatda və yerdə keçiriləcək / keçirilməyəcək)**.<br>*[keçiriləcəksə aşağıdakı məlumatları daxil edin, əks təqdirdə silin]*<br>Tarix **(tarixi daxil edin)**: |

| | | | |
|---|---|---|---|
| | | | Saat: **(saatı daxil edin)**<br>Yer: **(yeri daxil edin)**<br>Sahəyə baxış **(təşkil ediləcək / edilməyəcək)**. |
| (7) | 8.1. | Şərtlər toplusuna dəyişiklik üçün son müddət: | **(tarix və saatı daxil edin)** |
| **C. Təkliflərin hazırlanması** | | | |
| (8) | 10.1. | Satınalmalara dair sənədlərin tərcümə olunacağı dil(lər): | Tərcümə **(olunacaq / olunmayacaq)**.<br>*[tərcümə olunacaqsa dili qeyd edin, əks təqdirdə silin]*<br>**(dili daxil edin)** |
| (9) | 13.3. | Təklifin qiymətində nəzərə alınmalı olan amillər: | **(qiymət təklifi hazırlanarkən nəzərə alınmalı olan halları daxil edin)**<br>*[Təklifin qiymətinin hazırlanması zamanı nəzərə alınmalı olan amilləri, halları daxil edin. Əgər təlimatda nəzərdə tutulandan başqa hal nəzərdə tutulmayıbsa "Başqa hal nəzərdə tutulmayıb" qeyd edin]* |
| (10) | 17.1. | Təklifin qüvvədə olma müddəti | Təklif ən azı **(tarixi daxil edin)** tarixinə qədər qüvvədə olmalıdır<br>*[təklifin qiymətləndirilməsini yekunlaşdırmaq, lazımi razılıqları, o cümlədən nəticələrin AİBNDX ilə razılaşdırmaq üçün lazım olan ağlabatan vaxt nəzərə alınmaqla tarixi qeyd edin]* |
| **D. Təkliflərin təqdim olunması və açılması** | | | |
| (11) | 19.1. | Təkliflərin təqdim edilməsinin son müddəti | **(tarix və saatı daxil edin)**<br>*[Təkliflərin cəlb edilməsi barədə elan təkliflərin açılması günündən azı 10 (on) iş günü əvvəl Portalda dərc edilir:*<br>*Təkliflərin hazırlanması və təqdim edilməsi üçün icazə verilən vaxt predmetin xüsusiyyəti, miqyası və mürəkkəbliyi nəzərə alınmaqla müəyyən edilməlidir]* |
| (12) | 22.1. | Təkliflərin açılmasının müddəti | **(tarix və saatı daxil edin)**<br>*[Təkliflər Təlimatın 24.1-ci bəndində qeyd olunan vaxtdan sonra 1 saat ərzində açılır]* |
| **E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** | | | |
| (13) | 30.1. | Subpodratçı | Subpodratçının cəlb edilməsinə icazə **(verilir / verilmir)** |

| | | | |
|---|---|---|---|
| | | | Subpodratçı üçün tələblər: **(tələbləri daxil edin)** *[Məsələn, subpodratçının həyata keçirməsi nəzərdə tutulan fəaliyyət sahəsi “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növü olarsa müvafiq lisenziya əlavə edilməlidir]* |
| (14) | 31.2(c) | Digər meyarlar | Əlavə meyarlar **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)** |
| (15) | 34.4. | Uyğunluq sənədlərinin yenidən təqdim edilməsi halları | **(uyğunluq sənədlərinin yenidən təqdim edilməsi hallarını daxil edin)** *[“Təkliflərin qiymətləndirilməsi müddətində dəyişilməsi gözlənilən (məsələn, vergi arayışı və s.) və ya təqdim edilmiş sənədlər arasında ziddiyyət/uyğunsuzluq olması” kimi halları qeyd edin və ya “tətbiq edilmir” daxil edin]* |
| **H. Müqavilə** | | | |
| (16) | 49.2. | Müqavilə şərtləri | Ödəmələr: **(satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği)** |
| | | | Avans: **(avans ödənişi və təminatının məbləği və müqavilənin icra müddəti)** *[Avans satınalma müqaviləsinin ümumi məbləğinin 30 faizindən (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 50 faizindən) çox olmayaraq ödənilir. Avansın alınması üçün təchizatçı tərəfindən satınalan təşkilata avans ödənişinin ümumi həcmindən az olmayan məbləğdə və müqavilənin icra müddətində qüvvədə olan müddətdə avans təminatı təqdim olunur]* |
| | | | Satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları: **(təklifin akseptindən sonra satınalma müqaviləsinin qüvvəyə minməsi üçün müvafiq sənədlər, həmin sənədlərin təqdim edilməsi müddəti və digər şərtlər)** |

| | | | |
|---|---|---|---|
| | | | Müqaviləyə dəyişiklik: **(satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları)** |
| | | | Sığorta: **(tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri)** |

# III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ - UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI

Bu bölmədə satınalma komissiyası tərəfindən təklifləri qiymətləndirmək və uyğunluq göstəricilərinə cavab verən təchizatçıları müəyyən etmək üçün bütün meyarlar qeyd edilib. Bu şərtlər toplusunda qeyd edilməyən heç bir meyar, amil və ya göstəricidən istifadə edilə bilməz. Təchizatçı tələb olunan bütün məlumatları Satınalma formaları (IV) bölməsinə daxil edilən formalardan istifadə edərək təqdim etməlidir.

Təchizatçıdan maddi dəyərinin göstərilməsi tələb olunan məlumatlar Azərbaycan manatı ilə aşağıdakı qaydada müəyyən edilən məzənnədən istifadə edilərək təqdim edilməlidir:

- maliyyə vəziyyətində göstərilən məlumatlar - müvafiq təqvim ilinin son günündə qüvvədə olan valyuta məzənnəsi;
- müqavilənin məbləği - müqavilənin bağlandığı tarixdə qüvvədə olan valyuta məzənnəsi.

Valyuta məzənnələri Təlimatın 28.1-ci bəndi ilə müəyyən edilmiş açıq mənbədən götürülməlidir. Təklifində valyuta məzənnələrinin müəyyən edilməsində hər hansı səhv satınalma komissiyası tərəfindən düzəldilə bilər.

*[Satınalan təşkilat satınalma prosesi üçün uyğun hesab edilən meyarları seçməli, aşağıdakı nümunələrdən və ya digər məqbul mətndən istifadə etməklə müvafiq mətni daxil etməli və kursivlə yazılan mətni silməlidir].*

# A. Texniki və maliyyə göstəricilərinin qiymətləndirməsi

## 1. Texniki göstəricilərin qiymətləndirilməsi

Təlimatın 31.1-ci bəndinə uyğun olaraq təklifin tələblərə uyğunluğunun qiymətləndirilməsi.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

..........................................................................................................................

## 2. Maliyyə göstəricilərinin qiymətləndirilməsi

### 2.1. Maliyyə göstəricilərinin qiymətləndirilməsi üçün meyarlar

**(i)** İş qrafiki

İşə başlama tarixindən etibarən işlərin tamamlanma müddəti Satınalma müqaviləsində göstərilir. İşlərin müəyyən edilmiş müddətdən əvvəl tamamlanması nəzərə alınmayacaq.

[və ya / satınalan təşkilat 2 variantdan birini seçir digərini silər]

İşə başlama tarixindən etibarən işlərin tamamlanma üçün vaxt minimum (**minimal müddəti gün və ya ay ilə daxil edin)** və maksimum (**maksimal müddəti gün və ya ay ilə daxil edin)** arasında olmalıdır. Minimal müddətdən gec işlərin tamamlanması üçün həmin minimal müddətdən gecikmiş hər təqvim günü üçün müqayisə məqsədilə məbləğ tənzimlənməsi (artırılması) **0,1 %** təşkil edir. İşlərin erkən tamamlanması nəzərə alınmayacaq. Müəyyən edilmiş maksimal müddətdən gec başa çatma tarixi ilə təqdim edilən təkliflər kənarlaşdırılır.

**(ii)** İstismar, texniki xidmət və təmir xərcləri

(İstismar, texniki xidmət və təmir xərclərinin hesablanması **(tətbiq ediləcək / edilməyəcək)**

*[İşlərin müəyyən edilmiş istismar müddəti ərzində istismar və yaxud texniki xidmət xərclərinin ilkin dəyərlə müqayisədə əhəmiyyətli olduğu və müxtəlif təkliflər arasında dəyişə bildiyi zaman istismar dövrü xərclərinin hesablanmasından istifadə edilməlidir. O, xalis diskontlaşdırılmış dəyər əsasında qiymətləndirilməlidir. Təklifin qiymətləndirilməsi üçün istismar dövrü xərclərin hesablanması tətbiq ediləcəksə, satınalan təşkilat onun tətbiqi ilə bağlı müvafiq məlumatları burada qeyd etməlidir:]*

İstismar dövrü xərclərinin hesablanması üçün amillər:
(a) istismar dövrü üçün illərin sayı: **(illərin sayını daxil edin)**;
(b) əməliyyat xərcləri **(onların necə müəyyən ediləcəyini qeyd edin)**;
(c) istismarın ilkin dövrü üçün ehtiyat hissələrinin dəyəri daxil olmaqla texniki xidmət xərcləri **(onların necə müəyyən ediləcəyini qeyd edin)**;
(d) Diskont dərəcəsi: (a) bəndində göstərilən dövr üçün yuxarıda (b) və (c) bəndlərində hesablanmış bütün illik gələcək məsrəflərin cari məbləğə diskont edilməsi üçün istifadə ediləcək **(diskont dərəcəsini faizlə daxil edin)**.

## B. Uyğunluq göstəricilərinin qiymətləndirilməsi

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra-№-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **1.** | ***İlkin tələblər*** | | | | | | |
| **1.1.** | **Maraqlar toqquşması** | Təlimatın 3.2-ci bəndinin tələblərinə cavab verməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)** |
| **1.2.** | **Dövlət mənsubiyyəti-nə görə məhdudlaş-dırılma** | **Satınalma məlumat vərəqində (2)** göstərilən və (və ya) müəyyən edilən ölkələrdə qeydiyyatdan keçən qeyri-rezident təchizatçıların siyahısına daxil edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Qeydiyyat sənədi |
| **2.** | ***Ümumi tələblər*** | | | | | | |
| **2.1.** | **Təchizatçı haqqında** | Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | 1. Təchizatçı haqqında:<br>a. Təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti;<br>b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətna-məsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti;<br>c. birgə fəaliyyət göstərdikdə Təlimatın 3.4-cü bəndinə uyğun |

[1] Bütün üzvlərin təqdim etdiyi göstəricilərin cəmi tələblərə tam cavab verməlidir.

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra-№-si | Mövzu | Tələblər | Fərdi | Bütün üzvlər birlikdə [1] | Hər bir üzv ayrı-ayrılıqda | Bir üzv | |
| | | | | | | | olaraq birgə fəaliyyətə dair müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu.<br>2. təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış<br>a. Hüquqi və fiziki şəxs olduqda **(FORMA 5)** və (və ya)<br>b. Birgə fəaliyyət olduqda 2 a bəndinə əlavə olaraq (**FORMA 6)**<br>3. Təlimatın 18.2-ci bəndinə uyğun olaraq təklifi imzalayan digər vəzifəli şəxs olduqda – etibarnamə.<br>4. Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış **(FORMA 8)** |
| **2.2.** | **Lisenziya və (və ya) icazə (tətbiq olunarsa)** | **(satınalma predmetinin icrası üçün zəruri olan və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növünü və tətbiq olunarsa konkret** | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Uyğun olmalıdır | Lisenziya və (və ya) icazənin surəti |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra-№-si | Mövzu | Tələblər | Fərdi | Bütün üzvlər birlikdə [1] | Hər bir üzv ayrı-ayrılıqda | Bir üzv | |
| | | **istiqaməti qeyd edin** *məs. Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri – (a) xüsusi torpaq işləri və (b) mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması işləri***)** | | | | | |
| **2.3.** | **Əmlakdan sərbəst istifadə** | Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasibətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)**, məlumat və təsdiqedici sənədlər |
| **2.4.** | **Müflislik** | Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahibkarlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra-№-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | üzərinə tələbin yönəldilməməsi | | | | | |
| **2.5.** | **Vergi və əmək qanunvericiliyi öhdəliyi** | Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin olması və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın olmaması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış |
| | | Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının və ya inzibati cərimənin tətbiq edilməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Maliyyə sanksiyasına münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış<br>İnzibati cəriməyə münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra-№-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **2.6.** | **Fəaliyyət qadağası** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.7.** | **Məhkumluq** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırılma cinayət- | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra-№-si | Mövzu | Tələblər | Fərdi | Bütün üzvlər birlikdə [1] | Hər bir üzv ayrı-ayrılıqda | Bir üzv | |
| | | lərinə görə məhkum olunmaması | | | | | |
| 3. | *Xüsusi tələblər* | | | | | | |
| 3.1. | **Peşəkarlıq və təcrübə** | Satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının və təcrübəsinin olması, aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | Təchizatçının təcrübəsi barədə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 7)**, məlumat və təsdiqedici sənədlər (təhvil-təslim və ya yekun təhvil-təslim aktları, elektron qaimə və s.).<br><br>*[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış digər prosedurları daxil edin]* |
| 3.1.1. | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | | | | | |
| 3.2. | **Maliyyə imkanı** | Satınalma müqaviləsinin icrası üçün maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış prosedurları daxil edin]* |
| 3.2.1. | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsi ilə müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | ... | ... | ... | ... | |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra-№-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət: Bütün üzvlər birlikdə [1] | Birgə fəaliyyət: Hər bir üzv ayrı-ayrılıqda | Birgə fəaliyyət: Bir üzv | |
| **3.3.** | **Texniki imkan** | Texniki imkanlarının və maddi-texniki bazasının olması - aşağıda göstərilən tələblərə cavab verməsi: **(cari satınalma predmetinin icrası üçün tələb olunan (a) texnikaların növləri, (b) xüsusiyyətləri və (c) minimal say tələblərini siyahı olaraq daxil edin)** | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 3)** və təsdiqedici sənədlər (nəqliyyat vasitəsinin, maşın mexanizminin qeydiyyat şəhadətnaməsi, icarə, lizinq müqaviləsi və s. ); |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | ... | ... | ... | ... | |
| **3.4.** | **İşçi qüvvəsi** | Müvafiq tələblərə cavab verən işçi qüvvəsinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: **(cari satınalma predmetinin icrası üçün tələb olunan əsas heyətin (a) vəzifələrini, (b) minimal say, (c) müvafiq akademik uyğunluq və (d) müvafiq** | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 4)**, məlumat və təsdiqedici sənədlər |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| **Sıra-№-si** | **Mövzu** | **Tələblər** | **Fərdi** | ***Bütün üzvlər birlikdə*** [1] | ***Hər bir üzv ayrı-ayrılıqda*** | ***Bir üzv*** | |
| | | **sahədə minimal təcrübə tələblərini siyahı olaraq daxil edin)** | | | | | |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | ... | ... | ... | ... | |
| **4.** | ***Digər tələblər*** | | | | | | |
| **4.1.** | **Sahənin təşkili** | | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış sahənin təşkili barədə məlumat (tətbiq olunarsa) |
| **4.2.** | **İş metodologi-yası** | | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış iş metodologiyası barədə məlumat (tətbiq olunarsa) |
| **4.3.** | **İcra müddəti** | | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış mobilizasiya qrafiki və tikinti qrafiki (tətbiq olunarsa) |
| **4.4.** | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir.]* | | | | | | |

# IV BÖLMƏ. SATINALMA FORMALARI

## FORMA 1. Təklif məktubu

Təklifin təqdim olunma tarixi: **(tarixi daxil edin)**

Müsabiqə nömrəsi: **(müsabiqə nömrəsini daxil edin)**

Kimə: **(Satınalan təşkilatın adını daxil edin)**

Biz, aşağıda imza edənlər bəyan edirik ki:

**(a)** **qeyd-şərtin olmaması:** Təlimatın 8-ci hissəsinə müvafiq olaraq verilmiş əlavə və dəyişikliklər də daxil olmaqla (mövcud olduğu halda) şərtlər toplusu və onu təşkil edən sənədlər ilə tanış olduq, burada təsvir olunan işin görülməsi haqqında tam məlumata malikik və bu sənədlərə heç bir qeyd-şərtimiz yoxdur;

**(b)** **münasiblik:** Təlimatın 3-cü hissəsində qeyd edilmiş tələblərə cavab veririk və maraqların toqquşması hallarının olmadığını təsdiqləyirik;

**(c)** **uyğunluq:** Biz ***(satınalma predmetini daxil edin)*** işlərini şərtlər toplusunun tələblərinə və nəzərdə tutulmuş icra qrafikinə uyğun olaraq yerinə yetirməyi təklif edirik*;*

**(d)** **qiymət:** Tələb olunan işləri bütün vergi və rüsumlar daxil olmaqla dövlət satınalmalarının vahid internet Portalında göstərilən məbləğdə yerinə yetirməyi təklif edirik.

**(e)** **təklifin qüvvədə olma müddəti**: Təklifimiz dövlət satınalmalarının vahid internet Portalında göstərilən tarixə qədər qüvvədədir, bizim üçün məcburi xarakter daşıyır və bu müddətin bitməsindən əvvəl istənilən vaxt qəbul edilə bilər;

**(f)** **icra təminatı**: Bizim təklifimiz qəbul edildiyi təqdirdə şərtlər toplusunda qeyd edilən şərtlərdə icra təminatını təqdim edəcəyimizi öhdəmizə götürürük *(məbləği 30 000 manatdan az olan təklif təqdim etmiş təchizatçılar üçün tələb olunmur, bu bənd silinir)*;

**(g)** **hər təchizatçı bir təklif:** Biz fərdi təchizatçı kimi hər hansı digər təklif və ya təkliflər təqdim etmirik, birgə fəaliyyət üzvü və ya subpodratçı kimi hər hansı digər satınalma və ya satınalmalarda iştirak etmirik və Təlimatın 3.3-cü bəndinin tələblərinə cavab veririk;

**(h)** **qəbul etmək məcburiyyətinin olmaması:** Başa düşürük ki, siz ən aşağı qiyməti olan, ən səmərəli və ya digər istənilən təklifi qəbul etmək məcburiyyətində deyilsiniz;

**(i)** **əmlakdan sərbəst istifadə:** Müqavilənin icrası zamanı istifadə olunacaq əmlaklardan (daşınmaz əmlak və nəqliyyat vasitələri istisna olmaqla) sərbəst və məhdudiyyətsiz istifadə etmək hüququmuz var;

**(j)** **saxtakarlıq və korrupsiya:** Bizim üçün və ya bizim adımızdan hərəkət edən heç kimin heç bir formada saxtakarlıq və korrupsiya əməlləri törətməməsi üçün müvafiq tədbirləri görmüşük.

Təchizatçının adı: (təchizatçının adını daxil edin)

Təchizatçının VÖENİ: **(təchizatçının VÖEN-ini daxil edin)**

Təklifi təchizatçı adından imzalamaq səlahiyyəti olan şəxsin adı və soyadı:**(adı və soyadı daxil edin)**

Təklifi imzalayan şəxsin vəzifəsi: **(tam vəzifəni qeyd edin)**

İmzalanma tarix: **(tarixi daxil edin)**

# FORMA 2. İş həcmləri cədvəli

*[Bu qeydlər satınalan təşkilat və ya iş həcmləri cədvəlini tərtib edən şəxsi məlumatlandırmaq üçün nəzərdə tutulub. Yekun sənəddən çıxarılmalıdır.*

***Məqsədlər***

*İş həcmləri cədvəlinin məqsədləri aşağıdakılardır:*

(a) *təkliflərin səmərəli və dəqiq hazırlanmasını təmin etmək üçün görüləcək işlərin miqdarları haqqında kifayət qədər məlumat vermək; və*

(b) *müqavilə bağlandıqda, yerinə yetirilən işlərin dövri qiymətləndirilməsində istifadə üçün qiymətləndirilmiş iş həcmləri cədvəli kimi işlətmək.*

*Bu məqsədlərə çatmaq üçün, işlərin müxtəlif növlərini və ya müxtəlif yerlərdə və ya fərqli qiymət mülahizəsinə səbəb olacaq şəraitlərdə icra ediləcək eyni xarakterli işləri fərqləndirmək üçün işlər maddələrlə göstərilməklə kifayət qədər təfərrüatlı şəkildə iş həcmləri cədvəlində qeyd edilməlidir. qiymət mülahizələri. Bu tələblərə uyğun olaraq, iş həcmləri cədvəlinin tərtibatı və məzmunu mümkün qədər sadə və qısa olmalıdır.*

***Məzmun***

*İş həcmləri cədvəli ümumiyyətlə aşağıdakı bölmələrə bölünməlidir:*

*(a) preambula;*
*(b) iş maddələri (hissələrə qruplaşdırılmış);*
*(c) xülasə.*

***Preambula***

*Preambula vahid qiymətlərin əhatəliliyini göstərməli və iş həcmləri cədvəlinin hazırlanması zamanı qəbul edilmiş və işlərin hər hansı hissəsinin ölçülməsi üçün istifadə ediləcək ölçmə üsullarını ehtiva etməlidir.*

***Qaya***

*Qazıntı, dəlmə və ya daşıma işlərə daxil edildikdə, qayanın hərtərəfli tərifi (müqavilə üzrə idarəetmədə həmişə mübahisəli mövzudur) texniki və keyfiyyət xüsusiyyətlərində təqdim edilməli və bu tərif ölçmə və ödəniş məqsədləri üçün istifadə edilməlidir.*

***İş maddələri***

*Xarakteristikasına, yerinə, giriş vaxtına, vaxta və ya hər hansı digər spesifik xüsusiyyətlərə görə müxtəlif tikinti metodlarına, işlərin mərhələliliyinə və ya qiymət mülahizələrinə səbəb olan maddələr bölmələr üzrə qruplaşdırılmalıdır. İşlərin bütün hissələri üçün ümumi olan maddələr iş həcmləri cədvəlində ayrıca bölmə kimi qruplaşdırıla bilər.*

***Miqdarlar***

*Müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, miqdarlar yalnız çertyojlar (cizgilər) əsasında hesablanmalıdır və qabarma, yığılma, və ya itkisi üçün heç bir güzəşt nəzərə alınmamalıdır. Ehtiyac olduqda yuvarlaqlaşma aparılmalı və süni dəqiqlikdən qaçınılmalıdır.*

***Ölçü vahidləri***

*Başqa milli vahidlər məcburi olmadıqda aşağıdakı ölçü vahidləri və qısaltmalar istifadə üçün tövsiyə olunur.*

| ***Ölçü vahidi*** | ***Qısaltma*** | ***Ölçü vahidi*** | ***Qısaltma*** |
|---|---|---|---|
| *Kub metr* | *$m^3$ və ya kb.m* | *millimetr* | *mm* |
| *hektar* | *ha* | *ay* | *ay* |
| *saat* | *h* | *ədəd* | *əd.* |
| *kiloqram* | *kq* | *kvadrat metr* | *$m^2$ və ya kv.m* |
| *birdəfəlik cəm* | *cəm* | *kvadrat millimetr* | *$mm^2$ və ya kv mm* |
| *metr* | *m* | *həftə* | *hf* |
| *ton (1,000 kg)* | *t* | | |

***Torpaq və qazıntı səviyyələri***

*Başlanğıc səviyyəsi orijinal səviyyə olmayan qazıntı, deşmə və ya daşıma ilə əlaqəli işlərin hər bir elementinin təsvirində başlanğıc səviyyə müəyyən edilməlidir. Qazılmış səviyyə son səviyyə olmayan qazıntı ilə bağlı işlərin hər bir elementinin təsvirində qazılmış səviyyə müəyyən edilməlidir. İşin dərinliyi başlanğıc səviyyə ilə qazılan səviyyə arasındakı fərq olaraq ölçülməlidir.*

***Xülasə***

*Xülasə iş həcmləri cədvəlinin ayrı-ayrı hissələrinin cədvəlini ehtiva etməlidir.*

## A. Preambula

1. İş həcmləri cədvəli Təchizatçılar üçün təlimatlar (o cümlədən Satınalma məlumat vərəqi), Müqavilə, (B) İşlərə dair tələblər (o cümlədən çertyojlar) sənədi ilə birlikdə oxunmalıdır.
2. İş həcmləri cədvəlində verilmiş miqdarlar təxmini və şərtidir və cari satınalma predmeti ilə bağlı ümumi təsəvvür yaratmaq üçün verilmişdir. Ödənişin əsasını təchizatçı tərəfindən ölçülən, satınalan təşkilat tərəfindən yoxlanılan faktiki miqdarlar və qiymət daxil edilmiş iş həcmləri cədvəlində müəyyən olunan vahid qiymətlər təşkil edəcəkdir.
3. İşin və materialların detallı təsvirləri iş həcmləri cədvəlinə daxil edilməmiş ola bilər. İş həcmləri cədvəlinin hər bir bəndi üzrə qiymətlər daxil edilməzdən əvvəl müqavilə sənədlərinin müvafiq bölmələrinə istinad edilməlidir.
4. İş həcmləri cədvəlindəki maddələr işin xarakteristikasına və icra vaxtına görə qruplaşdırıla bilər (məsələn, ümumi maddələr, torpaq işləri və s.).
5. Ödəniş üçün tamamlanmış işin ölçülməsi üsulu **(standart məlumat kitabçasının adını və ya istifadə ediləcək metodların tam təfərrüatlarını daxil edin)** uyğun olmalıdır.

## B. İş həcmləri üzrə maddələr

Təchizatçı satınalan təşkilat tərəfindən aşağıdakı formada hazırlanmış iş həcmləri cədvəlini Portal vasitəsilə əldə edərək doldurur

| *Maddə №.* | *Təsvir* | *Ölçü vahidi* | *Miqdar* | *Vahidin qiyməti* | *Cəm* |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | **Yekun cəm:** | ______ |

# FORMA 3. Texniki baza

Təchizatçı Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində sadalanan əsas avadanlıq üçün tələblərə cavab vermək qabiliyyətinə malik olduğunu aydın şəkildə nümayiş etdirmək üçün müvafiq məlumatı təqdim etməlidir.

| Sıra №-si | Avadanlığın adı, istehsalçısı və modeli | İstehsal ili | Hazırkı yeri və məşğulluğu | Mülkiyyətçi | Mülkiyyətçinin adı, ünvanı, əlaqə məlumatları və icarə şərtləri *(əgər şəxsi deyilsə)* |
|---|---|---|---|---|---|
| 1. | | | (yeri, istifadədə və ya boşda olması qeyd edilir) | (Şəxsi, icarə, lizinq və ya xüsusi istehsal) | (cari satınalma predmeti çərçivəsində texnikanın icarə, lizinq və ya istehsalına dair detallar qeyd edilir) |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |
| 5. | | | | | |

# FORMA 4. Təklif edilən əsas heyətin tərcümeyi-halı və bəyannaməsi

Təchizatçı Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində sadalanan əsas işçi heyət tələblərinə cavab vermək qabiliyyətinə malik olduğunu aydın şəkildə nümayiş etdirmək üçün müvafiq məlumatı hər bir şəxs üçün ayrıca təqdim etməlidir. Bundan başqa bütün vəzifələr üzrə cəlb ediləcək şəxslərin nəzərdə tutulan fəaliyyət müddətinə dair vaxt cədvəli detallı Qant diaqramı və ya bənzər digər cədvəl formasında təqdim edilməlidir.

<table>
<tr><td colspan="3">Təchizatçının adı: (təchizatçının adını daxil edin)</td></tr>
<tr><td colspan="3">Təklif edilən namizədin vəzifəsi: (Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulmuş vəzifəni daxil edin)</td></tr>
<tr><td>Məşğulluq dövrü:</td><td colspan="2">(bu vəzifə öhdəliyi üzrə cəlb ediləcək şəxsin işə başlama və işi bitirmə tarixlərini daxil edin)</td></tr>
<tr><td>İş müddəti:</td><td colspan="2">(bu vəzifə öhdəliyi üçün cəlb ediləcək şəxsin planlaşdırılan iş müddətini gün, həftə və ya ay olaraq daxil edin)</td></tr>
<tr><td rowspan="6">Heyət barədə məlumat<br>(dil, danışma, oxuma və yazma bacarıqlarının səviyyələri)</td><td>Ad və soyad:<br>(Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulmuş vəzifəyə uyğun hesab edilərək təklif edilən namizədin ad və soyadını daxil edin)</td><td>Doğum günü:</td></tr>
<tr><td rowspan="2">Ünvan:</td><td>E-poçt:</td></tr>
<tr><td>Mobil nömrə:</td></tr>
<tr><td colspan="2">Peşəkar sertifikatları:</td></tr>
<tr><td colspan="2">Təhsili:</td></tr>
<tr><td colspan="2">Dil biliyi:<br>(dil, danışma, oxuma və yazma bacarıqlarının səviyyələri)</td></tr>
<tr><td rowspan="5">İş yeri barədə məlumat</td><td colspan="2">İşəgötürənin adı:</td></tr>
<tr><td colspan="2">İşəgötürənin ünvanı:</td></tr>
<tr><td colspan="2">Əlaqəli şəxsi (menecer / kadrlar şöbəsinin əməkdaşı):</td></tr>
<tr><td>Telefon:</td><td>E-poçt</td></tr>
<tr><td>Vəzifəsi</td><td>Hazırkı iş yerində çalışma müddəti</td></tr>
</table>

Peşəkar təcrübəni tərs xronoloji ardıcıllıqla ümumiləşdirin. Satınalma predmeti ilə əlaqəli xüsusi texniki və idarəetmə təcrübəsini göstərin.

| **İş yeri/layihə** | **Vəzifə** | **İş müddəti** | **Müvafiq təcrübə** |
|---|---|---|---|
| *(İşəgötürən və ya layihənin əsas detalları)* | *(bu işdə vəzifə və öhdəlikləri)* | *(bu vəzifədə işləmə müddəti)* | *(qeyd olunan təcrübənin cari vəzifə öhdəliklərinə uyğunluğunu təsvir edin)* |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**İltizam**

Mən imza etməklə təsdiqləyirəm ki, bu **FORMA 4**-də verilən məlumatlar mənim ixtisasımı və təcrübəmi düzgün təsvir edir.

Mən təsdiq edirəm ki, yuxarıda qeyd edilən məşğulluq dövrü və iş müddətində işləmək üçün öhdəlik götürürəm.

Mən başa düşürəm ki, bu Formada məlumatların yanlış verilməsi, gizlədilməsi və ya verilməməsi təklifin qiymətləndirilməsində nəzərə alınaraq mənim satınalmadan, müqavilə bağlandıqda isə müqavilənin icrasından uzaqlaşdırılmağıma səbəb ola bilər.

**Namizədin adı və soyadı:*(adı və soyadı daxil edin*)**

İmza: ____________________________________________________________

Tarix: **(tarixi daxil edin)**

**Təchizatçının səlahiyyətli nümayəndəsinin adı və soyadı: (adı və soyadı daxil edin)**

İmza: ____________________________________________________________

Tarix:**(tarixi daxil edin)**

# FORMA 5. Təchizatçı haqqında

| |
|---|
| Təchizatçının adı: **(təchizatçının adını daxil edin)** |
| Birgə fəaliyyət göstərdikdə hər bir üzvün adı: **(hər bir üzvün hüquqi adını qeyd edin)** |
| Təchizatçının qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Təchizatçının təsis ili: **(ili qeyd edin)** |
| Təchizatçının hüquqi və faktiki ünvanları: **(ünvanı qeyd edin)** |
| Təchizatçının səlahiyyəti nümayəndəsi haqqında:<br>• Ad və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 6. Birgə fəaliyyət haqqında

*(tətbiq olunursa hər bir birgə fəaliyyət göstərən üzvü üçün ayrı-ayrılıqda doldurulur)*

| |
|---|
| Birgə fəaliyyət göstərənin adı: (təchizatçının adını daxil edin) |
| Birgə fəaliyyət göstərən üzvünün adı: **(üzvün hüquqi adını qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin üzvün qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün təsis ili: **(ili qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün faktiki və hüquqi ünvanı: **(ünvanı qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin səlahiyyətli nümayəndəsi haqqında:<br>• Ad və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 7. Oxşar işlər üzrə təcrübə

| S/S | Başlanma və bitmə tarixi | Satınalan təşkilat və əlaqə vasitələri *(ünvanı, e-poçtu və telefonu)* | Müqavilənin predmeti | İcra olunan işlərin cari satınalma predmetinə bənzərliyinin təsviri *(yeri, əsas komponentləri, miqdarları/həcmləri və s.)* | Müqavilənin məbləği *(AZN ilə)* | İcra vəziyyəti *(davam edirsə tamamlanma faizi qeyd edilir)* | Təchizatçının rolu |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | (Təchizatçı, subpodratçı və ya birgə fəaliyyət üzvü) |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |
| 5. | | | | | | | |

## FORMA 8. Subpodratçılar haqqında məlumat

| Sıra №-si | Subpodratçının hüquqi adı və VÖEN-i | Əlaqə vasitəsi | Həyata keçirəcəyi işlərin təsviri | Müqavilə məbləğində payı (faizlə) |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |
| 5. | | | | |

# (B) İŞLƏRƏ DAİR TƏLƏBLƏR

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar (satınalma predmetinin ətraflı təsviri, zəruri texniki və keyfiyyət xüsusiyyətləri (o cümlədən planlar, çertyojlar (cizgilər) və eskizlər), işlərin görülməsi yeri, qrafiki və s.) daxil edilir. Yalnız istehsal olunmuş mal partiyası üçün tətbiq olunan sertifikatların (məsələn uyğunluq, mənşə və s.), həmçinin şərtlər toplusunun tələblərinə uyğun hazırlanmış mallara dair nümunələrin təqdim olunması kimi şərtlərin tələblərə daxil edilməsinə yol verilmir (belə tələblər müqavilə şərtlərinə daxil edilə və ya şərtlər toplusunun tələblərinə bənzər xüsusiyyətdə istehsal olunmuş mallara Təchizatçı ilə razılaşdırılmış yerdə baxış keçirilə bilər)]*

# (C) SATINALMA MÜQAVİLƏSİ

*[Qanunun 38.15-ci maddəsinə əsasən işlər üzrə satınalma müqaviləsinin nümunəvi forması müvafiq qaydada doldurularaq əlavə edilir]*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 30 dekabr tarixli 503 nömrəli
Qərarı ilə **təsdiq edilmişdir.**

**9 nömrəli əlavə**

## (satınalma predmetini daxil edin)

---

*mallarının*

KOTİROVKA SORĞUSU METODU

ilə satın alınması üçün

# ŞƏRTLƏR TOPLUSU

SATINALAN TƏŞKİLAT: **(satınalan təşkilatın adını daxil edin)**

ELAN TARİXİ: **(elan tarixini daxil edin)**

## MÜNDƏRİCAT


(A) SATINALMA PROSEDURLARI

**I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT** .... 3

**A. Ümumi** .... 3

**1. Satınalma haqqında** .... 3

**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar** .... 3

**3. Təchizatçıların münasibliyi** .... 3

**4. Malların və əlaqədar xidmətlərin münasibliyi** .... 5

**5. Satınalmada istifadə və iştirak haqqı** .... 6

**B. Şərtlər toplusunun məzmunu** .... 6

**6. Şərtlər toplusunun tamlığı** .... 6

**7. Şərtlər toplusuna dair izahat** .... 7

**8. Şərtlər toplusuna dəyişikliklərin edilməsi** .... 7

**C. Təkliflərin hazırlanması** .... 8

**9. Satınalma xərcləri** .... 8

**10. Təklifin tərtib olunmasının dili** .... 8

**11. Təklifə daxil olan sənədlər** .... 8

**12. Təklif məktubu və cədvəllər** .... 9

**13. Təklifin qiyməti** .... 9

**14. Təklifin və ödənişin məzənnəsi** .... 10

**15. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)** .... 10

**16. Uyğunluq sənədləri** .... 10

**17. Təklifin qüvvədə olma müddəti** .... 11

**18. Təklifin formatı və imzalanması** .... 11

**D. Təkliflərin təqdim olunması və açılması** .... 12

**19. Təkliflərin təqdim edilməsinin son müddəti** .... 12

**20. Gecikmiş təkliflər** .... 12

**21. Təkliflərin geri götürülməsi və ya dəyişdirilməsi** .... 12

**22. Təkliflərin açılması** .... 12

**E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** .... 12

**23. Məxfilik (konfidensiallıq)** .... 12

**24. Təkliflərə dair izahat** .... 13

**25. Formal tələblərə uyğunluğun müəyyən edilməsi** .... 13

**26. Əhəmiyyətsiz uyğunsuzluqlar** .... 14

**27. Hesab səhvlərinin düzəldilməsi** .... 14

**28. Vahid valyutaya konvertasiya** .... 14

**29. Satınalma güzəşti** .... 14

**30. Subpodratçılar** .... 15

**31. Təkliflərin qiymətləndirilməsi** .... 15

**32. Təkliflərin müqayisəsi** .... 16

**33. Həddindən artıq ucuz təkliflər** .... 16

**34. Təchizatçının uyğunluq göstəriciləri** .... 16

**35. Qalib təklifin seçilməsi** .... 17

**36. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ** .... 17

**37. Satınalmanın nəticələri barədə bildiriş** .... 17

**38. Gözləmə müddəti** .... 18

**F. Qalibin seçilməsi** .... 18

39. Qalibin seçilməsi proseduru ... 18
40. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi ... 18
41. Müqavilənin imzalanması ... 18
42. Bağlanılmış müqavilə barədə məlumatın verilməsi ... 18
43. İcra təminatı ... 18
G. Şikayət verilməsi ... 19
44. Şikayət vermək hüququ ... 19
45. Satınalan təşkilata şikayət ... 19
46. AİBNDX-yə şikayət ... 20
47. Satınalmanın dayandırılması ... 21
48. İnzibati qaydada şikayət ... 21
H. Müqavilə ... 21
49. Müqavilə şərtləri ... 21
II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ ... 23
III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ - UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI ... 27
IV BÖLMƏ. SATINALMA FORMALARI ... 37
FORMA 1. Təklif məktubu ... 37
FORMA 2. Qiymət cədvəli ... 38
FORMA 3. Təchizatçı haqqında ... 39
FORMA 4. Birgə fəaliyyət haqqında ... 40
FORMA 5. Oxşar malların göndərilməsi üzrə təcrübə ... 41
FORMA 6. Subpodratçılar haqqında məlumat ... 42
FORMA 7. İstehsalçının icazəsi ... 43
(B) MALLARA DAİR TƏLƏBLƏR
(C) SATINALMA MÜQAVİLƏSİ

# I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT

## A. Ümumi

**1. Satınalma haqqında**

1.1. **Satınalma məlumat vərəqində (1)** qeyd edilən satınalan təşkilat tərəfindən *(B) Mallara dair tələblər* sənədində nəzərdə tutulmuş malların və tətbiq olunduğu halda əlaqədar xidmətlərin maliyyə vəsaiti hesabına dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun görülməsi üçün bu şərtlər toplusu hazırlanmışdır. Satınalma predmeti, satınalan təşkilatın adı, VÖEN-i və satınalan təşkilatın əlaqələndirici şəxsi barədə məlumatlar **Satınalma məlumat vərəqində (1)** qeyd edilir.

1.2. Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunundan (bundan sonra – Qanun) və digər normativ hüquqi aktlardan ibarətdir.

1.3. Təkliflərin qiymətləndirilməsi zamanı aşağıdakı anlayışlar tətbiq edilir:

(a) "Kənara çıxma" şərtlər toplusunda göstərilən tələblərdən yayınmadır;

(b) "Qeyd-şərt" məhdudlaşdırıcı şərtlərin müəyyən edilməsi və ya şərtlər toplusunda göstərilən tələblərin tam qəbul edilməsindən boyun qaçırmadır;

(c) "Çatışmazlıq" şərtlər toplusunda tələb olunan məlumat və ya sənədlərin bir hissəsinin və ya hamısının təqdim edilməməsidir.

1.4. Bu şərtlər toplusunda istifadə olunan digər anlayışlar Qanun və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar**

2.1. Satınalan təşkilat "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa riayət olunmasını tələb edir.

**3. Təchizatçıların münasibliyi**

3.1. **Satınalma məlumat vərəqində (2)** göstərilən Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların

satınalmada iştirak etməsinə məhdudiyyətlər qoyulduğu hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident təchizatçı (fiziki şəxs, hüquqi şəxs, o cümlədən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün hüquqi və (və ya) fiziki şəxslərin müqavilə əsasında yaratdığı müvəqqəti və ya daimi birliyi (bundan sonra – birgə fəaliyyət) daxil olmaqla) Azərbaycan Respublikasında keçirilən satınalmalarda iştirak edə bilər. Təchizatçı nizamnaməsi (və ya buna bərabər tutulan sənədləri) və ya qeydiyyat sənədləri ilə müəyyən olunduğu ölkənin qanunlarının müddəalarına uyğun olaraq yaradılmış, təsis edilmiş və ya qeydiyyatdan keçmiş və fəaliyyət göstərdiyi təqdirdə həmin ölkəyə mənsub hesab edilir. Müqavilənin hər hansı hissəsinin icrasına cəlb edilməsi təklif edilən subpodratçıların ölkə mənsubiyyəti bu meyar əsasında müəyyən edilir.

3.2. Təchizatçının iştirak etdiyi satınalmada Qanunun 6.1-ci maddəsinə əsasən maraqlar toqquşması olmamalıdır. *(Qanunun 6.1-ci maddəsindən çıxarış:*

*Təchizatçıların aşağıdakı hallarda (satınalma predmetinin yalnız hər hansı konkret təchizatçıda olduğu, yaxud satınalma predmetinin əvəzedicisi və alternativi olmadığı hallar istisna olmaqla) satınalmalarda iştirakına yol verilmir, bu hallar müəyyən olduqda satınalmadan kənarlaşdırılır:*

- *təchizatçının satınalan təşkilatdan və ya satınalan təşkilatla təchizatçının eyni qurumdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olduqda;*
- *təchizatçılardan biri digərinin benefisiar mülkiyyətçisi olduqda, yaxud təchizatçıların azı ikisi eyni benefisiar mülkiyyətçinin nəzarətində olduqda;*
- *təchizatçılardan biri digərinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı olduqda, yaxud təchizatçıların azı ikisinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı eyni şəxs olduqda;*
- *satınalmada təchizatçı qismində çıxış edən fiziki şəxs və ya hüquqi şəxsin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsinə əsasən aidiyyəti şəxsi satınalan təşkilatın rəhbəri ilə qohumluq (ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürənlər, övladlığa götürülmüş şəxslər, babalar, nənələr, nəvələr, doğma (ögey) bacılar və qardaşlar, bacı və qardaşların övladları, bacıların ərləri, qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, ər-arvadların valideynləri, bacıları və qardaşları) münasibətində*

*olduqda).*

3.3. Birgə fəaliyyətin üzvü olaraq və ya fərdi şəkildə alternativ təkliflərə icazə verilən hallar istisna olmaqla təchizatçılar eyni satınalma üzrə birdən artıq təklif təqdim etməməli və ya birdən artıq təklifdə iştirak etməməli, həmçinin həmin satınalmada iştirak edən digər təchizatçının subpodratçısı olmamalıdır. Bu hal aşkarlandıqda həmin təchizatçıların təqdim etdikləri və (və ya) iştirak etdikləri bütün təkliflər kənarlaşdırılır.

3.4. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar bu məqsədlə tərəflərin hər birinin imzaladığı müqaviləyə və ya müqavilə layihəsi əlavə edilməklə müqavilə bağlamaq barədə tərəflərin hər birinin imzaladığı niyyət məktubuna malik olmalıdırlar. Bu halda birgə fəaliyyət göstərmək istəyən tərəflərin hər birinin müqavilənin müqavilə şərtlərinə uyğun icrası üçün birgə və fərdi məsuliyyət daşıması və tərəflər arasındakı iş öhdəliklərinin bölgüsü barədə müddəalar birgə fəaliyyət müqaviləsinə və ya müqavilə layihəsinə daxil edilməlidir. Birgə fəaliyyət onun adından və tərəfləri üçün satınalmada iştirak və müqavilə bağlanıldıqda isə müqavilənin icrasını təmin etmək məqsədilə müvafiq səlahiyyətə malik nümayəndə təyin edir. **Satınalma məlumat vərəqində (3)** göstərilmədiyi təqdirdə birgə fəaliyyətin üzvlərinin sayına məhdudiyyət qoyulmur.

3.5. Qanunun 16-cı maddəsi ilə tənzimlənən qaydada etibarsız təchizatçıların reyestrinə daxil edilmiş təchizatçıların müəyyən olunmuş müddətdə satınalmalarda iştirakına yol verilmir. Etibarsız təchizatçıların reyestri etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalında (bundan sonra – Portal) yerləşdirilir.

3.6. Ehtimal olunan qiymət 30 000 manatadək olduqda orta və iri sahibkarlıq subyekti olan təchizatçıların, ehtimal olunan qiymət 30 000 manatdan 100 000 manatadək olduqda isə iri sahibkarlıq subyekti olan təchizatçıların satınalmalarda iştirakına yol verilmir.

3.7. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru keçirildikdə, yalnız uyğunluq göstəricilərinə cavab verən təchizatçılar satınalmada iştirak edə bilərlər.

**4. Malların və əlaqədar xidmətlərin münasibliyi**

4.1. Müqavilə çərçivəsində Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçılar və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan

Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçılar tərəfindən malların (materialların, avadanlıqların və s.) təchiz edilməsinə və xidmətlərin göstərilməsinə yol verilmir. Satınalan təşkilatın tələbi ilə təchizatçılardan malların və xidmətlərin mənşəyinə dair sübut təqdim etmələri tələb oluna bilər.

4.2. Mallar anlayışı Qanunun 1.1.13-cü maddəsinə əlavə olaraq əmtəə, xammal, maşın, avadanlıq, sənaye qurğuları və sığorta, quraşdırma, təlim, ilkin texniki qulluq kimi əlaqədar xidmətləri əhatə edir.

4.3. Malların mənşə ölkəsi qanunvericiliklə müəyyən edilmiş qaydada təyin edilir.

**5. Satınalmada istifadə və iştirak haqqı**

5.1. Birdəfəlik və ya istifadə müddətinə görə istifadə haqqını ödəyərək Portaldan istifadə hüququnu əldə etmiş təchizatçılar təklifləri təqdim etmək üçün **Satınalma məlumat vərəqində (4)** qeyd edilən məbləğdə iştirak haqqı ödəyirlər.

5.2. İstifadə və iştirak haqqı Portalda “ASAN ödəniş” sistemi vasitəsilə bank kartı ilə ödənilir.

5.3. Təklifini təqdim etmiş tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayının üçdən az olması səbəbindən satınalmanın ləğv edilməsi və həmin satınalma predmeti üzrə təkrar satınalma keçirilməməsi halı istisna olmaqla ödənilmiş iştirak haqqı və istifadə haqqı heç bir halda geri qaytarılmır. Satınalmanın maliyyələşdirilməsinin dayandırılması və təchizatçıların sayının üçdən az olması səbəbindən satınalma ləğv edildikdə satınalma planında nəzərdə tutulmuş həmin satınalma predmeti üzrə təkrar satınalma keçirildiyi təqdirdə iştirak haqqını ödəyən və geri almayan təchizatçıların təkrar ödəniş etmədən satınalmada iştirakı təmin edilir.

5.4. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru keçirildikdə uyğunluq göstəricilərinə cavab verərək satınalmada iştirakı davam etdirən təchizatçılar iştirak haqqı ödəmirlər.

## B. Şərtlər toplusunun məzmunu

**6. Şərtlər toplusunun tamlığı**

6.1. Şərtlər toplusu aşağıda verilmiş bütün bəndləri əhatə edən və təchizatçılar üçün təlimatın (bundan sonra – Təlimat) 7-ci hissəsinə uyğun olaraq ona edilən dəyişikliklər və əlavələrlə birlikdə nəzərə alınmalı olan aşağıdakı bölmələrdən ibarətdir:

- A. SATINALMA PROSEDURLARI
  - I Bölmə. Təchizatçılar üçün təlimat
  - II Bölmə. Satınalma məlumat vərəqi
  - III Bölmə. Qiymətləndirmə və uyğunluq meyarları
  - IV Bölmə. Satınalma formaları
- B. MALLARA DAİR TƏLƏBLƏR
- C. SATINALMA MÜQAVİLƏSİ

6.2. Təchizatçıdan şərtlər toplusunda verilmiş bütün təlimat, forma, tələb, texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri) ilə tanış olması və şərtlər toplusunda tələb edilən bütün məlumat və sənədləri təqdim etməsi tələb olunur.

6.3. Portal vasitəsilə birbaşa əldə edilmədiyi təqdirdə satınalan təşkilat şərtlər toplusunun tamlığı, şərtlər toplusunda aydın olmayan hallarla bağlı sorğularına, əvvəlki görüşlərin (əgər olubsa) nəticələri barədə protokollara və (və ya) Təlimatın 7-ci hissəsinə uyğun olaraq şərtlər toplusuna edilmiş dəyişikliklərə görə məsuliyyət daşımır. Hər hansı ziddiyyət olduqda Portaldan birbaşa əldə olunan sənədlər üstünlük təşkil edir.

**7. Şərtlər toplusuna dair izahat**

7.1. Təchizatçı şərtlər toplusunda aydın olmayan hallarla bağlı təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 5 (beş) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (5)** qeyd olunan tarix və vaxt) satınalan təşkilata Portal vasitəsilə sorğu ünvanlaya bilər. Satınalma komissiyası sorğunu aldıqdan sonra 2 (iki) iş günü ərzində sorğuya cavab verir. Sorğu və ona verilən cavab sorğu verənin gizliliyi təmin edilməklə həmin gün Portalda yerləşdirilir.

7.2. Sorğu və ona verilən cavab şərtlər toplusuna əlavə edilərək onun ayrılmaz tərkib hissəsi hesab edilir.

7.3. Satınalan təşkilatla təchizatçılar arasında görüş keçirildiyi zamanı iştirak haqqını ödəmiş bütün təchizatçılar üçün bərabər iştirak imkanları yaradılır və görüş videomüşahidə vasitələrinin nəzarəti altında aparılaraq nəticələri protokolla rəsmiləşdirilir. Protokol nəzərə alınmaq üçün iştirak haqqını ödəmiş bütün təchizatçılara həmin gün göndərilir və Portalda yerləşdirilir. Satınalan təşkilatla təchizatçılar arasında qeyri-rəsmi danışıqlar aparılması və görüşlərin keçirilməsi qadağandır.

**8. Şərtlər toplusuna dəyişikliklərin edilməsi**

8.1. Satınalma komissiyası təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (6)** qeyd olunan tarix və vaxtadək) şərtlər toplusuna hər hansı təchizatçının sorğusu əsasında

və ya texniki səhvlər və ya çatışmazlıqlar aşkar edildikdə öz təşəbbüsü ilə dəyişikliklər (satınalma predmetinin dəyişdirilməsi istisna olmaqla) edə bilər.

8.2. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə şərtlər toplusunda hər hansı dəyişiklik edilməsinə, habelə bununla bağlı hər hansı sorğuya, təklifə və icazəyə yol verilmir.

8.3. Satınalma komissiyası şərtlər toplusuna dəyişikliklər etdiyi halda təkliflərin təqdim edilməsi müddətini ən azı 5 (beş) iş gününədək uzadır. Təchizatçının əsaslandırılmış müraciəti əsasında təkliflərin təqdim edilməsi müddəti 10 (on) iş gününədək uzadıla bilər.

8.4. Şərtlər toplusuna edilmiş dəyişiklik onun ayrılmaz tərkib hissəsi hesab edilir. Dəyişikliklər Portal vasitəsilə bütün təchizatçılara göndərilir və bütün təchizatçılar üçün məcburi qüvvəyə malikdir.

## C. Təkliflərin hazırlanması

**9. Satınalma xərcləri**

9.1. Təchizatçı öz təklifini hazırlamaq və təqdim etməklə bağlı bütün xərcləri özü çəkir və satınalan təşkilat satınalma prosesinin nəticəsindən asılı olmayaraq həmin xərclərə görə məsuliyyət və ya öhdəlik daşımır.

**10. Təklifin tərtib olunmasının dili**

10.1. Təklif və həmçinin təchizatçı ilə satınalan təşkilat arasında bütün yazışmalar və sənəd mübadiləsi Azərbaycan dilində aparılır. Satınalma komissiyasının qərarı ilə satınalmalara dair sənədlər **Satınalma məlumat vərəqində (7)** nəzərdə tutulmuş xarici dillərdən birinə (bir neçəsinə) tərcümə oluna bilər. Bu halda satınalmalara dair sənədlər arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

10.2. Təklifin tərkibinə daxil olan müşayiətedici sənədlər və çap materialları tərcüməsi ilə verilmək şərtilə başqa dildə ola bilər. Təchizatçının xarici dildə təqdim etdiyi sənədlərin Azərbaycan dilinə notarial qaydasında təsdiqlənmiş tərcüməsi təqdim olunmalıdır. Təklif ilə tərcüməsi arasında ziddiyyət yaranarsa Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

**11. Təklifə daxil olan sənədlər**

11.1. Təchizatçı təqdim etdiyi təklifə aşağıdakıları əlavə edir:

(a) Təlimatın 12-ci hissəsinin tələbləri nəzərə alınmaqla təklif məktubu;

(b) Təlimatın 12-ci və 13-cü hissələrinin tələbləri əsasında qiymətləndirilmiş qiymət cədvəli daxil olmaqla digər cədvəllər;

(c) səlahiyyət: Təlimatın 18.2-ci və 21.4-cü bəndlərinə uyğun olaraq təklifi imzalayan şəxsin səlahiyyətli olduğunun yazılı təsdiqi;

(d) uyğunluq: Təlimatın 16-cı hissəsinin tələbləri nəzərə alınmaqla uyğunluq sənədləri, habelə şərtlər toplusunda nəzərdə tutulduğu halda subpodratçının müəyyən olunmuş tələblərə uyğun olması barədə sənədlər;

(e) münasiblik: Təlimatın 15-ci hissəsinin tələbləri nəzərə alınmaqla texniki təklif;

(f) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində tələb olunan digər sənədlər.

11.2. Təlimatın 11.1-ci bəndinin tələblərinə əlavə olaraq birgə fəaliyyət tərəfindən təqdim edilən təklifə bütün tərəflərin imzaladığı birgə fəaliyyət müqaviləsinin surəti daxil edilməlidir. Alternativ olaraq, satınalmada qalib olacağı təqdirdə birgə fəaliyyət müqaviləsinin icrasına dair niyyət məktubunu bütün tərəflər imzalamalı və birgə fəaliyyət müqavilə layihəsi ilə birlikdə təqdim edilməlidirlər.

**12. Təklif məktubu və cədvəllər**

12.1. Təklif məktubu və qiymət cədvəli Satınalma formaları (IV) bölməsində verilmiş müvafiq formalardan istifadə edilməklə hazırlanmalıdır. Formalar mətnə heç bir dəyişiklik edilmədən doldurulmalıdır və heç bir əvəzedici qəbul edilə bilməz. Bütün boş xanalara tələb olunan məlumatlar yazılmalıdır.

**13. Təklifin qiyməti**

13.1. Təklif məktubunda və qiymət cədvəlində göstərilən qiymətlər bu hissədə göstərilən tələblərə cavab verməlidir.

13.2. Təchizatçı qiymət cədvəlində göstərilən bütün bəndlərə qiymət daxil etməlidir. Təchizatçı tərəfindən qiymət daxil edilməyən və həmin hissələrin əlavə ödənişsiz icra edilməsi ilə bağlı qeyd olan bəndlərin qiymət cədvəlinə daxil edilən digər qiymətlərlə əhatə edildiyi qəbul ediləcəkdir. Hər hansı qeyd olmadan qiymət daxil edilməyən bəndləri olan təklif natamam hesab ediləcəkdir.

13.3. Azərbaycan Respublikasının ərazisindən kənarda satın alınan malların göndərilməsinə dair tələblər Parisdə Beynəlxalq Ticarət Palatası tərəfindən nəşr edilən və qüvvədə olan “Ticarət terminlərinin təfsirinin beynəlxalq Qaydaları “Inkoterms 2020” şərtlərinə, Azərbaycan Respublikasının ərazisi daxilində malların göndərilməsinə dair tələblər və şərtlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq müəyyənləşdirilir və bu barədə məlumat **Satınalma məlumat vərəqində (8)** göstərilir.

13.4. Qiymət endirimlərinə icazə verilmir.

**14. Təklifin və ödənişin məzənnəsi**

14.1. Təchizatçılar (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təkliflərində qiymətləri Azərbaycan Respublikasının pul vahidi - manatla göstərməlidirlər.

14.2. Qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri sərbəst dönərli xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə əsas götürülməlidir.

**15. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)**

15.1. Təchizatçı *(B) Mallara dair tələblər* sənədində qeyd olunan tələblərə cavab verdiyini göstərmək və təklifinin yetərliliyini nümayiş etdirmək üçün Satınalma formaları (IV) bölməsində nəzərdə tutulmuş hər hansı digər məlumat daxil olmaqla kifayət qədər təfərrüatlı texniki təklif təqdim etməlidir.

15.2. Təklif edilən hər bir avadanlığın, texnikanın, məhsulun və digər malların özünəməxsus texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri), o cümlədən konkret əmtəə nişanı və adı, modeli, istehsal mənbəyi (mənşə ölkəsi) və istehsalçısına aid məlumatlar və istehsalçının texniki məlumat vərəqi (hansı varsa) təklifə əlavə edilməlidir.

15.3. Təchizatçı həmçinin malların **Satınalma məlumat vərəqində (9)** göstərilən müddətdə fasiləsiz və müntəzəm çalışa bilməsi (istismar edilməsi) üçün ehtiyat hissələrin, xüsusi alətlərin və bunların əldə edilməsi mənbələri və qiymətlərini təqdim etməlidir.

15.4. İşçilik, əməliyyat, material və avadanlıqlar üçün *(B) Mallara dair tələblər* sənədinə daxil edilmiş standartlar, həmçinin əmtəə nişanlarına və kataloq nömrələrin istinadlar malları yalnız təsvir etmək, məhdudlaşdırmamaq məqsədi daşıyır. Təchizatçı *(B) Mallara dair tələblər* sənədində verilmiş tələblərə cavab vermək və ya üstələmək şərti ilə istənilən digər keyfiyyət standartları, əmtəə nişanları, kataloq nömrələrindən istifadə edə bilər.

**16. Uyğunluq sənədləri**

16.1. Təchizatçıların uyğunluq göstəriciləri təchizatçılara dair ümumi və xüsusi tələblərdən ibarətdir.

16.2. Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinin tələblərinə uyğun olaraq təchizatçılar müqaviləni icra etmək imkanlarını göstərmək üçün Satınalma formaları (IV) bölməsinə daxil edilən müvafiq məlumat vərəqələrini təmin etməli, habelə Qanunun 23-cü maddəsinə əsasən təchizatçıların uyğunluq göstəricilərini təsdiq edən sənədlər (bundan sonra – uyğunluq sənədləri)

təqdim etməlidir.

16.3. Təchizatçının qalib olduğu təqdirdə müqaviləni satınalan təşkilatı qane edəcək şəkildə icra etmək bacarıqlarının sənədli sübutu olaraq aşağıdakıları təmin edəcəkdir:

(a) **Satınalma məlumat vərəqində (10)** tələb olunduğu təqdirdə təklif etdiyi malları özü istehsal etməyən təchizatçı Satınalma formaları (IV) bölməsinə daxil edilən formadan istifadə edərək malların istehsalçısı tərəfindən təchiz edilən malların satınalan təşkilatın ölkəsində səlahiyyətli nümayəndə olduğunu göstərən İstehsalçı icazəsini təqdim edəcək;

(b) **Satınalma məlumat vərəqində (11)** tələb olunduğu təqdirdə biznesi satınalan təşkilatın ölkəsində olmayan təchizatçının texniki qulluq, təmir və ehtiyat hissələrin saxlanılması imkanlarına malik nümayəndəlik yaradaraq təchizatçının müqavilədə və (və ya) *(B) Mallara dair tələblər* sənədində müəyyən edilən satış sonrası xidmət öhdəliklərini həyata keçirəcək.

**17. Təklifin qüvvədə olma müddəti**

17.1. Təkliflər **Satınalma məlumat vərəqində (12)** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış tarixədək qüvvədə olmalıdır. **Satınalma məlumat vərəqində** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış tarixədək qüvvədə olmayan təkliflər formal tələblərə uyğun gəlməyən təklif kimi kənarlaşdırılır.

17.2. Satınalma komissiyası ən çoxu təkliflərin ilkin qüvvədə olduğu müddət qədər təkliflərin qüvvədə olma müddətinin uzadılmasını təchizatçılardan tələb edə bilər.

**18. Təklifin formatı və imzalanması**

18.1. Təchizatçılar təkliflərində biznesləri üçün məxfi olan bütün məlumatları "MƏXFİ" kimi qeyd etməlidirlər. Buraya mülkiyyət məlumatları, ticarət sirləri və ya kommersiya/maliyyə baxımından həssas məlumatlar daxil ola bilər.

18.2. Təklif təchizatçının rəhbəri və ya digər vəzifəli şəxsi tərəfindən imzalanmalıdır. Təklifi təchizatçının rəhbəri imzaladıqda həmin təchizatçının təsis və hüquqi və ya fiziki şəxsin qeydiyyat sənədlərini təqdim etməlidir. Təklifi imzalayan digər vəzifəli şəxs olduğu təqdirdə isə həmin vəzifəli şəxsə imza səlahiyyətlərinin verilməsinə dair həmin təchizatçının rəhbəri tərəfindən səlahiyyəti təsdiq edən sənəd - etibarnamə təqdim edilməlidir.

18.3. Təchizatçı birgə fəaliyyət göstərdiyi halda təklif birgə fəaliyyət göstərən təchizatçıların səlahiyyətli nümayəndəsi

tərəfindən imzalanmalıdır. Həmin nümayəndənin imza səlahiyyətinə malik olması 21.3-cü bəndinin tələbləri nəzərə alınmaqla birgə fəaliyyət göstərən təchizatçıların rəhbərləri tərəfindən imzalanmış etibarnamə ilə təsdiq edilir.

## D. Təkliflərin təqdim olunması və açılması

**19. Təkliflərin təqdim edilməsinin son müddəti**

19.1. Təkliflər onların təqdim edilməsi üçün **Satınalma məlumat vərəqində (13)** müəyyən edilən müddət başa çatanadək Portal vasitəsilə elektron qaydada satınalan təşkilata təqdim edilir.

**20. Gecikmiş təkliflər**

20.1. Təlimatın 19-cu hissəsi ilə müəyyən olunmuş müddətdən gec təqdim olunan təklif qəbul edilmir.

**21. Təkliflərin geri götürülməsi və ya dəyişdirilməsi**

21.1. Təchizatçı təkliflərin təqdim edilməsi müddəti bitənədək öz təklifini dəyişdirə və ya geri götürə bilər.

21.2. Təlimatın 21.1-ci bəndinə uyğun olaraq geri götürülməsi istənilən təklif açılmadan təchizatçıya qaytarılır.

**22. Təkliflərin açılması**

22.1. Təkliflərin son təqdim olunması müddətinə qədər təqdim olunmuş təkliflər satınalma komissiyası tərəfindən **Satınalma məlumat vərəqində (14)** qeyd olunan tarixdə və vaxtda Portal vasitəsilə elektron qaydada açılır.

22.2. Təkliflər açılarkən hər bir təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı və atasının adı), ünvanı, VÖEN-i, təklifinin qiyməti və qüvvədə olma müddəti Portalda dərc olunur.

## E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi

**23. Məxfilik (konfidensiallıq)**

23.1. Məhkəmənin, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra – AİBNDX), Azərbaycan Respublikası Hesablama Palatasının və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin qanunla müəyyən edilmiş hüquq və vəzifələrinin icrası ilə bağlı məlumatların açıqlanması halları istisna olmaqla, satınalan təşkilat digər hallarda təchizatçıların kommersiya sirri təşkil edən və ya qanunla qorunan digər məlumatlarını açıqlamır və onları məxfi (konfidensial) saxlayır.

23.2. Təchizatçılar tərəfindən təqdim edilən uyğunluq sənədləri və təkliflər, bağlanan satınalma müqaviləsinin surəti, satınalma müqaviləsi uzunmüddətlidirsə və ya mərhələlərlə həyata keçirilirsə, icrasının gedişi haqqında mütəmadi məlumatlar, satınalan təşkilatla təchizatçı arasında satınalma müqaviləsinin icrası, mübahisəli

məsələlərin həlli ilə əlaqədar sənədlər və satınalma müqaviləsinin tam icra edilməsi haqqında satınalan təşkilatla təchizatçı arasında imzalanan təhvil-təslim aktı istisna olmaqla, satınalmaya dair hesabata əlavə edilən digər sənədlər təklifin akseptindən, yaxud satınalma müqaviləsinin bağlanması ilə nəticələnməyən satınalma yekunlaşdıqdan sonra 7 (yeddi) iş günü ərzində sorğu əsasında təklif təqdim edən təchizatçılara verilir.

23.3. Təchizatçı satınalmanın istənilən mərhələsində Qanunun tələblərinə zidd hərəkətlərə (hərəkətsizliyə) yol verdikdə, o cümlədən saxta sənəd və (və ya) məlumat təqdim etdikdə satınalma komissiyası həmin təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

23.4. Təchizatçı Təlimatın 23.3-cü bəndinin tələblərini nəzərə almaqla satınalma prosesi ilə əlaqədar olan hər hansı məsələyə dair satınalma komissiyası ilə yalnız Portal vasitəsilə əlaqə saxlaya bilər.

**24. Təkliflərə dair izahat**

24.1. Uyğunluq sənədlərinin və təkliflərin qiymətləndirilməsini asanlaşdırmaq məqsədilə satınalma komissiyası təchizatçıdan təqdim etdiyi uyğunluq sənədlərinə və ya təkliflərə dair izahat tələb edə bilər. Təchizatçı tərəfindən satınalma komissiyasının sorğusuna uyğun verilməyən cavablar nəzərə alınmır. Satınalma komissiyası tərəfindən qiymətləndirmə zamanı təklifin qiymətlərində və ya mahiyyətində heç bir dəyişiklik, o cümlədən könüllü artım və ya azalma tələb edilməsinə yol verilmir.

24.2. Təchizatçı bu cür izahatı 5 (beş) iş günü ərzində satınalan təşkilata təqdim etmədiyi təqdirdə onun təklifi kənarlaşdırıla bilər.

**25. Formal tələblərə uyğunluğun müəyyən edilməsi**

25.1. Satınalma komissiyası Qanunun 33-cü maddəsinin tələblərini nəzərə almaqla Təlimatın 11-ci hissəsində göstərilmiş tələblərə cavab verən təklifi formal tələblərə uyğun təklif hesab edir.

25.2. Təklif əhəmiyyətli dərəcədə uyğun təklif hesab edilməsi üçün aşağıdakı hallar nəzərə alınmaqla əsaslı kənara çıxma, qeyd-şərt və çatışmazlıq olmadan şərtlər toplusunun tələblərinə cavab verməlidir:

(a) qəbul edildiyi təqdirdə: (i) müqavilədə göstərilən malların həcminə, keyfiyyətinə və ya icrasına hər hansı əhəmiyyətli şəkildə təsir edəcək və ya (ii) şərtlər toplusunun tələblərinə zidd olaraq satınalan təşkilatın hüquqlarını və ya təklif olunan müqavilə çərçivəsində

təchizatçının öhdəliklərini əsaslı şəkildə məhdudlaşdıracaq və ya

(b) düzəldildiyi təqdirdə, əhəmiyyətli dərəcədə uyğun hesab edilən digər təchizatçıların rəqabət mövqeyinə ədalətsiz təsir göstərəcək.

25.3. Satınalma komissiyası xüsusilə, *(B) Mallara dair tələblər* sənədində qeyd olunan bütün tələblərin, heç bir əsaslı kənara çıxma, qeyd-şərt və ya çatışmazlıq olmadan yerinə yetirildiyini təsdiqləmək üçün Təlimatın 15-ci hissəsinə uyğun olaraq təqdim edilmiş təklifin texniki aspektlərini yoxlamalıdır.

25.4. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə əsaslı kənara çıxmaya, qeyd-şərtə və ya çatışmazlığa düzəliş edilməsinə yol verilmədən kənarlaşdırılır.

**26. Əhəmiyyətsiz uyğunsuzluqlar**

26.1. Təklifdə onun mahiyyətini dəyişdirməyən, şərtlər toplusunda göstərilmiş xüsusiyyətlərə, şərtlərə və başqa tələblərə əhəmiyyətli dərəcədə xələl gətirməyən, aradan qaldırılması mümkün olan kiçik texniki səhvlər və ya çatışmazlıqlar (əhəmiyyətsiz uyğunsuzluqlar) olduqda, həmin səhvlər və ya çatışmazlıqlar kəmiyyətcə ifadə olunur və satınalma komissiyası təklifi formal tələblərə uyğun təklif hesab edir.

26.2. Təklifin əhəmiyyətli dərəcədə uyğun olması şərti ilə, satınalma komissiyası təchizatçının sənədləşdirmə tələbləri ilə bağlı əhəmiyyətsiz uyğunsuzluqları təchizatçıdan 5 (beş) iş günü ərzində aradan qaldırmasını tələb edə bilər. Bu cür uyğunsuzluqlar haqqında məlumat və ya sənədlərin tələb edilməsi təklifin qiymətinin heç bir aspekti ilə əlaqəli olmamalıdır. Təchizatçının qeyd edilmiş müddət ərzində sorğuya cavab verməməsi onun təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.

**27. Hesab səhvlərinin düzəldilməsi**

27.1. Təqdim olunan təkliflər qiymətləndirilərkən hesab səhvlərinin düzəldilməsinə yol verilmir.

**28. Vahid valyutaya konvertasiya**

28.1. Qiymətləndirmə və müqayisə məqsədilə qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri bütövlüklə və ya bir qismi xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə (www.cbar.az/currency/rates) əsas götürülərək Azərbaycan manatına konvertasiya edilməlidir.

**29. Satınalma güzəşti**

29.1. Satınalma komissiyası təklifləri qiymətləndirərkən yerli

mənşəli Mallar üzrə təklifin xeyrinə Qanunun 33.14-cü maddəsi ilə müəyyən edilmiş qaydada 20 faizə qədər həcmdə güzəşti düzəliş tətbiq edir.

**30. Subpodratçılar**

30.1. **Satınalma məlumat vərəqində (15)** nəzərdə tutulduğu təqdirdə, qalib təchizatçı malların görülməsi ilə əlaqədar xidmətlərin göstərilməsi üçün subpodratçılarla müqavilə imzalaya bilər. Bütün digər hallarda satınalma müqaviləsinin icrası subpodratçılara həvalə edilə bilməz. Bu halda təchizatçı təqdim etdiyi təklifə subpodratçıya həvalə ediləcək fəaliyyət (fəaliyyətlər) və ya onların satınalma müqaviləsindəki payı barədə məlumat əlavə etməlidir. Subpodrat müqaviləsinin (müqavilələrinin) məbləği satınalma müqaviləsinin ümumi dəyərinin 50 faizindən çox olmamalıdır. Satınalma müqaviləsinin icrasına subpodratçılar cəlb olunduğu halda, subpodrat müqavilələrinin ümumi məbləğinin 20 faizdən az olmayan hissəsinin icrası Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş mikro, kiçik və orta sahibkarlıq subyektlərinə həvalə olunmalıdır.

30.2. Subpodratçının uyğunluq göstəriciləri şərtlər toplusunda təchizatçı üçün müəyyən edilmiş uyğunluq göstəriciləri tələblərinə cavab verməK üçün istifadə edilməməlidir.

**31. Təkliflərin qiymətləndirilməsi**

31.1. Satınalan təşkilat təklifləri Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulan meyarlara və prosedurlara əsasən qiymətləndirir.

31.2. Təklifi qiymətləndirərkən satınalma komissiyası aşağıdakıları nəzərə alır:

(a) Təlimatın 28.1-ci bəndinə uyğun digər valyutada təklif olduğu təqdirdə vahid məzənnəyə konvertasiya;

(b) Təlimatın 29-cu hissəsinə uyğun olaraq satınalma güzəştinin tətbiqi;

(c) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində müəyyən edilmiş digər qiymətləndirmə meyarları.

31.3. Təklifin qiymətləndirməsi zamanı Təlimatın 13-cü hissəsində təklifin qiymətinə əlavə olaraq digər amillərin də nəzərə alınması tələb edilə bilər. Bu amillər malların xüsusiyyətləri, funksional göstəriciləri, mallar və əlaqədar xidmətlərin satınalma şərtləri ilə bağlı ola bilər. **Satınalma məlumat vərəqində (16)** başqa hal nəzərdə tutulmadığı təqdirdə seçilmiş amillərin təsiri (əgər varsa), Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə müqayisəni asanlaşdırmaq məqsədilə pul ilə

ifadə edilməlidir. İstifadə olunacaq meyarlar və metodologiyalar Təlimatın 31.2(c) bəndində göstərildiyi kimi olmalıdır.

**32. Təkliflərin müqayisəsi**

32.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı qiyməti olan təklifi müəyyən etmək üçün Təlimatın 31.1-ci bəndinə uyğun olaraq müəyyən edilmiş tələblərə əhəmiyyətli dərəcədə cavab verən bütün təkliflərin qiymətləndirilmiş yekun məbləğini müqayisə etməlidir.

**33. Həddindən artıq ucuz təkliflər**

33.1. Təchizatçının təqdim etdiyi təklifin qiyməti ehtimal olunan qiymətlə müqayisədə 20 faizdən aşağı olarsa, satınalma komissiyası təchizatçıdan təklif qiymətinin ətraflı təhlili, təklif olunan metodologiya, iş qrafiki, risk və məsuliyyətin paylaşdırılması, habelə şərtlər toplusunun digər tələbləri barədə yazılı izahat almalıdır. Təchizatçının təqdim etdiyi izahat və məlumatlar təhlil edildikdən sonra satınalma müqaviləsinin icrasına əsaslı şübhələr qaldıqda satınalma komissiyası təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

**34. Təchizatçının uyğunluq göstəriciləri**

34.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı məbləği olan və əhəmiyyətli dərəcədə uyğun olan ilk 3 (üç) təchizatçının təklifinin Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində qeyd edilmiş uyğunluq göstəricilərinə cavab verib-vermədiyini müəyyən etməlidir.

34.2. Bunun müəyyənləşdirilməsi üçün Təlimatın 16-cı hissəsinə uyğun olaraq təchizatçı tərəfindən təqdim edilmiş uyğunluq göstəricilərini təsdiq edən sənədlər araşdırılmalı, təchizatçının özündən başqa digər törəməsi və ya tabe olduğu müəssisələr, törəmə və tabeliyində olan müəssisələri, filialları və subpodratçılarının uyğunluq sənədləri nəzərə alınmamalıdır.

34.3. Uyğunluq göstəricilərinə cavab verən təklifin seçilməsi müqavilənin bağlanması üçün ilkin şərtdir. Təlimatın 40.1-ci bəndinin tələbləri yerinə yetirilmədikdə qiymətləndirilmiş ən aşağı məbləği olan növbəti təklif və ya təkliflərin uyğunluq tələblərinə cavab verib-vermədiyi müvafiq qaydada araşdırılır.

34.4. **Satınalma məlumat vərəqində (17)** göstərilən hallarda, satınalma komissiyası tərəfindən əsaslandırılmaqla uyğunluq sənədlərini təqdim etmiş təchizatçıdan satınalmanın istənilən mərhələsində həmin sənədlərin yenidən (bir dəfədən çox olmayaraq) təqdim edilməsi tələb oluna bilər. Bu cür tələb təklifin qüvvədə olma müddətinin bitməsinə 10 (on) iş günü qalanadək irəli sürülür və

uyğunluq sənədlərinin yenidən təqdim edilməsi 5 (beş) iş günü ərzində həyata keçirilir.

34.5. Təchizatçının uyğunluq göstəriciləri barədə verdiyi qeyri-dəqiq və natamam məlumat satınalma komissiyasının tələbi ilə 3 (üç) iş günü ərzində aradan qaldırılmalıdır.

**35. Qalib təklifin seçilməsi**

35.1. Uyğunluq göstəricilərinə cavab verən və təklifləri uyğun olan ən aşağı qiymət təklifi təqdim edən təchizatçı qalib təchizatçı sayılır.

**36. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ**

36.1. Satınalma komissiyası Qanunun tələblərini nəzərə almaqla qalib təchizatçını seçməzdən əvvəl istənilən vaxt istənilən təklifi aksept etmək və ya kənarlaşdırmaq və satınalmanın ləğv edilməsi haqqında qərar qəbul etmək hüququnu özündə saxlayır və buna görə təchizatçılar qarşısında heç bir məsuliyyət daşımır. Zərflər açılana qədər satınalma ləğv edildiyi halda təkliflər dərhal geri qaytarılır.

36.2. Satınalma komissiyası aşağıdakı hallarda satınalmanın ləğv edilməsi haqqında qərar qəbul edir:

(a) satınalmada iştirak etmək üçün təklifi təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayı üçdən az olduqda;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(c) birinci, ikinci və üçüncü yerləri tutmuş təchizatçılar arasından qalib təchizatçını seçmək mümkün olmadıqda;

(d) bütün təchizatçıların təqdim etdiyi təkliflərin qiyməti ehtimal olunan qiymətdən yüksək olduqda;

(e) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən bu Təlimatın 3.2-ci bəndinin tələblərinin pozulduğu müəyyən edildikdə;

(f) satınalmanın maliyyələşdirilməsi dayandırıldıqda.

**37. Satınalmanın nəticələri barədə bildiriş**

37.1. Satınalma komissiyası satınalmanın nəticələri haqqında yekun protokolu imzaladığı gün satınalan təşkilatın adından təklifini aksept etmək istədiyi təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), ünvanı, VÖEN-i, imzalanması nəzərdə tutulan müqavilənin məbləği, habelə gözləmə müddətinin qüvvədə olma tarixləri barədə satınalmadan kənarlaşdırılmamış təchizatçılara Təlimatın 41-ci hissəsi nəzərə alınmaqla bildiriş göndərməklə yanaşı Portalda məlumat yerləşdirir.

Bildirişdə digər təchizatçıların qalib gəlməməsinin səbəbləri göstərilir.

**38. Gözləmə müddəti**

38.1. Satınalmanın nəticələri barədə bildirişin göndərildiyi gündən sonrakı iş günü gözləmə müddəti başlayır və 5 (beş) iş günü ərzində qüvvədə olur. Gözləmə müddəti bitmədən satınalan təşkilat ilə qalib təchizatçı arasında müqavilə imzalana bilməz.

## F. Qalibin seçilməsi

**39. Qalibin seçilməsi proseduru**

39.1. Təlimatın 36-cı hissəsinin tələbləri nəzərə alınmaqla satınalma komissiyası qalib təchizatçını seçir.

**40. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi**

40.1. Satınalma müqaviləsi qalib təchizatçı tərəfindən imzalananadək satınalma komissiyası əvvəlcədən şərtlər toplusunda göstərmişdirsə, satınalma predmetinin hər vahidinin qiymətini və xüsusiyyətlərini (göstəricilərini) dəyişdirməmək, həmçinin ehtimal olunan qiyməti keçməmək şərti ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin razılığı ilə satınalma predmetinin həcmini (miqdarını) 10 faizə qədər artırıb-azalda bilər.

**41. Müqavilənin imzalanması**

41.1. Satınalan təşkilat təklifin şərtlər toplusunda göstərilmiş qüvvədə olma müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək qalib təchizatçının təklifini aksept edir və satınalma müqaviləsini tərtib edib təchizatçıya aksept bildirişi ilə birlikdə göndərir.

41.2. Qalib təchizatçı 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalayır və satınalan təşkilata bu Qanuna əsasən tələb olunan icra təminatını təqdim edir. Satınalan təşkilat satınalma müqaviləsini 10 (on) iş günündən gec olmayaraq imzalayır.

**42. Bağlanmış müqavilə barədə məlumatın verilməsi**

42.1. Satınalma komissiyası satınalma müqaviləsi qüvvəyə mindiyi gündən 3 (üç) iş günü ərzində satınalan təşkilatın və müqaviləni bağlamış təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), VÖEN-i, satınalma predmeti, satınalma metodu, müqavilənin məbləği və icra müddəti barədə Portalda məlumat yerləşdirir.

**43. İcra təminatı**

43.1. İcra təminatının məbləği satınalma müqaviləsinin ümumi məbləğinin 10 faizi (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 5 faizi) həcmində müəyyən olunur. İcra təminatının qüvvədə olma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda, zəmanət müddəti daxil olmaqla) 30 (otuz) iş günü çox olmalıdır.

43.2. Ümumi məbləği 30 000 (otuz min) manatdan az olan satınalma müqaviləsi üzrə icra təminatı tələb olunmur.

43.3. Qalib təchizatçının Təlimatın 41.2-ci bəndində qeyd olunan müddət ərzində satınalma müqaviləsini imzalamaması və (və ya) Qanuna əsasən tələb olunan icra təminatını təqdim etməməsi onun öz öhdəliklərini icra edə bilməməsi kimi qiymətləndirilir.

## G. Şikayət verilməsi

**44. Şikayət vermək hüququ**

44.1. Hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə təchizatçıların satınalan təşkilatın hərəkətlərindən (hərəkətsizliyindən) və qərarlarından inzibati qaydada, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət vermək hüququ vardır.

44.2. Aşağıdakılar şikayət predmeti ola bilməz:

(a) Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinin məhdudlaşdırılması;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmaması və satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirilməsi halları istisna olmaqla qanuni əsaslarla satınalmanın ləğv edilməsi.

**45. Satınalan təşkilata şikayət**

45.1. Satınalmadan kənarlaşdırılmamış təchizatçılar satınalan təşkilata satınalmanın nəticələri ilə bağlı öz şikayətlərini gözləmə müddətində verirlər. Satınalan təşkilat gözləmə müddətində verilmiş şikayəti 5 (beş) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

45.2. Kənarlaşdırılmış və ya iştirak etməyən təchizatçılar satınalma müqaviləsi qüvvəyə minənə qədər öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 15 (on beş) iş günü ərzində satınalan təşkilata şikayət verə bilərlər. Satınalan təşkilat verilmiş şikayəti 10 (on) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir və həmin qərarın qəbul edildiyi gündən 1 (bir) iş günü ərzində şikayət edən təchizatçıya göndərir.

45.3. Şikayət gözləmə müddəti və ya Təlimatın 45.2-ci bəndi ilə müəyyən edilən müddət keçdikdən sonra verilmişdirsə, satınalan təşkilat həmin şikayəti baxılmamış saxlayır.

45.4. Satınalan təşkilat Təlimatın 45.1-ci və 45.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmirsə, təchizatçı bununla bağlı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət verə bilər. Belə şikayət verildikdən sonra satınalan təşkilat tərəfindən həmin şikayət baxılmamış saxlanılır.

**46. AİBNDX-yə şikayət**

46.1. Təchizatçılar aşağıdakı hallarda İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilər:

(a) satınalma müqaviləsi qüvvəyə mindikdə;

(b) satınalma komissiyası Qanunun və Qanundan irəli gələn normativ hüquqi aktların tələblərini pozduqda;

(c) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(d) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən satınalmalarda maraqlar toqquşmasının tələbləri pozulduğu müəyyən edildikdə;

(e) satınalan təşkilat Təlimatın 45.1-ci və 45.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmədikdə;

(f) verilmiş şikayətlə bağlı satınalan təşkilatın qərarı ilə razılaşmadığı halda.

46.2. Təchizatçılar öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən, habelə Təlimatın 46.1(f) bəndində nəzərdə tutulmuş qərarı aldığı gündən və ya həmin qərarın verilməli olduğu gündən 15 (on beş) iş günü ərzində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilərlər.

46.3. AİBNDX şikayəti aldıqdan sonra 1 (bir) iş günü ərzində bu barədə satınalan təşkilata Portal vasitəsilə bildiriş göndərir. Şikayətdə qaldırılan məsələlərin araşdırılması üçün əlavə məlumat tələb olunduğu təqdirdə AİBNDX satınalan təşkilata Portal vasitəsilə sorğu göndərir. Satınalan təşkilat sorğunu aldıqdan sonra 3 (üç) iş günü ərzində sorğuda tələb olunan məlumatları İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə

təqdim edir.

46.4. AİBNDX verilmiş şikayəti 20 (iyirmi) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

46.5. AİBNDX şikayəti təmin edirsə aşağıdakı tədbirlərdən birini və ya bir neçəsini tətbiq edir:

(a) satınalan təşkilata qanunazidd hərəkətlər (hərəkətsizlik) etməyi və ya qərarlar qəbul etməyi, yaxud prosedurlar tətbiq etməyi qadağan etmək;

(b) satınalan təşkilatın qanunazidd inzibati aktını "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 67-ci maddəsinə uyğun olaraq ləğv etmək;

(c) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd hərəkətini (hərəkətsizliyini) dayandırmaq;

(d) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd qərarını ləğv etmək və yeni qərar qəbul etmək və ya satınalan təşkilatın əvəzinə öz qərarını qəbul etmək;

(e) təkliflərin yenidən qiymətləndirilməsi və ya satınalmanın ləğv edilməsi barədə qərar qəbul etmək.

**47. Satınalmanın dayandırılması**

47.1. Təlimatın 45-ci və 46-cı hissələrinə əsasən verilən şikayətin (gözləmə müddətində verilən şikayət istisna olmaqla) araşdırılması məqsədilə "İnzibati İcraat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinə uyğun olaraq İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qərarı ilə satınalan təşkilat tərəfindən satınalma prosedurları 10 (on) iş gününədək dayandırıla bilər. Bu müddət İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsaslandırılmış qərarı ilə 10 (on) iş gününədək uzadıla bilər.

**48. İnzibati qaydada şikayət**

48.1. Təchizatçılar AİBNDX-nin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və məhkəməyə şikayət verə bilərlər.

## H. Müqavilə

**49. Müqavilə şərtləri**

49.1. Təchizatçı təklifini formalaşdırarkən satınalma müqaviləsinin tələblərini nəzərə almalıdır.

49.2. Satınalma müqaviləsində aşağıdakı məlumatlardan çıxarış **Satınalma məlumat vərəqində (18)** də göstərilir:

(a) satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği;

(b) avans;

(c) satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları;

(d) satınalma müqaviləsinin icra müddətində və satınalma

müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları;

(e) tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri.

49.3. Satınalma müqaviləsi ilə şərtlər toplusunda qeyd edilən məlumatlar arasında ziddiyyət olarsa şərtlər toplusu üstünlük təşkil edir.

# II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ

Satın alınacaq mallar üçün aşağıdakı spesifik məlumatlar Təlimatın müddəalarını tamamlayır, aydınlaşdırır və ya dəyişdirir. Hər hansı bir ziddiyyət yarandıqda aşağıdakı müddəalar Təlimatdakı müddəalardan üstün olacaqdır.

*[Satınalma məlumat vərəqini doldurmaq üçün zəruri təlimatlar istinad olunan müvafiq Təlimatın üçün kursivlə yazılmış qeydlərdə təqdim olunur və şərtlər toplusu doldurulduqdan sonra silinir]*

| Sıra №-si | Bənd | Məzmun | Məlumat |
|---|---|---|---|
| | | **A. Ümumi** | |
| (1) | 1.1. | Satınalma predmeti: | **(satınalma predmetini daxil edin)** |
| | | Satınalan təşkilatın adı, VÖEN-i | **(satınalan təşkilatın adını daxil edin)** **(VÖEN-i daxil edin)** |
| | | Satınalan təşkilatın əlaqələndirici vəzifəli şəxsi barədə məlumat | **(soyadı, adı və atasının adını daxil edin)** **(vəzifəsini daxil edin)** **(əlaqə məlumatlarını daxil edin)** |
| (2) | 3.1. | Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma | **(iştirakı məhdudlaşdırılan ölkələr və ya məhdudlaşdırılma şərtləri barədə məlumatı daxil edin)** *[Əgər belə hallar nəzərdə tutulmayıbsa “nəzərdə tutulmayıb” qeyd edin]* |
| (3) | 3.3. | Birliyin üzvlərinin maksimal sayı | **(sayı daxil edin)** |
| (4) | 4.1. | İştirak haqqı | **(məbləği daxil edin)** *[Qanunun 28.6-cı maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilmiş məbləği daxil edin]* |
| | | **B. Şərtlər toplusunun məzmunu** | |
| (5) | 7.1. | Şərtlər toplusuna dair izahat üçün son müddət | **(tarix və saatı daxil edin)** |
| (6) | 8.1. | Şərtlər toplusuna dəyişiklik üçün son müddət | **(tarix və saatı daxil edin)** |
| | | **C. Təkliflərin hazırlanması** | |

| | | | |
|---|---|---|---|
| (7) | 10.1. | Satınalmalara dair sənədlərin tərcümə olunacağı dil(lər) | Tərcümə **(olunacaq / olunmayacaq)**.<br>*[tərcümə olunacaqsa dili qeyd edin, əks təqdirdə silin]*<br>**(dili daxil edin)** |
| (8) | 13.3. | Çatdırılma, o cümlədən tətbiq olunan Inkoterms şərtləri | **(şərtləri daxil edin)** |
| (9) | 15.3. | İstismar müddəti (ehtiyat hissələri məqsədilə) | **(müddəti daxil edin)** |
| (10) | 16.3(a) | İstehsalçı icazəsi | **(tələb olunur / olunmur)**<br>*[Müqavilə üzrə yalnız bəzi maddələr üçün İstehsalçının icazəsi tələb olunursa, istehsalçının icazəsi tələb olunan maddələri sadalayın. İstehsalçı icazəsi əsasən həlledici əhəmiyyətli və texniki cəhətdən mürəkkəb məhsullar üçün tələb olunur. Hazır, standart məhsullara bu tələb adətən şamil edilmir]* |
| (11) | 16.3(b) | Satış sonrası xidmət: | **(tələb olunur / olunmur)** |
| (12) | 17.1. | Təklifin qüvvədə olma müddəti | Təklif ən azı **(tarixi daxil edin)** tarixinə qədər qüvvədə olmalıdır<br>*[təklifin qiymətləndirilməsini yekunlaşdırmaq, lazımi razılıqları, o cümlədən nəticələrin AİBNDX ilə razılaşdırmaq üçün lazım olan ağlabatan vaxt nəzərə alınmaqla tarixi qeyd edin]* |
| **D. Təkliflərin təqdim olunması və açılması** | | | |
| (13) | 19.1. | Təkliflərin təqdim edilməsinin son müddəti | **(tarix və saatı daxil edin)**<br>*[Təkliflərin cəlb edilməsi barədə elan təkliflərin açılması günündən azı 10 (on) iş günü əvvəl Portalda dərc edilir:*<br>*Təkliflərin hazırlanması və təqdim edilməsi üçün icazə verilən vaxt predmetin xüsusiyyəti, miqyası və mürəkkəbliyi nəzərə alınmaqla müəyyən edilməlidir.]* |
| (14) | 22.1. | Təkliflərin açılmasının müddəti | **(tarix və saatı daxil edin)**<br>*[Təkliflər Təlimatın 24.1-ci bəndində qeyd olunan vaxtdan sonra 1 saat ərzində açılır]* |
| **E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** | | | |
| (15) | 30.1. | Subpodratçı | Subpodratçının cəlb edilməsinə icazə **(verilir / verilmir)**. |

| | | | |
|---|---|---|---|
| | | | Subpodratçı üçün tələblər: **(tələbləri daxil edin)**<br>*[Məsələn, subpodratçının həyata keçirməsi nəzərdə tutulan fəaliyyət sahəsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növü olarsa müvafiq lisenziya əlavə edilməlidir]* |
| (16) | 31.3. | Qiymətin tənzimlənməsində istifadə ediləcək meyarlar: | a) Çatdırılma qrafikindən kənarlaşma **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)**<br>b) İstismar, texniki xidmət və təmir xərcləri **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)**<br>c) Ödəniş qrafikindən kənarlaşma **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)**<br>d) Əsas əvəzedici komponentlərin, məcburi ehtiyat hissələrinin və xidmətin xərci **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)**<br>e) Avadanlığın fəaliyyət göstəricisi və məhsuldarlığı **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)**<br>f) Təklif olunan avadanlıq üçün ehtiyat hissələrinin və satışdan sonrakı xidmətlərin satınalan təşkilatın ölkəsində mövcudluğu **(tətbiq edilir / edilmir. Tətbiq ediləcəksə Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə metodologiya və meyarları daxil edin)**<br>**g) (Tətbiq ediləcək digər xüsusi meyarları Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinə daxil edin)** |

| | | | |
|---|---|---|---|
| (17) | 34.4. | Uyğunluq sənədlərinin yenidən təqdim edilməsi halları | **(uyğunluq sənədlərinin yenidən təqdim edilməsi hallarını daxil edin)**<br>*["Təkliflərin qiymətləndirilməsi müddətində dəyişilməsi gözlənilən (məsələn. vergi arayışı və s.) və ya təqdim edilmiş sənədlər arasında ziddiyyət/uyğunsuzluq olması" kimi halları qeyd edin və ya "tətbiq edilmir" daxil edin].* |
| **H. Müqavilə** | | | |
| (18) | 49.2. | Müqavilə şərtləri | Ödəmələr: **(satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği)** |
| | | | Avans: **(avans ödənişi və təminatının məbləği və müqavilənin icra müddəti)**<br>*[Avans satınalma müqaviləsinin ümumi məbləğinin 30 faizindən (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 50 faizindən) çox olmayaraq ödənilir. Avansın alınması üçün təchizatçı tərəfindən satınalan təşkilata avans ödənişinin ümumi həcmindən az olmayan məbləğdə və müqavilənin icra müddətində qüvvədə olan müddətdə avans təminatı təqdim olunur]* |
| | | | Satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları: **(təklifin akseptindən sonra satınalma müqaviləsinin qüvvəyə minməsi üçün müvafiq sənədlər, həmin sənədlərin təqdim edilməsi müddəti və digər şərtlər)** |
| | | | Müqaviləyə dəyişiklik: **(satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları)** |
| | | | Sığorta: **(tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri)** |

# III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ - UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI

Bu bölmədə satınalma komissiyası tərəfindən təklifləri qiymətləndirmək və uyğunluq göstəricilərinə cavab verən təchizatçıları müəyyən etmək üçün bütün meyarlar qeyd edilib. Bu şərtlər toplusunda qeyd edilməyən heç bir meyar, amil və ya göstəricidən istifadə edilə bilməz. Təchizatçı tələb olunan bütün məlumatları Satınalma formaları (IV) bölməsinə daxil edilən formalardan istifadə edərək təqdim etməlidir.

Təchizatçıdan maddi dəyərinin göstərilməsi tələb olunan məlumatlar Azərbaycan manatı ilə aşağıdakı qaydada müəyyən edilən məzənnədən istifadə edilərək təqdim edilməlidir:

- maliyyə vəziyyətində göstərilən məlumatlar - müvafiq təqvim ilinin son günündə qüvvədə olan valyuta məzənnəsi;
- müqavilənin məbləği - müqavilənin bağlandığı tarixdə qüvvədə olan valyuta məzənnəsi.

Valyuta məzənnələri Təlimatın 28.1-ci bəndi ilə müəyyən edilmiş açıq mənbədən götürülməlidir. Təklifində valyuta məzənnələrinin müəyyən edilməsində hər hansı səhv satınalma komissiyası tərəfindən düzəldilə bilər.

*[Satınalan təşkilat satınalma prosesi üçün uyğun hesab edilən meyarları seçməli, aşağıdakı nümunələrdən və ya digər məqbul mətndən istifadə etməklə müvafiq mətni daxil etməli və kursivlə yazılan mətni silməlidir].*

# A. Texniki və maliyyə göstəricilərinin qiymətləndirməsi

## 1. Texniki göstəricilərin qiymətləndirilməsi

Təlimatın 31.1-ci bəndinə uyğun olaraq təklifin tələblərə uyğunluğunun qiymətləndirilməsi.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

..........................................................................................................................

## 2. Maliyyə göstəricilərinin qiymətləndirilməsi

### 2.1. Maliyyə göstəricilərinin qiymətləndirilməsi üçün meyarlar

**(i)** Çatdırılma qrafikindən kənarlaşma

Malların siyahısında göstərilən malların (B) Mallara dair tələblər sənədində göstərilən məqbul vaxt intervalında (ən erkən və son tarixdən əvvəl, hər iki tarix daxil olmaqla) çatdırılması tələb olunur. Ən erkən tarixdən əvvəl çatdırılmalara hər hansı üstünlük verilməyəcək və son tarixdən sonra çatdırılma nəzərdə tutan təklifləri uyğun hesab edilməyəcəkdir. Bu məqbul müddət intervalı ərzində yalnız qiymətləndirmə məqsədləri üçün (B) Mallara dair tələblər sənədində göstərilən "Ən erkən çatdırılma tarixindən" sonra çatdırılma nəzərdə tutan təkliflərə hər təqvim günü üçün müqayisə məqsədilə məbləğ tənzimlənməsi (artırılması) **0,1%** təşkil edəcəkdir.

**(ii)** İstismar, texniki xidmət və təmir xərcləri

*[Malların müəyyən edilmiş istismar müddəti ərzində istismar və yaxud texniki xidmət xərclərinin ilkin dəyərlə müqayisədə əhəmiyyətli olduğu və müxtəlif təkliflər arasında dəyişə bildiyi zaman istismar dövrü xərclərinin hesablanmasından istifadə edilməlidir. O, xalis diskontlaşdırılmış dəyər əsasında qiymətləndirilməlidir. Təklifin qiymətləndirilməsi üçün istismar dövrü xərclərin hesablanması tətbiq ediləcəksə, satınalan təşkilat onun tətbiqi ilə bağlı müvafiq məlumatları burada qeyd etməlidir:]*

İstismar dövrü xərclərinin hesablanması üçün amillər:
(a) istismar dövrü üçün illərin sayı: **(illərin sayını daxil edin)**;
(b) əməliyyat xərcləri **(onların necə müəyyən ediləcəyini qeyd edin)**;
(c) istismarın ilkin dövrü üçün ehtiyat hissələrinin dəyəri daxil olmaqla texniki xidmət xərcləri **(onların necə müəyyən ediləcəyini qeyd edin)**;
(d) Diskont dərəcəsi: (a) bəndində göstərilən dövr üçün yuxarıda (b) və (c) bəndlərində hesablanmış bütün illik gələcək məsrəflərin cari məbləğə diskont edilməsi üçün istifadə ediləcək **(diskont dərəcəsini faizlə daxil edin)**.

**(iii)** Ödəniş qrafikindən kənarlaşma [aşağıdakılardan birini daxil edin]

(i) Təchizatçılar Müqavilənin xüsusi şərtlərində göstərilən ödəniş qrafiki üzrə öz təklifini təqdim etməlidir. Təkliflər bu baza qiyməti əsasında qiymətləndirilir. Bununla belə, təchizatçılara alternativ ödəniş qrafiki təqdim etməyə və bu cür alternativ ödəniş qrafiki üçün təklif etmək istədikləri təklif məbləğinin qiymətində azalma göstərməyə icazə verilir. Satınalan təşkilat Müqavilənin xüsusi şərtlərində göstərilən ödəniş qrafiki üçün baza qiymət

əsasında seçilmiş təchizatçı tərəfindən təklif edilən alternativ ödəniş qrafikini və azaldılmış təklif məbləğini təklifini nəzərdən keçirə bilər.

və ya

(i) Müqavilənin xüsusi şərtlərində satınalan təşkilat tərəfindən müəyyən edilmiş ödəniş qrafiki göstərilir. Əgər təklifi qrafikdən kənara çıxarsa və belə bir kənarlaşma satınalan təşkilat üçün məqbul hesab edilərsə, təklif Müqavilənin xüsusi şərtlərində nəzərdə tutulanlarla müqayisədə təklifdə göstərilən şərtlərlə bağlı hər hansı əvvəlki ödənişlər üçün qazanılmış faizlərin [tənzimləmə dərəcəsini daxil edin] illik dərəcə əsasında hesablanması yolu ilə qiymətləndiriləcəkdir.

və ya

*(i) Təchizatçılar Müqavilənin xüsusi şərtlərində göstərilən ödəniş qrafiki üzrə öz təklifini təqdim etməlidir. Bu qrafikdən kənar ödəniş qrafiki təklif edən təchizatçılar kənarlaşdırılacaqdır.*

**(iv)** Əsas əvəzedici komponentlərin, məcburi ehtiyat hissələrinin və xidmətin xərci [aşağıdakılardan birini daxil edin]

(i) Satınalma məlumat vərəqində (9) (Təchizatçılar üçün təlimatın 15.3-cü bəndi) də göstərilən ilkin istismar dövründə tələb oluna bilən əsas birləşmələrin, komponentlərin və seçilmiş ehtiyat hissələrinin maddələrinin və miqdarının siyahısı malların siyahısında qeyd edilib. Hər bir təklifdə göstərilən vahid qiymətlərlə bu maddələrin ümumi dəyərinə bərabər olan düzəliş yalnız qiymətləndirmə məqsədləri üçün təklifin qiymətinə əlavə ediləcəkdir.

və ya

(i) Satınalan təşkilat Satınalma məlumat vərəqində (9) (Təchizatçılar üçün təlimatın 15.3-cü bəndi) göstərilən ilkin istismar dövründə istifadənin təxmin edilən miqdarları ilə birlikdə komponentlərin və ehtiyat hissələrinin yüksək istifadə olunan və yüksək qiymətli əşyalarının siyahısını tərtib edəcək. Bu maddələrin və kəmiyyətlərin ümumi dəyəri yalnız qiymətləndirmə məqsədi üçün təchizatçı tərəfindən təqdim edilən və təklif məbləğinə əlavə edilən ehtiyat hissələrinin vahid qiymətləri əsasında hesablanacaq.

**(v)** Təklif olunan avadanlıq üçün ehtiyat hissələrinin və satışdan sonrakı xidmətlərin satınalan təşkilatın ölkəsində mövcudluğu.

Minimum xidmət obyektlərinin və hissələrin inventarının yaradılması üçün satınalan təşkilat tərəfindən çəkiləcək xərclərə bərabər olan düzəliş yalnız qiymətləndirmə məqsədləri üçün təklifin qiymətinə əlavə ediləcək.

**(vi)** Avadanlığın fəaliyyət göstəricisi və məhsuldarlığı: [aşağıdakılardan birini daxil edin]

(i) Malların istismar müddəti ərzində əlavə əməliyyat xərclərinin kapitallaşdırılmış dəyərini əks etdirən düzəliş qiymətləndirmə məqsədləri

üçün təklifin qiymətinə əlavə ediləcək. Düzəliş aşağıda göstərilən metodologiyadan istifadə etməklə, təklifdə nəzərdə tutulan zəmanətli fəaliyyət göstəricisi və ya səmərəliliyin 100-dən aşağı düşməsi əsasında qiymətləndiriləcək.

[mümkün olduqda metodologiya və meyarları daxil edin]

və ya

(i) Təklifdə nəzərdə tutulan malların məhsuldarlığını nəzərə almaq üçün düzəliş, yalnız qiymətləndirmə məqsədləri üçün təklifin qiymətinə əlavə ediləcək. Düzəliş aşağıda göstərilən metodologiyadan istifadə etməklə, minimum tələb olunan dəyərlərlə bağlı təklifdə nəzərdə tutulan malların faktiki məhsuldarlığının vahidinə düşən maya dəyəri əsasında qiymətləndirilir.

[mümkün olduqda metodologiya və meyarları daxil edin]

**(vii)** Digər əlavə meyarlar

[Qiymətləndirmədə nəzərə alınacaq digər xüsusi əlavə meyarlar və qiymətləndirmə metodu BDS 34.6-da təfərrüatlı şəkildə göstərilməlidir][Əgər xüsusi dayanıqlı satınalma texniki tələbləri Bölmə VII- Spesifikasiyada müəyyən edilmişdirsə, ya (i) həmin tələblərin qiymətləndiriləcəyini bildirin. keçmək/qeyri-məqbul (uyğunluq əsasında) və ya başqa şəkildə (ii) bu tələbləri keçmək/məğlubiyyət (uyğunluq əsasında) üzrə qiymətləndirməyə əlavə olaraq, əgər varsa, Tender təklifləri hesabına müqayisə məqsədləri üçün Tender Qiymətlərinə tətbiq ediləcək pul düzəlişlərini göstərin müəyyən edilmiş minimum davamlı satınalma texniki tələblərini aşan.]

## B. Uyğunluq göstəricilərinin qiymətləndirilməsi

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət: *Bütün üzvlər birlikdə* [1] | Birgə fəaliyyət: *Hər bir üzv ayrı-ayrılıqda* | Birgə fəaliyyət: *Bir üzv* | |
| **1.** | ***İlkin tələblər*** | | | | | | |
| **1.1.** | **Maraqlar toqquşması** | Təlimatın 3.2-ci bəndinin tələblərinə cavab verməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)** |
| **1.2.** | **Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma** | **Satınalma məlumat vərəqində (2)** göstərilən və (və ya) müəyyən edilən ölkələrdə qeydiyyatdan keçən qeyri-rezident təchizatçıların siyahısına daxil edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Qeydiyyat sənədi |
| **2.** | ***Ümumi tələblər*** | | | | | | |
| **2.1.** | **Təchizatçı haqqında** | Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | 1. Təchizatçı haqqında:<br>a. Təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti;<br>b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti;<br>c. birgə fəaliyyət göstərdikdə Təlimatın 3.4-cü bəndinə uyğun olaraq birgə fəaliyyətə dair |

[1] Bütün üzvlərin təqdim etdiyi göstəricilərin cəmi tələblərə tam cavab verməlidir.

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | | | | | | müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu.<br>2. təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış<br>a. Hüquqi və fiziki şəxs olduqda **(FORMA 3)** və (və ya)<br>b. Birgə fəaliyyət olduqda 2 a bəndinə əlavə olaraq (**FORMA 4)**<br>3. Təlimatın 18.2-cü bəndinə uyğun olaraq təklifi imzalayan digər vəzifəli şəxs olduqda – etibarnamə.<br>4. Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış **(FORMA 6)** |
| **2.2.** | **Lisenziya və (və ya) icazə (tətbiq olunarsa)** | **(satınalma predmetinin icrası üçün zəruri olan və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növünü və tətbiq olunarsa konkret istiqaməti qeyd edin** *məs. Tikintisinə icazə tələb* | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Uyğun olmalıdır | Lisenziya və (və ya) icazənin surəti |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | *olunan bina və qurğuların tikinti-quraşdırma işləri – (a) xüsusi torpaq işləri və (b) mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması işləri*) | | | | | |
| **2.3.** | **Əmlakdan sərbəst istifadə** | Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasibətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)**, məlumat və təsdiqedici sənədlər |
| **2.4.** | **Müflislik** | Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahibkarlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət: *Bütün üzvlər birlikdə* [1] | Birgə fəaliyyət: *Hər bir üzv ayrı-ayrılıqda* | Birgə fəaliyyət: *Bir üzv* | |
| **2.5.** | **Vergi və əmək qanunvericiliyi öhdəliyi** | Azərbaycan Respublikasında vergilər və digər icbari ödən mallar üzrə vaxtı keçmiş öhdəliklərinin olması və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın olmaması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış |
| | | Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı malların (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının və ya inzibati cərimənin tətbiq edilməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Maliyyə sanksiyasına münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış<br>İnzibati cəriməyə münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən arayış |

| **Münasiblik və uyğunluq meyarları** | | | **Uyğunluq tələbləri** | | | | **Tələb olunan sənəd** |
|---|---|---|---|---|---|---|---|
| **Sıra №-si** | **Mövzu** | **Tələblər** | **Fərdi** | **Birgə fəaliyyət** | | | |
| | | | | ***Bütün üzvlər birlikdə*** [1] | ***Hər bir üzv ayrı-ayrılıqda*** | ***Bir üzv*** | |
| **2.6.** | **Fəaliyyət qadağası** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.7.** | **Məhkumluq** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırılma | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | Bütün üzvlər birlikdə [1] | Hər bir üzv ayrı-ayrılıqda | Bir üzv | |
| | | cinayətlərinə görə məhkum olunmaması | | | | | |
| **3.** | ***Digər tələblər*** | | | | | | |
| **3.1.** | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | | | | | | |

# IV BÖLMƏ. SATINALMA FORMALARI

## FORMA 1. Təklif məktubu

Təklifin təqdim olunma tarixi: **(tarixi daxil edin)**

Müsabiqə nömrəsi: **(müsabiqə nömrəsini daxil edin)**

Kimə: **(Satınalan təşkilatın adını daxil edin)**

Biz, aşağıda imza edənlər bəyan edirik ki:

**(a)** **qeyd-şərtin olmaması:** Təlimatın 8-ci hissəsinə müvafiq olaraq verilmiş əlavə və dəyişikliklər də daxil olmaqla (mövcud olduğu halda) şərtlər toplusu və onu təşkil edən sənədlər ilə tanış olduq, burada təsvir olunan işin görülməsi haqqında tam məlumata malikik və bu sənədlərə heç bir qeyd-şərtimiz yoxdur;

**(b)** **münasiblik:** Təlimatın 3-cü hissəsində qeyd edilmiş tələblərə cavab veririk və maraqların toqquşması hallarının olmadığını təsdiqləyirik;

**(c)** **uyğunluq:** Biz ***(satınalma predmetini daxil edin)*** malları şərtlər toplusunun tələblərinə və nəzərdə tutulmuş icra qrafikinə uyğun olaraq yerinə yetirməyi təklif edirik*;*

**(d)** **qiymət:** Tələb olunan malları bütün vergi və rüsumlar daxil olmaqla dövlət satınalmalarının vahid internet portalında göstərilən məbləğdə yerinə yetirməyi təklif edirik.

**(e)** **təklifin qüvvədə olma müddəti**: Təklifimiz dövlət satınalmalarının vahid internet Portalında göstərilən tarixə qədər qüvvədədir, bizim üçün məcburi xarakter daşıyır və bu müddətin bitməsindən əvvəl istənilən vaxt qəbul edilə bilər;

**(f)** **icra təminatı**: Bizim təklifimiz qəbul edildiyi təqdirdə şərtlər toplusunda qeyd edilən şərtlərdə icra təminatını təqdim edəcəyimizi öhdəmizə götürürük *(məbləği 30 000 manatdan az olan təklif təqdim etmiş təchizatçılar üçün tələb olunmur, bu bənd silinir)*;

**(g)** **hər təchizatçı bir təklif:** Biz fərdi təchizatçı kimi hər hansı digər təklif və ya təkliflər təqdim etmirik, birgə fəaliyyət üzvü və ya subpodratçı kimi hər hansı digər satınalma və ya satınalmalarda iştirak etmirik və Təlimatın 3.3-cü bəndinin tələblərinə cavab veririk;

**(h)** **qəbul etmək məcburiyyətinin olmaması**: Başa düşürük ki, siz ən aşağı qiyməti olan, ən səmərəli və ya digər istənilən təklifi qəbul etmək məcburiyyətində deyilsiniz;

**(i)** **əmlakdan sərbəst istifadə**: Müqavilənin icrası zamanı istifadə olunacaq əmlaklardan (daşınmaz əmlak və nəqliyyat vasitələri istisna olmaqla) sərbəst və məhdudiyyətsiz istifadə etmək hüququmuz var;

**(j)** **saxtakarlıq və korrupsiya:** Bizim üçün və ya bizim adımızdan hərəkət edən heç kimin heç bir formada saxtakarlıq və korrupsiya əməlləri törətməməsi üçün müvafiq tədbirləri görmüşük.

Təchizatçının adı: (təchizatçının adını daxil edin)

Təchizatçının VÖENİ: **(təchizatçının VÖEN-ini daxil edin)**

Təklifi təchizatçı adından imzalamaq səlahiyyəti olan şəxsin ad və soyadı:**(adı və soyadı daxil edin)**

Təklifi imzalayan şəxsin vəzifəsi: **(tam vəzifəni qeyd edin)**

İmzalanma tarix: **(tarixi daxil edin)**

# FORMA 2. Qiymət cədvəli

Təchizatçı satınalan təşkilat tərəfindən aşağıdakı formada hazırlanmış qiymət cədvəlini Portal vasitəsilə əldə edərək doldurur.

| Maddə №. | Malların və əlaqədar xidmətlərin (varsa) təsviri | Mənşə ölkəsi | Çatdırılma /icra tarixi | Ölçü vahidi | Miqdar | Vahidinin qiyməti | Cəm |
|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| | | | | | | | |
| | | | | | | | |
| | *Daşıma, rüsum vergi və digər xərclər* | - | - | cəm | 1 | | |
| | *Daşıma ilə əlaqədar xidmətlər xaric digər xidmətlər [varsa hər birini ayrı-ayrı sıralayın]* | | | | | | |
| | | | | | | **Yekun cəm:** | _____ |

# FORMA 3. Təchizatçı haqqında

| |
|---|
| Təchizatçının adı: **(təchizatçının adını daxil edin)** |
| Birgə fəaliyyət göstərdikdə hər bir üzvün adı: **(hər bir üzvün hüquqi adını qeyd edin)** |
| Təchizatçının qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Təchizatçının təsis ili: **(ili qeyd edin)** |
| Təchizatçının hüquqi və faktiki ünvanları: **(ünvanı qeyd edin)** |
| Təchizatçının səlahiyyəti nümayəndəsi haqqında:<br>• Adı və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 4. Birgə fəaliyyət haqqında

*(tətbiq olunursa hər bir birgə fəaliyyət göstərən üzvü üçün ayrı-ayrılıqda doldurulur)*

| |
|---|
| Birgə fəaliyyət göstərənin adı: (təchizatçının adını daxil edin) |
| Birgə fəaliyyət göstərən üzvünün adı: **(üzvün hüquqi adını qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin üzvün qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün təsis ili: **(ili qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün faktiki və hüquqi ünvanı: **(ünvanı qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin səlahiyyətli nümayəndəsi haqqında:<br>• Ad və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 5. Oxşar malların göndərilməsi üzrə təcrübə

| **S/S** | **Başlanma və bitmə tarixi** | **Satınalan təşkilat və əlaqə vasitələri** *(ünvanı, e-poçtu və telefonu)* | **Müqavilənin predmeti** | **İcra olunan müqavilənin cari satınalma predmetinə bənzərliyinin təsviri** *(yeri, əsas komponentləri, miqdarları/həcmləri və s.)* | **Müqavilənin məbləği** *(AZN ilə)* | **İcra vəziyyəti** *(davam edirsə tamamlanma faizi qeyd edilir)* | **Təchizatçının rolu** |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | (Təchizatçı, subpodratçı və ya birgə fəaliyyət üzvü) |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |
| 5. | | | | | | | |

# FORMA 6. Subpodratçılar haqqında məlumat

| S/S | Subpodratçının hüquqi adı və VÖEN-i | Əlaqə vasitəsi | Göstəriləcək xidmətlərin təsviri | Müqavilə məbləğində payı (%) |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |
| 5. | | | | |

# FORMA 7. İstehsalçının icazəsi

*[tətbiq olunduğu təqdirdə]*

*[Təchizatçı istehsalçıdan bu formanı göstərilən təlimatlara uyğun olaraq doldurmağı tələb etməlidir. Bu icazə məktubu istehsalçının blankında olmalı və istehsalçı tərəfindən sənədləri imzalamaq üçün müvafiq səlahiyyətinə malik olan şəxs tərəfindən imzalanmalıdır. Təchizatçı satınalma məlumat vərəqində göstərildiyi təqdirdə onu öz təklifinə daxil etməlidir]*

Tarix: **(təklifin təqdim olunduğu tarixi gün, ay və il olaraq daxil edin)**

Kimə: **(satınalan təşkilatın adı)**

Nəzərə alaraq ki, biz **(istehsalçının tam adını daxil edin) (istehsal olunan məhsullarını növünü daxil edin)** rəsmi istehsalçısıyıq və **(istehsalçının zavodunun tam ünvanını daxil edin)** ünvanında zavodlarımız var, bununla bizim tərəfimizdən istehsal olunmuş aşağıdakı malları təmin etmək və müqaviləni imzalamaq məqsədilə təklif təqdim edən **(təchizatçının adını daxil edin)**(yönlük hallarda) icazə veririk.

- **(malların adlarını və qısa təsvirini siyahı olaraq daxil edin)**

Biz bununla yuxarıda göstərilən təchizatçının təklif etdiyi mallara münasibətdə müqavilənin ümumi şərtlərinin 24-cü hissəsinə uyğun olaraq tam zəmanət veririk.

İmzaladı: **(istehsalçının səlahiyyətli nümayəndəsinin imza və möhürünü daxil edin)**

Adı: **(istehsalçının səlahiyyətli nümayəndəsinin tam adını daxil edin)**

Vəzifə: **(vəzifəni daxil edin)**

İmzalanma tarixi: **(imzalanma tarixini gün, ay və il olaraq daxil edin)**

# (B) MALLARA DAİR TƏLƏBLƏR

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar (satınalma predmetinin ətraflı təsviri, zəruri texniki və keyfiyyət xüsusiyyətləri (o cümlədən planlar, çertyojlar (cizgilər) və eskizlər), malların göndəriləcəyi yeri, qrafiki və s.) daxil edilir. Yalnız istehsal olunmuş mal partiyası üçün tətbiq olunan sertifikatların (məsələn uyğunluq, mənşə və s.), həmçinin şərtlər toplusunun tələblərinə uyğun hazırlanmış mallara dair nümunələrin təqdim olunması kimi şərtlərin tələblərə daxil edilməsinə yol verilmir (belə tələblər müqavilə şərtlərinə daxil edilə və ya şərtlər toplusunun tələblərinə bənzər xüsusiyyətdə istehsal olunmuş mallara Təchizatçı ilə razılaşdırılmış yerdə baxış keçirilə bilər)]*

# (C) SATINALMA MÜQAVİLƏSİ

*[Qanunun 38.15-ci maddəsinə əsasən mallar üzrə satınalma müqaviləsinin nümunəvi forması müvafiq qaydada doldurularaq əlavə edilir]*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 30 dekabr tarixli 503 nömrəli
Qərarı ilə **təsdiq edilmişdir.**

**10 nömrəli əlavə**

## (satınalma predmetini daxil edin)

---

*xidmətlərinin*

KOTİROVKA SORĞUSU METODU

ilə satın alınması üçün

# ŞƏRTLƏR TOPLUSU

SATINALAN TƏŞKİLAT: **(satınalan təşkilatın adını daxil edin)**

ELAN TARİXİ: **(elan tarixini daxil edin)**

**MÜNDƏRİCAT**

(A) SATINALMA PROSEDURLARI
**I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT** ..... 3
**A. Ümumi** ..... 3
**1. Satınalma haqqında** ..... 3
**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar** ..... 3
**3. Təchizatçıların münasibliyi** ..... 3
**4. Xidmətlərin münasibliyi** ..... 5
**5. Satınalmada istifadə və iştirak haqqı** ..... 6
**B. Şərtlər toplusunun məzmunu** ..... 6
**6. Şərtlər toplusunun tamlığı** ..... 6
**7. Şərtlər toplusuna dair izahat, xidmət yerinə baxış və təklif öncəsi görüş** ..... 7
**8. Şərtlər toplusuna dəyişikliklərin edilməsi** ..... 8
**C. Təkliflərin hazırlanması** ..... 8
**9. Satınalma xərcləri** ..... 8
**10. Təklifin tərtib olunmasının dili** ..... 8
**11. Təkliflə daxil olan sənədlər** ..... 9
**12. Təklif məktubu və cədvəllər** ..... 9
**13. Təklifin qiyməti** ..... 9
**14. Təklifin və ödənişin məzənnəsi** ..... 10
**15. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)** ..... 10
**16. Uyğunluq sənədləri** ..... 10
**17. Təklifin qüvvədə olma müddəti** ..... 11
**18. Təklifin formatı və imzalanması** ..... 11
**D. Təkliflərin təqdim olunması və açılması** ..... 11
**19. Təkliflərin təqdim edilməsinin son müddəti** ..... 11
**20. Gecikmiş təkliflər** ..... 11
**21. Təkliflərin geri götürülməsi və ya dəyişdirilməsi** ..... 11
**22. Təkliflərin açılması** ..... 11
**E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** ..... 12
**23. Məxfilik (konfidensiallıq)** ..... 12
**24. Təkliflərə dair izahat** ..... 13
**25. Formal tələblərə uyğunluğun müəyyən edilməsi** ..... 13
**26. Əhəmiyyətsiz uyğunsuzluqlar** ..... 13
**27. Hesab səhvlərinin düzəldilməsi** ..... 14
**28. Vahid valyutaya konvertasiya** ..... 14
**29. Satınalma güzəşti** ..... 14
**30. Subpodratçılar** ..... 14
**31. Təkliflərin qiymətləndirilməsi** ..... 15
**32. Təkliflərin müqayisəsi** ..... 15
**33. Həddindən artıq ucuz təkliflər** ..... 15
**34. Təchizatçının uyğunluq göstəriciləri** ..... 15
**35. Qalib təklifin seçilməsi** ..... 16
**36. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ** ..... 16
**37. Satınalmanın nəticələri barədə bildiriş** ..... 17
**38. Gözləmə müddəti** ..... 17
**F. Qalibin seçilməsi** ..... 17
**39. Qalibin seçilməsi proseduru** ..... 17

40. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi ........ 17
41. Müqavilənin imzalanması ........ 17
42. Bağlanılmış müqavilə barədə məlumatın verilməsi ........ 18
43. İcra təminatı ........ 18
G. Şikayət verilməsi ........ 18
44. Şikayət vermək hüququ ........ 18
45. Satınalan təşkilata şikayət ........ 19
46. AİBNDX-yə şikayət ........ 19
47. Satınalmanın dayandırılması ........ 20
48. İnzibati qaydada şikayət ........ 21
H. Müqavilə ........ 21
49. Müqavilə şərtləri ........ 21
II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ ........ 22
III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ-UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI ........ 25
IV BÖLMƏ. SATINALMA FORMALARI ........ 34
FORMA 1. Təklif məktubu ........ 34
FORMA 2. Fəaliyyət cədvəli ........ 35
FORMA 3. Təklif edilən əsas heyətin tərcümeyi-halı və bəyannaməsi ........ 36
FORMA 4. Təchizatçı haqqında ........ 38
FORMA 5. Birgə fəaliyyət haqqında ........ 39
FORMA 6. Oxşar xidmətlər üzrə təcrübə ........ 40
FORMA 7. Subpodratçılar haqqında məlumat ........ 41
(B) XİDMƏTLƏRƏ DAİR TƏLƏBLƏR
(C) SATINALMA MÜQAVİLƏSİ

# I BÖLMƏ. TƏCHİZATÇILAR ÜÇÜN TƏLİMAT

## A. Ümumi

**1. Satınalma haqqında**

1.1. **Satınalma məlumat vərəqində (1)** qeyd edilən satınalan təşkilat tərəfindən *(B) Xidmətlərə dair tələblər* sənədində nəzərdə tutulmuş xidmətlərin (bundan sonra – Xidmətlər) maliyyə vəsaiti hesabına dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun göstərilməsi üçün bu şərtlər toplusu hazırlanmışdır. Satınalma predmeti, satınalan təşkilatın adı, VÖEN-i və satınalan təşkilatın əlaqələndirici şəxsi barədə məlumatlar **Satınalma məlumat vərəqində (1)** qeyd edilir.

1.2. Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanunundan (bundan sonra – Qanun) və digər normativ hüquqi aktlardan ibarətdir.

1.3. Təkliflərin qiymətləndirilməsi zamanı aşağıdakı anlayışlar tətbiq edilir:

(a) “Kənara çıxma” şərtlər toplusunda göstərilən tələblərdən yayınmadır;

(b) “Qeyd-şərt” məhdudlaşdırıcı şərtlərin müəyyən edilməsi və ya şərtlər toplusunda göstərilən tələblərin tam qəbul edilməsindən boyun qaçırmadır;

(c) “Çatışmazlıq” şərtlər toplusunda tələb olunan məlumat və ya sənədlərin bir hissəsinin və ya hamısının təqdim edilməməsidir.

1.4. Bu şərtlər toplusunda istifadə olunan digər anlayışlar Qanun və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**2. Saxtakarlıq və korrupsiya ilə əlaqədar hüquqpozmalar**

2.1. Satınalan təşkilat “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa riayət olunmasını tələb edir.

**3. Təchizatçıların münasibliyi**

3.1. **Satınalma məlumat vərəqində (2)** göstərilən Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinə məhdudiyyətlər qoyulduğu

hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident təchizatçı (fiziki şəxs, hüquqi şəxs, o cümlədən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün hüquqi və (və ya) fiziki şəxslərin müqavilə əsasında yaratdığı müvəqqəti və ya daimi birliyi (bundan sonra – birgə fəaliyyət) daxil olmaqla) Azərbaycan Respublikasında keçirilən satınalmalarda iştirak edə bilər. Təchizatçı nizamnaməsi (və ya buna bərabər tutulan sənədləri) və ya qeydiyyat sənədləri ilə müəyyən olunduğu ölkənin qanunlarının müddəalarına uyğun olaraq yaradılmış, təsis edilmiş və ya qeydiyyatdan keçmiş və fəaliyyət göstərdiyi təqdirdə həmin ölkəyə mənsub hesab edilir. Müqavilənin hər hansı hissəsinin icrasına cəlb edilməsi təklif edilən subpodratçıların ölkə mənsubiyyəti bu meyar əsasında müəyyən edilir.

3.2. Təchizatçının iştirak etdiyi satınalmada Qanunun 6.1-ci maddəsinə əsasən maraqlar toqquşması olmamalıdır. *(Qanunun 6.1-ci maddəsindən çıxarış:*

*Təchizatçıların aşağıdakı hallarda (satınalma predmetinin yalnız hər hansı konkret təchizatçıda olduğu, yaxud satınalma predmetinin əvəzedicisi və alternativi olmadığı hallar istisna olmaqla) satınalmalarda iştirakına yol verilmir, bu hallar müəyyən olduqda satınalmadan kənarlaşdırılır:*

- *təchizatçının satınalan təşkilatdan və ya satınalan təşkilatla təchizatçının eyni qurumdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olduqda;*
- *təchizatçılardan biri digərinin benefisiar mülkiyyətçisi olduqda, yaxud təchizatçıların azı ikisi eyni benefisiar mülkiyyətçinin nəzarətində olduqda;*
- *təchizatçılardan biri digərinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı olduqda, yaxud təchizatçıların azı ikisinin idarəetmə orqanının üzvü və (və ya) iştirakçısı eyni şəxs olduqda;*
- *satınalmada təchizatçı qismində çıxış edən fiziki şəxs və ya hüquqi şəxsin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsinə əsasən aidiyyəti şəxsi satınalan təşkilatın rəhbəri ilə qohumluq (ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürənlər, övladlığa götürülmüş şəxslər, babalar, nənələr, nəvələr, doğma (ögey) bacılar və qardaşlar, bacı və qardaşların övladları, bacıların ərləri, qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, ər-arvadların valideynləri, bacıları və qardaşları) münasibətində olduqda).*

3.3. Birgə fəaliyyətin üzvü olaraq və ya fərdi şəkildə alternativ təkliflərə icazə verilən hallar istisna olmaqla təchizatçılar eyni satınalma üzrə birdən artıq təklif təqdim etməməli və ya birdən artıq təklifdə iştirak etməməli, həmçinin həmin satınalmada iştirak edən digər təchizatçının subpodratçısı olmamalıdır. Bu hal aşkarlandıqda həmin təchizatçıların təqdim etdikləri və (və ya) iştirak etdikləri bütün təkliflər kənarlaşdırılır.

3.4. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar bu məqsədlə tərəflərin hər birinin imzaladığı müqaviləyə və ya müqavilə layihəsi əlavə edilməklə müqavilə bağlamaq barədə tərəflərin hər birinin imzaladığı niyyət məktubuna malik olmalıdırlar. Bu halda birgə fəaliyyət göstərmək istəyən tərəflərin hər birinin müqavilənin müqavilə şərtlərinə uyğun icrası üçün birgə və fərdi məsuliyyət daşıması və tərəflər arasındakı iş öhdəliklərinin bölgüsü barədə müddəalar birgə fəaliyyət müqaviləsinə və ya müqavilə layihəsinə daxil edilməlidir. Birgə fəaliyyət onun adından və tərəfləri üçün satınalmada iştirak və müqavilə bağlanıldıqda isə müqavilənin icrasını təmin etmək məqsədilə müvafiq səlahiyyətə malik nümayəndə təyin edir. **Satınalma məlumat vərəqində (3)** göstərilmədiyi təqdirdə birgə fəaliyyətin üzvlərinin sayına məhdudiyyət qoyulmur.

3.5. Qanunun 16-cı maddəsi ilə tənzimlənən qaydada etibarsız təchizatçıların reyestrinə daxil edilmiş təchizatçıların müəyyən olunmuş müddətdə satınalmalarda iştirakına yol verilmir. Etibarsız təchizatçıların reyestri etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalında (bundan sonra – Portal) yerləşdirilir.

3.6. Ehtimal olunan qiymət 30 000 manatadək olduqda orta və iri sahibkarlıq subyekti olan təchizatçıların, ehtimal olunan qiymət 30 000 manatdan 100 000 manatadək olduqda isə iri sahibkarlıq subyekti olan təchizatçıların satınalmalarda iştirakına yol verilmir.

3.7. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru keçirildikdə, yalnız uyğunluq göstəricilərinə cavab verən təchizatçılar satınalmada iştirak edə bilərlər.

**4. Xidmətlərin münasibliyi**

4.1. Müqavilə çərçivəsində Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçılar və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan

Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçılar tərəfindən xidmətlərin göstərilməsinə yol verilmir. Satınalan təşkilatın tələbi ilə təchizatçılardan xidmətlərin mənşəyinə dair sübut təqdim etmələri tələb oluna bilər.

**5. Satınalmada istifadə və iştirak haqqı**

5.1. Birdəfəlik və ya istifadə müddətinə görə istifadə haqqını ödəyərək Portaldan istifadə hüququnu əldə etmiş təchizatçılar təklifləri təqdim etmək üçün **Satınalma məlumat vərəqində (4)** qeyd edilən məbləğdə iştirak haqqı ödəyirlər.

5.2. İstifadə və iştirak haqqı Portalda "ASAN ödəniş" sistemi vasitəsilə bank kartı ilə ödənilir.

5.3. Təklifini təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayının üçdən az olması səbəbindən satınalmanın ləğv edilməsi və həmin satınalma predmeti üzrə təkrar satınalma keçirilməməsi halı istisna olmaqla ödənilmiş iştirak haqqı və istifadə haqqı heç bir halda geri qaytarılmır. Satınalmanın maliyyələşdirilməsinin dayandırılması və təchizatçıların sayının üçdən az olması səbəbindən satınalma ləğv edildikdə satınalma planında nəzərdə tutulmuş həmin satınalma predmeti üzrə təkrar satınalma keçirildiyi təqdirdə iştirak haqqını ödəyən və geri almayan təchizatçıların təkrar ödəniş etmədən satınalmada iştirakı təmin edilir.

5.4. Təchizatçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru keçirildikdə uyğunluq göstəricilərinə cavab verərək satınalmada iştirakı davam etdirən təchizatçılar iştirak haqqı ödəmirlər.

## B. Şərtlər toplusunun məzmunu

**6. Şərtlər toplusunun tamlığı**

6.1. Şərtlər toplusu aşağıda verilmiş bütün bəndləri əhatə edən və təchizatçılar üçün təlimatın (bundan sonra – Təlimat) 7-ci hissəsinə uyğun olaraq ona edilən dəyişikliklər və əlavələrlə birlikdə nəzərə alınmalı olan aşağıdakı bölmələrdən ibarətdir:

- A. SATINALMA PROSEDURLARI
    - I Bölmə. Təchizatçılar üçün təlimat
    - II Bölmə. Satınalma məlumat vərəqi
    - III Bölmə. Qiymətləndirmə və uyğunluq meyarları
    - IV Bölmə. Satınalma formaları
- B. XİDMƏTLƏRƏ DAİR TƏLƏBLƏR
- C. SATINALMA MÜQAVİLƏSİ

6.2. Təchizatçıdan şərtlər toplusunda verilmiş bütün təlimat, forma, tələb, texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri) ilə tanış olması və şərtlər toplusunda tələb edilən bütün məlumat və sənədləri təqdim etməsi tələb olunur.

6.3. Portal vasitəsilə birbaşa əldə edilmədiyi təqdirdə satınalan təşkilat şərtlər toplusunun tamlığı, şərtlər toplusunda aydın olmayan hallarla bağlı sorğularına, əvvəlki görüşlərin (əgər olubsa) nəticələri barədə protokollara və (və ya) Təlimatın 7-ci hissəsinə uyğun olaraq şərtlər toplusuna edilmiş dəyişikliklərə görə məsuliyyət daşımır. Hər hansı ziddiyyət olduqda Portaldan birbaşa əldə olunan sənədlər üstünlük təşkil edir.

**7. Şərtlər toplusuna dair izahat, xidmət yerinə baxış və təklif öncəsi görüş**

7.1. Təchizatçı şərtlər toplusunda aydın olmayan hallarla bağlı təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 5 (beş) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (5)** qeyd olunan tarix və vaxt) satınalan təşkilata Portal vasitəsilə sorğu ünvanlaya bilər. Satınalma komissiyası sorğunu aldıqdan sonra 2 (iki) iş günü ərzində sorğuya cavab verir. Sorğu və ona verilən cavab sorğu verənin gizliliyi təmin edilməklə həmin gün Portalda yerləşdirilir.

7.2. Sorğu və ona verilən cavab şərtlər toplusuna əlavə edilərək onun ayrılmaz tərkib hissəsi hesab edilir.

7.3. **Satınalma məlumat vərəqində (6)** nəzərdə tutulduğu halda təchizatçının təyin edilmiş nümayəndəsi təklif təqdim etməzdən əvvəl görüşdə və (ya) xidmətlərin göstəriləcəyi yerə baxış keçirməyə dəvət olunur. Görüşün məqsədi yaranmış texniki suallara aydınlıq gətirmək və həmin mərhələdə qaldırıla biləcək hər hansı sualı cavablandırmaq olacaq. Təchizatçılardan əlavə sorğularını yalnız Portal vasitəsilə təqdim etməsi tələb olunur. Hər hansı digər vasitə ilə verilmiş sorğular satınalan təşkilat tərəfindən nəzərə alınmır.

7.4. Təchizatçıya xidmətlərin göstəriləcəyi yerə və onun ətrafına baxış keçirmək və araşdırmaq, habelə təklifin hazırlanması və xidmətlərin göstərilməsi zamanı müqavilə bağlamaq üçün lazım ola biləcək bütün məlumatları əldə etmək tövsiyə olunur. Sahəyə baxış üçün səfər xərcləri təchizatçı tərəfindən ödənilir. Satınalan təşkilat satınalma iştirakçısına xidmət yerinə və onu əhatə edən ərazilərə baxış keçirmək və yoxlamaq, təklifin hazırlanması və xidmətlərin göstərilməsi üçün zəruri olacaq bütün məlumatları əldə etmək üçün xidmət yerinə giriş icazəsi

verir.

7.5. Satınalan təşkilat təchizatçıya və (və ya) onun etibarnamə təqdim etdiyi hər hansı əməkdaşına xidmət yerinə baxış məqsədilə daxil olmaq üçün icazə verir.

7.6. Satınalan təşkilatla təchizatçılar arasında keçirilən görüş zamanı iştirak haqqını ödəmiş bütün təchizatçılar üçün bərabər iştirak imkanları yaradılır və görüş videomüşahidə vasitələrinin nəzarəti altında aparılaraq nəticələri protokolla rəsmiləşdirilir. Protokol nəzərə alınmaq üçün iştirak haqqını ödəmiş bütün təchizatçılara həmin gün göndərilir və Portalda yerləşdirilir. Satınalan təşkilatla təchizatçılar arasında qeyri-rəsmi danışıqlar aparılması və görüşlərin keçirilməsi qadağandır.

**8. Şərtlər toplusuna dəyişikliklərin edilməsi**

8.1. Satınalma komissiyası təkliflərin təqdim edilməsi müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək (**Satınalma məlumat vərəqində (7)** qeyd olunan tarix və vaxta qədər) şərtlər toplusuna hər hansı təchizatçının sorğusu əsasında və ya texniki səhvlər və ya çatışmazlıqlar aşkar edildikdə öz təşəbbüsü ilə dəyişikliklər (satınalma predmetinin dəyişdirilməsi istisna olmaqla) edə bilər.

8.2. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə şərtlər toplusunda hər hansı dəyişiklik edilməsinə, habelə bununla bağlı hər hansı sorğuya, təklifə və icazəyə yol verilmir.

8.3. Satınalma komissiyası şərtlər toplusuna dəyişikliklər etdiyi halda təkliflərin təqdim edilməsi müddətini ən azı 5 (beş) iş gününədək uzadır. Təchizatçının əsaslandırılmış müraciəti əsasında təkliflərin təqdim edilməsi müddəti 10 (on) iş gününədək uzadıla bilər.

8.4. Şərtlər toplusuna edilmiş dəyişiklik onun ayrılmaz tərkib hissəsi hesab edilir. Dəyişikliklər Portal vasitəsilə bütün təchizatçılara göndərilir və bütün təchizatçılar üçün məcburi qüvvəyə malikdir.

## C. Təkliflərin hazırlanması

**9. Satınalma xərcləri**

9.1. Təchizatçı öz təklifini hazırlamaq və təqdim etməklə bağlı bütün xərcləri özü çəkir və satınalan təşkilat satınalma prosesinin nəticəsindən asılı olmayaraq, həmin xərclərə görə məsuliyyət və ya öhdəlik daşımır.

**10. Təklifin tərtib olunmasının dili**

10.1. Təklif və həmçinin təchizatçı ilə satınalan təşkilat arasında bütün yazışmalar və sənəd mübadiləsi Azərbaycan dilində aparılır. Satınalma komissiyasının qərarı ilə satınalmalara dair sənədlər **Satınalma məlumat vərəqində (8)** nəzərdə

tutulmuş xarici dillərdən birinə (bir neçəsinə) tərcümə oluna bilər. Bu halda satınalmalara dair sənədlər arasında ziddiyyət yaranarsa, Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

10.2. Təklifin tərkibinə daxil olan müşayiətedici sənədlər və çap materialları tərcüməsi ilə verilmək şərtilə, başqa dildə ola bilər. Təchizatçının xarici dildə təqdim etdiyi sənədlərin Azərbaycan dilinə notarial qaydasında təsdiqlənmiş tərcüməsi təqdim olunmalıdır. Təklif ilə tərcüməsi arasında ziddiyyət yaranarsa Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmuş sənədlərə üstünlük verilir.

**11. Təklifə daxil olan sənədlər**

11.1. Təchizatçı təqdim etdiyi təklifə aşağıdakıları əlavə edir:

(a) Təlimatın 12-ci hissəsinin tələbləri nəzərə alınmaqla təklif məktubu;

(b) Təlimatın 12-ci və 13-cü hissələrinin tələbləri əsasında qiymətləndirilmiş fəaliyyət cədvəli daxil olmaqla digər cədvəllər;

(c) səlahiyyət: Təlimatın 18.2-ci və 21.4-cü bəndlərinə uyğun olaraq təklifi imzalayan şəxsin səlahiyyətli olduğunun yazılı təsdiqi;

(d) uyğunluq: Təlimatın 16-cı hissəsinin tələbləri nəzərə alınmaqla uyğunluq sənədləri, habelə şərtlər toplusunda nəzərdə tutulduğu halda subpodratçının müəyyən olunmuş tələblərə uyğun olması barədə sənədlər;

(e) münasiblik: Təlimatın 15-ci hissəsinin tələbləri nəzərə alınmaqla texniki təklif;

(f) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində tələb olunan digər sənədlər.

11.2. Təlimatın 11.1-ci bəndinin tələblərinə əlavə olaraq birgə fəaliyyət tərəfindən təqdim edilən təklifə bütün tərəflərin imzaladığı birgə fəaliyyət müqaviləsinin surəti daxil edilməlidir. Alternativ olaraq, satınalmada qalib olacağı təqdirdə birgə fəaliyyət müqaviləsinin icrasına dair niyyət məktubunu bütün tərəflər imzalamalı və birgə fəaliyyət müqavilə layihəsi ilə birlikdə təqdim edilməlidirlər.

**12. Təklif məktubu və cədvəllər**

12.1. Təklif məktubu və fəaliyyət cədvəli Satınalma formaları (IV) bölməsində verilmiş müvafiq formalardan istifadə edilməklə hazırlanmalıdır. Formalar mətnə heç bir dəyişiklik edilmədən doldurulmalıdır və heç bir əvəzedici qəbul edilə bilməz. Bütün boş xanalara tələb olunan məlumatlar yazılmalıdır.

**13. Təklifin qiyməti**

13.1. Təklif məktubunda və fəaliyyət cədvəlində göstərilən qiymətlər bu hissədə göstərilən tələblərə cavab verməlidir.

13.2. Təchizatçı fəaliyyət cədvəlində göstərilən bütün bəndlərə qiymət daxil etməlidir. Təchizatçı tərəfindən qiymət daxil edilməyən və həmin hissələrin əlavə ödənişsiz icra edilməsi ilə bağlı qeyd olan bəndlərin fəaliyyət cədvəlinə daxil edilən digər qiymətlərlə əhatə edildiyi qəbul ediləcəkdir. Hər hansı qeyd olmadan qiymət daxil edilməyən bəndləri olan təklif natamam hesab ediləcəkdir.

13.3. **Satınalma məlumat vərəqində (9)** başqa hal nəzərdə tutulmadığı təqdirdə təchizatçı tərəfindən müqavilə çərçivəsində və ya hər hansı digər səbəbə görə ödənilməli olan bütün rüsumlar, vergilər və digər tutulmalar təchizatçının təklif etdiyi qiymətdə nəzərə alınmalıdır.

13.4. Qiymət endirimlərinə icazə verilmir.

**14. Təklifin və ödənişin məzənnəsi**

14.1. Təchizatçılar (qeyri-rezident hüquqi və fiziki şəxslər istisna olmaqla) təkliflərində qiymətləri Azərbaycan Respublika-sının pul vahidi - manatla göstərməlidirlər.

14.2. Qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri sərbəst dönərli xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə əsas götürülməlidir.

**15. Texniki göstəricilərə münasibliyi təşkil edən sənədlər (təklif)**

15.1. Təchizatçı *(B) Xidmətlərə dair tələblər* sənədində qeyd olunan tələblərə cavab verdiyini göstərmək və təklifinin yetərliliyini nümayiş etdirmək üçün icra metodologiyası, iş qrafiki və Satınalma formaları (IV) bölməsində nəzərdə tutulmuş hər hansı digər məlumat daxil olmaqla kifayət qədər təfərrüatlı texniki təklif təqdim etməlidir.

15.2. Təklif edilən hər bir avadanlığın, texnikanın, məhsulun və digər malların özünəməxsus texniki və keyfiyyət xüsusiyyətləri (göstəriciləri), o cümlədən konkret əmtəə nişanı və adı, modeli, istehsal mənbəyi (mənşə ölkəsi) və istehsalçısına aid məlumatlar və istehsalçının texniki məlumat vərəqi (hansı varsa) təklifə əlavə edilməlidir.

**16. Uyğunluq sənədləri**

16.1. Təchizatçıların uyğunluq göstəriciləri təchizatçılara dair ümumi və xüsusi tələblərdən ibarətdir.

16.2. Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinin tələblərinə uyğun olaraq təchizatçılar müqaviləni icra etmək imkanlarını göstərmək üçün Satınalma formaları (IV) bölməsinə daxil edilən müvafiq məlumat vərəqələrini təmin etməli, habelə Qanunun 23-cü maddəsinə əsasən təchizatçıların uyğunluq göstəricilərini təsdiq edən sənədlər (bundan sonra – uyğunluq sənədləri) təqdim etməlidir.

**17. Təklifin qüvvədə olma müddəti**

17.1. Təkliflər **Satınalma məlumat vərəqin**də **(10)** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış tarixə qədər qüvvədə olmalıdır. **Satınalma məlumat vərəqində** qeyd olunmuş və ya dəyişdirilibsə Təlimatın 8-ci hissəsinə uyğun uzadılmış tarixədək qüvvədə olmayan təkliflər formal tələblərə uyğun gəlməyən təklif kimi kənarlaşdırılır.

17.2. Satınalma komissiyası ən çoxu təkliflərin ilkin qüvvədə olduğu müddət qədər təkliflərin qüvvədə olma müddətinin uzadılmasını təchizatçılardan tələb edə bilər.

**18. Təklifin formatı və imzalanması**

18.1. Təchizatçılar təkliflərində biznesləri üçün məxfi olan bütün məlumatları "MƏXFİ" kimi qeyd etməlidirlər. Buraya mülkiyyət məlumatları, ticarət sirləri və ya kommersiya/ maliyyə baxımından həssas məlumatlar daxil ola bilər.

18.2. Təklif təchizatçının rəhbəri və ya digər vəzifəli şəxsi tərəfindən imzalanmalıdır. Təklifi təchizatçının rəhbəri imzaladıqda həmin təchizatçının təsis və hüquqi və ya fiziki şəxsin qeydiyyat sənədlərini təqdim etməlidir. Təklifi imzalayan digər vəzifəli şəxs olduğu təqdirdə isə həmin vəzifəli şəxsə imza səlahiyyətlərinin verilməsinə dair həmin təchizatçının rəhbəri tərəfindən səlahiyyəti təsdiq edən sənəd – etibarnamə təqdim edilməlidir.

18.3. Təchizatçı birgə fəaliyyət göstərdiyi halda, təklif birgə fəaliyyət göstərən təchizatçıların səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmalıdır. Həmin nümayəndənin imza səlahiyyətinə malik olması Təlimatın 21.3-cü bəndinin tələbləri nəzərə alınmaqla birgə fəaliyyət göstərən təchizatçıların rəhbərləri tərəfindən imzalanmış etibarnamə ilə təsdiq edilir.

## D. Təkliflərin təqdim olunması və açılması

**19. Təkliflərin təqdim edilməsinin son müddəti**

19.1. Təkliflər onların təqdim edilməsi üçün **Satınalma məlumat vərəqində (11)** müəyyən edilən müddət başa çatanadək Portal vasitəsilə elektron qaydada satınalan təşkilata təqdim edilir.

**20. Gecikmiş təkliflər**

20.1. Təlimatın 19-cu hissəsi ilə müəyyən olunmuş müddətdən gec təqdim olunan təklif qəbul edilmir.

**21. Təkliflərin geri götürülməsi və ya dəyişdirilməsi**

21.1. Təchizatçı təkliflərin təqdim edilməsi müddəti bitənədək öz təklifini dəyişdirə və ya geri götürə bilər.

21.2. Təlimatın 21.1-ci bəndinə uyğun olaraq geri götürülməsi istənilən təklif açılmadan təchizatçıya qaytarılır.

**22. Təkliflərin açılması**

22.1. Təkliflərin son təqdim olunması müddətinə qədər təqdim olunmuş təkliflər satınalma komissiyası tərəfindən

**Satınalma məlumat vərəqində (12)** qeyd olunan tarixdə və vaxtda Portal vasitəsilə elektron qaydada açılır.

22.2. Təkliflər açılarkən hər bir təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı və atasının adı), ünvanı, VÖEN-i, təklifinin qiyməti və qüvvədə olma müddəti Portalda dərc olunur.

## E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi

**23. Məxfilik (konfidensiallıq)**

23.1. Məhkəmənin, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra – AİBNDX), Azərbaycan Respublikası Hesablama Palatasının və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin qanunla müəyyən edilmiş hüquq və vəzifələrinin icrası ilə bağlı məlumatların açıqlanması halları istisna olmaqla, satınalan təşkilat digər hallarda təchizatçıların kommersiya sirri təşkil edən və ya qanunla qorunan digər məlumatlarını açıqlamır və onları məxfi (konfidensial) saxlayır.

23.2. Təchizatçılar tərəfindən təqdim edilən uyğunluq sənədləri və təkliflər, bağlanılan satınalma müqaviləsinin surəti, satınalma müqaviləsi uzunmüddətlidirsə və ya mərhələlərlə həyata keçirilirsə, icrasının gedişi haqqında mütəmadi məlumatlar, satınalan təşkilatla təchizatçı arasında satınalma müqaviləsinin icrası, mübahisəli məsələlərin həlli ilə əlaqədar sənədlər və satınalma müqaviləsinin tam icra edilməsi haqqında satınalan təşkilatla təchizatçı arasında imzalanan təhvil-təslim aktı istisna olmaqla, satınalmaya dair hesabata əlavə edilən digər sənədlər təklifin akseptindən, yaxud satınalma müqaviləsinin bağlanılması ilə nəticələnməyən satınalma yekunlaşdıqdan sonra 7 (yeddi) iş günü ərzində sorğu əsasında təklif təqdim edən təchizatçılara verilir.

23.3. Təchizatçı satınalmanın istənilən mərhələsində Qanunun tələblərinə zidd hərəkətlərə (hərəkətsizliyə) yol verdikdə, o cümlədən saxta sənəd və (və ya) məlumat təqdim etdikdə satınalma komissiyası həmin təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

23.4. Təchizatçı Təlimatın 23.3-cü bəndinin tələblərini nəzərə almaqla satınalma prosesi ilə əlaqədar olan hər hansı məsələ ilə bağlı satınalma komissiyası ilə yalnız Portal vasitəsilə əlaqə saxlaya bilər.

**24. Təkliflərə dair izahat**

24.1. Uyğunluq sənədlərinin və təkliflərin qiymətləndirilməsini asanlaşdırmaq məqsədilə satınalma komissiyası təchizatçıdan təqdim etdiyi uyğunluq sənədlərinə və ya təkliflərə dair izahat tələb edə bilər. Təchizatçı tərəfindən satınalma komissiyasının sorğusuna uyğun verilməyən cavablar nəzərə alınmır. Satınalma komissiyası tərəfindən qiymətləndirmə zamanı təklifin qiymətlərində və ya mahiyyətində heç bir dəyişiklik, o cümlədən könüllü artım və ya azalma tələb edilməsinə yol verilmir.

24.2. Təchizatçı bu cür izahatı 5 (beş) iş günü ərzində satınalan təşkilata təqdim etmədiyi təqdirdə onun təklifi kənarlaşdırıla bilər.

**25. Formal tələblərə uyğunluğun müəyyən edilməsi**

25.1. Satınalma komissiyası Qanunun 33-cü maddəsinin tələblərini nəzərə almaqla Təlimatın 11-ci hissəsində göstərilmiş tələblərə cavab verən təklifi formal tələblərə uyğun təklif hesab edir.

25.2. Təklif əhəmiyyətli dərəcədə uyğun təklif hesab edilməsi üçün aşağıdakı hallar nəzərə alınmaqla əsaslı kənara çıxma, qeyd-şərt və çatışmazlıq olmadan şərtlər toplusunun tələblərinə cavab verməlidir:

(a) qəbul edildiyi təqdirdə: (i) müqavilədə göstərilən xidmətlərin həcminə, keyfiyyətinə və ya icrasına hər hansı əhəmiyyətli şəkildə təsir edəcək və ya (ii) şərtlər toplusunun tələblərinə zidd olaraq satınalan təşkilatın hüquqlarını və ya təklif olunan müqavilə çərçivəsində təchizatçının öhdəliklərini əsaslı şəkildə məhdudlaşdıracaq və ya

(b) düzəldildiyi təqdirdə, əhəmiyyətli dərəcədə uyğun hesab edilən digər təchizatçıların rəqabət mövqeyinə ədalətsiz təsir göstərəcək.

25.3. Satınalma komissiyası xüsusilə, *(B) Xidmətlərə dair tələblər* sənədində qeyd olunan bütün tələblərin, heç bir əsaslı kənara çıxma, qeyd-şərt və ya çatışmazlıq olmadan yerinə yetirildiyini təsdiqləmək üçün Təlimatın 15-ci hissəsinə uyğun olaraq təqdim edilmiş təklifin texniki aspektlərini yoxlamalıdır.

25.4. Təklifi uyğun olmayan təchizatçının belə tələblərə uyğunlaşdırılması məqsədilə əsaslı kənara çıxmaya, qeyd-şərtə və ya çatışmazlığa düzəliş edilməsinə yol verilmədən kənarlaşdırılır.

**26. Əhəmiyyətsiz uyğunsuzluqlar**

26.1. Təklifdə onun mahiyyətini dəyişdirməyən, şərtlər toplusunda göstərilmiş xüsusiyyətlərə, şərtlərə və başqa tələblərə əhəmiyyətli dərəcədə xələl gətirməyən, aradan

qaldırılması mümkün olan kiçik texniki səhvlər və ya çatışmazlıqlar (əhəmiyyətsiz uyğunsuzluqlar) olduqda, həmin səhvlər və ya çatışmazlıqlar kəmiyyətcə ifadə olunur və satınalma komissiyası təklifi formal tələblərə uyğun təklif hesab edir.

26.2. Təklifin əhəmiyyətli dərəcədə uyğun olması şərti ilə, satınalma komissiyası təchizatçının sənədləşdirmə tələbləri ilə bağlı əhəmiyyətsiz uyğunsuzluqları təchizatçıdan 5 (beş) iş günü ərzində aradan qaldırmasını tələb edə bilər. Bu cür uyğunsuzluqlar haqqında məlumat və ya sənədlərin tələb edilməsi təklifin qiymətinin heç bir aspekti ilə əlaqəli olmamalıdır. Təchizatçının qeyd edilmiş müddət ərzində sorğuya cavab verməməsi onun təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.

**27. Hesab səhvlərinin düzəldilməsi**

27.1. Təqdim olunan təkliflər qiymətləndirilərkən hesab səhvlərinin düzəldilməsinə yol verilmir.

**28. Vahid valyutaya konvertasiya**

28.1. Qiymətləndirmə və müqayisə məqsədilə qeyri-rezident hüquqi və fiziki şəxslərin təklifləri bütövlüklə və ya bir qismi xarici valyuta ilə göstərildikdə, təkliflərin təqdim edilməsinin son gününə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə (www.cbar.az/currency/rates) əsas götürülərək Azərbaycan manatına konvertasiya edilməlidir.

**29. Satınalma güzəşti**

29.1. Satınalma komissiyası təklifləri qiymətləndirərkən, yerli mənşəli xidmətlər üzrə təklifin xeyrinə Qanunun 33.14-cü maddəsində müəyyən edilmiş qaydada 20 faizə qədər həcmdə güzəşti düzəliş tətbiq edir.

**30. Subpodratçılar**

30.1. **Satınalma məlumat vərəqində (13)** nəzərdə tutulduğu təqdirdə qalib təchizatçı xidmətlərin göstərilməsi ilə əlaqədar subpodratçılarla müqavilə imzalaya bilər. Bütün digər hallarda satınalma müqaviləsinin icrası subpodratçılara həvalə edilə bilməz. Bu halda təchizatçı təqdim etdiyi təklifə subpodratçıya həvalə ediləcək fəaliyyət (fəaliyyətlər) və ya xidmətlərin hissələri və satınalma müqaviləsindəki payı barədə məlumat əlavə etməlidir. Subpodrat müqaviləsinin (müqavilələrinin) məbləği satınalma müqaviləsinin ümumi dəyərinin 50 faizindən çox olmamalıdır. Satınalma müqaviləsinin icrasına subpodratçılar cəlb olunduğu halda, subpodrat müqavilələrinin ümumi məbləğinin 20 faizdən az olmayan hissəsinin icrası Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş mikro, kiçik və orta sahibkarlıq

subyektlərinə həvalə olunmalıdır.

30.2. Subpodratçının uyğunluq göstəriciləri şərtlər toplusunda təchizatçı üçün müəyyən edilmiş uyğunluq göstəriciləri tələblərinə cavab vermək üçün istifadə edilməməlidir.

**31. Təkliflərin qiymətləndirilməsi**

31.1. Satınalan təşkilat təklifləri Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulan meyarlara və prosedurlara əsasən qiymətləndirir.

31.2. Təklifi qiymətləndirərkən satınalma komissiyası aşağıdakıları nəzərə alır:

(a) Təlimatın 28.1-ci bəndinə uyğun digər valyutada təklif olduğu təqdirdə vahid məzənnəyə konvertasiya;

(b) Təlimatın 29-cu hissəsinə uyğun olaraq satınalma güzəştinin tətbiqi;

(c) Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində müəyyən edilmiş digər qiymətləndirmə meyarları.

**32. Təkliflərin müqayisəsi**

32.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı qiyməti olan təklifi müəyyən etmək üçün Təlimatın 31.1-ci bəndinə uyğun olaraq müəyyən edilmiş tələblərə əhəmiyyətli dərəcədə cavab verən bütün təkliflərin qiymətləndirilmiş yekun məbləğini müqayisə etməlidir.

**33. Həddindən artıq ucuz təkliflər**

33.1. Təchizatçının təqdim etdiyi təklifin qiyməti ehtimal olunan qiymətlə müqayisədə 20 faizdən aşağı olarsa, satınalma komissiyası təchizatçıdan təklif qiymətinin ətraflı təhlili, təklif olunan metodologiya, iş qrafiki, risk və məsuliyyətin paylaşdırılması, habelə şərtlər toplusunun digər tələbləri barədə yazılı izahat almalıdır. Təchizatçının təqdim etdiyi izahat və məlumatlar təhlil edildikdən sonra satınalma müqaviləsinin icrasına əsaslı şübhələr qaldıqda satınalma komissiyası təchizatçının satınalmadan kənarlaşdırılması haqqında əsaslandırılmış qərar qəbul edir.

**34. Təchizatçının uyğunluq göstəriciləri**

34.1. Satınalma komissiyası qiymətləndirilmiş ən aşağı məbləği olan və əhəmiyyətli dərəcədə uyğun olan ilk 3 (üç) təchizatçının təklifinin Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində qeyd edilmiş uyğunluq göstəricilərinə cavab verib-vermədiyini müəyyən etməlidir.

34.2. Bunun müəyyənləşdirilməsi üçün Təlimatın 16-ci hissəsinə uyğun olaraq təchizatçı tərəfindən təqdim edilmiş uyğunluq göstəricilərini təsdiq edən sənədlər araşdırılmalı, təchizatçının özündən başqa digər törəməsi və ya tabe olduğu müəssisələr, törəmə və tabeliyində olan müəssisələri, filialları və subpodratçılarının uyğunluq sənədləri nəzərə alınmamalıdır.

34.3. Uyğunluq göstəricilərinə cavab verən təklifin seçilməsi müqavilənin bağlanması üçün ilkin şərtdir. Təlimatın 40.1-ci bəndinin tələbləri yerinə yetirilmədikdə qiymətləndirilmiş ən aşağı məbləği olan növbəti təklif və ya təkliflərin uyğunluq tələblərinə cavab verib-vermədiyi müvafiq qaydada araşdırılır.

34.4. **Satınalma məlumat vərəqində (14)** göstərilən hallarda, satınalma komissiyası tərəfindən əsaslandırılmaqla uyğunluq sənədlərini təqdim etmiş təchizatçıdan satınalmanın istənilən mərhələsində həmin sənədlərin yenidən (bir dəfədən çox olmayaraq) təqdim edilməsi tələb oluna bilər. Bu cür tələb təklifin qüvvədə olma müddətinin bitməsinə 10 (on) iş günü qalanadək irəli sürülür və uyğunluq sənədlərinin yenidən təqdim edilməsi 5 (beş) iş günü ərzində həyata keçirilir.

34.5. Təchizatçının uyğunluq göstəriciləri barədə verdiyi qeyri-dəqiq və natamam məlumat satınalma komissiyasının tələbi ilə 3 (üç) iş günü ərzində aradan qaldırılmalıdır.

**35. Qalib təklifin seçilməsi**

35.1. Uyğunluq göstəricilərinə cavab verən və təklifləri uyğun olan ən aşağı qiymət təklifi təqdim edən təchizatçı qalib təchizatçı sayılır.

**36. Satınalma komissiyasının istənilən təklifi aksept etmək və istənilən və ya bütün təklifləri kənarlaşdırmaq hüququ**

36.1. Satınalma komissiyası Qanunun tələblərini nəzərə almaqla qalib təchizatçını seçməzdən əvvəl istənilən vaxt istənilən təklifi aksept etmək və ya kənarlaşdırmaq və satınalmanın ləğv edilməsi haqqında qərar qəbul etmək hüququnu özündə saxlayır və buna görə təchizatçılar qarşısında heç bir məsuliyyət daşımır. Zərflər açılana qədər satınalma ləğv edildiyi halda təkliflər, zərflər açıldıqdan sonra isə təkliflərin təminatları təchizatçılara dərhal geri qaytarılır.

36.2. Satınalma komissiyası aşağıdakı hallarda satınalmanın ləğv edilməsi haqqında qərar qəbul edir:

(a) satınalmada iştirak etmək üçün təklifi təqdim etmiş, tələb olunduğu halda müvafiq lisenziyaya və ya icazəyə malik olan təchizatçıların sayı üçdən az olduqda;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(c) birinci, ikinci və üçüncü yerləri tutmuş təchizatçılar arasından qalib təchizatçını seçmək mümkün olmadıqda;

(d) bütün təchizatçıların təqdim etdiyi təkliflərin qiyməti ehtimal olunan qiymətdən yüksək olduqda;

(e) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı

sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən bu Təlimatın 3.2-ci bəndinin tələblərinin pozulduğu müəyyən edildikdə;

(f) satınalmanın maliyyələşdirilməsi dayandırıldıqda.

**37. Satınalmanın nəticələri barədə bildiriş**

37.1. Satınalma komissiyası satınalmanın nəticələri haqqında yekun protokolu imzaladığı gün satınalan təşkilatın adından təklifini aksept etmək istədiyi təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), ünvanı, VÖEN-i, imzalanması nəzərdə tutulan müqavilənin məbləği, habelə gözləmə müddətinin qüvvədə olma tarixləri barədə satınalmadan kənarlaşdırılmamış təchizatçılara Təlimatın 41-ci hissəsi nəzərə alınmaqla bildiriş göndərməklə yanaşı Portalda məlumat yerləşdirir. Bildirişdə digər təchizatçıların qalib gəlməməsinin səbəbləri göstərilir.

**38. Gözləmə müddəti**

38.1. Satınalmanın nəticələri barədə bildirişin göndərildiyi gündən sonrakı iş günü gözləmə müddəti başlayır və 5 (beş) iş günü ərzində qüvvədə olur. Gözləmə müddəti bitmədən satınalan təşkilat ilə qalib təchizatçı arasında müqavilə imzalana bilməz.

## F. Qalibin seçilməsi

**39. Qalibin seçilməsi proseduru**

39.1. Təlimatın 36-cı hissəsinin tələbləri nəzərə alınmaqla satınalma komissiyası qalib təchizatçını seçir.

**40. Satınalma predmetinin həcminin (miqdarının) dəyişməsi**

40.1. Satınalma müqaviləsi qalib təchizatçı tərəfindən imzalanadək satınalma komissiyası əvvəlcədən şərtlər toplusunda göstərmişdirsə, satınalma predmetinin hər vahidinin qiymətini və xüsusiyyətlərini (göstəricilərini) dəyişdirməmək, həmçinin ehtimal olunan qiyməti keçməmək şərti ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin razılığı ilə satınalma predmetinin həcmini (miqdarını) 10 faizə qədər artırıb-azalda bilər.

**41. Müqavilənin imzalanması**

41.1. Satınalan təşkilat təklifin şərtlər toplusunda göstərilmiş qüvvədə olma müddətinin bitməsinə 3 (üç) iş günü qalanadək qalib təchizatçının təklifini aksept edir və satınalma müqaviləsini tərtib edib təchizatçıya aksept bildirişi ilə birlikdə göndərir.

41.2. Qalib təchizatçı 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalayır və satınalan təşkilata bu Qanuna əsasən tələb olunan icra təminatını təqdim edir. Satınalan təşkilat satınalma müqaviləsini 10 (on) iş günündən gec

olmayaraq imzalayır.

**42. Bağlanılmış müqavilə barədə məlumatın verilməsi**

42.1. Satınalma komissiyası satınalma müqaviləsi qüvvəyə mindiyi gündən 3 (üç) iş günü ərzində satınalan təşkilatın və müqaviləni bağlamış təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), VÖEN-i, satınalma predmeti, satınalma metodu, müqavilənin məbləği və icra müddəti barədə Portalda məlumat yerləşdirir.

**43. İcra təminatı**

43.1. İcra təminatının məbləği satınalma müqaviləsinin ümumi məbləğinin 10 faizi (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 5 faizi) həcmində müəyyən olunur. İcra təminatının qüvvədə olma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda, zəmanət müddəti daxil olmaqla) 30 (otuz) iş günü çox olmalıdır.

43.2. Ümumi məbləği 30 000 (otuz min) manatdan az olan satınalma müqaviləsi üzrə icra təminatı tələb olunmur.

43.3. Qalib təchizatçının Təlimatın 41.2-ci bəndində qeyd olunan müddət ərzində satınalma müqaviləsini imzalamaması və (və ya) Qanuna əsasən tələb olunan icra təminatını təqdim etməməsi onun öz öhdəliklərini icra edə bilməməsi kimi qiymətləndirilir.

## G. Şikayət verilməsi

**44. Şikayət vermək hüququ**

44.1. Hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə təchizatçıların satınalan təşkilatın hərəkətlərindən (hərəkətsizliyindən) və qərarlarından inzibati qaydada, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət vermək hüququ vardır.

44.2. Aşağıdakılar şikayət predmeti ola bilməz:

(a) Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinin məhdudlaşdırılması;

(b) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmaması və satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirilməsi halları istisna olmaqla qanuni əsaslarla satınalmanın ləğv edilməsi.

**45. Satınalan təşkilata şikayət**

45.1. Satınalmadan kənarlaşdırılmamış təchizatçılar satınalan təşkilata satınalmanın nəticələri ilə bağlı öz şikayətlərini gözləmə müddətində verirlər. Satınalan təşkilat gözləmə müddətində verilmiş şikayəti 5 (beş) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

45.2. Kənarlaşdırılmış və ya iştirak etməyən təchizatçılar satınalma müqaviləsi qüvvəyə minənədək öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 15 (on beş) iş günü ərzində satınalan təşkilata şikayət verə bilərlər. Satınalan təşkilat verilmiş şikayəti 10 (on) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir və həmin qərarın qəbul edildiyi gündən 1 (bir) iş günü ərzində şikayət edən təchizatçıya göndərir.

45.3. Şikayət gözləmə müddəti və ya Təlimatın 45.2-ci bəndi ilə müəyyən edilən müddət keçdikdən sonra verilmişdirsə, satınalan təşkilat həmin şikayəti baxılmamış saxlayır.

45.4. Satınalan təşkilat Təlimatın 45.1-ci və 45.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmirsə, təchizatçı bununla bağlı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə və məhkəməyə şikayət verə bilər. Belə şikayət verildikdən sonra satınalan təşkilat tərəfindən həmin şikayət baxılmamış saxlanılır.

**46. AİBNDX-yə şikayət**

46.1. Təchizatçılar aşağıdakı hallarda İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilər:

(a) satınalma müqaviləsi qüvvəyə mindikdə;

(b) satınalma komissiyası Qanunun və Qanundan irəli gələn normativ hüquqi aktların tələblərini pozduqda;

(c) təqdim olunan təkliflərdən heç biri şərtlər toplusunun tələblərinə uyğun olmadıqda;

(d) satınalmanın keçirilməsi zamanı bütün təchizatçılar arasında həmin satınalma ilə bağlı hər hansı sövdələşmə (o cümlədən qiymətin qaldırılmasına yönələn sövdələşmə) həyata keçirildikdə, yaxud bütün təchizatçılar tərəfindən satınalmalarda maraqlar toqquşmasının tələbləri pozulduğu müəyyən edildikdə;

(e) Satınalan təşkilat Təlimatın 45.1-ci və 45.2-ci bəndlərində göstərilən müddət ərzində qərar qəbul etmədikdə;

(f) verilmiş şikayətlə bağlı satınalan təşkilatın qərarı ilə razılaşmadığı halda.

46.2. Təchizatçılar öz hüquqlarının pozulduğunu bildiyi və ya

bilməli olduğu gündən, habelə Təlimatın 46.1(f) bəndində nəzərdə tutulmuş qərarı aldığı gündən və ya həmin qərarın verilməli olduğu gündən 15 (on beş) iş günü ərzində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə şikayət verə bilərlər.

46.3. AİBNDX şikayəti aldıqdan sonra 1 (bir) iş günü ərzində bu barədə satınalan təşkilata Portal vasitəsilə bildiriş göndərir. Şikayətdə qaldırılan məsələlərin araşdırılması üçün əlavə məlumat tələb olunduğu təqdirdə AİBNDX satınalan təşkilata Portal vasitəsilə sorğu göndərir. Satınalan təşkilat sorğunu aldıqdan sonra 3 (üç) iş günü ərzində sorğuda tələb olunan məlumatları İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə təqdim edir.

46.4. AİBNDX verilmiş şikayəti 20 (iyirmi) iş günü ərzində araşdıraraq müvafiq qərar qəbul edir.

46.5. AİBNDX şikayəti təmin edirsə aşağıdakı tədbirlərdən birini və ya bir neçəsini tətbiq edir.

(a) satınalan təşkilata qanunazidd hərəkətlər (hərəkətsizlik) etməyi və ya qərarlar qəbul etməyi, yaxud prosedurlar tətbiq etməyi qadağan etmək;

(b) satınalan təşkilatın qanunazidd inzibati aktını "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 67-ci maddəsinə uyğun olaraq ləğv etmək;

(c) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd hərəkətini (hərəkətsizliyini) dayandırmaq;

(d) satınalan təşkilatın və ya satınalma komissiyasının qanunazidd qərarını ləğv etmək və yeni qərar qəbul etmək və ya satınalan təşkilatın əvəzinə öz qərarını qəbul etmək;

(e) təkliflərin yenidən qiymətləndirilməsi və ya satınalmanın ləğv edilməsi barədə qərar qəbul etmək.

**47. Satınalmanın dayandırılması**

47.1. Təlimatın 45-ci və 46-cı hissələrinə əsasən verilən şikayətin (gözləmə müddətində verilən şikayət istisna olmaqla) araşdırılması məqsədilə "İnzibati İcraat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinə uyğun olaraq İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qərarı ilə satınalan təşkilat tərəfindən satınalma prosedurları 10 (on) iş gününədək dayandırıla bilər. Bu müddət İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsaslandırılmış qərarı ilə 10 (on) iş gününədək uzadıla bilər.

**48. İnzibati qaydada şikayət**

48.1. Təchizatçılar AİBNDX-nin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və məhkəməyə şikayət verə bilərlər.

## H. Müqavilə

**49. Müqavilə şərtləri**

49.1. Təchizatçı təklifini formalaşdırarkən satınalma müqaviləsinin tələblərini nəzərə almalıdır.

49.2. Satınalma müqaviləsində aşağıdakı məlumatlarından çıxarış **Satınalma məlumat vərəqində (15)** də göstərilir:

(a) satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği;

(b) avans;

(c) satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları;

(d) satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları;

(e) tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri.

49.3. Satınalma müqaviləsi ilə şərtlər toplusunda qeyd edilən məlumatlar arasında ziddiyyət olarsa şərtlər toplusu üstünlük təşkil edir.

# II BÖLMƏ. SATINALMA MƏLUMAT VƏRƏQİ

Satın alınacaq xidmətlər üçün aşağıdakı spesifik məlumatlar Təlimatın müddəalarını tamamlayır, aydınlaşdırır və ya dəyişdirir. Hər hansı bir ziddiyyət yarandıqda, aşağıdakı müddəalar Təlimatdakı müddəalardan üstün olacaqdır.

*[Satınalma məlumat vərəqini doldurmaq üçün zəruri təlimatlar istinad olunan müvafiq Təlimatın üçün kursivlə yazılmış qeydlərdə təqdim olunur və şərtlər toplusu doldurulduqdan sonra silinir]*

| Sıra №-si | Bənd | Məzmun | Məlumat |
|---|---|---|---|
| **A. Ümumi** | | | |
| (1) | 1.1. | Satınalma predmeti | **(satınalma predmetini daxil edin)** |
| | | Satınalan təşkilatın adı:<br>VÖEN-i | **(satınalan təşkilatın adını daxil edin)**<br>**(VÖEN-i daxil edin)** |
| | | Satınalan təşkilatın əlaqələndirici vəzifəli şəxsi barədə məlumat | **(soyadı, adı və atasının adını daxil edin)**<br>**(vəzifəsini daxil edin)**<br>**(əlaqə məlumatlarını daxil edin)** |
| (2) | 3.1. | Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma | **(iştirakı məhdudlaşdırılan ölkələr və ya məhdudlaşdırılma şərtləri barədə məlumatı daxil edin)**<br>*[Əgər belə hallar nəzərdə tutulmayıbsa "nəzərdə tutulmayıb" qeyd edin]* |
| (3) | 3.3. | Birliyin üzvlərinin maksimal sayı | **(sayı daxil edin)** |
| (4) | 4.1. | İştirak haqqı | **(məbləği daxil edin)**<br>*[Qanunun 28.6-cı maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilmiş məbləği daxil edin]* |
| **B. Şərtlər toplusunun məzmunu** | | | |
| (5) | 7.1. | Şərtlər toplusuna dair izahat üçün son müddət | **(tarix və saatı daxil edin)** |
| (6) | 7.3. | Təklif öncəsi görüş və sahəyə baxış | Təklif öncəsi görüş **(aşağıdakı tarixdə, saatda və yerdə keçiriləcək / keçirilməyəcək)**.<br>*[keçiriləcəksə aşağıdakı məlumatları daxil edin, əks təqdirdə silin]*<br>Tarix **(tarixi daxil edin)**:<br>Saat: **(saatı daxil edin)** |

| | | | |
|---|---|---|---|
| | | | Yer: **(yeri daxil edin)**<br><br>Sahəyə baxış **(təşkil ediləcək / edilməyəcək)**. |
| (7) | 8.1. | Şərtlər toplusuna dəyişiklik üçün son müddət | **(tarix və saatı daxil edin)** |
| **C. Təkliflərin hazırlanması** | | | |
| (8) | 10.1. | Satınalmalara dair sənədlərin tərcümə olunacağı dil(lər): | Tərcümə **(olunacaq / olunmayacaq)**.<br>*[tərcümə olunacaqsa dili qeyd edin, əks təqdirdə silin]*<br>**(dili daxil edin)** |
| (9) | 13.3. | Təklifin qiymətində nəzərə alınmalı olan amillər: | **(qiymət təklifi hazırlanarkən nəzərə alınmalı olan halları daxil edin)**<br>*[Təklifin qiymətinin hazırlanması zamanı nəzərə alınmalı olan amilləri, halları daxil edin. Əgər təlimatda nəzərdə tutulandan başqa hal nəzərdə tutulmayıbsa “Başqa hal nəzərdə tutulmayıb” qeyd edin]* |
| (10) | 17.1. | Təklifin qüvvədə olma müddəti | Təklif ən azı **(tarixi daxil edin)** tarixinə qədər qüvvədə olmalıdır<br>*[təklifin qiymətləndirilməsini yekunlaşdırmaq, lazımi razılıqları, o cümlədən nəticələrin AİBNDX ilə razılaşdırmaq üçün lazım olan ağlabatan vaxt nəzərə alınmaqla tarixi qeyd edin]* |
| **D. Təkliflərin təqdim olunması və açılması** | | | |
| (11) | 19.1. | Təkliflərin təqdim edilməsinin son müddəti | **(tarix və saatı daxil edin)**<br><br>*[Təkliflərin cəlb edilməsi barədə elan təkliflərin açılması günündən azı 10 (on) iş günü əvvəl Portalda dərc edilir:*<br>*Təkliflərin hazırlanması və təqdim edilməsi üçün icazə verilən vaxt predmetin xüsusiyyəti, miqyası və mürəkkəbliyi nəzərə alınmaqla müəyyən edilməlidir]* |
| (12) | 22.1. | Təkliflərin açılmasının müddəti | **(tarix və saatı daxil edin)**<br><br>*[Təkliflər Təlimatın 24.1-ci bəndində qeyd olunan vaxtdan sonra 1 saat ərzində açılır]* |
| **E. Təkliflərin qiymətləndirilməsi və müqayisəsi** | | | |
| (13) | 30.1. | Subpodratçı | Subpodratçının cəlb edilməsinə icazə **(verilir / verilmir)** |

| | | | |
|---|---|---|---|
| | | | Subpodratçı üçün tələblər: **(tələbləri daxil edin)**<br>*[Məsələn, subpodratçının həyata keçirməsi nəzərdə tutulan fəaliyyət sahəsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növü olarsa müvafiq lisenziya əlavə edilməlidir]* |
| (14) | 34.4. | Uyğunluq sənədlərinin yenidən təqdim edilməsi halları | **(uyğunluq sənədlərinin yenidən təqdim edilməsi hallarını daxil edin)**<br>*["Təkliflərin qiymətləndirilməsi müddətində dəyişilməsi gözlənilən (məsələn. vergi arayışı və s.) və ya təqdim edilmiş sənədlər arasında ziddiyyət/uyğunsuzluq olması" kimi halları qeyd edin və ya "tətbiq edilmir" daxil edin].* |
| | | **H. Müqavilə** | |
| (15) | 49.2. | Müqavilə şərtləri | Ödəmələr: **(satınalma müqaviləsi üzrə ödəmələrin qaydası və məbləği)** |
| | | | Avans: **(avans ödənişi və təminatının məbləği və müqavilənin icra müddəti)**<br>*[Avans satınalma müqaviləsinin ümumi məbləğinin 30 faizindən (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 50 faizindən) çox olmayaraq ödənilir. Avansın alınması üçün təchizatçı tərəfindən satınalan təşkilata avans ödənişinin ümumi həcmindən az olmayan məbləğdə və müqavilənin icra müddətində qüvvədə olan müddətdə avans təminatı təqdim olunur]* |
| | | | Satınalma müqaviləsinin qüvvəyə minmə qaydaları: **(təklifin akseptindən sonra satınalma müqaviləsinin qüvvəyə minməsi üçün müvafiq sənədlər, həmin sənədlərin təqdim edilməsi müddəti və digər şərtlər)** |
| | | | Müqaviləyə dəyişiklik: **(satınalma müqaviləsinin icra müddətində və satınalma müqaviləsinin məbləğində dəyişiklik edilməsi qaydaları)** |
| | | | Sığorta: **(tətbiq edildikdə, satınalma predmetinin sığortalanması şərtləri)** |

# III BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ - UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI

Bu bölmədə satınalma komissiyası tərəfindən təklifləri qiymətləndirmək və uyğunluq göstəricilərinə cavab verən təchizatçıları müəyyən etmək üçün bütün meyarlar qeyd edilib. Bu şərtlər toplusunda qeyd edilməyən heç bir meyar, amil və ya göstəricidən istifadə edilə bilməz. Təchizatçı tələb olunan bütün məlumatları Satınalma formaları (IV) bölməsinə daxil edilən formalardan istifadə edərək təqdim etməlidir.

Təchizatçıdan maddi dəyərinin göstərilməsi tələb olunan məlumatlar Azərbaycan manatı ilə aşağıdakı qaydada müəyyən edilən məzənnədən istifadə edilərək təqdim edilməlidir:

- maliyyə vəziyyətində göstərilən məlumatlar - müvafiq təqvim ilinin son günündə qüvvədə olan valyuta məzənnəsi;
- müqavilənin məbləği - müqavilənin bağlandığı tarixdə qüvvədə olan valyuta məzənnəsi.

Valyuta məzənnələri Təlimatın 28.1-ci bəndi ilə müəyyən edilmiş açıq mənbədən götürülməlidir. Təklifində valyuta məzənnələrinin müəyyən edilməsində hər hansı səhv satınalma komissiyası tərəfindən düzəldilə bilər.

*[Satınalan təşkilat satınalma prosesi üçün uyğun hesab edilən meyarları seçməli, aşağıdakı nümunələrdən və ya digər məqbul mətndən istifadə etməklə müvafiq mətni daxil etməli və kursivlə yazılan mətni silməlidir].*

## A. Texniki və maliyyə göstəricilərinin qiymətləndirməsi

### 1. Texniki göstəricilərin qiymətləndirilməsi

Təlimatın 31.1-ci bəndinə uyğun olaraq təklifin tələblərə uyğunluğunun qiymətləndirilməsi.

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar daxil edilir]*

…………………………………………………………………………………………………

### 2. Maliyyə göstəricilərinin qiymətləndirilməsi

**Maliyyə göstəricilərinin qiymətləndirilməsi üçün meyarlar**

Təlimatın 31.2-cü bəndində sadalanan meyarlara əlavə olaraq aşağıdakı meyarlar tətbiq ediləcəkdir: *[Tətbiq olunduqda Təlimatın 31.2(c) bəndinə uyğun olaraq daxil edin; əks halda silin]*

…………………………………………………………………………………………………

## B. Uyğunluq göstəricilərinin qiymətləndirilməsi

| **Münasiblik və uyğunluq meyarları** | | | **Uyğunluq tələbləri** | | | | **Tələb olunan sənəd** |
|---|---|---|---|---|---|---|---|
| | | | | **Birgə fəaliyyət** | | | |
| **Sıra №-si** | **Mövzu** | **Tələblər** | **Fərdi** | ***Bütün üzvlər birlikdə*** [1] | ***Hər bir üzv ayrı-ayrılıqda*** | ***Bir üzv*** | |
| **1.** | ***İlkin tələblər*** | | | | | | |
| **1.1.** | **Maraqlar toqquşması** | Təlimatın 3.2-ci bəndinin tələblərinə cavab verməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)** |
| **1.2.** | **Dövlət mənsubiyyətinə görə məhdudlaşdırılma** | **Satınalma məlumat vərəqində (2)** göstərilən və (və ya) müəyyən edilən ölkələrdə qeydiyyatdan keçən qeyri-rezident təchizatçıların siyahısına daxil edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Qeydiyyat sənədi |
| **2.** | ***Ümumi tələblər*** | | | | | | |
| **2.1.** | **Təchizatçı haqqında** | Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | 1. Təchizatçı haqqında:<br>a. Təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti;<br>b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti;<br>c. birgə fəaliyyət göstərdikdə Təlimatın 3.4-cü bəndinə uyğun olaraq birgə fəaliyyətə dair |

[1] Bütün üzvlərin təqdim etdiyi göstəricilərin cəmi tələblərə tam cavab verməlidir.

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə [1]* | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | | | | | | müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu.<br>2. təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış<br>a. Hüquqi və fiziki şəxs olduqda **(FORMA 4)** və (və ya)<br>b. Birgə fəaliyyət olduqda 2 a bəndinə əlavə olaraq (**FORMA 5)**<br>3. Təlimatın 18.2-cü bəndinə uyğun olaraq təklifi imzalayan digər vəzifəli şəxs olduqda – etibarnamə.<br>4. Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış **(FORMA 7)** |
| **2.2.** | **Lisenziya və (və ya) icazə (tətbiq olunarsa)** | **(satınalma predmetinin icrası üçün zəruri olan və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növünü və tətbiq olunarsa konkret istiqaməti qeyd edin** *məs. Tikintisinə icazə tələb* | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Uyğun olmalıdı r | Lisenziya və (və ya) icazənin surəti |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | *olunan bina və qurğuların tikinti-quraşdırma xidmətləri – (a) xüsusi torpaq xidmətləri və (b) mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması xidmətləri*) | | | | | |
| **2.3.** | **Əmlakdan sərbəst istifadə** | Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublika-sının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasibətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)**, məlumat və təsdiqedici sənədlər |
| **2.4.** | **Müflislik** | Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahibkarlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| **Sıra №-si** | **Mövzu** | **Tələblər** | **Fərdi** | ***Bütün üzvlər birlikdə*** [1] | ***Hər bir üzv ayrı-ayrılıqda*** | ***Bir üzv*** | |
| **2.5.** | **Vergi və əmək qanunvericiliyi öhdəliyi** | Azərbaycan Respublikasında vergilər və digər icbari ödəniş xidmətləri üzrə vaxtı keçmiş öhdəliklərinin olması və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın olmaması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış |
| | | Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı xidmətlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının və ya inzibati cərimənin tətbiq edilməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Maliyyə sanksiyasına münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış |
| | | | | | | | İnzibati cəriməyə münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| **2.6.** | **Fəaliyyət qadağası** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.7.** | **Məhkumluq** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırılma | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | cinayətlərinə görə məhkum olunmaması | | | | | |
| **3.** | ***Xüsusi tələblər*** | | | | | | |
| **3.1.** | **Peşəkarlıq və təcrübə** | Satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının və təcrübəsinin olması, aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | Təchizatçının təcrübəsi barədə təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 6)**, məlumat və təsdiqedici sənədlər (təhvil-təslim və ya yekun təhvil-təslim aktları, elektron qaimə və s.).<br><br>*[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsində müəyyən edilən meyarlara uyğun hazırlanmış digər prosedurları daxil edin]* |
| **3.1.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsində müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | | | | | |
| **3.2.** | **İşçi qüvvəsi** | Müvafiq tələblərə cavab verən işçi qüvvəsinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: **(cari satınalma predmetinin icrası üçün tələb olunan əsas heyətin (a) vəzifələrini, (b) minimal say, (c) müvafiq akademik uyğunluq və (d) müvafiq sahədə minimal** | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 3)**, məlumat və təsdiqedici sənədlər |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət: *Bütün üzvlər birlikdə* [1] | Birgə fəaliyyət: *Hər bir üzv ayrı-ayrılıqda* | Birgə fəaliyyət: *Bir üzv* | |
| | | **təcrübə tələblərini siyahı olaraq daxil edin)** | | | | | |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | ... | ... | ... | ... | |
| **4.** | ***Digər tələblər*** | | | | | | |
| **4.1.** | *[Bu kateqoriya üzrə digər qiymətləndir-mə meyarları və prosedurları varsa bura əlavə edilir]* | | | | | | |

# IV BÖLMƏ. SATINALMA FORMALARI

## FORMA 1. Təklif məktubu

Təklifin təqdim olunma tarixi: **(tarixi daxil edin)**

Müsabiqə nömrəsi: **(müsabiqə nömrəsini daxil edin)**

Kimə: **(Satınalan təşkilatın adını daxil edin)**

Biz, aşağıda imza edənlər bəyan edirik ki:

**(a)** **qeyd-şərtin olmaması:** Təlimatın 8-ci hissəsinə müvafiq olaraq verilmiş əlavə və dəyişikliklər də daxil olmaqla (mövcud olduğu halda) şərtlər toplusu və onu təşkil edən sənədlər ilə tanış olduq, burada təsvir olunan xidmətin göstərilməsi haqqında tam məlumata malikik və bu sənədlərə heç bir qeyd-şərtimiz yoxdur;

**(b)** **münasiblik:** Təlimatın 3-cü hissəsində qeyd edilmiş tələblərə cavab veririk və maraqların toqquşması hallarının olmadığını təsdiqləyirik;

**(c)** **uyğunluq:** Biz ***(satınalma predmetini daxil edin)*** xidmətlərini şərtlər toplusunun tələblərinə və nəzərdə tutulmuş icra qrafikinə uyğun olaraq yerinə yetirməyi təklif edirik*;*

**(d)** **qiymət:** Tələb olunan xidmətləri bütün vergi və rüsumlar daxil olmaqla - dövlət satınalmalarının vahid internet Portalında göstərilən məbləğdə yerinə yetirməyi təklif edirik.

**(e)** **təklifin qüvvədə olma müddəti**: Təklifimiz dövlət satınalmalarının vahid internet Portalında göstərilən tarixə qədər qüvvədədir, bizim üçün məcburi xarakter daşıyır və bu müddətin bitməsindən öncə istənilən vaxt qəbul edilə bilə;

**(f)** **icra təminatı**: Bizim təklifimiz qəbul edildiyi təqdirdə şərtlər toplusunda qeyd edilən şərtlərdə icra təminatını təqdim edəcəyimizi öhdəmizə götürürük *(məbləği 30 000 manatdan az olan təklif təqdim etmiş təchizatçılar üçün tələb olunmur, bu bənd silinir)*;

**(g)** **hər təchizatçı bir təklif:** Biz fərdi təchizatçı kimi hər hansı digər təklif və ya təkliflər təqdim etmirik, birgə fəaliyyət üzvü və ya subpodratçı kimi hər hansı digər satınalma və ya satınalmalarda iştirak etmirik və Təlimatın 3.3-cü bəndinin tələblərinə cavab veririk;

**(h)** **qəbul etmək məcburiyyətinin olmaması**: Başa düşürük ki, siz ən aşağı qiyməti olan, ən səmərəli və ya digər istənilən təklifi qəbul etmək məcburiyyətində deyilsiniz;

**(i)** **əmlakdan sərbəst istifadə**: Müqavilənin icrası zamanı istifadə olunacaq əmlaklardan (daşınmaz əmlak və nəqliyyat vasitələri istisna olmaqla) sərbəst və məhdudiyyətsiz istifadə etmək hüququmuz var;

**(j)** **saxtakarlıq və korrupsiya:** Bizim üçün və ya bizim adımızdan hərəkət edən heç kimin heç bir formada saxtakarlıq və korrupsiya əməlləri törətməməsi üçün müvafiq tədbirləri görmüşük.

Təchizatçının adı: (təchizatçının adını daxil edin)

Təchizatçının VÖENİ: **(təchizatçının VÖEN-ini daxil edin)**

Təklifi təchizatçı adından imzalamaq səlahiyyəti olan şəxsin ad və soyadı:**(adı və soyadı daxil edin)**

Təklifi imzalayan şəxsin vəzifəsi: **(tam vəzifəni qeyd edin)**

İmzalanma tarix: **(tarixi daxil edin)**

# FORMA 2. Fəaliyyət cədvəli

| *Maddə №.* | *Xidmətlərin təsviri* | *İcra tarixi* | *Ölçü vahidi* | *Miqdar* | *Vahidin qiyməti* | *Cəm* |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | **Yekun cəm:** | ______ |

# FORMA 3. Təklif edilən əsas heyətin tərcümeyi-halı və bəyannaməsi

Təchizatçı <u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində sadalanan əsas işçi heyət tələblərinə cavab vermək qabiliyyətinə malik olduğunu aydın şəkildə nümayiş etdirmək üçün müvafiq məlumatı hər bir şəxs üçün ayrıca təqdim etməlidir. Bundan başqa, bütün vəzifələr üzrə cəlb ediləcək şəxslərin nəzərdə tutulan fəaliyyət müddətinə dair vaxt cədvəli detallı Qant diaqramı və ya bənzər digər cədvəl formasında təqdim edilməlidir.

<table>
<tr><td colspan="3">Təchizatçının adı: (təchizatçının adını daxil edin)</td></tr>
<tr><td colspan="3">Təklif edilən namizədin vəzifəsi: (<u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində nəzərdə tutulmuş vəzifəni daxil edin)</td></tr>
<tr><td>Məşğulluq dövrü</td><td colspan="2">(bu vəzifə öhdəliyi üzrə cəlb ediləcək şəxsin işə başlama və işi bitirmə tarixlərini daxil edin)</td></tr>
<tr><td>İş müddəti</td><td colspan="2">(bu vəzifə öhdəliyi üçün cəlb ediləcək şəxsin planlaşdırılan iş müddətini gün, həftə və ya ay olaraq daxil edin)</td></tr>
<tr><td rowspan="6">Heyət barədə məlumat</td><td>Adı və soyadı<br>(<u>Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III)</u> bölməsində nəzərdə tutulmuş vəzifəyə uyğun hesab edilərək təklif edilən namizədin ad və soyadını daxil edin)</td><td>Doğum günü:</td></tr>
<tr><td rowspan="2">Ünvan:</td><td>E-poçt:</td></tr>
<tr><td>Mobil nömrə:</td></tr>
<tr><td colspan="2">Peşəkar sertifikatları:</td></tr>
<tr><td colspan="2">Təhsili:</td></tr>
<tr><td colspan="2">Dil biliyi:<br>(dil, danışma, oxuma və yazma bacarıqlarının səviyyələri)</td></tr>
<tr><td rowspan="5">İş yeri barədə məlumat</td><td colspan="2">İşəgötürənin adı:</td></tr>
<tr><td colspan="2">İşəgötürənin ünvanı:</td></tr>
<tr><td colspan="2">Əlaqəli şəxsi (menecer / kadrlar şöbəsinin əməkdaşı):</td></tr>
<tr><td>Telefon:</td><td>E-poçt</td></tr>
<tr><td>Vəzifəsi</td><td>Hazırkı iş yerində çalışma müddəti</td></tr>
</table>

Peşəkar təcrübəni tərs xronoloji ardıcıllıqla ümumiləşdirin. Satınalma predmeti ilə əlaqəli xüsusi texniki və idarəetmə təcrübəsini göstərin.

| İş yeri/Layihə | Vəzifə | İş müddəti | Müvafiq təcrübə |
|---|---|---|---|
| *(İşəgötürən və ya layihənin əsas detalları)* | *(bu işdə vəzifə və öhdəlikləri)* | *(bu vəzifədə işləmə müddəti)* | *(qeyd olunan təcrübənin cari vəzifə öhdəliklərinə uyğunluğunu təsvir edin)* |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**İltizam**

Mən imza etməklə təsdiqləyirəm ki, bu **FORMA 3**-də verilən məlumatlar mənim ixtisasımı və təcrübəmi düzgün təsvir edir.

Mən təsdiq edirəm ki, yuxarıda qeyd edilən məşğulluq dövrü və iş müddətində işləmək üçün öhdəlik götürürəm.

Mən başa düşürəm ki, bu Formada məlumatların yanlış verilməsi, gizlədilməsi və ya verilməməsi təklifin qiymətləndirilməsində nəzərə alınaraq mənim satınalmadan, müqavilə bağlandıqda isə müqavilənin icrasından uzaqlaşdırılmağıma səbəb ola bilər.

**Namizədin adı və soyadı:*(adı və soyadı daxil edin*)**

İmza: ____________________________________________________________

Tarix: **(tarixi daxil edin)**

**Təchizatçının səlahiyyətli nümayəndəsinin adı və soyadı: (adı və soyadı daxil edin)**

İmza: ____________________________________________________________

Tarix:**(tarixi daxil edin)**

# FORMA 4. Təchizatçı haqqında

| |
|---|
| Təchizatçının adı: **(təchizatçının adını daxil edin)** |
| Birgə fəaliyyət göstərdikdə hər bir üzvün adı: **(hər bir üzvün hüquqi adını qeyd edin)** |
| Təchizatçının qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Təchizatçının təsis ili: **(ili qeyd edin)** |
| Təchizatçının hüquqi və faktiki ünvanları: **(ünvanı qeyd edin)** |
| Təchizatçının səlahiyyəti nümayəndəsi haqqında:<br>• Ad və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 5. Birgə fəaliyyət haqqında

*(tətbiq olunursa hər bir birgə fəaliyyət göstərən üzvü üçün ayrı-ayrılıqda doldurulur)*

| |
|---|
| Birgə fəaliyyət göstərənin adı: (təchizatçının adını daxil edin) |
| Birgə fəaliyyət göstərən üzvünün adı: **(üzvün hüquqi adını qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin üzvün qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün təsis ili: **(ili qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün faktiki və hüquqi ünvanı: **(ünvanı qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin səlahiyyətli nümayəndəsi haqqında:<br>• Ad və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

# FORMA 6. Oxşar xidmətlər üzrə təcrübə

| **Sıra №-si** | **Başlanma və bitmə tarixi** | **Satınalan təşkilat və əlaqə vasitələri** *(ünvanı, e-poçtu və telefonu)* | **Müqavilənin predmeti** | **İcra olunan xidmətlərin cari satınalma predmetinə bənzərliyinin təsviri** *(yeri, əsas komponentləri, miqdarları/ həcmləri və s.)* | **Müqavilənin məbləği** *(AZN ilə)* | **İcra vəziyyəti** *(davam edirsə tamamlanma faizi qeyd edilir)* | **Təchizatçının rolu** |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | (Təchizatçı, subpodratçı və ya birgə fəaliyyət üzvü) |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |
| 5. | | | | | | | |

# FORMA 7. Subpodratçılar haqqında məlumat

| **Sıra №-si** | **Subpodratçının hüquqi adı və VÖEN-i** | **Əlaqə vasitəsi** | **Həyata keçirəcəyi xidmətlərin təsviri** | **Müqavilə məbləğində payı (faizlə)** |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |
| 5. | | | | |

# (B) XİDMƏTLƏRƏ DAİR TƏLƏBLƏR

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar (satınalma predmetinin ətraflı təsviri, zəruri texniki və keyfiyyət xüsusiyyətləri, xidmətlərin göstəriləcəyi yer, qrafiki və s.) daxil edilir]*

# (C) SATINALMA MÜQAVİLƏSİ

*[Qanunun 38.15-ci maddəsinə əsasən xidmətlər üzrə satınalma müqaviləsinin nümunəvi formasi müvafiq qaydada doldurularaq əlavə edilir]*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 30 dekabr tarixli 503 nömrəli
Qərarı ilə **təsdiq edilmişdir.**

**11 nömrəli əlavə**

**(satınalma predmetini daxil edin)**

---

*(satınalma predmeti növünü seçin)*

BİR MƏNBƏDƏN SATINALMA METODU

ilə satın alınması üçün

# ŞƏRTLƏR TOPLUSU

SATINALAN TƏŞKİLAT: **(satınalan təşkilatın adını daxil edin)**

FƏRDİ DƏVƏT TARİXİ : **(fərdi dəvət tarixini daxil edin)**

# Bir mənbədən satınalma üçün dəvət

Tarix: **(tarixi daxil edin)**

Kimə: **(təchizatçının adını daxil edin)**

Satınalma predmeti: **(satınalma predmetini daxil edin)**

Hörmətli **(təchizatçının nümayəndəsinin adını daxil edin)**,

1. (satınalan təşkilatın adı) sizi 1 nömrəli əlavədə *(Satınalma predmetinə dair tələblər)* ətraflı təsvir edilən (satınalma predmeti növünü seçin) üçün dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun təklif təqdim etməyə dəvət edir.
2. Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunundan (bundan sonra – Qanun) və digər normativ hüquqi aktlardan ibarətdir.

**Malların və əlaqədar xidmətlərin uyğunluğu**

3. Müqavilə çərçivəsində Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçılar və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçılar tərəfindən malların (materialların, avadanlıqların və s.) təchiz edilməsinə və xidmətlərin göstərilməsinə yol verilmir. Satınalan təşkilatın tələbi ilə təchizatçılardan malların və xidmətlərin mənşəyinə dair sübut təqdim etmələri tələb oluna bilər.

**Təchizatçıların uyğunluğu**

4. Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici təchizatçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici təchizatçıların satınalmada iştirak etməsinə məhdudiyyətlər qoyulduğu hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident təchizatçı (fiziki şəxs, hüquqi şəxs, o cümlədən hüquqi şəxs yaratmadan birgə fəaliyyət aparmaq üçün hüquqi və (və ya) fiziki şəxslərin müqavilə əsasında yaratdığı müvəqqəti və ya daimi birliyi (bundan sonra – birgə fəaliyyət) daxil olmaqla) Azərbaycan Respublikasında keçirilən satınalmalarda iştirak edə bilər. Təchizatçı nizamnaməsi (və ya buna bərabər tutulan sənədləri) və ya qeydiyyat sənədləri ilə müəyyən olunduğu ölkənin qanunlarının müddəalarına uyğun olaraq yaradılmış, təsis edilmiş və ya qeydiyyatdan keçmiş və fəaliyyət göstərdiyi təqdirdə həmin ölkəyə mənsub hesab edilir. Müqavilənin hər hansı hissəsinin icrasına cəlb edilməsi təklif edilən subpodratçıların ölkə mənsubiyyəti bu meyar əsasında müəyyən edilir.
   a. (ölkələrin adlarını daxil edin və ya "tətbiq olunmur" qeyd edin)
5. Təchizatçının iştirak etdiyi satınalmada Qanunun 6.1-ci maddəsinə əsasən maraqlar toqquşması olmamalıdır *(Qanunun 6.1-ci maddəsindən çıxarış:*

*Təchizatçıların aşağıdakı hallarda (satınalma predmetinin yalnız hər hansı konkret təchizatçıda olduğu, yaxud satınalma predmetinin əvəzedicisi və alternativi olmadığı hallar istisna olmaqla) satınalmalarda iştirakına yol verilmir, bu hallar müəyyən olduqda satınalmadan kənarlaşdırılır:*

- *təchizatçının satınalan təşkilatdan və ya satınalan təşkilatla təchizatçının eyni qurumdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olduqda;*
- *satınalmada təchizatçı qismində çıxış edən fiziki şəxs və ya hüquqi şəxsin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsinə əsasən aidiyyəti şəxsi satınalan təşkilatın rəhbəri ilə qohumluq (ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürənlər, övladlığa götürülmüş şəxslər, babalar, nənələr, nəvələr, doğma (ögey) bacılar və qardaşlar, bacı və qardaşların övladları, bacıların ərləri, qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, ər-arvadların valideynləri, bacıları və qardaşları) münasibətində olduqda).*

6. Birgə fəaliyyət göstərmək istəyən təchizatçılar bu məqsədlə tərəflərin hər birinin imzaladığı müqaviləyə və ya müqavilə layihəsi əlavə edilməklə müqavilə bağlamaq barədə tərəflərin hər birinin imzaladığı niyyət məktubuna malik olmalıdır. Bu halda birgə fəaliyyət göstərmək istəyən tərəflərin hər birinin müqavilənin müqavilə şərtlərinə uyğun icrası üçün birgə və fərdi məsuliyyət daşıması və tərəflər arasındakı iş öhdəliklərinin bölgüsü barədə müddəalar birgə fəaliyyət müqaviləsinə və ya müqavilə layihəsinə daxil edilməlidir. Birgə fəaliyyət onun adından və tərəfləri üçün satınalmada iştirak və müqavilə bağlandıqda isə müqavilənin icrasını təmin etmək məqsədilə müvafiq səlahiyyətə malik nümayəndə təyin edir. Birgə fəaliyyətin üzvlərinin sayına məhdudiyyət qoyulmur / qoyulur - (birliyin üzvlərinin maksimal sayı:(tətbiq olunduğu sayı daxil edin).
7. Qanunun 16-cı maddəsi ilə tənzimlənən qaydada etibarsız təchizatçıların reyestrinə daxil edilmiş təchizatçıların müəyyən olunmuş müddətdə satınalmalarda iştirakına yol verilmir. Etibarsız təchizatçıların reyestri etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalında (bundan sonra – Portal) yerləşdirilir.

### İcra təminatı

8. Qalib təchizatçı 5 (beş) iş günü ərzində satınalma müqaviləsini imzalayır və satınalan təşkilata Qanuna əsasən tələb olunan icra təminatını təqdim edir. İcra təminatının məbləği satınalma müqaviləsinin ümumi məbləğinin 10 faizi (mikro və kiçik sahibkarlıq subyektlərinə münasibətdə 5 faizi) həcmində müəyyən olunur. İcra təminatının qüvvədə olma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda, zəmanət müddəti daxil olmaqla) 30 (otuz) iş günü çox olmalıdır

### Təklifin qüvvədə olma müddəti

9. Təklifinizin qüvvədə olma müddətini göstərin.

### Təklifin qiyməti

10. Təklifinizin aşağıdakı qaydada təqdim edilməlidir

*Təchizatçı iş həcmləri cədvəlində göstərilən bütün bəndlərə qiymət daxil etməlidir. Təchizatçı tərəfindən qiymət daxil edilməyən və həmin hissələrin əlavə ödənişsiz icra edilməsi ilə bağlı qeyd olan bəndlərin iş həcmləri cədvəlinə daxil edilən digər qiymətlərlə əhatə edildiyi qəbul ediləcəkdir. Hər hansı qeyd olmadan qiymət daxil edilməyən bəndləri olan təklif natamam hesab ediləcəkdir.*

*[aşağıdakılardan uyğun olanı seçin və ya yeni şərt daxil edin]*

(işlər və xidmətlər üçün)

*Təchizatçı tərəfindən müqavilə çərçivəsində və ya hər hansı digər səbəbə görə ödənilməli olan bütün rüsumlar, vergilər və digər tutulmalar təchizatçının təklif etdiyi qiymətdə nəzərə alınmalıdır.*

(mallar üçün)

Azərbaycan Respublikasının ərazisindən kənarda satın alınan malların göndərilməsinə dair tələblər Parisdə Beynəlxalq Ticarət Palatası tərəfindən nəşr edilən və qüvvədə olan "Ticarət terminlərinin təfsirinin beynəlxalq Qaydaları "Inkoterms 2020" şərtlərinə (İnkoterms şərtini daxil edin), Azərbaycan Respublikasının ərazisi daxilində malların göndərilməsinə dair tələblər və şərtlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq müəyyənləşdirilir (ölkə daxili çatdırılma şərtini daxil edin).

**Texniki təklif**

11. Təchizatçı *Satınalma predmetinə dair tələblər (Əlavə 1)* sənədində qeyd olunan tələblərə cavab verdiyini göstərmək və təklifinin yetərliliyini nümayiş etdirmək üçün kifayət qədər təfərrüatlı texniki təklif təqdim etməlidir.

**Təklifin təqdim olunması**

12. Təklifinizi (iş günlərinin sayını daxil edin) ərzində 2 nömrəli əlavədə *(Təklif məktubu)* verilmiş formadan istifadə etməklə (elektron poçt, Portal və ya digər vasitəni daxil edin) vasitəsilə təqdim etməyiniz xahiş olunur.
13. Təklifin təqdim olunacağı ünvan:

    Kimə: (tətbiq olunduğu halda əlaqədar şəxsin ad və soyadını qeyd edin)

    Elektron poçt və ya digər vasitə: (müvafiq məlumatı daxil edin)

**Müqavilə danışıqları və müqavilənin bağlanması**

14. Müqavilə danışıqların qənaətbəxş nəticələnməsi şərti ilə bağlanacaq.
15. Satınalma komissiyası satınalma müqaviləsi qüvvəyə mindiyi gündən 3 (üç) iş günü ərzində satınalan təşkilatın və müqaviləni bağlamış təchizatçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı), VÖEN-i, satınalma predmeti, satınalma metodu, müqavilənin məbləği və icra müddəti barədə Portalda məlumat yerləşdirir.

Satınalan təşkilatın adından:
Ad və soyadı:**(adı və soyadı daxil edin)**
Vəzifə: **(tam vəzifəni qeyd edin)**
İmza və möhür: **(imzanı, tətbiq olunduğu halda möhürü əlavə edin)**

**Qoşmalar:**

- Əlavə 1: Satınalma predmetinə dair tələblər
- Əlavə 2: Təklif məktubu
- Əlavə 3: Satınalma müqaviləsi

# ƏLAVƏ 1. SATINALMA PREDMETİNƏ DAİR TƏLƏBLƏR

*[Satınalan təşkilat tərəfindən müvafiq məlumatlar (satınalma predmetinin ətraflı təsviri, zəruri texniki və keyfiyyət xüsusiyyətləri (o cümlədən planlar, çertyojlar (cizgilər) və eskizlər), işlərin görülməsi yeri, qrafiki və s.) daxil edilir. Yalnız istehsal olunmuş mal partiyası üçün tətbiq olunan sertifikatların (məsələn uyğunluq, mənşə və s.), həmçinin şərtlər toplusunun tələblərinə uyğun hazırlanmış mallara dair nümunələrin təqdim olunması kimi şərtlərin tələblərə daxil edilməsinə yol verilmir (belə tələblər müqavilə şərtlərinə daxil edilə və ya şərtlər toplusunun tələblərinə bənzər xüsusiyyətdə istehsal olunmuş mallara Təchizatçı ilə razılaşdırılmış yerdə baxış keçirilə bilər)]*

# I BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ - UYĞUNLUQ MEYARLARI VƏ PROSEDURLARI

Bu bölmədə satınalma komissiyası tərəfindən təklifləri qiymətləndirmək və uyğunluq göstəricilərinə cavab verən təchizatçıları müəyyən etmək üçün bütün meyarlar qeyd edilib. Bu şərtlər toplusunda qeyd edilməyən heç bir meyar, amil və ya göstəricidən istifadə edilə bilməz. Təchizatçı tələb olunan bütün məlumatları Satınalma formaları (IV) bölməsinə daxil edilən formalardan istifadə edərək təqdim etməlidir.

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| 1. | ***İlkin tələblər*** | | | | | | |
| 1.1. | **Maraqlar toqquşması** | Təchizatçının uyğunluğu *(5-ci hissə) dövlət mənsubiyyətinə görə məhdudlaşma)* hissəsinin tələblərinə cavab verməsi | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış məktub **ƏLAVƏ 2** |
| 1.2. | **Dövlət mənsubiyyə-tinə görə məhdudlaşdı-rılma** | Müəyyən edilən ölkələrdə *(4-cü hissə)* qeydiyyatdan keçən qeyri-rezident təchizatçıların siyahısına daxil edilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Qeydiyyat sənədi |
| 2. | ***Ümumi tələblər*** | | | | | | |
| 2.1. | **Təchizatçı haqqında** | Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması | Uyğun olmalıdır | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | 1. Təchizatçı haqqında:<br>a. Təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti;<br>b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətna-məsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti; |

[1] Bütün üzvlərin təqdim etdiyi göstəricilərin cəmi tələblərə tam cavab verməlidir.

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | | | | | | c. birgə fəaliyyət göstərdikdə birgə fəaliyyətə dair müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu.<br>2. təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış<br>a. Hüquqi və fiziki şəxs olduqda **(FORMA 1)** və (və ya)<br>b. Birgə fəaliyyət olduqda 2 a bəndinə əlavə olaraq (**FORMA 2)**<br>3. Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış **(FORMA 6)** |
| **2.2.** | **Lisenziya və (və ya) icazə (tətbiq olunarsa)** | **(satınalma predmetinin icrası üçün zəruri olan və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə lisenziya tələb olunan fəaliyyət növünü və tətbiq olunarsa konkret istiqaməti qeyd edin** *məs. Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri – (a)* | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Uyğun olmalıdır | Lisenziya və (və ya) icazənin surəti |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| **Sıra №-si** | **Mövzu** | **Tələblər** | **Fərdi** | ***Bütün üzvlər birlikdə*** [1] | ***Hər bir üzv ayrı-ayrılıqda*** | ***Bir üzv*** | |
| | | *xüsusi torpaq işləri və (b) mühəndis-kommunikasiya və şəbəkələrinin qurulması işləri*) | | | | | |
| **2.3.** | **Əmlakdan sərbəst istifadə** | Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublika-sının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasibətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən arayış (Əlavə 2), məlumat və təsdiqedici sənədlər , |
| **2.4.** | **Müflislik** | Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahibkarlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |
| **2.5.** | **Vergi və əmək qanunvericiliyi öhdəliyi** | Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Bütün üzvlər birlikdə [1] | Hər bir üzv ayrı-ayrılıqda | Bir üzv | |
| | | üzrə vaxtı keçmiş öhdəliklərinin olması və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın olmaması | | | | | İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış |
| | | Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının və ya inzibati cərimənin tətbiq edilməsi | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Maliyyə sanksiyasına münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış<br>İnzibati cəriməyə münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilən arayış |
| 2.6. | **Fəaliyyət qadağası** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi | | | | | |
| **2.7.** | **Məhkumluq** | Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırılma cinayətlərinə görə məhkum olunmaması | Uyğun olmalıdır | Tətbiq olunmur | Uyğun olmalıdır | Tətbiq olunmur | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış |
| **3.** | ***Xüsusi tələblər*** | | | | | | |
| **3.1.** | **Peşəkarlıq və təcrübə** | Satınalma müqaviləsinin icrası üçün müvafiq | - | - | - | - | Təchizatçının təcrübəsi barədə təchizatçının özü tərəfindən |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| **Sıra №-si** | **Mövzu** | **Tələblər** | **Fərdi** | ***Bütün üzvlər birlikdə [1]*** | ***Hər bir üzv ayrı-ayrılıqda*** | ***Bir üzv*** | |
| | | sahədə peşəkarlığının və təcrübəsinin olması, aşağıda göstərilən tələblərə cavab verməsi: | | | | | hazırlanmış arayış **(FORMA 3)**, məlumat və təsdiqedici sənədlər (təhvil-təslim və ya yekun təhvil-təslim aktları, elektron qaimə və s.).<br><br>*[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsində müəyyən edilən meyarlara uyğun hazırlanmış digər prosedurları daxil edin]* |
| **3.1.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsində müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | | | | | |
| **3.2.** | **Maliyyə imkanı** | Satınalma müqaviləsinin icrası üçün maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: | - | - | - | - | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsində müəyyən edilən meyarlara uyğun hazırlanmış prosedurları daxil edin]* |
| **3.2.1.** | | *[Bu kateqoriya üzrə Qanunun 33.5-ci maddəsində müəyyən edilən meyarlara uyğun hazırlanmış meyarları daxil edin]* | ... | ... | ... | ... | |
| **3.3.** | **Texniki imkan** *(İşlər satın alınmadığı halda silinir)* | Texniki imkanlarının və maddi-texniki bazasının olması - aşağıda göstərilən tələblərə cavab verməsi:<br>**(cari satınalma predmetinin icrası üçün** | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 1)** və təsdiqedici sənədlər (nəqliyyat vasitəsinin, maşın mexanizminin qeydiyyat şəhadətnaməsi, icarə, lizinq müqaviləsi və s. ); |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| | | | | Birgə fəaliyyət | | | |
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | **tələb olunan (a) texnikaların növləri, (b) xüsusiyyətləri və (c) minimal say tələblərini siyahı olaraq daxil edin)** | | | | | |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir]* | ... | ... | ... | ... | |
| **3.4.** | **İşçi qüvvəsi** *(İşlər və xidmətlər satın alınmadığı halda silinir)* | Müvafiq tələblərə cavab verən işçi qüvvəsinin olması - aşağıda göstərilən tələblərə cavab verməsi: **(cari satınalma predmetinin icrası üçün tələb olunan əsas heyətin (a) vəzifələrini, (b) minimal say, (c) müvafiq akademik uyğunluq və (d) müvafiq sahədə minimal təcrübə tələblərini siyahı olaraq daxil edin)** | Uyğun olmalıdır | Uyğun olmalıdır | Tətbiq olunmur | Tətbiq olunmur | Təchizatçının özü tərəfindən hazırlanmış arayış **(FORMA 5)**, məlumat və təsdiqedici sənədlər |
| | | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları* | ... | ... | ... | ... | |

| Münasiblik və uyğunluq meyarları | | | Uyğunluq tələbləri | | | | Tələb olunan sənəd |
|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Mövzu | Tələblər | Fərdi | Birgə fəaliyyət | | | |
| | | | | *Bütün üzvlər birlikdə* [1] | *Hər bir üzv ayrı-ayrılıqda* | *Bir üzv* | |
| | | *və prosedurları varsa bura əlavə edilir]* | | | | | |
| **4.** | ***Digər tələblər*** | | | | | | |
| **4.1.** | *[Bu kateqoriya üzrə digər qiymətləndirmə meyarları və prosedurları varsa bura əlavə edilir.]* | | | | | | |

# II BÖLMƏ. SATINALMA FORMALARI

## FORMA 1. Təchizatçı haqqında

| |
|---|
| Təchizatçının adı: **(təchizatçının adını daxil edin)** |
| Birgə fəaliyyət göstərdikdə hər bir üzvün adı: **(hər bir üzvün hüquqi adını qeyd edin)** |
| Təchizatçının qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Təchizatçının təsis ili: **(ili qeyd edin)** |
| Təchizatçının hüquqi və faktiki ünvanları: **(ünvanı qeyd edin)** |
| Təchizatçının səlahiyyəti nümayəndəsi haqqında:<br>• Ad və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

## FORMA 2. Birgə fəaliyyət haqqında

*(tətbiq olunursa hər bir birgə fəaliyyət göstərən üzvü üçün ayrı-ayrılıqda doldurulur)*

| |
|---|
| Birgə fəaliyyət göstərənin adı: (təchizatçının adını daxil edin) |
| Birgə fəaliyyət göstərən üzvünün adı: **(üzvün hüquqi adını qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin üzvün qeydiyyat ölkəsi: **(ölkəni qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün təsis ili: **(ili qeyd edin)** |
| Birgə fəaliyyət göstərən üzvün faktiki və hüquqi ünvanı: **(ünvanı qeyd edin)** |
| Birgə fəaliyyət göstərənin səlahiyyətli nümayəndəsi haqqında:<br>• Ad və soyadı:**(adı və soyadı daxil edin)**<br>• Ünvanı: **(ünvanı qeyd edin)**<br>• Əlaqə nömrəsi: **(nömrəni qeyd edin)**<br>• E-poçt ünvanı: **(e-poçtu qeyd edin)** |

## FORMA 3. Oxşar satınalma predmeti üzrə təcrübə

| **Sıra №-si** | **Başlanma və bitmə tarixi** | **Satınalan təşkilat və əlaqə vasitələri** *(ünvanı, e-poçtu və telefonu)* | **Müqavilənin predmeti** | **Müqavilə predmetinin cari satınalma predmetinə bənzərliyinin təsviri** *(yeri, əsas komponentləri, miqdarları/ həcmləri və s.)* | **Müqavilənin məbləği** *(AZN ilə)* | **İcra vəziyyəti** *(davam edirsə tamamlanma faizi qeyd edilir)* | **Təchizatçının rolu** |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | (Təchizatçı, subpodratçı və ya birgə fəaliyyət üzvü) |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |
| 5. | | | | | | | |

## FORMA 4. Texniki baza

Təchizatçı Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində sadalanan əsas avadanlıq üçün tələblərə cavab vermək qabiliyyətinə malik olduğunu aydın şəkildə nümayiş etdirmək üçün müvafiq məlumatı təqdim etməlidir.

| Sıra №-si | Avadanlığın adı, istehsalçısı və modeli | İstehsal ili | Hazırkı yeri və məşğulluğu | Mülkiyyətçi | Mülkiyyətçinin adı, ünvanı, əlaqə məlumatları və icarə şərtləri *(əgər şəxsi deyilsə)* |
|---|---|---|---|---|---|
| 1. | | | (yeri, istifadədə və ya boşda olması qeyd edilir) | (Şəxsi, icarə, lizinq və ya xüsusi istehsal) | (cari satınalma predmeti çərçivəsində texnikanın icarə, lizinq və ya istehsalına dair detallar qeyd edilir) |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |
| 5. | | | | | |

## FORMA 5. Təklif edilən əsas heyətin tərcümeyi-halı və bəyannaməsi

Təchizatçı Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində sadalanan əsas işçi heyət tələblərinə cavab vermək qabiliyyətinə malik olduğunu aydın şəkildə nümayiş etdirmək üçün müvafiq məlumatı hər bir şəxs üçün ayrıca təqdim etməlidir. Bundan başqa, bütün vəzifələr üzrə cəlb ediləcək şəxslərin nəzərdə tutulan fəaliyyət müddətinə dair vaxt cədvəli detallı Qant diaqramı və ya bənzər digər cədvəl formasında təqdim edilməlidir.

<table>
<tr><td colspan="3">Təchizatçının adı: (təchizatçının adını daxil edin)</td></tr>
<tr><td colspan="3">Təklif edilən namizədin vəzifəsi: (Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulmuş vəzifəni daxil edin)</td></tr>
<tr><td>Məşğulluq dövrü:</td><td colspan="2">(bu vəzifə öhdəliyi üzrə cəlb ediləcək şəxsin işə başlama və işi bitirmə tarixlərini daxil edin)</td></tr>
<tr><td>İş müddəti:</td><td colspan="2">(bu vəzifə öhdəliyi üçün cəlb ediləcək şəxsin planlaşdırılan iş müddətini gün, həftə və ya ay olaraq daxil edin)</td></tr>
<tr><td rowspan="6">Heyət barədə məlumat<br><br>(dil, danışma, oxuma və yazma bacarıqlarının səviyyələri)</td><td>Adı və soyad:<br>(Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsində nəzərdə tutulmuş vəzifəyə uyğun hesab edilərək təklif edilən namizədin ad və soyadını daxil edin)</td><td>Doğum günü:</td></tr>
<tr><td rowspan="2">Ünvan:</td><td>E-poçt:</td></tr>
<tr><td>Mobil nömrə:</td></tr>
<tr><td colspan="2">Peşəkar sertifikatları:</td></tr>
<tr><td colspan="2">Təhsili:</td></tr>
<tr><td colspan="2">Dil biliyi:<br>(dil, danışma, oxuma və yazma bacarıqlarının səviyyələri)</td></tr>
<tr><td rowspan="5">İş yeri barədə məlumat</td><td colspan="2">İşəgötürənin adı:</td></tr>
<tr><td colspan="2">İşəgötürənin ünvanı:</td></tr>
<tr><td colspan="2">Əlaqəli şəxsi (menecer / kadrlar şöbəsinin əməkdaşı):</td></tr>
<tr><td>Telefon:</td><td>E-poçt</td></tr>
<tr><td>Vəzifəsi</td><td>Hazırkı iş yerində çalışma müddəti</td></tr>
</table>

Peşəkar təcrübəni tərs xronoloji ardıcıllıqla ümumiləşdirin. Satınalma predmeti ilə əlaqəli xüsusi texniki və idarəetmə təcrübəsini göstərin.

| İş yeri/Layihə | Vəzifə | İş müddəti | Müvafiq təcrübə |
|---|---|---|---|
| *(İşəgötürən və ya layihənin əsas detalları)* | *(bu işdə vəzifə və öhdəlikləri)* | *(bu vəzifədə işləmə müddəti)* | *(qeyd olunan təcrübənin cari vəzifə öhdəliklərinə uyğunluğunu təsvir edin)* |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**İltizam**

Mən imza etməklə təsdiqləyirəm ki, bu **FORMA 5**-də verilən məlumatlar mənim ixtisasımı və təcrübəmi düzgün təsvir edir.

Mən təsdiq edirəm ki, yuxarıda qeyd edilən məşğulluq dövrü və iş müddətində işləmək üçün öhdəlik götürürəm.

Mən başa düşürəm ki, bu Formada məlumatların yanlış verilməsi, gizlədilməsi və ya verilməməsi təklifin qiymətləndirilməsində nəzərə alınaraq mənim satınalmadan, müqavilə bağlandıqda isə müqavilənin icrasından uzaqlaşdırılmağıma səbəb ola bilər.

**Namizədin adı və soyadı:*(adı və soyadı daxil edin*)**

İmza: ______________________________________________________

Tarix: **(tarixi daxil edin)**

**Təchizatçının səlahiyyətli nümayəndəsinin adı və soyadı: (adı və soyadı daxil edin)**

İmza: ______________________________________________________

Tarix:**(tarixi daxil edin)**

## FORMA 6. Subpodratçılar haqqında məlumat

| S/S | Subpodratçının hüquqi adı və VÖEN-i | Əlaqə vasitəsi | Həyata keçirəcəyi işlərin təsviri | Müqavilə məbləğində payı (%) |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |
| 5. | | | | |

## ƏLAVƏ 2. TƏKLİF MƏKTUBU

Təklifin təqdim olunma tarixi: **(tarixi daxil edin)**
Kimə: **(Satınalan təşkilatın adını daxil edin)**

Hörmətli **(satınalan təşkilatın nümayəndəsinin adını daxil edin)**,

Biz, aşağıda imza edənlər bəyan edirik ki:

**(a)** **qeyd-şərtin olmaması:** Şərtlər toplusu və onu təşkil edən sənədlər ilə tanış olduq, burada təsvir olunan satınalma predmetinin icrası haqqında tam məlumata malikik və bu sənədlərə heç bir qeyd-şərtimiz yoxdur;

**(b)** **uyğunluq:** Təlimatın təchizatçıların uyğunluğu tələblərinə cavab veririk və maraqların toqquşması hallarının olmadığını təsdiqləyirik;

**(c)** **etibarsız təchizatçı:** Biz, müqavilənin hər hansı hissəsinin icrasına cəlb ediləcək subpodratçılarımız, məsləhətçilərimiz, malgöndərənlərimiz, istehsalçılarımız və ya digər xidmət göstərənlərimiz, o cümlədən bizi idarə edən hüquqi və ya fərdi şəxslər ilə birlikdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsi çərçivəsində etibarsız təchizatçılar reyestrinə daxil edilməmişik.

**(d)** **qiymət:** Tələb olunan işləri bütün vergi və rüsumlar daxil olmaqla **(məbləği rəqəmlə və sözlə daxil edin)** məbləğdə yerinə yetirməyi təklif edirik.

**(e)** **təklifin qüvvədə olma müddəti**: Təklifimiz **(tarixi daxil edin)** tarixinə qədər qüvvədədir, bizim üçün məcburi xarakter daşıyır və bu müddətin bitməsindən öncə istənilən vaxt qəbul edilə bilə;

**(f)** **icra təminatı**: Bizim təklifimiz qəbul edildiyi təqdirdə şərtlər toplusunda qeyd edilən şərtlərdə icra təminatını təqdim edəcəyimizi öhdəmizə götürürük;

**(g)** **qəbul etmək məcburiyyətinin olmaması**: Başa düşürük ki, siz ən aşağı qiyməti olan, ən səmərəli və ya digər istənilən təklifi qəbul etmək məcburiyyətində deyilsiniz;

**(h)** **əmlakdan sərbəst istifadə**: Müqavilənin icrası zamanı istifadə olunacaq əmlaklardan (daşınmaz əmlak və nəqliyyat vasitələri istisna olmaqla) sərbəst və məhdudiyyətsiz istifadə etmək hüququmuz var;

**(i)** **saxtakarlıq və korrupsiya:** Bizim üçün və ya bizim adımızdan hərəkət edən heç kimin heç bir formada saxtakarlıq və korrupsiya əməlləri törətməməsi üçün müvafiq tədbirləri görmüşük.

Təchizatçının adı: (təchizatçının adını daxil edin)

Təchizatçının VÖENİ: **(təchizatçının VÖEN-ini daxil edin)**

Təklifi təchizatçı adından imzalamaq səlahiyyəti olan şəxsin ad və soyadı:**(adı və soyadı daxil edin)**

Təklifi imzalayan şəxsin vəzifəsi: **(tam vəzifəni qeyd edin)**

İmzalanma tarix: **(tarixi daxil edin)**

**Qoşmalar:**

- 1) İş həcmləri cədvəli / qiymət cədvəli və ya fəaliyyət cədvəli
- 2) Texniki təklif

# 1) İş həcmləri cədvəli / qiymət cədvəli / fəaliyyət cədvəli

*[Satınalma predmetinin növünə görə aşağıdakı cədvəllərdən birini seçin]*

## a) İş həcmləri cədvəli *(işlər üçün)*

| ***Maddə №.*** | ***Təsvir*** | ***Ölçü vahidi*** | ***Miqdar*** | ***Vahidin qiyməti*** | ***Cəm*** |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | **Yekun cəm:** | ______ |

## b) Qiymət cədvəli *(mallar üçün)*

| ***Maddə №.*** | ***Malların və əlaqədar xidmətlərin (varsa) təsviri*** | ***Mənşə ölkəsi*** | ***Çatdırılma /icra tarixi*** | ***Ölçü vahidi*** | ***Miqdar*** | ***Vahidinin qiyməti*** | ***Cəm*** |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |
| | *Daşıma, rüsum vergi və digər xərclər* | - | - | cəm | 1 | | |
| | *Daşıma ilə əlaqədar xidmətlər xaric digər xidmətlər [varsa hər birini ayrı-ayrı sıralayın]* | | | | | | |
| | | | | | | **Yekun cəm:** | ______ |

## c) Fəaliyyət cədvəli *(xidmətlər üçün)*

| ***Maddə №.*** | ***Xidmətlərin təsviri*** | ***İcra tarixi*** | ***Ölçü vahidi*** | ***Miqdar*** | ***Vahidin qiyməti*** | ***Cəm*** |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | **Yekun cəm:** | ______ |

## 2) Texniki təklif

*Qiymətləndirmə-uyğunluq meyarları və prosedurları (III) bölməsinin tələblərinə uyğun olaraq təchizatçılar müqaviləni icra etmək imkanlarını göstərmək üçün Satınalma formaları (IV) bölməsinə daxil edilən müvafiq məlumat vərəqələrini təmin etməli, habelə Qanunun 23-cü maddəsinə əsasən təchizatçıların uyğunluq göstəricilərini təsdiq edən sənədlər təqdim etməlidir.*

*Bundan başqa Satınalma predmetinə dair tələblər sənədində qeyd olunan tələblərə cavab verdiyini göstərmək və təklifinin yetərliliyini nümayiş etdirmək üçün Satınalma formaları (IV) bölməsində nəzərdə tutulmuş hər hansı digər məlumat daxil olmaqla kifayət qədər təfərrüatlı texniki təklif təqdim etməlidir.*

# ƏLAVƏ 3.     SATINALMA MÜQAVİLƏSİ

*[Qanunun 38.15-ci maddəsinə əsasən işlər üzrə satınalma müqaviləsinin nümunəvi forması müvafiq qaydada doldurularaq əlavə edilir]*